SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD

# QURANİ-KƏRİMDƏ XİTABLAR

## DOQQUZUNCU CİLD

Bakı – 2014

**Seyyid Əliəkbər Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, “__________” nəşriyyatı, ____. 420 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor: Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Kitab Seyyid Əliəkbər Ocaq Nejadın “Qurani-Kərimdə xitablar” mövzusunda söylədiyi moizələr əsasında tərtib olunmuşdur.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin.............tarixli...........məktubuna əsasən çap olunmasına icazə verilmişdir.

# QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR
## (Üçüncü nümunənin davamı)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

# TƏQVANI GÜCLƏNDİRƏN AMİLLƏR
## (Qiyamət bəhsi)

Ötən bəhslərimizdə Qurani-Kərimdə Allahın möminlərə etdiyi xitablardan üçüncü nümunə olaraq “Ali-İmran” surəsinin 102-ci ayəsi haqda söhbət açdıq. Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək onların təqvalı olmalarını təkid edir. Həmçinin təqvanın faydaları və xüsusiyyətləri haqda da geniş söhbət etdik. Söhbətimiz bu yerə gəlib çatdı ki, görəsən, hansı amillər insanda təqvanı gücləndirir? Bununla bağlı biz bir neçə mühüm amillə də tanış olduq. Həmin amillərdən biri qiyaməti xatırlayıb yada salmaqdır. Deməli, qiyamətə imanı olan və həmişə onu xatırlayan insanlar təqvaya yaxınlaşmış olurlar. Amma əgər bir kəs ölümü, qiyaməti, qiyamət gününün məhkəməsini yaddan çıxarıb öz bildiyini etsə, həmin şəxsdə təqva ola bilməz. Təqva o insanlardadır ki, heç bir vaxt qiyaməti unutmurlar.

Əlavə olaraq qeyd edildi ki, bərzəx aləmi, qiyamət, cənnət və cəhənnəm insanın axirət dünyasına aid olduğu üçün bu mərhələ ölümdən sonra başlayır. Ölüm insan üçün bu dünyanın sonu və axirət dünyasının başlanğıcıdır. Ötən bəhslərimizdə Quran ayələrinə və hədislərə istinad

edərək insanın ölüm ayağında olarkən, yəni son anlarında keçirdiyi hisslər, onun gözünə görünənlər, ölümü insana asanlaşdıran və çətinləşdirən amillər, habelə insanın ölümdən qəbrədək olan mərhələləri və bərzəx aləmi barədə ətraflı danışdıq. Beləliklə, bərzəx aləmi barədə söhbətimizi tamamladıqdan sonra mövzumuzu qiyamət bəhsi ilə sona çatdıracağıq. İnsan bərzəx aləmindən keçdikdən sonra qiyamət səhnəsinə daxil olur. Əlbəttə, burada onu da qeyd etmək lazımdır ki, qiyamət və məad bəhsi çox geniş bir mövzudur. Lakin bu bəhsimizdə qiyamət barədə bir neçə mühüm mətləbə işarə etmək olar. Bu mətləblərin hər birini bir mərhələ kimi qəbul edərək onları qısa şəkildə diqqətinizə çatdırmaq istərdim.

## Məada inanmağın insanın iman və tərbiyəsinə təsiri

Qiyamət və məad bir həqiqətdir ki, bu həqiqət şəkk-şübhəsiz insanın təzkiyəsində, təqvasında, şərafətində, hidayət və tərbiyə olunmasında çox böyük rola malikdir. Bu əqidə son nəticədə insanın əməllərinin islah edilməsinə səbəb olur. Allah-təala Qurani-Kərimin "Kəhf" surəsinin 110-cu ayəsində belə buyurur:

فَمَن كَانَ يَرْجُو لِقَاء رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ أَحَدًا

-Buna görə də kimin (qiyamət günü dirilərək) öz Rəbbi ilə görüşə ümidi varsa, gərək əməllərini saleh etsin (yaxşı işlər görsün) və ibadətdə heç kəsi öz Rəbbinə şərik qoşmasın.

Rəvayətlərdə belə nəql olunur ki, günlərin birində İmam Həsən(ə) və İmam Hüseyn(ə) kiçik yaşlarında ikən

xəstələnmişdilər. Uşaqların sağalması üçün Həzrət Əli(ə) üç gün oruc tutmağı nəzir etdi. Xanım Fatimeyi Zəhra(s.ə) da buyurdu: "Mən də üç gün oruc tutmağı nəzir edirəm." İmam Həsən(ə) və İmam Hüseyn(ə) də nəzir etdilər ki, şəfa tapandan sonra hamımız birgə üç gün oruc tutacağıq. Beləcə, onlar nəzir etdikdən sonra uşaqlar şəfa tapdılar. Sağalandan sonra isə nəzir etdikləri orucu tutmağa başladılar. Birinci gün iftar vaxtı hamı iftar etmək üçün süfrə kənarında əyləşdi. Xanım Zəhra(s.ə) hərəyə bir çörək bişirmişdi. Elə iftar açmağa başlamaq istəyirdilər ki, birdən qapı döyüldü. Həzrət Əli(ə) qapını açdıqda bir şəxsin qapıda dayandığını gördü. Həmin şəxs dedi: "Salam olsun sizə, ey Məhəmmədin(s) Əhli-beyti. Mən miskin və yoxsul bir müsəlmanam. Yeməyə ehtiyacım var. Öz yeməyinizdən mənə də əta edin. Allah cənnətin nemət və süfrələrindən sizə mərhəmət etsin."

Həzrət Əli(ə) gəlib məsələni Xanım Zəhraya(s.ə) danışdı. Xanım Zəhra(s.ə) buyurdu: "Mən öz haqqımı həmin yoxsula verirəm." Həzrət Əli(ə) və uşaqlar da öz paylarını həmin yoxsula verdilər. Həmin gecəni isə onlar yalnız su ilə iftar edib yatdılar. Səhərisi gün onlar yenə də oruc tutdular. Həzrət Əli(ə) məsciddə namazını qılıb evə gəldi və hamı iftar süfrəsinə əyləşdi. İftar açmaq istəyərkən yenə də qapı döyüldü. Həzrət Əli(ə) qapını açdıqda başqa bir şəxsin qapıda dayandığını gördü. Həzrət(ə) onun nə istədiyini soruşduqda həmin şəxs dedi: "Salam olsun sizə, ey Məhəmmədin(s) Əhli-beyti. Mən yetim bir müsəlmanam. Mənə də öz yeməyinizdən əta edin." Həzrət Əli(ə) Xanım Zəhranın(s.ə) yanına gəlib onu da qapıda dayananın halından xəbərdar etdi. Ev sakinləri yenə də iftar edəcəkləri yeməyi həmin yetimə verdilər və o gecəni də yalnız su ilə iftar edib yatdılar. Üçüncü gecə iftar vaxtı yenə

də qapı döyüldü. Bu dəfə əsir bir şəxs yemək üçün onların qapısına gəlmişdi. Həmin gecə yenə də onlar öz yeməklərini o əsirə verib su ilə iftar etdilər. Beləcə, üç gecə onlar ac yatdılar. Hədislərdə belə nəql olunur ki, acından uşaqların rəngi saralmış və bədənləri titrəyirdi.

Bu hadisədən sonra Allah-təala "İnsan" (Dəhr) surəsinin aşağıdakı ayələrini nazil etdi:

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا. إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا. إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

-Və onlar yeməklərini özləri(nin ehtiyacı olub çox) istədikləri halda Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər. (Deyərlər:) Biz sizə Allah rizası üçün yemək veririk. Biz sizdən hər hansı bir mükafat və təşəkkür istəmirik. Həqiqətən, biz öz Rəbbimizdən, çox sərt, olduqca çətin, dəhşətli (və üzlərin tutulub qaralacağı) gündən qorxuruq.

Onlar öz yeməklərini yoxsula, yetimə və əsirə verərkən heç bir söz deməmişdilər. Allah-təala bu ayələrdə onların qəlblərindən keçən sözləri və niyyətləri hamıya bəyan edir. Quranın qeyd olunan ayələri onların qəlblərindən keçən sözlərdir. Çünki əgər bu sözlər onların dilindən səslənmiş olsaydı, o zaman Quranda bəyan edilməzdi. Bu sözlər onların ürəklərindən keçən niyyətlərdir ki, Allah-təala onları hamıya bəyan edir. Belə ki, onlar etdikləri yaxşılığın müqabilində heç bir kəsdən mükafat və ya təşəkkür istəmədilər. Onlar qiyamət gününün çətin və dəhşətli səhnəsindən qorxduqları üçün Allah yolunda həmin işi görmüşdülər. Yəni məhşər

gününün əzəmət və qorxusu onları bu işi görməyə vadar etmişdi. Onların ürəklərindəki qiyamət gününün çətinliyi və vəhşəti vadar etdi ki, çörəklərini yoxsula, yetimə və əsirə verərək özləri ac qalmağa razı olsunlar.

Beləliklə, yuxarıdakı ayələrdən açıq-aydın şəkildə görürük ki, qiyamət gününə inanmağın təsir və xüsusiyyəti insanı saleh və yaxşı işlər görməyə vadar edir.

Həzrət Talut(ə) Allahın peyğəmbərlərindən biridir və Quranda onun adı zikr olunmuşdur. Həzrət Talut(ə) insanları Allaha iman gətirməyə dəvət edirdi. Bir qrup insan ona iman gətirmişdi. Lakin həmin dövrdə Calut adlı zalım bir padşah da yaşayırdı. İş o yerə gəlib çatmışdı ki, Calut iman gətirənlərə zülm etməyə başlamışdı. Beləcə, möminlər imtahan və sınaq qarşısında qalmışdılar. Allah-təala Talut Peyğəmbərə(ə) Calutla mübarizə aparmaq əmrini verdi. Bu mübarizə gündən-günə daha da şiddətlənirdi. Bunu görən bir qrup iman gətirən Talut Peyğəmbərdən(ə) üz çevirib imanlarına dönük çıxdılar. Qalan möminlər isə iki dəstəyə bölündülər. Bir hissəsi Calut padşahın ordusunun, onun silah-sursatının çox olduğunu görüb mübarizəyə qatılmaqdan imtina etdilər. Onlar imandan çıxmadılar, lakin özlərini zəif hiss edib bu mübarizəyə qatılmadılar və evlərinə çəkildilər. Bu əhvalat “Bəqərə” surəsinin 249-cu ayəsində belə bəyan olunmuşdur:

قَالُواْ لاَ طَاقَةَ لَنَا الْيَوْمَ بِجَالُوتَ وَجُنودِهِ

-Onlar dedilər: “Bizim bu gün Calutla və onun qoşunu ilə qarşı-qarşıya gəlməyə taqətimiz yoxdur.”

Lakin imanlarında möhkəm olan ikinci dəstə saylarının az olmasına baxmayaraq, tutduqları hədəfdən dönmədilər. Allah-təala həmin ayədə onların sözlərini belə bəyan edir:

قَالَ الَّذِينَ يَظُنُّونَ أَنَّهُم مُّلاَقُو اللّهِ كَم مِّن فِئَةٍ قَلِيلَةٍ غَلَبَتْ فِئَةً كَثِيرَةً بِإِذْنِ اللّهِ وَاللّهُ مَعَ الصَّابِرِينَ

-Allaha qovuşacaqlarına inananlar (axirətə imanları olanlar) isə dedilər: "O qədər azsaylı dəstə Allahın köməyi ilə çoxsaylı dəstəyə qalib gəlib ki! Allah səbirlilərlədir."

Bu ayədən açıq-aydın şəkildə görürük ki, iman gətirənlərin birinci (mübarizəyə qatılmayan) dəstəsinin axirətə olan imanı ikinci dəstəsinin imanı kimi deyildir.

Bəzi təfsirlərdə yazırlar ki, bu ayədə işlənmiş « مُّلاَقُو اللّهِ» "Allaha qovuşmaq" ifadəsinin mənası qiyamət yox, şəhidlikdir. Çünki onların qiyamətə dərin imanları var idi. Bununla belə, bu yolda şəhid olacaqlarını da ehtimal edirdilər. Onlar ölümü həyatın sonu deyil, əksinə, yeni və gözəl bir həyatın başlanğıcı bildikləri üçün onu can-başla qarşılamağa hazır idilər. Beləcə, onlar bu qayda ilə nəyin bahasına olursa- olsun Calut padşahla mübarizə etməyi qarşılarına məqsəd qoydular, mübarizə apardılar və qələbə çaldılar.

## Məada inam ruhu sakitləşdirir

Qiyamətə, məhşər gününə və tərəzilərin qurulacağına inanmağın təsir və xüsusiyyətləri bunlardan ibarətdir ki, insanda ruh yaradar, insana təkan verər, insanın əxlaqını yüksəldər, əməllərini islah edər və əsasən insanın dünyadakı nigarançılıq və narahatlığını aradan qaldırar.

Ümumiyyətlə, dünyadakı bütün insanlar nigaran və narahat halda yaşayırlar. İnsana həmişə əzab verən, həyatını və əsəblərini korlayan ən mühüm məsələ onun nigarançılığıdır. Görəsən, insanın belə nigaran və narahat olmasının səbəbi nədir? Bunun əsas səbəbi odur ki, insan

keçmişinə və əldən buraxdığı firsətlərə, gələcəyinə və həyatının sonuna, eləcə də dostlarını və yaxınlarını, mal-dövlətini əldən verəcəyinə görə həmişə narahatdır. Məhz bu məsələlər insanı daim nigarançılıq və narahatçılıq içərisində saxlayır. Həmçinin tufan, sel, zəlzələ kimi müxtəlif gözlənilməz təbii hadisələrin baş verməsi ehtimalı da insanların rahatlığını pozur.

Alimlər belə qənaətə gəlmişlər ki, yaşadığımız dövrdə elmin bu qədər sürətlə inkişaf etməsinə baxmayaraq, insanın bu problemini (narahatçılıq və nigarançılıq) həll etmək hələ də mümkün olmayıb. Məsələn, tibb elminə nəzər saldıqda açıq-aydın şəkildə görürük ki, bu sahə kifayət qədər inkişaf etmişdir. Belə ki, hazırda insanın ürəyində, gözündə və digər orqanlarında müvəffəqiyyətlə cərrahiyyə əməliyyatları aparılır. Hətta ürək, böyrək və s. kimi insan orqanlarının köçürülməsi də mümkün olmuşdur. Bütün bu inkişaf və tərəqqiyə, habelə bir çox mühüm xəstəliklərin əlacının artıq mümkün olmasına baxmayaraq, tibb elmi hələ də insanın daxilindəki nigarançılığı aradan qaldırmaqda acizdir. Hələ heç bir vaxt görünməyib ki, tibb elmininköməkliyi sayəsində insanın daxilindəki bu nigarançılığı aradan qaldırmaq mümkün olsun. [1]

Donald Layt dünyada tanınmış və məşhur sosioloq alimlərdən biridir. Amerikada yaşayan bu alim illər öncə (təxminən otuz il bundan əvvəl) statistik məlumatlara istinad edərək belə demişdir: "Hazırda Amerikada beş yüz min nəfər intihardan nicat tapmış insan yaşayır. Yəni həmin insanlar ömürlərində bir dəfə intihara cəhd

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 411.

göstərmişlər və vaxtında müdaxilə olunmaqla nicat tapıb həyata qaytarılmışlar." Bu rəqəmdən bəlli olur ki, gör hələ Amerikada nə qədər insan intihar etmişdir ki, onlardan nicat tapanların sayı bu həddə çatır."[1]

İntihara cəhd göstərməyin səbəbi insanın həyatı puç bilməsi və öz aqibətinə inanmaması ilə bağlıdır. İnsanlar elə düşünürdülər ki, elm inkişaf etdikcə onların nigarançılıqları da aradan qalxar və ürəklərində bir arxayınçılıq yaranar. Amma bu ümidlər puça çıxdı və nigarançılıqlar, psixoloji xəstəliklər gündən-günə daha da çoxalmağa başladı. Nigarançılıq artdıqca isə insanlar çıxış yolunu tapmaq üçün alkoqollu içkilərə və narkotik maddələrə, eləcə də intihara üz tutdular. Bu hallar isə çox təəssüflər olsun ki, günbəgün artmaqda davam edir. Dünyanın hazırkı vəziyyəti belədir. Çünki çağdaş dünyamızda insanlar nigaran yaşayırlar və ürəklərində heç bir arxayınçılıq yoxdur. Bunun da, qeyd etdiyimiz kimi, ən ümdə səbəbi insanın öz aqibətinə inanmaması, hədəfsizlik və həyatın sonunu puç bilməsi, ölümün qorxusu və ürəyində olan yüzlərlə narahatedici düşüncələrdir. Amma Qurana müraciət etdikdə görürük ki, bir cümlə ilə insanın ürəyində sanki bir rahatlıq və təskinlik əmələ gəlir. Allah-təala "Yunis" surəsinin 62-64-cü ayələrində belə buyurur:

أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ... لَهُمُ الْبُشْرَى فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh.312.

-Bilin ki, şübhəsiz, Allahın dostları və yaxınları üçün nə bir qorxu var və (onlar) nə də qəmgin olarlar… Onlar üçün dünya həyatında və axirətdə müjdə vardır.

Odur ki, məad və qiyamətə inanmağın, habelə onları xatırlamağın insana ən mühüm təsiri onu günahlardan saxlaması və insanın islah edilməsinə səbəb olmasından ibarətdir. Bəzi alimlər deyirlər ki, Quranın hər dörd ayəsindən biri qiyamət və məad barəsindədir. Bəlkə də elə bir səhifə yoxdur ki, orada qiyamət haqda ya açıq şəkildə söz açılmasın, ya da bu məsələyə işarə olunmasın. Qiyamət məsələsi İslamda o qədər mühüm məsələdir ki, bu müqəddəs kitabdakı bir çox ayələrdə bunu danan və ya inkar edən şəxslərə qarşı əzab vəd edilmişdir. Məsələn, "Mursəlat" surəsində aşağıdakı ayə on dəfə təkrar olunmuşdur:

وَيْلٌ يَوْمَئِذٍ لِّلْمُكَذِّبِينَ

-O gün vay halına (qiyaməti) yalan sayanların!

Biz namaz qılarkən gündə ən azı on dəfə "Həmd" surəsini oxuyuruq. "Həmd" surəsi çox əzəmətli bir surədir və Qurani-Kərimin mündəricatı hesab olunur. Bu mübarək surədə Allah-təalanın əzəmət və xüsusiyyətlərindən söz açıldıqdan sonra belə buyurulur:

مَالِكِ يَوْمِ الدِّينِ

-Haqq-hesab (qiyamət) gününün sahibi!

Yəni qiyamətin adı və Allahın həmin günün sahibi olduğu bəyan edilir. Deməli, belə çıxır ki, namaz da bir növ insana qiyaməti xatırladır. Qiyamət günü elə əzəmətli bir gündür ki, Quranda onun üçün yetmiş ad bəyan olunmuşdur.

## Qiyaməti xatırlamaq ibrətlə yanaşı olmalıdır

Burada incə bir məqama da diqqət yetirmək lazımdır ki, insan qiyamət gününü xatırladıqda gərək ibrət də götürsün. Bu barədə Həzrət Peyğəmbər(s) və məsum imamlarımızdan bir çox rəvayətlər nəql olunmuşdur. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək:

-İmam Sadiq(ə) buyurur: "İmam Hüseyn(ə) ölümü, qiyaməti, sirat körpüsündən keçməyi, qiyamət günü Allah məhzərində dayanacağını xatırlayarkən bəzən o qədər ağlayardı ki, axırda huşu gedərdi."

Qeyd olunduğu kimi, qiyamətə inanmağın müsbət təsirlərindən biri budur ki, insan hətta kiçik xəta və günahlardan da uzaqlaşır.

İmam Səccad(ə) 20, yaxud 22 dəfə Mədinədən Məkkəyə (Həcc ziyarətinə) getmişdi. Bəzən piyada, bəzən isə dəvə ilə səfərə çıxırdı. Piyada səfərə çıxdıqda da dəvəsi yanında olardı. Yazırlar ki, Həzrət(ə) bircə dəfə də olsun heyvana qamçı vurmamışdı. Bəzən dəvə yeriməyəndə İmam(ə) əlini yuxarı qaldırar və heyvan da ona qamçı dəyəcəyini başa düşüb hərəkət edərdi. Bu zaman İmamdan(ə) soruşardılar: "Ey Allahın höccəti, nə üçün dəvəni qamçı ilə vurmursan?" Həzrət(ə) isə buyurardı:

لَولا خَوفُ القِصَاص لَفَعَلتُ

-Əgər (qiyamət günü) bunun qisasının qorxusu olmasaydı, vurardım.[1]

قَالَ عَلِيٌّ(ع): طُوبى لِمن ذَكَر الْمَعاد فَاستَكثر مِن الزّاد

-Həzrət Əli(ə) buyurur: "Xoş o kəsin halına ki, məadı xatırlayıb bu uzun səfər üçün çoxlu azuqə götürsün."

---

[1] Dəh qərinə, səh.15.

Odur ki, insanın qiyamət gününə inamı çoxaldıqca, bir o qədər də günahdan uzaqlaşar və axirəti üçün tədarük görər. Qiyamət gününə inanmaq dünyada insanın qəlbinə sakitlik və rahatlıq bəxş edər. Çünki bu iman insanı günahlardan çaxlamağa və yaxşı işlər görməyə vadar edir.

**Harisə ibn Malik**

Harisə ibn Malik Həzrət Peyğəmbərin(s) ən cavan və yaxın səhabələrindən biri idi. Günlərin birində Həzrət Peyğəmbər(s) sübh namazından sonra səhabələrlə birgə məsciddə əyləşmişdi. Elə bu zaman Harisənin əhvalı Həzrət Peyğəmbərin(s) diqqətini cəlb etdi. Onun rəngi saralmış və halı pərişan idi. Həzrət Peyğəmbər(s) ona yaxınlaşıb soruşdu:

كَيْفَ أَصْبَحْتَ؟

قَالَ أَصْبَحْتُ يَا رَسُولَ اللَّهِ مُوقِناً

فَعَجِبَ رَسُولُ اللَّهِ (ص) مِنْ قَوْلِهِ وَ قَالَ: إِنَّ لِكُلِّ يَقِينٍ حَقِيقَةً فَمَا حَقِيقَةُ يَقِينِكَ؟

فَقَالَ: إِنَّ يَقِينِي هُوَ الَّذِي أَحْزَنَنِي وَأَسْهَرَ لَيْلِي وَأَظْمَأَ هَوَاجِرِي فَعَزَفَتْ نَفْسِي عَنِ الدُّنْيَا وَمَا فِيهَا حَتَّى كَأَنِّي أَنْظُرُ إِلَى عَرْشِ رَبِّي وَقَدْ نُصِبَ لِلْحِسَابِ وَحُشِرَ الْخَلائِقُ لِذَلِكَ وَأَنَا فِيهِمْ وَكَأَنِّي أَنْظُرُ إِلَى أَهْلِ الْجَنَّةِ يَتَمَتَّعُونَ فِي الْجَنَّةِ... وَكَأَنِّي أَنْظُرُ إِلَى أَهْلِ النَّارِ وَهُمْ فِيهَا مُعَذَّبُونَ... وَكَأَنِّي الآنَ أَسْمَعُ زَفِيرَ النَّارِ يَدُورُ فِي مَسَامِعِي

فَقَالَ رَسُولُ اللَّهِ(ص) لأَصْحَابِهِ: هَذَا عَبْدٌ نَوَّرَ اللَّهُ قَلْبَهُ بِالإِيمَانِ

ثُمَّ قَالَ لَهُ: الْزَمْ مَا أَنْتَ عَلَيْهِ

فَقَالَ: ادْعُ اللَّهَ لِي يَا رَسُولَ اللَّهِ أَنْ أُرْزَقَ الشَّهَادَةَ مَعَكَ

فَدَعَا لَهُ رَسُولُ اللَّهِ(ص) فَلَمْ يَلْبَثْ أَنْ خَرَجَ فِي بَعْضِ غَزَوَاتِ النَّبِيِّ (ص) فَاسْتُشْهِدَ بَعْدَ تِسْعَةِ نَفَرٍ وَكَانَ هُوَ الْعَاشِرَ

-Gecəni necə keçirmisən?

Harisə dedi: "Ya Rəsulallah, mən gecəni Allaha tam yəqinliklə səhərə çatdırdım."

Həzrət(s) buyurdu: "Hər yəqinliyin bir həqiqəti vardır. Bəs sənin yəqinliyinin həqiqət və əlaməti nədir?"

Harisə dedi: "Ya Rəsulallah, mənim yəqinliyimin əlaməti budur ki, yəqinlik məni qəmgin edib və gecələr yatmağa qoymur. Gündüzlər isə (oruc tutmaqla) məni ac saxlayıb. Məni bu dünyaya rəğbətsiz və meyilsiz edib. Dünyanın ləzzətində, mal-dövlətində əsla gözüm yoxdur. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil Allahın ərşini gözlərimlə görürəm. Elə bil qiyamət gününün qopduğunu, camaatın hesab-kitab çəkmək üçün məhşər ayağına gəldiyini və özümün də onların içərisində olduğumu görürəm. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil cənnət əhlinin cənnətdə ləzzətli nemətlərdən bəhrələndiklərini və çəkdikləri kefi öz gözlərimlə görürəm. Cəhənnəm əhlinin də cəhənnəmdə necə əzaba düçar olub nalə etdiklərini eşidirəm."

Həzrət Peyğəmbər(s) üzünü səhabələrə tutaraq buyurdu: "Bu elə bir bəndədir ki, Allah onun qəlbini imanla nurani edib."

Sonra isə Həzrət(s) üzünü ona tərəf tutub buyurdu: "Sən həmişə bu halı özündə saxlamağa çalış."

Harisə dedi: “Ya Rəsulallah, dua et Allah mənə şəhidlik nəsib etsin.”

Həzrət Peyğəmbər(s) onun üçün dua etdi və bu hadisədən az bir müddət keçdikdən sonra döyüşlərin birində doqquz nəfər şəhid olduqdan sonra o, onuncu şəhid oldu.[1]

Qiyamətə inanmaq insanın gələcəyə qarşı ürəyində olan nigarançılığı aradan qaldırır. Çünki belə bir insan bir gün Allahın hüzurunda dayanacağını tam yəqin bildiyindən bu dünyada günahlardan uzaqlaşır və axirəti haqda düşünür. Ölüm gəldikdə isə sevinərək ölümü razılıqla qarşılayır. Həzrət Əlinin(ə) ibadət mehrabında başına qılınc zərbəsi dəyən kimi belə buyurdu: “And olsun Kəbənin Rəbbinə ki, rahat oldum.”

**Həzrət İbrahim(ə) və Maryanın əhvalatı**

Həzrət İbrahim Peyğəmbərin(ə) zamanında Marya adında təqvalı, abid və uzunömürlü bir kişi yaşayırdı. Günlərin birində Həzrət İbrahim(ə) səyahətə çıxmışdı. Yolda həmin abidlə rastlaşdı və onun əxlaqından, rəftar və xasiyyətindən xoşu gəldi. Həzrət İbrahim(ə) onunla yanaşı oturub dünyanın faniliyi, ölümün çətinliyi və qiyamət gününün əzabı barədə söhbət etməyə başladı.

Həzrət İbrahim(ə) soruşdu: “İnsan üçün ən çətin gün hansı gündür?”

Marya dedi: “Hesab-kitaba çəkiləcəyi qiyamət günü.”

Həzrət İbrahim(ə) buyurdu: “Elə isə gəl həm özümüzün, həm də digər möminlərin qiyamət əzabından

[1] Üsuli-kafi, 3-cü cild, səh.89.

nicat tapmasından ötrü Allaha dua et və mən də "Amin!" deyim."

Marya Həzrət İbrahimi(ə) tanımadığı üçün dedi: "Mənim etdiyim dua qəbul olmaz. Gəl sən dua et, mən də amin deyim. Çünki üç ildir ki, Allaha dua edirəm. Amma Allah hələ də duamı müstəcab etməyib."

Həzrət İbrahim(ə) soruşdu: "Allahdan istəyin nədir?"

Marya dedi: "Üç ildir Allahdan istəyirəm ki, mənə Öz xəlili olan Həzrət İbrahimin(ə) ziyarətini nəsib etsin. Bu günə qədər hələ də duam müstəcab olmayıb."

Həzrət İbrahim(ə) özünü ona təqdim edərək buyurdu: "Allah bu gün sənin duanı qəbul edib. Buna görə də mən səninlə oturub söhbət edirəm."

Marya bu sözləri eşidən kimi çox sevindi və səcdəyə düşüb Allaha şükür etdi. Həzrət İbrahim(ə) oradaca belə dua etdi: "İlahi, Səni izzət və cəlalına and verirəm ki, bizə, eləcə də bütün imanlı kişilərə və qadınlara qiyamət gününün çətinlik və əzabından nicat ver."

Marya Həzrət İbrahimin(ə) bu duasına amin dedi.[1]

Odur ki, əgər insan qiyamətə qəlbən iman gətirsə, dünyada etdiyi hər bir əməlin onun qarşısına qoyulacağına inansa, o zaman Allahla səmimi münasibətdə olar, günahlardan çəkinər, Allahın buyurduqdarına riayət edər və axirət azuqəsi toplayar. Belə olduqda qəlbində gələcəyə, ölümə və aqibətinə qarşı heç bir nigarançılıq və narahatlıq qalmaz. Qiyamətə inam insanın ruhunda nuraniyyət yaradır. Ruhunda nuraniyyət olan bir insan bu dünyada heç nədən qorxmaz və gələcəyinə görə də nigaran olmaz.

---

[1] Dəh qərinə, səh.50.

# QİYAMƏTİN MƏRHƏLƏLƏRİ
# BİRİNCİ MƏRHƏLƏ
## Surun (şeypurun) çalınması

Qeyd olundu ki, qiyamətin müxtəlif mərhələləri vardır. Bu mərhələlər barədə kifayət qədər danışmaq olar. Lakin burada həmin mərhələlərdən ən mühümlərini diqqətinizə çatdırmaq istəyirəm. Quran ayələrinə əsasən qiyamətin ən birinci mərhələsi surun (şeypurun) çalınmasıdır. Yəni bu şeypurun çalınması yer və göy əhlindən ötrü qiyamət gününün başlanması ilə bağlı bir xəbərdarlıqdır. Belə ki, sur çalınan kimi həm torpaq altında dəfn olunmuş, həm də həyatda olan insanlar üçün qiyamət başlanacaqdır. Allahın əmri ilə həmin şeypuru çalmaq bir mələyin öhdəsinə düşür. Qurani-Kərimdə bu sur barəsində on ayədə söz açılmışdır. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək:

Allah-təala "Yasin" surəsinin 51-ci ayəsində belə buyurur:

وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُمْ مِنَ الْأَجْدَاثِ إِلَىٰ رَبِّهِمْ يَنْسِلُونَ

-Sur çalınan kimi (qiyamət günü) qəbirlərindən qalxıb sürətlə Rəbblərinin hüzuruna axışacaqlar.

"Möminun" surəsinin 101-ci ayəsində belə oxuyuruq:

فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءَلُونَ

-Sur çalınacağı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birilərindən hal-əhval tutarlar. (Qiyamət günü heç bir qohumluq fayda verməz, qohumlar bir-birini tanımaz; hərə öz hayında olar).

"Kəhf" surəsinin 99-cu ayəsində buyurulur:

وَنُفِخَ فِي الصُّورِ فَجَمَعْنَاهُمْ جَمْعًا

-Sur çalınan kimi onların (məxluqatın) hamısını bir yerə cəm edərik.

Bundan əlavə, Quranda surun çalınması "səyhə", "saxxə" kimi müxtəlif ibarələrlə bəyan olunmuşdur. Məsələn, "Əbəsə" surəsinin 33-36-cı ayələrində belə oxuyuruq:

فَإِذَا جَاءَتِ الصَّاخَّةُ. يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ. وَأُمِّهِ وَأَبِيهِ.وَصَاحِبَتِهِ وَبَنِيهِ

-Nəhayət, qulaqları kar edən (o dəhşətli səs) gələndə (İsrafil surunu çalanda); O gün insan qaçacaq öz qardaşından; Anasından və atasından; Zövcəsindən və oğullarından!

Bu ayədəki "saxxə" - "Qulaqları kar edən dəhşətli səs" ifadəsi ilə həmin şeypurun səsinə işarə olunur. Ayədəki digər bir incə məqam da ananın adının atanın adından əvvəl çəkilməsidir. Digər ayələrə diqqət yetirdikdə isə, valideynlər barədə söz açılarkən ilk növbədə atanın, sonra isə ananın adı çəkilir. Amma bu ayədə ilk növbədə ananın adı çəkilmişdir. Bunun səbəblərindən biri budur ki, harada ananın adı çəkilirsə, deməli orada mehr-məhəbbət vardır. Yəni, adətən, ananın övlada olan məhəbbəti atanın məhəbbətindən daha çox olur. Bu ayədə ona işarə olunur ki, həmin dəhşətli səs gəldikdə (qiyamət başladıqda) insan hətta ən çox məhəbbət bəslədiyi şəxslərdən də qaçacaqdır. Həmin günün dəhşət və qorxusundan bütün qohumluq əlaqələri və münasibətləri, eləcə də qarşılıqlı məhəbbət hissləri yaddan çıxacaqdır. O gün hər kəs öz hayında olacaq.

Digər bir ayədə həmin günün adı “Əl-Qariə” kəlməsi ilə ifadə olunmuşdur. «قارِعة» “Qariə” «قَرَعَ» “qərəə” sözündən götürülüb və “döyəcləmək” mənasını ifadə edir. « الْقَارِعَةُ» - “Əl-Qariə” başı döyəcləyən günə deyilir. Allah-təala bu surənin əvvəlində belə buyurur:

الْقَارِعَةُ. مَا الْقَارِعَةُ. وَمَا أَدْرَاكَ مَا الْقَارِعَةُ يَوْمَ. يَكُونُ النَّاسُ كَالْفَرَاشِ الْمَبْثُوثِ

-(Başı) döyəcləyən gün. Nədir o döyəcləyən gün?! Və sən nə bilirsən ki, o döyəcləyən gün? O gün insanlar kəpənək kimi (ətrafa) səpələnəcəklər.

Bu ayələr həmin günün dəhşət və əzəmətindən xəbər verir. Həcc ziyarətində ərəfə günü azacıq da olsa həmin əzəməti insanlara xatırladır və bu ayələr insanların yadına düşür. Ərəfatın bircə vacib əməli vardır və bu, Həccin rüknlərindən biridir. Belə ki, hər kəs bilərəkdən, yaxud bilməyərəkdən həmin əməli yerinə yetirməsə, onun Həcc ziyarəti batildir. Buradan görürük ki, Ərəfat çox mühümdür. Ərəfatın əməli isə ərəfə günü (Qurban bayramı günündən bir gün qabaq) günorta azanından şam azanına qədər orada qalmaqdır. Həmin müddətdə kimisi ibadət edir, kimisi yatır, kimisi də əyləşib şam azanını gözləyir, yəni bunun heç bir fərqi yoxdur. Bu zaman ən əsas əməl orada qalmaqdır. Şam azanı olan kimi hamı Məşərə axışır. Əlbəttə, şam namazını gedib Müzdələfədə qılmaq müstəhəbdir. Odur ki, Ərəfatda şam azanı deyilən zaman hamı bir nəfər kimi ağ kəfənlə Müzdələfəyə axışır. Bu mənzərə insana sanki qiyamət və məhşər səhnəsini xatırladır. Lakin buna baxmayaraq qiyamətin əzəməti və vəhşəti çox böyükdür. Qiyamətlə Ərəfatı müqayisə etsək, bu, sanki böyük bir dəryanın qarşılığında bircə damla su

kimidir. Hər bir halda Həccin bu əməli insana qiyamət mənzərəsini xatırladır.

Odur ki, qiyamətin ilk mərhələsi şeypurun çalınması ilə başlanacaq. Bəzi hədislərdə də həmin şeypur barəsində söz açılmışdır. Məsələn,

قَالَ رَسُولُ اللهِ(ص): اَلصُّور قَرَنٌ مِن نورٍ فِيهِ أَثقَابٌ عَلى عَدَدِ أَرواحِ العِبَاد

-Həzrət Peyğəmbər(s) buyurur: "O sur (nurdan olan) buynuzabənzər elə bir şeypurdur ki, üzərində bütün bəndələrin ruhlarının sayı qədər dəlik var. (Həmin şeypurun hər bir dəliyindən hər bir insanın qulağına səs çatacaq.)"[1]

Burada qarşıya yenə də belə bir sual çıxır: Görəsən, ümumilikdə bu sur neçə dəfə çalınacaq? Bəzi alimlər iki dəfə, bəzi təfsir alimləri isə Quran ayələrinə istinad edərək surun üç dəfə çalınacağını bildirmişlər. Həmin ayələrə diqqət yetirək:

**1. Hamını qorxuya salan səs**

Surun birinci dəfə çalınması ilə göylərdə və yerdə olan bütün məxluqatın hamısı vəhşət və qorxuya düşər. Bu barədə "Nəml" surəsinin 87-ci ayəsində belə oxuyuruq:

وَيَوْمَ يُنْفَخُ فِي الصُّورِ فَفَزِعَ مَنْ فِي السَّمَاوَاتِ وَمَنْ فِي الْأَرْضِ إِلَّا مَنْ شَاءَ اللَّهُ ۚ وَكُلٌّ أَتَوْهُ دَاخِرِينَ

-Sur çalınacağı gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşərlər və onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələrlər.

[1] Dəh qərinə, səh.50.

Bu ayədə bəyan olunur ki, surun çalınması ilə bütün məxluqat qorxuya düşəcək. Amma bu qorxudan amanda qalan müstəsna kəslərin olduğu da qeyd edilir.

**2. Hamını öldürən səs**

Surun ikinci dəfə çalınması qiyamət günündən əvvəl bütün canlıların həlak olması ilə nəticələnəcək. Bu səs hər bir kəsin qulağına çatdıqda hamının ruhu bədənindən ayrılacaqdır. "Zumər" surəsinin 68-ci ayəsində buyurulur:

وَنُفِخَ فِي الصُّورِ فَصَعِقَ مَنْ فِي السَّمَاوَاتِ وَمَنْ فِي الْأَرْضِ إِلَّا مَنْ شَاءَ اللَّهُ

-Sur çalınacaq. Allahın istədiyi kəs istisna olmaqla, göylərdə və yerdə olan hər bir kəs həlak olacaq.

Bu ayədə açıq-aydın şəkildə görürük ki, surun bu dəfə çalınması ilə bütün canlılar öləcəkdir. Həmin ayədə yenə də müstəsna kəslərin olduğu bəyan edilir. Ayədə işlənmiş "illa mən şaəllah" ("Allahın istədiyi kəsdən başqa") ifadəsindən məlum olur ki, surun bu dəfə çalınması zamanı müstəsna kəslər ölməyəcəkdir.

Burada hamı üçün maraqlıdır ki, görəsən, həmin müstəsna kəslər kimlərdir? Hədislərdə bu ayələrin şərhində həmin kəslər haqda da söz açılmışdır. Nümunə üçün həmin hədislərdən birini diqqətinizə çatdırıram.

İmam Sadiq(ə) buyurur: "Bütün canlılar öldükdən sonra bir neçə mələk qalacaqdır. Onlardan biri Mikayıl, biri Cəbrayıl, biri İsrafil və biri də Əzrayıldır. Uzun bir müddətdən sonra

Mikayıl öləcək. Yenə də uzun bir müddətdən sonra Cəbrayıl, sonra İsrafil və axırda da Əzrayılın özü öləcəkdır."[1]

Hamı öldükdən sonra Allah-təala yerə və göyə nəzər salaraq belə buyurur: "Haradadır Mənim üçün şərik qərar verib, hakimlik iddiası edənlər?! Haradadır özlərini dünyanın sahibi bilənlər?!"

"Ğafir" surəsinin 16-cı ayəsində Allah-təala belə buyurur:

لِّمَنِ الْمُلْكُ الْيَوْمَ

-Bu gün mülkiyyət və hakimiyyət kimə məxsusdur?

"Yusif" surəsinin 39-cu ayəsində belə cavab verilir:

لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ

-Tək və qüdrətli olan Allaha məxsusdur. [2]

**3. Hamını dirildən səs. (Qiyamətin suru)**

Surun bu dəfə çalınması ilə bütün ölənlərin hamısı diriləcək və məhşər səhnəsinə axışacaqlar. Bu haqda yenə də "Zumər" surəsinin 68-ci ayəsində oxuyuruq:

ثُمَّ نُفِخَ فِيهِ أُخْرَىٰ فَإِذَا هُمْ قِيَامٌ يَنْظُرُونَ

-Sur ikinci dəfə çalındıqda isə hamı dirilib qalxacaq və Allahın əmrini gözləyəcəklər.

Yəni həm qiyamətdən qabaq surun çalınması ilə həlak olanlar, həm də ondan öncə ölüb torpağa tapşırılmış bütün insanların hamısı dirilib ayağa qalxacaq.

---

[1] Hədislərin birində belə nəql olunmuşdur ki, şəhidlər də müstəsna kəslərdəndir və onlar həmin surun çalınması ilə ölməyəcəklər. Çünki şəhidlər öldükdən sonra da Allah yanında diridirlər. Onların dirilikləri olduğu kimi qalacaqdır.

[2] Təfsiri-nümunə, 19-cu cild, səh.540.

Sual oluna bilər ki, birinci və ikinci dəfə (hamını öldürən və dirildən qiyamətdən qabaqkı və qiyamət günündə) çalınan şeypurun səsləri arasında fasilə olacaqmı? Yəni bunlar ardıcıl olaraq çalınacaq, yoxsa aralarında müəyyən müddət fasilə olacaq? Əgər fasilə olacaqsa, bu fasilənin müddəti nə qədərdir? Cavab Quran ayələrindən bəlli olur və bildirilir ki, birinci və ikinci sur arasında fasilə olacaqdır. Amma ara müddəti barədə Quranda bir açıqlama yoxdur. Ayədəki «ثُمَّ» "summə" kəlməsindən məlum olur ki, çalınan bu şeypur səsləri arasındakı fasilənin müddəti çox olacaq. Hədis və rəvayətlərdə də belə nəql olunmuşdur ki, onların arasındakı fasilə qırx il olacaqdır. Amma məlum deyil ki, bu qırx il dünya, yaxud axirət müddətilə hesablanır. Əgər axirət müddətilə hesablanarsa, daha uzun bir müddət olacaqdır.[1]

Yenə də sual oluna bilər ki, bu şeypuru kim çalacaq? Hədis və rəvayətlərdə belə qeyd olunmuşdur ki, həmin şeypuru çalan mələyin adı cənab İsrafildir(ə). Yəni Allah-təala bu işin görülməsini ona həvalə etmişdir. İsrafil(ə) süryani dilində "Abdullah" deməkdir və mənası isə "Allah bəndəsi" deməkdir. Cənab İsrafil(ə) Allahın dərgahında Ona ən yaxın olan mələkdir. Allah-təala Adəmi yaradarkən mələklərə ona səcdə etməyi əmr etdi. Allahın bu əmrinə itaət edən ilk mələk də məhz cənab İsrafil(ə) olmuşdur.[2]

## İki qorxulu və vəhşətli an

[1] Təfsiri-nümunə, 19-cu cild, səh.542.
[2] Dəh qərinə, səh.50.

Yuxarıda qeyd olunan ayədə vəhşət və qorxu barədə ("fəzə") söz açılmışdır. Çox yaxşı olar ki, bu barədə qısaca da olsa söhbət edək. Ümumiyyətlə, hər bir kəs üçün bu məsələ çox mühümdür. Hər iki məqamda istisna kəslərin olduğu bəyan olunur. Birincisi hamını qorxuya və vəhşətə salan səsdir ki, hamının öləcəyi zaman çalınan surdan qabaq, ikincisi isə hamının diriləcəyi zaman yaşadıqları vəhşətdir. Qeyd olunduğu kimi, "Nəml" surəsinin 87-ci ayəsində belə oxuyuruq:

وَيَوْمَ يُنْفَخُ فِي الصُّورِ فَفَزِعَ مَنْ فِي السَّمَاوَاتِ وَمَنْ فِي الْأَرْضِ إِلَّا مَنْ شَاءَ اللَّهُ وَكُلٌّ أَتَوْهُ دَاخِرِينَ

-Sur çalınacağı gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər və onların hamısı Onun hüzuruna müti (zəlil) vəziyyətdə gələrlər.

Görəsən, bu ayədəki istisna olunmuş kəslər kimlərdir ki, onlar həmin səsdən qorxuya və vəhşətə düşməyəcəklər? Bu ayədəki istisna olunmuş kəslər mələklər, eləcə də pak, təqvalı və həqiqi möminlərdir və onlar imanları güclü olduğuna görə vəhşətə düşməyəcəklər.

İkinci qorxulu və vəhşətli an qiyamət günü hamının diriləcəyi zaman olacaq. Qiyamət günü hamı qəbirlərdən qalxdıqda qiyamətin əzəmətini görüb qorxuya düşəcəkdir. Burada da istisna olunmuş kəslər vardır ki, həmin gün qorxuya və vəhşətə düşməyəcəklər.

Allah-təala "Nəml" surəsinin 89-90-cı ayələrində belə buyurur:

مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ خَيْرٌ مِنْهَا وَهُمْ مِنْ فَزَعٍ يَوْمَئِذٍ آمِنُونَ. وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ فَكُبَّتْ وُجُوهُهُمْ فِي النَّارِ هَلْ تُجْزَوْنَ إِلَّا مَا كُنْتُمْ تَعْمَلُونَ

-Hər kəs yaxşı əməllə gəlsə, (əvəzində) daha yaxşı (mükafat) onundur (onu gözləyir). Onlar həmin gün qorxu və dəhşətdən amandadırlar. Və hər kəs pis əməllə gəlsə, üzü üstə oda atılacaq və onlara deyiləcəkdir: “Məgər etdiklərinizdən qeyrisinə görə cəzalandırılırsınızmı?”

## Yaxşılıq (“həsənə”) nədir?

Sual oluna bilər ki, ayədəki “həsənə” (yaxşılıq, yaxşı əməl) nə deməkdir? Bu sualın cavabında hədisləri bir-birinin kənarına qoyarkən bir neçə məna alınır. Həmin mənalar belədir:

1.Ayədəki “həsənə” sözünün birinci mənası “Tövhid” - “La ilahə illəllah” kəlməsidir. Yəni hər kim qiyamət günü əlində “La ilahə illəllah” kəlməsini gətirə bilsə, o günün vəhşətindən amanda qalacaqdır. Bunu da bilmək lazımdır ki, qiyamət günü bütün əməllər təcəssüm olunacaq. Orada dildəki söz rol oynamır. Dünyadakı hər bir söz orada təcəssüm ediləcəkdir. Yəni hər kəsin dünyada dediyi “La ilahə illəllah” kəlməsi qəbul olsa, qiyamət günü əlində həmin kəlməni gətirəcək. “La ilahə illəllah” kəlməsinin mənasına gəldikdə isə “Allahdan başqa heç bir məbud yoxdur” deməkdir. Yəni Allahdan başqa heç bir kəsə ibadət və pərəstiş etmirəm. Qiyamət günü bəzi insanlar “puldan başqa heç bir məbud yoxdur”, bəzisi “vəzifədən başqa heç bir məbud yoxdur”, bəzisi “şəhvətdən başqa heç bir məbud yoxdur” və s. deyərək məhşərə gələcəklər. Çünki onların dünyadakı məbudları pul, vəzifə, şəhvət və s. kimi şeylər olmuşdur. Buna görə də qiyamət günü hər bir kəs dünyadakı əqidəsinin təcəssümü ilə qəbirlərdən qalxacaq. Buna görə də hər kim dünyada həqiqi mənada, sidq ürəklə “La ilahə illəllah” deyərək bu əqidə ilə yaşasa və bu əqidə ilə də ölsə,

dünyada Allahdan başqa heç bir kəsi və heç nəyi özünə məbud bilməsə, Allahın məhəbbətini hər bir şeydən üstün tutsa, qiyamət günü həmin kəlməni əlində gətirəcək və o günün vəhşətindən amanda qalacaqdır.

2.Həmin sözün ikinci mənası Həzrət Əlinin(ə) və digər məsum imamların vilayətidir. Yəni hər kim dünyada Həzrət Əlinin(ə) və digər məsum imamların vilayətini qəbul edib onları sevsə, qiyamət gününün vəhşətindən amanda qalacaq.

İmam Baqir(ə) buyurur: “Əbu Abdullah Cədəli Həzrət Əlinin(ə) dostlarından biri idi. O, günlərin birində Həzrət Əlidən(ə) “Hər kəs yaxşı əməllə gəlsə, (əvəzində) daha yaxşı (mükafat) onundur (onu gözləyir). Onlar həmin gün qorxu və dəhşətdən amandadırlar…” ayəsindəki “həsənə” - “yaxşılıq” və “səyyiə” – “pis əməlin” mənalarını soruşduqda Həzrət(ə) belə buyurdu:

الْحَسَنَةُ مَعْرِفَةُ الْوَلاَيَةِ وَحُبُّنَا أَهْلِ الْبَيْتِ؛ وَالسَّيِّئَةُ إِنْكَارُ الْوَلاَيَةِ وَبَغْضُنَا أَهْلِ الْبَيْتِ

-“Həsənə” (tanımaq) qəbul etmək və biz Əhli-beytə məhəbbət bəsləməkdir. “Səyyiə” isə vilayəti inkar etmək və biz Əhli-beytə qarşı düşmənçilik (kin-küdurət) bəsləməkdir.[1]

Odur ki, hər kim qiyamət günü əlində Əhli-beytin(ə) vilayət və məhəbbətini gətirə bilsə, həmin günün vəhşət və qorxusundan amanda olacaqdır.

3.Ayədəki “həsənə” kəlməsinin üçüncü mənası isə iman, saleh əməl, təqva və Allahla dostluqdur. Allah-təala “Bəqərə” surəsinin 62-ci ayəsində belə buyurur:

---

[1] Təfsiri-nümunə, 15-ci cild, səh.572.

مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَعَمِلَ صَالِحًا فَلَهُمْ أَجْرُهُمْ عِنْدَ رَبِّهِمْ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

-Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbblərinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər.

"Əraf" surəsinin 35-ci ayəsində buyurulur:

يَا بَنِي آدَمَ إِمَّا يَأْتِيَنَّكُمْ رُسُلٌ مِنْكُمْ يَقُصُّونَ عَلَيْكُمْ آيَاتِي فَمَنِ اتَّقَىٰ وَأَصْلَحَ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

-Ey Adəm oğulları! Sizə içərinizdən peyğəmbərlər gəlib ayələrimi söyləyən zaman Allahdan qorxaraq pis işlərdən çəkinib özlərini islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!

"Yunis" surəsinin 62-ci ayəsində belə buyurulur:

أَلَا إِنَّ أَوْلِيَاءَ اللَّهِ لَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

-Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.

Beləcə, həm Quran ayələrinə, həm də hədislərə əsasən belə bir nəticəyə gəlirik ki, yuxarıda qeyd olunan həmin üç dəstə insan qiyamət gününün vəhşət və qorxusundan amanda olacaqlar.

## QİYAMƏTİN İKİNCİ MƏRHƏLƏSİ

### Ölülərin qəbirdən qalxması

Artıq qeyd olunduğu kimi, qiyamətin birinci mərhələsi şeypurun çalınması ilə bağlıdır. Qiyamətin ikinci mərhələsinə insanların qəbirdən qalxmaları daxildir. Bu hal qiyamətin ən dəhşətli mənzərələrindən biridir. Bu barədə Quranda çox ayələrə rast gəlmək olur. Nümunə üçün bir neçə ayəni diqqətinizə çatdırıram. Allah-təala “Zəlzələ” surəsində buyurur:

إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا. وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا. وَقَالَ الْإِنْسَانُ مَا لَهَا. يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا. يَوْمَئِذٍ يَصْدُرُ النَّاسُ أَشْتَاتًا لِّيُرَوْا أَعْمَالَهُمْ

-Yer özünə məxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; Yer öz yükünü çıxardıb atacağı zaman; İnsan (təəccüblə): “Buna (bu yerə) nə olub?” – deyəcəyi zaman - Məhz o gün (yer) öz xəbərlərini söyləyəcəkdir. Çünki (bunu) ona sənin Rəbbin vəhy etmişdir (buyurmuşdur)! O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbirlərindən məhşərə) dəstə-dəstə çıxacaqlar! Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir).

“Qaf” surəsinin 44-cü ayəsində belə buyurulur:

يَوْمَ تَشَقَّقُ الْأَرْضُ عَنْهُمْ سِرَاعًا ذَٰلِكَ حَشْرٌ عَلَيْنَا يَسِيرٌ

-O gün yer onlardan ayrılıb parçalanacaq, onlar sürətlə (torpağın altından, qəbirlərindən çıxacaqlar). O, bizim üçün asan olan həşrdir (Bütün yaranmışların bir yerə toplaşacaqları məhşər günüdür).

Allah-təala bu ayədə açıq-aydın şəkildə bəyan edir ki, ölüləri torpaqdan qaldırmaq və qiyamət səhnəsini yaratmaq bizim əlimizdə çox asan bir şeydir. Heç bir kəs elə düşünməsin ki, bu çətindir. Bir mələyə şeypuru üfürmək əmri verilir. Həmin şeypur çalınan kimi aləmin bütün nizamı pozulacaq. Həzrət Peyğəmbər(s) buyurur: "Cənab İsrafilin şeypurunun səsi gələn kimi göy parça-parça olacaq, bütün ulduzlar sönəcək, dənizlər quruyacaq, dağlar yerindən qopacaq, gözlər qaralacaq. Həmin günün vəhşət və qorxusundan hamilə qadınlar körpələrini salacaq və (kiçik) uşaqlar qocalacaqlar." [1]

قَالَ عَلِيٌّ(ع): عِبَادَ اللَّهِ احْذَرُوا يَوْماً تُفْحَصُ فِيهِ الْأَعْمَالُ وَيَكْثُرُ فِيهِ الزِّلْزَالُ وَتَشِيبُ فِيهِ الْأَطْفَالُ

-Həzrət Əli(ə) buyurur: "Ey Allah bəndələri, əməllərə görə haqq-hesab olunacaq gündən qorxun *(hər kəsin əməl dəftərinə baxıb, onların ən xırda yaxşı və pis əməllərini araşdıracaqlar)*. Həmin gündə saysız-hesabsız zəlzələ (iztirab və narahatlıq) olar, (o günün qorxusundan) uşaqlar qocalarlar." [2]

O gün çox dəhşətli bir gün olacaq. Belə ki, Allah-təala "Əbəsə" surəsinin 33-42-ci ayələrində buyurur:

فَإِذَا جَاءتِ الصَّاخَّةُ. يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ. وَأُمِّهِ وَأَبِيهِ. وَصَاحِبَتِهِ وَبَنِيهِ. لِكُلِّ امْرِئٍ مِّنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ. وُجُوهٌ يَوْمَئِذٍ مُّسْفِرَةٌ.

---

[1] Dəh qərinə, səh.50.
[2] Nəhcül-bəlağə, 156-cı xütbədən.

ضَاحِكَةٌ مُّسْتَبْشِرَةٌ. وَوُجُوهٌ يَوْمَئِذٍ عَلَيْهَا غَبَرَةٌ. تَرْهَقُهَا قَتَرَةٌ. أُوْلَئِكَ هُمُ الْكَفَرَةُ الْفَجَرَةُ

-Beləliklə, qulaqları kar edən o nərə (surun ikinci dəfə üfürülməsi) gəlib çatdıqda; O gün insan qaçar öz qardaşından; Anasından və atasından; Zövcəsindən və oğullarından. O gün hər bir insanı özü ilə məşğul edəcək işi olacaqdır. O gün bir çox üzlər parıldayacaq, güləcək və sevinəcək. O gün bəzi üzlərdə isə toz-torpaq və küdurət olacaqdır. Qaranlıq və zülmət onları bürüyəcəkdir. Onlar həmin kafirlər və pozğunlardır!

Sual oluna bilər ki, Allah-təala möminləri bir-birinə qardaş etmişdir. Görəsən, qiyamət günü bu qardaşlıq əlaqələri də pozulacaqmı? Möminlər də bir-birindən qaçacaqlarmı? Əlbəttə ki, bu ayənin mənası və izahı vardır. Həmin gün mömin və saleh insanlar günahkarlar və kafirlərdən qaçacaqlar.

Həzrət Əli(ə) Kufə məscidində xütbə oxuyarkən bu ayəyə işarə etdi. Bir nəfər ayağa qalxıb soruşdu: “Ya Əmirəlmöminin, “O gün insan qaçar öz qardaşından; Anasından və atasından; Zövcəsindən və oğullarından” ayəsində məqsəd kimlərdir?” Həzrət Əli(ə) buyurdu: “Yəni Habil qardaşı Qabildən, Musa (Fironun evində ona analıq edən) anasından, İbrahim (əmisi və atalığı) Azərdən, Lut arvadından, Nuh oğlu Kənandan qaçacaqlar.”[1]

Yəni həmin gün kafir mömindən qaçacaq. Çünki dünyada bunların yolları ayrı olduğu üçün qiyamət günü də bir-birindən ayrılacaqlar. Amma möminlər isə dünyada bir ailə olduğu kimi, orada da bir yerdə olacaqlar.

---

[1] Dəh qərinə, səh.66.

Günlərin birində Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: “Ya Əli(ə), mən Allahdan sənin barəndə beş hacət istədim və Allah da onları mənə inayət etdi. Həmin hacətlərdən biri budur ki, Allahdan qiyamət günü üz-gözümdən toz-torpaq tökülən halda qəbirdən qalxarkən sənin də mənim yanımda olmağını istədim.”[1]

Hər kim bu dünyada bir ata və anadan olmasına baxmayaraq, biri mömin, digəri isə kafir olubsa, Allah onları bir-birinə qardaş hesab etmir. Çünki Allah yanında yalnız möminlər və saleh insanlar bir ailə hesab olunurlar. Ola bilsin ki, dünyada bir-birinin üzünü də belə görməsinlər. Buna baxmayaraq onlar bir ailə və qardaşdırlar.

## Qiyamət günü hər bir dəstə öz imamı ilə məhşərə çağırılacaq

Burada bir mühüm mətləbə də diqqət yetirmək lazımdır ki, dünyada hər kəs kimi özünə rəhbər, imam və başçı bilirdisə, qiyamət günü də həmin rəhbərin ardınca məhşərə gələcək. O rəhbər əgər cəhənnəmə getsə, onun ardıcılları da cəhənnəmə, əgər cənnətə getsə, onlar da cənnətə gedəcəklər. Allah-təala “İsra” surəsinin 71-ci ayəsində belə buyurur?

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

-O gün insanların hər bir dəstəsini (tabe olduqları) imamları ilə çağıracağıq.

Günlərin birində Həzrət Peyğəmbər(s) Salmana(r) buyurdu:

[1] Yenə orada, səh.67.

يَا سَلمَان وَ الذّى بَعَثَنِى بِالنُّبُوة لَآخُذَنَّ يَومَ القِيامَة بِحُجزَةِ جبرئِيل، وَ عَلِىٌّ آخذٌ بِحُجْزتى، وَ فَاطِمَة آخذةٌ بِحُجزته، وَالْحَسَن آخذ بحجزة فَاطِمَة، وَالْحُسين آخذ بِحجزة الْحَسَن، وَ شِيعَتُهُم آخِذةٌ بِحجزتهم.فَاَينَ تَرى اللّهَ ذَاهِباً بِرسُولِاللّه؟ وَ اَيْنَ تَرى رَسولاللّه ذَاهِبا بِاَخِيه؟ وَ اين تَرى اَخا رَسُولاللّه ذَاهِبا بِزوَجَته؟ وَ اَينَ تَرى فاطمة ذَاهِبَة بِوَلدها؟ اَيْن تَرى وُلدَ رَسُولاللّه صَلَّى اللّه عَليهِ وَ آلِهِ وَ سَلَّم ذَاهِبِين بِشِيعَتهم؟ اِلَى الجَنَّة وَ رَبّ الكَعبَة، اِلَى الجَنَّة وَ رَبّ الكَعبَة، اِلَى الجَنَّة وَ رَبّ الكَعبَة. يَا سَلمان، عَهدٌ عَهِدَ بِهِ جبرئِيل مِن عِند رَبّ العَالَمِين

-Ey Salman! And olsun O kəsə ki, məni nübüvvətə məbus etdi. Qiyamət günü mən Cəbrayılın ətəyindən tutacağam. Əli(ə) mənim ətəyimdən, Fatimə Əlinin ətəyindən, Həsən Fatimənin və Hüseyn də Həsənin ətəyindən tutacaqlar. Məni, Əlini, Fatiməni sevənlərin hamısı imamların ətəyindən tutacaqlar. Ey Salman! Allah o gün öz rəsulunu hara aparacaq? Allah o gün Əlini, Fatiməni hara aparacaq? And olsun Kəbənin Rəbbinə ki (həmin gün Allah həm məni, həm Əlini, həm Fatiməni və həm də onları sevənləri) cənnətə aparacaq. And olsun Kəbənin Rəbbinə ki, cənnətə aparacaq. And olsun Kəbənin Rəbbinə ki, cənnətə aparacaq. Bu, Cəbrayılın aləmlərin Rəbbi yanında mənimlə bağladığı əhd-peymandır.[1]

[1] “Fatimeyi Zəhra” əsəri, səh. 338. Zeynül-fəta fi şərhi sureyi həl əta.

Şeyx Səduq Əsbəğ ibn Nəbatə ilə bağlı tarixdə baş vermiş çox maraqlı və təəccüblü bir hadisəni belə nəql edir. Əsbəğ ibn Nəbatə deyir: "Nəhrəvan müharibəsindən sonra Həzrət Əli(ə) qoşunla birgə Mədainə tərəf hərəkət etdi. Mən də onların arasında idim. Yolda səkkiz nəfər münafiq etiraz əlaməti olaraq İmamdan(ə) ayrıldılar. Həmin səkkiz nəfərin rəhbəri Əmr ibn Hüreys idi.

Bu səkkiz nəfər Həzrət Əlidən(ə) ayrıldıqdan sonra bir yerdə əyləşib yemək yeyirdilər. Təsadüfən onların yanından kiçik bir kərtənkələ keçdi. Əmr ibn Hüreys tez həmin kərtənkələni tutub (Həzrət Əlini(ə) təhqir etmək məqsədilə) yoldaşlarına dedi: "Bu kərtənkələ əmirəl-mömininindir. Kim istəyirsə, gəlib buna beyət etsin." Digər yeddi nəfər də yarızarafatyana əllərini həmin kərtənkələnin üstünə qoyaraq ona beyət etdilər."

Əsbəğ ibn Nəbatə deyir: "Cümə günlərinin birində həmin səkkiz nəfər Mədainə gəldilər. Həzrət Əli(ə) məsciddə xütbə oxuyurdu. Birdən Həzrət(ə) buyurdu: "Camaat, Həzrət Peyğəmbər(s) mənə min hədis öyrətmişdir. O hədislərin hər birindən min qapı açılır… Eşitmisinizmi ki, Allah-təala Quranda belə buyurur?

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

-(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı ilə çağıracağıq.

Mən Allahın pak olan zatına and içirəm ki, həmin səkkiz nəfər qiyamət günü öz imamları kərtənkələ ilə məhşər səhnəsinə çağırılacaq. Bununla kifayətlənirəm. Əgər lazım olsa, onların adlarını da bir-bir sizə söyləyərdim."

Əsbəğ ibn Nəbatə deyir: "Həzrət Əlinin(ə) bu sözlərindən çox təəccübləndim. Heç bir şey başa düşmədim. Çünki həmin səkkiz nəfər bizdən ayrılmış və bu gün gəlib məscidə daxil olmuşdular. Onların yolda nə etdiklərindən bizim xəbərimiz yox idi. Lakin həmin səkkiz nəfərin bizdən ayrıldığını görmüşdüm. Həzrət Əlinin(ə) bu sözlərindən sonra Əmr ibn Hüreysin üzünə baxdım. Gördüm ki, xəcalətdən xurma ağacı kimi başını aşağı salıb və alnından xəcalət təri axır. Onlar özləri də heç bir kəsə bu söhbəti açmamışdılar. Yolda tutduqları işin üstü sonradan açıldı. Onlardan biri mənimlə danışdı və yolda nə etmişdilərsə hamısını mənə söylədi. Bundan sonra Həzrət Əlinin(ə) öz xütbəsində onların bu işlərinə işarə etdiyini anladım."[1]

### Qiyamət günü münafiqlərin peşmançılığı

Quran və hədislərdə açıq-aydın şəkildə bəyan olunur ki, qiyamət günü bir dəstə insanın üzü güləcək və sevinəcək, bir dəstə insanın üzü isə qapqara olacaqdır. Onlar həmin gün xeyli peşmançılıq çəkəcəklər. Allah-təala "Hədid" surəsinin 12-14-cü ayələrində belə buyurur:

يَوْمَ تَرَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ يَسْعَى نُورُهُم بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِم بُشْرَاكُمُ الْيَوْمَ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ. يَوْمَ يَقُولُ الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ لِلَّذِينَ آمَنُوا انظُرُونَا نَقْتَبِسْ مِن نُّورِكُمْ قِيلَ ارْجِعُوا وَرَاءكُمْ فَالْتَمِسُوا نُورًا فَضُرِبَ بَيْنَهُم بِسُورٍ

[1] Dəh qərinə, səh.73.

لَّهُ بَابٌ بَاطِنُهُ فِيهِ الرَّحْمَةُ وَظَاهِرُهُ مِن قِبَلِهِ الْعَذَابُ. يُنَادُونَهُمْ أَلَمْ نَكُن مَّعَكُمْ قَالُوا بَلَى وَلَكِنَّكُمْ فَتَنتُمْ أَنفُسَكُمْ وَتَرَبَّصْتُمْ وَارْتَبْتُمْ وَغَرَّتْكُمُ الْأَمَانِيُّ حَتَّى جَاء أَمْرُ اللَّهِ وَغَرَّكُم بِاللَّهِ الْغَرُورُ

-Mömin kişi və qadınların nurlarının ön və sağ tərəflərində irəlilədiyini görəcəyin gün, (onlara) "bu gün sizə altından çaylar axan, əbədi qalacağınız cənnət və bağlarla müjdə olsun" (deyiləcəkdir). Bu, həmin böyük uğur və qurtuluşdur!

(Həmin) o gün ki, münafiq kişi və qadınlar iman gətirənlərə deyəcəklər: "Bizə görə (bir az) dayanın və möhlət verin və ya bizə tərəf baxın ki, nurunuzdan işıq götürək." Onlara deyiləcək: "Geriyə (dünyaya) qayıdın və (orada) nur axtarın." Həmin vaxt onların (mömin və münafiqlərin) arasında qapısı olan divar çəkiləcək. Onun (cənnətə sarı olan) içəri tərəfində mərhəmət, (cəhənnəmə sarı olan) çölündə isə o tərəfdən əzab vardır.

Onlar möminləri "məgər biz dünyada sizinlə deyildik?" (deyə) səsləyəcəklər. (Möminlər) deyəcəklər: "Bəli, lakin siz özünüzü həlakətə atdınız, (möminlər üçün hər cür fəlakət, peyğəmbərin ölməyini) gözlədiniz, (haqq dinə) şübhə etdiniz, (batil) arzular sizi məğrur etdi və nəhayət, Allahın (sizin məhviniz barəsindəki) əmri gəlib yetişdi və yalançı şeytan sizi Allah barəsində aldatdı."

## Qiyamət günündə nurlu çöhrələr

Hədislərdə belə nəql olunur ki, qiyamət günündə bəzi insanlar digərlərindən fərqlənəcəklər. Belə ki, bütün məhşər əhli onların camalına tamaşa edəcəkdir. Burada

yaxşı olar ki, həmin insanlardan bir neçəsinə diqqət yetirək.

**1. Peyğəmbər(s) və Əhli-beyti**

Hədis və rəvayətlərdə belə nəql olunmuşdur ki, qiyamət günü Həzrət Peyğəmbər(s) və Əhli-beytinin(ə) çöhrəsindən məhşərə nur ələnəcək. Bütün məhşər əhli onların nurlu simalarına baxacaqlar.

**2. Şəhidlər**

Hədislərdə deyilir ki, məhşər əhli çöhrələrindən nur saçan bir qrup insanın qəbirlərdən çıxdığını görərlər. İlahi, bunlar kimlərdir? Sonra onlar görərlər ki, bir dəstə atlı cah-cəlalla onlara yaxınlaşıb ehtiram əlaməti olaraq atlarından yerə enərlər. Məhşər əhli soruşar: "İlahi, bunlar kimlərdir?" Cavab gələr ki, ikinci (atlı) dəstə bəzi peyğəmbərlərdir. Soruşarlar: "Bəs birinci dəstə kimlərdir?" Cavab gələr ki, onlar da şəhidlərdir.

Həmin şəhidlər cənnətə daxil olana qədər məhşər əhli onların nurlu simalarına tamaşa edərlər. Həmin şəhidlərin məqam və dərəcələri o qədər yüksək olar ki, onların (cənnətə düşmüş) dünyadakı qonşuları arasında mübahisə düşəcək. Belə ki, bir qonşu fəxrlə deyər ki, mənim dünyada qapım ona daha yaxın idi. Digəri isə deyər ki, mənim evim onun evinə daha yaxın idi.[1]

**3. İmamzadələr**

Həmçinin belə nəql olunur ki, qiyamət günü hamı məhşərdə toplaşan zaman hər yeri zülmət bürüyəcək.

---

[1] Dəh qərinə, səh.78.

Camaat qaranlıq və zülmətdən əziyyət içində olarlar. Elə bu vaxt üzlərindən nur ələnən bir dəstə insanın hərəkət etdiyini görərlər. Məhşər əhli soruşar: “Bunlar peyğəmbərlərdirmi?” Cavab gələr ki, xeyr. Soruşarlar: “Mələklərdirmi?” Cavab gələr ki, xeyr. Soruşarlar: “Bəs, bunlar kimlərdir?” Cavab gələr ki, özlərindən soruşun. Məhşər əhli onların kim olduğunu soruşduqda belə deyərlər: “Biz Peyğəmbərin(s) (pak və saleh) zürriyyətləri və Əlinin(ə) övladlarıyıq ki, Allahın kəraməti bizim halımıza şamil olmuşdur.”[1]

**4. Həzrət Fatimeyi Zəhranın(s.ə) xüsusi şövkət və əzəməti**

Həzrət Fatimeyi Zəhranın(s.ə) Allah yanında xüsusi hörməti, əzəmət və şövkəti vardır. Qiyamət günü hamı Xanım Fatimeyi Zəhranın(s.ə) şövkət və əzəmətini görəcəkdir.

Həzrət Əli(ə) buyurur: “Günlərin birində Həzrət Peyğəmbər(s) Fatimənin yanına gəldikdə onun ağladığını görüb soruşdu: “Qızım, nə üçün ağlayırsan?” Fatimə ərz etdi: “Ya Rəsulallah, qiyamət və qəbirdən qalxacağım günün qorxusu məni ağladır.” Həzrət Peyğəmbər(s) buyurdu: “Bəli, qızım, həmin gün çox böyük (qorxulu) bir gün olacaq. Amma Cəbrayıl mənə xəbər verib ki, qiyamət günü Allah-təala sənin üçün İsrafilin vasitəsilə üç cür gözəl libas gətirəcək. Sən də həmin libasları geyinib yetmiş min mələklə qəbirdən qalxacaqsan. Yolda Həzrət Məryəm yetmiş min mələklə sənə qoşulub salam verəcək. Sonra (İslamı qəbul edən ilk qadın) anan Xədicə də yetmiş min mələklə səni

[1] Dəh qərinə, səh.71.

qarşılamağa gələcək. Sonra Həvva və Asya da hər biri yetmiş min mələklə səni müşayiət edəcəklər.

Sonra Cəbrayıl deyəcək:

سَلِي حَاجَتك. فَتَقُولِين: يَا رَبّ شِيعَتِي. فَيَقُولُ اللهُ عَزَّ وَ جَلَّ: قَدْ غَفَرت لَهُم. فَتَقُولِينَ: يَا رَبّ شِيعَة وُلْدِي. فَيَقُولُ اللهُ: قَدْ غَفَرت لَهم. فَتَقُولِين: يَا رَبّ شِيعَةَ شِيعَتِي. فَيَقُولُ اللهُ: اِنْطَلِقِي فَمَن اِعْتَصَمَ بِكِ فَهُوَ مَعَكِ فِي الجَنَّة...

-Ey Fatimə(s.ə) nə hacətin varsa, istə. Sən (Allahdan istəyərək) deyəcəksən: "Ey mənim Rəbbim, Səndən şiələrimin bağışlanmasını diləyirəm." Allah-təala buyurar: "Onları bağışladım." Deyəcəksən: "İlahi, mənim balalarımın şiələrini bağışla." Allah-təala buyurar: "Onları əfv etdim." Sonra deyəcəksən: "Ey mənim Allahım, şiələrimin şiələrini əfv et." Allah-təala buyurar: "Onları da bağışladım." Sonra Allah-təala buyurar: "Ey Fatimə, çıx məhşərə. Hər kəs gəlib sənin ətəyindən tutsa, onların hamısı səninlə birgə cənnətə daxil olacaq."

Sonra Həzrət Peyğəmbər(s) buyurdu:

يَا فَاطِمة فَعِندَ ذَالِكَ يَوَدُّ الخَلاَ ئِق اَنَّهُم كَا نُوا فَاطِمِيين يَا فَاطِمةُ فَتَسِيرِينَ وَ مَعَكِ شِعَتُكَ

-Ya Fatimə, o, həmin gündür ki, bütün insanlar bir dəstə adamın sənin ətəyindən tutub nicat taparaq cənnəti qazandıqlarını görəcəklər. Bunu gördükdə bütün insanların hamısı peşmançılıq çəkərək deyəcəklər: "Kaş, biz də dünyada Fatiməni(s.ə) sevənlərdən olardıq. Ya Fatimə, o gün (qiyamət günü) sən, səni sevənlər və səni

sevənləri istəyənlərin hamısı (Allahın izni ilə) cənnətə gedəcəklər.” [1]

[1] “Fatimeyi Zəhra” əsəri, səh. 345; Biharül-ənvar, 8-ci cild, səh.54.

# QİYAMƏTİN ÜÇÜNCÜ MƏRHƏLƏSİ
## Haqq-hesab

Qiyamətin üçüncü mərhələsi "haqq-hesab" adlanır. Bundan əlavə, "haqq-hesab" həm də qiyamətin adlarından biridir. Qiyamətin bu adı müqəddəs kitabımız olan Qurani-Kərimdə dəfələrlə zikr olunmuşdur. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək.

Həzrət İbrahim Peyğəmbərin(ə) etdiyi duaları Allah-təala Quranda bəyan etmişdir. Həmin dualardan biri "İbrahim" surəsinin 41-ci ayəsindədir ki, Allah-təala onun dili ilə belə buyurmuşdur:

رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

-Ey Rəbbimiz, haqq-hesab qurulan gün məni, ata-anamı və möminləri bağışla!

"Sad" surəsinin 26-cı ayəsində Allah-təala Davud Peyğəmbərə(ə) xitab edərək belə buyurur:

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَىٰ فَيُضِلَّكَ عَنْ سَبِيلِ اللَّهِ

-Ey Davud! Biz səni yer üzündə (Öz) xəlifə(miz) etdik. Buna görə də insanların arasında haqq əsasında hökm çıxar və nəfsani istəklərə tabe olma ki, o, səni Allahın yolundan azdırar.

Bu xitabdan sonra Allah-təala həmin ayədə buyurur:

إِنَّ الَّذِينَ يَضِلُّونَ عَنْ سَبِيلِ اللَّهِ لَهُمْ عَذَابٌ شَدِيدٌ بِمَا نَسُوا يَوْمَ الْحِسَابِ

-Şübhəsiz, Allahın yolundan azanlar üçün haqq-hesab gününü unutduqlarının müqabilində şiddətli əzab vardır.

Həmçinin "Ğafir" surəsinin 27-ci ayəsində Musa Peyğəmbərin(ə) Fironla danışığı barədə oxuyuruq:

وَقَالَ مُوسَىٰ إِنِّي عُذْتُ بِرَبِّي وَرَبِّكُمْ مِنْ كُلِّ مُتَكَبِّرٍ لَا يُؤْمِنُ بِيَوْمِ الْحِسَابِ

-Musa (Firona və onun ətrafındakılara xitab edərək) dedi: "Həqiqətən, mən haqq-hesab gününə imanı olmayan hər bir təkəbbür sahibin(in şərin)dən öz Rəbbimə və sizin Rəbbinizə pənah aparmışam."

Bu kimi ayələrdə açıq-aydın şəkildə müşahidə edirik ki, qiyamət gününün adlarından biri də "haqq-hesab" günüdür.

قَالَ عَلِيٌّ(ع): إِنَّ الْيَومَ عَمَلٌ وَ لا حِساب وَ غَدًا حِسابٌ وَ لا عَمل

-Həzrət Əli(ə) buyurur: "Həqiqətən, bu gün (bu dünya) əməl günüdür, hesab-kitab günü yox. Sabah (qiyamət) isə hesab-kitab və sorğu-sual günüdür, əməl günü deyil."

Yəni bu dünya yalnız əməl günüdür və burada heç bir kəsdən etdiyi əməllərə görə hesab-kitab və ya sorğu-sual aparılmır. Kimdənsə namaz qılıb-qılmaması, oruc tutub-tutmaması və digər əməlləri barədə hesab aparılmır. Allah insanları yaratmış, onlar üçün peyğəmbərlər göndərmiş və Quranı nazil etmişdir. Hər bir insana Allahın müəyyən etdiyi qanunlara riayət etməkdə ixtiyar verilmişdir. Allah-təala "Fussilət" surəsinin 40-cı ayəsində belə buyurur:

اعْمَلُوا مَا شِئْتُمْ

-İstədiyinizi edin.

Ayədəki "İstədiyinizi edin" cümləsinin mənası o demək deyil ki, insan bu dünyada ürəyi nə istəsə, onu da etsin və bir gün ondan (etdiyi əməllərə görə) haqq-hesaba

çəkilməsin. Bu cümlə ayənin bir hissəsidir. Ayədə Allahın insanlara sözü vardır və ayəni bütövlükdə oxuduqda görürük ki, əvvəlində və sonunda insanın əməllərinə nəzarət edilir və burada qiyamət günü əməllərinə görə cənnətə, yaxud cəhənnəmə atılan şəxslərdən söz açılır. Ayə belədir:

إِنَّ الَّذِينَ يُلْحِدُونَ فِي آيَاتِنَا لَا يَخْفَوْنَ عَلَيْنَا أَفَمَن يُلْقَى فِي النَّارِ خَيْرٌ
أَم مَّن يَأْتِي آمِنًا يَوْمَ الْقِيَامَةِ اعْمَلُوا مَا شِئْتُمْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

-Həqiqətən, Bizim ayə və nişanələrimiz barəsində yolunu azanlar Bizə gizlin deyillər. Belə isə oda atılan şəxs yaxşıdır, yoxsa qiyamət günü (Allahın hüzuruna) xatircəm gələn kəs?! İstədiyinizi edin. Şübhəsiz, O, etdiklərinizi görür.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, "İstədiyinizi edin" cümləsində məqsəd o deyil ki, insan bu dünyada ürəyi istədiyi hər bir işi görsün və ondan haqq-hesab çəkilməsin. Biri var ki, bir nəfər dostunu bağına qonaq aparıb ona deyir: "Bu bağ sənin ixtiyarındadır, ürəyin hansı meyvədən istəyirsə, yeyə bilərsən." Burada həmin şəxs o bağda ürəyi istədiyi meyvələrdən dərib yeyir və ondan heç bir hesab-kitab soruşulmur.

Amma ayədəki "İstədiyinizi edin" cümləsində məqsəd bu deyil. Bunu daha açıq-aydın şəkildə başa düşmək üçün qonaq gəlmiş bir evdəki uşağı misal çəkmək olar. Belə ki, evdəki uşaq qonağın gəldiyindən istifadə edərək öz bildiyini etməyə başlayır. Bilir ki, qonağın yanında hər nə etsə, ona güldən ağır bir söz deyən olmayacaqdır. Buna görə də əlindən gələn qədər dəcəllik etməyə başlayır. Bunu görən valideyn uşağa mənalı-mənalı baxaraq deyir: "Eybi yox, nə istəyirsən elə."

Valideynin uşağa bu sözləri deməsində məqsəd o deyil ki, həqiqətən də nə istəyirsə onu da etsin. Yəni axırı bu qonaq çıxıb gedəcək və sənin dərsini verəcəyəm. Nəhayət, qonaq çıxıb getdikdən sonra uşağın hesab-kitabı başlanır və o, etdiyi dəcəlliklərə görə tənbeh olunur.

Beləliklə, ayədəki "İstədiyinizi edin" cümləsinin mənası bundan ibarətdir ki, dünyada əlinizdən gələni edin, axırı bir gün etdiyiniz əməllərə görə sizi hesab-kitaba və sorğu-suala çəkəcəyəm. "Möminun" surəsinin 115-ci ayəsində buyurulur:

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

-Yoxsa güman edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və (bir də) heç bir vaxt Bizə tərəf qaytarılmayacaqsınız?

Allah-təala bu aləmdə olan bütün nemətlərin hamısını insan üçün yaratmışdır. Aləmdə hər nə varsa, onları insanın ixtiyarına vermişdir. İnsanı isə Özü üçün və Ona səcdə etməsi üçün xəlq etmişdir. Bütün bu nemətlərin hamısı insana o zaman halaldır ki, Allah-təala qarşısında səcdə edərək Onun müəyyən etdiyi qayda-qanunlara riayət etsin. Yox, əgər hər kim Allahın müəyyən etdiyi qayda-qanunlara riayət etməsə, Onun buyurduqlarını yerinə yetirməsə, əvvəl-axır öz əzizlərinin əlləri ilə torpağın altına qoyulacaq və beləcə onun haqq-hesabı başlanacaqdır.

## Hesab-kitabın əsli inkarolunmazdır

Burada bir mətləbə də diqqət yetirmək zəruridir. Həmin mətləb isə budur ki, qiyamət gününün hesab-kitabına heç bir şübhə yoxdur. İnsanın necə haqq-hesab olunacağı barədə isə gələcək bəhslərimizdə söhbət edəcəyik. Amma ümumi olaraq hesab-kitabın əsli ilə bağlı heç bir şəkk-şübhə

yeri yoxdur. Allah-təala “Əraf” surəsinin 6-cı ayəsində buyurur:

فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ

-Odur ki, şübhəsiz, Biz həm peyğəmbərlərin göndərildiyi kəslərdən (“Bizim peyğəmbərlərimizə nə cavab verdiniz?” - deyə) soruşacağıq və həm də peyğəmbərlərdən (“Mənim tapşırdıqlarımı çatdırdınız, ya yox və sizin dəvətinizə nə cavab verdilər?” - deyə) soruşacağıq.

Həmçinin “Bəqərə” surəsinin 284-cü ayəsində deyilir:

وَإِن تُبْدُواْ مَا فِي أَنفُسِكُمْ أَوْ تُخْفُوهُ يُحَاسِبْكُم بِهِ اللّهُ فَيَغْفِرُ لِمَن يَشَاء وَيُعَذِّبُ مَن يَشَاء وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

-Qəlbinizdə olanı aşkar etsəniz də, gizlətsəniz də, Allah sizinlə onun haqq-hesabını aparacaqdır. Beləliklə, (rəhmətinin tələbi əsasında) istədiyini bağışlayacaq, (ədalətinə əsasən) istədiyinə əzab verəcəkdir. Allah hər bir şeyə qadirdir.

قَالَ عَلِيٌّ(ع): وَ أَعْمَالُ اَلْعِبَادِ فِي عَاجِلِهِمْ نُصْبُ أَعْيُنِهِمْ فِي آجِلِهِمْ

-Həzrət Əli(ə) buyurur: “Bəndələrin dünyadakı əməlləri axirətdə gözləri önündə olacaqdır.”[1]

Bir gün Həzrət Əliyə(ə) xəbər çatdı ki, Həzrətin(ə) Bəsrə şəhərinə göndərdiyi hakim beytülmaldan müəyyən qədər vəsait mənimsəyib və Məkkə şəhərinə istirahətə gedibdir. Həzrət Əli(ə) həmin şəxsə bir məktub yazdı. Məktubdan bir neçə cümləni olduğu kimi diqqətinizə çatdırmaq istəyirəm.

---

[1] Nəhcül-bəlağə, 6-cı hikmət.

Həzrət Əli(ə) məktubda "Bismillah"dan, Həzrət Peyğəmbərə(s) və Ali- Peyğəmbərə(s) salam göndərdikdən sonra bir neçə cümlə həmin şəxs barədə yazır. Sonra isə belə yazır:

فَلَمَّا أَمْكَنَتْكَ الشِّدَّةُ فِي خِيَانَةِ الْأُمَّةِ أَسْرَعْتَ الْكَرَّةَ وَ عَاجَلْتَ الْوَثْبَةَ وَ اخْتَطَفْتَ مَا قَدَرْتَ عَلَيْهِ مِنْ أَمْوَالِهِمُ الْمَصُونَةِ لِأَرَامِلِهِمْ وَ أَيْتَامِهِمِ اخْتِطَافَ الذِّئْبِ الْأَزَلِّ دَامِيَةَ الْمِعْزَى الْكَسِيرَةَ فَحَمَلْتَهُ إِلَى الْحِجَازِ رَحِيبَ الصَّدْرِ تَحْمِلُهُ غَيْرَ مُتَأَثِّمٍ مِنْ أَخْذِهِ...

-Xalqa xəyanət etməyin səni gücləndirdiyi üçün tez hücum edərək cəld tərpəndin və iti canavarın əldən düşmüş keçini oğurlaması kimi, onların dul qadın və yetimləri üçün yığdıqları var-dövlətlərindən əlinə düşəni oğurladın. Sonra həmin malı ürək genişliyi ilə *(sevinc və şadlıqla)*, onu oğurlamağın günahından qorxub-çəkinmədən Hicaza *(Məkkəyə, yaxud da Mədinəyə)* apardın...

...فَسُبْحَانَ اللَّهِ أَمَا تُؤْمِنُ بِالْمَعَادِ أَ وَ مَا تَخَافُ مِنْ نِقَاشِ الْحِسَابِ أَيُّهَا الْمَعْدُودُ كَانَ عِنْدَنَا مِنْ ذَوِی الْأَلْبَابِ كَيْفَ تُسِيغُ شَرَاباً وَ طَعَاماً أَنْتَ تَعْلَمُ أَنَّكَ تَأْكُلُ حَرَاماً وَ تَشْرَبُ حَرَاماً

-Allaha həmd-səna edib Onu hər bir eyib və nöqsandan pak və uzaq bilirəm. *(Əcəba,)* sənin məada və Allahın hüzuruna qayıdışa imanın yoxdur, yoxsa ki, (axirətdəki) hesab-kitab və sorğu-sualın dəqiqliyindən qorxmursan? Ey bizim yanımızda əvvəllər ağıllılardan sayılan, *(o malı)* yeyib-içməyi necə düzgün və doğru hesab edirsən, halbuki haram yeyib-içdiyini bilirsən?

...فَاتَّقِ اللَّهَ وَارْدُدْ إِلَى هَؤُلَاءِ الْقَوْمِ أَمْوَالَهُمْ فَإِنَّكَ إِنْ لَمْ تَفْعَلْ ثُمَّ أَمْكَنَنِي اللَّهُ مِنْكَ لَأُعْذِرَنَّ إِلَى اللَّهِ فِيكَ وَ لَأَضْرِبَنَّكَ بِسَيْفِيَ الَّذِي مَا ضَرَبْتُ بِهِ أَحَداً إِلَّا دَخَلَ النَّارَ وَ اللَّهِ لَوْ أَنَّ الْحَسَنَ وَ الْحُسَيْنَ فَعَلَا مِثْلَ الَّذِي فَعَلْتَ مَا كَانَتْ لَهُمَا عِنْدِي هَوَادَةٌ وَ لَا ظَفِرَا مِنِّي بِإِرَادَةٍ حَتَّى اخُذَ الْحَقَّ مِنْهُمَا

-Bütün bunlara görə Allahdan qorx və (beytülmalı) bu dəstənin mallarını özünə qaytar. Əgər bu işi görməsən və Allah mənə əlimin sənə çatması imkanını versə, Allah yanında sənin barəndə *(səni cəzalandırmaq barəsində)* dəlil gətirər və səni həmin o qılıncımla vuraram ki, onunla vurduğum kimsə ancaq və ancaq oda *(cəhənnəmə)* daxil olub. Allaha and olsun ki, əgər sənin etdiklərini Həsənlə Hüseyn *(əleyhiməssalam)* etsəydilər, onlarla barışmazdım və onlardan haqqı tələb edib zülm ilə əldə edilmiş batili uzaqlaşdırmayınca onlar məndən olan heç bir istəklərinə çatmazdılar.

فَضَحِّ رُوَيْداً فَكَأَنَّكَ قَدْ بَلَغْتَ الْمَدَى وَ دُفِنْتَ تَحْتَ الثَّرَى وَ عُرِضَتْ عَلَيْكَ أَعْمَالُكَ بِالْمَحَلِّ الَّذِي يُنَادِي الظَّالِمُ فِيهِ بِالْحَسْرَةِ وَ يَتَمَنَّى الْمُضَيِّعُ فِيهِ الرَّجْعَةَ وَ لاتَ حِينَ مَناصٍ

-Buna görə də "dəvəni səhər tezdən yavaş otar!"[1] ki, deyəsən axirətə *(ölümə)* çatmısan, torpaq altında

---

[1] «ضَحِّ رُوَيداً» - *Bu cümlə yavaş gedilməsi lazım olan yerdə tələsən adam barəsində məsəldir. Burada malın sərf edilməsində ifrata varmamağa işarədir.*

gizlədilmisən; zülmkarın *(əldən verdikləri üçün)* qəm-qüssəsi səbəbindən fəryad qopardığı və *(başqalarının haqqını)* zay edənin *(dünyaya)* qayıtmağı arzuladığı yerdə əməlin sənə göstərilib, halbuki həmin zaman *(ilahi əzabdan)* qaçmaq vaxtı deyil.[1]

Qeyd olunan ayə və hədislər qiyamət gününün hesab-kitabının vacib və həqiqət olduğunu bizə başa salır.

## Haqq-hesabın mənası

Burada yaxşı olardı ki, haqq-hesabda məqsədin nə olduğu və haqq-hesabın mənası barədə də bir neçə cümlə söz açaq. Alimlərin buyurduqlarına əsasən, haqq-hesabın mənası belədir: "İnsanın əlində olan məlumatlar vasitəsilə bəzi məchulları və bilmədiklərini öyrənmək." Yaxud başqa sözlə desək: "Məlumatların vasitəsilə məchulları həll etmək."[2] Məsələn, bir nəfərə min manat pul verib bazarlıq etməyə göndərirlər. Ona bazardan nə alacağını da yazıb verirlər. Həmin şəxs bazarlıq edib geri qayıdır. Lakin onun nə qədər pul xərclədiyi, siyahıda olanların hamısını alıb- almadığı, həmçinin hansını neçəyə aldığı məlum deyildir. Amma onun bazara getməsi, nə qədər pulu olması və aldığı məlum şeylərin vasitəsilə aydın olmayan məsələlərə də aydınlıq gətirilir. Beləliklə, əldə olan məlumatların köməyilə bütün bu məchulların öyrənilməsinə hesab-kitab deyilir.

Burada sual oluna bilər ki, hər bir şeydən agah olan və hər şeyi bilən Allahın insanı hesab-kitaba çəkməsinin mənası nədir? İnsanlar məlumdur ki, məchul olan işləri və

---

[1] Nəhcül-bəlağə, 41-ci məktub.
[2] Mənşuri-Cavid, 9-cu cild, səh.281.

bilmədiklərini aydınlaşdırmaq üçün bir-biri ilə haqq-hesab aparırlar. Amma Allah hər bir şeydən xəbərdar olduğu halda, görəsən insanla haqq-hesab aparması nə üçündür? Qurani-Kərimin "Allah insana boynunun şah damarından da yaxındır"; "Allah gözlərin xəyanətini biləndir"; "Məgər insan bilmir ki, Allah onu görür" və s. kimi ayələrində açıq-aydın şəkildə görürük ki, Allahdan gizlin və məchul bir iş yoxdur. Sadəcə olaraq qarşıya çıxan sual budur ki, bəs Allah bütün bu məlumatlardan xəbərdar olduğu halda Onun insanı haqq-hesaba çəkməsinə nə ehtiyac vardır?

Bu sualın cavabı belədir ki, bütün bunlar insanların bu dünyada verdikləri imtahanlar kimidir. Dünyadakı imtahanlar nə üçündür? İmtahan onun üçündür ki, insanın hər hansı bir sahə ilə bağlı doğru danışıb-danışmamasını yoxlasınlar. Məsələn, bir nəfər orta məktəbi bitirdikdən sonra institutda, yaxud universitetdə ali təhsil alıb həkim olduğunu iddia edir. Onun sözünün doğru olub-olmadığını öyrənmək üçün ondan imtahan alırlar. Allah-təala bu dünyada bütün insanların hamısından imtahan alır. Lakin qarşıya yenə də bir sual çıxır ki, əgər Allah kimin doğru danışıb-danışmadığını bilirsə, o zaman bu imtahana nə ehtiyac vardır?

Bütün bu sualların hamısının cavabını qısaca olaraq belə açıqlamaq olar: "Bəndələrin əməllərinin hesab-kitab olunmasında məqsəd budur ki, Allahın ədalət və hikməti həm o şəxsə, həm də hamıya aydın olsun. Həmçinin dünyada Allahın ədalət və rəhmətinə şübhəsi olan insanlar qiyamət günü bunu aşkar şəkildə müşahidə etsinlər ki, daha heç bir kəsin etiraz etməyə bəhanəsi qalmasın."[1]

---

[1] Mənşuri-Cavid, 9-cu cild, səh.282.

## Haqq-hesab aparan kimdir?

Burada sual oluna bilər ki, bəs qiyamət gününün haqq-hesabı kimin əlində olacaqdır? Yəni insanları kim hesab-kitaba çəkəcəkdir? Aydın məsələdir ki, hər bir iş Allahın əlindədir. Çünki hər bir şeyi yaradan, nemət verən, öldürən və dirildən də Odur. Amma hər bir işi müəyyən mələklərə tapşırmışdır. Quranda buyurulur ki, canları alan Allahdır. Sual oluna bilər ki, əgər belədirsə, bəs insanın canını nə üçün Əzrayıl alır? Bu sualın cavabı belədir ki, əgər Allahın əmri olmasa, Əzrayıl heç bir kəsin canını ala bilməz. Can almaq Allahın ixtiyarındadırsa, Allah bu ixtiyarı Əzrayıla həvalə etmişdir. Əzrayıl da Onun əmri ilə canları alır. Eləcə də qiyamət gününün maliki Allahdır. Onun hakimliyində heç bir şəkk-şübhə ola bilməz. Quran ayələrinə əsasən, qiyamət gününün hesab-kitabı da Allaha məxsusdur. Varlıq aləminin yaradılması şəxsən Allaha məxsus olduğu kimi, qiyamət gününün hesab-kitabı da yalnız Ona aiddir. Yəni Quran ayələrində açıq-aşkar şəkildə bəyan olunur ki, qiyamət günü bəndələrin hesab-kitabını şəxsən Allah Özü aparacaq. "Rəd" surəsinin 40-cı ayəsində Allah-təala Həzrət Peyğəmbərə(ə) xitab edərək buyurur:

فَإِنَّمَا عَلَيْكَ الْبَلَاغُ وَعَلَيْنَا الْحِسَابُ

-Sənin vəzifən ancaq (dini) təbliğ etməkdir. Haqq-hesab çəkmək isə bizə aiddir!

Allah "Ğaşiyə" surəsinin 25-26-cı ayələrində belə buyurur:

إِنَّ إِلَيْنَا إِيَابَهُمْ. ثُمَّ إِنَّ عَلَيْنَا حِسَابَهُمْ

-Şübhəsiz ki, onların axır dönüşü Bizədir! Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!

“Nəhcül-bəlağə”də xütbələrin birində Həzrət Əli(ə) Ayişənin onunla düşmənçiliyi barədə belə buyurur: “O qadın öz sinəsində mənə qarşı kin-küdurət bəsləyir. Onun mənə qarşı olan kin-küdurəti və düşmənçiliyi dəmirçinin qazanı tək qaynayıb cuşa gəlmişdir. Amma mən onun keçmişinə ehtiramıma (Həzrət Peyğəmbərin(s) həyat yoldaşı olduğuna) görə bu məsələni qabartmıram. *(*Ancaq axirətdə) mənimlə onun arasındakı hesabımız Allahladır. (Bizim aramızda Allah Özü hakim olacaq.)”[1]

Həm Quran ayələrində, həm Həzrət Peyğəmbərin(s) və həm də məsum imamların kəlamlarında yekdilliklə bəyan olunur ki, qiyamət gününün hesab-kitabı Allaha məxsusdur. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, əgər Allah bu işin görülməsi ixtiyarını və icazəsini kiməsə verərsə, həmin şəxs də hesab-kitabı apara bilər. Can almaq Allahın ixtiyarında olduğundan və O, bu ixtiyarı Əzrayıla verdiyi kimi, eləcə də qiyamət gününün hesab-kitabını da kiminsə ixtiyarında qoya bilər. Bu ixtiyar Allaha məxsusdur və O, bunu istədiyi kəsə verə bilər.

Hədislərdə belə nəql olunmuşdur ki, bəzi insanların hesab-kitabı peyğəmbərlərin və onların vəsilərinin ixtiyarına buraxılacaq. Xüsusilə bu iş İslam Peyğəmbərinin(s) və onun Əhli-beytinin(ə) ixtiyarına qoyulacaqdır. Qiyamət gününün hesab-kitabında Həzrət Əlinin(ə) də böyük rolu olacaqdır.

Abdullah ibn Sənan deyir: “İmam Sadiq(ə) buyurdu:

إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ وَكَّلَنَا اللهُ بِحِسَابِ شِيعَتِنَا

[1] Nəhcül-bəlağə, 155-ci xütbə.

-Allah-təala qiyamət günü bizim şiələrimizin hesab-kitabının vəkalətini bizə tapşıracaq."[1]

Digər bir hədisdə İmam Sadiq(ə) «ثُمَّ إِنَّ عَلَيْنَا حِسَابَهُمْ» - "Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!" ayəsi barədə belə buyurur:

إِذا كَانَ يَومَ القِيَامَة جَعَل اللّهُ حِساب شِيعتنا إِلَينا

-Qiyamət günü baş verən zaman Allah-təala şiələrimizin hesab-kitabını bizim ixtiyarımıza qoyacaq.[2]

Həzrət Peyğəmbər(s) və Əhli-beyt(ə) qiyamət gününün suallarının içində qərar tutmuşlar. Qəbir və qiyamət gününün əsas suallarından biri də Həzrət Peyğəmbər(s) və Əhli-beytin(ə) vilayət və məhəbbətidir.

**İmam Rza(ə) və İbn Əbi Həmzə**

İbn Əbi Həmzə İmam Rzanın(ə) dövründə yaşayırdı. O, Həzrət Peyğəmbəri(s), Həzrət Əlini(ə) və İmam Rzaya(ə) qədər olan yeddi imamı qəbul edirdi. Amma İmam Rzanın(ə) imamətini qəbul etmirdi. Onunla çox elmi müzakirələr aparılmışdı. Lakin o, İmam Rzanı(ə) qəbul etmirdi ki, etmirdi. O, öldükdən sonra İmam Rza(ə) onun barəsində belə buyurur:

إنّه أُقعِدَ فِي قَبرِهِ فسُئِلَ عنِ الأئمّةِ عليهم السلام فَأخبَرَ بأسمائِهِم، حتَّى انتَهى إِلَيَّ فَسُئِلَ فَوَقَفَ، فَضُرِبَ على رَأسِهِ ضَربَةً امتَلَأَ قَبرُهُ نارًا

-Onu qəbrə qoyduqdan sonra o, imamlar barədə sorğu-sual olundu. O, bütün imamların adlarını çəkdi və

[1] Mənşuri-Cavid, 9-cu cild, səh.284.
[2] Mənşuri-Cavid, 9-cu cild, səh.284.

mənim adıma çatdıqda dayandı. Mənim imamətim haqda ondan soruşdular, o, cavab vermədi. Sonra ona elə bir zərbə vurdular ki, qəbri odla doldu."[1]

Həsən ibn Əli Vəşşa deyir: "İmam Rza(ə) Xorasana gedərkən Mərvdə bizə buyurdu: "İbn Əbi Həmzə dünyasını dəyişdi." Mən bu sözə çox təəccübləndim. Çünki İbn Əbi Həmzə Mədinədə, biz isə Mərvdə idik. İmamın(ə) onun ölüm xəbərini söyləməsi bizdə həqiqətən də təəccüb doğurdu. Sonra İmam Rza(ə) buyurdu: "Onu qəbrə qoyduqdan sonra sorğu-sual üçün iki mələk onun yanına gəldi. İmamlar barəsində soruşduqda cavab verdi. Mənim imamətim haqda soruşduqda isə cavab vermədi. Buna görə də hazırda ona əzab verilir."

Həsən ibn Əli Vəşşa deyir: "Mən bir kənara çəkilib İmamın(ə) söylədiklərini qələmə aldım və həmin günün tarixini də yazdım. Bir müddətdən sonra bizə məktub gəlmişdi. Həmin məktubda İbn Əbi Həmzənin dünyasını dəyişdiyi və dəfn olunduğu gün də yazılmışdı. O tarixi qeydə aldığım tarixlə tutuşdurduqda gördüm ki, İmam Rzanın(ə) buyurduğu tarixlə üst-üstə düşür."[2]

## İmam Rza(ə) və xorasanlı bərbər

İmam Rza(ə) Xorasanda saçını seyrəltmək üçün bir bərbərin yanına getmişdi. Həmin bərbər Əhli-beytin(ə) və İmam Rzanın(ə) aşiqlərindən idi. O, İmamın(ə) saçını düzəltdikdən sonra İmam(ə) möcüzə yolu ilə onun ülgücünü və ülgüc itiləyən daşını qızıla

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16261.
[2] Qəbrin həqiqəti, səh. 107.

çevirdi. Bərbər əlindəki ülgüc və daşın qızıla çevrildiyini görüb dedi: “Ey Allahın höccəti, bu çox azdır. Mən sizdən qızıl istəmirəm. Mən bərbərlik etməklə özümü və ailəmi dolandırıram. Sizdən isə istəyim başqa şeydir.” İmam(ə) soruşdu: “İstəyini de.” Bərbər dedi: “Ey Peyğəmbər(s) övladı, mən qəbrin ilk gecəsindən çox qorxuram. Səndən xahişim budur ki, qəbrin ilk gecəsində mənə lütf edəsiniz. Həmin gecə səni səslədikdə mənə hay verməyinizi xahiş edirəm.”

İmam(ə) onunla razılaşıb getdi. Bu hadisənin üstündən bir müddət keçdi. Günlərin birində İmam Rza(ə) Məmunun məclisində əyləşmişdi. Birdən gördülər ki, Həzrət(ə) üç dəfə “Ləbbeyk” - deyə səsləndi. Səbəbini soruşduqda isə İmam(ə) belə buyurdu: “Həmin bərbər dünyasını dəyişdi. Bərbəri qəbrə qoyduqdan sonra nəkir və münkər onun başının üstünü aldıqda o, məni səslədi. Mən də ona söz vermişdim ki, həmin an məni səslədikdə ona cavab verim. Buna görə də onun səsinə hay vermək məqsədilə üç dəfə “Ləbbeyk” - deyə səsləndim.”[1]

## Hesab-kitab zamanı hansı əməllər sorğu-sual olunacaq

Qeyd edildi ki, qiyamətin mərhələlərindən biri hesab-kitabdır. Həmin gün insanlar sorğu-sual olunacaq və onlardan hesabat alınacaq. Həmçinin Quran ayələrinə əsasən qeyd olundu ki, insanın hesab-kitabı Allaha məxsusdur. Bu barədə insanı maraqlandıran bir mətləb də vardır. Yəni sual oluna bilər ki, görəsən, həmin gün insan

[1] Qəbrin həqiqəti, səh. 179.

nə barədə sorğu-sual olunacaq? Bu mətləb barəsində Quran ayələri iki qismə bölünür. Bir qism ayələrdə deyilir ki, insan gördüyü hər bir (xırda və böyük) əməl barədə sorğu-sual olunacaq. İkinci qism ayələrdə isə həmin gün soruşulacaq işlərin adları çəkilir. Burada yaxşı olar ki, hər iki qism ayələrdən bir neçə nümunə oxuyaq:

**1. Birinci qism ayələr**

Allah-təala "Nəhl" surəsinin 93-cü ayəsində belə buyurur:

وَلَتُسْأَلُنَّ عَمَّا كُنْتُمْ تَعْمَلُونَ

-Sözsüz ki, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız!

Qurani-Kərimin "Zumər" surəsinin 7-ci ayəsində isə deyilir:

ثُمَّ إِلَىٰ رَبِّكُمْ مَرْجِعُكُمْ فَيُنَبِّئُكُمْ بِمَا كُنْتُمْ تَعْمَلُونَ إِنَّهُ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ

-Sonra Rəbbinizin hüzuruna qayıdacaqsınız. O, sizə (dünyada) nə etdiklərinizi (bir-bir) xəbər verəcəkdir. Həqiqətən, Allah ürəklərdə olanları biləndir!

Bu ayələrdən açıq-aydın şəkildə görürük ki, hesab-kitab günündə insanın bütün əməlləri ilə bağlı bir-bir sorğu-sual aparılacaqdır. Qiyamət gününün hesabatı çox dəqiq olacaqdır.

Günlərin birində Məkkədə İmam Musa Kazim(ə) ilə Harun ər-Rəşid arasında olduqca maraqlı bir söhbət oldu. Harun məntiqi və elmi müzakirələr əsasında ümumi bir məsələni irəli sürüb İmamdan(ə) soruşdu: "Ey Peyğəmbər(s) övladı, din nədir? Dini mənim üçün şərh et." İmam Musa Kazim(ə) müxtəlif rəqəmləri və ədədləri sadalamağa başladı.

İmamın(ə) sözlərindən bir şey başa düşməyən Harun gülərək dedi: “Mən sizdən din barədə soruşuram, siz isə mənim üçün rəqəmləri sayıb hesablayırsınız?” İmam(ə) buyurdu: “Sən bilmirsənmi ki, din başdan-başa hesab deməkdir? Dini başa düşmək istəyirsənsə, ilk növbədə hesab-kitabı başa düşməlisən.”

İmam Musa Kazim(ə) bu sözləri deməklə başa salmaq istəyirdi ki, Allaha itaətsizlik edən, Onun qarşısında tüğyan edən insanın hesab-kitabı çox dəqiq və çətin olacaqdır. Harunun barəsində din hesab-kitabdır. İmam(ə) bu sözlərdən sonra “Ənbiya” surəsinin 47-ci ayəsini oxudu:

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ

-Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç bir kəsə heç bir şəkildə zülm olunmayacaq və onların haqlarından kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa belə, onu (tərəziyə) gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir.[1]

Rəhmətlik İmam Xomeyninin(r) oğlu deyir: “Atam rəhmətə gedəndən sonra gecələrin birində onu yuxuda gördüm. Mənə baxıb buyurdu: “Əhməd, bu dünya çox dəqiq dünyadır. Hətta əlimi qaldırıb camaata yelləməyim belə qeyd olunmuşdur. Mən buranın imtahanından keçib getdim.” Sonra buyurdu: “Əlli ilə dəyməz ki, insan bu dünyanı tutub axirətini əldən versin.” Atamın bu

[1] Dəh qərinə, səh.280.

sözlərindən sonra yuxudan ayıldım. Əhvalım çox yaxşı idi. Öz-özümə yuxunu təhlil etməyə başladım. O dünyanın hesab-kitabının çox dəqiq olduğunu və bütün əməllərin yazıldığını bildim. Atamın sözündən əvvəl bunları Quran bizə buyurmuşdur. Bütün bunları başa düşdüm, lakin "əlli il" söhbəti mənim üçün qaranlıq qaldı. Bir qədər düşündükdən sonra başa düşdüm ki, ömrüm əlli yaşımda tamam olacaq. Çünki bütün insanlar əlli yaşında dünyadan getmirlər. Atam yuxuda buna işarə edərək məni başa saldı ki, əlli ildən çox yaşamayacağam."

İmamın(r) oğlu Seyid Əhməd Xomeyni düz əlli yaşında rəhmətə getdi. Odur ki, bu aləmdə hər bir şeyin çox dəqiq hesab-kitabı vardır. Hətta insanın xərclədiyi bircə qəpiyin, danışdığı bircə kəlmə sözün və ya kiçik bir hərəkətinin belə hesab-kitabı aparılacaqdır. İnsanın bütün əməllərinin hamısı yazılıb saxlanılır.

**2. İkinci qism ayələr**

Qeyd olunduğu kimi, Quranda bir qism ayələrdə hesab günü soruşulacaq əməllərin adları çəkilir. Nümunə üçün həmin ayələrdən bir neçəsinə diqqət yetirək.

1) Allahın verdiyi bütün nemətlər

Quranda açıq-aydın şəkildə oxuyuruq ki, qiyamət günü insanlardan Allahın onlara verdiyi bütün nemətlər barədə sorğu-sual aparılacaq. "Təkasür" surəsinin 8-ci ayəsində belə buyurulur:

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

-Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!

Bu ayədə Allahın ümumi şəkildə insana bəxş etdiyi bütün nemətlər barədə söz açılır. Elə bir nemət yoxdur ki,

onu insana Allah bəxş etməsin. Allah verdiyi hər bir nemətə görə insanı sorğu-sual edəcək.

2) Quran

Qiyamət günü insandan aparılan sorğu-suallardan ikincisi Quran barəsindədir. “Zuxruf” surəsinin 44-cü ayəsində belə oxuyuruq:

وَإِنَّهُ لَذِكْرٌ لَكَ وَلِقَوْمِكَ وَسَوْفَ تُسْأَلُونَ

-Şübhəsiz ki, o (Quran) sənin üçün və sənin qövmün üçün zikrdir (şərəfli bir xatırlama, öyüd-nəsihətdir). Və siz (yaxın gələcəkdə) mütləq sorğu-sual olunacaqsınız!

Allah-təala qiyamət günündə insanları Qurana necə əməl etmələri barədə sorğu- sual edəcək. Quran elə bir kitabdır ki, Allah-təala qiyamət gününə qədər onu hər cür təhrifdən qoruyub saxlayacaqdır.

3) Şahidliklər

Qiyamət günü insanlardan soruşulacaq üçüncü məsələ dünyada etdikləri şahidlikləri barədədir. Allah-təala “Zuxruf” surəsinin 19-cu ayəsində buyurur:

سَتُكْتَبُ شَهَادَتُهُمْ وَيُسْأَلُونَ

-Onların bu şəhadəti (şahidlikləri əməl dəftərlərinə) yazılacaq və (bu barədə) sorğu-sual olunacaqlar!

Yəni insan dünyada nəyin barəsində şahidlik edibsə, qiyamət günü də ondan bu barədə sorğu-sual aparılacaq. Belə ki, şahidlik edərkən sözün düzünü deməsi, yaxud pul alıb yalandan danışması və ya ziyanına olsa da belə düzgün şahidlik etməsi və s. barədə soruşulacaq.

4) Günahsız qətllər

Qiyamət günü qətlə yetirilmiş bütün insanlar barəsində də sorğu-sual aparılacaq. “Təkvir” surəsinin 8-9-cu ayələrində oxuyuruq:

وَإِذَا الْمَوْءُودَةُ سُئِلَتْ. بِأَيِّ ذَنْبٍ قُتِلَتْ

-Diri-diri torpağa gömülən körpə qızdan: “Axı o, hansı günaha görə öldürüldü?” soruşulacağı zaman.

Bu ayədə işlənmiş “Movudə” kəlməsinin bir mənası ərəblərin cahillik dövründə diri-diri basdırdıqları qızlardır. Bir mənası da Əhli-beytə(ə) məhəbbət yolunda öldürülmüş insanlardır. İmam Baqir(ə) bu barədə belə buyurmuşdur: “Movudə” biz Əhli-beytə məhəbbət yolunda öldürülmüş kəslərdir.”[1]

5) Yalan və iftiralar

Qiyamət günü insan dünyada danışdığı yalanlar və etdiyi iftiralar barədə sorğu- sual olunacaqdır. “Nəhl” surəsinin 56-cı ayəsində belə buyurulur:

تَاللَّهِ لَتُسْأَلُنَّ عَمَّا كُنْتُمْ تَفْتَرُونَ

-Allaha and olsun ki, etdiyiniz iftiralara görə sorğu-sual ediləcəksiniz!

6) Sədaqətli insanlar

Qiyamət günü sədaqətli insanlar dünyada doğru danışdıqları və səmimiyyətləri barədə sorğu-sual ediləcəklər. “Əhzab” surəsinin 8-ci ayəsində oxuyuruq:

لِيَسْأَلَ الصَّادِقِينَ عَنْ صِدْقِهِمْ وَأَعَدَّ لِلْكَافِرِينَ عَذَابًا أَلِيمًا

-(Allah bununla ümmətlərin) doğru danışanlarından (cəza günü mükafat vermək üçün) doğruluqlarını xəbər alsın. O, kafirlər üçün ağrılı bir əzab hazırlamışdır.

## Qiyamət günü soruşulacaq suallar barədə hədislər

---

[1] Təfsiri-nümunə, 26-cı cild, səh.176.

Quran ayələrindən əlavə, hədislərdə də qiyamət günü hansı şeylər barədə insandan sorğu-sual aparılacağı bəyan edilmişdir. Bu barədə olan hədisləri bir yerə topladıqda görürük ki, insan aşağıdakı nəsnələr haqda sorğu-sual olunacaq:

1.İnsanın ömrü; 2.Cavanlığı; 3.Bədəni; 4. Qazancı və onu hara xərcləməsi; 5. Namazları; 6.Oturub-durduğu şəxslər; 7.Allahın vəhdaniyyəti; 8.Peyğəmbərin(s) nübüvvəti; 9. Həzrət Əlinin(ə) vilayəti və 10. Əhli-beytə(ə) məhəbbəti.

Burada yaxşı olar ki, bu barədə nəql olunmuş hədislərdən bir neçəsinə diqqət yetirək. Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) belə buyurmuşdur:

يَا عَلِيّ إِنَّ أَوَّلَ مَا يُسأَل عَنهُ العَبد بَعدَ مَوتِهِ شَهادَةُ أَن لا إِله إِلّا الله وَ أَنَّ مُحَمَّدًا رَسُولُ الله وَ أَنَّكَ وَلِيُّ الْمُؤمِنِين بِمَا جَعَلَهُ الله وَ جَعَلتهُ فَمَن أَقَرَّ بِذَلك وَ كَان يَعتَقِدُه صَارَ إِلَى النَّعِيم الَّذي لا زَوال لَه

-Ya Əli, bəndədən ölümündən sonra soruşulacaq ilk sual Allahdan başqa heç bir tanrının olmadığına, Məhəmmədin(s) Onun elçisi və sənin Onun əmiri, mənim göstərişimlə möminlərin vəlisi olmağına dair şəhadət verməsi olacaq. Kim bunu etiraf edib həmin əqidədə olarsa, nemətləri tükənməz cənnətə gedər.[1]

قَالَ رَسُولُ الله(ص): أَنَا أَوَّلُ قادِم عَلَى الله، ثُمَّ يَقدِمُ عَلَيَّ كِتَابُ الله، ثُمَّ يَقدِمُ عَلَيَّ أَهلُ بَيتِي، ثُمَّ يَقدِمُ عَلَيَّ أُمَّتِي، فَيَقِفُون فَيسأَلهم: مَا فَعلتُم فِي كَتاب وَ أَهلَ بَيتِ نَبِيّكُم ؟

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 289.

-Həzrət Peyğəmbər(s) buyurur: "Allahın hüzuruna gələcək ilk şəxs mən olacağam. Sonra Allahın kitabı (Quran), sonra Əhli-beytim, sonra isə ümmətim mənim yanıma gələcək. Ümmətimi saxlayıb soruşacaqlar: Dünyada Allahın kitabı və peyğəmbərinizin əhli-beyti ilə necə rəftar etdiniz?"[1]

قَالَ البَاقِرُ(ع): اَوَّلُ مَا يُحَاسَبُ بِهِ الْعَبْدُ الصَّلاةُ، فَاِنْ قُبِلَتْ قُبِلَ مَاسِوَاهَا

-İmam Baqir(ə) buyurur: "Bəndədən hesab soruşulacaq ilk sual namaz barədədir. Əgər namaz qəbul olsa, digər əməllər də qəbul olunacaq."[2]

Burada ola bilsin ki, insanın fikrinə belə bir sual gəlsin. Hədislərdə görürük ki, qeyd olunan sualların hər biri insandan ilk soruşulacaq sualdır. Bu necə ola bilər ki, bunların hamısı insandan birinci olaraq soruşulsun? Cavab belədir ki, həmin sualların hər birinin soruşulacağı məkan mövcuddur. Yəni onların hərəsinin öz yeri və hər bir dayanacağın soruşulacaq ilk sualı vardır. Məsələn, əqidə barədə soruşulan sualların birincisi tövhiddir. Əməllə bağlı sualların içərisində isə ilk soruşulan əməl namazdır.

قَالَ رَسُولُ اللهِ(ص): لَا يَزُولُ قَدَمَا عَبْدٍ يَوْمَ الْقِيَامَةِ حَتَّى يُسْأَلَ عَنْ أَرْبَعٍ عَنْ عُمُرِهِ فِيمَا أَفْنَاهُ وَشَبَابِهِ فِيمَا أَبْلَاه وَعَنْ مَالِهِ مِنْ أَيْنَ كَسَبَهُ وَفِيمَا أَنْفَقَهُ وَعَنْ حُبِّنَا أَهْلَ الْبَيْتِ

---

[1] Biharül-ənvar, 7-ci cild, səh. 265.
[2] Mənşuri-Cavid, 9-cu cild, səh. 267.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü elə bir bəndə yoxdur ki, ayağını atmağa macal tapmamış o, bu dörd şey barədə sorğu-sual olunmasın.

1.Ömrünü harada sərf etməsi;

2.Cavanlığını necə keçirməsi;

3.Mal-dövlətini hansı yolla qazanması və harada xərcləməsi;

4.Biz Əhli-beytə məhəbbəti."[1]

Digər bir hədisdə isə belə nəql olunur ki, insanlar hətta oturub-durduqları şəxslər barədə də sorğu-sual ediləcəklər.

اِنَّ اَوَّلَ مَا يُسأَل عَنهُ العَبد يَومَ القِيامَة عَن جُلَسائِه

-Qiyamət günü bəndədən soruşulacaq ilk sual oturub-durduğu şəxslər barədə olacaq.[2]

Deməli, qiyamət günü aparılacaq sorğu-sualla bağlı Qurani-Kərimdə iki qism ayələr vardır. Həmin ayələrin bir qismində qiyamət günü sorğu-sualın qaçılmaz olmasından, digər ayələrdə isə hansı əməl və işlərdən soruşulacağı barədə söz açılır. Bu ayələrdən belə bir nəticə çıxarmaq olur ki, qiyamət günü insanlar hər bir şey barədə sorğu-sual olunacaqlar. Əgər insan Quran barədə sorğu-sual olunacaqsa, Quranın əhəmiyyətli olduğunu bildirir. Əgər namaz barədə soruşulacağı bəyan edilirsə, deməli, namazın əhəmiyyətli olduğu başa salınır.

Əbu Hənifə deyir: "Bir gün İmam Sadiqin(ə) hüzuruna getdim və ondan bu ayə barədə soruşdum. Dedim: "Ey Allahın höccəti, bu ayədə Allah-təalanın bizdən soruşacağı nemətlər hansılardır?" İmam(ə) həmin sualı mənim özümə qaytararaq buyurdu: "Əbu Hənifə, sən özün bu barədə nə

[1] Biharül-ənvar, 7-ci cild, səh. 258.
[2] Quranın xəbər verməsi, 6-cı cild, səh.177.

fikirləşirsən?” Dedim: “Ey Peyğəmbərin(s) balası, yəqin ki, Allah bizi verdiyi can, mal-dövlət, bədən üzvləri, ömür, cavanlıq və s. kimi şeylər barədə sorğu-sual edəcəkdir.” İmam(ə) buyurdu: “Əbu Hənifə, onların hamısı düzdür. Lakin Allah-təala insanları bunlardan da mühüm bir şey barədə sorğu-sual edəcəkdir.” Soruşdum: “O hansıdır?” İmam(ə) buyurdu: “Qiyamət günü ən mühüm və ilk sorğu-sual Əhli-beyt(ə) barəsində olacaqdır. Çünki Allah-təala Əhli-beytə(ə) xatir bütün insanlara ömür, cavanlıq, ruzi, mal-dövlət və s. verir və onların vasitəsilə insanları hidayət edir.” [1]

## Hesab-kitab hamı üçündürmü?

Burada bir mətləbə də diqqət yetirmək yaxşı olardı. Həmin mətləb də bundan ibarətdir ki, görəsən, qiyamət günü nəzərdə tutulan hesab-kitab hamıya aiddirmi? Yuxarıda Quran ayələrinə istinad edərək qeyd olundu ki, bütün insanlar istisnasız olaraq hesab-kitab ediləcəklər. Amma bəzi ayələrə də rast gəlirik ki, onlarda günahkar insanların sorğu-sual olunmayacaqlarından söz açılmışdır. Əgər belədirsə, o zaman bəzi insanların fikrinə gələ bilər ki, bu ayələr bir-biri ilə ziddiyyət təşkil edir. Çünki bir ayədə hamının istisnasız olaraq hesab-kitab olunacağı bəyan edilir, digər ayədə isə günahkarların hesab-kitab olunmayacağı deyilir. Sual oluna bilər ki, bu ayələr bir-biri ilə ziddiyyət təşkil etmirmi? Bunu bilmək üçün ilk növbədə müvafiq ayə və hədislərdən bir neçəsinə diqqət yetirək, sonra isə həmin qeyd olunan sualın cavabını açıqlayaq.

Allah-təala “Əraf” surəsinin 6-cı ayəsində buyurur:

فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ

[1] Təfsiri-nümunə, 27-ci cild, səh. 286.

-Odur ki, şübhəsiz, Biz həm peyğəmbərlərin göndərildiyi kəslərdən (“Bizim peyğəmbərlərimizə nə cavab verdiniz?” - deyə) soruşacağıq və həm də peyğəmbərlərdən (“Mənim tapşırdıqlarımı çatdırdınız, ya yox və sizin dəvətinizə nə cavab verdilər?” - deyə) soruşacağıq.

قَالَ عَلِيّ(ع): وَ ذَلِكَ يَوْمٌ يَجْمَعُ اَللَّهُ فِيهِ اَلْأَوَّلِينَ وَ اَلْآخِرِينَ لِنِقَاشِ اَلْحِسَابِ وَ جَزَاءِ اَلْأَعْمَالِ خُضُوعاً قِيَاماً

-Həzrət Əli(ə) buyurur: “Qiyamət günü elə bir gündür ki, Allah-təala həmin gün hesabları çürütmək və əməllərin cəzasını vermək üçün keçmişdəki və gələcəkdəki bütün yaradılmışları toplayar. Onlar xarlıq və təvazökarlıqla ayaq üstə dayandıqları halda və *(izdihamın çoxluğundan və istiliyin şiddətindən)* tər cilov kimi ağızlarının ətrafını bürüyər və yerin zəlzələsi onları titrədər.”[1]

İmam Baqir(ə) Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

يَا مَعَاشِرَ قُرَّاءِ الْقُرْآنِ اتَّقُوا الله عَزَّ وَجَلَّ فِيمَا حَمَّلَكُمْ مِنْ كِتَابِهِ فَإِنِّي مَسْئُولٌ وَإِنَّكُمْ مَسْئُولُونَ إِنِّي مَسْئُولٌ عَنْ تَبْلِيغِ الرِّسَالَةِ وَأَمَّا أَنْتُمْ فَتُسْأَلُونَ عَمَّا حُمِّلْتُمْ مِنْ كِتَابِ الله وَسُنَّتِي

-Ey Quran oxuyanlar! Allahın kitabını daşıdığınızdan (əzbərlədiyiniz, yaxud oxuduğunuzdan) ötrü Allahdan qorxun. Həqiqətən (qiyamət günü) həm məndən, həm də sizdən sorğu-sual olunacaq. Məndən Quranı insanlara necə təbliğ etdiyim və çatdırdığım barədə soruşulacaq.

[1] Nəhcül-bəlağə, 101-ci xütbə.

Sizdən isə kitaba və sünnətimə necə əməl etdiyiniz barədə soruşulacaq.[1]

Qeyd olunan ayə və hədislərdə açıq-aydın şəkildə görürük ki, qiyamət günü istisnasız olaraq hər bir kəsdən mütləq sorğu-sual aparılacaq. Amma bəzi ayələrdə isə bəyan olunur ki, günahkarlar sorğu-sual olunmayacaqlar. Məsələn, "Ər-Rəhman" surəsinin 39-cu ayəsində oxuyuruq:

فَيَوْمَئِذٍ لَا يُسْأَلُ عَنْ ذَنْبِهِ إِنْسٌ وَلَا جَانٌّ

-O gün nə bir insan, nə də bir cin günahı barəsində sorğu-sual olunmayacaqdır!

"Qəsəs" surəsinin 78-ci ayəsində isə belə oxuyuruq:

وَلَا يُسْأَلُ عَنْ ذُنُوبِهِمُ الْمُجْرِمُونَ

-Günahkarlar (cinayətkarlar) öz günahları barəsində sorğu-sual olunmazlar.

Bu ayələrdən də açıq-aydın şəkildə görürük ki, günahkarlar sorğu-sual olunmayacaqlar. Sual da elə buradan irəli gəlir ki, əvvəlki ayələrdə qiyamət günü hamının sorğu-suala tutulacağı barədə, bu ayələrdə isə günahkarlardan heç bir şey soruşulmayacağı barədə söz açılır. Buna görə də bəziləri soruşurlar ki, həmin ayələr bir-biri ilə ziddiyyət təşkil etmir?

Qeyd olunan bu iki qism ayələrə məntiq elmində "təbayüni külli" deyilir. İrəli sürülən sualın cavabı isə çox asandır. Ümumiyyətlə, Qurani-Kərimin özünəməxsus bir dəst-xətti və yazılış mədəniyyəti vardır. Quranla tanışlığı olan və onun (yazılış mədəniyyətini) dilini bilən şəxslər üçün bu kimi məsələlərə aydınlıq gətirmək çox asandır. Təfsirçi alimlər bu kimi məsələləri kifayət qədər aydın

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 297.

şəkildə və rahatlıqla açıqlaya bilmişlər. Qeyd olunan suala bir neçə asan cavab vermək olar ki, nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək. Cavablardan biri belədir:

-Günah etmiş bir insanın günahlarının təsiri elə onun üzündən də bəllidir. Qiyamət günü günahkar və cinayətkarı məhşərə gətirərkən onların etdikləri günahlar və ya cinayətlər tam açıq-aydın şəkildə üzlərindən bəlli olacaqdır. Belə olduqda həm onun özü, həm də onu görənlər daha ondan heç bir şey soruşmurlar. Çünki məsələ tamamilə aydındır. Məsələn, fərz edək ki, bir nəfər oğurluğa gedir. Bir evə girib oranı talamaqla məşğul olur. Bir nəfər isə pəncərənin yanında dayanıb onun etdiyi hərəkətlərə fikir verir. Oğru evdə nə var idisə götürüb çıxarkən birdən gözü pəncərədən ona tamaşa edən şəxsə sataşır. Burada oğruya tamaşa edən həmin şəxsin ondan nə etdiyini soruşmasına heç bir ehtiyac qalmır. Oğrunun da öz növbəsində ona bir söz deməsinə ehtiyac yoxdur. Çünki məsələ hər ikisinə gün kimi aydındır. Odur ki, qiyamət günündə günahkarlar və cinayətkarlar üzlərindən tanındıqları üçün onlardan heç bir şey soruşmağa ehtiyac qalmır. Bunun sübutu "Ər-Rəhman" surəsinin 39, 41-ci ayələrindədir ki, Allah-təala burada belə buyurur:

فَيَوْمَئِذٍ لَا يُسْأَلُ عَنْ ذَنْبِهِ إِنْسٌ وَلَا جَانٌّ. يُعْرَفُ الْمُجْرِمُونَ بِسِيمَاهُمْ

-O gün nə bir insan, nə də bir cin günahı barəsində sorğu-sual olunmayacaqdır! Günahkarlar üzlərindən tanınacaqlar.

Əlbəttə, qeyd etmək lazımdır ki, bunun mənası cinayətkarın cəzalanmayacağı deyildir. Yəni sadəcə olaraq onun cinayətlərini dilə gətirməyə və soruşmağa heç bir ehtiyac qalmayacaq.

İkinci cavab isə belədir ki, cinayətkarlar və günahkarların şahidləri olduğu üçün onlar sorğu-sual edilməyəcəklər. Əgər qiyamət günü bir insanın əlləri, ayaqları və dərisi onun əleyhinə şahidlik edəcəksə, daha ondan nəyisə soruşmağa heç bir ehtiyac olmayacaqdır. Allah-təala "Yasin" surəsinin 65-ci ayəsində belə buyurur:

الْيَوْمَ نَخْتِمُ عَلَىٰ أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

-O gün onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər.

Nəticədə görürük ki, qiyamət gününün hesab-kitabı, sorğu-sualı hamı üçündür. Yalnız bəzi insanlar istisna olaraq əməllərinin şərafətinə görə sorğu-sualsız cənnətə, bəziləri isə əməllərinin çirkinliklərinə görə sorğu-sualsız cəhənnəmə gedəcəklər. Burada yaxşı olar ki, istisna təşkil edən hər iki qrup insanların əməlləri ilə daha yaxından tanış olaq.

## Hesab-kitabsız cəhənnəmə gedənlər

### 1. Müşriklər

Qiyamət günü Allaha şərik qoşanlar, yaxud Ondan başqasına ibadət edənlər heç bir sorğu-sual olunmadan cəhənnəmə aparılacaqlar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ عَزَّوجلّ يُحاسِبُ كُلَّ خَلقٍ إِلّا مَن أَشْرَكَ باللهِ، فَإِنَّهُ لا يُحاسَبُ يَومَ القِيامَةِ ويُؤْمَرُ بهِ إِلى النّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala yalnız Allaha şərik qoşan bütün insanlarla haqq-hesab çəkəcək.

Qiyamət günü onların sorğu-sual olunmadan cəhənnəmə atılmaları əmr ediləcək.” [1]

قَالَ الإِمَامُ السَّجاد(ع): اِعلَمُوا عِبَادَ الله أَنَّ أَهلَ الشِّرك لا تُنصَب لَهُم الْمَوازين، وَلا تُنشَر لَهُم الدَّواوين، وَ إِنَّما يُحشَرونَ إِلى جَهَنَّم زُمراً، وَ إِنَّما نَصْبُ الْمَوازِين، ونَشْرُ الدَّواوِين لِأَهلِ الْإِسلام

-İmam Səccad(ə) buyurur: “Ey Allah bəndələri! Bilin ki, (Qiyamət günü) şirk əhli üçün tərəzilər və məhkəmələr qurulmayacaq. Çünki onlar birbaşa cəhənnəmə gedəcəklər. Qiyamət günü tərəzilər yalnız İslam əhli üçün qurulacaq.”[2]

### 2-4. Yolunu azmış zalım rəhbər, yalan danışan tacir və zinakar qocalar

Qiyamət günü zalım rəhbərlər, yalan danışan tacirlər və zinakar qocalar da hesab-kitabsız cəhənnəmə gedən insanlar qrupuna daxildir. İmam Sadiq(ə) həmin üç qism insanlar barədə belə buyurmuşdur:

ثَلاثةٌ يُدْخِلُهمُ اللهُ النّارَ بغَيرِ حِسابٍ... إمامٌ جائرٌ، و تاجرٌ كَذوبٌ، و شَيخٌ زانٍ

-Üç qrup insanı Allah-təala sorğu-sualsız cəhənnəmə aparacaq: yolunu azmış zalım rəhbərləri, yalan danışan tacirləri və zinakar qocaları.[3]

### 5. Paxıl alimlər

---

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 298.
[2] Yenə orada, səh. 297.
[3] Mizanül-hikmə, 3-cü cild, hədis - 3894.

Hesab-kitab aparılmadan cəhənnəmə daxil edilən insanların bir qismi isə paxıl alimlərdir. Həzrət Peyğəmbər(s) buyurur ki, bir neçə qrup insan hesab-kitabsız cəhənnəmə daxil olacaqdır:

الأُمَراءُ بالجَورِ، و التُّجّارُ بالكذب، و العُلَماءُ بالحَسدِ...

-Əmirlər (rəhbərlər) zülm etdiklərinə görə, tacirlər yalan danışdıqlarına görə və alimlər paxıllıq etdiklərinə görə.[1]

**Hesab-kitabsız cənnətə gedənlər**

Ayə və hədislərə əsasən bir neçə qrup insan isə Allah dərgahında bəyənilmiş və yaxşı əməllərinə görə qiyamət gününün hesab-kitabı məsələsində istisna təşkil edəcəklər. Yəni bu qism insanlar hesab-kitab görmədən birbaşa cənnətə gedəcəklər. Burada yaxşı olar ki, nümunə üçün həmin insanlardan bir neçəsinə də diqqət yetirək.

**1. Səbirlilər**

Dünyada bəzi əməllər möminlər üçün həqiqətən də çətindir. Onların bu çətinliklər qarşısında səbir etmələrinin mükafat və şərafəti ondan ibarətdir ki, Allah- təala qiyamət günü onları haqq-hesaba çəkməyəcəkdir. Allah-təala "Zumər" surəsinin 10-cu ayəsində səbirli bəndələri barədə belə buyurur:

قُلْ يَا عِبَادِ الَّذِينَ آمَنُوا اتَّقُوا رَبَّكُمْ لِلَّذِينَ أَحْسَنُوا فِي هَٰذِهِ الدُّنْيَا حَسَنَةٌ وَأَرْضُ اللَّهِ وَاسِعَةٌ إِنَّمَا يُوَفَّى الصَّابِرُونَ أَجْرَهُمْ بِغَيْرِ حِسَابٍ

-(Ya Peyğəmbər! Mənim adımdan bəndələrimə) de: "Ey Mənim iman gətirən bəndələrim! Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edənlərə (axirətdə) yaxşılıq (Cənnət)

[1] Yenə orada, hədis - 3895.

vardır. Allahın yeri genişdir (sizə bir çətinlik üz versə, başqa ölkələrə hicrət edə bilərsiniz). Həqiqətən, səbir edənlərin mükafatı hesabsız və kamil şəkildə veriləcəkdir.”

قالَ رسولُ اللهِ(ص): إذا نُشِرَتِ الدَّواوينُ ونُصِبَتِ الموازينُ لم يُنْصَبْ لأهلِ البَلاءِ مِيزانٌ، ولَم يُنْشَرْ لَهُم دِيوانٌ، وتلا هذِهِ الآيةَ : «... إنَّما يُوَفَّى الصّابِرونَ أَجْرَهُمْ بِغَيْرِ حِسَابٍ » .

-Həzrət Peyğəmbər(s) buyurur: “Əməl dəftərləri açılan və tərəzilər qurulan zaman (dünyada) bəla görənlər[1] üçün tərəzilər qurulmaz və əməl dəftərləri açılmaz.” Sonra bu ayəni oxudu: “Həqiqətən, səbir edənlərin mükafatları hesabsız və kamil şəkildə veriləcəkdir…” [2]

İmam Baqir(ə) Həzrət Peyğəmbərdən(s) belə rəvayət edir:

---

[1] Dünyada bəla və çətinliklər qarşısında dözümlü, təmkinli və səbirli olanlar.
[2] Təfsiri-nümunə, 19-cu cild, səh. 403.

إِذَا كَانَ يَوم القِيَامَة جَمَعَ اللهُ الْخَلائِق فِي صَعيدٍ وَاحدٍ وَ نَادى مُنادٍ مِن عِندِ الله: أَين أَهلُ الصَّبر؟ فَيَقُومُ عُنُقٌ مِنَ النَّاس فَتَستَقبِلُهُم زُمرَةٌ مِنَ الْمَلائِكَة فَيَقُولُونَ لَهُم: مَا كَانَ صَبرُكُم هذا الَّذِي صَبرتُم؟ فَيَقُولُون: صَبَّرنا أَنفُسَنا عَلى طَاعَةِ الله، وَ صَبَّرناهَا عَن مَعصِيَتِهِ. فَيُنَادِي مُنادٍ مِن عِندِ الله: صَدَقَ عِبادِي خَلُّوا سَبيلَهُم لِيَدخُلُوا الْجَنَّة بِغَيرِ حِسَاب

-İmam Sadiq(ə) buyurur: "Allah-təala qiyamət günü bütün insanları bir yerə toplayanda Onun tərəfindən bir carçının səsi eşidiləcək: "Hanı səbir edənlər?" Camaatın içərisindən bir qrup insan ayağa qalxacaq. Mələklər onları qarşılayaraq soruşarlar: "Siz dünyada nəyə səbir etmisiniz." Cavab verərlər: "Allaha itaət yolunda və günahlardan çəkinməkdə səbir etmişik." Yenə də Allah tərəfindən bir carçı səslənəcək: "Mənim bu bəndələrim doğru deyirlər. Onların yolunu boşaldın ki, hesab-kitabsız cənnətə daxil olsunlar."[1]

Bu hədisdə insanın iki əsas məsələ qarşısında səbir etməsindən söz açılmışdır. Biri budur ki, insan Allahın vacib buyurduğu əmrləri səbirlə yerinə yetirsin, digəri isə Allahın haram buyurduqlarının qarşısında səbir etsin. Yəni günahla qarşılaşdıqda səbirlə davranaraq həmin günah əməli etməsin. Bəzi hədislərdə səbrin üç növü nəql olunmuşdur ki, həmin üçüncü növü insanın müsibətlər, çətin hadisələr və bəlalar qarşısında səbir etməsidir. Səbrin bu üçüncü növü öncə qeyd

[1] Biharül-ənvar, 7-ci cild, səh. 171.

olunan həmin iki növə qayıdır. Yəni bu üçüncü növ birinci və ikinci növ səbirlərin içərisindədir. Səbir etməyin insan üçün bir çox acılıqları vardır. Belə ki, camaat yeyib-içməklə, eyş-işrətlə, dünyanın haram işləri ilə məşğul olarkən mömin bəndə bütün bunlardan uzaq durub səbirlə Allahın razı olduğu işləri gördükdə və dünya əhli ona rişxənd edərək tənəli sözlər dedikdə səbir edib dözərsə, Allah-təala həmin şəxsə hesabsız mükafat verəcəkdir. Belə ki, dünyadakı səbrin acılıqları axirət günündə şirinliyə çevriləcək.

قَالَ عَلِيّ(ع): حَلاوَةُ الظَّفَرِ تَمْحُو مِرارَةَ الصَّبْرِ

-Həzrət Əli(ə) buyurur: "Qələbənin şirinliyi səbrin acılığını aradan qaldırar."[1]

**2. Fəzilət əhli**

Qiyamət günü hesab-kitabsız cənnətə gedən ikinci qrup insanlar fəzilət əhli olacaqdır. "Fəzl" kəlməsinin mənasına gəldikdə isə, bəxşiş, yaxşılıq, ehsan, (ruhi cəhətdən) üstünlük və kamillik mənalarını ifadə edir. Amma qiyamət günü dünyada imanları möhkəm olduğuna görə İlahi təqvaya riayət etmiş fəzilət əhli hesab-kitabsız cənnətə daxil olacaqlar. Cahillərin onlara əziyyət verməlırinə, rişxənd etmələrinə və məsxərəyə qoymalarına baxmayaraq, onlar öz imanlarını qoruyub saxlamaq üçün heç kimə əhəmiyyət verməyib güzəştə gedərlər.

İmam Baqirin(ə) yuxarıda qeyd olunan Həzrət Peyğəmbərdən(s) rəvayət etdiyi hədisin davamı belədir:

[1] Qürərül-hikəm, hədis - 4882.

ثُمَّ يُنَادِي مُنادٍ آخَر... فَيَقُول: أَينَ أَهلُ الفَضل؟ فَيَقُومُ عُنُقٌ مِنَ النَّاس فَتَستَقبِلُهُم زُمرَةٌ مِنَ الْمَلائِكَة فَيَقُولُونَ لَهُم: مَا فَضلُكُم هَذا الَّذي نُدِيتُم بِه ؟ فَيَقُولُون: كُنَّا يَجهَل عَلَينا فِي الدُّنيا فَنَحتَمِل وَيساء إِلينَا فَنَعفُو. فَيُنَادِي مُنادٍ مِن عِندِ الله: صَدَقَ عِبادِي خَلُّوا سَبيلَهُم لِيَدخُلُوا الْجَنَّة بِغَيرِ حِسَاب

-Allah-təala qiyamət günü bütün insanları bir yerə toplayanda Onun tərəfindən yenə də carçının səsi eşidiləcək: “Hanı fəzilət əhli olanlar?” Camaatın içərisindən bir qrup insan ayağa qalxacaq. Mələklər onları qarşılayaraq soruşarlar: “Siz dünyada necə fəzilət əhli olmusunuz ki, bu gün nida edib sizi belə çağırdılar?” Cavab verərlər: “Dünyada cahillər bizə rişxənd edərkən, ələ salıb məsxərəyə qoyarkən biz bütün bunlara dözüb (işlərimiz pozulmasın, imanımıza xələl gəlməsin deyə onlara əhəmiyyət vermirdik və) onları bağışlayırdıq.” Yenə də Allah tərəfindən bir carçı səslənəcək: “Mənim bu bəndələrim doğru deyirlər. Onların yolunu boşaldın ki, hesab-kitabsız cənnətə daxil olsunlar.”[1]

**3. Möminlərlə səmimi davrananlar**

Qiyamət günü hesab-kitabsız cənnətə gedən üçüncü qrup insanlar möminlərlə səmimi rəftar edənlər olacaqlar.

Yuxarıdakı hədisin davamında belə oxuyuruq:

ثُمَّ يُنَادِي مُنادٍ مِنَ اللهِ عَزَّوَجَلّ... أَينَ جِيرَانُ الله تَعَالى فِي دَارِه؟ فَيَقُومُ عُنُقٌ مِنَ النَّاس فَتَستَقبِلُهُم زُمرَةٌ مِنَ الْمَلائِكَة فَيَقُولُونَ لَهُم: مَا كَانَ عَمَلُكُم فِي دَارِ الدُّنيا فَصِرتُم بِه اليَوم جِيرانَ الله تَعَالى فِي دَارِه؟

[1] Biharül-ənvar, 7-ci cild, səh. 171.

فَيَقُولُون: كُنَّا نَتَحابُّ فِي اللهِ عَزَّوَجَلّ، وَنَتَبَاذَل فِي الله، وَنَتَوازَر فِي الله. فَيُنَادِي مُنادٍ مِن عِندِ الله: صَدَقَ عِبادِي خَلُّوا سَبيلَهُم لِيَدخُلُوا الجَنَّة بِغَيرِ حِسَاب

-Sonra Allah tərəfindən yenə də carçının səsi eşidiləcək: "Hanı Allah evinin qonşuları?" Camaatın içərisindən bir qrup insan ayağa qalxacaq. Mələklər onları qarşılayaraq soruşarlar: "Siz dünyada hansı işləri görmüsünüz ki, bu gün Allah evinin qonşuları olmusunuz?" Cavab verərlər: "Biz dünyada (möminlərlə) yalnız Allaha xatir məhəbbət və mehribanlıqla davranırdıq. Bir-birimizə yalnız Allah rizasına görə hədiyyə verərdik. Bir-birimizi Allaha xatir ziyarət edib baş çəkirdik." Yenə də Allah tərəfindən belə bir nida gələcək: "Mənim bu bəndələrim doğru deyirlər. Onların yolunu boşaldın və onları hesab-kitabsız cənnətdə Allahın (məqamının) qonşuluğuna yola salın."[1]

**4. Şəhidlər və Allah yolunda işgəncəyə məruz qalanlar**

Qiyamət günü hesab-kitabsız cənnətə gedən dördüncü qrup insanlar Allah yolunda şəhid olanlar və işgəncələrə məruz qalanlardır.

قَالَ رَسُولُ الله(ص): يَقولُ اللهُ تعالى: أيْ عِبادِيَ الّذينَ قاتَلوا في سَبيلي، و قُتِلوا و أُوذوا في سَبيلي، و جاهَدوا في سَبيلي، ادْخُلوا الجَنّةَ، فيَدخُلونَها بغَيرِ عَذابٍ و لا حِسابٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala xitab edərək buyurur: Ey Mənim yolumda vuruşan və Mənim

[1] Biharül-ənvar, 7-ci cild, səh. 171.

yolumda öldürülən, Mənim yolumda əziyyət çəkən (işgəncələrə məruz qalan) və Mənim yolumda cihad edən bəndələrim, cənnətə daxil olun.” Sonra onlar əzab görmədən və sorğu-sualsız cənnətə daxil olarlar.” [1]

قَالَ رَسُولُ اللهِ(ص): أفضَلُ الشُّهَداءِ الذين يُقاتِلُونَ في الصفِّ الأوَّلِ، فلا يَلفِتُونَ وُجوهَهُم حتّى يُقتَلُوا، أُولئكَ يَتَلَبَّطُونَ في الغُرَفِ العُلى مِنَ الجَنَّةِ، يَضحَكُ إلَيهِم ربُّكَ، فإذا ضَحِكَ رَبُّكَ إلى عَبدٍ في مَوطِنٍ فلا حِسابَ علَيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ən üstün şəhidlər ön cərgədə ölənə qədər döyüşüb düşməndən üz çevirməyən kəslərdir. Onlar cənnətin ən yüksək dərəcələrində qərar tutacaqlar. Pərvərdigar onlara təbəssüm edəcək. Allah bir bəndənin üzünə təbəssüm etdikdə həmin bəndəyə hesab-kitab yoxdur.”[2]

Həzrət Peyğəmbər(s) peyğəmbərliyə məbus olduqdan sonra İslamın ilk vaxtlarında Yasir və Süməyyə adlı ər-arvad Həzrətə(s) iman gətirmişdilər. Onların Abdullah və Əmmar adlı iki oğlu da var idi. Yasir Əbu Cəhllə mübarizə edərkən şəhid oldu. Onun həyat yoldaşı Süməyyə də Allah yolunda şəhid oldu. Süməyyəni şəhid etməzdən əvvəl ona nalayiq sözlər deyirdilər ki, tutduğu bu yoldan əl çəksin. Deyirdilər ki, sən Məhəmmədin(s) gözəlliyinə aşiq olmusan, onun dininə yox. Belə- belə sözlərlə onu təhrik etmək istəyirdilər. Bütün bu kimi nalayiq sözlərə baxmayaraq, həmin əzəmətli xanım

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3889.
[2] Mizanül-hikmə, 6-cı cild, hədis - 9811.

tutduğu yoldan dönmədi. Axırda onu işgəncə ilə öldürüb şəhid etdilər. İslamın birinci şəhid qadını məhz Süməyyə olmuşdur. Müşriklər onların iki övladı Abdullah və Əmmarı da işgəncələrə məruz qoydular. Belə ki, yaralı vəziyyətdə onları isti daşların üstündə sürüyürdülər ki, Həzrət Peyğəmbəri(s) inkar etsinlər. Amma bütün bu işgəncələrə baxmayaraq, onlar Həzrət Peyğəmbərdən(s) imtina etmədilər.

Həzrət Peyğəmbər(s) bu ailə haqqında belə buyurdu: “Allah yolunda səbir etdiniz. Siz cənnətdə mənimlə görüşəcəksiniz.”

**5. Az ruziyə qane və razı olanlar**

Qiyamət günü hesab-kitabsız cənnətə gedən beşinci qrup insanlar Allahın onlara verdiyi az ruziyə qane və razı olanlardır. Bu bəndələri Allah-təala kasıbçılıq və yoxsulluqla imtahana çəkmişdir. Onlar yoxsul olmalarına baxmayaraq, halal ruzinin azına qane olub Allaha xatir haram yollara əl atmırlar. Səbir edib Allahın onlara əta etdiyi az ruziyə qane olurlar. Allah-təala qiyamət günü həmin bəndələrini hesab-kitabsız cənnətə aparar.

قَالَ الصَّادِقُ(ع): إِذا كانَ يَومُ القِيامَةِ قامَ عُنُقٌ مِن النّاسِ حتّى يَأتوا بابَ الجَنّةِ فيَضْرِبوا بابَ الجَنّةِ، فيُقالُ لَهُم: مَن أنتُم؟ فيقولونَ: نَحنُ الفُقَراءُ، فيقالُ لَهُم: أقَبْلَ الحِسابِ؟! فيقولونَ: ما أعْطَيْتُمونا شَيئا تُحاسِبونا علَيهِ! فيقولُ اللهُ عَزَّ و جَلَّ: صَدَقوا، ادْخُلوا الجَنّةَ

-İmam Sadiq(ə) buyurur: “Qiyamət günü xalqın içindən bir dəstə insan qalxıb cənnətin qapısına gələcək və qapını döyəcək. Onlardan soruşacaqlar: “Siz kimsiniz?” Deyəcəklər: “Biz yoxsullarıq.” Deyiləcək: “Sorğu-sual

olunmamış cənnətə daxil olmaq istəyirsiniz?" Cavab verərlər: "Bizə bir şey vermişdiniz ki, onun barəsində də sorğu-sual edəsiniz?" Sonra Allah-təala buyurar: "Doğru deyirlər, cənnətə daxil olun."[1]

Həyatda bir sıra böyük şəxsiyyətlər olmuşlar ki, onlar müəyyən zikrlər vasitəsilə özlərini fəqir və yoxsulluq səviyyəsinə salmış və belə bir yaşam tərzini seçmişlər. Bəzi zikrlər vardır ki, onların əsas xüsusiyyəti insanları fəqir etməkdir. Hər bir meyvə və bitkinin öz xüsusiyyəti olduğu kimi, hər bir zikrin də özünəməxsus xüsusiyyəti vardır. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, bu zikrləri etməklə özünü fəqir etmək hər bir insanın səlahiyyətində deyil. Çox nadir və böyük insanlar bu işi görərmişlər.

Mərhum Şeyx Həbibullah Qolpayeqani böyük və dahi şəxsiyyətlərdən sayılırdı. O, çox zahid, arif, alim və abid bir insan idi. Çox imkanlı və maddi cəhətdən vəziyyəti yaxşı olmasına baxmayaraq, bu imkandan özü üçün istifadə etməmişdir. Ömrünün axırına qədər kiçik bir otaqda gününü keçirirmiş. O, qırx il soğan-çörək yeməklə kifayətlənmişdi. Həftə ərzində bəzən yalnız bircə dəfə isti yemək yeyərdi. Belə ki, həmin yeməyi də hər cümə axşamı yaxın bir dostu onun üçün hazırlayıb gətirərdi. O da yalnız həmin dostunun gətirdiyi yeməyi qəbul edirdi. Bundan başqa, heç bir kəsə razı olmurdu ki, onun üçün yemək gətirsin. O, zikrlə özünü fəqir səviyyəsinə gətirib çıxarmışdı. Bundan əlavə, qırx il müddətində davamlı olaraq hər gün İmam Rza(ə) ziyarətgahının ilk zəvvarı olmuşdur. Hamıdan qabaq ziyarətgaha gələr və İmam

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3886.

Rzanın(ə) hərəmi açılan kimi ilk ziyarətçi olardı. Qırx il gecə namazlarını İmam Rzanın(ə) hərəmində qılmışdı.

Günlərin birində o, bərk xəstələnir və onu götürüb xəstəxanaya gətirərək orada yerləşdirirlər. Qollarına sistem taxıb analiz üçün qanından nümunə götürürlər. Xəstəxanadakı həkimlər və tibb bacıları onu müayinə etməyə başlayırlar. Şeyx Həbibullah bundan çox narahat olur. Çünki tibb bacılarının qoluna iynə vurmaları və müayinə etmələri onun ürəyindən deyildi. Xəstəxananın otağının pəncərəsindən İmam Rzanın(ə) hərəminin minarələri görünürdü. Şeyx Həbibullah başını qaldırıb üzünü İmam Rzanın(ə) hərəminə tutaraq dedi: “Ya İmam Rza(ə), qırx il hər gün birinci zəvvarın mən olmuşam. İndi bu nə haldır ki, mən düşmüşəm? (Mən gözləməzdim ki, belə bir vəziyyətdə naməhrəmlər qollarıma iynə vurub məni müayinə edərlər.”)

Elə bu sözləri deyən kimi onun gözlərinin önündə mövcud səhnə dəyişilir. Orada işləyən bütün insanlar, həkimlər və ümumiyyətlə, bir anın içərisində hər bir şey dəyişilir və həmin yer böyük bir bağa çevrilir. Beləcə, görür ki, böyük və gözəl bir bağdır. Güllər, çiçəklər də insanı valeh edir. İmam Rza(ə) da elə həmin bağda əyləşib. İmam Rza(ə) ona baxaraq buyurur: “Şeyx Həbibullah, gəl, əyləş mənim yanımda.” O da İmamın(ə) yanına gəlib əyləşir. İmam Rza(ə) bağdan bir gül dərib ona uzadır. Şeyx həmin gülü sağ əlilə İmamdan(ə) alandan sonra səhnə yenə də dəyişilir. Xəstəxananın əvvəlki görkəmi yenidən bərpa olur. Amma Şeyx Həbibullah hiss edir ki, tamamilə sağalmışdır. Odur ki, həkimləri çağırıb deyir: “Mən gedirəm.” Həkimlər deyirlər ki, səni qətiyyən bu xəstəliklə heç bir yerə buraxmaq olmaz. Biz sənin qanını analiz etmişik və xəstəliyin çox ağırdır. Şeyx deyir:

“Xeyr, mən gedirəm.” Həkimlər onun belə israr etdiyini görüb deyirlər: “Onda sən gərək bəzi sənədləri imzalayasan ki, öz istəyinlə xəstəxananı tərk edirsən.” Şeyx də razılaşıb müəyyən sənədləri imzalayır. Həkimlər ona deyirlər: “Axı sənin xəstəliyin çox ağırdır. Belə bir halda sənə heç bir yerə getmək olmaz.” Şeyx isə deyir ki, mən artıq sağalmışam. Həkimlər yenidən onun qanını müayinə etdikdə görürlər ki, bir neçə saat bundan qabaq onda aşkar edilən xəstəlikdən heç bir əsər-əlamət yoxdur. Odur ki, əlacsız qalıb onu evə buraxırlar.

Şeyx Həbibullah deyir: “İmam Rzadan(ə) gül aldığım əlimi hansı xəstəyə çəkirdimsə, həmin xəstə şəfa tapırdı.”

Böyük ustadlardan biri Məkkədə bir hadisəni mənə belə nəql etmişdi: “Mən gənc yaşlarımda təhsil aldığım illərdə başağrısına mübtəla olmuşdum. Rəhmətlik atam məni həkimlərin yanına aparır, lakin başımın ağrısı dayanmaq bilmirdi. Həmin vaxt Ayətullah Vəhid Xorasani atama dedi: “Nə əcəb bu uşağı Xorasanda yaşayan Şeyx Həbibullahın yanına aparmırsan?” Atam dedi: “Heç fikrimə gəlmirdi ki, uşağı onun yanına aparım.” Ayətullah Vəhid Xorasaninin bu sözlərindən sonra atam məni Şeyx Həbibullahın yanına apardı. O, atamı tanıyırdı. Salam-kəlamdan sonra atam vəziyyəti ona danışdı və məni Şeyxə göstərib dedi: “Bu, mənim oğlumdur və dərs oxumaqla məşğuldur. Bir-iki ay olar ki, onda baş ağrıları yaranıb. Bir çox həkimlərin yanına da aparmışam, amma bir faydası olmayıb.”

Şeyx Həbibullah məni öz yanına çağırdı və sonra isə əlini başıma qoyub bir neçə kəlmə dua da oxuyub üzümə üflədi. Sonra atama dedi: “Hacı, İmam Rzadan(ə) gül aldığım ilk vaxtlar hansı xəstəyə əlimi bir dəfə çəkirdimsə, həmin xəstə sağalırdı. Amma indi əlimi çəkdikdən sonra

gərək bir dua da oxuyum. Bilirsənmi nə üçün? Çünki o qədər günahkar insan mənimlə görüşüb ki, artıq əlimdə olan həmin keyfiyyət azalıb.”

Şeyxin əlini başıma çəkməsindən əlli il ötür. Bu əlli ildə bədənimin hər hansı bir üzvü ağrısa da, mən özümdə bir daha başağrısı hiss etməmişəm.

**6. Həyalı insanlar**

Qiyamət günü hesab-kitabsız cənnətə gedən altıncı qrup insanlar isə həyalı insanlardır. Ümumiyyətlə, insanda həya çox mühüm və vacib məsələlərdən biridir. Həm əxlaq, həm də irfan elmində alimlər həya barədə kifayət qədər geniş şəkildə bəhs etmişlər. Bundan əlavə, həya haqda yetərincə məqalələr və kitablar da yazılmışdır. Hədislərə də müraciət etdikdə həya ilə bağlı çox dəyərli və müfəssəl açıqlamaların şahidi oluruq.

Əgər bir insan xəlvət yerdə olarkən özünü tək-tənha bilməsə, yanında mələklərin olduğuna və Allahın da ona nəzarət etdiyinə yəqini olsa, bu nəzarətə ehtiramla yanaşmağa həya deyilir. Ola bilər ki, bir insan mələklərin olduğuna və Allahın ona nəzarət etdiyinə inamı olsun, amma bütün bunlara heç bir əhəmiyyət verməsin və ya hörmətsizlik göstərsin. Təbiidir ki, belə bir insana həyalı insan demək olmaz. Məsələn, bir insan günah edərkən kiminsə ona baxdığını hiss etsə, heç günah edərmi? Hətta kiçik bir uşağın onu gördüyünü belə hiss etsə, həmin günah əməli etməyəcəkdir. Amma həmin insan xəlvətdə mələklərin onun əməllərini qeydə aldığını və Allahın onu gördüyünü bildiyi halda yenə də çəkinmədən günah əmələ əl atır. Belə çıxır ki, bir uşaqdan həya etdiyi qədər Allahdan həya etmir. Beləcə, dünyada bütün ömür boyu həyalı olan hər bir kəs qiyamət günü hesab-kitabsız cənnətə daxil olacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): إذا كانَ يَومُ القِيامَةِ أنْبَتَ اللهُ لِطائفةٍ مِن اُمّتي أجْنِحَةً، فيَطِيرونَ مِن قُبورِهم إلى الجِنانِ يَسْرَحونَ فيها و يَتَنعَّمونَ كيفَ شاؤوا، فتَقولُ لهُمُ المِلائكَةُ: هَل رَأيْتُم حِسابا؟ فيقولونَ: ما رَأينا حِسابا، فيقولونَ: هَل جُزْتُم على الصِّراطِ؟ فيقولونَ: ما رَأينا صِراطا، فيقولونَ لَهُم: هَل رَأيْتُم جَهَنّمَ؟ فيقولونَ: ما رَأيْنا شَيئا، فتقولُ المِلائكَةُ: مِن اُمّةِ مَن أنتُم؟ فيقولونَ: مِن اُمّةِ محمّدٍ صلى الله عليه و آله .
فيقولونَ : نَشَدْناكُمُ اللهَ، حَدِّثونا ما كانَتْ أعْمالُكُم في الدُّنيا؟ فيقولونَ: خَصْلَتانِ كانَتا فِينا ، فَبلّغَنا اللهُ هذهِ المنزِلَةَ بفَضْلِ رَحمَتِهِ، فيقولونَ: و ما هُما؟ فيقولونَ: كُنّا إذا خَلَونا نَسْتَحي أنْ نَعْصِيَهُ، و نَرْضى باليَسيرِ مِمّا قَسمَ لَنا، فتقولُ المِلائكَةُ: يَحِقُّ لَكُم هذا

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət baş verərkən Allah-təala mənim ümmətimdən bir dəstə insana qanad verər ki, həmin qanadla qəbirlərindən birbaşa cənnətə uçarlar. Orada gəzib dolaşar və istədikləri naz-nemətlərdən bəhrələnərlər. Mələklər onlardan soruşarlar: “Siz hesab-kitab (sorğu-sual) gördünüzmü?” Cavab verərlər: “Biz heç bir hesab-kitab görmədik.” Mələklər soruşarlar: “Siz sirat körpüsündən keçdinizmi?” Onlar deyərlər: “Biz sirat körpüsünü görməmişik.” Mələklər soruşarlar: “Siz cəhənnəmi görmüsünüzmü?” Onlar deyərlər: “Biz heç bir şey görməmişik.” Mələklər soruşarlar: “Siz hansı peyğəmbərin ümmətindənsiniz?” Onlar deyərlər: “Məhəmmədin(s) ümmətindənik.” Mələklər soruşarlar: “Sizi and veririk Allaha, deyin görək, siz

dünyada hansı əməlləri edirdiniz (ki, bu gün belə əzəmət sahibinə çevrilmisiniz)?" Onlar deyərlər: "Dünyada biz iki xüsusiyyətin sahibi olduğumuz üçün Allah-təala bizə bu məqamı inayət etmişdir." Mələklər soruşarlar: "O hansı xüsusiyyətlərdir elə?" Onlar deyərlər: "Biri budur ki, biz xəlvətdə tək-tənha olarkən Allahdan həya edib günah etməzdik. İkincisi isə odur ki, Allahın bizə əta etdiyi halal az ruziyə qane olub razılaşardıq (səbir edərək heç bir vaxt haram ruzi ardınca getməzdik)." Mələklər deyərlər: "Həqiqətən, siz bu məqama layiqsiniz."[1]

**Həya insan üçün çox əhəmiyyətlidir**

Qeyd olunduğu kimi, həya barədə Həzrət Peyğəmbər(s) və məsum imamlarımızdan çoxlu hədis və rəvayətlər nəql olunmuşdur. Həmin hədislərdə və rəvayətlərdə həyanın müxtəlif mərhələləri və dərəcələri qeyd olunur. Həyanın bir mərhələsi budur ki, insan öz-özündən həya etsin.

قَالَ عَلِيٌّ(ع): أحسَنُ الحياءِ اسْتِحْياؤكَ مِن نَفْسِكَ

-Həzrət Əli(ə) buyurur: "Ən gözəl həya odur ki, özündən həya edəsən."[2]

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, özündən həya etməyən insan gərək heç bir kəsdən hörmət ummasın. Çünki özünə hörmət edən hər bir insan özündən də həya etməlidir. Böyük arif insanlardan birinin barəsində belə yazırlar ki, qulluqçular onun otağına daxil olarkən həmişə sanki neçə min insanın qarşısında ədəblə əyləşmiş vəziyyətdə

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3891.
[2] Yenə orada, hədis - 4597.

görərdilər. Həmin qulluqçulardan biri özündə cəsarət tapıb ondan soruşur: “Ağa, siz otaqda tək olarkən yenə də belə əyləşirsiniz?” Həmin alim onun cavabında belə buyurur: “Mən ən azından özümə hörmət edirəm.”

قَالَ عَليٌّ(ع): مِن أَفْضَلِ الوَرَعِ أنْ لا تُبْديَ في خَلْوَتِكَ ما تَسْتَحيي مِن إظْهارِهِ في عَلانِيَتِكَ

-Həzrət Əli(ə) buyurur: “Təqva və möminliyin üstünlüklərindən biri budur ki, aşkarda görülməsindən həya etdiyin işləri xəlvətdə də etməyəsən.”[1]

Həyanın bir mərhələsi də odur ki, insan gərək camaatdan da həya etsin.

قَالَ عَليٌّ(ع): مَن لَمَ يَسْتَحيِ مِن النّاسِ لَمَ يَسْتَحيِ مِن اللّهِ سبحانَهُ

-Həzrət Əli(ə) buyurur: “Xalqdan həya etməyən kəs Sübhan olan Allahdan da həya etməz.”[2]

Həyanın bir mərhələsi isə insanın aşkarda da Allahdan həya etməsidir.

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَمَ يَسْتَحيِ مِن اللّهِ في العَلانِيَةِ لَمَ يَسْتَحيِ مِن اللّهِ في السِّرِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Aşkarda Allahdan həya etməyən bir kəs xəlvətdə də Ondan həya etməz.”[3]

Həyanın mərhələlərindən biri də budur ki, insan çiynindəki mələklərdən də həya etsin.

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4601.
[2] Yenə orada, hədis - 4581.
[3] Yenə orada, hədis - 4582.

قَالَ رَسُولُ اللهِ(ص): لِيَسْتَحيِ أَحَدُكُم مِن مَلَكَيهِ اللَّذَينِ معَهُ، كما يَسْتَحْيِي مِن رجُلَينِ صالِحَينِ مِن جِيرانِهِ، و هُما مَعهُ بِاللّيلِ و النّهارِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər biriniz gecə və gündüz sizin kənarınızda olan iki mehriban qonşudan həya etdiyiniz kimi, özünüzlə birgə olan iki mələkdən də həya etməlisiniz.”[1]

Həyanın ən birinci və yüksək dərəcəsi, qeyd olunduğu kimi, ondan ibarətdir ki, insan Allaha ehtiramla yanaşsın, xəlvətdə olarkən belə Onun nəzarətçi olduğunu bilib həya etsin və Onun xoşu gəlməyən işləri görməsin.

قَالَ الإمامُ الكاظمُ(ع): اسْتَحْيوا مِن اللهِ في سَرائِرِكُم كما تَسْتَحْيونَ مِن النّاسِ في عَلانِيَتِكُم

-İmam Musa Kazim(ə) buyurur: “Aşkarda insanlardan həya etdiyiniz kimi, gizlində də Allahdan həya edin.”[2]

İnsan bunu yəqin bilməlidir ki, qiyamət gününün hakimi daim ona nəzarət edən Allah-təaladır. Buna görə də hətta xəlvətdə olarkən belə insan gərək Onun hüzurunda günah etməsin.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də bu barədə gözəl bir hədisi bizlərə xatırladaraq buyurur:

اِتَّقُوا مَعاصِيَ اللهِ فِى الْخَلَواتِ فَإِنَّ الشّاهِدَ هُوَ الْحاكِمُ

-Gizlində olsa da belə Allaha qarşı günah etməkdən çəkinin! Çünki sizə şahid olan (Allah qiyamət günü sizə) hakim olacaq.

---

[1] Yenə orada, hədis - 4593.
[2] Yenə orada, hədis - 4589.

Burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, insanda olan bütün gözəl xüsusiyyətlərin hamısı onun iman və əqidəsinə bağlıdır. Əgər insanın iman və əqidəsi möhkəm olmasa, onda gözəl xüsusiyyətlərin mövcudluğu da mümkün deyildir. İman və əqidənin möhkəmliyi isə insanın öz müsbət hərəkətləri və ibadətləriylə Allaha yaxın olmağa çalışmasıdır. Belə olduqda Allah-təala da qeyd edilən gözəl xislətləri həmin şəxsə inayət edir. Əgər Allah-təala insana həmin xislətləri verməsə, kimdəsə bu kimi xislətlərin olması qeyri-mümkündür.

İmam Sadiqin(ə) buyurduğuna əsasən bunların hamısı bir-biri ilə bağlıdır. Burada dərin elmi müzakirələrə ehtiyac vardır ki, sadəcə olaraq bir cümlə ilə kifayətlənmək istərdim. İnsanın atdığı hər birinci addımı yüz faiz ikinci addımında mühüm rol oynayır. Yəni insanın səhv bir hərəkəti altı aydan, bir ildən, yaxud bir neçə illərdən sonra mütləq öz təsirini büruzə verəcəkdir. Belə olduqda insan nə qədər yalvarsa da, artıq geriyə yol olmayacaqdır. Çünki insan özü bu od-alovu törətmişdir.

Ona vaxtında çox demişdilər ki, bu işi görmək olmaz. Amma o, bütün bu kimi sözlərə heç bir əhəmiyyət verməmiş və öz bildiyini etdiyindən özü alovlandırdığı alovun içinə düşüb yanarkən Allaha yalvarıb odun söndürülməsini istəyir. Allah-təala da hər gün bir möcüzə göstərib bu kimi işləri görməz. Çünki Allah-təala ehkamlar müəyyən etmişdir ki, insanlar da həmin ehkamlara riayət etməlidirlər. Əgər insan vaxtında qərar qəbul etməsə, sonra gec olacaq.

Məsələn, böyük şəhərlərdə bəzi yollar vardır ki, sürücü öncədən gedəcəyi yol barədə fikirləşməlidir. Əgər vaxtında qərar qəbul etməyib körpüyə girsə, daha geri qayıtmasına imkan olmayacaqdır. Orada heç bir kəs ona icazə verməz ki,

arxaya qayıtsın. Çünki özü vaxtında səhv qərar qəbul etmişdir. Eləcə də bəzən insan hər hansı bir qərarı qəbul etmədən elə bir addım atır ki, özü odun içinə düşür və bu bəladan qurtarmaq üçün Allahdan möcüzə gözləyir. Allah möcüzə göstərir, amma onun istədiyi vaxt yox, Öz istədiyi vaxtda. Hər kəs gündə dəfələrlə Allahdan möcüzə göstərməyi istəsə də, bu mümkün olan bir məsələ deyildir.

Odur ki, hər bir insanın atdığı hər bir addım müəyyən müddətdən sonra onun taleyində öz rolunu oynayır və təsirsiz qalmır. Bəzən insanın atdığı ilk addım onu ikinci addımın xoşbəxtliyindən məhrum edir. Həmçinin gözəl xislətlər də bir-birinə bağlıdır və biri digəri üçün müqəddimə rolunu oynayır.

قَالَ الإمامُ الصّادقُ(ع): إنّ خِصالَ المكارِمِ بَعْضُها مُقيَّدٌ ببَعْضٍ، يُقَسِّمُها اللّهُ حَيثُ يشاءُ، تَكونُ في الرّجُلِ و لا تكونُ في ابنِهِ، و تكونُ في العَبدِ و لا تكونُ في سَيّدِهِ: صِدْقُ الحَديثِ، و صِدْقُ النّاسِ، و إعْطاءُ السّائلِ، و المكافَأةُ بالصَّنائعِ، و أداءُ الأمانَةِ، و صِلَةُ الرَّحِمِ، و التّودُّدُ إلى الجارِ و الصّاحبِ، و قِرَى الضَّيفِ، و رأسُهنَّ الحياءُ

-İmam Sadiq(ə) buyurur: “Gözəl xüsusiyyətlər bir-birinə bağlıdır. Allah-təala onları Özü istədiyi kəslərə inayət edir. (Allahın istəyi insanların qabiliyyətinə və istəyinə bağlıdır. Hər kimdə qabiliyyət və ləyaqət olsa, Allah həmin şəxsə qeyd etdiyimiz gözəl xüsusiyyətləri inayət edər.) Mümkündür ki, bir kişidə bu xüsusiyyətlər olsun, amma onun övladında olmasın. Yaxud ola bilər ki, bir nökərdə olsun, amma onun ağasında olmasın.”

İmam Sadiq(ə) daha sonra buyurur: “Həmin gözəl xüsusiyyətlər bunlardır: doğru danışmaq, camaata sədaqətli olmaq, yoxsula qarşı mərhəmət göstərmək, yaxşılığa yaxşılıq etmək, əmanətdarlıq, qohum-əqrəbaya baş çəkmək, qonşu və dostlarla mehriban olmaq, qonaqpərvərlik. Bütün bunların başında isə həya dayanır.”[1]

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4555.

## Həqiqi mənada həyalı olmaq

Həzrət Peyğəmbər(s) müsəlmanlara həqiqi mənada həyalı olmağı təkidlə buyurmuşdur. İmam Baqir(ə) buyurur: "Günlərin birində Həzrət Peyğəmbər(s) buyurdu:

اسْتَحْيوا مِن اللهِ حَقَّ الحياءِ ، فقيلَ: يا رسولَ اللهِ، و مَن يَسْتَحْيي مِن اللهِ حَقَّ الحياءِ؟! فقال: مَنِ اسْتَحْيى مِن اللهِ حَقَّ الحياءِ فلْيَكْتُبْ أجَلَهُ بينَ عَيْنَيهِ، و لْيَزْهَدْ في الدُّنيا و زِينَتِها، و يَحْفَظِ الرَّأسَ و ما حَوى، و البَطْنَ و ما وَعى، و لا يَنْسى المَقابِرَ و البلى

-Allahdan həqiqi mənada həya edin. Soruşdular: "Ya Rəsulallah, Allahdan həqiqi mənada həya edən kimdir?" Peyğəmbər(s) buyurdu: "Allahdan həqiqi mənada həya edən insan o kəsdir ki, ölümü gözlərinin qarşısına gətirsin (ölümü daim xatırlasın), dünya və onun aldadıcı zinətlərindən uzaqlaşsın, başını və fikirlərini qorusun (ağlı başında olsun), qarnını və yeməyini gözləməsin (haram yeməklərdən uzaqlaşsın), qəbirləri və bədənlərin torpaq altında çürüməsini (bir vaxt onun da bədəninin torpaq altında çürüyəcəyini) yaddan çıxarmasın."[1]

## 7. Əhli-beyti(ə) sevənlər

Qiyamət günü hesab-kitabsız cənnətə gedən yeddinci qrup insanlar Əhli-beyti(ə) sevənlərdir. Əhli-beyti(ə) sevmək elə bir xüsusiyyətdir ki, insanın sorğu-sualsız cənnətə getməsinə səbəb olur. Hədislərdə belə nəql olunmuşdur ki, insan günah etdikdən sonra tövbə etdikdə həmin günah pozulur. Amma günahın izi həmin insanda qalır. Məsələn,

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4595.

bir nəfər yol qəzasına məruz qalır və bədəni yaralanır. Onu xəstəxanaya aparıb yaralarına tikiş qoyurlar. Tam sağaldıqdan sonra isə onu evə buraxırlar. Bu hadisənin üstündən illər ötdükdən sonra həmin adamın sağalmasına baxmayaraq, yaralarının və tikişlərin izi hələ də onun bədənində qalır. Günah da belədir. İnsan tövbə etdikdən sonra bağışlanır, amma onun etdiyi günahın izi qalır. Bunun isə yalnız bircə əlacı vardır. İmam Hüseynin(ə) əzasında ağlamaq günahın həmin izini də aradan qaldırır.

قَالَ رَسُولُ اللهِ(ص): مَن أَرادَ التَّوَكُّلَ عَلَى اللهِ فَليُحِبَّ اَهلَ بَيتِي وَ مَن أَرادَ اَن يَنجُو مِن عَذابِ القَبر فَليُحِبَّ اَهلَ بَيتِي وَ مَن أَرادَ الْحِكمَة فَليُحِبَّ اَهلَ بَيتِي وَ مَن أَرادَ دُخُولَ الْجَنَّة بِغَيرِ حِسابٍ فَليُحِبَّ اَهلَ بَيتِي فَوَاللهِ مَا أَحَبَّهُم أَحَدٌ اِلّا رَبِحَ الدُّنيَا وَ الآخِرَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim Allaha təvəkkül etmək istəyirsə, Əhli-beytimi sevsin. Kim qəbir əzabından nicat tapmaq istəyirsə, Əhli-beytimi sevsin. Kim hikmət istəyirsə, Əhli-beytimi sevsin. Kim hesab-kitabsız (sorğu-sualsız) cənnətə daxil olmaq istəyirsə, Əhli-beytimi sevsin. And olsun Allaha, onları sevən hər bir kəs dünya və axirətin xeyrini əldə etmişdir.”[1]

## Pis və ya yaxşı hesab-kitab

Qiyamət gününün hesab-kitabı barədə bir mətləbi də əziz möminlərin diqqətinə çatdırmaq istərdim. Həmin mətləb bundan ibarətdir ki, biz Quran ayələrində və hədislərdə iki cür hesab-kitaba rast gəlirik. Bəzi ayələrdə qiyamət gününün hesab-kitabının yaxşı və asan, bəzi

[1] Əhli-beyt Quran və hədisdə, 2-ci cild, səh. 672, hədis - 1060.

ayələrdə isə pis və çətin aparılmasından söz açılır. Burada yaxşı olar ki, ayə və hədislərdən istifadə edərək pis və yaxşı hesabın nə olması, həmçinin pis hesabın və yaxşı hesabın kimlərlə bağlı aparılacağı barədə söz açaq.

Allah-təala "Rəd" surəsinin 18-ci ayəsində belə buyurur:

لِلَّذِينَ اسْتَجَابُوا لِرَبِّهِمُ الْحُسْنَىٰ وَالَّذِينَ لَمْ يَسْتَجِيبُوا لَهُ لَوْ أَنَّ لَهُمْ مَا فِي الْأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لَافْتَدَوْا بِهِ أُولَٰئِكَ لَهُمْ سُوءُ الْحِسَابِ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ

-Rəbbinin dəvətini qəbul edənləri (Allaha və Onun Peyğəmbərinə itaət edənləri) ən gözəl nemət (cənnət) gözləyir. Rəbbinin dəvətini qəbul etməyənlər isə yer üzündə olan hər şeyə (bütün sərvətə), üstəlik bir qədərinə də malik olsaydılar, onu (Allahın əzabından qurtarmaq üçün) fidyə verərdilər (lakin kafirlərdən heç bir fidyə qəbul olunmaz). Onları çox pis (çətin) bir haqq-hesab gözləyir (heç bir günahları bağışlanılmaz). Onların məskəni cəhənnəmdir. O, necə də pis yerdir!

-Özlərinin Rəbbinə (Onun çağırışına müsbət) cavab verənlər üçün gözəl aqibət və gözəl mükafat vardır. Ona (Onun çağırışına müsbət) cavab verməyən kəslər (isə), əgər (axirət günü) yer üzündə olan şeylərin hamısı və həmçinin onun (digər bir) misli onların olsa, hamısını özlərinin nicat tapmaları üçün fəda etməyə razı olarlar. Onları çox pis (çətin) bir haqq-hesab gözləyir. Onların yerləri cəhənnəmdir və ora necə də pis yerdir!

"Rəd" surəsinin 21-ci ayəsində isə belə buyurulur:

وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَنْ يُوصَلَ وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ سُوءَ الْحِسَابِ

-O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir (qohumluq əlaqələrini qoruyub saxlayır, möminlərə hörmət edir), Rəbbindən və (qiyamət günü çəkiləcək çətin və) pis haqq-hesabdan qorxurlar.

"İnşiqaq" surəsinin 7-8-ci ayələrində oxuyuruq:

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ. فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا

-Kimin əməl dəftəri sağ əlinə verilmişsə, Onunla yüngül (asan) haqq-hesab çəkiləcək.

Qeyd olunan ayələrdə qiyamət gününün hesab-kitabının pis və çətin olacağı barədə söz açılır. Amma bir sıra ayələrdə isə hesab-kitabın asan və yaxşı olacağı bəyan edilir. Əlbəttə, bu iki növ hesab-kitabların da öz əhli vardır ki, həmin ayələrdə bu məsələ bəyan olunmuşdur.

## Pis və ya yaxşı hesab-kitabdan məqsəd

Burada sual oluna bilər ki, bəs görəsən pis və ya yaxşı hesab-kitabda məqsəd nədir? Bu sualın cavabında qısaca olaraq belə demək mümkündür: "Pis və çətin hesab-kitab odur ki, hesaba çəkilən insan razı qalmasın. Ərəb dilində bunu belə bir ibarə ilə ifadə edirlər:

اَلْحِسَابُ الَّذِى يَسُؤُهم

-Onları narahat edən hesab-kitab.

Deməli, insanı narahat edən hesab-kitaba pis hesab-kitab deyilir. Ümumiyyətlə, biz özümüz də camaat arasında danışarkən bu kimi ifadələrdən istifadə edirik. Məsələn, bir nəfər böyük bir cinayət törətdiyi üçün onu məhkəməyə çəkirlər. Camaat da onun cinayətinin böyük olduğunu bildiyi üçün deyirlər: "Filankəsin hesab-kitabı pis olacaq."

Hədislərdə belə nəql olunur ki, bir nəfər İmam Sadiqin(ə) hüzurunda olarkən öz dostundan şikayətlənir. İmam(ə) həmin (şikayət olunan) şəxsi gördükdə soruşur: “Sənin filan (mömin) qardaşına nə olub ki, səndən şikayətlənir?” O deyir: “Ey Allahın höccəti, mən ona borc pul vermişdim və həmin borcun hamısını ondan aldığım üçün sizə şikayət edib? Mən ona zülm etməmişəm. Sadəcə olaraq haqqımı tələb etmişəm.” İmam(ə) onun bu sözlərindən əsəbiləşib oturdu. Sonra isə ona buyurdu: “Sən elə düşünürsən ki, haqqının hamısını ondan almaqla pis bir iş görməmisən? Amma sənə bir sual verirəm. Allah-təala Quranda belə buyurur: “(Möminlər) Rəbblərindən və (qiyamət günü çəkiləcək çətin və) pis haqq-hesabdan qorxurlar.” Səncə, onların qorxusu ona görədir ki, Allah onlara zülm edir? Xeyr, and olsun Allaha ki, belə deyil. (Allah qiyamət günü heç bir kəsə zülm etməyəcək.) Qorxuları ona görədir ki, Allah onlardan dəqiq hesab-kitab aparacaq. Allah-təala (Quranda) bunu çətin hesab-kitab adlandırmışdır.”[1]

Odur ki, əgər bizdən aldığımız nəfəslərin sayına qədər hesab-kitab aparsalar, onda vay halımıza. Vay o gündən ki, bizim bircə baxışımızın da hesabını aparsınlar. Vay o gündən ki, bizib bircə qəpiyimizə qədər hesab-kitab aparılsın. Əgər belə olsa, o zaman hamımız hesab-kitabdan yaxşı çıxmayacağıq. Əgər bizdən asan və yaxşı hesab-kitab aparmasalar, işimiz çox çətin olacaq.

Asan hesab-kitaba gəldikdə isə, “İnşiqaq” surəsinin 7-8-ci ayələrində belə oxuyuruq:

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3878.

أَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ. فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا

-Kimin əməl dəftəri sağ əlinə verilmişsə, Onunla yüngül (asan) haqq-hesab çəkiləcək.

قالَ رسولُ اللهِ(ص): كُلُّ مُحاسَبٍ مُعذَّبٌ، فقالَ لَهُ قائلٌ: يا رسولَ اللهِ، فأينَ قولُ اللهِ عزّ و جلّ: «فَسَوْفَ يُحَاسَبُ حِسابا يَسيرا»؟ قالَ: ذلكَ العَرْضُ، يَعني التَّصَفُّحَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Haqq-hesabı aparılan bütün şəxslər əzab çəkəcəklər." Bir nəfər Həzrətə (s) dedi: "Ey Allahın Rəsulu! Bəs, Allah-təalanın bu sözü necə olsun: "…haqq-hesabları asan olacaq." Allahın Peyğəmbəri(s) buyurdu: "Bu, təqdim etmək və vərəqləməkdir. (Sorğu-sual deyil.)"[1]

Deməli, qiyamət günü hesab-kitabın asan çəkilməsi insanın əməl dəftərini vərəqləyib özünə qaytarmaqdır. Yəni onun əməlləri barədə çox dərinə getmədən, gözucu baxmaqla yola salmaq mənasındadır. Əgər insanın bütün əməllərini dəqiqliklə yoxlasalar və ondan hər bir incəliyinə qədər sorğu-sual etsələr, əlbəttə ki, o, əzaba məhkum olar. Məsələn, məktəbdə müəllim şagirddən ciddi şəkildə imtahan götürmək istəsə, ona elə suallar verər ki, şagird çaşbaş qalıb bildiklərini də yadından çıxarar. Amma şagirddən yüngülvari imtahan götürmək istədikdə göz yumaraq kitabı vərəqləyib bir-iki sualla kifayətlənər.

Yaxud gömrükxanada işçilərə oradan keçmək istəyən bir şəxsin dəqiq yoxlanılması barədə göstəriş verirlər. Həmin şəxs gömrükdən keçmək istədikdə onu saxlayıb

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3879

ətraflı şəkildə yoxlayırlar. Həmçinin başqa bir adamın ötəri olaraq yoxlanılması haqda göstəriş verildikdə işçilər həmin şəxsi görən kimi sadəcə sənədlərinə baxıb möhür vuraraq yola salırlar. Qiyamət günündə də Allah-təala bəzi insanlarla beləcə hesab çəkəcək. Yəni əslində bu, hesab çəkmək də deyil.

قَال رَسُولُ اللهِ(ص): اِنَّ الْحِسَابَ اليَسِير هُو الإثَابَة عَلَى الْحَسَنَات وَالتَّجَاوُز عَنِ السَّيِّئَات. وَ مَن نُوقِشَ فِي الْحِسَاب عُذِّبَ

-Həzrət Peyğəmbər(s) buyurur: "(Qiyamət günü hesab-kitabın asan olmasının mənası budur ki,) yaxşı əməllərinə savab veriləcək, günahlarına isə göz yumulacaq. Amma hər bir kəsin sorğu-sualı ciddi şəkildə alınarsa, mütləq əzaba düçar olar."[1]

## Qiyamət gününün hesab-kitabını asanlaşdıran amillər

Burada sual oluna bilər ki, qiyamət günü hansı insanlardan asan və yüngül şəkildə hesab-kitab aparılacaq? Ayə və hədislərə əsasən bu sualın cavabında demək olar ki, iman, möhkəm əqidə, vacib əməllər başda olmaqla, haram işlərdən çəkinmə ilə yanaşı, bir sıra əməllər də vardır ki, qiyamət günü hesab-kitabın asanlaşmasına səbəb olar. Yəni bu əməllərə görə həmin şəxsin hesab-kitabının asan aparılmasına şərait yaradılacaq. Nümunə üçün həmin əməllərdən bir neçəsinə diqqət yetirək:

### 1. Allah bəndələrinin çətinliyini aradan qaldırmaq

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3873.

Qiyamət günü insanın hesab-kitabının yüngül çəkilməsinə səbəb olan əməllərdən biri mömin insanın hacətini vermək və Allah bəndələrinin çətinliyini həll etməkdir. Bu əməlin həm Allah yanında böyük savabı vardır, həm də bu, qiyamət günü həmin şəxsin hesab-kitabının asanlaşdırılmasına səbəb olar.

Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü bir nəfəri hesab-kitab etmək üçün gətirərlər. O, Allaha belə deyər:

يَا رَبِّ خَلَقتَنِي وَ هَدَيتَنِي فَأَوسَعتَ عَلَيَّ، فَلَم أَزَل أُوَسِّع عَلى خَلقِكَ وَ أُيَسِّر عَلَيهِم لِكَي تُنشِر عَلَيَّ هَذا الْيَوم رَحمَتك وَ تُيَسِّرهُ.

-Ey mənim Rəbbim, məni Sən yaratmısan, Sən hidayət etmisən, Öz nemətlərini mənə lütf etmisən. Mən də (dünyada mənə lütf etdiklərindən) həmişə Sənin bəndələrinə əlimdən gələni əsirgəmirdim. Onlara müəyyən işlərdə kömək edirdim. Bu ümidlə ki, Sən də mənə bu gün Öz rəhmətinlə işimi (hesab-kitabımı) asanlaşdırasan."

فَيَقُولُ الرَّبّ جَلَّ ثَناؤُه: صَدَقَ عَبدِى أُدخُلُوهُ الْجَنّة

-Allah-təala buyurar: "Bəndəm doğru deyir. Onu cənnətə daxil edin."[1]

## 2. Xoşəxlaq və xoşrəftar olmaq

Qiyamət günü insanın hesab-kitabını asanlaşdıran amillərdən biri xoşəxlaq və xoşrəftar olmaqdır. Yəni hər kəsin (ailədə, qohumlar, qonşular arasında və s. yerlərdə) rəftarı və əxlaqı gözəl olarsa, hesab-kitabı da yüngül olar.

قَالَ رَسُولُ الله(ص): حَسِّن خُلقَكَ يُخَفِّفِ الله حِسابَكَ

[1] Biharül-ənvar, 7-ci cild, səh. 288.

-Həzrət Peyğəmbər(s) buyurur: "Əxlaqını gözəl et ki, Allah-təala sənin hesabını yüngül etsin."[1]

Ümumiyyətlə, xoşrəftar olan insanı hamı sevər. Xoşrəftar olmaq Allahın insana xüsusi inayətidir. Xoşrəftar insan dünyadan gedən zaman onun qəbrinin torpağı tez qazılıb hazır olar. Həzrət Peyğəmbərin(s) dövründə bir nəfər dünyasını dəyişmişdi. Onun üçün qəbri külünglə qazırdılar. Çünki həmin yerin torpağı çox bərk olduğundan qəbir qazmaq da olduqca çətin idi. Həzrət Peyğəmbər(s) buyurdu: "Qəbrin belə çətin qazılmasına təəccüb edirəm. Ona görə ki, dünyasını dəyişən şəxs çox xoşəxlaq və xoşrəftar bir insan idi."

**3. Qane olmaq**

Qiyamət günü insanın hesab-kitabını yüngülləşdirən amillərdən biri də dünya malından halal olanına və az miqdara qane olmaqdır. Yəni Allah-təala insana dünyada nə verirsə, ona da qane olub naşükürlük etməməkdir. İnsanın malın azlığından xoşu gəlməməsinə baxmayaraq, bu, onun xeyrinədir. Belə ki, azın hesab-kitabı da asan olar.

قَالَ رَسُولُ اللهِ(ص): شَيئَان يَكرَ هُهُمَا اِبنُ آدَم: يَكرَهُ الْمَوت وَالْمَوتُ رَاحَةٌ لِلمُؤمِن مِنَ الْفِتنَة وَيَكرَه قِلَّةَ الْمَال وَ قِلَّةُ الْمَال اَقَلُّ لِلحِسَابِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Adəm övladının iki şeydən xoşu gəlmir, halbuki hər ikisi onun xeyrinədir. Onlardan biri ölümdür ki, ölüm möminin rahatlığıdır.

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3873.

İkincisi isə malın azlığıdır ki, onun azlığı hesabın az olmasına səbəb olar.” [1]

قَالَ رَسُولُ الله(ص): اِقنَع بِمَا أُوتِيتَهُ يَخِفَّ عَلَيکَ الْحِسَابُ

Digər bir hədisdə Peyğəmbər(s) belə buyurur: “Sənə verilən hər bir şeyə qane ol ki, səninlə haqq-hesab ediləndə işin asan olsun.”[2]

Burada incə bir məqama da diqqət yetirmək lazımdır ki, yuxarıda deyildiyi kimi, hesab-kitabsız cənnətə daxil olan insanlardan bir qismi ruzilərinin az olmasına qane və razı olan yoxsullardır. Amma bu hədis isə malının azlığına qane olub harama düşməyənlər barədədir ki, onların da hesabları yüngül olacaq.

Salman Farsi(r) Mədain şəhərində iki hadisə ilə üzləşmişdi. Bir dəfə güclü yağış yağması nəticəsində evini su basmışdı. O, evdə olan bir Quranı, bir qılıncı, bir dərini, bir yeməyi və su qabı kimi bir neçə əşyasını götürüb hündür bir təpənin üstünə çıxmışdı. Bir dəfə də onun evi yanmışdı və yenə də həmin şeyləri götürüb təpənin üstünə qalxmışdı. Hər iki hadisədə o, belə demişdi: “Qiyamət günü hesabı yüngül olanlar belə nicat tapacaqlar (az malın hesabı da yüngül olar).”[3]

**4. Səni yaxşılıqdan məhrum edəni məhrum etməmək**

Qiyamət günü insanın hesab-kitabını yüngülləşdirən amillərdən biri isə dünyada insana qarşı pislik edən və əlindən gələn yaxşılığı əsirgəyən adamı bağışlamaq, onu məhrum

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3870.
[2] Yenə orada, hədis - 3871.
[3] Dəh qərinə, səh.18.

etməməkdir. Burada söhbət insanların bir-birinə hədiyyə verməsindən və ya yaxşılıq etməsindən getmir. Əsas məsələ insanın mərdliyi və onu məhrum edəni (ondan hayıf çıxmadan) məhrum etməməkdir ki, bu əməl qiyamət günü insanın hesab-kitabının yüngül olmasına imkan verər.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاثٌ مَن كُنَّ فِيهِ حَاسَبَهُ الله حِسَابًا يَسِيرًا وَ أَدخَلَهُ الْجَنَّةَ بِرَحْمَتِهِ. قَالُوا وَ مَا هِيَ يَا رَسُولَ اللهِ؟ قَالَ(ص): تُعطَى مَن حَرَمَك، وَ تَصِلُ مَن قَطَعَكَ وَ تَعفُو عَمَّن ظَلَمَكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kimdə üç xüsusiyyət olsa, Allah onun hesab-kitabını yüngülləşdirər və cənnətə daxil edər. Soruşdular: Ya Rəsulallah, onlar hansıdır? Peyğəmbər(s) buyurdu: Səni məhrum etmiş (yaxşılıq etməyən) kəsi (sənə işi düşdükdə) məhrum etməyəsən. Qohumluq əlaqələrini kəsmiş qohumunla münasibətləri kəsməyəsən. Sənə pislik və zülm edəni bağışlayasan." [1]

### 5. Qohumluq əlaqələrini kəsmiş qohumla münasibəti kəsməmək

Hesabın yüngül çəkilməsinə səbəb olan amillərdən biri də insanın onunla qohumluq əlaqələrini kəsmiş şəxslərlə münasibətləri kəsməməsidir. Bunun hədisi yuxarıda qeyd olunmuşdur.

### 6. Yamanlığa yaxşılıq

Qiyamət günü insanın hesab-kitabını yüngülləşdirən amillərdən biri də yamanlığa yaxşılıqla cavab verməkdir. Məsələn, fərz edək ki, bir nəfər şəxsi münasibətlər

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 3882.

zəminində digərinə zülm etmişdir. Əgər bir zaman zülm edənin taleyi zülm olunanın əlinə düşdükdə onu bağışlayıb hayıf çıxmasa, Allah-təala belə bir insanın hesab-kitabını yüngülləşdirər. Bunun da hədisi yuxarıda qeyd olunmuşdur.

Həyatımızda belə insanlarla rastlaşmaq mümkündür. Bu insanlar ruhən böyük olduqlarına görə onlara edilən yamanlığa yaxşılıqla cavab verərlər.

Ərəblər qəbilə halında yaşadıqları üçün hər bir qəbilənin başçısı və ya ağsaqqalı olur. Onlar öz başçılarına şeyx deyə müraciət edirlər. Bağdadda yerli adət-ənənələrdən biri belədir ki, kəbini toy gecəsi oxuyarlar. Bəyi təmtəraqla və tüfəngdən, yaxud digər silahlardan göyə atəş aça-aça toy məclisinə gətirərlər. Alimlərdən birini də kəbin kəsmək üçün toya dəvət edərlər. Kəbin oxunduqdan sonra gəlinin gətirilməsi mərasimi olur.

İraqda həm də bir qəbilənin şeyxi digər qəbilənin şeyxinin qızını öz oğluna istəyir. Razılaşıb toy gününü təyin edirlər. Həmin gün toy mərasimi təşkil olunur və hər iki şeyxin adamları toyda iştirak edirlər. Kəbin oxutdurmaq üçün o dövrün ruhanilərindən bir neçəsini, xüsusilə Ayətullah Xalisini də dəvət edirdilər. Mərhum Ayətullah Xalisi o dövrdə ərəblərin mərcəi-təqlidi (müctəhidi) idi.

Ayətullah Xalisi deyir: “Biz bir gün toy məclisində əyləşib bəyi gözləyirdik. Bəyin dostları isə onu təmtəraqla gətirməyə getmişdilər. Bir az keçmişdi ki, bəyin ölüm xəbərini gətirdilər. Sən demə, gənclər göyə güllə ata-ata bəyi gətirərkən güllələrdən biri təsadüfən ona dəymişdi. Məclisdəkilərin bir-biri ilə pıçıldaşmasından başa düşdüm ki, bəy keçinib. Bu xəbər bəyin atasına çatdıqda çox narahat olub ağlamağa başladı. O, çox mömin bir insan

idi. Mən onu çağırıb yanımda əyləşdirdikdən sonra təsəlli verməyə başladım. Bir qədər danışıb yavaş-yavaş ürəyini ələ almağa çalışırdım. O da başını aşağı salıb məni dinləyirdi. Hərdənbir gözlərindən yaş axdığını da görürdüm.

Mən ona dedim: "Sən yaxşı bilirsən ki, biz müsəlmanıq. İslam Allaha təslim olmaqdır. Allah bizi yaradıb imtahana çəkir. Bu da bir imtahandır ki, sənin qarşına çıxmışdır. Əlindən səhvən güllə çıxan gənc də seyiddir. Bilirsən ki, Həzrət Peyğəmbər(s) hidayət olunmağımız üçün Allahın ayələrini bizə çatdırmaq yolunda çox zəhmətlər çəkmişdir. Bilirsən ki, Həzrət(s) qiyamət günü ümmətinə şəfaət edəcək. Bunu da bilirsən ki, bütün seyidlər Həzrət Peyğəmbərin(s) zürriyyətləridir. Yaxşı olar ki, Həzrət Peyğəmbərin(s) ehtiramına xatir onun zürriyyətini əfv edəsən. Qoyma daha bir gəncin həyatı məhv olsun. Sən qan yiyəsisən və onu bağışlamağın daha yaxşı olar."

Mən bunları ona danışdıqdan sonra başını qaldırıb mənə dedi: "Mənim də deyiləsi sözüm var. Mən bu qonaqları şadlıq və toy mərasiminə dəvət etmişəm, yas məclisinə yox. İstəmirəm ki, qonaqlarım şadlığa gəlib yas saxlayaraq getsinlər. Fikrimə gələni deyirəm. Əgər məsləhət olsa onu edək." Dedim: "Fikrindəki nədir?" Dedi: "Mən Allahın dininə, kitabına, Peyğəmbərinə(s) və onun zürriyyətlərinə hörmət edirəm. Sidq ürəkdən Allaha təsliməm. İstəyirəm ki, oğlumu təsadüfən vuran gənci buraya çağıraq və əgər razıdırsa, bəyin yerində əyləşsin. Əgər qızın özü və atası da razıdırsa, həmin qızın kəbinini o oğlana oxuyaq."

Mən bu sözlərdən sonra onun həqiqətən də böyük ruha malik bir insan olduğunu görüb çox təəccübləndim. Sonra isə dedim: "Bu, çox yaxşı olardı."

Sonra həmin oğlan üçün xəbər göndərdilər. Oğlan əvvəlcə qorxub gəlmək istəmirdi. Elə başa düşürdü ki, bu yolla onu çağırıb qisas alacaqlar. Sonra mən onun üçün xəbər göndərdim və o, mənə inanıb məclisə gəldi. Qızın özü və atası ilə danışdıq, onlar da razılıq verdilər. Mən onların kəbinlərini oxuduqdan sonra dünyasını dəyişmiş oğlanın atası dedi: "İstəyirəm ki, bu oğlan bəyin yerində əyləşsin və toy davam etsin. Bu gecə onlar üçün bizim evdə hazırlanmış otaqda qalsınlar. Sabah öz evlərinə getsinlər və biz də meyiti yerdən götürüb dəfn edək."

Gördüyümüz kimi, dünyada hərdənbir belə insanlara da rast gəlmək olur. Bağışlamaq və əfv etmək bəzən çətin olsa da, bu işi görməklə insan qiyamət gününün hesab-kitabını özü yüngülləşdirə bilər. Qiyamətin hesab-kitabı çox çətin olacaq.

Əbu Süleyman Darayinin şagirdlərindən biri deyir: "Əbu Süleyman dünyadan köçmüşdü. Bir ildən sonra onu yuxuda gördüm. Ondan vəziyyətinin və hal-əhvalının necə olduğunu soruşdum. O, mənə dedi: "Dünyada olarkən bir gün Babus-səğir qəbiristanlığının kənarından keçirdim. Bir nəfər orada dəvənin üstündə yük aparırdı. Mən onun sahibinə demədən əlimi atıb həmin yükdən xırda bir ağac qırıntısı götürdüm. Dişlərimi təmizləmək üçün həmin ağac qırıntısından balaca bir çöpü ayırdım. Öldükdən sonra hələ də həmin əməlimin hesab-kitabından qurtara bilmirəm."

Heç kim elə düşünməsin ki, gündəlik namazlarını qılmaqla, ildə bir ay oruc tutmaqla bu hesab-kitabdan asanlıqla canını qurtara bilər. Əgər bizdən dəqiqliklə hesab-kitab aparsalar, əməllərimiz dadımıza çatmayacaq.

Ona görə də Allahın xoşuna gələn, Onun razılığına səbəb olan işləri çox görməliyik ki, Allah-təala da həmin çətin günlərdə dadımıza çatsın.

# QİYAMƏTİN DÖRDÜNCÜ MƏRHƏLƏSİ
## Mizan-tərəzi

Ötən bəhslərimizdə qiyamətin üç mərhələsindən söz açdıq. Qiyamətin dördüncü mərhələsi isə mizan-tərəzi hesab edilir. Mizan qiyamətin çətin mərhələlərindən biridir ki, insanlar bu mərhələni görməlidirlər. "Mizan" ərəb dilində tərəziyə deyilir. Qiyamət günündə bu tərəzi vasitəsilə insanların yaxşı və pis əməlləri ölçüləcək. Ümumiyyətlə, mizan məsələsindən bəhs edən Quran ayələri iki qismə bölünür.

Birinci qism ayələrdə mizanın özü (varlığı) barədə, ikinci qism ayələrdə isə onun nəticəsi haqda söz açılmışdır. Nümunə üçün bununla bağlı bir neçə ayəyə diqqət yetirək:

Tərəzinin özü və qurulacağı barədə Qurani-Kərimin "Ənbiya" surəsinin 47-ci ayəsində oxuyuruq:

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَى بِنَا حَاسِبِينَ

-Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç kimə heç bir şəkildə zülm olunmayacaq və onların haqqı kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa da belə onu (tərəziyə) gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir.

Ayədə işlənmiş «مَوَازِين» - "tərəzilər" kəlməsi "tərəzi" sözünün cəm formasıdır. Bu kəlmə Quranda yeddi dəfə zikr olunmuşdur. Bundan başa düşülür ki, qiyamət günü bir yox, bir neçə tərəzi qoyulacaq. Həmçinin bu və bu

qəbil ayələr tərəzinin haqq olduğunu və qiyamət gününün qurulacağını bir daha təsdiq edir.

İkinci qism ayələrdə isə tərəzinin nəticəsi barədə söz açılmışdır. "Möminun" surəsinin 102-103-cü ayələrində oxuyuruq:

فَمَن ثَقُلَتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ. وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُوا أَنفُسَهُمْ فِي جَهَنَّمَ خَالِدُونَ

-Beləliklə, tərəziləri ağır gələnlər (dünyada yaxşı əməlləri çox olanlar xoşbəxt olacaqlar) nicat taparlar. Tərəziləri yüngül gələnlər (dünyada çoxlu günah qazananlar) isə özlərinə ziyan edənlərdir. Onlar cəhənnəmdə əbədi qalarlar.

"Əraf" surəsinin 8-9-cu ayələrində isə belə yazılıb:

وَالْوَزْنُ يَوْمَئِذٍ الْحَقُّ فَمَن ثَقُلَتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ. وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُم بِمَا كَانُواْ بِآيَاتِنَا يِظْلِمُونَ

-Həmin gün (qiyamət günü) çəki (əməllərin tərəzidə çəkilməsi) haqdır. Tərəziləri ağır gələnlər (yaxşı əməlləri pis əməllərindən çox olanlar xoşbəxt olacaqlar) nicat tapanlardır! Tərəziləri yüngül gələnlər (pis əməlləri yaxşı əməllərindən çox olanlar) isə ayələrimizə haqsızlıq etdiklərindən özlərinə zərər eləyənlərdir.

Odur ki, bu tərəzi və ölçünün nəticəsində insanın xoşbəxt, yaxud bədbəxt olacağı aydınlaşacaq. Hər kimin tərəzisi ağır gəlsə, xoşbəxt, yüngül gəlsə, bədbəxt olacaqdır. İmam Sadiq(ə) buyurur: "Qəlbiqara bir şəxs Salman Farsini(r) təhqir edərək dedi: Sən kimsən, sən nəçisən? (Sənin heç bir dəyərin yoxdur). Salman dedi:

أَمَّا أَوّلِي وَ أَوَّلُك فَنُطفَةٌ قَذِرَةٌ، وَأَمَّا آخِرِي وَآخِرُك فَجِيفَةٌ مُنتِنَةٌ، فَإِذا كَان يَومَ القِيامَة وَ نُصِبَت الْمَوازِين فَمَن ثَقُلَت مَوازِينُهُ فَهُو الكَرِيم، وَمَن خَفَّت مَوازِينُهُ فَهُوَ اللَّئِيم.

-Bizim əvvəlimiz bir damla murdar nütfə olub. Bizim axırımız isə iylənmiş leş olacaq. Qiyamət günü tərəzilər qurulan zaman kimin yaxşı əməli ağır gəlsə, o kərimdir. Kimin əməl tərəzisi yüngül gəlsə, o, alçaq və bədbəxtdir. (Beləliklə, kimin nəyə malik olduğu orada bəlli olacaq.)” [1]

Yuxarıda qeyd olunan ayələrdən başa düşürük ki, qiyamət günündə tərəzilərin qurulacağına etiqad bəsləmək bizim əqidəmizdən biridir.

Günlərin birində Məmun İmam Rzaya(ə) məktub yazaraq xahiş edir ki, İslamda olan və Əhli-beytin(ə) təsdiq etdiyi əqidə prinsiplərini (hər bir müsəlmanın əqidəsinin necə olması haqda prinsipləri) onun üçün yazsın. İmam Rza(ə) hər bir müsəlmanın əqidəsinin necə olması haqda prinsipləri çox qısa şəkildə yazaraq ona göndərir. Həmin məktubda tövhiddən məada qədər olan əqidə prinsipləri bəyan edilmişdir. Məktubun bir hissəsi belədir:

وَ يُؤمِنُ بِعَذابِ القَبرِ وَمُنكَرٍ وَنَكِيرٍ، وَالبَعثِ بَعدَ الْمَوت، وَالْمِيزان وَالصِّراط

-Hər bir müsəlmanın qəbir əzabına, İnkir və Minkirə, ölümdən sonra qiyamət günü hamının qəbirdən

[1] Dəh qərinə, səh.47.

qalxmasına, tərəzilərin qurulacağına və sirat körpüsünə iman və inamı olmalıdır.[1]

Deməli, ayə və hədislərdən açıq-aydın şəkildə məlum olur ki, qiyamət günü tərəzilərin qurulacağına inam hər bir müsəlmanın əqidəsidir və bunda heç bir şəkk-şübhə yoxdur.

## Qiyamət günü yalnız İslam əhli üçün tərəzilər qurulacaq

Burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, qiyamət günü tərəzilər yalnız müsəlmanlar üçün qurulacaq. Müsəlman olmayanlara isə tərəzi qurulmayacaq. Allah- təala "Kəhf" surəsinin103-106-cı ayələrində Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالًا. الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا. أُولَئِكَ الَّذِينَ كَفَرُوا بِآيَاتِ رَبِّهِمْ وَلِقَائِهِ فَحَبِطَتْ أَعْمَالُهُمْ فَلَا نُقِيمُ لَهُمْ يَوْمَ الْقِيَامَةِ وَزْنًا. ذَلِكَ جَزَاؤُهُمْ جَهَنَّمُ بِمَا كَفَرُوا وَاتَّخَذُوا آيَاتِي وَرُسُلِي هُزُوًا.

-(Ya Peyğəmbər) de: "Sizə insanların (dünya) əməllər(i) baxımından ən çox ziyana uğrayanlarından xəbər verim? Onlar dünya həyatındakı (hər hansı bir xeyir işdəki) səyləri (küfrlərinə görə) puç olaraq yoxa çıxmış və yaxşı iş görmələrini sanan kəslərdir. Onlar öz Rəbblərinin (tövhid) ayələrinə və (axirət günü) Onunla görüşəcəklərinə küfr etmiş kəslərdir. Beləliklə, onların (yaxşı əməlləri olsa da belə) əməlləri (küfrlərinə görə) puç və batil oldu.

[1] Yenə orada, səh.204.

Nəticədə qiyamət günü onlara heç bir dəyər verməyəcək və əməllərinin ölçülməsi üçün bir tərəzi qurmayacağıq. Belə ki, onların cəzası cəhənnəmdir. Çünki onlar küfr etdilər və Mənim tövhid nişanələrimi və peyğəmbərlərimi məsxərəyə qoydular.

Yəni bu insanlar elə bir dərəcədə deyillər ki, onların əməlləri üçün tərəzi qurulsun. Çünki onlar dünyada əgər yaxşı iş görmüşdülərsə də belə küfrlərinə görə puç və batil olmuşdur. Buna görə də onların yeri birbaşa cəhənnəm olacaq.”

İmam Zeynalabidin(ə) «وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ» “Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq” ayəsinin təfsiri ilə bağlı belə buyurur:

اِعلَمُوا عِبَادَ الله أَنَّ أَهلَ الشِّرك لا تُنصَب لَهُم الْمَوازين، وَلا تُنشَر لَهُم الدَّواوِين، وَ إِنَّما يُحشَرونَ إِلى جَهَنَّم زُمراً، وَ إِنَّما نَصْبُ الْمَوازِين، ونَشْرُ الدَّواوِين لِأَهلِ الْإِسلام

-Ey Allah bəndələri! Ey Allah bəndələri! Bilin ki, (qiyamət günü) şirk əhli üçün tərəzilər və məhkəmələr qurulmayacaq. Çünki onlar birbaşa cəhənnəmə gedəcəklər. Qiyamət günü tərəzilər yalnız İslam əhli üçün qurulacaq.[1]

### Həzrət Adəm(ə) tərəzinin yanında olacaq

Hədislərdə belə nəql olunmuşdur ki, qiyamət günü tərəzilər qurulan zaman Allah-təala bütün insanların babası olan Adəmi(ə) oraya dəvət edəcək. Hədis belədir:

---

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 325.

قَالَ رَسُولُ اللهِ(ص): في قَولِ اللهِ لآدمَ يومَ القِيامَةِ: قُمْ عِندَ المِيزانِ فانظُرْ ما يُرفَعُ إلَيكَ مِن أعمالِهِم، فمَن رَجَحَ مِنهُم خَيرُهُ على شَرِّهِ مِثقالَ ذَرَّةٍ فلَهُ الجَنّةُ؛ حتّى تَعلَمَ أنّي لا اُدخِلُ النارَ مِنهُم إلاّ ظالِما

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü Allah-təala Adəmə(ə) belə buyuracaq: “Tərəzinin yanında dayan və onların (insanların) əməllərindən sənə tərəf qalxanlara bax. Onlardan kimin yaxşılıqları pisliklərindən zərrə qədər ağır gəlsə, cənnət onundur. Bu, Mənim onların heç birini nahaq yerə zülm səbəbindən cəhənnəmə apardmadığımı bilməyin üçündür.”[1]

Bu hədisin yığcam şəkildə olsa da izahını təqdim etmək istərdim. Hədisdə oxuyuruq ki, Allah-təala buyurur: “Bu, Mənim onların heç birini nahaq yerə zülm səbəbindən cəhənnəmə aparmadığımı bilməyin üçündür.” Həzrət Adəm(ə) bilir ki, Allah-təala heç bir kəsə zərrə qədər də olsa zülm etməz. Allah-təala Həzrət Adəmi(ə) orada şahid kimi (əməllərin ölçülməsinə tamaşa etmək məqsədilə) saxlayacaq. Bütün bunlar ondan ötrüdür ki, əməlləri ölçülən şəxsin özü üçün heç bir qaranlıq məqam qalmasın və hər bir şey onun özünə sübut olunsun. Ümumiyyətlə, hər bir işdə Allahın Özü kifayətdir. Allah-təala hər bir şeydən xəbərdardır. Lakin insanın çiynindəki mələklər, qiyamət gününün şahidləri ondan ötrüdür ki, hər bir şey əyani şəkildə həmin şəxsin özünə sübut olunsun. Çünki insan çox vaxt pis əməlini boynuna almaq istəmir. Ona görə də bu qədər şahidi gördükdə heç bir bəhanəyə yer qalmayacaq.

[1] Mizanül-hikmə, 14-cü cild, hədis - 21679.

## Mizanın (tərəzinin) mənası

Ola bilsin ki, tərəzinin mənası ilə bağlı insanın ağlına qəribə suallar da gəlsin. Belə ki, görəsən, qiyamət günündə qurulacaq tərəzinin mənası nədir? Əhli-sünnənin bəzi təfsir və hədis alimləri bu barədə belə deyirlər: "Tərəzidə məqsəd Quranda bəyan olunan həmin zahiri mənadır. Yəni orada qurulan tərəzilər elə dünyadakı tərəzilər kimi olacaq və insanların yaxşı əməlləri onun bir gözünə, pis əməlləri isə digər gözünə qoyulacaq. Hər kimin yaxşı əməlləri pis əməllərindən ağır gəlsə, xoşbəxt, kimin pis əməlləri ağır gəlsə, bədbəxt olacaqdır."[1]

Amma bəzi alimlər isə belə deyirlər: "Əgər biz ayəni təsəvvüri olaraq şərh etsək, elmi cəhətdən mənası düzgün alınmayacaq. Buna görə də ayənin təsdiqi mənasını tapmalıyıq ki, elmi cəhətdən düz olmuş olsun. Yəni hər bir ayənin zahiri baxımdan təsəvvüri və təsdiqi mənaları vardır. Əgər bu ayəni təsəvvüri olaraq şərh etsək, mənası düzgün alınmır. Bizim adi danışığımızda da bu kimi mənalarla rastlaşırıq. Məsələn, bir şəxsin səxavətli olması barədə belə deyirik: "Filankəs əliaçıq adamdır və evinin qapısı həmişə açıqdır." Bu cümlənin iki cür (zühuri təsəvvüri və zühuri təsdiqi) mənaları var. Əgər bu cümləni zühuri təsəvvüri olaraq şərh etsək, belə çıxır ki, onun bədən üzvü olan əli açıqdır. Yaxud evinin qapısı həmişə açıq olur. Amma bəzən həmin adamın əli və evinin qapısı bağlı olur. Deməli, bu cür açıqlama doğru deyildir. Amma bu cümləni zühuri təsdiqi olaraq şərh etsək, belə çıxır ki, həmin adam səxavətli insandır. Yəni səxavətli olduğundan ona əliaçıq adam deyilir. Ona görə də əgər biz bu ayəni

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 319.

zühuri təsəvvüri olaraq şərh etsək, mənası bundan ibarət olar ki, qiyamət günü tərəzini qurub insanın bütün ibadət və yaxşı əməllərini bir gözünə, günah və pis əməllərini isə digər gözünə qoyacaqlar. Tərəzinin hansı gözü ağır gəlsə, nəticə də bundan asılı olacaqdır. Bu şərh düzgün deyildir. Çünki ayənin təsdiqi mənasına da müraciət olunmalıdır. Quranda bir çox ayələr vardır ki, əgər onlar zühuri təsdiqi olaraq şərh edilməsə, insan yolunu azar və zəlalətə düşər. Məsələn, "Fəcr" surəsinin 22-ci ayəsində oxuyuruq:

وَجَاء رَبُّكَ وَالْمَلَكُ صَفًّا صَفًّا

-Rəbbin gələcəyi və mələklərin səf-səf duracağı (gün).

Bu və bu kimi ayələri yalnız təsəvvüri olaraq şərh edərək onların təsdiqi mənasını qəbul etməyənlər həmişə yollarını azmışlar. Bu ayələrin zühuri təsdiqi mənasına da diqqət yetirilməlidir. Belə olduqda ayənin mənası belə alınır: "Rəbbinin (təkid etdiyi əmri və cəlalının, mütləq hakimiyyətinin təcəllisinin) yetişəcəyi və mələklər (məhşər səhnəsinə enib) səf-səf gələcəyi (gün)."

Odur ki, qiyamət günü tərəzilərin qurulacağı, əməllərin ölçüləcəyi və tərəzi barədə sözügedən ayələrin də təsdiqi mənasına varmaq lazımdır. Bundan əlavə, hamıya aydındır ki, hər bir şeyin ölçüsü üçün onların da özünəməxsus tərəzisi vardır. Məsələn, qazı, elektrik enerjisini, suyu, habelə havanın isti-soyuqluğunu ölçmək üçün onların da hər birinin özünəməxsus sayğacı və tərəzisi vardır. Eləcə də qiyamət günü hər bir əməli özünəməxsus tərəzi ilə ölçəcəklər. Namazın, orucun və s. ibadətlərin, halal və haramın, bütün digər əməllərin də hər birinin öz tərəzisi mövcuddur. Buna görə də Quranda yeddi dəfə "tərəzilər" kəlməsi işlənmişdir. Buradan da başa düşülür ki, qiyamət günü əməllərin ölçülməsindən

ötrü bir tərəzi yox, müxtəlif tərəzilər qurulacaq. Bunun mənası o deyil ki, insanlar çox olduğundan növbə yaranmamasından ötrü çoxlu tərəzi qurulacaq və adamların əməllərini tərəzinin gözünə qoyub ölçəcəklər. Bunun mənası odur ki, o gün insanın dünyadakı hər bir əməlinə uyğun olaraq müxtəlif tərəzilər qurulacaqdır.[1]

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 322.

## Axirətin tərəzilərindən nümunələr

Burada tərəzi barədə söz açılmışkən yaxşı olar ki, qiyamət günü qurulan tərəzilərdən bir neçə nümunəyə diqqət yetirək. Sual oluna bilər ki, dünyada hər bir əşyanın miqdarını ölçmək üçün özünəməxsus tərəzilər var. Məsələn, almanı çəkmək üçün tərəzinin bir gözünə çəki daşı, digər gözünə isə alma qoyulur. Daşla almanın çəkisi uyğun gəldikdə çəkinin doğru olduğu bəlli olur. Görəsən, qiyamət günü insanların əməlləri tərəzinin bir gözünə qoyulduqda digər gözünə çəki vahidi olaraq nə qoyulacaq?

Bu sualın cavabında demək olar ki, qiyamət günü insanların əqidə və əməllərinin ölçülməsi üçün xüsusi ölçü vahidlərindən istifadə olunacaqdır. Aləmi yaradan, peyğəmbər göndərən, Quranı nazil edən, imaməti təyin edən və insanlara proqram verən Allah-təalanın Öz ölçüsü vardır ki, həmin ölçü ilə insanların əməllərini ölçəcək. Quran ayələrində və hədislərdə bu ölçülər bəyan edilmişdir.

### 1. Haqq

Qiyamət günü tərəzidə insanın əməllərinin ölçüləcəyi meyar və ölçü vahidlərindən biri haqdır. Yəni əməllərin hamısı haqla ölçülüb hesablanacaq. Tərəzinin bir gözünə haqq, digər gözünə isə əməllər qoyulacaq. Əgər insanın əməlləri haqla uyğun gəlsə, o keçəcək. Yox, əgər uyğun gəlməsə, tərəzi yüngül gələcək. "Əraf" surəsinin 7-ci ayəsində oxuyuruq:

وَالْوَزْنُ يَوْمَئِذٍ الْحَقُّ

-Həmin gün (qiyamət günü) çəki (əməllərin tərəzidə çəkilməsi) haqdır.

Ərəb dilində «وَزْن» - "vəzn" ("çəki") sözünün iki mənası vardır. Hər bir dildə olduğu kimi, ərəb dilində də

bəzi sözlərin bir neçə mənası mövcuddur. Məsələn, Azərbaycan dilində “xurma” sözünün iki mənası var. Onlardan biri ağacda yetişən iri meyvə, digəri isə yenə də ağacda salxım formasında olan qara xurmadır. Yəni Azərbaycan dilində bəzən xurma dedikdə iri meyvə nəzərdə tutulur, bəzən də həmin qara xurma. Bu sözü təklikdə işlətdikdə bu zaman hansı mənanın nəzərdə tutulduğu kiməsə bəlli olmaz. Amma şəraitə uyğun olaraq cümlədə işləndikdə başa düşülür ki, hansı xurma nəzərdə tutulmuşdur. Məsələn, ev sahibi yas məclisi üçün bir nəfərə pul verib “get xurma al” deyəndə, həmin şəxs başa düşür ki, yas məclisinə ağacda bitən iri meyvə yox, həcmcə xırda olan qara xurmadan almaq lazımdır.

Yaxud gül, üzüm sözləri də təklikdə işlənərkən hansı mənanı ifadə etdiyi bəlli olmaz. Amma şəraitdən və cümlədən insan başa düşür ki, həmin söz hansı mənanı ifadə edir. Həmçinin hər bir dildə, xüsusilə ərəb dilində çoxmənalı sözlərlə tez-tez rastlaşmaq olur. Qeyd olunan ayədəki “vəzn” (“çəki”) sözünün də iki mənası var. Bir mənası ölçməkdir ki, adətən, hər bir şey və s. ölçülür. Buna ərəb dilində “tovzin” – “ölçmək” deyilir. İkinci mənası isə bir şeyin tərəzidə ölçülməsi üçün istifadə olunan vasitələrə deyilir. Məsələn, bunlara müxtəlif ölçülü daşlar daxildir ki, onları tərəzinin bir gözünə qoymaqla bir şeyin miqdarını ölçürlər. Ərəb dilində buna isə “ma yuzən bih” – “ölçü vasitəsi” deyilir. İndi baxaq görək, bu ayədəki “vəzn” (“çəki”) sözünün mənası hansıdır? Əgər “tovzin” – “ölçmək” mənasını götürsək, ayənin mənası belə alınır: “Həmin gün çəki haqdır.” Yəni qiyamət günü əməllərin ölçülməsində heç bir şəkk-şübhə yoxdur. Həqiqətən, əməllər ölçüləcək. Amma ikinci mənanı götürsək, ayənin mənası belə alınır: “Həmin gün tərəzinin

bir gözünə haqqı qoyacaqlar.” Yəni tərəzidə əməllər haqq ilə ölçüləcək.

Odur ki, qiyamət günü insanın əməllərini çəkərkən tərəzinin bir gözünə haqqı, digər gözünə isə əməlləri qoyacaqlar. Hər kəsin əməli haqq ilə uyğun gəlsə, qəbul olunacaq, uyğun gəlməsə, qəbul olunmayacaq. Mütləq haqq Allahdır. Beləliklə, hər kim haqq-həqiqətə nə qədər yaxın olsa, qiyamət günü tərəzisi bir o qədər ağır gələcəkdir.

**2. Ədalət**

Qiyamət günündə insanın əməlləri tərəzidə ədalətlə ölçüləcək. Yəni belə deyək ki, tərəzinin bir gözünə ədalət, digər gözünə isə insanın əməlləri qoyulacaq. Tərəzidə əməlləri ölçənin adil olması şübhəsizdir. Orada heç bir kəsə zərrə qədər zülm olunmayacaq. Burada ölçənin ədalətli olmasından söhbət getmir. Çünki O, şübhəsiz ki, tam ədalət sahibidir. Söhbət bundadır ki, insanın əməlləri ədalətlə ölçüləcək. Belə ki, tərəzinin daşı və ölçüsü ədalət olacaq.

Həzrət İmam Sadiqdən(ə) “Tərəzi nədir?” – deyə soruşduqda Həzrət(ə) belə buyurmuşdur: “Tərəzi ədalətdir.”[1]

Deməli, qiyamət günü tərəzinin bir gözündə ədalət, digər gözündə isə əməllər qərar tutacaq. İnsan dünyada hansı əməldə ədalətə riayət edibsə, tərəzidə də həmin əməl qəbul olunacaq. Yox, əgər əməli ədalətli olmayıbsa, həmin əməl qəbul olunmayacaq. Hətta insanın ən xırda əməlləri də ədalətlə ölçüləcək. Məsələn, birisi almanı bölüb onun çox

[1] Dəh qərinə, səh.206.

hissəsini öz uşağına, az hissəsini isə qonşunun uşağına verir. Onun bu işindən heç bir kəsin xəbəri yoxdur. Hətta kiminsə xəbəri olsa da belə ondan şikayət edən olmayacaq. Yaxud həmin şəxs almanın çox hissəsini qonşu uşağa, az hissəsini isə öz uşağına verir. Bütün bunlar insanın ürəyindən keçən əməllərdir və heç kəsin bundan xəbəri yoxdur. Bu kimi xırda əməllərdən tutmuş hakimlərin əməllərinə qədər bütün əməllər tərəzidə ədalətlə ölçüləcək. İnsanın xalqla, ailəsilə, övlad və qonşusu ilə apardığı mühakimə və rəftarı da tərəzidə ədalətlə ölçüləcək.

### 3. Allahın rizayəti

Qiyamət günü əməllər ölçülərkən çəki vahidlərindən üçüncüsü Allahın rizayətidir. Yəni əməllər Allahın rizayəti ilə ölçüləcək. Allah-təala insanın hansı əməlindən razı olarsa, onun həmin əməli də qəbul olunacaqdır.

Hədislərdə belə nəql olunur ki, Həzrət Davud(ə) Allahla minacat edərkən ərz etdi: "İlahi, mizanı (tərəzini) mənə göstər." Allah-təala onun istəyini qəbul edərək buyurdu: "Elə isə bax."

Həzrət Davud(ə) başını qaldırıb göyə baxdıqda çox böyük bir tərəzi gördü. O tərəzinin hər bir gözü məşriqdən məğribədək olan məsafə qədər idi. Həzrət Davud(ə) bu əzəməti görən kimi özündən gedir və yerə yıxılır. Özünə gələndən sonra isə soruşur: "İlahi, kim bu tərəzinin gözünü yaxşılıqlarla doldura bilər? İnsan nə qədər əməl etməlidir ki, onun gözünü doldura bilsin?" Allah-təala ona xitab edərək buyurdu:

يَا داوُد إِنِّي اِذا رَضَيتُ عَن عَبدِي مَلَأتُهَا بِتَمرَةٍ

-Ey Davud, əgər mən bəndəmdən razı olsam, həmin tərəzinin gözünü bircə xurma dənəsi ilə doldureram."[1]

Yəni Allah-təala həmin tərəzinin gözünü Onun yolunda xalis niyyətlə infaq edilmiş bircə xurma dənəsi ilə də doldurar.

Odur ki, qiyamət günündə tərəzinin ölçü vahidlərindən biri Allahın rizayəti olacaqdır. Əsas məsələ əməlin çoxluğunda deyil, onun paklığındadır. Əməlin paklığı isə Allahın rizayətindədir. Əgər Allahın rizayəti olmasa, insan dağı dağ üstə qoysa da belə, həmin əməlin heç bir dəyəri olmayacaqdır. Odur ki, Allah hər kəsin əməlindən razı olsa, həmin şəxsin tərəzisini doldurub ağırlaşdırar.

Əmmar Yasir böyük şəxsiyyətlərdən biri idi və Həzrət Peyğəmbərin(s) ədalətli səhabələrindən sayılırdı. O, hər bir işdə yalnız Allahın rizayətini axtarardı. Allahın razı olmadığı heç bir işi görməzdi. Həzrət Peyğəmbər(s) onun barəsində belə buyurmuşdur:

انَّ عَمَّارَ مَلَئٌ اِيمَانًا مِن قَرنِهِ اِلَى قَدَمِهِ وَاختَلَطَ الإِيمَانُ بِلَحْمِهِ وَ دَمِهِ

-Əmmar başdan-ayağadək imanla dolu olan bir insandır. İman onun ətinə və qanına hopmuşdur.[2]

Siffeyn müharibəsində Əmmar İslam qoşunundan ayrılaraq düşmən qoşunu ilə üz-üzə dayandı və əllərini göyə qaldıraraq Allahla belə minacat etdi: "İlahi, bilirsən ki, Sənin razılığın özümü dənizə atmaqdırsa, ataram. Əgər Sənin razılığın qılıncı qarnıma soxub içalatımı yerə tökməkdədirsə, bilirsən ki, bunu da edərəm. Ey mənim Allahım, mən bu gün bilirəm ki, Sənin razılığın bu

---

[1] Dəh qərinə, səh.207.

[2] Səfinətül-bəhar, 2-ci cild, səh.275.

namərd, alçaq, şərəfsiz və heysiyyatsız adamlara qarşı döyüşməkdədir. Əgər bundan şərafətli digər bir əməl tapsaydım, bunu buraxıb gedib onu görərdim. Mən bu gün düşmənlərə qarşı müharibə etməkdən və Əlini(ə) müdafiə, himayə etməkdən şərafətli bir əməl tapmadım. Bilirəm ki, bu gün Sənin rizayətin bundadır."

Sonra üzünü düşmən qoşununa tutub dedi: "Kim mənim səsimi eşidirsə, gəlib mənə qoşulsun. Mən həmin şəxsi Allahın rizayətinə tərəf apararam."

Əmmar meydana yollanarkən Həzrət Əli(ə) ilə vidalaşdı. Həzrət Əli(ə) onu qucaqlayıb ağladı. Əmmar dedi: "Ya Əli(ə), and olsun Allaha ki, mən sənə açıq gözlə və bəsirətli qəlblə itaət edirəm. Çünki Hüneyn müharibəsində Həzrət Peyğəmbər(s) mənə belə buyurmuşdur: "Ey Əmmar, məndən sonra fitnə qopacaq. Həmin fitnədə haqqı tapmaq istədikdə Əlinin ardınca get və ona itaət et." Sonra buyurdu: "Əli haqladır, haqq da Əli ilə."[1]

Əmmar Yasir Həzrət Əli(ə) ilə vidalaşıb meydana yollandı və həmin müharibədə şəhid oldu. Həzrət Əli(ə) onun cənazəsinin kənarında əyləşdi. Əmmarın üz-gözünü təmizləyə-təmizləyə ağlayıb buyurdu:

ألا أيُّها الموتُ الذي لستَ تاركي     أرِحْني فقد أفنيتَ كُلَّ خليلٍ

أراكَ بصيراً بالذى أُحبّهمْ     كَأَنكَ تنحو نَحوَهُ بدليلٍ

-Ey ölüm, elə bil ki, sən də mənim dostlarımı tanıyırsan. Onları bir-bir mənim əlimdən alırsan.

Əmmar vəsiyyət etmişdi ki, onu qanlı paltarları ilə dəfn etsinlər. İstəyirdi ki, qiyamət günü düşmənləri elə həmin vəziyyətdə mühakimə etsin. Həzrət Əli(ə) Əmmarın

[1] Peyğəmbər(s) və onun dostları, 2-ci cild, səh.527.

vəsiyyətini yerinə yetirərək onun üçün cənazə namazı qıldı və elə qanlı paltarları ilə dəfn etdi.

Əmmarın qatilinin adı Əbül-Ğadiyə idi. İllər ötdükdən sonra onun vəziyyəti çox acınacaqlı oldu. Həccac ibn Yusif hakimiyyətə keçdikdən sonra Əbül-Ğadiyə öz problemini həll etmək üçün onun yanına gəldi. Həccac onu görən kimi dedi: “Süməyyənin oğlu Əmmarı sən öldürmüsənmi?” Dedi: “Bəli, mən öldürmüşəm.” Həccac üzünü camaata tutub dedi: “Qiyamət gününün ən mühüm adamlarından birini görmək istəyirsinizsə, bu adama baxın.” Əbül-Ğadiyə Həccaca baxıb dedi: “Biz dünyanı bunlar (Bəni-Üməyyə) üçün hazırlayıb hər cür şərait yaratdıq, amma onlar bizə heç bir şey vermədilər.” Həccac dedi: “And olsun Allaha ki, əgər Əmmarın qanının tökülməsində dünyanın bütün insanlarının əli olsaydı, Allah onların hamısını cəhənnəmə atardı.”[1]

Əmmar Yasir çox böyük və əzəmətli bir insan idi. Onun barəsində həm Həzrət Peyğəmbər(s), həm də Həzrət Əli(ə) tərifli sözlər buyurmuşlar. O, elə bir şəxsiyyət idi ki, hətta düşmən də onu çox gözəl tanıyırdı. Lakin düşmən çox vaxt öz vəzifəsinə xatir və öz xeyrinə görə kiminsə haqqını danmaq məcburiyyətində qalır. Odur ki, Əmmara izzət, şərafət və əzəmət verən onun Allahın rizayətini hər bir şeydən üstün tutması idi.

### 4. Peyğəmbərlər və onların vəsiləri

Qiyamət gününün tərəzisinin ölçü vahidlərindən biri də peyğəmbərlər və onların vəsiləridir. İmam Sadiq(ə) «وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ» “Biz qiyamət günü ədalətli ölçü

[1] Peyğəmbər(s) və onun dostları, 2-ci cild, səh.530.

və tərəzilər qoyacağıq" – ayəsinin təfsiri ilə bağlı belə buyurur: "Onlar peyğəmbərlər və onların vəsiləridir."

Yəni hər bir ümmətin əməlləri onun peyğəmbərinin və vəsisinin əməlləri ilə ölçüləcək. Belə ki, hər ümmətin əməlləri onun peyğəmbərinin və vəsisinin əməlləri ilə müqayisə olunacaq. Əməllər uyğun gəldikdə tərəzi ağır, uyğun gəlmədikdə isə yüngül olacaqdır. Ötən bəhslərimizdə qeyd edildi ki, qiyamət günü tərəzi yalnız müsəlmanlar üçün qurulacaq. Kafirlər üçün heç bir tərəzi yoxdur. Necə ki, İmam Zeynalabidin(ə) «وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ» -"Biz qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq" – ayəsi barəsində belə buyurmuşdur:

اِعلَمُوا عِبَادَ الله أَنَّ أَهلَ الشِّرك لا تُنصَب لَهُم الْمَوازين، وَلا تُنشَر لَهُم الدَّواوِين، وَ إِنَّما يُحشَرونَ إِلى جَهَنَّم زُمراً، وَ إِنَّما نَصْبُ الْمَوازِين، ونَشْرُ الدَّواوِين لِأَهلِ الْإِسلام

-Ey Allahın bəndələri! Bilin ki, qiyamət gününün tərəziləri və məhkəmələri şirk əhli üçün qurulmayacaq. Çünki onlar birbaşa cəhənnəmə gedəcəklər. Qiyamət günü tərəzilər yalnız İslam əhli üçün qurulacaq.[1]

Səbəbi isə budur ki, kafir insanların heç bir əməli peyğəmbər və vəsilərinin əməlləri ilə uyğun gəlmir. Deməli, qiyamət günü tərəzinin ölçüsü peyğəmbər və vəsiləri olsa, daha kafir insanların əməllərini tərəziyə qoymayacaqlar. Çünki onların peyğəmbər və imamlara heç bir oxşarlığı yoxdur. Tərəzi o kəslər üçün qurulacaq ki, əqidə, iman və əməllərində peyğəmbərlərə və imamlara

---

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 325.

oxşarlıqları olsun. Əqidə və əməli əvvəldən axıra küfr olan insanı heç bir vaxt Həzrət Peyğəmbərlə(s), yaxud Həzrət Əli(ə) və digər məsum imamlarla müqayisə etməyəcəklər. Əgər bir insanın geyimi kafir geyimi, ev-eşiyi kafir evi, hərəkəti kafir hərəkəti, qanunu kafir qanunu olsa, onu peyğəmbər və məsumlarla bir tərəziyə qoyub ölçərlərmi? O kəsi peyğəmbərlə ölçərlər ki, heç olmasa ona oxşarlığı olsun. O kəsi Həzrət Əli(ə) ilə ölçərlər ki, heç olmasa əqidə və əməli Həzrət Əliyə(ə) oxşasın. Odur ki, hər bir kəs dünyada özünü Həzrət Peyğəmbərə(s), Həzrət Əliyə(ə), digər məsum imamlara, Xanım Zeynəbə(s.ə), Həzrət Abbasa oxşada bilsə, qiyamət günü tərəzisi bir o qədər ağır gələcək.

### Tərəzinin ağır gəlməsinə səbəb olan əməllər

Burada qiyamət gününün tərəzisi barədə söz açılmışkən yaxşı olar ki, bu tərəzinin ağır, yaxud yüngül gəlməsinə səbəb olan əməllərdən də söz açaq. Ümumiyyətlə, insanın əməllərinin qəbul olunub-olunmaması Allahın ölçü və meyarı əsasında həyata keçirilir. Bəzən insan bir işi görür və elə güman edir ki, bu iş mütləq bəyəniləcək. Amma Allahın ölçüsü ilə düz gəlmədiyindən qəbul olunmur. Bəzən də kiçik bir əməl Onun ölçülərinə uyğun gəldiyindən qəbul edilir. Biz ümidlə əlimizdən gələn qədər bu dünyada əməl edirik ki, Allah-təala həmin əməlləri bizdən qəbul etsin. Bizim ölçümüzlə Allahın ölçüsü fərqlidir. Məsələn, biz bir qonaqlıq verərkən süfrənin rəngarəngliyinə, şərbətin zəfəranına, halvanın yağına fikir veririk ki, hər şey qaydasında olsun. Amma axirətin ölçüsü zəfəranın keyfiyyətli, yağın bol olması ilə ölçülmür.

Odur ki, hədis və rəvayətlərə əsasən, bir sıra əməllər vardır ki, qiyamət günündə tərəzinin ağır gəlməsinə səbəb olur. Burada çox yaxşı olar ki, həmin əməllərlə tanış olaq.

**1. Şəhadəteyn (iki şəhadət)**

Qiyamət günü insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan ilk əməl Allah-təalanın varlığına, vəhdaniyyətinə və İslamın əziz Peyğəmbərinin(s) nübüvvətinə şəhadət verməkdir. Qiyamət günü hər hansı bir tərəzidə şəhadəteyn olmasa, heç bir əməlin insana faydası olmayacaq. Yuxarıda qeyd olundu ki, mizan və tərəzi yalnız müsəlman üçün qurulacaq. Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini qəbul etməyən bir kəsə, ümumiyyətlə, tərəzi qurulmayacaq.

"Nəhcül-bəlağə"nin 113-cü xütbəsində Həzrət Əli(ə) bu barədə belə buyurur:

شَهَادَتَيْنِ تُصْعِدَانِ اَلْقَوْلَ وَ تَرْفَعَانِ اَلْعَمَلَ لاَ يَخِفُّ مِيزَانٌ تُوضَعَانِ فِيهِ

وَ لاَ يَثْقُلُ مِيزَانٌ تُرْفَعَانِ مِنْهُ

-Bu iki şəhadətin qoyulduğu tərəzinin gözü yüngül olmaz və iki şəhadətin götürüldüyü tərəzinin gözü ağır gəlməz *(bu iki şəhadətə iman olmasa, heç bir əməl qəbul olunmaz)*.

Odur ki, insan bu iki şəhadəti səmimi qəlbdən qəbul etməlidir. Bu şəhadət siyasi məqsədlə və "babam belə demişdir, mən də belə deyirəm" niyyətilə deyilməməlidir. Hər kim bu şəhadəti mərifət və sədaqətlə dilinə gətirsə, qiyamət günü tərəzinin ağır gəlməsində böyük rolu olacaq. Onu da qeyd etmək lazımdır ki, həmin iki şəhadətdən hər hansı biri qəbul edilmədikdə yenə də bunun insana heç bir faydası dəyməz. Allah- təala Quranı Həzrət Peyğəmbərin(s)

vasitəsilə insanlara çatdırmışdır. Allah-təalanı qəbul edib Həzrət Peyğəmbəri(s) qəbul etməmək düzgün deyil. Həzrət Əlini(ə) Həzrət Peyğəmbər(s) insanlara rəhbər təyin edib. Gündəlik vacib və yaxud müstəhəb namazları Həzrət(s) təyin edir. Həccin əməllərini və digər əməlləri də Həzrət Peyğəmbər(s) təyin etmişdir. Buna görə də kim Həzrət Peyğəmbəri(s) qəbul etmirsə, deməli, Allahı da qəbul etməmişdir. Çünki o, Allahın insanlara göndərdiyi peyğəmbərdir. Odur ki, hər kim Həzrət Peyğəmbərə(s) həqiqi mənada iman gətirsə və buyurduqlarına dəqiqliklə riayət etsə, heç bir vaxt ixtilafa düşməz və problemlərlə qarşılaşmaz. Əgər bir şəxs Həzrət Peyğəmbərin(s) buyurduğu sözlərə hansısa bir kəlməni əlavə edirsə, deməli, Həzrətə(s) sədaqətlə iman gətirməyib.

Həzrət Peyğəmbər(s) zilhiccə ayının 18-də Qədr-Xumda Həzrət Əlini(ə) öz yerinə canişin təyin edərkən uzun bir xütbə oxudu. Həmin xütbədə belə buyurdu: "Hər kim burada mənim söylədiklərimi qəbul etməsə, mənim özümü də qəbul etməmişdir." Deməli, Həzrət Peyğəmbərin(s) sözlərini qəbul etməyən onun özünü, onu qəbul etməyən isə həqiqətdə Allahı qəbul etməmişdir.

**2. Təsbihati-ərbəə zikri**

Qiyamət günü tərəzinin ağır gəlməsinə səbəb olan ikinci əməl təsbihati-ərbəə zikridir. Həmin zikr belədir: "Subhanallahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər."

Zikrin əsas mənası budur ki, insan Allahın həmişə ona nəzarət etdiyini bilsin və dilində də Onu zikr etsin. Belə bir insanın etdiyi bu zikri tərəzinin gözünə qoyduqda mümkün deyil ki, ağır gəlməsin. Hədislərdə belə nəql olunur ki, hər kim "Subhanallahi vəlhəmdu lillahi və la

ilahə illəllahu vallahu əkbər" zikrini davamlı şəkildə oxusa, bu zikr qiyamət günü onun tərəzisinin ağır gəlməsinə səbəb olacaq.

Əlbəttə, bu zikri iki cür demək mümkündür. Biri budur ki, sözləri bir-birinə qoşaraq "Subhanallahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər" kimi deyilsin. Digəri isə odur ki, hər bir kəlmə ayrı-ayrılıqda deyilsin: "Subhanallah", "Əlhəmdulillah", "La ilahə illəllah", "Allahu əkbər." Kəbə evini təvaf edərkən sözləri ayrı-ayrılıqda deyil, onları bir-birinə qoşaraq demək daha yaxşıdır. Həzrət Adəm(ə), Həzrət İbrahim(ə) təvaf edərkən belə deyərdilər: "Subhanallahi, vəlhəmdulillahi, və la ilahə illəllah, vallahu əkbər." Amma məsələ bundadır ki, tərəzinin ağır gəlməsinə səbəb olmaq üçün bu zikrin ayrı-ayrılıqda deyilməsi tövsiyə olunur.

İmam Sadiq(ə) bu barədə Həzrət Əlidən(ə) belə bir hədis nəql etmişdir. Həzrət Əli(ə) buyurur:

التَّسْبِيحُ نِصْفُ الْمِيزَانِ ، وَالْحَمْدُ لِلَّهِ تَمْلَؤُهُ ، وَالتَّكْبِيرُ يَمْلَأُ مَا بَيْنَ السَّماءِ وَ الأَرض

-"Subhanallah" zikri tərəzinin yarısını, "Əlhəmdulillah" zikri tərəzinin hamısını, "Allahu əkbər" zikri isə yerlə göyün arasını doldurar.[1]

Bir daha qeyd etmək lazımdır ki, insan bu zikri edərkən diqqətlə, sədaqətlə, mərifətlə, pak nəfəs və pak niyyətlə yerinə yetirməlidir. Günah əməllər edə-edə bu zikri oxumağın nə faydası var? Haram yeyə-yeyə bu zikri oxumaq insanın əməl tərəzisini ağırlaşdırarmı? Buna görə də

---

[1] Üsuli-kafi, 4-cü cild, səh. 268.

insan yeməyində, baxışlarında, danışığında və s. əməllərində diqqətli olmalıdır ki, həmin zikrin ona təsiri olsun.

Allah-təala Həzrət Süleyman Peyğəmbərə(ə) çox şeyin ixtiyarını inayət etmişdi. Heyvanlarla danışır, küləyə əmr edə bilirdi. Həm Allahın Peyğəmbəri(ə) idi, həm də şah idi. Allah-təala onu böyük əzəmət və qüdrət sahibi etmişdi. Həzrət(ə) günlərin birində özünəməxsus miniyi ilə göydə uçurdu. Dərələrdən birində Allaha ibadət edən bir şəxsin gözü Həzrət Süleymanın(ə) cah-cəlalına sataşdı. Gördü ki, Həzrət Süleyman(ə) əzəmətlə və böyük cah-cəlalla harasa gedir. Öz-özünə dedi: "Subhanallah! Süleymanın əzəmətinə və cah-cəlalına bax!" Həzrət Süleyman(ə) onun sözlərini eşitdi və adamlarına əmr verdi ki, həmin dərəyə ensinlər. Dərəyə endikdən sonra həmin abidin yanına gəlib soruşdu: "Ey Allahın bəndəsi, sən bir söz dedin ki, mən həmin sözə görə bura enməli oldum. Bunu bil ki, sənin sidq ürəklə və saf niyyətlə bircə kəlmə "Subhanallah" deməyin Süleymanın bütün cah-cəlalından böyük və əzəmətlidir. Əgər dediyin o kəlməni tərəzinin bir gözünə, mənim bütün cah-cəlalımı digər gözünə qoysalar, həmin "Subhanallah" kəlməsi ağır gələr."

### 3. Salavat

İnsanın əməl tərəzisinin ağır gəlməsində Məhəmməd və ali-Məhəmmədə salavat göndərməyin xüsusi rolu vardır. Salavat barədə çoxlu hədislər və rəvayətlər nəql olunmuşdur. Mövzumuza uyğun olaraq nümunə üçün bir hədisi diqqətinizə çatdırıram.

Məhəmməd ibn Müslim İmam Sadiqdən(ə), yaxud İmam Baqirdən(ə) belə bir hədis nəql etmişdir. Həzrət(ə) belə buyurmuşdur:

مَا فِي الْمِيزَانِ شَيْءٌ أَثْقَلَ مِنَ الصَّلَاةِ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ إِنَّ الرَّجُلَ لَتُوضَعُ أَعْمَالُهُ فِي الْمِيزَانِ فَتَمِيلُ بِهِ فَيُخْرِجُ الصَّلَاةَ عَلَيْهِ فَيَضَعُهَا فِي مِيزَانِهِ فَيَرْجَحُ بِهِ

-Əməl tərəzisini Məhəmməd və Ali-Məhəmmədə göndərilən salavat kimi ağırlaşdıran bir əməl yoxdur. Qiyamət günü insanın əməlləri ölçülərkən tərəzinin əməllər qoyulduğu gözü yüngül gəldikdə (dünyada Peyğəmbər(s) və Ali- Peyğəmbərə) göndərdiyi salavatların savabı onun əməllərinin üzərinə əlavə olunar və əməlləri ağır gələr.[1]

Əlbəttə, burada bir məsələyə də diqqət yetirmək lazımdır ki, hər bir əməldə olduğu kimi, insan salavat zikr edəndə də riyakarlığa yol verməməlidir. Yəni insan çalışmalıdır ki, bu zikrdə də niyyəti ixlasla olsun. Salavat zikr etməyin çətinliyi də məhz bundadır. Çünki salavatda dodaqlanan hərflər çox olduğuna görə insan bu zikri deyərkən ətrafdakıların diqqətini cəlb etməsi mümkündür. Belə olduqda camaat arasında salavat zikr edərkən şeytan fürsətdən istifadə edib insanı riyakarlığa sövq edə bilir. Allah-təala riya məqsədilə zikr olunmuş salavatı insandan qəbul etməz. Hər bir əməldə olduğu kimi, insan salavat zikr edərkən kimisə Allaha şərik qoşsa, Allah- təala Öz payını şərikinə verər və həmin şəsin zikr etdiyi salavat qəbul olunmaz. Amma "La ilahə illəllah" zikrində dodaqlanan hərflər olmadığı üçün camaat arasında zikr olunduqda heç bir kəsin diqqətini cəlb etmir. Yəni bu zikrdə ancaq dil rol oynadığından dodaqlar tərpənmir. Əxlaq alimləri öz kitablarında belə tövsiyə etmişlər ki,

[1] Üsuli-kafi, 4-cü cild, səh. 252.

insanlar onlarda riyakarlığın əmələ gəlməməsi üçün salavatı heç bir kəsin olmadığı yerdə zikr etsinlər. “La ilahə illəllah” zikrini isə hər bir halda demək olar.

### 4. İxlas

İnsanın əməl tərəzisini ağırlaşdıran əməllərdən dördüncüsü ixlasdır. Bütün əməllərin əsası buna bağlıdır. Burada əsas məsələ əməlin böyüklüyündə və ya kiçikliyində yox, onun xalis niyyətlə həyata keçirilməsindədir. Yəni hər bir əməl sırf Allaha xatir görülərsə, həmin əməl Allah-təala yanında qəbul olunar. Hətta kiçik bir əməl belə ixlasla görülmüş olsa, Allah həmin əməli insandan qəbul edər. Lakin insan ixlassız dağı dağ üstə qoysa da, onun Allah yanında heç bir dəyəri olmayacaq. Qeyd olunduğu kimi, Allahın Özünün ölçüsü vardır. Hər hansı bir əməl Onun ölçüsü ilə düz gəlsə, məqbul sayılır. Allahın rizayət və razılığı üçün ixlasla görülmüş hər bir əməldən Onun xoşu gəlir.

Ötən bəhslərdə də qeyd olundu ki, günlərin birində Həzrət Davud(ə) Allahdan xahiş etdi ki, qiyamət gününün tərəzisini ona göstərsin. Allah-təala da tərəzini ona göstərdi. Davud(ə) başını qaldırıb göyə baxdıqda çox böyük bir tərəzi gördü və huşunu itirdi. Həmin tərəzinin hər bir gözü məşriqdən məğribədək olan məsafə qədər idi. Davud(ə) özünə gələndən sonra soruşdu: “İlahi, kim bu tərəzinin gözünü yaxşılıqlarla doldura bilər? İnsan nə qədər əməl etməlidir ki, onun gözünü doldura bilsin?” Allah-təala ona xitab edərək buyurdu:

يَا داوُد إِنِّي اِذا رَضَيتُ عَن عَبدِي مَلَأتُها بِتَمرَةٍ

-Ey Davud, əgər mən bəndəmdən razı olsam, həmin tərəzinin gözünü bircə xurma dənəsi ilə dolduraram.[1]

Böyük aimlərdən biri dünyasını dəyişmişdi. O, hələ yaşadığı müddətdə onlarca elmi kitab yazmışdı. Hər kəs onun bu müddət ərzində bu qədər kitabı necə yazdığına həqiqi mənada təəccüb edirdi. Yəni onun İslam aləmində çox böyük xidmətləri olmuşdur. O, rəhmətə gedəndən sonra dostlarından biri belə deyir: "Günlərin birində onu yuxuda gördüm. Hal-əhval tutduqdan sonra vəziyyətinin nə yerdə olduğunu soruşdum. O, mənə dedi: Bir gün küçədə bir qadın gördüm. O, qucağında uşaq yol gedirdi. Uşaq hey ağlayırdı və anası onu sakitləşdirə bilmirdi. Mən də onların ardınca gedirdim. Mən nə həmin qadını, nə də uşağı tanımırdım. Hava da çox soyuq idi. Uşağın bu vəziyyətini gördükdə ürəyim ağrıdı. Həmin vaxt cibimdə bir alma var idi. Uşağın üzü də mənə tərəf idi. Almanı cibimdən çıxarıb ona verdim. Uşaq almanı məndən alıb sakitləşdi. Bu işdən anasının heç xəbəri olmadı. Dünyanı dəyişdikdən sonra həmin əməli ixlasla gördüyümə görə mənə nicat verdi."

İmam Sadiqin(ə) zamanında yaşayan bir şəxsin çox böyük bir hacəti var idi. O, bu problemi həll etmək üçün həmin dövrdə yaşayan böyük övliyaların yanına gedərək neçə-neçə zikr və əməl öyrəndi. Bir müddət həmin zikr və əməllərə riayət etdikdən sonra günlərin birində Allah-təala onun hacətini inayət etdi və çətinliyini aradan qaldırdı. Amma həmin şəxs bilmək istəyirdi ki, hacətinin Allah dərgahında qəbul olunmasına bu zikr və əməllərdən hansı biri səbəb olmuşdur. Buna görə də İmam Sadiqin(ə)

---

[1] Dəh qərinə, səh.207.

hüzuruna gəlib məsələni olduğu kimi Həzrətə(ə) danışaraq soruşdu: “Ey Allahın höccəti, düzdür, Allah mənim hacətimi yerinə yetirdi. Amma bilmək istərdim ki, riayət etdiyim bu zikr və əməllərin hansı biri mənim hacətimin yerinə yetirilməsinə səbəb olub.”

İmam(ə) buyurdu: “Onlardan heç biri.”

Həmin şəxs soruşdu: “Bəs necə oldu ki, Allah-təala mənim ən böyük istəyimi yerinə yetirdi.”

İmam(ə) buyurdu: “Yadındadırmı, sənin tanıdığın ailələrdən birində ərlə arvadın sözləri düz gəlmirdi? İş o yerə gəlib çatmışdı ki, artıq onlar boşanmağı qərara almışdılar. Onların 4-5 yaşında bir qızları da var idi. Sən onlara yaxın olduğun üçün aralarında vasitəçilik etdin və nəsihət edərək onları barışdırdın. Ailəni dağılmağa qoymadın. Bütün bunlar yadındadırmı?”

Dedi: “Bəli, yadımdadır.”

İmam(ə) buyurdu: “Sən onları barışdırdıqdan sonra onların uşağının sənə baxıb sevincindən gülümsəməyi yadındadırmı?”

Dedi: “Bəli, yadımdadır.”

İmam(ə) buyurdu: “Allah-təala o uşağın gülümsəməyinə görə sənin həmin böyük hacətini həll etdi.”

Bəzən insan kiçik və qiymətindən xəbəri olmadığı elə işlər görür ki, Allah-təalanın yanında həmin əməlin böyük qiyməti vardır. Çünki Allahın ölçüsü ilə bizim ölçümüz tamamilə fərqlidir. Biz bir işi böyüklüyü ilə ölçürük. Amma Allahın ölçüsündə bir əməlin böyüklüyü və ya kiçikliyi yox, əsas meyar həmin əməlin ixlasla görülməsindədir.

### 5. Başqalarının atdığı iftiralar

Qiyamət günü insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan amillərdən beşincisi başqalarının ona atdığı iftiralardır. Bu barədə Həzrət Peyğəmbər(s) belə buyurmuşdur:

يُجاءُ بِالعَبدِ يَومَ القِيامَةِ فتُوضَعُ حَسَناتُهُ في كِفَّةٍ و سَيِّئاتُهُ في كِفَّةٍ فتَرجَحُ السَّيِّئاتُ، فتَجيءُ بِطاقَةٌ فتَقَعُ في كِفَّةِ الحَسَناتِ فتَرجَحُ بِها ، فيَقولُ: يا ربِّ، ما هذهِ البِطاقَةُ؟ فما مِن عَمَلٍ عَمِلتُهُ في لَيلي أو نَهاري إلاّ و قَدِ استُقبِلتُ بهِ ! قالَ : هذا ما قِيلَ فِيكَ و أنتَ مِنهُ بَرِيءٌ ، فَينجو بذلكَ

-Qiyamət günü bəndəni tərəzi başına gətirərlər. Yaxşı əməlləri tərəzinin bir gözünə, günahları da digər gözünə qoyular. Bu halda günahları ağır gələr. Belə olduqda bir vərəqi gətirib tərəzinin yaxşı əməllər qoyulan gözünə qoyular və yaxşı əməlləri ağır gələr. Həmin şəxs deyər ki, Pərvərdigara, mənim dünyada gecə-gündüz etdiyim bütün əməllər tərəzinin gözündədir. Bəs bu vərəq nədir ki, yaxşı əməllərimin ağır gəlməsinə səbəb oldu? Allah ona xitab edərək buyurar: “Dünyada sənin barəndə deyilən iftiralar və dalınca danışılan sözlərdir. Halbuki səndə bu xislətlər yox idi. Ona görə də sən nicat tapdın.”[1]

Odur ki, bu dünyada kimə şər və ya iftira atılırsa, onun barəsində olmayan sözlər danışılırsa, qiyamət günündə ona atılan həmin iftira və böhtanlar yaxşı əməllərinin üzərinə əlavə olunaraq tərəzinin ağır gəlməsinə səbəb olacaqdır.

### 6. Gözəl əxlaq

[1] Mizanül-hikmə, 14-cü cild, hədis - 21680.

İnsanın əməl tərəzisini ağırlaşdıran əməllərdən altıncısı gözəl əxlaqdır. Yəni hər kəs dünyada gözəl əxlaqa malik olsa, əməllərin tərəzidə ölçüləcəyi zaman yaxşı əməllərinin ağır gəlməsinə səbəb olacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): مَا مِنْ شَيْءٍ يُوضَعُ فِي الْمِيزَانِ أَثْقَلُ مِنْ حُسْنِ الْخُلُقِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əməllər tərəzisində gözəl əxlaqdan ağır bir şey yoxdur."[1]

**Gözəl əxlaqın mənası**

Gözəl əxlaqın mənası hədislərdə bizim üçün bəyan olunmuşdur. Gözəl əxlaq odur ki, insan mehriban, gülərüz, xoşxasiyyətli, ədəbli və təvazökar olsun. Qardaşına və ailəsinə qarşı mehribanlıq göstərsin.

الإمامُ الصّادقُ عليه السلام لَمّا سُئلَ عَن حَدّ حُسنِ الخُلقِ: تُلينُ جانِبَكَ، و تُطيّبُ كلامَكَ، و تَلْقى أخاكَ ببِشْرٍ حَسَنٍ

-İmam Sadiq(ə) gözəl əxlaqın mənası barədə verilən sualın cavabında: "Gözəl əxlaqlı insan yumşaq xasiyyətli, mehriban, danışığında saf və ədəbli olan, qardaşı ilə mehriban rəftar edən kəsdir."[2]

قَالَ عَلِيٌّ(ع): ...و التَّوَسُّعُ على العِيالِ...

-Həzrət Əli(ə) buyurur: "Gözəl əxlaqlı insan öz ailəsinin asayiş və rahatlığını təmin edən kəsdir."[3]

---

[1] Yenə orada, 4-cü cild, hədis - 5015.
[2] Mizanül-hikmə, 4-cü cild, hədis - 5027.
[3] Yenə orada.

قَالَ عَلِيٌّ(ع): إنَّ بَذْلَ التّحيَّةِ مِن مَحاسِنِ الأخْلاقِ

-Həzrət Əli(ə) buyurur: "Salam vermək gözəl əxlaqdan irəli gəlir."[1]

Həzrət Peyğəmbər(s) bütün insanlar üçün mükəmməl əxlaq nümunəsi idi. Allah- təala onu nümunəvi bir insan kimi təqdim etmişdir. Həzrət Peyğəmbər(s) həmişə qarşılaşdığı şəxsə birinci salam verərdi. Hər kəs də Həzrət Peyğəmbərə(s) birinci salam verməyi arzu edərdi.

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, gözəl əxlaqlı olmaq iki cürdür. Birincisi budur ki, əxlaq bəzi insanların zatında olur. İkincisi isə odur ki, bəzi insanlar özlərini öyrəşdirməklə bu əxlaqa yiyələnmiş olurlar.

İshaq ibn Əmmar deyir: "İmam Sadiq(ə) əxlaq barədə belə buyurur:

الخُلقُ مَنيحَةٌ يَمنَحُها اللّهُ عزّ و جلّ خَلقَهُ، فمِنهُ سَجِيَّةٌ، و مِنهُ نِيَّةٌ. فَقُلْتُ: فأيَّتُهُما أفضَلُ؟ فقالَ: صاحِبُ السَّجِيَّةِ هُو مَجْبولٌ لا يَستَطيعُ غَيرَهُ، و صاحِبُ النِّيَّةِ يَصْبِرُ على الطّاعَةِ تَصَبُّرا، فهُو أفْضَلُهُما

-Əxlaq bir hədiyyədir ki, Allah-təala Öz bəndələrinə inayət etmişdir. Bu əxlaq bəzi insanların zatında qoyulmuşdur. Bəzi insanlar isə (məşq edərək) özlərini öyrəşdirməklə bu əxlaqı kəsb etmişlər. Soruşdum: Bunların hansı üstündür?

İmam(ə) buyurdu: Zatında əxlaq olan şəxslərin çətinliyi yoxdur. Amma zəhmət çəkib özlərini öyrəşdirməklə əxlaqa yiyələnənlər isə itaətdə özlərini səbirli aparırlar. (Yəni məsələn, bir insan zatən səbirlidir. Amma başqa birisi isə

[1] Yenə orada, hədis - 5032.

səbirsizdir. Buna baxmayaraq, əziyyətlə də olsa özünü səbirli aparmağa çalışır.) Deməli, bu o birindən üstündür."[1]

## Gözəl əxlaqın faydaları

Gözəl əxlaqlı olmağın insana bir çox faydaları vardır. Müxtəlif hədis və rəvayətlərə əsasən biz görürük ki, gözəl əxlaqın insana bəxş etdiyi faydalar aşağıdakılardır:

-Ruzini çoxaldar, dostluq ipini möhkəmləndirər, evləri abad edər, Günəş buzu əritdiyi kimi, gözəl əxlaq da günahları əridər, (qiyamət günündə) insanın hesab-kitabını yüngülləşdirər və o cümlədən tərəzidə yaxşı əməllərin ağır gəlməsinə səbəb olar.

### 7. İmam Rzanın(ə) ziyarəti

İnsanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan əməllərdən biri isə Həzrət İmam Rzanın(ə) ziyarətidir. Həzrət(ə) özü bu barədə buyurmuşdur: "Hər kim məni mərifətlə (və qürbətən ilələllah niyyətilə) ziyarət etsə, üç yerdə fəryadına çataram: 1. Sirat körpüsündə; 2. Tərəzinin kənarında; 3. Əməl dəftəri təqdim olunarkən."[2]

**Qeyd:** Burada bir mətləbi əziz möminlərin diqqətinə çatdırmaq istərdim. Həmin mətləb budur ki, mömin insanların qəbirlərini ziyarət etmək İslamda qəbul olunmuş bir əməldir. Qəbiristanlığa getmək, əhli-qübura (dünyasını dəyişmiş möminlərə) ümumi və xüsusi salam verib onlar üçün fatihə oxumaq müstəhəb əməllərdəndir. Əgər bəzi firqələr qəbiristanlıq əhlinə ümumi fatihə verməyi qəbul edərək xüsusi ziyarətləri qəbul etmirlərsə, bu, onların öz

---

[1] Mizanül-hikmə, 4-cü cild, hədis - 5036.
[2] Dəh qərinə, səh.207.

əqidəsidir. Həmin əqidə də onların özləri üçün möhtərəm sayıla bilər. Burada kimin hansı əqidəyə malik olduğunu müzakirə etmirik. Dünya elə buna görədir ki, insanlar gəlib burada özləri üçün müəyyən bir əqidə seçsinlər və dünyanı başa çatdırsınlar. Bəzi alimlər deyirlər ki, İmam Hüseyn(ə) həyat və yaşayış barəsində belə buyurmuşdur: "Həqiqətən, həyat əqidə və cihaddır." Ola bilsin ki, bu kəlam Həzrətə(ə) məxsus olmasın, hər halda doğru bir kəlamdır. Yəni insan bu dünyaya gəldikdən sonra təbii olaraq müəyyən bir əqidəyə malik olur və öz əqidəsi yolunda da çalışaraq həmin əqidə ilə də dünyadan gedir. Amma qiyamət günündə məhkəmə İslam əsasında qurulacaqdır. Həmin məhkəmədə İslam Peyğəmbəri(s), onun buyurduğu kəlamlar, sünnəsi, Həzrət(s) dünyadan köçərkən tapşırdığı Allah-təalanın kitabı olan Quran və Əhli-beyt(ə) meyar tutulacaq.

Odur ki, əhli-qüburu ziyarət etmək İslamda müstəhəb əməllərdən biridir. Xüsusilə başda Həzrət Peyğəmbər(s) və Əhli-beyti(ə) olmaqla şəhidlər, alimlər, təqvalı insanlar, pak seyidlər kimi şəxslərin qəbirlərini ziyarət etmək müstəhəbdir. Bu ziyarətin insanın mənəvi inkişafında böyük rolu vardır. Həzrət Peyğəmbər(s) özü də şəhidlərin, xüsusilə seyyidüş-şühəda Həzrət Həmzənin qəbrini ziyarət edərdi. Həzrət Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra Fatimeyi Zəhra(s.ə) və Həzrət Əli(ə) Həzrətin(s) qəbrini ziyarət edərdilər. Hətta birinci və ikinci xəlifə də Həzrət Peyğəmbərin(s) qəbrini ziyarət edirdilər. Sonralar bu iş kimlərəsə sərf etmədiyi üçün siyasi nöqteyi-nəzərdən Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə), həmçinin digər qəbiristanlıq əhlinin ziyarət edilməsinə İslam adı ilə qadağa qoydular. Bu gün həmin məsələni meyar kimi irəli sürərək haqqı batildən ayırmaq istəyirlər.

Hər bir halda İslamda möminlərin qəbirlərini ziyarət etmək müstəhəb və savab əməllərdən hesab olunur. Şəxsən Həzrət Peyğəmbər(s) başda olmaqla hər bir məsum imamın qəbrini ziyarət etməyin özünəməxsus təsiri və xüsusiyyətləri vardır. O cümlədən yuxarıdakı hədisdə də qeyd olunduğu kimi, İmam Rzanın(ə) qəbrini ziyarət etməyin bir neçə xüsusiyyət və təsiri vardır. Hər kim "qürbətən iləllah" niyyətilə qüsl edərək, yaxud dəstəmaz alaraq Həzrətin(ə) qəbrini mərifətlə ziyarət etsə, qiyamət günü bu ziyarətin həmin şəxsə olan faydalarından biri də əməl tərəzisinin ağırlaşmasına səbəb olar. Yəni İmam Rzanı(ə) ziyarət edən şəxsin etdiyi ziyarətini qiyamət günü tərəzidə əməllərinin üzərinə qoyduqda tərəzi ağırlaşacaq.

Bir daha qeyd etmək lazımdır ki, bu ziyarət mərifət və mənəviyyatla olmalıdır. Çünki hər bir məsumun ziyarətində mərifət əsas şərtdir. Mərifət isə odur ki, insan kimin qəbrini ziyarət etdiyini, onun Allahın yer üzərində höccəti olduğunu bilməlidir. Belə bir ziyarət müxtəlif hallarda insana fayda verəcəkdir.

### 8. Mömini dəfn edərkən qəbrinə torpaq tökmək

İnsanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olan işlərdən biri də dünyasını dəyişmiş mömini dəfn edərkən onun qəbrinə torpaq tökməkdir. Yəni bir mömin vəfat edərkən onun cənazəsinə qüsl vermək, kəfənə bükmək, cənazə namazı qılmaq, yerdən götürüb dəfn etmək bütün müsəlmanlara vacibdir. Əgər bir qrup insan bu işi görsə, hamının boynundan götürülər. Lakin dəfn mərasimində (iştirak etmək, cənazəni müşayiət etmək, meyiti dəfn etmək kimi) bir sıra müstəhəb əməllər də vardır ki, hər bir əməlin öz təsir və xüsusiyyəti var. O cümlədən dəfn zamanı cənazəni qəbrə qoyduqdan və daşları düzdükdən sonra kim

onun üzərinə nə qədər torpaq töksə, bu əməl qiyamət günü həmin şəxsin (torpaq tökənin) əməl tərəzisini bir o qədər ağırlaşdırar. Həzrət Peyğəmbər(s) də şəxsən bu işi görərdi. Dəfn mərasimində qəbrin üzərinə torpaq tökərkən Həzrət(s) əlləri ilə torpağı götürüb qəbrə tökərdi.

Hədislərdə belə nəql olunmuşdur ki, möminin cənazəsini dəfn edərkən kim onun qəbrinə nə qədər torpaq tökərsə, qiyamət günü tərəzisi yüngül gəldikdə həmin torpaqlardan əməllərinin üzərinə əlavə olunar və beləcə, tərəzinin əməl gözü ağırlaşar.

### 9. Dünyadan getmiş övlad

İnsanın özündən əvvəl dünyasını dəyişmiş övladı onun əməl tərəzisinin ağır gəlməsinə səbəb olan amillərdən hesab edilir.

Həzrət Peyğəmbərdən(s) bu barədə müfəssəl bir hədis nəql olunmuşdur ki, həmin hədisin bir qismi belədir: "Həzrət(s) buyurur: Dünən gecə çox qəribə və əcaib hallar gördüm...[1] Ümmətimdən bir kişini gördüm ki, əməllərini tərəzidə ölçərkən (tərəzinin əməl gözü) yüngül gəldi. Elə bu zaman onun özündən qabaq vəfat etmiş övladlarını gətirib tərəzinin əməl gözünə qoydular. Beləcə, tərəzinin əməl gözü ağır gəldi.[2]

Günlərin birində Həzrət Əli(ə) səhabələrdən soruşdu: "Rəqub" nədir?" Səhabələr təəccüblə dedilər: "Ya Əli, bu, çox asan sözdür. Yoxsul və dünya malından heç nəyi

---

[1] Hədisdə qeyd olunmamışdır ki, Peyğəmbər(s) bu qəribəlikləri Meracda, yaxud yuxuda görmüşdür. Həmçinin ola bilsin ki, Həzrətin(s) qəlbinə gələn ilhamlardır. Hər bir halda Peyğəmbərin(s) mübarək ağzından çıxan söz bizim üçün höccətdir. Çünki onun hər bir kəlməsi Quranla bərabərdir.

[2] Dəh qərinə, səh.228.

olmayan adama "rəqub" deyilir." Həzrət Əli(ə) buyurdu: "Xeyr. Bəzən bir insanın dünyada hər bir şeyi olmasına baxmayaraq, "rəqub" hesab olunur." Soruşdular: "Bu necə ola bilər?" Həzrət(ə) buyurdu: "Rəqub" o deyil ki, dünya malından heç nəyi olmasın. "Rəqub" odur ki, özündən qabaq axirət dünyasına mal göndərməsin (Allah yolunda malından xərcləməsin.) Belə adam dünyasını dəyişdikdən sonra axirətdə kasıb və yoxsuldur."

Sonra Həzrət Əli(ə) soruşdu: "Sizcə "səluk" nədir?" Səhabələr yenə təəccüblə dedilər: "Bu da çox asan sözdür. Övladı olmayana "səluk" deyilir." Həzrət Əli(ə) buyurdu: "Xeyr. Mümkündür ki, bir insanın dünyada neçə-neçə övladı olsun, amma axirətdə həmin adam "səluk"ların cərgəsində dayansın." Soruşdular: "Ya Əli, bu, necə ola bilər?" Həzrət(ə) buyurdu: "Dünyada hər kəsin övladı özündən qabaq vəfat etsə, qiyamət günü həmin şəxs səluk və sonsuzların cərgəsində olmayacaq (dünyadan köçərkən həmin övladı onu qarşılayacaq)."

Burada bir şərti də yadda saxlamaq lazımdır ki, övladını itirən hər bir valideyn səbir etməlidir. Çünki övlad itkisi insan üçün çətin hallardan biridir. Amma buna dünya itkisi desək də, axirətdə həmin insanın özünə qayıdacaqdır. Əgər bir insanın övladı özündən qabaq dünyasını dəyişərsə və valideyn mərdi-mərdanə səbir edib dözərsə, qiyamət günü əməllər tərəziyə qoyulduqda həmin vəfat etmiş övlad tərəzinin ağır gəlməsinə səbəb olacaqdır.

**10. Zahirlə daxilin bərabərliyi**

İnsanın əməl tərəzisini ağırlaşdıran amillərdən biri də onun zahiri ilə daxilinin sözün yaxşı mənasında uyğun olmasıdır. Mömin insanın təriflərindən biri də məhz həmin bu məsələdir. Əgər bir insanın üzü (görünən tərəfi) içindən (görünməyən tərəfindən) görkəmli olsa, ona mömin deyilməz. Məsələn, əgər bir insan zahirən öz

hərəkətləri ilə özünü mömin kimi göstərib xəlvətdə və ya içəridə möminlikdən onda bir əsər-əlamət yoxdursa, o, mömin deyildir. Odur ki, hər bir kəsin daxili zahirindən gözəl olsa, qiyamət günü tərəzisi ağır gələcək.

قَالَ البَاقِرُ(ع): مَنْ كَانَ ظَاهِرُهُ أَرْجَحَ مِنْ بَاطِنِهِ خَفَّ مِيزَانُهُ

-İmam Baqir(ə) buyurur: "Hər kimin zahiri batinindən yaxşı olsa, əməl tərəzisi yüngül gələcək."[1]

**11. Quranı öyrənmək**

İnsanın əməl tərəzisini ağırlaşdıran məsələlərdən biri isə Qurani-Kərimi öyrənməkdir. Qurani-Kərim Allah-təala tərəfindən insanlar üçün göndərilmiş müqəddəs bir kitabdır. Quran bizim kitabımızdır. Əsas məqsəd isə budur ki, biz həmin müqəddəs kitabı Allahdan qəbul edək, onu oxumağı öyrənək və onun buyurduqlarına riayət edək. Qurani-Kərimin fəzilətləri barədə çoxlu hədislər nəql olunmuşdur. Mövzumuza uyğun olaraq nümunə üçün bir hədisi diqqətinizə çatdırıram.

Həzrət Peyğəmbər(s) Məaz ibn Cəbələ belə buyurdu:

قَالَ رَسُولُ اللهِ(ص): يَا مُعاذُ، إن أَرَدتَ عَيشَ السُّعَداءِ و مِيتَةَ الشُّهَداءِ و النَّجاةَ يَومَ الحَشرِ و الأمنَ يَومَ الخَوفِ و النُّورَ يَومَ الظُّلُماتِ و الظِّلَّ يَومَ الحَرورِ و الرِّيَّ يَومَ العَطَشِ و الوَزنَ يَومَ الخِفَّةِ و الهُدى يَومَ الضَّلالَةِ فَادرُسِ القرآنَ؛ فإنّهُ ذِكرُ الرَّحمنِ و حِرزٌ مِن الشَّيطانِ و رُجحانٌ في الميزانِ

[1] Dəh qərinə, səh.229.

-Ey Məaz, əgər xoşbəxt insanlar kimi yaşamaq, şəhidlər kimi ölmək, məhşərdə nicat tapmaq, qorxulu gündə (qiyamət günü) əmin-amanlıqda qalmaq, o günün qaranlıq və zülmətindən yaxa qurtarmaq, qızmar günlərdə kölgədə və asayişdə olmaq, susuz olduğun günlərdə susuzluğunu dəf etmək, əməl tərəzisinin ağır gəlməsini, haqq yoldan uzaq düşdüyün zaman hidayət olunmağını istəyirsənsə, Quranı öyrən. O, mehriban Allahı yad etməkdə ən gözəl vasitə, şeytanın müqabilində böyük bir zireh və əməllərin ölçülməsindən ötrü ən yaxşı meyardır.[1]

**12. Həzrət Əlinin(ə) vilayət və məhəbbəti**

İmam Əlinin(ə) vilayətini qəbul edərək Həzrətə(ə) eşq və məhəbbət bəsləmək insanın əməl tərəzisini ağırlaşdıran amillərdən biridir. Dünyada Əli ibn Əbu Talibə(ə) məhəbbət bəsləyən hər bir kəsin əməl tərəzisi ağır gələcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): حُبّي و حُبُّ أهلِ بَيْتي نافِعٌ في سَبعةِ مَواطِنَ أهْوالُهُنَّ عظيمةٌ: عِند الوَفاةِ، و في القَبرِ، و عِند النُّشورِ، و عِند الكِتابِ، و عِند الحِسابِ، و عِند الميزانِ، و عِند الصِّراطِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Mən və mənim Əhli-beytimin məhəbbəti yeddi böyük və qorxulu halda insana xeyir verərək onun dərdinə dəyəcək: vəfat edən zaman; qəbirdə; məhşər günündə; kitabı (əməl dəftəri) oxunduğu

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16456.

zaman; hesab-kitaba çəkiləndə; tərəzidə əməllərinin ölçüləcəyi zaman və sirat körpüsündən keçəndə."[1]

Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala qiyamət günü bir qrup insanı qəbirdən qaldırıb tərəzinin kənarına gətirər və onların bütün əməlləri tərəzinin gözünə qoyular. Onlara deyilər: "Bunlar sizin günahlarınız. Bəs yaxşı əməlləriniz hanı?" Onlar deyərlər: "Bizim olanımız budur. Bundan artıq yaxşı əməllərimiz yoxdur." Allahdan onlara belə bir nida gələr: "Sizin yaxşı əməlləriniz var."

Sonra gətirib kiçik bir vərəqi tərəzinin gözünə qoyarlar. Həmin vərəqi tərəzinin üstünə qoyan kimi tərəzinin yaxşı əməllər olan gözü ağırlaşar. Məhşər əhli soruşar: "İlahi, biz bunun günahlarını gördük ki, tərəzini (yaxşı əməl olan gözünü) yüngülləşdirmişdi. Bəs bu kiçik vərəqdə nə yazılmışdı ki, onun yaxşı əməllərini ağırlaşdırdı?" Allah-təala buyurar: "Bu bəndə dünyada borc verdiyi şəxsin yanına gedərkən borclu onun borcunu (yaxud bir hissəsini) verib deyir: "Al bunu. Mən səni Əlini(ə) sevdiyin üçün sevirəm." Borc verən şəxs də borcu (yaxud qalan hissəsini) ona qaytarıb deyir: "Mən də sənin Əliyə(ə) olan məhəbbətinə görə bu borcu sənə bağışlayıram. (Bizi Əlinin(ə) məhəbbəti bir-birimizə bağladığı üçün) mənim malımdan nə qədər ürəyin istəyirsə, götürə bilərsən." Bu, Əli(ə) məhəbbətinə xatir olan hərəkətlərdir ki, əməl tərəzisinin yaxşı əməllər qərar tutduğu gözünü ağırlaşdırmışdır."

Sonra Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təalanın onların (Əli(ə) məhəbbətinə xatir olan) bu söhbət və hərəkətlərindən xoşu gəlir və bu əməllərini əhsən dərəcədə qəbul edir. Onların ikisinin də günahlarını bağışlayır.

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 3203.

Onların bu əməlini əməl dəftərində və tərəzidə qərar verir. Əliyə(ə) olan eşqlərinə görə onların hər ikisini və valideynlərini cənnətə aparır."[1]

Odur ki, hər kimin qəlbində Həzrət Əlinin(ə) eşq və məhəbbəti olsa, bu məhəbbət həmin insanın əməl tərəzisinin ağır gəlməsinə səbəb olacaq.

## ALLAH MƏHKƏMƏSİNDƏ ŞAHİDLƏRİN İFADƏSİ

Qiyamətin beşinci mərhələsi həmin günün məhkəməsində şahidlərin ifadəsidir. Hər bir məhkəmədə şahid lazım olduğu kimi, qiyamət günündə də insanlar mühakimə olunarkən şahidlərə ehtiyac duyulacaqdır. Məsələn, dünyada bir nəfər digəri barəsində şikayət etdikdə həmin şəxsi hakimin yanına aparırlar. Orada hər iki tərəf öz sözünü deyir və hər kəs öz iddiasına dəlil-sübut gətirir. Həmin sübutlardan biri də şahidlərdir. Əgər hadisəni bir neçə nəfər görübsə, məhkəmədə şahid qismində iştirak edərək öz ifadələrini verirlər. Şahidlərin olması və ifadə vermələri dünyanın bütün məhkəmələrində qəbul edilmiş bir qaydadır. Məhkəmənin doğru keçib-keçməməsi, şikayətçinin fırıldaqçı olub-olmaması, şikayət olunanın hoqqabaz olması, şahidlərin pul alıb ifadə vermələrinə, yaxud yalan danışmalarına gəldikdə isə, bunlar başqa-başqa söhbətlərdir. Dünyada bu kimi hallara rast gəlmək mümkündür. Amma qiyamət gününün məhkəməsində zərrə qədər də olsa belə hallar olmayacaq. Həmin gün insan üçün çox böyük bir məhkəmə qurulacaq və orada şahidlərin də böyük rolu olacaqdır.

[1] Biharül-ənvar, 7-ci cild, səh.248.

Qurani-Kərimdə bu məsələyə bir neçə yerdə işarə edilmişdir. Məsələn, “Ğafir” surəsinin 51-ci ayəsində oxuyuruq:

وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ

-Şahidlərin şəhadət verəcəyi gündə.

Bəzi ayələrdə isə şahidlərin necə ifadə verəcəyi barədə söz açılır. “Hud” surəsinin 18-ci ayəsində belə buyurulur:

يُعْرَضُونَ عَلَىٰ رَبِّهِمْ وَيَقُولُ الْأَشْهَادُ هَٰؤُلَاءِ الَّذِينَ كَذَبُوا عَلَىٰ رَبِّهِمْ

-Onlar (günahkarlar) Allahın hüzuruna gətirilər, şahidlər (mələklər, peyğəmbərlər, bütün məxluqat, yaxud insanın öz bədəninin üzvləri) belə deyərlər: “Bunlar Rəbbi barəsində yalan söyləyənlərdir!”

Yuxarıda qeyd olunan iki ayənin birində qiyamət günü şahidlərin olacağına, digərində isə necə şahidlik edəcəklərinə işarə olunur. Əsas məsələ isə bundadır ki, qiyamət günü neçə şahid insana şahidlik edəcəkdir? Bu sualın cavabında ayə və hədislərə istinad edərək demək olar ki, qiyamət gününün şahidləri iki qismdir. Onlara daxili və xarici şahidlər deyilir ki, bir qismi insanın bədənində, digər bir qismi isə xaricindədir. Məsələn, insanın əllərinin, ayaqlarının, gözlərinin, dilinin və dərisinin şahidliyi onun bədəninə aid olan şahidlərdir. Xarici şahidlərə isə başda Allah-təalanın Özü olmaqla, peyğəmbərlər, imamlar, mələklər, zaman, məkan və s. kimi şahidlər daxildir. Quranda qiyamət gününün şahidlərinin adları çəkilmişdir. Allah-təala bununla da hamıya başa salır ki, insan heç bir yerə qaça bilməyəcək. Həzrət Əli(ə) “Kumeyl” duasında Allahla minacat edərkən belə deyir:

وَلا يُمْكِنُ الْفِرارُ مِنْ حُكُومَتِكَ

-Sənin hakimiyyətindən qaçmaq mümkün deyil.

## Qiyamət gününün şahidləri

### 1. Allahın şahidliyi

Qiyamət gününün şahidlərindən birincisi şəxsən Allahın Özüdür ki, hər gün, hər saat, hər dəqiqə və hər an harada olmağımızdan asılı olmayaraq, bütün əməllərimizi görür və bizə nəzarət edir. Burada incə bir məqama da diqqət yetirmək lazımdır ki, məhkəmələrdə şahidlər yalnız gördüklərini danışır və hamı onu dinləyir. Amma Allahın şahidliyi belədir ki, O, həm hakimdir, həm də şahiddir. Yəni hakimin özü hadisə və əməllərin şahididir. Allah-təala "Ali-İmran" surəsinin 98-ci ayəsində belə buyurur:

لِمَ تَكْفُرُونَ بِآيَاتِ اللَّهِ وَاللَّهُ شَهِيدٌ عَلَىٰ مَا تَعْمَلُونَ

-Allah sizin əməllərinizin şahidi olduğu halda nə üçün Allahın ayələrini (dəlillərini) inkar edirsiniz?

"Yunis" surəsinin 46-cı ayəsində belə buyurulur:

فَإِلَيْنَا مَرْجِعُهُمْ ثُمَّ اللَّهُ شَهِيدٌ عَلَىٰ مَا يَفْعَلُونَ

-Onların (bütün insanların) axır dönüşü Bizədir. Allah onların nə etdiklərinə şahiddir!

"Yunis" surəsinin 61-ci ayəsində buyurulur:

وَلَا تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلَّا كُنَّا عَلَيْكُمْ شُهُودًا

-Nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq.

Həzrət Əli(ə) "Kumeyl" duasında minacat edərək deyir:

اِلَهِي وَ سَيِّدِي وَمَولاي، فَأَسئَلُكَ... اَنْ تَهَبَ لِى فِى هذِهِ اللَّيْلَةِ وَفِى هَذِهِ السّاعَةِ كُلَّ جُرْمٍ اَجْرَمْتُهُ، وَكُلَّ ذَنْبٍ اَذْنَبْتُهُ، وَكُلَّ قَبِيحٍ اَسْرَرْتُهُ،

وَكُلَّ سَيِّئَةٍ اَظْهَرْتُهُ، وَكُلَّ جَهْلٍ عَمِلْتُهُ، كَتَمْتُهُ اَوْ اَعْلَنْتُهُ اَخْفَيْتُهُ اَوْ اَظْهَرْتُهُ، وَكُلَّ سَيِّئَةٍ
اَمَرْتَ بِاِثْباتِهَا الْكِرامَ الْكَاتِبِينَ الَّذينَ وَكَّلْتَهُمْ بِحِفْظِ ما يَكُونُ مِنّي
وَجَعَلْتَهُمْ شُهُوداً عَلَيَّ مَعَ جَوارِحي، وَكُنْتَ اَنْتَ الرَّقيبَ عَلَيَّ مِنْ
وَرائِهِمْ، وَالشّاهِدَ لِما خَفِيَ عَنْهُمْ.

-Ey mənim Allahım, ağam və mövlam... Bu gecə və bu saat mənim etdiyim bütün xətaları, düçar olduğum bütün günahları, gizlində etdiyim bütün pis əməlləri, xəlvətdə və ya aşkarda, gizlində və ya zahirdə etdiyim bütün nadanlıqları, mənə müvəkkil etdiyin hörmətli mələklərin məndən yazdıqları bütün günahları bağışlayasan. O günahlar ki, mənim bütün əzalarımı onlar üçün şahid qərar vermisən, Sən də onların arxasında gözətçi olmusan, onlardan gizli olan günahlara şahid olmusan, amma öz rəhmətinlə onları gizlətmisən, öz fəzlinlə üstünü örtmüsən.

**2. Peyğəmbərlərin şahidliyi**

İnsanların əməllərinə şəhadət verən şahidlərin ikinci qismi peyğəmbərlərdir. Qiyamət günü bütün peyğəmbərlər öz ümmətlərinin əməllərinə şahid olacaqlar. “Nisa” surəsinin 41-ci ayəsində belə oxuyuruq:

فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هَؤُلاءِ شَهِيدًا

-Buna görə də hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də bunlara şahid gətirəcəyimiz zaman (camaatın halı) necə olacaq?!

Təfsir alimləri bu ayədə işlənmiş “səni də bunlara şahid gətirəcəyimiz zaman” cümləsi ilə bağlı demişlər: “Bu ayənin bir mənası belədir ki, hər peyğəmbər öz

ümmətinə şahiddir və İslam Peyğəmbəri(s) də bütün peyğəmbərlərə şahiddir.” Digər mənası isə budur ki, hər peyğəmbər öz ümmətinə şahid olduğu kimi, İslam Peyğəmbəri(s) də öz ümmətinə şahiddir.

Odur ki, İlahi peyğəmbərlər öz ümmətlərinə şahiddirlər və qiyamət günü də şahidlik edəcəklər. Xüsusilə hədislərdə İslam Peyğəmbəri(s) barədə belə nəql olunur ki, bəzi hədislərə görə həftədə bir, bəzi hədislərə görə isə iki dəfə ümmətinin əməlləri Həzrətə(s) təqdim edilir. Əgər Quranda açıq-aydın şəkildə Həzrət Peyğəmbərin(s) öz ümmətinə şahidlik etdiyi bəyan olunursa, deyə bilərik ki, məsələlərdən və ya əməllərdən xəbəri olmayan bir kəsi şahid qismində məhkəməyə çağırmazlar. Bu ona əsas verir deyək ki, Həzrət Peyğəmbər(s) insanların əməllərini görür və onlardan xəbərdardır. Buradan isə belə bir nəticəyə gəlmək olar ki, Həzrət Peyğəmbər(s) həm diriliyində, həm də dünyadan gedəndən sonra da ümmətinə şahidlik edəcəkdir.

### 3. Məsum imamların şahidliyi

Elə bir zaman və əsr olmayıb ki, Allah-təala həmin dövrdə peyğəmbərdən sonra imam təyin etməsin. Elə bir zaman yoxdur ki, Allahın yer üzərində höccəti olmasın. Hər imam öz əsrində Allahın höccəti və ən azından öz əsrindəki ümmətin şahididir. Allah-təala “Həcc” surəsinin 77-78-ci ayələrində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا ارْكَعُوا وَاسْجُدُوا وَاعْبُدُوا رَبَّكُمْ وَافْعَلُوا الْخَيْرَ لَعَلَّكُمْ تُفْلِحُونَ. وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ مِلَّةَ أَبِيكُمْ إِبْرَاهِيمَ ۚ هُوَ سَمَّاكُمُ الْمُسْلِمِينَ مِنْ

قَبْلُ وَفِي هَٰذَا لِيَكُونَ الرَّسُولُ شَهِيدًا عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاءَ عَلَى النَّاسِ...

-Ey iman gətirənlər! (Namaz qıldıqda) rükuya gedin, səcdə edin; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız! (xoşbəxt olasınız). (Ey möminlər!) Allah yolunda layiqincə cihad edin (çalışın). O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini (dinində olduğu) kimi. (Ey Məhəmməd ümməti!) Allah bundan (Quran nazil olmamışdan) əvvəl də, bunda (Quranda) da sizə müsəlman adını verdi ki, (qiyamət günü) Peyğəmbər sizə, siz (bir qisminiz) də insanlara şahid olasınız.

Bureyd ibn əl-İcli deyir: "İmam Sadiqdən(ə) "Peyğəmbər sizə, siz (bir qisminiz) də insanlara şahid olasınız" - ayəsi barəsində soruşduqda Həzrət(ə) belə buyurdu:

إِيّانَا عَنَى خَاصّةً... فَرَسُولُ اللهِ(ص) الشّهِيدُ عَلَيْنَا بِمَا بَلّغَنَا عَنِ اللهِ عَزّ وَ جَلّ وَ نَحْنُ الشّهَدَاءُ عَلَى النّاسِ فَمَنْ صَدّقَ صَدّقْنَاهُ يَوْمَ الْقِيَامَةِ وَ مَنْ كَذّبَ كَذّبْنَاهُ يَوْمَ الْقِيَامَةِ

-Həmin kəslər bizik (ki, ümmətə şahidlik edirik). Peyğəmbər(s) də bizə şahiddir ki, Allah tərəfindən gətirdiyini insanlara necə çatdırdığımıza nəzarət edir. Biz bütün insanların şahidiyik. Hər kim dünyada Allahı (Ona iman gətirməyi) təsdiq etsə, qiyamət günü biz də onu təsdiq edəcəyik. Hər kim bu dünyada Allahı təkzib etsə, qiyamət günü biz də onu təkzib edəcəyik.[1]

---

[1] Üsuli-kafi, 1-ci cild, səh.270.

**4. Mələklərin şahidliyi**

Allah-təala mələklərdən bəzisinə dünyada insanın əməllərinə nəzarət və qiyamət günü şahidlik etmək tapşırığını vermişdir. Odur ki, qiyamət günü insan həmin şahidlərlə birgə İlahi məhkəməyə daxil olacaqdır. Nümunə üçün bu barədə olan ayələrdən birinə diqqət yetirək. Allah-təala "Qaf" surəsinin 21-22-ci ayələrində belə buyurur:

وَجَاءَتْ كُلُّ نَفْسٍ مَعَهَا سَائِقٌ وَشَهِيدٌ. لَقَدْ كُنْتَ فِي غَفْلَةٍ مِنْ هَٰذَا فَكَشَفْنَا عَنْكَ غِطَاءَكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ. وَقَالَ قَرِينُهُ هَٰذَا مَا لَدَيَّ عَتِيدٌ

-Hər bir kəs (Rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə gələcəkdir. (Ona belə deyiləcəkdir:) "Sən (dünyada) bundan (bu müdhiş günə uğrayacağından) qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!" Yoldaşı (ona təhkim olunmuş mələk) deyəcəkdir: "Bu yanımdakı hazırdır!"

Həzrət Əlidən(ə) bu ayənin barəsində soruşduqda Həzrət(ə) belə buyurdu:

سَائِقٌ يَسُوقُهَا إِلَى مَحْشَرِهَا وَ شَاهِدٌ يَشْهَدُ عَلَيهَا بِعَمَلِها

-Hər insanın bir sürüyəni və bir də şəhadət verəni vardır: sürüyən onu məhşərə sürüyür, şəhadət verən onun *(yaxşı və pis)* işlərinə şəhadət verir.

Allah-təala "İnfitar" surəsinin 10-12-ci ayələrində insana nəzarət edən mələklər barədə belə buyurur:

وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ. يَعْلَمُونَ مَا تَفْعَلُونَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər) vardır. Onlar sizin nə etdiklərinizi (zahir və batini, ixlası və riyanı, kamal və nöqsan dərəcələrini) bilirlər.

"Qaf" surəsinin 18-ci ayəsində belə buyurulur:

مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

-Dilinə elə bir söz gətirməz ki, (bu zaman) yanında (deyilənləri yazmağa) hazır (müraqib) olan nəzarətçi mələk dayanmasın.

Bu ayədə Allah-təala həmin mələklərin iki sifət və xüsusiyyətini bəyan edir. "Rəqib", yəni həmişə hazır olan, "Ətid" isə həmişə nəzarətçi olan deməkdir. Bunlar elə məmurlardır ki, heç bir şey onların nəzərindən yayınmaz. Bəzi ibarələrdə bu mələklərin adı Ətid və Rəqib kimi hallanır. Əslində isə onların adı Ətid və Rəqib deyil. Bunlar həmin mələklərin xüsusiyyət və sifətləridir ki, Ətid və Rəqib kimi tanınırlar. Hətta hədislərdə də onları Ətid və Rəqib kimi tanıtdırmışlar.

Bir nəfər deyir: "Günlərin birində Həzrət Əli(ə) ayaqyoluna gedərkən qapıda dayanıb müəyyən sözləri dedikdən sonra içəri keçdi. Oradan çıxdıqdan sonra mən Həzrətdən(ə) soruşdum: "Ya Əmirəlmöminin, siz oraya daxil olmazdan öncə kiminlə söhbət edirdiniz? Axı, sizin yanınızda heç bir kəsi görmədim." Həzrət(ə) buyurdu: "Mənim yanımda həmişə nəzarətdə olan iki mələk var. Mən onlara dedim ki, ey Ətid, ey Rəqib, mən sizdən həya etdiyimə görə xahiş edirəm, mənimlə içəri daxil olmayasınız. Sizə söz verirəm ki, orada sizin kağız-qələminizə ehtiyac olan bir iş görməyəcəyəm. Onlar mənimlə razılaşıb bayırda gözlədilər. Onlarla belə bir şərt

kəsib içəri daxil oldum. Oradan çıxdıqdan sonra yenə də mənə qoşuldular."

Bu rəvayəti qeyd etməkdə məqsədim odur ki, hədislərdə də həmin iki mələyin adı Ətid və Rəqib olmamasına baxmayaraq, bu adla tanınmışlar. Ətid və Rəqib bu mələklərin sifət və xüsusiyyətləridir. Ayədən açıq-aşkar görürük ki, insanın ağzından çıxan hər bir sözü yazıb qeydə alırlar.

Allah-təala "İsra" surəsinin 78-ci ayəsində buyurur:

إِنَّ قُرْآنَ الْفَجْرِ كَانَ مَشْهُودًا

-Çünki sübh namazı müşahidə olunur.

Bu ayənin izahında demişlər ki, əgər insan sübh namazını vaxtında qılsa, gecə və gündüzün mələkləri tərəfindən qeydə alınar. Yəni insana nəzarət edən mələklər sübh namazı vaxtı növbə ilə dəyişilirlər. Gecənin mələkləri gedir, gündüzün mələkləri isə gəlirlər. Buna görə də insan sübh namazını dəqiq vaxtında qılarkən həm gecənin mələkləri, həm də gündüzün mələkləri tərəfindən qeydə alınır. Onlar növbəni dəyişən zaman insanın qıldığı namaza şahiddirlər və qiyamət günü həmin şəxs üçün şahidlik edəcəklər. Odur ki, əgər insan dərindən başa düşsə ki, iki qrup mələk onun sübh namazını qeydə alır və qiyamət günü onlar şahidlik edəcəklər, o zaman namazı çox dəqiqliklə və diqqətlə qılar.

Bu mələklər insanın ömrünün sonuna qədər onun əməllərini qeydə alırlar. İnsanın ömrü sona çatdıqda isə yazdıqları kitab bağlanır və bir də qiyamət gününün məhkəməsində açılacaqdır.

### 5. Yerin (məkanın) şahidliyi

Qiyamət günü insanın əməllərinə şahid olacaq və bütün gördüklərini, eləcə də bildiklərini xəbər verəcək şahidlərdən biri də yer, yaxud məkandır. İnsan cism olduğu üçün ona məkan lazımdır. Məkan odur ki, insan orada əyləşir, gəzir, yeyir, içir, savab işlər görür, günah edir və digər hərəkətləri həyata keçirir. Yəni insanın gördüyü hər bir iş məkan üzərindədir. Hara getsə, göylərə qalxsa da belə məkandan kənara çıxa bilmir. İnsanın gördüyü hər bir iş bir məkan daxilindədir ki, qiyamət günü həmin məkan onun əməllərinə şahidlik edəcəkdir. Bu da onu bildirir ki, insanın heç bir yerə qaçması və ya etdiyi işləri danması mümkün deyildir. Quranın "Zəlzələ" surəsinin 5-ci ayəsində oxuyuruq:

يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا. بِأَنَّ رَبَّكَ أَوْحَىٰ لَهَا

-Məhz o gün yer öz xəbərlərini açıb söyləyər. Ona görə ki, sənin Rəbbin ona vəhy etmişdir.

Əlbəttə, belə düşünmək lazım deyil ki, daş-torpaq, su, hava və hər hansı bir əşya və ya məkan insanın əməllərini bilir. Allah-təala onlara vəhy edərək bunu bildirir. Yəni insan hər hansı bir məkanda günah edibsə, qiyamət günü Allah-təala həmin məkana vəhy edəcək və o da öz şahidliyini bəyan edəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): وَالبِقَاعُ الَّتِي تَشتَمِلُ عَليهِ شُهُود رَبِّه لَه أَو عَلَيه

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanı əhatə edən bütün məkanlar Allahın insanlar üçün şahidləridir ki, onun xeyrinə və yaxud ziyanına şahidlik edəcəklər."[1]

Həzrət Əli(ə) beytülmalı ehtiyacı olanlara və hər kəsin haqqı çatdığı qədər payladıqdan sonra həmin (beytülmalı

[1] Biharül-ənvar, 7-ci cild, səh. 318.

yığdığı) otaqda iki rükət namaz qılıb belə buyurardı: "Şahid ol ki, mən səni haqq yolla doldurdum və həmin qayda ilə də boşaltdım."[1]

İmam Zeynalabidin(ə) bəzi vaxtlar bağda, yaxud ağac olan yerlərdə hər bir ağacın altında dayanıb iki rükət namaz qılardı. Həzrətdən(ə) nə üçün hər bir ağacın altında namaz qıldığını soruşduqda belə buyurardı: "Bu məkanların hamısı qiyamət günü orada namaz qıldığım üçün şahidlik edəcəklər."[2]

Bir nəfər İmam Sadiqdən(ə) soruşdu: "Nafilə (müstəhəb) namazlarımı bir məkanda qılım, yoxsa müxtəlif məkanlarda?"

لا، بل هاهنا وهاهنا، فإنّها تشهد له يوم القيامة

İmam buyurdu: "Xeyr. Orda-burda (müxtəlif məkanlarda) qıl ki, həmin məkanlar qiyamət günü (sənin üçün) şahidlik edəcəklər."[3]

قَالَ عَلِيٌّ(ع): صَلُّوا مِنَ الْمَسَاجِدِ فِي بِقَاعٍ مُخْتَلِفَةٍ فَإِنَّ كُلَّ بُقْعَةٍ تَشْهَدُ لِلْمُصَلِّي عَلَيْهَا يَوْمَ الْقِيَامَةِ

-Həzrət Əli(ə) buyurur: "Namazı məscidlərin müxtəlif yerlərində qılın. Çünki yerin (məkanın) hər bir künc-bucağı qiyamət günü orada namaz qılan şəxs üçün şahidlik edəcəkdir."

Burada bir məqama da diqqət yetirmək gərəkdir ki, evdə namaz qılarkən həmişə bir yerdə və bir məkanda namaz qılınmasına çalışmaq lazımdır. Hədislərdə də belə

[1] Dəh qərinə, səh. 246.
[2] Dəh qərinə, səh. 246.
[3] Biharül-ənvar, 7-ci cild, səh. 318.

nəql olunmuşdur ki, insan can verərkən onu həmişə namaz qıldığı yerə uzatsalar, o, canını rahat tapşırar. Amma evdən kənarda isə çox yaxşı olar ki, insan namazlarını müxtəlif məkanlarda qılsın. Səbəbi isə budur ki, qiyamət günü həmin yer və məkanlar onun üçün şahid dayanacaqlar.

Əlbəttə, məkanın şahidliyi barədə çox danışmaq olar. Ancaq müxtəlif kitablardan da bu mövzuda geniş məlumatlar əldə etmək mümkündür. Məsələn, hansı yerlərin qiyamət günü insandan şikayət edəcəyi, yaxud hansı yerlərin insanın yaxşılığına şəhadət verəcəyi barədə də hədislər qeyd olunmuşdur. Eləcə də insanın günah etdiyi, yatıb sübh namazına qalxmadığı, nahaq qanın töküldüyü və s. yerlər qiyamət günü həmin şəxsdən şikayət edəcəkdir.

**6. Zamanın şahidliyi**

Qiyamət günü insanın pis və yaxşı əməllərinə şahidik edən şahidlərdən biri isə zamandır.

قَالَ رَسُولُ اللهِ(ص): وَ اللّيالِي وَ الأَيّام وَ الشُّهُور شُهُودُهُ عَلَيه اَو لَه

-Həzrət Peyğəmbər(s) buyurur: "Gecələr, gündüzlər və aylar insanın əleyhinə və lehinə şahidlik edəcəkdir."[1]

قَالَ عَلِيّ(ع): مَا مِن يَوم يَمُرُّ عَلَى اِبن آدَم اِلاّ قَالَ لَهُ ذَلِكَ اليَوم بَابنَ آدَم! اَنَا يَومٌ جَدِيد وَ اَنَا عَلَيكَ شَهِيد. فَقُل فِيَّ خَيرًا وَاعمَل فِيَّ خَيرًا اَشهَدُ لَكَ يَوم القِيَامَة. فَإِنَّكَ لَنْ تَرَانِي بَعْدَهَا أَبَداً

-Həzrət Əli(ə) buyurur: "Adəm övladı üçün elə bir gün yoxdur ki, həmin gün (zaman) ona deməsin: Ey Adəm övladı! Mən təzə bir günəm (zamanam). Mən sənin üçün şahid duracağam. Mənim içimdə xeyir danış və xeyir

[1] Biharül-ənvar, 7-ci cild, səh. 315.

əməllər gör ki, qiyamət günü sənin üçün şahidlik edəcəyəm. Mən (ötüb keçdikdən sonra) sən bir daha məni görməyəcəksən."[1]

Həzrət Peyğəmbərin(s) aylar və onların insana şahidik etməsi barədə müfəssəl bir hədis vardır ki, həmin hədisin bir hissəsini diqqətinizə çatdırıram. Həzrət(s) belə buyurur:

وَتَجَنَّبُوا الْمَعَاصِيَ بِتَقْوَى اللَّهِ يُرْجَى الْخَلَاصُ فَإِنَّ مَنْ عَرَفَ حُرْمَةَ رَجَبٍ وَشَعْبَانَ وَ رَمَضَانَ... شَهِدَتْ لَهُ هَذِهِ الشُّهُورُ يَوْمَ الْقِيَامَةِ...

-(Camaat!) Günahlardan çəkinin! Allahdan qorxun (təqvalı olun) ki, bu, sizin xilas olub nicat tapmağınızın ümid yeridir. Həqiqətən, kim rəcəb, şaban və ramazan aylarının hörmətini saxlasa, haqqını (qiymətini) bilsə, qiyamət günü həmin aylar onun xeyrinə şahidlik edərlər...

وَيُنَادِي مُنَادٍ: يَا رَجَبُ وَيَا شَعْبَانُ وَيَا شَهْرَ رَمَضَانَ كَيْفَ عَمَلُ هَذَا الْعَبْدِ فِيكُمْ كَانَت طَاعَتُه لِلَّهِ عَزَّوَجَلّ؟

فَيَقُولُ: رَبَّنَا مَا تَزَوَّدَ مِنَّا إِلَّا اسْتِعَانَةً عَلَى طَاعَتِكَ وَاسْتِعْدَاداً لِمَوَادِّ فَضْلِكَ وَلَقَدْ تَعَرَّضَ بِحَمْدِهِ لِرِضَاكَ وَطَلَبَ لِطَاقَتِهِ مَحَبَّتَكَ.

-Qiyamət günü carçı nida edib səslənər: "Ey rəcəb, ey şaban və ey ramazan, bu bəndənin sizdəki əməli Allah-təalaya necə itaət etməkdən ibarət idi? Cavab verəcəklər ki, ey Rəbbimiz, o, bizdə yalnız Sənin itaətin üçün azuqə topladı, Sənin fəzl və mərhəmətini qazanmağa çalışdı. O, Sənə şükür etməklə Sənin razılığını, itaəti ilə Sənin sevgini qazandı, təqvası

[1] Dəh qərinə, səh. 247.

sayəsində günahlardan uzaqlaşmaqla qurtuluşa ümid bəslədi."

فَقَالَ لِلْمَلَائِكَةِ الْمُوَكَّلِينَ بِهَذِهِ الشُّهُورِ مَاذَا تَقُولُونَ فِي هَذِهِ الشَّهَادَةِ لِهَذَا الْعَبْدِ؟

فَيَقُولُونَ يَا رَبَّنَا صَدَقَ رَجَبٌ وَشَعْبَانُ وَشَهْرُ رَمَضَانَ، مَا عَرَفْنَاهُ إِلَّا مُقْبِلًا فِي طَاعَتِكَ مُجْتَهِداً فِي طَلَبِ رِضَاكَ...

فَعِنْدَ ذَلِكَ يَأْمُرُ اللَّهُ بِهَذَا الْعَبْدِ إِلَى الْجَنَّةِ

-Sonra həmin carçı bu aylara müvəkkil olan və nəzarət edən mələkləri səsləyib soruşar: "Bu bəndə haqqında edilən şahidliyə nə deyirsiniz (fikriniz nədir)? Cavab verəcəklər ki, İlahi, rəcəb, şaban və ramazan doğru deyir. Biz onu yalnız Sənə itaət edən, Sənin razılığını qazanmağa çalışan gördük." Bu vaxt Allah-təala həmin bəndəyə əmr edəcək ki, cənnətə daxil olsun.[1]

Aydındır ki, bu hədisdə Həzrət Peyğəmbər(s) qeyd olunan üç ayı nümunə olaraq misal çəkmişdir. Bu o demək deyil ki, təkcə bu üç ay insanın əməllərinə şahidlik edir. İnsanın yaşadığı hər bir il, ay, gün, saat, dəqiqə və saniyə onun əməllərinə şahiddir.

## Daxili şahidlər

Yuxarıda qeyd olunan şahidlər insanı xaricdən (kənardan) izləyən şahidlərdir. Amma bəzi şahidlər də vardır ki, onlar insanın özündə və daxilindədir. Burada yaxşı olar ki, həmin şahidlərlə də tanış olaq.

### 1. Əl-ayağın şahidliyi

---

[1] Biharül-ənvar, 7-ci cild, səh. 315.

İnsanın bədən üzvləri qiyamət günündə onun üçün şahidlik edən şahidlərdən hesab olunur. Allah-təala "Yasin" surəsinin 65-ci ayəsində buyurur:

الْيَوْمَ نَخْتِمُ عَلَى أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

-Bu gün onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər.

**2. Dilin şahidliyi**

"Nur" surəsinin 24-cü ayəsində belə oxuyuruq:

يَوْمَ تَشْهَدُ عَلَيْهِمْ أَلْسِنَتُهُمْ وَأَيْدِيهِمْ وَأَرْجُلُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ

-Qiyamət günü (onlar dünyada qazandıqları günahlarını dandıqda) dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəklər.

**3. Qulaq, göz və dərinin şahidliyi**

"Fussilət" surəsinin 19-21-ci ayələrində belə buyurulur:

وَيَوْمَ يُحْشَرُ أَعْدَاءُ اللَّهِ إِلَى النَّارِ فَهُمْ يُوزَعُونَ. حَتَّىٰ إِذَا مَا جَاءُوهَا شَهِدَ عَلَيْهِمْ سَمْعُهُمْ وَأَبْصَارُهُمْ وَجُلُودُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ. وَقَالُوا لِجُلُودِهِمْ لِمَ شَهِدْتُمْ عَلَيْنَا قَالُوا أَنْطَقَنَا اللَّهُ الَّذِي أَنْطَقَ كُلَّ شَيْءٍ وَهُوَ خَلَقَكُمْ أَوَّلَ مَرَّةٍ وَإِلَيْهِ تُرْجَعُونَ

-Allahın düşmənləri cəhənnəmə toplaşacaqları gün onlar (əvvəlincisindən axırıncısınadək tutulub bir yerdə) saxlanacaqlar. Nəhayət, onlar cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şəhadət verirsiniz?" – deyəcəklər. (Dəriləri də)

belə cavab verəcəkdir: "Hər şeyi dilə gətirən Allah bizi danışdırdı. Sizi ilk dəfə yoxdan yaradan Odur. Siz Onun hüzuruna qaytarılırsınız!"

Əlbəttə, burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, qiyamət günü möminlər barəsində bədən üzvlərinin şahidliyi olmayacaq. O gün kafirlər, münafiqlər və fasiq insanların əzaları onların əleyhinə şahidlik edəcəkdir.

وَلَيْسَتْ تَشْهَدُ الجَوَارِحُ على مُؤْمِنٍ، إنَّمَا تَشْهَدُ على مَنْ حَقَّتْ عَلَيْهِ كَلِمَةُ العَذَابِ فَاِنَّمَا المؤْمِنُ فَيُعْطَي كِتَابَهُ بِيَمِينِهِ . قال الله تعالى: فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُولَٰئِكَ يَقْرَءُونَ كِتَابَهُمْ وَلَا يُظْلَمُونَ فَتِيلًا

-İmam Baqir(ə) buyurur: "Möminin bədən üzvləri heç bir vaxt onun əleyhinə şəhadət verməyəcəkdir. Bədən üzvləri Allahın əzabına düçar olanların (kafir və günahkarlar) əleyhinə şahid duracaqlar. Möminin əməl dəftəri onun sağ əlinə veriləcək (özü də onu oxuyacaq). Allah bu barədə buyurur: ***"Əməl dəftəri sağ əllərinə verilənlər onu oxuyar (şad olarlar). Onlara tük (xurma çəyirdəyinin yarığındakı tel) qədər də haqsızlıq edilməz.*** [1]**"** [2]

Yəni əməl dəftəri sağ əlinə verilən bəndə üçün şahidliyə ehtiyac olmayacaqdır.

---

[1] İsra surəsi, 71-ci ayə.

[2] Təfsiri-nümunə, 18-ci cild, səh. 433.

# QİYAMƏTİN BEŞİNCİ MƏRHƏLƏSİ
## Əməl dəftəri

Məad və qiyamət gününün ən mühüm mərhələlərindən biri də əməl dəftəridir. İnsanın əməl dəftərinə iki mövqedən yanaşmaq lazımdır. Yəni əməl dəftəri həm müstəqil bir bəhsdir, həm də  qiyamət gününün şahidləri cərgəsindədir.

Bu barədə sözə başlayarkən qeyd etmək olar ki, bəzi ayələrdə insanın əməl dəftərinin yazılması Allaha, bəzi ayələrdə isə mələklərə aid edilmişdir. Sonra isə əməl dəftərinin mahiyyəti barədə söz açılır. Həmçinin qiyamət günü insana neçə növ kitabın göstərilməsi haqda da danışılmışdır. Burada yaxşı olar ki, həmin kitablar barədə ardıcıl olaraq söz açaq.

### 1. Allahın yazdığı kitab

Quranda adı çəkilən kitab və dəftərlərdən birincisi Allaha aid edilmiş kitabdır. Allah-təala “Yasin” surəsinin 12-ci ayəsində belə buyurur:

إِنَّا نَحْنُ نُحْيِي الْمَوْتَىٰ وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ ۚ وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ

-Biz ölüləri dirildərik və onların bundan öncə gördükləri iş və izlərini yazarıq və hər şeyi aydın bir kitabda yazdıq (yazmışıq).

Qeyd olunan bu ayədə üç mühüm mətləbdən bəhs edilir. Onlardan biri bizim mövzumuza aid olmadığından bu barədə söz açmırıq. Amma digər iki mətləbin birincisində ölümdən sonrakı həyat barədə danışılır. Aydın məsələdir ki, bu dünyada yarananların hamısı ölümə məhkumdur. Heç bir kəs ölümü danmır və danmağa da

əlində heç bir əsası yoxdur. Hər kəs öz gözləri ilə gün ərzində neçə-neçə insanın vəfat etməsinin şahidi olur və bu məsələdə hamı əlacsızdır. Ayədə həmçinin ilk növbədə ölümdən sonrakı həyat barəsində də söz açılaraq belə buyurulur: “Biz ölüləri dirildərik.”

Həmin ayədə toxunulan ikinci mətləb isə bizim bəhsimizə aid olan məsələdir. Ayədə bu məsələyə işarə olunaraq belə buyurulur: “Onların bundan öncə gördükləri iş və izlərini yazarıq.”

Ayədə işlənmiş «مَا قَدَّمُوا» və «آثَارَهُمْ» sözlərinin mənası belədir. «مَا قَدَّمُوا», yəni insanın dünyada sağ ikən gördüyü və özündən qabaq o biri dünyaya göndərdiyi bütün işlər. «آثار» - “asar” kəlməsi isə “əsər” sözünün cəm formasıdır. Yəni insanlardan qalan bütün izlərin hamısı yazılıb qeydə alınır. Hər iki sözün bir-biri ilə fərqi vardır. «مَا قَدَّمُوا» o əməllərdir ki, onlardan iz və əsər qalmır. Amma «آثَارَهُمْ» sözünün mənası isə budur ki, insan öldükdən sonra onun dünyada gördüyü işlərin izi və təsiri qalır. Məsələn, bir nəfər dünyada yaşayarkən namaz qılıb oruc tutur. Amma öldükdən sonra onun qıldığı namazından və tutduğu orucundan heç bir əsər-əlamət qalmır. Yəni bu əməlləri özü ilə aparır. Amma bir sıra əməllər də vardır ki, insan öldükdən sonra da həmin əməllərin təsiri görünür. Məsələn, bir nəfər Allahın razılığı xatirinə və müsəlmanlara xidmət göstərilməsi məqsədilə xəstəxana tikdirir. O şəxs dünyasını dəyişdikdən sonra da xəstəxana işlədikcə və orada insanlara xidmət göstərildikcə, həmin şəxsə savab yazılır.

Yaxud bir nəfər Allaha xatir möminlərin ibadət etməsi üçün məscid tikdirir. Həmin şəxs vəfat etdikdən

sonra məscid fəaliyyət göstərdikcə ona da savab yazılır. Həmçinin bir insan ağac əkibsə, öldükdən sonra hər bir insan, yaxud digər canlılar o ağacdan bəhrələndikcə, onun savabı həmin şəxs üçün yazılır.

Bir mənası budur ki, «مَا قَدَّمُوا» sözündə məqsəd əməllərdən öncəki niyyətlər, «آثَارَهُمْ» sözündə məqsəd isə niyyətdən sonrakı əməllərdir.

Digər fərqi də budur ki, «مَا قَدَّمُوا» insanın namaz, oruc, günahlardan çəkinmək kimi bütün fərdi əməlləridir. Amma «آثَارَهُمْ» sözünün ictimai tərəfi də vardır. Məsələn, bir insan yaxşı və pis bir adətin təməlini qoyub gedirsə, camaat arasında həmin adətə əməl olunduqca, onun adına savab, yaxud günah yazılır. Həmçinin xeyir bir iş üçün atılan hər bir addımın izi də insan üçün yazılır.

Bəni-Səlmə qəbiləsi Mədinədən azacıq uzaq bir məntəqədə yaşayırdı. Onlar hər gün Mədinəyə gəlib Həzrət Peyğəmbərin(s) məscidində camaat namazında iştirak edirdilər. Yol uzaq olduğu üçün onlar bir gün qərara aldılar ki, Mədinəyə köçüb həmin məscidin yaxınlığında yaşasınlar və məscidə rahat gedib-gəlsinlər. Onlar bu məsələni Həzrət Peyğəmbərlə(s) də məsləhətləşdilər. Belə bir məqamda Allah-təala "Yasin" surəsinin 12-ci ayəsini nazil etdi:

إِنَّا نَحْنُ نُحْيِي الْمَوْتَىٰ وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ...

-Biz ölüləri diriltdərik və onların bundan öncə gördükləri iş və izlərini yazarıq.

Bu ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər(s) həmin qəbilənin camaatına buyurdu: "Sizin (işlərinizin) izləri yazılır." (Yəni sizin məscidə sarı atdığınız addımların savabı Allahın məhzərində yazılır.) Onlar Həzrət

Peyğəmbərdən(s) bu sözü eşidən kimi Mədinəyə köçmək fikrindən daşındılar. Fikirləşdilər ki, əgər Mədinəyə köçsək məscidlə aramızdakı fasilə çox az olacaqdır. Uzaqda yaşadıqda isə məscidə sarı atdığımız hər bir addıma görə bizə savab yazılacaq. Buna görə də onlar daha çox savab qazanmaq üçün öz yurdlarında qaldılar.

Deməli, bu ayədən açıq-aydın şəkildə görürük ki, insanın hər bir əməli, niyyəti, atdığı addımların izi və özündən sonra qoyub getdiyi pis və ya yaxşı işlərin təsiri yazılıb qeydə alınır.

"Kəhf" surəsinin 49-cu ayəsində də əməllərin yazılması Allaha aid edilmişdir. Həmin ayə belədir:

وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَٰذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

-(Qiyamət günü hər kəsin) əməl dəftəri qarşısına qoyulacaq. (O zaman) günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O, bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!" Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!)

Bu ayədən də istifadə olunur ki, bütün əməllər xırdalığına qədər orada elə dəqiq yazılmışdır ki, onu (əməllərinin orada yazılmasını) görən hər bir kəs vəhşət və qorxuya düşəcək. Onların qorxuya düşməsinin iki səbəbi vardır. Birincisi, onların əməllərinə görə bu böyük və

əzəmətli məhkəmədə dayanmaları, ikincisi isə dünyada etdikləri və yadlarından çıxdığı bütün əməllərin hamısının yazıldığını görmələridir. [1]

Allah-təala "Casiyə" surəsinin 28-29-cu ayələrində belə buyurur:

وَتَرَىٰ كُلَّ أُمَّةٍ جَاثِيَةً كُلُّ أُمَّةٍ تُدْعَىٰ إِلَىٰ كِتَابِهَا الْيَوْمَ تُجْزَوْنَ مَا كُنْتُمْ تَعْمَلُونَ. هَٰذَا كِتَابُنَا يَنْطِقُ عَلَيْكُمْ بِالْحَقِّ إِنَّا كُنَّا نَسْتَنْسِخُ مَا كُنْتُمْ تَعْمَلُونَ

-(Ya Peyğəmbər! O gün) hər ümməti (qorxunun şiddətindən) diz çökmüş görəcəksən. Hər ümmət öz kitab və əməl dəftərinə tərəf çağırılacaqdır. (Onlara belə deyiləcəkdir: ) "Bu gün sizə (dünyada) etdiyiniz əməllərin əvəzi (mükafatı və ya cəzası) veriləcəkdir! Bu, Bizim kitabımızdır. O, sizin əleyhinizə haqqı deyər. Biz sizin etdiyiniz əməlləri yazdırmışıq!"

Bu ayə açıq-aydın şəkildə bəyan edir ki, insanın bütün əməlləri kitabda yazılıb saxlanılır. İnsanın gördüyü hər bir xırda və böyük əməl, ömrünün əvvəlindən axırına qədər çəkdiyi nəfəslər, ürəyində tutduğu niyyətlər, hətta gözünün ucu ilə nəyəsə baxması və özünü baxmamış kimi aparması belə lent kimi yazılıb saxlanılır. Qiyamət günündə də həmin əməlləri insana göstərəcəklər.

Bu ayədə də Allah-təala insanın əməllərinin yazılmasını Özünə aid etmişdir.

Belə olduqda qiyamət günü insana öz kitabını verib deyərlər: "Bu, sənin kitabındır, al oxu və özün-özünə

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.83.

qiymət ver.” “İsra” surəsinin 14-cü ayəsində bu barədə belə buyurulur:

اقْرَأْ كِتَابَكَ كَفَىٰ بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا

-(Və ona belə deyərik:) “Oxu, kitabını. Bu gün sən haqq-hesab çəkməyə özün-özünə kifayətsən!”

## Əməl dəftərinin səbəb və fəlsəfəsi

Əməl dəftəri mövzusuna hədislərdə çox geniş şəkildə toxunulmuşdur. Belə ki, insanın bütün əməllərinin, danışıq və niyyətlərinin tam xırdalığı ilə orada yazılmasının səbəb və faydaları bəyan edilmişdir. Sual oluna bilər ki, əməl dəftərinin səbəb və fəlsəfəsi nədir? Yəni əgər Allah bizim bütün əməllərimizi görürsə, ürəyimizdən keçənlərdən xəbərdardırsa, bəs onda bu əməl dəftərinin səbəbi nədir?

Bu sualın cavabı ilə əlaqədar olaraq bir çox mətləblərə toxunmuşlar. Lakin iki əsas mətləb bu sualın cavabı üçün kifayətdir. Birincisi budur ki, Allah-təala bununla insana höccəti tamamlayır. Yəni bununla insanları öz əməllərində dəqiq olmağa vadar edir ki, qiyamət günü insan “mənim əməllərimin bu dəqiqliklə yazılmasını bilmirdim”, - deyə bəhanə gətirməsin. Ona görə də ayə və hədislərdə möminlər barəsində belə bəyan olunur ki, qiyamət günü onların kitabları sağ əllərinə verilərkən sevinib deyəcəklər: “Alın, mənim əməl dəftərimi oxuyun. Biz dünyada yəqin bilirdik ki, qiyamət günü bütün əməllərimiz bizə təqdim olunacaq.”

Bu barədə Allah-təala “Haqqə” surəsinin 19-20-ci ayələrində belə buyurur:

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَيَقُولُ هَاؤُمُ اقْرَءُوا كِتَابِيَهْ. إِنِّي ظَنَنْتُ أَنِّي مُلَاقٍ حِسَابِيَهْ

-Əməl dəftəri sağ əlinə verilən kimsə (sevinclə) deyəcəkdir: “Alın, əməl dəftərimi oxuyun! Mən (dünyada ikən qiyamət günü) öz hesabıma yetişəcəyimə (möhkəm) inanmışdım!”

Həmçinin kafir və günahkarların əməl dəftərləri sol əllərinə verildikdə çox peşman olub həsrət çəkəcəklər. Onlar arzu edərək deyəcəklər ki, kaş, bizim kitabımız bizə verilməyəydi, hesabımızın nə olduğunu bilməyəydik. “Haqqə” surəsinin 25-27-ci ayələrində belə buyurulur:

وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِشِمَالِهِ فَيَقُولُ يَا لَيْتَنِي لَمْ أُوتَ كِتَابِيَهْ. وَلَمْ أَدْرِ مَا حِسَابِيَهْ. يَا لَيْتَهَا كَانَتِ الْقَاضِيَةَ

-Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: “Kaş, əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu bilməyəydim! Kaş, o (ölüm) qəti (əbədi) olaydı!”

Deməli, əməl dəftərinin səbəb və fəlsəfələrindən biri budur ki, Allah-təala bununla insanlara höccəti tamamlayır və onların bəhanələrini kəsir ki, bütün əməllərində diqqətli olsunlar.

Əməl dəftərinin ikinci səbəbi isə tərbiyəvi xarakter kəsb edir. Yəni insanın bu kitabı əxlaqi və tərbiyəvi cəhətdən onun üçün çox önəmlidir. Əgər insan hər bir kiçik hərəkətinin belə yazılıb qeydə alındığını başa düşsə, o zaman həm özünə və həm də hərəkətlərinə qarşı çox diqqətli olar. Əgər insan dünyada harada olmasından asılı olmayaraq, ona nəzarət edildiyini və hər bir hərəkətinin lentə yazıldığını bilsə, hətta otaqda tək olarkən belə əyri və xoşagəlməz hərəkətlər edərmi?

İmam Sadiqin(ə) səhabələrindən biri belə rəvayət edir: “Bir gün  Həzrətin(ə) hüzurunda idik. Mən Həzrətdən(ə) soruşdum: Ey Allahın Höccəti, Allahın insanların bütün əməllərinə hakim və şahid olduğu bir halda nə üçün bu iki mələyə bizim əməllərimizi yazmağı tapşırmışdır?”

قَالَ الصَّادِقُ(ع): اِستَعبَدَهُم بِذَلِکَ وَجَعَلَهُم شُهُودًا عَلَی خَلقِهِ لِيَکُونَ العِبَادُ لِمُلازِمَتِهِم اِيَّاهُم اَشَدُّ عَلَی طَاعَةِ اللهِ مُوَاظِبَةً وَ عَن مَعصِيَتِهِ أَشَدَّ اِنقِاضاً. وَ کَم مِن عَبدٍ يَهِمُّ بِمَعصِيَةٍ فَذَکَر مَکانَهُمَا فَارعَوی فَکَفَّ فَيَقُول رَبِّي يَرَانِي وَ حَفَظَتِي عَلی بِذَلِک تَشهَدا.

-İmam Sadiq(ə) bu sualın cavabında belə buyurdu: “Allah-təala bu işi mələklərə tapşırmaqla onlar üçün ibadət təyin etdi. (Yəni bu iş onların Allaha ibadətidir. Allahın əmr etdiyi hər bir işi yerinə yetirmək ibadətdir.) Allah bu mələkləri bəndələrinə şahid qərar verərək onların əməllərini yazmağı tapşırdı ki, insanlar onların şahid olduğunu bilərək Allaha ibadət etməkdə daha da ciddi olsunlar və günahla qarşılaşdıqda (mələklərin nəzarətçi olduğunu bilib) həya edərək çəkinsinlər. Belə işlər həyatımızda dəfələrlə baş vermişdir. Belə ki, bəndə günah etmək fikrinə düşdükdə ona nəzarət edənlərin olduğunu xatırlayaraq həmin günah fikrindən daşınır və öz-özünə deyir: Rəbbim məni görür və məni qoruyan mələklər isə şahiddirlər.”[1]

## Əməl dəftərinin mahiyyəti

[1] Təfsiri-nümunə, 26-cı cild, səh.226.

Əməl dəftəri barədə olan mətləblərdən biri onun mahiyyəti və necəliyidir. Sual oluna bilər ki, görəsən, insanın əməl dəftəri parçadandırmı, kağızdandırmı və ya bir əşyadırmı? Əlbəttə, bu mətləbi bilmək bizim üçün mühüm deyil. Ən mühüm olanı budur ki, insan onun əməllərinin yazıldığını başa düşsün. Necə yazılması, yaxud hara yazılması isə mələklərin işidir. Onlara həmin əməlləri yazmaq barədə göstəriş verilibsə, özləri bilirlər ki, əməlləri hara və necə yazırlar. Amma bəziləri üçün maraqlı sual olduğundan və hədislərdə də bu barədə söz açıldığından məlum məsələ ilə bağlı bir neçə kəlmə danışmaq olar. Mələklərin insanların əməllərini yazmalarında heç bir şəkk-şübhə yoxdur. Amma onların yazması bizim düşündüyümüz kimi kağız üzərində deyil. Əgər bu əməllər kağız üzərinə yazılası olsaydı, o zaman bir insanın ömrü boyu etdiyi bütün əməlləri, aldığı nəfəslərin sayını yazmaq üçün minlərlə, yaxud milyonlarla vərəq kağız lazım gələrdi. Həmçinin əgər belə olsaydı, onda qiyamət günü insanın əməl dəftərini ona təqdim edərkən orada yazılanları oxumaq üçün çox vaxt lazım olardı.

Hədislərdə belə nəql olunur ki, insanın əməl dəftəri elə bir kitabdır ki, qiyamət günü ona baxan kimi anadan olandan ölənə qədər bütün etdiklərinin hamısını bir anın içində görəcəkdir. Yəni əyləşib səhifə-səhifə onu oxumağa ehtiyac yoxdur.

Allah-təala "İsra" surəsinin 14-cü ayəsində buyurur:

اقْرَأْ كِتَابَكَ كَفَىٰ بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا

-(Və ona belə deyərik:) "Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!"

İmam Sadiq(ə) bu ayənin təfsirində belə buyurmuşdur:

يَذكُرُ العَبد جَمِيعَ مَا عَمِلَ وَ مَا كُتِبَ عَلَيه حَتّى كَأَنَّهُ فَعَلَهُ تِلكَ السَّاعَة، فَلِذلكَ قَوله: "يا وَيْلَتَنا ما لِهذا الكِتابِ لا يُغادِرُ صَغِيْرَةً وَ لا كَبِيْرَةً اِلّا اَحْصيها"

-İnsanın etdiyi bütün əməllər onun üçün elə nümayiş olunacaq ki, sanki o əməllərin hamısını həmin zamanda və həmin saatda görmüşdür. Bu, Allahın buyurduğu həmin ayədir: “Vay halımıza! Bu, necə bir kitab imiş! O, Bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!”[1]

Yenə də İmam Sadiq(ə) həmin ayə barəsində belə buyurur:

إِذا كَان يَومُ القِيَامَة دُفِعَ إِلى الإِنسان كِتابُه، ثُمَّ قِيلَ لَه: اِقرَأ، قلتُ: فَيعرف مَا فِيه؟.. فَقالَ: إِنَّ اللهَ يُذَكِّرُهُ، فَمَا مِن لَحظَةٍ، وَلا كَلِمَةٍ وَلا نَقْلِ قَدَمٍ، وَلا شَيءٍ فَعلَهُ إِلاّ ذَكَره، كَأَنَّهُ فَعَله تِلكَ السَّاعَة، فَلِذَلِك قَالُوا: "يا وَيْلَتَنا ما لِهذا الكِتابِ لا يُغادِرُ صَغِيْرَةً وَ لا كَبِيْرَةً اِلّا اَحْصيها"

-Qiyamət baş verən zaman insana kitabı təqdim olunar və sonra deyilər: “Bunu oxu.”

-Rəvayətçi deyir: “İmam Sadiqdən(ə) soruşdum: O zaman insan bütün əməllərini gözü ilə görəcəkmi?”

-İmam(ə) buyurdu: “Allah-təala bir anın içində onun danışdığı hər bir kəlməni, atdığı hər bir addımı, etdiyi hər bir əməli ona xatırladacaq. Belə ki, sanki bütün bu əməllərin hamısını həmin dəqiqədə görmüşdür. Buna görə də deyəcəklər: “Vay halımıza! Bu, necə bir kitab imiş! O,

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.106.

Bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!”[1]

Odur ki, əməl dəftəri elə bir kitabdır ki, insan onu bir anın içində oxuyacaq və dünyaya gələn gündən ölənə qədər etdiyi hər bir kiçik əməli də belə orada gözdən qaçmayacaqdır.

## Əməl dəftərinin sağ və ya sol ələ verilməsi

Əməl dəftəri barəsində olan mətləblərdən biri də onun təqdimatı ilə bağlıdır. Dünyadakı məhkəmələrdə də belədir ki, hər hansı bir müttəhimi məhkəməyə gətirərkən onun barəsində yazılmış məlumatları hakimin qarşısına qoyurlar. Qiyamət günü insan qəbirdən qalxdıqda onun əməl dəftərini gətirərkən birinci hərəkət bundan ibarət olur ki, onu mömin insanın sağ əlinə, kafirin isə sol əlinə təqdim edirlər. Qiyamət günü imanın əsas əlamətlərindən biri də həmin andır. Bu kitab insanın sağ əlinə verildiyi zaman onun üçün bütün məsələlər həll olunacaqdır. Bu zaman onun barəsində olan xırda məsələlərə göz yumacaqlar. Çünki insanın haqq-hesabı iman daxilində başlanarsa, onun üçün hər bir şey asan olacaqdır. “Haqqə” surəsinin 19-20-ci ayələrində oxuyuruq:

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ. هَاؤُمُ اقْرَءُوا كِتَابِيَهْ. إِنِّي ظَنَنْتُ أَنِّي مُلَاقٍ حِسَابِيَهْ

-Əməl dəftəri sağ əlinə verilən şəxs (sevinclə) deyər: “Alın (ey insanlar) mənim kitabımı (əməl dəftərimi), oxuyun. Həqiqətən, mən (dünyada) ikən qiyamət günü öz hesabıma (əməllərimin hesabına) yetişəcəyimə yəqinliklə inanmışdım.”

---

[1] Yenə orada., səh.101.

Amma əməl dəftəri sol əlinə verilən pis insanlar isə çox peşman olacaqlar. Onların barəsində isə "Haqqə" surəsinin 25-27-ci ayələrində belə buyurulur:

وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِشِمَالِهِ فَيَقُولُ يَا لَيْتَنِي لَمْ أُوتَ كِتَابِيَهْ. وَلَمْ أَدْرِ مَا حِسَابِيَهْ. يَا لَيْتَهَا كَانَتِ الْقَاضِيَةَ

-Amma (əməl) dəftəri sol əlinə verilən şəxs (qışqırıb) deyər: "Kaş, (əməl) dəftərim mənə verilməyəydi! Və hesabımın nə olduğunu bilməyəydim. Kaş, mənim o dünya həyatım(ın yerinə) qəti bir ölüm olaydı (və ya dünya ölümü məni birdəfəlik məhv edəydi)."

Hətta kafirlər qiyamət günündə dünyada inanmadıqları halları gördükdə torpaq olmağı arzu edəcəklər. Bu barədə "Nəbə" surəsinin 40-cı ayəsində oxuyuruq:

يَوْمَ يَنْظُرُ الْمَرْءُ مَا قَدَّمَتْ يَدَاهُ وَيَقُولُ الْكَافِرُ يَا لَيْتَنِي كُنْتُ تُرَابًا

-O gün insan öz əlləri ilə etdiyi (yaxşı, pis) əməllərini görəcək, kafir isə "Kaş ki, torpaq olaydım!" – deyəcəkdir.

"Ali-İmran" surəsinin 30-cu ayəsində oxuyuruq:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَا عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَرًا وَمَا عَمِلَتْ مِنْ سُوءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا وَيُحَذِّرُكُمُ اللَّهُ نَفْسَهُ

-O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməllərini qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Öz əzabından çəkindirir.

## Əməl dəftəri sağ əlinə verilən insanın hesab-kitabının asan olması

Qeyd olunduğu kimi, qiyamət günü mömin insanın əməl dəftəri onun sağ əlinə veriləcəkdir. Belə olan halda onun

üçün bütün məsələlər demək olar ki, öz həllini tapacaqdır. Həmin şəxsin hesab-kitabı da asanlaşacaq. Allah-təala “İnşiqaq” surəsinin 8-9-cu ayələrində belə buyurur:

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ. فَسَوْفَ يُحَاسَبُ حِسَابًا يَسِيرًا. وَيَنقَلِبُ إِلَى أَهْلِهِ مَسْرُورًا.

-Kimin əməl dəftəri sağ əlinə verilərsə, onunla tez, asan haqq-hesab çəkiləcək. Və o, yaxınlarının yanına sevinc və şadlıqla qayıdar.

Yəni həmin şəxsin əqidə və əməlləri gözəl olduğundan onun üçün xırda məsələlərə göz yumulacaqdır.

İmam Baqir(ə) buyurur: “Qiyamət günü Allah-təala mömin bəndədən haqq-hesab alarkən əməl dəftərini onun sağ əlinə verərək günahlarını bir-bir soruşar: Ey mənim bəndəm, filan günahı etmisənmi? Həmin bəndə deyər: Bəli. Allah-təala buyurar: Çoxlu yaxşı əməllər etdiyinə görə həmin günahlarını bağışlayıb onları yaxşılığa və savaba çevirdim.”

Elə bu məqamda camaat Allahın rəhmət və mərhəmətinə təəccüb edərək deyər: “Sübhanallah, bu bəndənin heç bir günahı olmayıbmı?”

Sonra İmam Baqir(ə) bu ayəni oxudu: “Onunla tez, asan haqq-hesab çəkiləcək. Və o, yaxınlarının yanına sevinc və şadlıqla qayıdar.”[1]

## Əməl dəftərinin növləri

Burada çox yaxşı olar ki, insanın əməllərinin yazıldığı kitab barədə bir mətləbi də qeyd edək. Həmin mətləb isə bundan ibarətdir ki, ayə və hədislərə əsasən hər

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.102.

bir insanın əməlləri beş növ kitabda yazılıb qeydə alınır. Həmin kitablar barədə, qısaca da olsa, bir neçə ayə və hədisi diqqətinizə çatdırıram.

**1. İnsanın şəxsi kitabı (əməl dəftəri)**

Həmin kitablardan biri insanın şəxsi əməllərinin yazıldığı əməl dəftəridir. İnsanın bütün əməlləri və hərəkətlərinin bu dəftərdə yazılması onun sağ və sol tərəfindəki mələklər vasitəsilə həyata keçirilir. Bu haqda "İnfitar" surəsinin 10-11-ci ayələrində oxuyuruq:

وَإِنَّ عَلَيْكُمْ لَحَافِظِينَ. كِرَامًا كَاتِبِينَ

-Və əlbəttə, sizin üstünüzdə gözətçilər vardır. Şərəfli (möhtərəm) yazanlar (mələklər) vardır.

İnsanın ömrü başa çatdıqda və axır nəfəsi bitdikdən sonra həmin mələklər o kitabı bağlayaraq işlərinə xitam verərlər. Sonra isə onu həmin insana göstərərək deyərlər: "Bu sənin kitabındır."

Bundan əlavə, qiyamət baş verən zaman insan qəbirdən qalxıb məhşərə gələrkən Allahın əmri ilə həmin kitab boyunbağı kimi onun boynundan asılacaq və o, bu halda məhşərə daxil olacaqdır. "İsra" surəsinin 13-14-cü ayələrində həmin məsələyə belə işarə olunmuşdur:

وَكُلَّ إِنْسَانٍ أَلْزَمْنَاهُ طَائِرَهُ فِي عُنُقِهِ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَابًا يَلْقَاهُ مَنْشُورًا. اقْرَأْ كِتَابَكَ كَفَىٰ بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا

-Biz hər bir insanın taleyini (əməl dəftərini) öz boynundan asar və qiyamət günü onun üçün açıq şəkildə görəcəyi bir yazı çıxararıq. (Və ona belə deyərik:) "Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə

özün-özünə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!”

Bu ayədən açıq-aydın şəkildə görünür ki, hər bir insanın özünün ayrıca bir kitabı vardır. Qiyamət günü həmin kitab onun boynundan boyunbağı kimi asılacaqdır. Ayədəki «كُلَّ إِنْسَانٍ» - “hər bir insanın” və «كِتَابَكَ» - “öz kitabını” kəlmələri də buna dəlalət edir ki, bu əməl dəftəri hər bir insanın özünə məxsus olur. Başqa ayələrdə də bu məsələyə dair dəlil-sübutlar vardır. Məsələn, “Haqqə” surəsinin 19 və 25-ci (“Alın (ey insanlar) mənim kitabımı (əməl dəftərimi) oxuyun. Kaş (əməl) dəftərim mənə verilməyəydi!”) ayələrindən də açıq-aydın şəkildə görünür ki, hər bir insanın ayrıca və özünəməxsus kitabı (əməl dəftəri) vardır.

**2. Ümmətlərin əməl kitabı**

İkinci kitab hər bir ümmətə məxsusdur. Yəni bir kitab da vardır ki, bütün ümmətlərin hər birinin əməli həmin kitabda yazılmışdır. Məsələn, İsa Peyğəmbərin(ə) ümməti xristianlardır. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, Həzrət İsanın(ə) ümməti İslam Peyğəmbəri(s) gələnə kimi onun ümməti hesab olunurdular. İslam Peyğəmbəri(s) gəldikdən sonra isə vəziyyət tamamilə dəyişildi. Yəni Həzrət Peyğəmbərin(s) zamanında və ondan sonra gələn bütün insanlar öz dinlərində qalmış olsalar da, hamısı Həzrət Məhəmmədin(s) ümməti sayılırlar. Həmçinin Musa Peyğəmbərin(ə) ümməti də Həzrət İsa(ə) gələnədək onun ümməti hesab olunurdu. Həzrət İsa(ə) gəldikdən sonra onun dövründə və İslam Peyğəmbəri(s) gələnə qədər bütün insanlar İsa Peyğəmbərin(ə) ümməti sayılmışlar. Beləcə, hər bir

peyğəmbərin dövründə, eləcə də növbəti peyğəmbərin gəldiyi dövrə qədər yaşayan bütün insanlar onun ümməti hesab olunmuşlar.

Odur ki, hər bir peyğəmbərin ümmətinin özünün də bir kitabı vardır ki, onların əməlləri orada qeyd olunur. Yəni hər bir insan öz şəxsi əməl dəftəri ilə yanaşı, hansı ümmətdən sayılırsa, həmin ümmətin kitabında da öz əməllərini görəcəkdir. Bu barədə "Casiyə" surəsinin 28-ci ayəsində çox aydın şəkildə qeyd olunub:

كُلُّ أُمَّةٍ تُدْعَىٰ إِلَىٰ كِتَابِهَا

-Hər bir ümmət öz kitabına tərəf çağırılacaq.

**3. Ümumi və hər bir şeyin yazıldığı kitab**

Üçüncü kitab isə ümumi bir kitabdır. Bu kitabda əvvəldən axıradək kimliyindən asılı olmayaraq, bütün insanların əməlləri yazılmışdır. "Kəhf" surəsinin 49-cu ayəsində həmin kitabın necə bir kitab olması barədə oxuyuruq:

وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَٰذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا ۚ وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

-Və o kitab (hamının görə biləcəyi bir yerə) qoyular. Beləliklə, günahkarları onda olandan qorxan görərsən. Və onlar deyərlər: "Vay olsun bizə! Bu necə yazıdır ki, heç bir kiçik və böyüyü (bizim zehnimizdən keçirdiklərimizin, qəlbi inanclarımızın və bədənimizin hərəkətlərinin heç birini) yerdə qoymadan, istisnasız hamısını saymışdır!" Onlar (dünyada) etdiklərini hazır görəcəklər. Sənin Rəbbin heç bir kəsə zülm etməyəcəkdir.

Həmçinin "Yasin" surəsinin 12-ci ayəsində belə buyurulur:

وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ

-Biz ölüləri dirildərik və onların bundan öncə gördükləri iş və izlərini yazarıq və hər şeyi aydın bir kitabda yazdıq (yazmışıq).

**4. Pis və yaxşı insanların xüsusi kitabı**

Dördüncü kitab son dərəcə təəccüb doğuran və maraqlı bir kitabdır. Burada təəccüb doğuran cəhət isə ondan ibarətdir ki, insanları cərgələrə ayıraraq, yaxşı insanların və pis insanların kitablarının başqa-başqa olduğu bəyan edilir. Yəni mömin, zahid, abid, itaətkar və Allahın qəbul etdiyi bütün yaxşı insanlar bir kitabda, kafirlər, fasiqlər, münafiqlər və bütün pis insanlar isə digər kitabda qeyd olunur. "Mütəffifin" surəsinin 6-12-ci-ayələrində oxuyuruq:

يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ. كَلَّا إِنَّ كِتَابَ الْفُجَّارِ لَفِي سِجِّينٍ. وَمَا أَدْرَاكَ مَا سِجِّينٌ. كِتَابٌ مَرْقُومٌ. وَيْلٌ يَوْمَئِذٍ لِلْمُكَذِّبِينَ. الَّذِينَ يُكَذِّبُونَ بِيَوْمِ الدِّينِ. وَمَا يُكَذِّبُ بِهِ إِلَّا كُلُّ مُعْتَدٍ أَثِيمٍ

-O gün bütün insanlar (haqq-hesab üçün) aləmlərin Rəbbinin (Allahın) hüzurunda duracaqlar! Xeyr! Şübhəsiz ki, pis əməllərə uyanların (kafirlərin) əməl dəftəri Siccindədir! Sən nə bilirsən (haradan bilirsən) ki, Siccin nədir?! (Və ya: Siccin nədir, bilirsənmi?) (O,) rəqəmlənmiş (yazılmış) (əhatəli) bir kitabdır. Vay halına o gün təkzib edənlərin! O kəslər ki, haqq-hesab gününü yalan sayarlar. Bunu isə ancaq həddini aşan, günaha batan yalan sayar.

Təfsir alimləri ayədə işlənmiş «كِتَابٌ مَرْقُومٌ.» - “kitabun mərqum” və «سِجِّين» - “siccin” kəlmələri barəsində belə yazmışlar: “O, rəqəmlənmiş bir kitabdır. “Mərqum” sözünün kökü “rəqəm” deməkdir ki, Quran özü “siccin”in nə olduğunu “kitabun mərqum” kəlməsilə izah edir. Yəni “Siccin” həmin kitabdır. Mənası belədir ki, iri xətlə yazılmış kitaba “mərqum” deyilir. Burada ona işarə edilir ki, bu kitab heç bir vaxt məhv olub aradan getməz, unudulmaz və heç bir şey ona qarışmaz.

Alimlər deyirlər ki, “siccin” və “sicil” kəlmələri eyni mənanı daşıyır və hər ikisi “böyük kitab” mənasını ifadə edir.

هُوَ كِتابٌ جامِعُ دِيوانُ الشَّر دَوَّنَ اللهُ فِيهِ اَعمالَ الكَفَرَة وَالفَسَقة مِن الجِنّ وَالإِنس

-O, elə bir kitabdır ki, Allah həmin kitabda kafir və fasiqlərin, cin və insanların şər əməllərini toplamışdır.

Digər bir mənasına gəldikdə isə, “Siccin” zindan və həbs mənalarını ifadə edən “sicnun” kəlməsindən götürülüb. Həmçinin başqa mənaları da vardır: çətin zindan, cəhənnəmdə vəhşətli vadi, pis insanların əməl dəftərlərinin qoyulduğu yer və cəhənnəm atəşi.[1]

Amma yaxşı insanlara gəldikdə isə, qeyd etmək lazımdır ki, onların kitabı pis insanların kitabından fərqlənir. Necə ki, “Mütəffifin” surəsinin 18-22-ci ayələrində buyurulur:

[1] Təfsiri-nümunə, 26-cı cild, səh. 254.

كَلَّا إِنَّ كِتَابَ الْأَبْرَارِ لَفِي عِلِّيِّينَ. وَمَا أَدْرَاكَ مَا عِلِّيُّونَ. كِتَابٌ مَرْقُومٌ. يَشْهَدُهُ الْمُقَرَّبُونَ. إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ

-Belə deyildir (hesab-kitabsız deyil), həqiqətən, yaxşı əməl sahiblərinin mükafat əməl dəftəri "İlliyyin"dədir. Sən nə bilirsən ki, "İlliyyin" nədir? (O,) rəqəmlənmiş (yazılmış) (əhatəli) bir kitabdır (yaxşıların mükafatı orada qeyd olunmuşdur), (Allah) dərgahına yaxın olanlar onu görərlər və mələklər onun yanında hazır olarlar. Şübhəsiz, yaxşı əməl sahibləri bolluca nemət içindədirlər.

Deməli, yaxşı və əməlisaleh insanların da əməlləri həmin rəqəmlənmiş kitabda yazılmışdır. Amma bu kitab pis insanların kitabından fərqlənir. Ayədə işlənmiş "Əbrar" kəlməsi "birr" sözünün cəm formasıdır. Yəni onlar geniş ruh, böyük himmət, mükəmməl etiqad və yaxşı əməl sahibləridir. "İlliyyin" kəlməsi isə "illiy" sözündən götürülüb və "yüksək məkan", yaxud "yuxarı başda əyləşənlər" mənasını daşıyır. Həmçinin cənnətin ən yüksək məkanına da "illiyyin" deyilir.[1]

İmam Sadiq(ə) "Siccin" və "İlliyyin" kəlmələri barədə belə buyurmuşdur:

السِّجِّين الأَرضُ السَابِعَة وَ عِلِّيُّون السَّماءُ السَّاسِعَة

-"Siccin" yerin yeddinci dərinliyidir. "İlliyyin" isə göyün yeddinci qatıdır.[2]

Hədislərdə belə nəql olunur ki, insanın əməlləri Allah dərgahında qəbul olunmadıqda süqut edib siccinə

---

[1] Təfsiri-nümunə, 26-cı cild, səh. 271.
[2] Yenə orada, səh. 256.

düşür. İnsan yaxşı və gözəl bir əməl etdikdə mələklər onu yazaraq Allah dərgahına aparır. Əgər həmin əməl Allah dərgahında qəbul olunmasa, Allah-təala əmr verir ki, o əməli siccinə atsınlar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الْمَلك لَيَصعَدُ بِعملِ العَبد مُبتَهِجًا فَإِذَا صَعِدَ بِحَسَنَاتِهِ يَقُولُ الله عَزَّ وَجَلّ: اِجعَلُوهَا فِي سِجِّين إِنَّهُ لَيسَ إِيّايَ أَرادَ فِيهَا.

-Həzrət Peyğəmbər(s) buyurur: “Mələk sevinclə bir bəndənin yaxşı əməlini (gözəl bir ibadətini) Allah dərgahına aparar. Həmin əməl dərgaha çatdıqda Allah-təala buyurar: Bu əməli siccinə (pis insanların əməllərinin yazıldığı yerə) atın. Çünki (o əməl yaxşı olsa da belə) Mənə xatir yerinə yetirilməmişdir.”[1]

Yəni hər kəs hansısa yaxşı bir əməli yerinə yetirdikdə niyyəti Allaha xatir olmasa və ya həmin əməldə kimisə Allaha şərik qoşsa, Allah-təala bu əməli qəbul etməyəcəkdir. Allahın qəbul etmədiyi əməl isə heç bir vaxt yaxşı əməllərin siyahısında yazılmaz. Onu da bilmək lazımdır ki, Allaha xatir və ixlasla bir əməli etmək elə də asan iş deyildir. Alimlərdən biri demişdir ki, ixlasla əməl etmək suyun içərisində bir əllə balıq tutmaq kimi çətindir. İxlası qoruyub saxlamaq isə balığı tutduqdan sonra onu həmin əldən ötürməməyə bənzəyir.

**Nəticə:**

Deməli, “siccin” cəhənnəmdə olan çox pis bir yerdir ki, pis insanların əməlləri, taleləri və yaxud əməl dəftərləri

[1] Yenə orada, səh. 257.

orada qərar tutur. “İlliyyin” isə cənnətdə olan yüksək dərəcədir ki, yaxşı insanların tale və əməl dəftərləri orada qərar tutur. Bu da onu göstərir ki, onların öz məqamları çox yüksəkdir.[1]

Böyük alimlərdən biri dünyasını dəyişmişdi. Həmin alimin yaxın dostlarından biri deyir: “Günlərin birində mən yuxuda onu gördüm. Onunla salamlaşıb hal-əhval tutdum. Vəziyyətini soruşduqda isə mənə heç nə demədi. Sadəcə olaraq bir cümlə dedi ki, həmin cümləni həmişə yadımda saxlamağa çalışıram. O, belə dedi: Mən “İlliyyin”dəyəm. Amma sizin üçün də yol bağlı deyil. Kim bura gəlmək istəsə, yol açıqdır.”

Bu, yuxuda baş vermiş bir hadisədir. Quran ayələrinə də diqqət yetirdikdə belə bir qənaətə gəlmək olur ki, Allah-təala hər bir bəndənin üzünə yolu açıq qoymuşdur. Kimisi bu yolu tutaraq yüksək məqamlara, “İlliyyin”ə çatır, kimisi isə “Siccin” yolunu tutaraq taleyini orada qərarlaşdırır. Yəni hər bir insan seçimdə azaddır.

Günahkar insanlarla yaxşı insanlar həm bu dünyada, həm də axirət günündə görüşüb söhbət edirlər. Bu dünyada görüşərkən günahkar adamlar möminləri ələ salaraq onları məsxərəyə qoyurlar. Amma axirətdə isə möminlər həmin günahkar adamlara və kafirlərə güləcəklər. Bu barədə “Mütəffifin” surəsinin 29-36-cı ayələrində belə oxuyuruq:

إِنَّ الَّذِينَ أَجْرَمُوا كَانُوا مِنَ الَّذِينَ آمَنُوا يَضْحَكُونَ. وَإِذَا مَرُّوا بِهِمْ يَتَغَامَزُونَ. وَإِذَا انْقَلَبُوا إِلَىٰ أَهْلِهِمُ انْقَلَبُوا فَكِهِينَ. وَإِذَا رَأَوْهُمْ قَالُوا إِنَّ

[1] Təfsiri-nümunə, 26-cı cild, səh. 271.

هَؤُلَاءِ لَضَالُّونَ. وَمَا أُرْسِلُوا عَلَيْهِمْ حَافِظِينَ. فَالْيَوْمَ الَّذِينَ آمَنُوا مِنَ الْكُفَّارِ يَضْحَكُونَ. عَلَى الْأَرَائِكِ يَنْظُرُونَ. هَلْ ثُوِّبَ الْكُفَّارُ مَا كَانُوا يَفْعَلُونَ

-Həqiqətən, günahkarlar (dünyada) iman gətirənlərin halına gülürdülər. Onların yanlarından keçərkən (məsxərə edərək) qaş-gözlə bir-birinə işarə edirdilər. Öz adamlarının yanına dönəndə (möminlərə məsxərə etdiklərinə görə) şad halda dönürdülər. Onları (möminləri) gördükdə "Şübhəsiz, bunlar (yolunu) azmışlardır,"- deyirdilər. Halbuki onlar bunlara (möminlərə) nəzarətçi göndərilməmişdilər (ki, onların haqq yola gəlmələrinə və ya azğınlıqda qalmalarına nəzarət etsinlər).

Bu gün (qiyamətdə isə) iman gətirənlər kafirlərə gülərlər. Onlar (cənnət) taxtlar(ının) üzərində (əyləşərək cənnətdəkilərin və cəhənnəmdəkilərin) halına tamaşa edərlər. (Tamaşa edərlər ki,) görəsən kafirlərə etdikləri əməllərinə görə cəza verildimi? (Ya batil əqidələri və əməlləri vücudlarında təcəssüm olunmaqla cəzalandırıldılarmı?)

Həzrət Peyğəmbərdən(s) belə nəql olunur ki, axirətdə cənnətin qapılarından biri cəhənnəm əhlinin (kafirlərin) üzünə açılar. Onlar azadlıq ümidilə həmin qapıya sarı qaçarlar. Ora çatdıqda qapı dərhal onların üzünə bağlanar. Bu hal dəfələrlə təkrar olunar və möminlər cənnətdə onlara baxıb gülərlər.

Ayədə işlənmiş "Onlar (möminlər) cənnət taxtlar(ının) üzərində əyləşərək tamaşa edərlər" - cümləsində bir neçə məna vardır. Yəni möminlər cənnətdə taxtlara söykənib nəyə tamaşa edəcəklər. Təfsirdə qeyd olunur ki, onlar üç şeyə tamaşa edəcəklər: 1. Allahın sonsuz nemətlərinə; 2. Allahın

mərhəmətinə və möminlərin əzəmətinə; 3. Dünyada təkəbbürlü olan kafirlərin əzablarına və necə zəlil olmalarına.[1]

**5. Hər əməlin özünəməxsus kitabı**

Beşinci və sonuncu kitab isə daha da maraqlıdır. Yəni hər bir insanın hər bir əməl üçün bir kitabı və bir əməl dəftəri vardır. Məsələn, namaz üçün bir kitab, oruc üçün başqa bir kitab və digər əməllərin hər birinin yazılması məqsədilə bir kitab nəzərdə tutulub. Başqa sözlə desək, oruc tutanların adları oruc kitabında, Həcc ziyarətinə gedənlərin adları Həcc kitabında, cihad edənlərin adları cihad kitabında, həmçinin digər yaxşı və pis əməl sahiblərinin adları da özünəməxsus kitablarda qeydə alınır. Sözün qısası, hər bir əməlin özünə aid bir kitab vardır. Amma onu da bilmək lazımdır ki, namaz qılanın deyil, namazı qəbul olunanın adı həmin namaz kitabında qeydə alınır. Həccə gedənlərin deyil, Həcc ziyarəti qəbul olunanların adları həmin Həcc kitabında yazılır. Kərbəlaya gedənlərin deyil, Kərbəla ziyarəti qəbul olunanların adları həmin kitabda qeydə alınır. Ola bilər ki, bir insanın Kərbəla ziyarəti qəbul olunmasın və onun adı həmin kitabda yazılmasın. Amma orada hansısa savab bir iş görmüş olsa, həmin savab iş də özünəməxsus bir kitabda qeydə alınır. Qısaca desək, qəbul olunmuş hər bir əməl üçün bir kitab nəzərdə tutulmuşdur. Nümunə üçün bu barədə bir hadisə diqqət yetirək:

[1] Təfsiri-nümunə, 26-cı cild, səh. 288.

قَالَ رَسُولُ اللهِ(ص): إِذا كانَ يَومُ الْجُمُعةِ، كَانَ عَلى كُلِّ بَابٍ مِن أَبوابِ الْمَسجِدِ مَلائِكةٌ، يَكتُبُونَ الأَوَّلَ فَالأَوّلَ، فَإِذَا جَلَسَ الإِمامُ طَوَوُا الصُّحُفَ وَجَاءُوا يَستَمِعُونَ الذِّكرَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Cümə günü mələklər bütün məscidlərin qapılarında dayanarlar. Onlar məscidə daxil olan insanların adlarını ardıcıl olaraq yazarlar. İmam-cümə namaz qıldığı yerdə əyləşdikdə (dayandıqda) mələklər kitabı bağlayıb (əyləşərək) imamın xütbələrinə (Allahın zikrinə) qulaq asmağa başlayarlar.”[1]

Hədisdən belə görünür ki, bu mələklər cümə namazına vaxtında gələnlərin adlarını qeyd edirlər. Əgər bir insan cümə namazına gecikərsə, daha həmin adamın adı mələklərin yazdıqları bu kitaba düşməyəcək. Çünki mələklər imam-cümə gələnə qədər və xütbəyə başlayanadək gələn insanların adlarını cümə namazının siyahısına alırlar. Amma bir insan sonradan gəlib əyləşərsə, onun da savabını özünəməxsus savabların yazıldığı başqa bir kitaba yazırlar.

قَالَ عَلِيٌّ(ع): وَ نَسْتَغْفِرُهُ مِمَّا أَحَاطَ بِهِ عِلْمُهُ وَ أَحْصَاهُ كِتَابُ عِلْمٌ غَيْرُ قَاصِرٍ وَ كِتَابٌ غَيْرُ مُغَادِرٍ

-Həzrət Əli(ə) buyurur: “Onun (Allahın) elminin əhatə etdiyi və kitabının *(bəndələrin əməllərinin qeydə alınması üçün təyin etdiyi)* hamısını qeyd etdiyi günahlara görə Ondan bağışlanmaq diləyirik. Elə bir elm ki, qüsurlu

---

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.113.

və məhdud deyil. Elə bir kitab ki, onda heç nəyin qeydi unudulmamışdır.” [1]

İmam Səccad(ə) “Səhifeyi Səccadiyyə”nin 6 və 11-ci duasında belə minacat edir:

اللَّهُمَّ يَسِّرْ عَلَى الْكِرَامِ الْكَاتِبِينَ مَئُونَتَنَا، وَ امْلَأْ لَنَا مِنْ حَسَنَاتِنَا صَحَائِفَنَا، وَ لَا تُخْزِنَا عِنْدَهُمْ بِسُوءِ أَعْمَالِنَا. فَصَلِّ عَلى مُحَمَّد وَآلِهِ، وَاجْعَلْ خِتامَ ما تُحْصي عَلَيْنا كَتَبَةُ أَعْمالِنا تَوْبَةً

-İlahi! Bizim zəhmətimizi əməli yazan möhtərəm mələklərə asan et, əməl dəftərimizi yaxşılıqla doldur. Pis əməllərimizə görə bizi o mələklərin yanında rüsvay etmə!

Məhəmməd və onun Əhli-beytinə salavat göndər və əməllərimizi yazanlarımızın son işini qəbul edilən tövbə qərar ver.[2]

[1] Nəhcül-bəlağə, 113-cü xütbədən.
[2] Quranın xəbər verməsi, 6-cı cild, səh.113.

# QİYAMƏTİN ALTINCI MƏRHƏLƏSİ
## Sirat körpüsü

Qeyd olundu ki, qiyamətin bir neçə mühüm mərhələsi vardır. Həmin mərhələlərdən biri də sirat körpüsüdür. Sirat məsələsi qiyamətin ən mühüm mərhələlərindən biridir ki, həm Quran ayələrində, həm də hədislərdə bu haqda geniş məlumatlar mövcuddur. Ərəb dilində "sirat" kəlməsi "yol" mənasını verir. "Siratəl müstəqim", yəni düzgün yol. Amma istilahda və dini terminlərdə "sirat" cəhənnəmin üstündən cənnətə doğru çəkilən bir körpüdür ki, qiyamət günü bütün pis və yaxşı insanların hamısı bu körpünün üstündən keçməlidir. Lakin səlahiyyət və ləyaqət sahibi olan insanlar bu körpüdən rahatlıqla keçib gedərlər. Ləyaqəti olmayan (günahkar və kafir) insanlar isə keçə bilməyib oradan Allahın Quranda vəd etdiyi yerə (cəhənnəmə) düşəcəklər.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ عَلَىٰ جَهَنَّمَ جِسْراً أَدَقُّ مِنَ الشَّعْرِ، أَحَدُّ مِنَ السَّيْفِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Cəhənnəmin üzərində tükdən nazik və qılıncdan iti bir körpü vardır."[1]

Həmçinin başqa hədislərdə də nəql olunmuşdur ki, cənnətin yolu bir körpü kimidir ki, insanlar onun üzərindən keçəcəklər. Həzrət Peyğəmbər(s) həmin körpünün sağ tərəfində, Həzrət Əli(ə) isə sol tərəfində dayanacaqlar. Allah-təala "Qaf" surəsinin 24-25-ci ayələrində belə buyurur:

أَلْقِيَا فِي جَهَنَّمَ كُلَّ كَفَّارٍ عَنِيدٍ. مَنَّاعٍ لِلْخَيْرِ مُعْتَدٍ مُرِيبٍ

---

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.191.

-(Siz ikiniz) atın cəhənnəmə hər bir inadcıl kafiri; Xeyirə mane olanı, (zülm etməklə, günah törətməklə, camaatı şübhəyə salmaqla) həddi aşanı, (Allahın birliyinə) şəkk edəni!

Bu ayədə işlənmiş «أَلْقِيَا» - “Əlqiya” (“siz iki nəfər atın”) kəlməsi barəsində müxtəlif hədislər nəql olunmuşdur. Mümkündür ki, Allah-təalanın xitab etdiyi həmin iki nəfər müvafiq tapşırığı almış mələklər olsunlar, ola bilər ki, Həzrət Peyğəmbər(s) və Həzrət Əli(ə) olsunlar.

Ümumiyyətlə, sirat körpüsü bizim məad və qiyamət barədə olan əqidələrimizdən biridir. Allahın vəhdaniyyəti, Həzrət Peyğəmbərin(s) nübüvvəti, nazil olan Quran, Allahın bizim üçün təyin etdiyi on iki imam, məad (ölümdən sonrakı həyat və qiyamət) bizim əsas əqidəmizdir ki, sirat məsələsi də bu əqidənin daxilindədir. Hətta hər bir müsəlmanın cənazəsini dəfn edərkən bu əqidəni bir dəfə təkrar edirik. Bunun adına təlqin deyilir ki, iki dəfə oxumaq müstəhəbdir. Biri budur ki, cənazəni qəbrə qoyduqda (dünyasını dəyişən kişi olsa) hər bir kişi, əgər meyit qadındırsa, yalnız ona məhrəm olanlardan biri qəbrə düşüb təlqini onun üçün oxuya bilər. Həmin təlqinin bir hissəsi belədir:

اِذا اَتاكَ الْمَلَكانِ الْمُقَرَّبانِ رَسُولَيْنِ مِنْ عِنْدِاللّٰهِ تَبارَكَ وَ تعالى وَ سَئَلاكَ عَنْ رَبِّكَ وَ عَنْ نَبِيِّكَ وَ عَنْ دينِكَ وَ عَنْ كِتابِكَ وَ عَنْ قِبْلَتِكَ وَ عَنْ اَئِمَّتِكَ فَلا تَخَفْ وَ قُلْ فى جَوابِهِما اَللّٰهُ جَلَّ جَلالُهُ رَبّى وَ مُحَمَّدٌ صَلَّى اللّٰهُ عَلَيْهِ وَ آلِهِ نَبِيّى وَالاْسْلامُ دينى وَ الْقُرْآنُ كِتابى وَالْكَعْبَةُ قِبْلَتى وَاَميرُالْمُؤْمِنينَ عَلِىُّ بْنُ اَبيطالِبٍ اِمامي...

-Allahın iki mələyi gəlib səndən dinin, peyğəmbərin, kitabın, qiblən və imamların barəsində soruşduqda qorxma. Onların cavabında belə de: “Allah mənim Rəbbim və tərbiyə edənimdir. Məhəmməd(s) mənim peyğəmbərim, İslam dinim, Quran kitabım və Kəbə qibləmdir. Əli (ə) və onun on bir övladı mənim imamlarımdır...

ثُمَّ اعْلَمْ يا فُلانَ بْنَ فُلانٍ اَنَّ اللّٰهَ تَبارَكَ وَ تَعالى نِعْمَ الرَّبُّ وَ اَنَّ مُحَمَّداً صَلَّى اللّٰه عَلَيْهِ وَ آلِهِ نِعْمَ الرَّسُولُ وَ اَنَّ اَميرَ الْمُؤْمِنينَ عَلِيَّ بْنَ اَبى طالِبٍ وَ اَوْلادَهُ الأئِمَّةَ الاَحَدَ عَشَرَ نِعْمَ الاَئِمَّةُ وَ اَنَّ ما جآءَ بِهِ مُحَمَّدٌ صَلَّى اللّٰهُ عَلَيْهِ وَ آلِهِ حَقٌّ وَ اَنَّ الْمَوْتَ حَقٌّ وَ سُؤالَ مُنْكَرٍ وَ نَكيرٍ فِى الْقَبْرِ حَقٌّ وَالْبَعْثَ حَقٌّ وَالنُّشُورَ حَقٌّ وَ الصِّراطَ حَقٌّ وَالْميزانَ حَقٌّ... اَفَهِمْتَ يا فُلانُ

-Sonra bil! Ay filankəs oğlu (yaxud qızı) filankəs! Allahın ən gözəl Rəbbdir. Məhəmməd (s) ən yaxşı peyğəmbərdir. Həqiqətən, Əli ibn Əbu Talib(ə) və onun on bir övladı olan imamlar ən yaxşı rəhbər, yolgöstərən və imamlardır…Həzrət Peyğəmbərin (s) gətirdiyi (din, kitab və şəriət) haqdır. Ölüm haqdır. Qəbirdə inkir və minkirin sorğu-sualı haqdır. Qəbirdən qalxmaq (qiyamətin bərpası) haqdır. Sirat haqdır. Mizan-tərəzi haqdır. Başa düşdünmü, ey filankəsin oğlu (qızı) filankəs.”

Hədislərdə nəql olunur ki, əgər qəbrə qoyulan şəxs mömindirsə, o, belə cavab verər: “Bəli, başa düşdüm.”

Həmin təlqinin sonunda bu sözlər oxunur:

ثَبَّتَكَ اللّٰهُ بِالْقَوْلِ الثّابِتِ هَداكَ اللّٰهُ اِلى صِراطٍ مُسْتَقيمٍ عَرَّفَ اللّٰهُ بَيْنَكَ وَ بَيْنَ اَوْلِيائِكَ فى مُسْتَقَرٍّ مِنْ رَحْمَتِهِ

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, insan dünyasını dəyişdikdən sonra orada artıq söz rol oynamır. Əsas rol oynayan artıq insanların əməlləridir. Buna görə də dünyada mömin və əməlisaleh insanlar qəbirdə oxunan bu təlqini gözəl başa düşürlər. Mömin, yaxud əməli olmayan bir insana yüz dəfə də bu təlqini oxusalar, yenə də başa düşməyəcək.

Odur ki, qiyamət günü sirat məsələsi bizim əqidəmizdən biridir. Qiyamət günü bütün insanların hamısı bu körpünün üzərindən keçməli olacaqlar. Çünki cənnətin bircə yolu vardır, o da sirat körpüsüdür ki, cəhənnəmin üzərindən keçir. Bu barədə çox kitablar yazılmışdır. Sirat körpüsünün nə üçün cəhənnəmin üzərində qurulması barədə də geniş elmi söhbətlər edilmişdir.

Allah-təala "Məryəm" surəsinin 71-72-ci ayələrində belə buyurur:

وَإِنْ مِنْكُمْ إِلَّا وَارِدُهَا كَانَ عَلَىٰ رَبِّكَ حَتْمًا مَقْضِيًّا. ثُمَّ نُنَجِّي الَّذِينَ اتَّقَوْا وَنَذَرُ الظَّالِمِينَ فِيهَا جِثِيًّا

-Sizdən elə bir kəs olmaz ki, oraya varid olmasın. Bu, Rəbbinin (əzəldən) buyurduğu vacib bir hökmdür. (Bütün insanlar cəhənnəmin müdhiş mənzərəsini onun körpüsü üstündən keçərkən öz gözləri ilə görəcəklər. Cənnətliklər cəhənnəm odunun içindən yanmadan, sağ-salamat keçəcək, cəhənnəmliklər isə ora düşüb əbədi əzaba məhkum olacaqlar. Bir qisim insan da müəyyən müddət orada qalıb günahı təmizlənəcək, sonra cənnətə qayıdacaqdır). Sonra Biz Allahdan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalımları isə orada diz üstə çökmüş halda saxlayacağıq!

Bu ayədən aydın olur ki, hamı cəhənnəmi görəcəkdir. Yaxşı insanlar da, pis insanlar da. Yalnız təqvalılar cəhənnəmdən nicat tapacaqlar. Ayədə işlənmiş «وَارِد» - "varid olmaq" kəlməsi "daxil olmaq" mənasında deyil. Bu kəlmə bəzən daxil olmaq, bəzən də yaxınlaşmaq mənasını verir. Amma bu ayədə "yaxınlaşmaq" mənasını kəsb edir. Qurani-Kərimin başqa ayələrində də bu kəlmənin "yaxınlaşmaq" mənasında işləndiyinin şahidi oluruq. Məsələn, "Qəsəs" surəsinin 23-cü ayəsində Həzrət Musanın(ə) əhvalatı barədə belə oxuyuruq:.

وَلَمَّا وَرَدَ مَاءَ مَدْيَنَ

-(Musa) Mədyən kənarındakı bir quyuya yaxınlaşanda.

Bu ayədə də açıq-aydın şəkildə görürük ki, Həzrət Musa(ə) su quyusuna yaxınlaşmışdır. Ayədəki "varid olmaq" kəlməsi suyun içinə girmək yox, suya yaxınlaşmaq mənasındadır. Həmçinin yuxarıdakı ayədə də bu kəlmə "yaxınlaşmaq" mənasını daşıyır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلْوُرُود الْمَمَرُّ عَلَى الصِّرَاط

-Həzrət Peyğəmbər(s) buyurur: "Varid olmaq sirat körpüsündən keçməkdir."[1]

Deməli, Qurani-Kərimdə "Hamı cəhənnəmə varid olacaq" ifadəsindən belə başa düşülür ki, hamı sirat körpüsündən keçərkən cəhənnəmə yaxınlaşacaq. Çünki bu körpü cəhənnəmin üzərində qurulmuşdur. Təbii məsələdir ki, həmin körpünün üzərindən keçən hər bir kəs cəhənnəmə yaxınlaşmış olur.

---

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.185-186.

Allah-təala “Yasin” surəsinin 66-cı ayəsində belə buyurur:

وَلَوْ نَشَاءُ لَطَمَسْنَا عَلَىٰ أَعْيُنِهِمْ فَاسْتَبَقُوا الصِّرَاطَ فَأَنَّىٰ يُبْصِرُونَ

-Əgər istəsəydik, gözlərini büsbütün kor edərdik və onlar (adət etdikləri) yolda bir-birini ötməyə çalışardılar. Amma (belə bir vəziyyətdə yolu) necə görə bilərdilər?

Bu ayənin iki mənası vardır. Bir mənası dünyaya aiddir ki, onlar günah etdikləri üçün Allah-təala onların gözlərini kor edər və kor olduqları üçün haqqı tapa bilməzlər. Çünki günah həmişə insanın haqqı tapmasına maneəçilik yaradar və sonda insanı imandan çıxarar. İkinci mənası isə qiyamətə aiddir ki, onlar dünyada Allaha iman gətirmədikləri, Həzrət Peyğəmbərə(s) itaət etmədikləri, Allaha səcdə etməkdən imtina edib pis işlərə önəm verdikləri üçün qiyamət günü körpüdən keçərkən Allah- təala onların gözlərini kor edəcək. Belə olduqda onlar körpünün üzərindən keçə bilməyib cəhənnəmə düşəcəklər.

Abdullah ibn Salam Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. O, bu ayə ilə əlaqədar olaraq Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edir: “Qiyamət günü baş verərkən cəhənnəmin üzərindən bir körpü çəkilər. Sonra bir carçı nida edərək hamını belə çağırar: İslam Peyğəmbəri öz ümməti ilə qalxsın. Bu səsi hamı eşidər. Peyğəmbər ayağa qalxar və İslam ümmətindən olan pis və yaxşı insanların hamısı qalxıb Həzrətin ardınca gedərlər. Sirat körpüsünün qarşısına çatdıqda Allah-təala onların arasında olan fasiq və günahkarların gözünü kor edər. Möminlər rahat keçər. Amma günahkarların gözü kor olar.

Həzrət Peyğəmbər(s) bu hədisi buyurduqdan sonra həmin ayəni oxudu: Amma belə bir vəziyyətdə yolu necə görə bilərdilər?”[1]

Günlərin birində Həzrət Peyğəmbər(s) cənab Cəbrayıldan(ə) soruşdu: “Mənim ümmətim sirat körpüsündən necə keçəcək?” Cəbrayıl(ə) bir söz deməyib göylərə pərvaz etdi və sonra qayıdıb dedi: “Ya Rəsulallah, Allah sənə salam göndərir və buyurur: “Sən Mənim nurumla sirat körpüsündən keçəcəksən. Əli sənin nurunla, ümmətin isə Əlinin nuru ilə oradan keçəcək.”[2]

Quran ayələrində belə oxuyuruq ki, Allah göylərin və yerin nurudur. Hər kəs Allaha iman gətirirsə, bu, insanda iman yaradır. Allah-təala da həmin şəxsi imanı ilə hidayət edir. Odur ki, Allaha iman gətirmək insanın ruhunda və qəlbində elə bir nur yaradır ki, qiyamət günü həmin nurla sirat körpüsündən keçib cənnətə gedəcək. Allah-təala hər kimin qəlbində Əlinin(ə) nurunu qərar verməyibsə, həmin şəxsdə sirat körpüsündən keçmək üçün heç bir nur olmayacaq. Hər kəs dünyada ikən qəlbində Əlinin(ə) vilayət və məhəbbəti varsa, hər kəsin əməlində Həzrət Əlinin(ə) əməli varsa, qiyamət günü Həzrətin(ə) nuru ilə sirat körpüsündən keçib cənnətə gedəcəkdir.

Hədislərdə belə nəql olunur ki, cəhənnəm atəşinin imana heç bir yolu yoxdur. Qiyamət günü cəhənnəmin yandırdığı elə bir şey yoxdur ki, onda iman olsun. Yəni Allah-təala cəhənnəmə imanı yandırmağa icazə verməyib. Qiyamət günü, yaxud meracda Həzrət Peyğəmbər(s) cəhənnəmin yanından keçərkən cəhənnəm əhli odun

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.190.
[2] Yenə orada, səh.120.

zəiflədiyini və sərinləşdiyini hiss edərək soruşarlar: "Bu cəhənnəmə nə oldu ki, odu zəiflədi? Onlara deyilər ki, İslam Peyğəmbəri(s) cəhənnəmin kənarından keçdiyi üçün Allah-təala onun odunu zəiflətmişdir."

Eləcə də Allah-təala möminlərə belə bir mərhəmət etmişdir ki, qiyamət günü cəhənnəmin üzərindəki körpüdən keçərkən onun atəşi zəifləyəcəkdir. Belə olduqda mömin insan rahatlıqla sirat körpüsündən keçib cənnətə gedəcək.

قَالَ رَسُولُ اللهِ(ص): إذا مَرَّ الْمُؤمِنُ عَلَى الصِّراطِ طَفِئَتْ لَهَبُ النِّيرانِ وَ تَقُولُ: جُز يا مُؤمِنُ فَإنَّ نورَكَ قَد أطفَأ لَهَبِى

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin sirat körpüsündən keçərkən cəhənnəmin alovu sönər. Sonra həmin möminə belə deyər: Ey mömin, (sirat körpüsündən rahatlıqla) keç. Çünki sənin nurun mənim alovumu söndürdü."[1]

### Sirat körpüsündə müsəlmanların şüarı

Ötən bəhsimizdə sirat barəsində Qurani-Kərimdən bir neçə ayə oxuduq. Hədis və rəvayətlərə gəldikdə isə, bu barədə çoxlu açıqlamalar verilmişdir. Sirat körpüsünün barəsində ağlın dərk etməyə gücü çatmadığı incəliklər hədislərdə gözəl şəkildə izah olunmuşdur. Yəni bəzi məsələlərdə ağlın gücü çatdığı qədər lazımi şəkildə istifadə edə bilirik. Amma ağlın gücü çatmadığı yerləri isə Həzrət Peyğəmbər(s) və Əhli-beytin(ə) buyurduğu kəlamlar bizə açıqlayır.

---

[1] Dəh qərinə, səh.113.

Qiyamət günü insanlar məhşər, hesab-kitab, mizan-tərəzi kimi mərhələlərdən keçdikdən sonra növbə sirat körpüsünə çatır. Qeyd olunduğu kimi, hamı bu körpüdən keçməlidir. Bundan başqa yol da yoxdur ki, kimsə həmin yolla keçib getsin. İnsan məhşərin harasında olursa-olsun, sonu bu körpüyə çıxmalıdır. Hədislərdə belə nəql olunur ki, sirat körpüsündən keçmək üçün müsəlmanların şüarı vardır. Onlar bu şüarı oxuya-oxuya həmin körpüdən keçəcəklər.

Həzrət Peyğəmbər(s) buyurur: "Müsəlmanların sirat körpüsündəki şüarı belədir:

لا إله إلا الله وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

-Allahdan başqa heç bir məbud yoxdur və buna görə də möminlər Allaha təvəkkül etsinlər!" [1]

Hədisdəki "Allahdan başqa heç bir məbud yoxdur" cümləsi müsəlmanların ümumi bir şüarıdır. Hər kəs dünyada bu cümləni deməsə, pak ola bilməz. Hər kəs bu cümləni deməsə, murdar olaraq qalır. Bu elə bir cümlədir ki, insan onu dedikdən sonra paklaşır. İkinci cümlə isə Quran ayəsinin bir hissəsidir. Bu cümlə Qurani-Kərimin "Ali-İmran", "Tövbə" və digər surələrində də işlənmişdir. Odur ki, sirat körpüsündən keçən hər bir müsəlman həmin şüarı oxuya-oxuya yol gedəcəkdir. Aydın məsələdir ki, Allaha təvəkkül etmədən, Onun mərhəmətinə ümid bəsləmədən heç bir kəs bu körpüdən keçə bilməz. Yəni Allahın lütf və mərhəməti ilə oradan keçmək mümkün olacaqdır.

---

[1] Yenə orada, səh.145.

## Sirat körpüsündən keçən ilk şəxslər

Həzrət Peyğəmbərin(s) buyurduğuna əsasən qiyamət günü sirat körpüsündən keçən ilk şəxs o həzrətin özü və onunla birgə Həzrət Əli(ə) olacaq.

Cabir ibn Abdullah Ənsari deyir: "Günlərin birində Həzrət Peyğəmbəri(s) gördüm ki, Həzrət Əlinin(ə) əlindən tutub yuxarı qaldıraraq belə buyurdu: "Ey Əli, mən bir neçə xislət və əməli edərkən Allah-təala səni də mənim yanımda qərar verəcək."

Cabir deyir ki, soruşdum: Ya Rəsulallah, həmin xislət və əməllər hansılardır?

Peyğəmbər(s) buyurdu: Mən birinci kəsəm ki, qiyamət günü qəbirdən qalxacağam. Elə bu zaman Əli(ə) də mənimlə birgə qalxacaq.

Mən birinci kəsəm ki, sirat körpüsündən Əli(ə) ilə birgə keçəcəyik.

Mən birinci kəsəm ki, Əli(ə) də mənimlə birgə cənnətin illiyyun məqamında qərar tutacağıq.

Mən birinci kəsəm ki, Əli(ə) ilə birgə cənnətin əl dəyməmiş pak şərabından içəcəyəm."[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, Həzrət Əli(ə) dünyada həmişə Həzrət Peyğəmbərlə(s) birlikdə olduğu kimi, ona ilk iman gətirmiş insan olduğu üçün qiyamət günündə də hara getsələr birlikdə olacaqlar.

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) xitab edərək belə buyurmuşdur:

وَأَنتَ أَوَّلُ مَن يَجُوزُ الصِّراطَ مَعِي، وَ إِنَّ رَبِي عَزَّ وَجَلّ أَقسَمَ بِعِزَّتِهِ أَنَّهُ لا يَجُوزُ عَقَبَةَ الصِّراط إِلّا مَن مَعهُ بَرائَةٌ بِولايتِك وَ وِلايَةِ الأَئِمَّةِ مِن وُلدِك

---

[1] Dəh qərinə, səh.146.

-Ya Əli, mənimlə birgə sirat körpüsündən keçən ilk şəxs sən olacaqsan. Həqiqətən, mənim Rəbbim Öz izzətinə and içmişdir ki, sənin və övladlarından olan imamların vilayətini (imamlığını) təsdiqləyən şəhadətnaməsi olmayan bir şəxs siratdan keçə bilməyəcək.[1]

Bu hədisdə Həzrət Əlinin(ə) iki üstünlüyünə işarə olunmuşdur. Birincisi budur ki, o, Həzrət Peyğəmbərlə(s) birgə sirat körpüsündən keçən ilk şəxsdir. İkinci üstünlük isə budur ki, Həzrət Əlinin(ə) və onun övladlarından olan imamların vilayəti sirat körpüsündən keçmək üçün meyardır. Yəni hər kəsin əlində onların vilayətini təsdiqləyən şəhadətnamə olmasa, körpüdən keçə bilməyəcək.

### İnsanlar sirat körpüsündən necə keçəcəklər?

Hədis və rəvayətlərə istinadən aydın oldu ki, müsəlmanlar sirat körpüsündən keçərkən "Allahdan başqa heç bir məbud yoxdur və buna görə də möminlər Allaha təvəkkül etsinlər!" şüarı ilə keçəcəklər. Həmçinin Həzrət Əli(ə) Həzrət Peyğəmbərlə(s) birgə birinci kəs olacaq ki, oradan keçəcək. Burada sual oluna bilər ki, bəs Həzrət Peyğəmbərin(s) ümməti oradan necə keçəcək? Bu sualın aydınlaşması üçün bir neçə hədisi diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): يَرِدُ النَّاسِ النّار ثُمَّ يَصدُرُونَ بِأَعمَالِهِم؛ فَأَوَّلُهُم كَلَمعِ البَرق، ثُمَّ كَمَرِّ الرِّيح، ثُمَّ كَحَضرِ الفَرَس، ثُمَّ كَالرّاكِب، ثُمَّ كَشَدِّ الرّجلِ، ثُمَّ كَمَشيِه

[1] Dəh qərinə, səh.146.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü bütün insanlar cəhənnəmə varid olacaqlar.[1] Hər kəs dünyadakı əməllərinin ölçüsündən asılı olaraq sirat körpüsündən keçəcək. Möminlərin bəzisi ildırım, bəzisi külək sürətilə, kimisi bərk qaçan at kimi, kimisi adi yeriyən bir atlı kimi, bəzisi piyada və yeyin halda, bəzisi isə yavaş-yavaş yeriyən halda oradan keçəcək."[2]

Qiyamət günü möminlər dəstələrə bölünərək sirat körpüsündən qeyd olunan hallarda keçib cənnətə gedəcəklər. Bundan başqa, bütün insanların hamısı o körpüdən cəhənnəmə düşəcəklər.

قَالَ الصّادِقُ(ع): النَّاسُ يَمُرُّونَ عَلَى الصِّراطِ طَبَقاتٍ وَ الصِّراطُ اَدَقُّ مِنَ الشَّعْرِ وَ مِنْ حَدِّ السَّيْفِ فَمِنْهُمْ مَنْ يَمُرُّ مِثْلَ الْبَرْقِ ، وَ مِنْهُمْ مَنْ يَمُرُّ مِثْلَ عَدو الْفَرَس وَ مِنْهُمْ مَنْ يَمُرُّ حبواً ، وَ مِنْهُمْ مَنْ يَمُرُّ مَشِيّاً وَ مِنْهُمْ مَنْ يَمُرُّ مُتَعَلِّقاً قَدْ تَأْخُذُ النّارُ مَنْهُ شَيْئاً وَ تَتْرُكُ شَيْئاً

-İmam Sadiq(ə) buyurur: "Qiyamət günü insanlar sirat körpüsünün üzərindən keçəcəklər. Sirat körpüsü tükdən nazik və qılıncdan itidir. Bəziləri işıq (ildırım) kimi, bəziləri çapar at kimi, bəziləri piyada, bəziləri sinəsi üstə (sürünərək) və nəhayət, bəziləri isə asılmış halda keçəcəklər. Cəhənnəm atəşi bəzilərinin bədənlərinin bir hissəsini bürüyər, bəzilərini də buraxar ki, keçsinlər."[3]

[1] Ötən bəhslərdə qeyd olundu ki, "varid olmaq" sözünün mənalarından biri "yaxınlaşmaq" mənasındadır.
[2] Dəh qərinə, səh.126.
[3] Yenə orada, səh.117.

## Sirat körpüsündəki dayanacaqlar

Hədislərə əsasən qiyamətin əlli dayanacaq və yoxlama məntəqəsi vardır ki, hər bir dayanacağın müddəti min ildir.

İmam Sadiq(ə) bu barədə belə buyurur:

إِنَّ فِي القِيامَةِ خَمسِينَ مَوقَفاً كُلُّ مَوقِفٍ مِثلُ أَلف سَنَة

-Qiyamət gününün əlli dayanacağı vardır ki, hər biri min ilə bərabərdir. [1]

Sonra İmam(ə) bu ayəni oxudu:

فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ

-Müddəti əlli min il olan bir gündə qalxarlar.[2]

Şeyx Səduq kimi tanınmış alimlər bu barədə belə buyurmuşlar: "Qiyamət günü hər vacib və haram əməl üçün bir dayanacaq və yoxlama məntəqəsi vardır. İnsan hər məntəqədə sorğu-sual olunduqdan sonra digər yoxlama məntəqəsinə keçir. Həmin əlli dayanacağın hamısı sirat körpüsünün üzərindədir."[3]

İbn Abbas deyir: "Cəhənnəmin üzərində yeddi körpü vardır. (Yəni sirat körpüsündə yeddi yoxlama məntəqəsi vardır.) Birinci məntəqədə insanın imanından, ikinci məntəqədə namazından, üçüncü məntəqədə zəkatından, dördüncü məntəqədə orucundan, beşinci məntəqədə həccindən, altıncı məntəqədə qohum-əqrəbaya baş çəkməsindən və yeddinci məntəqədə isə (boynunda olan)

---

[1] Dəh qərinə, səh.135.

[2] Məaric surəsi, 4-cü ayə.

[3] Dəh qərinə, səh.124.

bəndələrin və məzlum insanların haqqı barədə soruşulacaq. Allahın «إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ» - “Şübhəsiz ki, Rəbbin (bəndələrinin bütün əməllərini) baxıb görür” - kəlamının mənası budur.

Məsələn, sirat körpüsünün üzərində namaz üçün qurulmuş məntəqədə əqidəsi düzgün olan bir insanı saxlayıb qıldığı namazlar barədə sorğu-sual edəcəklər. Əgər bir kişi əlli yaşında dünyasını dəyişibsə, on beş illik həddi-büluğ müddəti çıxıldıqdan sonra otuz beş ilin namazını ondan tələb edəcəklər. Əgər həmin şəxs bu müddətin namazının hamısını, yaxud bir hissəsini verə bilməsə, vəziyyəti çox çətin olacaq və oradan keçməyə qoymayacaqlar. Şəriət məsələləri baxımından varisin dünyasını dəyişmiş valideyni üçün onun qılmadığı namazları qılması vacibdir. Varisin valideyni üçün qıldığı namazların sirat körpüsündə faydası olacaqdır.

Ümumiyyətlə, namaz insana üç əsas məsələyə görə lazımdır. Birincisi budur ki, namaz Allahın əmridir və bu əmrə itaət olunmalıdır. İkincisi budur ki, namaz insanın mənəviyyatını daha da yüksəldir və onu pisliklərdən təmizləyir. Üçüncüsü isə namaz qiyamət günü sirat körpüsündə keçid məntəqəsi üçün lazımlıdır. Əgər bir insan dünyada namazdan boyun qaçırıbsa, deməli, Allaha itaətsizlik etmişdir. Həmçinin namaz qılmadığı üçün mənəviyyat aləmindən geri qalmış və pisliklərdən də təmizlənməmişdir.

Odur ki, sirat körpüsünün üzərində qurulmuş məntəqələrin hər birində insanı saxlayıb sorğu-sual edəcəklər. Kimisi həmin məntəqələrdən rahatlıqla keçib nicat tapacaq, kimisi oradaca saxlanılacaq və kimisi isə cəhənnəmə atılacaqdır.

Həzrət Peyğəmbər(s) buyurur: “İnsanlar sirat körpüsünün üzərində üç dəstəyə bölünəcəklər. Bir dəstəsi nicat tapacaq, bir dəstəsi döyülüb əzilmiş və yaralı halda körpünün üstünə buraxılacaq. (Onlar Allahın lütf və mərhəmətinə ümid bəsləyərək nicat tapmalarını gözləyəcəklər). Üçüncü dəstəyə mənsub olan adamlar isə cəhənnəmə düşəcəklər.”[1]

## Cənnətə gedənlər nə üçün cəhənnəmin üzərindən keçib gedəcəklər?

Qeyd olundu ki, sirat körpüsü cəhənnəmin üzərində qurulmuş bir körpüdür. Bütün insanların hamısı bu körpünün üzərindən keçməlidir. Ötən bəhslərimizdə də bu məsələyə toxunmuşduq. Qurani-Kərimin “Məryəm” surəsinin 71-ci ayəsində oxuyuruq:

وَإِنْ مِنْكُمْ إِلَّا وَارِدُهَا كَانَ عَلَىٰ رَبِّكَ حَتْمًا مَقْضِيًّا.

-Sizdən elə bir kəs olmaz ki, oraya varid olmasın. Bu, Rəbbinin buyurduğu vacib bir hökmdür. (Bütün insanlar cəhənnəmin müdhiş mənzərəsini onun körpüsü üstündən keçərkən öz gözləri ilə görəcəklər.)

Həmçinin Həzrət Peyğəmbər(s) buyurur:

يَرِدُ النَّاس النّار ثُمَّ يَصدُرُونَ بِأَعمَالِهِم

-Qiyamət günü bütün insanlar cəhənnəmə varid olacaq. Hər kəs dünyadakı əməllərinin ölçüsündən asılı olaraq sirat körpüsündən keçəcək.

Sual oluna bilər ki, cənnətə gedən möminlər nə üçün mütləq cəhənnəmi görməlidirlər? Nə üçün cənnətə gedənlər mütləq cəhənnəmin üzərindən keçib getməlidirlər?

---

[1] Dəh qərinə, səh.118.

Bu sualın cavabı ilə əlaqədar olaraq kifayət qədər söhbət etmək mümkündür. Lakin qısaca olaraq bir neçə kəlmə ilə bu sualı cavablandıraq.

Birinci cavab budur ki, əgər cənnətə gedənlər cəhənnəmi gözləri ilə görməsələr, cənnətin qədrini də bilməzlər. Yaxud belə deyək ki, cənnətin qədrini daha yaxşı bilmək üçün cəhənnəmi öz gözləri ilə görəcəklər. Yəni cənnətə gedən insanlar cəhənnəmi gözləri ilə gördükdə başa düşsünlər ki, əgər dünyada axirət üçün çalışmasaydılar, yerləri həmin bu cəhənnəm olacaqdı. Qoy onlar bilsinlər ki, dünyada şəhvətpərəstlik edənlərin və etməyənlərin, yaxud Allahın əmrinə riayət edənlərin və etməyənlərin aqibəti necə olur.

İkinci cavab budur ki, günahkarlar və cinayətkarları aqibətlərinin necə olacağı ilə hədələyir. Yəni dünyadakı günahkar insanlar aqibətlərinin necə acınacaqlı olduğunu düşünüb özlərini yığışdırsınlar və tutduqları pis işlərdən əl çəksinlər.

Üçüncü cavab isə elmi məsələ ilə bağlı olduğundan həmin məsələyə azacıq diqqət yetirməyə dəyər. Həmin məsələ bundan ibarətdir ki, insanın gördüyü hər bir əməlin iki surət və təsəvvürü vardır. Biri dünyada hamının gördüyü kimi surət və təsvir, digəri isə mələkut aləminə aid olan surətdir. Məsələn, biz dünyada oruc tutmağı insanın ac-susuz və bəzi əməllərdən çəkinməsi kimi təsəvvür edirik. Namazı insanın üzü qibləyə dayanaraq əyilib qalxması kimi görürük. Əgər biz insanın bu hərəkətlərini bir kənara qoysaq, o zaman oruc və namazın surətini görmək də mümkün olmayacaq. Deməli, biz orucu bir insanın ac-susuz qalmasında görürük. Yəni insan oruc tutursa, onun ac və susuzluğu təsəvvür olunur. Bir insanın rükuya getdiyini və səcdə etdiyini gördükdə isə

namaz təsəvvür edilir. Yaxud Həcc ziyarətini bir insanın ehram bağlamasında, təvaf etməsində, Ərəfatda qalmasında və digər əməllərində görürük. Əgər bu əməlləri də insandan bir kənara qoysaq, o zaman Həcc ziyarətinin bu dünyadakı surətini görmək mümkün olmayacaq. Həmçinin namazı, orucu da insandan ayrı təsəvvür etsək, bunun heç birinin bir mənası qalmayacaqdır. Amma qiyamət günü namazın, orucun və digər əməllərin hər birinin surəti onların bu dünyadakı surətlərindən fərqlidir. Əməllərin axirətdəki surətinə mələkuti surət deyilir. Yəni bu dünyada əməlin maddi surəti, o biri dünyada isə mələkuti surəti vardır.

Deməli, bizim bu dünyadakı əməllərimizin hamısı o biri dünyada mələkuti surətdə görünəcək. Həmçinin qiyamət günü od-alovun (cəhənnəmin) üzərindən keçib cənnətə keçmək o dünyada olan surətdir. Yəni sirat körpüsü o dünyada bir təcəssümdür ki, insan onu bu dünyada etməlidir. Onun bu dünyadakı surəti insanın Allaha olan eşqindən yanaraq təqvaya çatmasıdır. Nə qədər ki, insan Allahın eşqi ilə yanmayıb onun təqvaya çatması da mümkün deyil. Əgər insan şəhvətlərin yandırıcı atəşindən keçə bilsə, cənnətə və təqvaya çatacaq. Əgər insan dünyada qarşılaşdığı haram və günahlardan keçə bilsə, təqvaya çatmış olacaq. Məsələn, fərz edək ki, bir gün insanın qarşısına on min manat haram pul çıxır. Əgər insan bu haram puldan keçə bilsə, təqvaya çatacaq. Yox, əgər keçə bilməsə, təqvaya yaxın belə düşə bilməyəcək. Haram pulun məbləği böyüdükcə, onun od-alovu da bir o qədər böyük və güclü olacaqdır.

Züleyxa Həzrət Yusifi(ə) tələyə salmaq istədi. Onu otağa salıb qapıları bağladı. Özünü bəzəyib istəyini bildirdikdə Həzrət Yusif(ə) ondan imtina etdi. Həzrət

Yusif(ə) bilirdi ki, əgər bu od-alovun üzərindən keçməsə, qiyamət gününün od-alovunun üzərindən də keçə bilməyəcək.

Uzun sözün qısası, insan bu dünyada Allahın və Həzrət Peyğəmbərin(s) buyurduğu hər bir əmrə təslim olmalıdır. Yəni hər bir işdə Allah nə əmr edirsə, həmin əmrin qarşısında baş əyməlidir.

İmam Sadiq(ə) onun evinə gələn qonaqlar üçün süfrəyə bəzən çörəklə zeytun, bəzi vaxtlar halva, bəzən firni, bəzən də ətdən bişirilmiş bir xörək qoyub öz qonaqpərvərliyini göstərərdi. Günlərin birində bir nəfər Həzrətə(ə) yaxınlaşıb dedi: "Əgər iqtisadi məsələlərdə tədbirlə [1] iş görsəniz, həmişə qonaqlarınıza gözəl və bərabər şəkildə qulluq edə bilərsiniz. Belə olduqda bütün qonaqların hamısına bərabər yemək çatar və bir gün az, bir gün də çox olmaz."

İmam Sadiq(ə) onun cavabında buyurdu: "Bizim tədbirimiz Allahın əlindədir. Allah nə vaxt bizə çox inayət edirsə, o vaxt həm özümüz, həm də qonaqlarımız üçün lazımınca istifadə edirik. Amma az olduqda həmin cüzi imkandan istifadə edib dolanırıq." [2]

İmam Sadiq(ə) bu sözlərilə başa salır ki, biz Allaha təslimik. Allah bizim barəmizdə hər nə məsləhət görürsə, ona da tabeyik.

Zübeyr ibn Əvam Həzrət Peyğəmbərin(s) bibisi oğlu idi. Onun da xurma bağlarında öz sahəsi var idi və ənsardan olan bir nəfərlə qonşuluq edirdi. Bir gün Zübeyr

---

[1] Tədbir – ərəb dilində axırı və sonu düşünülmüş hər hansı bir işə deyilir. Azərbaycan dilində isə yığıncaq və ya mərasimə tədbir deyilir.

[2] 500 dastan,1-ci cild, səh.154.

Həzrət Peyğəmbərin(s) yanına gəlib qonşusundan şikayətlənərək dedi: “Ya Rəsulallah, filankəs mənimlə bağ qonşusudur. Onunla su üstündə mübahisəmiz düşüb. Bağımı suvarmaq üçün mənə mane olur”.

O zamanlar adət belə idi ki, kimin yeri sudan yuxarıda olsaydı, o da sudan birinci istifadə edərdi. Sonra isə aşağıdakı bağları suvarmaq üçün sudan istifadə edərdilər. Zübeyrin də bağı suyun yuxarı tərəfində, həmin ənsarın bağı isə aşağı tərəfdə olduğundan Həzrət Peyğəmbər(s) ənsardan olan səhabəyə buyurdu: “Qoy, Zübeyr bağını suvarsın, sonra isə sən öz bağını suvararsan.”

Həzrət Peyğəmbərin(s) düzgün və ədalətli mühakimə etməsinə baxmayaraq, həmin ənsar Həzrətə(s) dedi: “Zübeyr sənin bibioğlun olduğu üçün belə mühakimə etdin.”

Həzrət Peyğəmbər(s) onun bu sözlərindən çox narahat oldu. Belə ki, narahatlıq hətta Həzrət Peyğəmbərin(s) çöhrəsindən də göründü. Elə bu halda Allah-təala “Nisa” surəsinin 65-ci ayəsini nazil etdi:

فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا

-Amma belə deyildir. (Ya Rəsulum) Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər.[1]

[1] 500 dastan, 1-ci cild, səh.156.

Beləliklə, əgər insan bütün hökmlərin hamısında Allaha və Peyğəmbərə(s) tam şəkildə təslim olsa, qiyamət günü onun surəti və nəticəsi də təslim görünəcək.

Odur ki, əgər insan bu dünyada şəhvətlərdən və haram işlərdən imtina etməsə, qiyamət günü oradan keçə bilməyəcək. Şəhvətlərin və haramların üstündən keçib təqvaya çatmaq bu dünyadakı surət, axirətdəki surəti isə odun və cəhənnəmin üzərindən keçib cənnətə çatmaqdır.

**Hədislərdə sirat körpüsü barədə xəbərdarlıq**

Sirat körpüsü qiyamət gününün mərhələlərindən biridir və Quran ayələrinə, eləcə də hədislərə əsasən bu körpü cəhənnəmin üzərində qurulmuşdur və bütün insanlar həmin körpünün üzərindən keçməyə məhkumdurlar. Cənnətin də yolu məhz həmin körpüdən keçib gedir. Həzrət Peyğəmbərin(s) və imamlarımızın hədislərini oxuduqda bir daha dərk edirik ki, bizi qarşıda çox çətin, qorxulu və təəccüblü bir yol gözləyir. Bu yolun çətinliyini başa düşmək üçün Həzrət Əlinin(ə) bircə cümləsi belə kifayət edər. Həzrət Əli(ə) Allahla minacat edərkən belə deyərdi:

فَيا سَوْاَتاهُ غَداً مِنَ الْوُقُوفِ بَيْنَ يَدَيْكَ اِذا قيلَ لِلْمُخِفّينَ جُوزُوا وِلِلْمُثْقِلينَ حُطُّوا، اَفَمَعَ الْمُخِفّينَ اَجُوزُ اَمْ مَعَ الْمُثْقِلينَ اَحُطُّ

-Ah! (Vay!) Sənin (əzəmətinin) qarşında dayanacağım gündən. Yükü (günah və hesab-kitabı) yüngül olanlara deyiləcək: “Keçin bu körpüdən.” Yükü (günah və hesab-kitabı) ağır olanlara isə “Tökülün cəhənnəmə” - deyiləcək. Görəsən, mən həmin gün yükü yüngül olanlardan olub

körpüdən keçəcəyəm, yoxsa yükü ağır olanlar kimi oradan tökülənlərdən olacağam?[1]

Həzrət Əlinin(ə) bu kəlamı doğrudan da çox təsirlidir. Həzrətin (ə) bu sözlərindən bir daha başa düşülür ki, insanı qarşıda həqiqətən də çox çətin bir yol gözləyir. Buna görə də hər kəs dünyada ikən fürsətdən istifadə edib yükünü (günahını) yüngülləşdirməli və özü ilə hesab-kitab çəkməlidir. Çünki orada hər bir xırda məsələnin hesab-kitabı aparılacaqdır.

Günlərin birində İslam Peyğəmbəri(s) Salmanın və Abuzərin hər birinə bir dirhəm pul verdi. Səhərisi gün isə onların hər ikisini yanına çağırdı. Bir neçə səhabəyə göstəriş verdi ki, tonqal qalasınlar. Sonra onun üstünə böyük bir daş qoydular. Tonqal yavaş-yavaş daşı qızdırmağa başladı. Həzrət Peyğəmbər(s) Salmana və Abuzərə buyurdu: "Bir-bir bu daşın üstünə çıxın və dünən sizə verdiyim həmin bir dirhəmi hara xərclədiyinizi danışın." Salman daşın üstünə çıxaraq isti ayağına keçənə qədər dedi: "Allah yolunda sədəqə verdim." Sonra isə dərhal yerə endi.

Abuzər həmin pulu öz ailəsi üçün xərcləmişdi. Bu pul Həzrət Peyğəmbərin(s) hədiyyəsi idi. Abuzər onu düzgün xərcləmişdi. Lakin daşın üstünə çıxanda bazara getdiyini və nə aldığını söyləyənə qədər ayaqları yana bilərdi. Bununla belə, elə başa düşmüşdü ki, həmin pulu xərcləməkdə xataya yol verib. Ancaq Həzrət Peyğəmbər(s) onun daşın üstünə çıxmasına icazə vermədi və buyurdu: "Mən bilirəm ki, sən o pulu hara xərcləmisən. Bunu səhabələrə göstərməkdə məqsədim odur ki, qoy hamı bilsin, qiyamətin hesab-kitabı bundan daha çətin

[1] Dəh qərinə, səh.127.

olacaq. Çalışın özünüzü qiyamət gününə hazırlayasınız. Oraya gedənədək hesab-kitabınızı təmizləyin."[1]

قَالَ الصَّادِقُ(ع): أَلا فَحَاسِبُوا أَنفُسَكُم قَبلَ أَن تُحَاسَبوا فَإِنَّ فِي القِيَامَةِ خَمسِينَ مَوقَفاً

-İmam Sadiq(ə) buyurur: "Diqqətli olun! Hesaba çəkilməmişdən öncə özünüzlə hesab-kitab aparın. Bilin ki, qiyamətdə (sorğu-sual olunmaq üçün) əlli dayanacaq vardır." [2]

Həzrət Peyğəmbərin(s) və imamlarımızın kəlamları bizə başa salır ki, qarşıda insanı gözləyən çətin anlar üçün tədarük görmək lazımdır. Ona görə də bu dünyada olduğumuz müddətdə fürsətdən istifadə etməli və özümüzlə hesab-kitab aparmalıyıq. İnsanın canı bədənindən çıxdıqdan sonra bu işləri görmək iqtidarında olmayacaqdır. Hədislərdə də belə nəql olunur ki, bu gün (dünyada olarkən) əməl günü, sabah (axirətdə) isə hesab-kitab günüdür. Adicə hər bir idarə və ya təşkilatda fəaliyyət göstərən mühasib çalışır ki, bütün işlərində dəqiq olsun və yoxlama zamanı verilən hər bir suala dəqiq cavab versin. Mühasib bilir ki, işlərini və hesabını düzgün aparmasa, onun başı ağrıyacaq. Eləcə də hər bir insan bu dünyada öz-özü ilə hesab- kitab aparmasa, yaxud əməllərini düzəltməsə, qiyamət günü ona heç bir imkan verilməyəcək. Çünki həmin gün insandan dünyada etdiyi hər bir işi ilə bağlı hesab-kitab aparılacaq. Buna görə də yaxşı olar ki, insan hər gün ən azından yarım saat özü ilə hesab-kitab çəksin və çatışmayan əməllərini düzəltsin.

[1] Min bir əxlaqi hekayətlər, səh.609.
[2] Dəh qərinə, səh.126-127.

Məsələn, qəza namazları, qəza orucları, yaxud qazandığı və xərclədiyi pullar, habelə digər əməlləri ilə bağlı hesab-kitab aparsın.

## Sirat körpüsünün tükdən nazik və qılıncdan iti olmasında məqsəd nədir?

Burada çox yaxşı olar ki, əksər insanları maraqlandıran suallardan birinə aydınlıq gətirək. Həmin sual Həzrət Peyğəmbərin(s) buyurduğu "Cəhənnəmin üzərində olan sirat körpüsü tükdən nazik və qılıncdan itidir" - hədisi ilə bağlıdır. Bəs, görəsən bu kəlamda məqsəd nədir? Kimsə bu hədisin sənədinin zəif olduğu barədə düşünə də bilər, amma belə deyil. Bu hədis çox güclü sənədlərlə əsasən hədis kitablarında Həzrət Peyğəmbərin(s) adından nəql olunmuşdur. Həmçinin İslam aləmində bu hədislə bağlı firqələr arasında da heç bir ixtilaf yoxdur. Yəni bütün firqələr bu hədisi təsdiqləmişlər.

Alimlər bu hədislə bağlı bir neçə fikir irəli sürmüşlər ki, onlardan birincisi elə hədisin öz zahiri mənası kimidir. Yəni körpünün üzərindən keçmək çox çətindir və əgər Allahın lütf və mərhəməti olmasa, heç bir kəs oradan keçə bilməyəcəkdir. Ötən bəhslərimizdə də biz belə bir hədis oxuduq: "Həzrət Peyğəmbər(s) cənab Cəbrayıldan(ə) soruşdu: Mənim ümmətim sirat körpüsündən necə keçəcək?" Cəbrayıl(ə) bir söz deməyib göylərə pərvaz etdi və sonra qayıdıb dedi: "Ya Rəsulallah, Allah sənə salam göndərir və buyurur: "Sən Mənim nurumla sirat

körpüsündən keçəcəksən. Əli sənin nurunla, ümmətin isə Əlinin nuru ilə oradan keçəcəkdir.”[1]

Bu hədisdən də açıq-aydın şəkildə görünür ki, oradan keçmək elə də asan bir iş deyildir. Yəni hər kəsə bu nur nəsib olsa, həmin şəxs sirat körpüsündən keçib gedəcəkdir.

Şeyx Müfid kimi məşhur olan böyük şəxsiyyət, görkəmli alim və fəqih Məhəmməd ibn Məhəmməd ibn Noman hicri qəməri təqvimi ilə 336-cı ildə dünyaya göz açmış, 413-cü ildə 77 yaşında vəfat etmişdir. Əgər İslam dünyasında ən görkəmli fəqih və müctəhidlərdən beş nəfəri seçmiş olsalar, heç şübhəsiz, Şeyx Müfid həmin beş nəfərdən biri olacaqdır. O, çox təqvalı və pak bir insan idi. Böyük mütəfəkkir, qələmi dilindən, dili qılıncından iti olan bu görkəmli şəxsiyyətin həyatı barədə yazırlar ki, o, uşaqlıqdan ömrünün sonunadək elmlə məşğul olmuşdur. Bu müddət ərzində Zəmanənin İmamı Həzrət Mehdi (ə.c) ona otuz məktub yazmışdır. Həmin məktubların bəzisi şagirdlərinin vasitəsilə nəql olunmuşdur. Onların birində Həzrət (ə.c) ona belə yazmışdır:

لِلأَخِ السَّدِيد وَالوَلِيُّ الرَّشِيد الشَّيخُ الْمُفِيد

-Mənim möhkəm və yaxın qardaşım, yolunu tapmış və hidayət olmuş dostum Şeyx Müfid.

Digər bir məktubda belə yazmışdır:

بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم سَلامُ اللهِ عَليكَ أَيُّهَا النَّاصِر لِلحَقّ، اَلدَّاعِي إِلَيهِ بِكَلِمَةِ الصدق

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh.120.

-Bağışlayan və mehriban Allahın adı ilə. Allahın salamı olsun sənə, ey haqqa yardımçı, doğru sözlə Ona tərəf çağıran!

İmamın (ə.c) bu kimi tərifəlayiq ifadələrlə ona məktub yazması bir daha Şeyx Müfidin dahi və böyük bir şəxsiyyət olmasına dəlalət edir. Həmçinin o, elə bir şəxsiyyət idi ki, Seyid Mürtəza və Seyid Rəzi kimi böyük alimlər də onun tələbəsi olmuşlar.

Şeyx Müfid deyir: "Təxminən iyirmi yaşım olardı. Həmin vaxtlardan dərs deməklə məşğul olurdum. Gecələrin birində yuxuda gördüm ki, Xanım Fatimeyi Zəhra(s.ə) hələ kiçik yaşlarında olan İmam Həsən(ə) və İmam Hüseynin(ə) əllərindən tutmuş halda mənə buyurdu: "Şeyx Müfid, bu uşaqları tərbiyə etmək üçün sənin yanına gətirmişəm." Elə bu məqamda yuxudan oyandım və öz-özümə çox təəccübləndim. Fikirləşdim ki, mən hara, Xanım Fatimeyi Zəhranın(s.ə) İmam Həsən(ə) və İmam Hüseyni(ə) mənə tapşırması hara? Ayağa qalxıb namazı qıldıqdan sonra dərsə getmək üçün hazırlaşdım. Dərsə başladıqdan sonra yuxu tamamilə yadımdan çıxdı. Dərsdən sonra şagirdlərlə əyləşib söhbət edirdim ki, bir qadın iki uşağın əlindən tutub mədrəsəyə daxil oldu və məni soruşdu. Sonra həmin qadın mənə yaxınlaşıb dedi: "Bu iki uşaq seyid balalarıdır və mənim uşaqlarımdır. Gətirmişəm ki, onların təlim-tərbiyəsilə siz məşğul olasınız." Elə bu zaman yuxu yadıma düşdü. Başa düşdüm ki, gördüyüm yuxunun yozumu elə bu imiş. Mən həmin uşaqları qəbul etdim və onlar üçün vaxt ayırdım."

Bu hadisənin üstündən uzun illər ötdükdən sonra həmin uşaqlardan biri Seyid Rəzi ("Nəhcül-bəlağə"ni tərtib edən), digəri isə Seyid Mürtəza ləqəbli böyük şəxsiyyətlər kimi tanındılar. Əlbəttə, Seyid Rəzinin əsl adı

Məhəmməd, Seyid Mürtəzanın adı isə Əli idi. Seyid Mürtəza fiqh elmində elə bir dərəcəyə çatmışdı ki, Şeyx Müfid dünyasını dəyişəndə onun cənazə namazını qılmışdı.

Burada Şeyx Müfid barədə qısaca da olsa danışmaqda məqsədim böyük alimin həmin hədisə öz münasibətini bildirməsi və bununla bağlı açıqlama verməsidir. O deyir: "Sirat körpüsü kafirlər üçün çox çətin olacaq. Kafirin ayağı onun üzərində dayana bilməyəcək. Çünki qiyamətin vəhşət və çətinliyi kafir üçün elə ağır olacaq ki, sirat körpüsündən keçərkən sanki ayağını tükdən nazik və qılıncdan iti bir şeyin üzərinə qoyur."[1]

Həzrət Ayətullahul-uzma Xameneyi Məşhəddə dərs deyən vaxtlarında Həzrət Peyğəmbərin(s) bu hədisini şərh edərək belə buyurmuşdur: "İnsanın bu dünyada öhdəsinə düşən vəzifəsini tapıb müəyyən etməsi həqiqətən də tükdən nazik və qılıncdan itidir." Bunu bilmək lazımdır ki, insanın dünyada öz öhdəsinə düşən vəzifəsini tapması asan bir məsələ deyildir. Yəni gündə on yeddi rükət namaz qılmaqla, ildə bir ay oruc tutmaqla insan öz vəzifəsinə əməl etmiş olduğunu düşünə bilməz. Ona görə də insanın dünyada öz öhdəsinə düşən vəzifəsini axtarıb tapması və tapdıqdan sonra isə ona əməl etməsi tükdən nazik və qılıncdan itidir.

İmam Hüseyn(ə) Mədinədən çıxıb Məkkəyə, oradan da Kərbəlaya hərəkət edərkən bütün ağsaqqallar toplaşıb ona getməməyi məsləhət gördülər və dedilər: "Görmürsənmi kufəlilər səni öldürmək üçün qılınclarını itiləyib gözləyirlər. Görmədinmi sənə həmin məktub

[1] Dəh qərinə, səh.103.

yazanlar atan Əli ibn Əbu Talibə(ə) və qardaşın İmam Həsənə(ə) nə etdilər? Məgər görmürsənmi kufəlilər dişləri iti canavar kimi sənin qanını tökməyə hazırlaşıblar? Məgər bilmirsənmi ki, Yezid və İbn Ziyad sənin qanına susayıblar? Bütün bunları görə-görə hətta on yeddi günlük körpəni, uşaqları və qadınları da özünlə aparırsan?"

İmam Hüseyn(ə) onların cavabında belə buyurdu: "Siz elə bilirsiniz ki, mənim bütün bunlardan xəbərim yoxdur? Mən indidən görürəm ki, Kufənin ac canavarları qarınlarını mənim ətimlə doyururlar. Elə bilirsiniz ki, sizin siyasi təhlillərinizi başa düşmürəm? Allah məni qanıma qəltan, balalarımı əsir görmək istəyir. Bu gün mənim vəzifəm Məkkəyə getməkdir. Əgər orada hamının vəzifəsi Ərəfat və Minaya getməkdirsə, mənim vəzifəm Kərbəlaya hərəkət etməkdir. Mənim vəzifəm altıaylıq körpəni o qoşunun qarşısına çıxarıb höccəti tamamlamaqdır. Kim mənimlə gəlmək istəyirsə, gəlsin. Gəlmək istəmirsə, yolu açıqdır və hara istəyir getsin. Mən öhdəmə düşən vəzifənin nə olduğunu yaxşı bilirəm."

Odur ki, insanın öz öhdəsinə düşən vəzifəsini müəyyənləşdirib ona əməl etməsi asan bir iş deyildir. İnsanın dünyada sözün həqiqi mənasında öz öhdəsinə düşən vəzifəsini müəyyən etməsi tükdən nazik və qılıncdan itidir.

Bəzi alimlərin də dediyinə görə, bu hədisin mənası odur ki, insan dünyada əməl və şəriət hökmlərinə riayət edərkən tükdən nazik və qılıncdan iti qədər diqqətli olmalıdır.[1] Yəni dəstəmaz alarkən, namaz qılarkən, oruc tutarkən, həcc və digər əməlləri yerinə yetirərkən bu kimi

[1] Dəh qərinə, səh.120

məsələlərə son dərəcə diqqətlə yanaşmalıdır. Məsələn, bir insan ziyafət təşkil etdikdə həmin ziyafət zamanı təqdim olunacaq yeməklərə, masaların düzülüşünə və hətta dəvətnamələrin necə olacağına diqqət yetirdiyi kimi, ilahi ehkamların yerinə yetirilməsi məsələsində daha çox diqqətli olmalıdır. Deməli, bu, insanın öz əməllərində daha diqqətli olması üçün bir növ xatırlatmadır.

Həzrət Peyğəmbərin(s) buyurduğu həmin hədisin əxlaqi və irfani mənası da vardır ki, çox geniş və uzun bir bəhs olduğundan onun üzərindən keçirəm.

## Sirat körpüsündən keçməyə mane olan amillər

Bir qədər əvvəl sirat körpüsünün nə olduğu və orada insanların əhvalının necəliyi barədə söhbət etdik. Bu bəhsimizə iki mətləbi də əlavə etməyimiz çox yaxşı olardı. Həmin mətləblərdən biri budur ki, bəzi əməllər insanın sirat körpüsündən keçməsini çətinləşdirir. Yəni bəzi əməllər insanın sirat körpüsündən keçməsini qeyri-mümkün edir. Həmçinin bəzi əməllər də vardır ki, həmin körpüdən keçməyi insan üçün asan edir. Bir sözlə desək, insanın sirat körpüsündən keçə bilib-bilməməsi onun öz əməllərindən asılıdır. İlk növbədə insanın sirat körpüsündən keçməsini çətinləşdirən amillərə diqqət yetirək.

Öncə qeyd etməliyik ki, aşağıdakı üç əməl insanın sirat körpüsündən keçməsinə mane olur. Yəni bu əməllər insanı o həddə çatdırır ki, onun sirat körpüsündən keçməsi mümkün olmur.

### 1. Günaha və pis işlərə aludə olmaq

Həmin əməllərdən biri ümumi olaraq insanın günah və pis işlərə aludə olmasıdır. Əgər insan özünü günahlara öyrəşdirsə, o, sirat körpüsündən keçmək səlahiyyətini əldən vermiş olur. Məsələn, bir insan bıçaqla gözünü çıxarsa, təbiidir ki, görmək qabiliyyətini də itirər. Ola bilsin ki, insan bu işi bircə dəqiqənin içində etmiş olsun, amma bunu etməklə həmişəlik olaraq görmə qabiliyyətini itirir. Daha ölənə qədər onun gözü görməyəcək. Çünki özü görmə səlahiyyətini öz əlindən almışdır. Həmçinin bunu eynilə insan bədəninin digər üzvləri barədə də söyləyə bilərik. Bu, məsələnin zahiri cəhəti ilə bağlıdır, lakin məsələnin mənəvi cəhəti də elə bunun kimidir. İnsan özünü günah əməllərə o qədər aludə edir ki, daha ona sirat körpüsündən keçməyə səlahiyyət verilmir.

Bu barədə Qurani-Kərimin "Yasin" surəsinin 59-66-cı ayələrində oxuyuruq:

وَامْتَازُوا الْيَوْمَ أَيُّهَا الْمُجْرِمُونَ. أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ. وَأَنِ اعْبُدُونِي هَٰذَا صِرَاطٌ مُّسْتَقِيمٌ. وَلَقَدْ أَضَلَّ مِنكُمْ جِبِلًّا كَثِيرًا أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ. الْيَوْمَ نَخْتِمُ عَلَىٰ أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُم بِمَا كَانُوا يَكْسِبُونَ. وَلَوْ نَشَاءُ لَطَمَسْنَا عَلَىٰ أَعْيُنِهِمْ فَاسْتَبَقُوا الصِّرَاطَ فَأَنَّىٰ يُبْصِرُونَ.

-(Qiyamət günü günahkarlara belə xitab olunacaq:) "Ey günahkarlar (cinayətkarlar)! Bu gün (möminlərin və salehlərin cərgəsindən) ayrılın!" Ey Adəm övladı! Məgər Mən (dünyada) sizə: "Şeytana ibadət etməyin, o, sizin açıq-aşkar düşməninizdir!" – deyə buyurmadımmı? Və: "Yalnız Mənə ibadət edin ki, doğru yol budur!" Həqiqətən, (şeytan) içərinizdən çoxlarını yoldan çıxartdı. Məgər ağlınız

kəsmirdi? Bu gün onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər. Əgər istəsəydik, gözlərini büsbütün kor edərdik və onlar yolda bir-birini ötməyə çalışardılar. Amma (belə bir vəziyyətdə yolu) necə görə bilərdilər?”

Burada əsas bəhs axırıncı (66-cı ayə) barəsindədir ki, bir qrup təfsirçi həmin ayənin qiyamət günü sirat körpüsündən keçmək məsələsi ilə bağlı olduğunu yazmışlar. Cinayətkarlar və günahkarlar sirat körpüsündən keçmək istəyərkən Allah- təala onların gözlərini kor edər. Necə ki, onlar dünyada olarkən də haqq-həqiqətə qarşı beləcə kor idilər. Belə olduqda onlar nə qədər çalışsalar da, həmin körpüdən keçə bilməyəcək və cəhənnəmə düşəcəklər. Yəni bu insanlar hələ dünyada ikən özlərini o qədər günah əməllərə aludə etmişlər ki, Allah-təala qiyamət günü onların gözlərini kor edəcək və körpüdən keçib cənnətə getməyə qoymayacaq. Allah heç bir zaman razı olmaz ki, dünyada hər cür murdar işlər görən və üzrxahlıq belə etməyən adamların qiyamət günü gedib cənnətdə peyğəmbərlərin, imamların, pak insanların və dünyada min bir əzab-əziyyətə qatlaşaraq dinini qoruyub saxlayanların yanına düşsün.

**2. Boynunda başqalarının haqqının qalması (Haqqun-nas)**

Sirat körpüsündən keçməyə mane olan əməllərdən ikincisi boynunda başqalarının haqqının qalmasıdır. Yəni hər kimin boynunda camaatın haqqı qalarsa, o, sirat körpüsündən keçə bilməyəcək. İnsanların haqqı qiyamət günü körpünün üzərindədir. İnsan Allah qarşısında günah etdikdə, tövbə edərək Ondan bağışlanma diləyir. Allah da

onun günahını bağışlayır. Amma bir insan digərinin pulunu və ya başqa bir haqqını mənimsəyibsə, bunun Allaha aidiyyəti yoxdur. Yəni Allah bəndələrin haqqını onların öz ixtiyarlarında qoymuşdur. Çünki bu haqsızlıq bəndəyə qarşı edilmişdir. Odur ki, həmin haqsızlığı da yalnız o bəndə bağışlaya bilər. Əgər haqsızlıq edən insan qarşı tərəfdən bağışlanılmasa və ya haqsızlıq etdiyi şəxsin haqqını verməsə, sirat körpüsündə mütləq ilişəcək.

قَالَ الصَّادِقُ(ع): أَلْمِرْصادُ قَنْطَرَةٌ عَلَى الْصِّراطِ، لا يَجُوزُها عَبْدٌ بِمَظْلَمَةِ عَبْدٍ

-İmam Sadiq(ə) buyurur: "Pusqu siratın üzərindəki körpüdür. Boynunda digərinin haqqı olan kəs oradan keçə bilməyəcək."[1]

Yəni boynunda başqasının haqqı olan insan sirat körpüsündə saxlanılacaq və o, qarşı tərəfin haqqını qaytarmayınca, ona oradan keçmək icazəsi verilməyəcək.

### Haqqun-nasın növləri

Qeyd etməliyik ki, ümumiyyətlə, camaatın haqqı əsasən iki növdür. Biri insanların malı, digəri isə onların abrıdır. İnsanların malını mənimsəməyə heç bir kəsin ixtiyarı yoxdur. Hər kəs bu işi görmüş olsa, mütləq sirat körpüsündə ilişib qalacaq. Bunu da bilmək lazımdır ki, burada əsas məsələ təkcə kiminsə pulunu mənimsəməkdən ibarət deyil. Ona görə də burada yaxşı olardı ki, camaatın mal baxımından olan haqlarından bir neçə nümunəni qeyd edək.

---

[1] Dəh qərinə, səh.107.

## Çəkidə aldatmaq

Allah-təala "Əraf" surəsinin 85-ci ayəsində belə buyurur:

فَأَوْفُوا الْكَيْلَ وَالْمِيزَانَ وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءَهُمْ

-Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın.

Bu ayənin nazil olması səbəbi belədir ki, Mədinədə camaatın əksəriyyəti belə bir bəlaya düçar olmuşdu. Onlar tərəzidə bir-birini aldatmaqla məşğul idilər. Həzrət Peyğəmbər(s) bu şəhərə hicrət etdikdən sonra həmin ayə nazil oldu və Həzrət(s) qeyd olunan ayəni camaata oxudu. Beləcə, camaat bundan sonra tərəzidə az çəkib aldatmağı tərgitdilər.

Əlbəttə, burada qeyd olunmalıdır ki, az çəkmək, tərəzidə aldatmaq təkcə alış-veriş məsələlərinə aid deyildir. Bu məsələ peşə və sənətindən asılı olmayaraq hər bir sahədə və ya işdə də ola bilər. Məsələn, bir nəfər işlədiyi idarənin daxili qayda-qanunlarına qətiyyən məhəl qoymur. Belə ki, bütün işçilər səhər saat 9:00-da həmin idarəyə gəlsələr də, bu adam saat 10:00-da işə gəlir. Onun bir saat işə gecikməsi işlədiyi idarənin haqqını pozması deməkdir. Yaxud idarədə olarkən rəsmi işləri görmək əvəzinə öz işlərini görür və ya başqa şəxsi işlərlə məşğul olur. Yaxud da idarədə iş görmək əvəzinə əyləşib söhbət etməklə məşğul olur və vaxtını mənasız işlərlə keçirir. Bir sözlə desək, işlədiyi idarədə onun üçün müəyyən olunmuş iş vaxtını başqa şeylərə sərf edir. Hər nə qədər belə etsə, işlədiyi yerin haqqı onun boynuna yüklənmiş olur.

Həmçinin fəhlə işlədən bir şəxs onlar üçün müəyyən vaxt təyin edir. Amma həmin vaxt gəlib görür ki, fəhlələr əyləşib özləri üçün söhbət edirlər. Deməli, fəhlələr həmin şəxsin haqqına girmiş olurlar. Yaxud birisi adını bir

idarəyə və ya şirkətə yazdırır, amma özü işə getmir və maaşını alır. Bütün bunların hamısı camaatın haqqıdır və bu kimi işləri görənlərin boynuna düşür.

**Rüşvət**

Rüşvət də haqqun-nasın bir növüdür və ən böyük haramlardan sayılır. Bir nəfərin haqqını batil etmək üçün rüşvət verib bu işə əl atmaq həmin şəxsin haqqına girmək deməkdir. Yəni bu, əvvəlcədən məhkəmədə lazım olan adamları görüb rüşvət verməklə həmin şəxsin halal haqqını əlindən almaq sayılır. Haqq onun tərəfində olduğu halda onun əleyhinə, tərəf müqabili isə nahaq olmasına baxmayaraq, onun lehinə hökm oxunur.

Qurani-Kərimdə "Bəqərə" surəsinin 188-ci ayəsində rüşvət barədə Allah-təala belə buyurur:

وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقًا مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ

-Mallarınızı öz aranızda haqsız yerə yeməyin və camaatın mallarının bir qismini günah və haqsız yolla yemək üçün (əməlinizin haram olmasını) bilə-bilə onu (rüşvət kimi) qazılara (hakimlərə) tərəf yönəltməyin.

Əşəs ibn Qeysin məhkəməlik bir işi var idi. İstəyirdi ki, bu məhkəmədə onun xeyrinə qərar çıxarılsın. Həmin məhkəmənin hakimi isə Həzrət Əli(ə) idi. Əşəs məhkəmə işini həll etmək üçün axşamçağı yekə bir qabı halva ilə doldurub Həzrət Əliyə(ə) apardı. Həzrət Əli(ə) bu məsələni "Nəhcül-bəlağə"nin 215-ci xütbəsində vurğulamışdır. Həmin xütbədə Həzrət Əli(ə) bir neçə xatirə danışdıqdan sonra Əşəs barədə belə buyurur:

وَأَعْجَبُ مِنْ ذلِكَ طَارِقٌ طَرَقَنَا بِمَلْفوفَة فِي وِعَائِهَا، وَمَعْجُونَة شَنِئْتُهَا، كَأَنَّمَا عُجِنَتْ بِرِيقِ حَيَّة أَوْ قَيْئِهَا، فَقُلْتُ: أَصِلَةٌ، أَمْ زَكَاةٌ، أَمْ صَدَقَةٌ؟ فَذلِكَ مُحَرَّمٌ عَلَيْنَا أَهْلَ الْبَيْتِ. فَقَالَ: لاَ ذَا وَلاَ ذَاكَ، وَلكِنَّهَا هَدِيَّةٌ، فَقُلْتُ: هَبِلَتْكَ الْهَبُولُ. أَعَنْ دِينِ اللهِ أَتَيْتَنِي لِتَخْدَعَنِي؟ أَمُخْتَبِطٌ أَنْتَ أَمْ ذُوجِنَّة، أَمْ تَهْجُرُ؟ وَاللهِ لَوْ أُعْطِيتُ الأَقَالِيمَ السَّبْعَةَ بِمَا تَحْتَ أَفْلاَكِهَا، عَلَى أَنْ أَعْصِيَ اللهَ فِي نَمْلَة أَسْلُبُهَا جِلْبَ شَعِيرَة مَا فَعَلْتُهُ، وَإِنَّ دُنْيَاكُمْ عِنْدِي لاَهْوَنُ مِنْ وَرَقَة فِي فَمِ جَرَادَة تَقْضَمُهَا، مَا لِعَلِيّ وَلِنَعِيم يَفْنَى، وَلَذَّة لاَ تَبْقَى. نَعُوذُ بِاللهِ مِنْ سُبَاتِ الْعَقْلِ، وَقُبْحِ الزَّلَلِ، وَبِهِ نَسْتَعِينُ.

-Daha təəccüblüsü bir şəxsin[1] axşam ağzıbağlı qabdakı hədiyyə ilə və nifrət edib barəsində bədbin olduğum, sanki ilanın tüpürcəyi və ya qusmağı ilə qatışdırılmış halva ilə yanımıza gəlməsidir. Ona dedim: “Bu, hədiyyədir, zəkatdır, yoxsa sədəqə? Zəkat ilə sədəqə biz əhli-beytə haramdır.” Dedi: “Sədəqə və zəkat deyil, hədiyyədir.” *(Bu hədiyyəni gətirməkdə məqsədi batil olduğu və əslində onun hədiyyə adlandırdığı şey rüşvət olduğu üçün)* dedim: “Anan matəmində ağlasın. Məni Allahın dininin yolu ilə gəlib aldadırsan? *(Məni bu yolla aldatmaq istədiyini)* dərk edib anlamırsan, yoxsa dəlisən və yaxud boş-boş danışırsan? Allaha and olsun, əgər yeddi iqlimi onların

---

*[1] Münafiq, ikiüzlü və İmam əleyhissalamın düşmənlərindən olan və Həzrətin(ə) də düşmən bildiyi Əşəs ibn Qeys nəzərdə tutulur.*

göylərinin altında olan bütün şeylərlə birlikdə mənə versələr ki, bir qarışqanın ağzından arpanın qabığını çıxarmaqla Allaha itaətsizlik edim, etmərəm. Həqiqətən, sizin dünyanız mənim yanımda çəyirtgənin ağzında çeynədiyi yarpaqdan da ucuz və dəyərsizdir. Əlinin əldən çıxan nemət və qalmayacaq ləzzətlə nə işi? Ağlın yuxuya getməsindən *(və onun dünyanın fitnə-fəsadlarını başa düşməkdən xəbərsiz qalmasından)* və sürüşmənin (və azğınlığın) çirkinliyindən Allaha pənah aparıram və (bütün hallarda) ancaq Ondan kömək diləyirəm.”[1]

Ayətullah Mərəşi Nəcəfinin yaşadığı zaman bir nəfər polis işçisi başına gələn əhvalatı danışaraq belə deyir: “Mən Qum şəhərində Xanım Məsumənin(s.ə) ziyarətgahının kənarında - yolda nəzarətçi işləyirdim. O zamanlar İsfahan maşınları gəlib ziyarətgahın kənarında dayanırdı. Bəzi yerlərdə maşın saxlamağa icazə verilmirdi. Mən həmin icazə verilməyən yerlərdə maşın sahiblərindən rüşvət olaraq pul alır və onları həmin yerə buraxırdım. Gecələrin birində boynuma qüsl düşmüşdü. Öz-özümə fikirləşdim ki, sübh azanında hamam açılan kimi gedib qüsl alaram. Elə həmin vaxt bir maşın gəldi. Mən onu yerbəyer etdikdən sonra sürücü mənə beş qran pul verdi. Pulu cibimə qoyub fikirləşdim ki, onu hamamçıya verərəm.

Ayətullah Mərəşi Nəcəfinin evi də həmin ziyarətgahın yanında idi. O, hər gün sübh namazından əvvəl ziyarətgaha gəlib ibadətlə məşğul olurdu. Sübh azanına yaxın Ayətullah Nəcəfinin tindən çıxıb ziyarətgaha sarı gəldiyini gördüm. Mən yolun o biri

---

[1] Nəhcül-bəlağə, 215-ci xütbədən.

tayında idim. Həmişə yolun bir kənarı ilə gəlib ziyarətgaha daxil olardı. Bu dəfə isə gördüm ki, yolu keçib mənə sarı gəlir. Hiss etdim ki, mənə yaxınlaşır. Mən də hörmət əlaməti olaraq ona sarı gedərək salamlaşdım. O, salamımın cavabını aldıqdan sonra cibindən bir tümən çıxarıb mənə verdi və buyurdu: "Qazandığın pulla yox, bu pulla qüsl alarsan."

Mən başa düşdüm ki, Ayətullah Nəcəfi mənim boynumda qüsl olmasından və gecə maşın sahiblərindən pul almağımdan da belə xəbərdardır."

**Fırıldaqçılıq**

Fırıldaqçılıqla iş görmək də camaatın haqqına girməkdir və eyni zamanda haram işlərdən biri hesab olunur. Yəni insanın satdığı mala bəzək-düzək vurması, malın eybini gizlətməsi, pis malı yaxşı mala qarışdırıb satması, yaxud yaxşı malı üstə qoyaraq pis malı onun altında gizlətməsi kimi işlər camaatın haqqını boynuna yükləməsidir.

Günlərin birində Həzrət Peyğəmbər(s) xurmaların yaxşısını üstə, xarablarını isə alta yığan bir xurma satanla rastlaşdı. Həzrət (s) üzünü həmin şəxsə tutaraq buyurdu:

أَما عَلِمتَ أَنَّهُ لَيسَ مِنَ الْمُسلِمِينَ مَن غَشَّهُم

-Məgər bilmirsənmi ki, camaatı belə yollarla aldadan şəxs müsəlman deyil.

Fırıldaqçılıq elə əməllərdəndir ki, camaatın haqqının insanın boynunda qalmasına səbəb olur. Təkcə xurma və yaxud digər ərzaq malları deyil, hər hansı bir əşyanı satarkən fırıldaq işlətmək bu cür dəyərləndirilir. Məsələn, əzilmiş maşını düzəltdirərək üstünə rəng vurmaqla onun nöqsan və eyiblərini başqalarından gizlətməyə çalışmaq da

fırıldaqçılıqdır. Hər hansı bir malı satarkən onun bütün nöqsan və eyiblərindən müştəri agah olmalıdır. Yaxud təhsil almadan və məktəbə getmədən özünə müvafiq sənədi düzəltdirmək də bir növ hoqqabazlıq və fırıldaqçılıqdır. Həmçinin hər hansı bir malı öz ölkəsində düzəldib üzərinə xarici emblem vuraraq xarici mal adına satmaq da fırıldaqçılıqdır. Bütün bunlar haram hesab olunur və insan bu kimi malları satmaqla camaatın haqqını öz boynuna yükləmiş olur.

Yaxud qanuni yolla deyil, dolayı yollarla evinə elektrik, qaz və su xətlərini çəkib istifadə etmək də bu qəbildəndir. Əsl həqiqətdə qaz, su, elektrik enerjisi bütün millətin malıdır və qanuni xidmətlər tərəfindən insanlara paylaşdırılır. Hər bir kəs bu işi görmüş olsa, deməli, ölkəsində yaşadığı bütün insanların haqqına girmiş sayılır. Belə olduğu halda qanunsuz və oğurluq yolla əldə etdiyi su ilə aldığı dəstəmaz və qüsl də batildir. Hər bir kəs bilməlidir ki, kim camaatın haqqına girsə, qiyamət günü sirat körpüsündə mütləq həmin haqqı ondan alıb sahibinə qaytaracaqlar. Əgər qaytara bilməsə, onun namazlarından, oruclarından və digər xeyir əməllərindən götürüb həmin şəxsə verəcəklər. Belə olduqda isə həmin adam orada müflis olacaq.

Hədislərdə belə nəql olunur ki, bir gün Həzrət Peyğəmbər(s) səhabələrdən soruşdu: “Bilirsinizmi mənim ümmətimin içərisində müflis kimdir?”

Səhabələr dedilər: “Müflis o kəsdir ki, pulu və malı olmasın.”

Həzrət Peyğəmbər(s) buyurdu: “Müflis o kəsdir ki, (qiyamət günü) namaz, oruc və zəkatla məhşərə gəlsin, amma dünyada camaatın haqqını ödəmədiyi üçün onun yaxşı əməllərindən götürüb tələbkarlara versinlər və

bununla da onun heç bir yaxşı əməli qalmadığı üçün onu cəhənnəmə atsınlar.”

Onu da qeyd etmək lazımdır ki, qiyamət günü camaatın haqqının ödənilməsi üçün məbləğ də təyin olunmuşdur. Yəni məsələn, bir nəfərin digərinə borcu olarsa, hər bir dirhəm və manata görə onun namazından nə qədər götürüləcəyi hədislərdə müəyyən edilmişdir. Həmin hədislərdən biri belədir: “Bir dirhəmə (təxminən bir manata) görə borcludan altı yüz rükət namaz alınıb tələbkara veriləcək.”

Hədislərdə həmçinin nəql olunur ki, haqqun-nasda böyük və ya kiçik məsələsi də yoxdur. Yəni həmin haqq istər böyük olsun, istərsə kiçik, yaxud mal yiyəsi istər kişi olsun, istərsə qadın, kiçik yaşlı olsun, yaxud böyük, müsəlman olsun, yaxud kafir, həmçinin mal yiyəsi dövlət olsun, yaxud millət, hər bir halda bütün bunlar haqqun-nas hesab edilir.

Hər kimin boynunda camaatın haqqı varsa, mütləq onu sahibinə qaytarmalıdır. Əgər mal sahibini tanıyırsa, mütləq aparıb onun özünə verməlidir. Əgər mal sahibi dünyadan köçübsə, onun varislərinə qaytarmalıdır. Əgər mal sahibi dünyadan köçübsə, yaxud həmin adamı tanımırsa, “rəddi-məzləmə” etməlidir, yəni göstərilən haqqı boynundan qaldırmalıdır. Belə ki, həmin malı təqlid etdiyi müctəhidə, yaxud müctəhidin vəkilinə və ya onun icazəsi ilə mal yiyəsinin adından yoxsula sədəqə verməlidir. Belə olduqda Allah-təala həmin şəxsi bağışlayar və qiyamət günü onun namaz, oruc və digər yaxşı əməllərindən götürüb haqqına girdiyi şəxsə verməzlər. Allah-təala həmin şəxsi Öz fəzl və mərhəməti ilə razı salar və o, öz haqqını borclu bəndəyə bağışlayar. Həmçinin əgər bir insanın boynunda beytülmal (dövlətin

malı) varsa, aparıb onu dövlətin xəzinəsinə qaytarmalıdır. Bunu da yəqinləşdirməlidir ki, qaytardığı mal həqiqətən də dövlətin xəzinəsinə köçürülmüşdür.

**Sələmçilik**

Sələmçiliklə məşğul olmaq da bir növ camaatın haqqına girməkdir. Sələmçilik çox böyük günahlardandır ki, bu barədə nəql olunan hədislər həmin əməlin nə qədər mənfur olduğuna dəlalət edir.

Həzrət Peyğəmbər(s) buyurur: "Sələmçiliklə əldə olunan bir dirhəm pul otuz altı dəfə zina əməlindən pisdir. Möminin abrını aparmaq isə bundan daha pisdir."[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, sələmçiliklə pul əldə etmək Allah yanında nə qədər mənfur bir əməldir.

**Möminin abrını aparmaq**

Mömin insanın abrı da haqqun-nas sayılır. Yuxarıda qeyd olunan hədisin sonunda Həzrət Peyğəmbər(s) də möminin abrını aparmağın sələmçilikdən daha pis olduğunu bəyan edir. Əgər bir mömin hansısa bir günah əməli, yaxud hansısa pis bir işi görmüşsə, başqa birisi də onun bu əməlini gördükdə onu ifşa edərək abrını aparmağa ixtiyarı yoxdur. Həmçinin bir nəfər möminin ardınca danışaraq onun abrını aparırsa, bunu eşidən hər bir kəs o mömini müdafiə etməli və buna mane olmalıdırlar.

Deməli, sirat körpüsündən keçməyə maneə törədən amillərdən biri ümumilikdə fəsad və günah işlərlə məşğul olmaq, ikincisi isə camaatın haqqına müdaxilə etməkdir.

---

[1] Gəncineyi-məarif, 2-ci cild, səh. 258.

Camaatın haqqı da, qeyd olunduğu kimi, iki növdür. Biri insanların malı, digəri isə onların abrıdır.

Musa ibn Umeyr deyir: "Atam deyir ki, aşura günündən bir gün qabaq İmam Hüseyn(ə) mənə buyurdu: "Bizimlə gələnlərin hamısına de ki, kimin boynunda haqqun-nas varsa, mənimlə gəlməsin. Qayıdıb getsin və camaatın haqqını qaytarsın. Çünki hər kəs camaatın haqqını qaytarmadan (qaytarmaq qəsdi olmadan) ölsə, yeri cəhənnəmdir."

Mən də bu məlumatı hamıya çatdırdım və bir neçə nəfər İmamın(ə) dəstəsindən ayrılıb getdi.

İmam Hüseyn(ə) bilirdi ki, kim bu döyüşdə şəhid olsa, onunla birgə cənnətə gedəcək. Bilirdi ki, cənnətin qapılarını boynunda haqqun-nas olan insanların üzünə açmayacaqlar. Belə bir insan İmam Hüseynlə(ə) birgə cənnətin qapısına çatdıqda İmamı(ə) içəri buraxacaqlar, amma onu yox. Bu da İmama(ə) çox ağır gələcəkdi ki, onunla birgə gələni cənnətə buraxmadılar. Məsələn, fərz edək ki, səni bir yerə qonaq çağırırlar. Sən isə başqa bir nəfəri də özünlə aparırsan. Səni həmin qonaqlığa buraxıb yanında gələnə isə "içəri keçməyə icazə yoxdur" – desələr, təbiidir ki, bu, sənə çox pis təsir edər? Çünki bu, həm də sənə qarşı bir hörmətsizlikdir, sənin özünü geri qaytarmaq kimi bir şeydir. İmam Hüseyn(ə) bilirdi ki, camaatın haqqını ödəməyən insanı cənnətə buraxmayacaqlar. Buna görə də öncədən elan etdi ki, kimin boynunda haqqun-nas varsa, geri qayıtsın.

Həzrət Peyğəmbər(s) ömrünün axır vaxtlarında məscidə daxil olub buyurdu: "Camaat, mən kimə nəsə söz vermişəmsə desin, mən də onu yerinə yetirim. Hər kəsin məndən bir tələbi varsa, qoy bu dünyada tələb etsin. Çünki dünyadakı qisas axirətdəkindən asandır." Gənc bir oğlan

ayağa qalxıb dedi: “Ya Rəsulallah, söz vermişdin ki, evlənərkən mənə pul verəcəksən.”

Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, pul gətirsinlər. Pulu gətirdikdən sonra Həzrət(s) onu həmin gəncə verdi. Sonra Həzrət Peyğəmbər(s) buyurdu: “Kimin mənim boynumda haqqı var?”

Bu vaxt Səvadə ibn Qeys qalxıb dedi: “Ya Rəsulallah, Taif döyüşündən qayıdarkən dəvəyə vurduğun qamçı mənə dəydi. Mən səndən onun qisasını almaq istəyirəm.” Məsciddə əyləşənlər mat-məəttəl qaldılar. Həzrət Peyğəmbər(s) qamçını dəvəyə vuran zaman Səvadənin qarnına dəymişdi. Odur ki, həmin qamçını gətirmək üçün bir nəfəri evinə göndərdi. Qamçını gətirəndə Həzrət Peyğəmbər(s) onu Səvadəyə verib buyurdu: “Götür qamçını və məndən öz qisasını al.” Sonra isə Peyğəmbər(s) köynəyini yuxarı çəkib buyurdu: “Vur.” Səvadə Həzrət Peyğəmbərə(s) yaxınlaşıb onu qucaqladı və sinəsindən öpərək dedi: “Ya Rəsulallah, mən öz haqqımdan keçdim, sən də Allahdan mənim bağışlanmağımı dilə.” Həzrət Peyğəmbər(s) Allaha dua etdi ki, qiyamət günü Səvadəyə nicat versin.

**3. Həzrət Əlinin(ə) imamət və vilayətini qəbul etməmək**

İnsanın sirat körpüsündən keçməsinə mane olan amillərdən üçüncüsü isə Həzrət Əlinin(ə) vilayət və imamlığını qəbul etməməkdir. Hər kim Həzrətin(ə) vilayətini qəbul etməsə, sirat körpüsündən keçməsi mümkün olmayacaq. Çünki Həzrət Əlinin(ə) vilayəti sirat körpüsündən cənnətə keçmək üçün icazənamədir.

Allah-təala "Saffat" surəsinin 24-cü ayəsində buyurur: "Qiyamət günü insanlar sirat körpüsündən keçərkən bir nida eşidiləcək:

وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُون

-Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar.

Hakim Həskani deyir: "Həzrət Peyğəmbərdən(s) bu ayənin mənasını soruşduqda Həzrət(s) belə buyurdu: "Qiyamət günü mən və Əli(ə) sirat körpüsünün üstündə dayanacağıq. Hamıdan Əlinin(ə) vilayəti barədə sorğu-sual edəcəyik. Hər kimdə onun vilayəti olmasa, cəhənnəmə düşəcək."[1]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ وَنُصِبَ الصِّرَاطُ عَلَى جَهَنَّمَ لَمْ يَجُزْ عَلَيْهِ إِلاَّ مَنْ مَعَهُ جَوازٌ فِيهِ وِلاَيَةِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ. وَذلِكَ قَوْلُ اللهِ تَعَالى: «وَقِفُوهُمْ إِنَّهُمْ مَسْؤُولُونَ»، يَعنِي عَن وِلايةِ عَلِيّ بنِ أَبِي طَالِب

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü cəhənnəmin üzərində sirat körpüsü qurulduqda Əli ibn

[1] Şəvahidut-tənzil, 2-ci cild, səh.107.

Əbu Talibin vilayətini təsdiqləyən şəhadətnaməsi olan kəslərdən başqa heç bir kəsə oradan keçməyə icazə verilməyəcək. Bu, Allah-təalanın buyurduğudur: "Onları yubadıb saxlayın! Çünki (onlar) sorğu-sual olunacaqlar." Yəni onlardan Əli ibn Əbu Talibin vilayəti barədə soruşulacaq."[1]

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) xitab edərək belə buyurur:

وَأَنتَ أَوَّلُ مَن يَجُوزُ الصِّراطَ مَعِي، وَ إِنَّ رَبِي عَزَّ وَجَلّ أَقسَمَ بِعِزَّتِهِ أَنَّهُ لا يَجُوزُ عَقَبَةَ الصِّراط إِلّا مَن مَعهُ بَرائَةٌ بِولايتِكَ وَ وِلايَةِ الأَئِمَّةِ مِن وُلدِكَ

-Ya Əli, mənimlə birgə sirat körpüsündən keçən ilk şəxs sən olacaqsan. Həqiqətən mənim Rəbbim Öz izzətinə and içmişdir ki, sənin və övladlarından olan imamların vilayətini (imamlığını) təsdiq edən şəhadətnaməsi olmayan bir şəxs siratdan keçə bilməyəcək.[2]

Deməli, sirat körpüsündən keçməyə mane olan üç əsas səbəb vardır. Biri insanın səlahiyyət və ləyaqətinin olmaması, ikincisi boynunda camaatın haqqının qalması, üçüncüsü isə Həzrət Əlinin(ə) vilayətini qəbul etməməkdir. Hər kəsdə bu üç səbəb olsa, həmin şəxsin sirat körpüsündən keçməsi də mümkün olmayacaq.

## Sirat körpüsündən keçməyi asanlaşdıran amillər

---

[1] Dəh qərinə, səh.115.
[2] Yenə orada, səh.126.

Yuxarıda insanın sirat körpüsündən keçməsinə mane olan amillərlə tanış olduq. Lakin bir sıra amillər də vardır ki, insana həmin körpüdən keçməyi asanlaşdırır. Nümunə üçün həmin amillərdən bir neçəsini diqqətinizə çatdırıram:

**Namaz**

Namaz insanın sirat körpüsündən keçməsini asanlaşdıran amillərdən biridir. Ümumiyyətlə, namaz İslam aləmində çox böyük əhəmiyyətə malik olan bir əməldir. Namaz İslam dininin üzü və görünən tərəfidir. Namaz İslamın bayrağıdır. Namaz dinin sütunudur. Namaz insanın insanlığının mənasıdır. Namaz insanın nemətlər qarşısında təşəkkürüdür. Bir sözlə desək, namaz insanın ədəbidir. Namazı olmayan müsəlman qeyri-müsəlman kimi bir şeydir. Namaz qılmamaq İslamın ayə və hədislərindən xəbərsiz olmaq deməkdir. Namaz hər bir məsələdə və yerdə böyük əhəmiyyət kəsb edir. Əxlaq, irfan, mərifət və insaniyyət prizmasından baxdıqda namaz birinci yerdə qərar tutur. Həmçinin insanın ölüm halında, qəbirdə, qiyamət gününün sorğu-sualında, tərəzidə və siratda namaz birinci yerdə dayanır. Qısaca desək, hara getməsindən asılı olmayaraq, müsəlman olan kəsin iman və əqidəsindən sonra onun əməllərindən ilk olaraq namaz barədə soruşulacaq. Buna görə də sirat körpüsündə insan əqidə ilə bağlı məsələlərdən sonra əməllərdən birinci namaz barədə sorğu-sual olunacaq.

قَالَ رَسُولُ اللهِ(ص): فَإِذا كَانَ يَومُ القِيامَة كَانَت الصَّلاة... جَوازًا عَلَى الصِّراط وَ مِفتَاحًا لِلجَنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günündə namaz sirat körpüsündən keçmək üçün icazənamə və cənnətin açarıdır."[1]

Ötən bəhslərdə qeyd etdik ki, sirat körpüsünün üzərində müxtəlif dayanacaqlar vardır və orada hər bir kəsi

[1] Dəh qərinə, səh.135.

saxlayıb sorğu-sual edəcəklər. Həmin dayanacaqlardan birincisi namazla bağlı sorğu-sual məntəqəsidir. Əgər insan bu məntəqədən keçə bilməsə, onu tutub saxlayacaqlar. Həmçinin namaz cənnətin açarı olduğundan namazı olmayan bir kəs cənnətə daxil ola bilməyəcək. Açar dedikdə, yəni cənnətə daxil olmaq üçün icazənamə başa düşülür.

Həm gündəlik vacib namazlar siratdan keçmək üçün icazənamədir, həm də bəzi müstəhəb namazlar vardır ki, insanın bu körpüdən keçməsini daha da asanlaşdırır. Hədislərə əsasən, həmin müstəhəb namazlardan biri rəcəb ayının birinci gecəsinin namazıdır. Yəni cəmadiüs-sani ayının axırıncı günü axşam rəcəb ayının axşamı sayılır. Həmin gecə üçün məğrib namazından sonra 20 rükətli müstəhəb namaz müəyyən olunmuşdur. Bu namaz sübh namazı kimi iki rükət şəklində qılınır. Hər rükətdə "Həmd" və surədən sonra bir dəfə "İxlas" surəsi oxunur. Hədislərdə belə nəql olunur ki, hər bir kəs rəcəb ayının ilk gecəsi bu namazı qılmağa adət etsə, həmin namaz onun sirat körpüsündən asanlıqla keçməsinə imkan yaradar.

Həmçinin şəban ayının 29-cu gecəsi üçün də 10 rükətli namaz yazılmışdır. Bu namaz məğrib və işa namazlarından sonra sübh namazı kimi iki rükət şəklində (5 dəfə iki rükətli namaz) qılınır. Bu namazda hər rükətdə "Həmd" ("Fatihə") surəsindən sonra 10 dəfə "Təkasur", 10 dəfə "Nas" və "Fələq", habelə 10 dəfə "Tövhid" ("İxlas") surəsi oxunmalıdır.

Qeyd olunan hər iki namazın xüsusiyyəti bundan ibarətdir ki, insanın hesab-kitabının asanlaşmasına və sirat körpüsündən ildırım sürətilə keçməsinə imkan verir.[1]

---

[1] Dəh qərinə, səh.135.

**Oruc**

İnsanın sirat körpüsündən keçməsini asanlaşdıran amillərdən ikincisi orucdur. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, mübarək ramazan ayının orucu həm vacib orucdur, həm də onun özünəməxsus xüsusiyyəti və fəzilətləri vardır. Həmin xüsusiyyətlərdən biri budur ki, cəhənnəm odunun qarşısında bir qalxan kimi insanı qoruyar və sirat körpüsündən keçmək icazəsini verər. Bu barədə xeyli hədis də söyləmək mümkündür və nümunə olaraq bir hədisi diqqətinizə çatdırıram.

Həzrət Peyğəmbər(s) buyurur: "Əgər ramazan ayının otuz gününü mükəmməl şəkildə oruc tuta bilsəniz,

كَتَبَ اللّهُ عَزّوَجَلّ لَكُم بَرَاءَةً مِنَ النَّارِ وَ جَوَازاً عَلَى الصِّرَاطِ

Allah-təala sizə oddan qurtuluş və sirat körpüsündən keçid vərəqəsi (icazəsi) yazacaq."[1]

Qeyd olunan fəzilət və xüsusiyyət ramazan ayının orucunun xüsusiyyətidir. Amma bəzi müstəhəb oruclar vardır ki, onlar da özünəməxsus xüsusiyyət və təsirlərə malikdir. Nümunə olaraq həmin oruclardan bir neçəsinə diqqət yetirək.

Rəcəb ayı o qədər mühüm və fəzilətli aydır ki, Allah-təala Adəm Peyğəmbəri(ə) yaratdıqdan sonra onun üçün sonuncu Peyğəmbərin(s) fəzilətlərini sadalayarkən buyurmuşdur: "O Peyğəmbərin(s) fəzilətlərindən biri də budur ki, ona rəcəb ayının 15-ci gününü əta etmişəm."

Rəcəb ayının hər bir gününün orucunun özünəməxsus fəziləti vardır. Bəhsimizə uyğun olaraq

---

[1] Yenə orada, səh.137.

hədislərdə belə nəql edilir ki, rəcəb ayının axırıncı iki gününü oruc tutmaq insanın sirat körpüsündən keçməsinə səbəb olar.

İmam Sadiq(ə) buyurur: “Kim rəcəb ayının axırıncı iki gününü oruc tutsa, sirat körpüsündən keçmə icazəsi əldə edər.” [1]

Həmçinin rəcəb ayında 6 gün oruc tutmaq da insanın sirat körpüsündən keçməsinə imkan yaradar. Bu barədə nəql olunan hədisin əvvəlindən bilinir ki, burada söhbət rəcəb ayının birinci günündən altıncı gününə qədər tutulan orucdan gedir. Hədis belədir:

-Kim rəcəb ayında oruc tutsa, qiyamət günü hesab-kitabsız sirat körpüsündən keçib gedəcək.[2]

Həmçinin rəcəb ayında 17 gün oruc tutmağın da bir sıra xüsusiyyətləri vardır. Bununla bağlı hədisdən belə çıxır ki, 1-ci gündən 17-ci günə qədər oruc tutulmalıdır.

Həzrət Peyğəmbər(s) buyurur: “Kim rəcəb ayında 17 gün oruc tutsa, qiyamət günü onun üçün sirat körpüsündə yetmiş min çıraq qoyular ki, oradan keçib gedə bilsin. Mələklər həmin şəxsə salam ərz edib cənnətə yola salarlar.”[3]

Yuxarıda qeyd olundu ki, Allah-təala sirat körpüsündə kafirlərin və imanı olmayan insanların gözlərini kor edər. Belə olduqda onlar yolu görmədikləri üçün cəhənnəmə düşərlər. Əksinə olaraq iman və əqidəsi düz olan insan rəcəb ayında 17 gün oruc tutarsa, Allah-

---

[1] Dəh qərinə, səh.137.
[2] Yenə orada.
[3] Yenə orada.

təala onun üçün körpüdə yetmiş min çıraq qərar verər ki, yolu rahatlıqla keçib getsin.

**Gözəl əxlaq**

Gözəl əxlaq da o amillərdəndir ki, insanın sirat körpüsündən keçməsinə səbəb olur. Əgər insan öz əxlaqını gözəlləşdirsə, həmişə xoşrəftar və gözəl əxlaqlı olsa, belə bir əxlaq insanın sirat körpüsündən rahatlıqla keçib getməsinə imkan verər.

Həzrət Peyğəmbər(s) şəban ayının axırıncı cümə günündə ramazan ayı barədə bir xütbə oxudu. Həmin xütbənin bir cümləsi belədir:

أَيُّهَا النَّاسُ مَنْ حَسَّنَ مِنْكُمْ فِي هَذَا الشَّهْرِ خُلُقَهُ كَانَ لَهُ جَوَازاً عَلَى الصِّرَاطِ يَوْمَ تَزِلُّ فِيهِ الْأَقْدَامُ

-Camaat, bu ayda əxlaqını gözəlləşdirən şəxs ayaqların əsəcəyi (qiyamət) gündə sirat körpüsündən asanlıqla ötüb keçər.[1]

**Allaha qarşı xoşniyyətli olmaq**

Allaha qarşı xoşniyyətli olmaq insanın sirat körpüsündən rahatlıqla keçib getməsinə səbəb olar. Allaha qarşı xoşniyyətli olmaq, yəni Ona ümid bəsləməkdir. İnsan Allah-təalanın Quranda bizə verdiyi vədlərə inanmalıdır. Məsələn, Allah-təala bəndələrinin ruzisini Öz öhdəsinə götürmüşdür. Hər bir kəsin ruzisini də Özü yetirir. Amma bəzən insan çətinliklərə düşərkən Allaha qarşı bədgüman olur. Allaha ümid bəsləmək, Ona inanaraq bel bağlamaq isə xoşniyyətlilikdir. Belə bir xüsusiyyət qiyamət günü insanın sirat körpüsündən keçməsini asanlaşdıracaq.

[1] Dəh qərinə, səh.138.

Bir gün Xorasandan bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlir. Bir az söhbət etdikdən sonra o, İmama (ə) belə deyir: “Ey Allahın höccəti, sənin cəddin İmam Hüseyn(ə) qiyam etdi. Bəs sən niyə evdə sakit əyləşmisən? Sənin bizim kimi tərəfdarların olduğu halda, niyə hərəkət edib zalımlardan məzlumların haqqını almırsan?”

İmam Sadiq(ə) bilirdi ki, onun dediyi bu sözlərin arxasında heç bir məsuliyyət və ciddiyyət yoxdur, həm də içdən deyilən sözlər deyil. Ona görə də söhbəti dəyişib ondan Xorasandakı vəziyyətdən və müsəlmanların yaşayışı barədə soruşdu. Həmin xorasanlı şəxs dedi: “Şükür olsun Allaha, Xorasanın vəziyyəti yaxşıdır və səni istəyənlərin hamısı salam göndəriblər.”

Bir az söhbət etdikdən sonra xorasanlı yenə də dedi: “Ey Peyğəmbərin (s) nəvəsi, sənin bizim kimi şiələrin olduğu halda niyə evdə əyləşib qiyam etmirsən?” İmam Sadiq(ə) ona baxdı və buyurdu: “Sən mənim Allahın höccəti olduğumu qəbul edirsənmi?” Xorasanlı dedi: “Əlbəttə ki, qəbul edirəm.” İmam(ə) buyurdu: “Sən məni imam kimi qəbul edirsənmi?” Xorasanlı dedi: “Əlbəttə ki, qəbul edirəm.” İmam Sadiq(ə) yanan təndiri ona göstərib buyurdu: “Elə isə mən sənə əmr edirəm ki, gedib o təndirin içinə girəsən.” Xorasanlı dedi: “Ey Peyğəmbərin(s) nəvəsi, mən pis bir söz demədim ki, sizin acığınıza gəlsin. Məni niyə təndirə atıb yandırırsınız?” Elə bu vaxt İmam Sadiqin(ə) yaxın dostlarından biri olan Harun içəri daxil oldu. İmam(ə) Haruna buyurdu: “Harun, get o təndirin içinə gir.” Harun bir kəlmə də danışmayıb, düz gedib təndirin içinə girdi. İmam(ə) isə həmin xorasanlı ilə söhbətini davam etdirməyə başladı. Xorasanlı söhbət əsnasında tez-tez təndirə baxaraq fikirləşirdi ki, görəsən Harunun aqibəti necə olacaqdır. Söhbət qurtardıqdan sonra İmam(ə) Harunu səslədi.

Harun təndirdən çıxıb İmamın(ə) hüzuruna gəldi. Lakin təndirin qızmar odu onu yandırmamışdı. Harun təndirə necə girmişdisə, eləcə də sağ-salamat çıxıb İmamın(ə) qarşısında dayandı. İmam(ə) çöldə otlayan qoyunları xorasanlıya göstərib buyurdu: "Xorasanlı, o çöldə otlayan qoyunları görürsənmi?" Xorasanlı dedi: "Bəli." İmam(ə) buyurdu: "Orada neçə qoyun var?" Xorasanlı dedi: "On yeddi və ya on səkkiz qoyun olar." İmam(ə) buyurdu: "Xorasanlı, əgər mənim həmin qoyunların sayı qədər Harun kimi tərəfdarlarım olsaydı, evdə əyləşməzdim."

Odur ki, "Allaha qurban olum", "Qurana və Peyğəmbərə(s) inanıram" və s. kimi ifadələri dilə gətirməklə iş düzəlmir. İnsan gərək səmimi qəlblə, sidq ürəklə Allaha iman gətirsin, Ona həmişə ümid bəsləsin və Ona qarşı xoşniyyətli olsun.

Şeyx Səduq Abdullah ibn Səmərədən belə bir hədis nəql etmişdir. Abdullah ibn Səmərə deyir: "Günlərin birində Həzrət Peyğəmbərin(s) hüzurunda əyləşmişdik. Həzrət Peyğəmbər(s) bizim üçün meracda (yaxud yuxuda) gördüklərindən danışırdı. Həzrət(s) buyurdu: "Ümmətimdən olan bir kişini gördüm ki, sirat körpüsündə dizləri güclü küləkdən ağacların budaqları titrədiyi kimi titrəyirdi. Cəhənnəmə düşməyinə az qalırdı ki, elə bu vaxt dünyada Allaha qarşı xoşniyyətli olması ona nicat verdi və körpüdən rahatlıqla keçib getdi."[1]

## Əmanətdarlıq və qohum-əqrəbaya baş çəkmək

Sirat körpüsündən keçməyi insana asanlaşdıran amillərdən ikisi bir hədisdə nəql olunmuşdur. Onlardan biri

[1] Dəh qərinə, səh.140.

əmanətdarlıq, digəri isə qohum-əqrəbaya baş çəkməkdir. İnsanda olan bu iki xüsusiyyət sirat körpüsünün hər iki tərəfində bir növ məhəccər rolunu oynayaraq sahibini oradan cəhənnəmə düşməyə qoymayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): حَافَتَا الصِّراطِ يومَ القِيامَة الأَمانَةُ وَالرَّحِم

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü sirat körpüsünün hər iki tərəfinin məhəccəri əmanətdarlıq və sileyi-rəhmdir."[1]

Bu kimi xüsusiyyətlər mömin insanlara xas olan keyfiyyətdir. Mömin insan həmişə qohum-əqrəba ilə sıx əlaqə saxlayar və əmanətdar olar. Allah-təala "Möminun" surəsinin 1-8-ci ayələrində belə buyurur:

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ. الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ. وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ... وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Həqiqətən iman gətirənlər nicat tapdılar. O kəslər ki, namazlarında (həm ürəkləri, həm də bədənləri ilə) itaətkardırlar. Və o kəslər ki, bütün pis və çirkin (iş)lərdən üz döndərirlər… Və o kəslər ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və əhd-peymanlarına riayət edirlər.

قَالَ رَسُولُ اللهِ(ص): لا تَنْظروا إلى كَثرةِ صَلاتِهِم و صَومِهِم، و كَثرةِ الحَجِّ، و المعروفِ، وَ طَنطَنَتِهِم باللّيلِ! و لكنِ انْظُروا إلى صِدقِ الحديثِ و أداءِ الأمانةِ .

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanların çoxlu namaz qılıb oruc tutmalarına, Həccə çox getmələrinə, çox səxavətli

---

[1] Dəh qərinə, səh.139.

olmalarına, gecələr çox ağlamalarına fikir verməyin, onların doğru danışmasına və əmanətdar olmalarına fikir verin."[1]

Əmanətdarlıq insanda çox mühüm bir məsələdir. Hətta kafirin də tapşırdığı əmanətə xəyanət etmək olmaz. İslam dinində əmanətə heç bir vəchlə xəyanət etməyə icazə yoxdur.

قَالَ البَاقِرُ(ع): ثلاثٌ لم يَجعلِ اللهُ عزّ و جلّ لأحدٍ فيهنّ رُخْصةً: أداءُ الأمانةِ إِلَى البرّ و الفاجرِ، و الوفاءُ بالعَهدِ للبَرّ و الفاجرِ، و بِرُّ الوالِدَينِ بَرَّينِ كانا أو فاجِرَينِ .

-İmam Məhəmməd Baqir(ə) buyurur: "Üç məsələ var ki, Allah-təala heç kimə onların icrası zamanı insanlar arasında fərq qoymağa icazə verməmişdir: əmanəti (sahibinin yaxşı və ya pis insan olmasından asılı olmayaraq) sahibinə qaytarmaq, (qarşı tərəfin yaxşı və ya pis insan olmasından asılı olmayaraq) əhdə sadiq qalmaq və (yaxşı, yaxud pis olmasından asılı olmayaraq) ata-anaya yaxşılıq etmək."[2]

قَالَ عَلِيٌّ(ع): أُقسِمُ لَسَمِعتُ رسولَ اللهِ صلى الله عليه و آله يقولُ لي قبلَ وفاتِه بساعةٍ ، مِرارا ثَلاثا : يا أبا الحسنِ ، أدِّ الأمانةَ إِلَى البَرِّ و الفاجرِ فيما قَلَّ و جَلَّ ، حتّى فِي الخَيطِ و المِخْيَطِ .

-İmam Əli(ə) buyurmuşdur: "Allaha and olsun ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) vəfatından bir saat qabaq mənə üç dəfə belə buyurdu: "Ey Əbülhəsən, əmanət az da olsa, çox da olsa, sahibi yaxşı insan da olsa, pis insan da

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1490.
[2] Mizanül-hikmə, 1-ci cild, hədis - 1489.

olsa, sahibinə qaytar. Hətta həmin əmanət iynə-sap olsa da belə."[1]

Deməli, dünyada əmanətdar olan və qohum-əqrəbaya baş çəkən insan üçün qiyamət günü sirat körpüsünün hər iki tərəfinə məhəccər vurular ki, oradan yıxılmasın.

[1] Yenə orada, hədis - 1498.

## Namazda “cəhr” və “ixfat”a dəqiq riayət etmək

Qiyamət günü insana sirat körpüsündən keçməyi asanlaşdıran amillərdən biri də namazlarda “cəhr” və “ixfat”a riayət etməkdir. Namazlarda “cəhr” və “ixfat”, yəni “Həmd” və surənin ucadan, yaxud asta səslə oxunmasıdır. Gündəlik 17 rükət vacib namazların 10 rükətində “Həmd” və surə oxunmalıdır. Qalan yeddi rükətində isə ya 3 dəfə təsbihati-ərbəə, yaxud 1 dəfə “Fatihə” surəsi oxunur. Bu 7 rükətdə insan hər hansını oxusa, ixtiyar sahibidir. Bəzi müctəhidlər təsbihati-ərbəəni 3 dəfə oxumağın vacib olduğunu, bəzi müctəhidlər isə 1 dəfə oxumağın yetərli olduğunu qeyd etmişlər. Hər bir təqlidçinin də təqlid etdiyi müctəhidin fitvasına əməl etməsi vacibdir.

Gündəlik 17 rükət namazlarda 10 dəfə “Həmd” və surəni oxumaq vacibdir. Ümumiyyətlə, cənazə namazından başqa elə bir namaz yoxdur ki, onda “Həmd” surəsi oxunmasın. Deməli, gündəlik 17 rükət vacib namazların 10 rükətində 1 dəfə “Həmd” surəsi, 1 dəfə (səcdəsi vacib olan surələrdən başqa) digər surələrdən birinin axıradək oxunması vacibdir. Gündəlik namazlarda oxunan “Həmd” və surənin dördü günorta (zöhr və əsr) namazlarında, ikisi sübh namazında, dördü isə məğrib və işa namazlarında oxunur. “Həmd” və surəni sübh, məğrib və işa namazlarında uca səslə, zöhr və əsr namazlarında isə asta səslə oxumaq vacibdir. Burada sual oluna bilər ki, uca və ya asta səslə oxumaqda meyar kənardakı insanların eşidib-eşitməməsidirmi? Xeyr, burada meyar kiminsə eşidib-eşitməməsi deyildir. Əsas meyar odur ki, uca səslə oxuyarkən səsin tonu bilinsin, asta səslə oxuduqda isə bilinməsin.

Əgər bir nəfər sübh, məğrib və işa namazlarının qəzasını günorta qılmış olsa, gərək həmin namazların hökmünə riayət edib "Həmd" və surəni uca səslə oxusun. Gündəlik vacib namazlardan başqa, bütün müstəhəb namazların uca və ya asta səslə qılınması insanın öz ixtiyarındadır. Amma cümə günü başqa günlərdən fərqli olduğu üçün zöhr namazında "Həmd" və surəni uca səslə oxumaq müstəhəbdir. Asta səslə də qılmaq olar, amma uca səslə oxumaq müstəhəbdir. Lakin bu məsələ əsr namazına aid deyil.

Beləliklə, hər kim "Həmd" və surənin uca səslə oxunması lazım olan namazlarda bilərəkdən onun bir sözünü və ya bircə hərfini belə asta səslə oxusa, namazı batildir. Həmçinin asta səslə oxunması lazım olan yerlərdə bilərəkdən uca səslə oxusa, yenə də namazı batildir. Əgər unutqanlıq üzündən "Həmd" və surənin uca səslə oxunması lazım olan yerlərdə onu asta səslə oxusa, yenə də namazı düzdür. Eləcə də surənin hər hansı bir hissəsində yadına düşsə ki, uca səslə oxumaq lazımdır, gərək ya qaldığı yerdən uca səslə davam etsin, yaxud qayıdıb surəni əvvəldən uca səslə oxusun. Həmçinin asta səslə oxunması lazım olan namazlarda da eynilə belədir.

"Cəhr" və "ixfat" barədə bu qədər kifayət edər. Hər kim daha geniş məlumat əldə etmək istəyirsə, təqlid etdiyi müctəhidin risaləsinə müraciət edə bilər. Əsas bəhsimiz isə təbii olaraq gündəlik vacib namazlarda Allahın buyurduğu bu qaydaya mükəmməl şəkildə riayət edilməsidir. Qeyd etdiyimiz kimi, sözügedən qaydaya əməl olunması insanın sirat körpüsündən asanlıqla keçməsinə imkan verər. Bu barədə olan bir hədisi diqqətinizə çatdırıram.

İmam Həsən(ə) buyurur: "Bir qrup yəhudi İslam Peyğəmbərinin(s) hüzuruna gəlib müxtəlif suallar verdilər.

Həmin suallardan biri də belə idi: "Nə üçün siz sübh, məğrib və işa namazlarında "Həmd" və surəni ucadan oxuyursunuz?"

Həzrət Peyğəmbər(s) buyurdu: "Bu üç namazı uca səslə oxumaq cəhənnəm atəşinin namaz qılandan uzaq düşməsinə səbəb olar. Allah-təala həmin şəxsi şad halda sirat körpüsündən keçirər və cənnətə daxil edər."[1]

**Ramazan ayının iyirmi üçüncü gecəsini əhya saxlamaq**

Sirat körpüsündə insanın işini asanlaşdıran amillərdən biri isə mübarək ramazan ayının iyirmi üçüncü gecəsini əhya saxlamaqdır (oyaq qalmaqdır). Ümumiyyətlə, Qədr gecəsi ayə və hədislərə əsasən ramazan ayının 19, 21, 23-cü gecələrinə təsadüf edir. Lakin bu üç gecənin hansının Qədr gecəsi olduğu dəqiq məlum deyil. Yenə də hədislərə əsasən ən çox ehtimal verilən isə 23-cü gecədir. Yəni 23-cü gecə barəsində hədis və rəvayətlər o biri gecələrə nisbətən çoxdur. Əsas bəhsimiz sirat körpüsü barədə olduğundan hədislərdə belə nəql edilmişdir ki, ramazan ayının 23-cü (ayın 22-dən 23-nə keçən) gecəsini əhya saxlamaq (yəni həmin gecə oyaq qalmaq) sirat körpüsündə insanın dərdinə dəyəcək. Hədis isə belədir: "İmam Baqir(ə) ramazan ayının 23-cü gecəsində əhya saxlamağın fəzilətləri barədə danışarkən buyurmuşdur:

يُكتَب لَهُ بَرَاءَةٌ مِنَ النَّارِ وَ جَوَازٌ عَلَى الصِّرَاطِ

-Kim o gecə (ramazan ayının 23-cü) oyaq qalıb əhya saxlayarsa (ibadətlə məşğul olarsa), həmin şəxs üçün

[1] Dəh qərinə, səh.139.

oddan qurtuluş və sirat körpüsündən keçid vərəqəsi (icazəsi) yazılar.”[1]

**Salavat**

Zikrlərin içərisində Həzrət Peyğəmbərə(s) və Onun Əhli-beytinə(ə) salavat göndərməyin özünəməxsus xüsusiyyətlərindən biri budur ki, insana sirat körpüsünü keçməyi asanlaşdırar. Bu barədə olan hədis belədir:

قَالَ رَسُولُ اللهِ(ص): أَكثِرُوا الصَّلاةَ عَلَيَّ، فَإِنَّ الصَلاةَ عَلَيّ نُورٌ فِي القَبرِ وَنُورٌ عَلَى الصِّراط

-Həzrət Peyğəmbər(s) buyurur: “Mənə çox salavat göndərin. Çünki mənə salavat göndərmək qəbirdə və siratda (salavat göndərən üçün) bir nurdur.”[2]

Əbdürrəhman ibn Səmurə deyir: “Günlərin birində Həzrət Peyğəmbər(s) yuxuda (yaxud meracda) gördüklərini bizə söyləyirdi: Ümmətimdən bir kişini gördüm ki, sirat körpüsünün üzərində bəzən iməkləyə-iməkləyə, bəzən də sürünə-sürünə gedirdi ki, cəhənnəmə yıxılmasın. Elə bu zaman dünyada mənim üçün göndərdiyi salavatlar onun yanına gəldi. O, sakitləşib ayağa qalxdı və sirat körpüsünü rahatlıqla keçib getdi.”[3]

Salavat sirat körpüsünün çırağıdır. Hər kəs dünyada Həzrət Peyğəmbərə(s) və Əhli-beytə(ə) nə qədər çox salavat göndərsə, sirat körpüsündə bir o qədər çox dərdinə dəyəcək.

---

[1] Yenə orada, səh.138.
[2] Dəh qərinə, səh.141.
[3] Yenə orada.

**Xəstəyə qulluq etmək**

Sirat körpüsündən keçməyi insana asanlaşdıran amillərdən biri də xəstəyə qulluq etməkdir.

Həzrət Peyğəmbər(s) buyurur: "Kim bir gecə-gündüz bir xəstəyə qulluq etsə, Allah-təala qiyamət günü həmin şəxsi Həzrət İbrahim Peyğəmbərlə(ə) məşhur edər və ona sirat körpüsündən ildırım sürətilə keçməsinə icazə verər."[1]

Allah-təala bəndələrinə qarşı çox mehribandır. İnsan öz övladına qarşı necə mehribandırsa, Allah-təala ondan daha artıq öz bəndələri ilə mehribandır. Ata-ana özlərinin ac qalmasına razı olar, amma övladının ac qalmasına razı olmaz. Ata-ana özünün ağrımasına razı olar, amma övladının bir yerinin ağrımasına razı olmaz. Çünki o uşağın dünyaya gəlməsində az da olsa onların da rolu vardır. Halbuki insanı Allah-təala Öz qüdrətilə yaratmışdır və necə ola bilər ki, Öz yaratdığına qarşı mehriban olmasın? Allah bəndələrini çox sevir, lakin bəndələr Ondan uzaq gəzir və bunu anlamırlar. Bəndə hətta kafir də olsa Allah ona qarşı yenə də öz mehribançılığını əsla əsirgəmir.

Odur ki, əgər bəndələr də bir-birinə qarşı mehriban olsalar, bir-birinin qayğısına qalsalar, qiyamət günü bu mehribançılıq və diqqət onların dərdinə dəyər. Xüsusilə Allah bəndəsi xəstələnib yorğan-döşəyə düşsə, zəlil vəziyyətdə qalsa, Allahın razılığı üçün ona qulluq etmək və ona baş çəkməyin xüsusi bir əhəmiyyəti vardır. Bu əməl qiyamət günündə insanın dərdinə çox yarayacaq. Xəstəyə baş çəkmək İslamda çox təkid olunmuşdur. Bu barədə Həzrət

[1] Dəh qərinə, səh.141.

Peyğəmbər(s) və imamlardan çoxlu hədis və rəvayətlər nəql olunmuşdur. Onlardan bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ اللهَ عَزَّ و جلَّ يقولُ يَومَ القِيامَةِ : يا بنَ آدمَ، مَرِضتُ فلَم تَعُدْنِي ! قالَ: يا ربِّ، كيفَ أعودُكَ و أنتَ رَبُّ العالَمينَ ؟! قالَ: أ ما عَلِمتَ أنّ عَبدِيَ فُلانا مَرِضَ فلَم تَعُدْهُ ؟ ! أ ما عَلِمتَ أنّكَ لَو عُدتَهُ لَوَجَدتَني عِندَهُ ؟

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala qiyamət günü buyuracaq: Ey Adəm övladları! Mən xəstələnərkən Mənə baş çəkmədiniz. Hamı (təəccüblə) deyəcək: Pərvərdigara, Sən bütün aləmlərin Rəbbisən. (Sən necə xəstələnə bilərsən?) Biz Sənə necə baş çəkə bilərdik? Allah-təala buyurar: Məgər bilmirdiniz ki, filan bəndəm xəstələnmişdi və siz də ona baş çəkmədiniz? Məgər bilmirdiniz ki, ona baş çəkdikdə Məni də orada ziyarət edəcəkdiniz?”[1]

قَالَ الصَّادِقُ(ع): مَن عادَ مَريضا شَيَّعَهُ سَبعونَ ألفَ ملَكٍ يَستَغفِرونَ لَهُ حتّى يَرجِعَ إلى مَنزِلِهِ .

-İmam Sadiq(ə) buyurur: “Kim xəstəyə baş çəkməyə gedərsə, evinə qayıdana kimi yemiş min mələk onu müşayiət edər və Allahdan onun günahlarının bağışlanmasını diləyərlər.”[2]

### İmam Rzanın(ə) qəbrini ziyarət etmək

Sirat körpüsündən keçməyi asanlaşdıran amillərdən biri Həzrət İmam Rzanın(ə) qəbrini ziyarət etməkdir. Ümumiyyətlə, Həzrətin(ə) ziyarəti təkcə sirat körpüsündə deyil, bir neçə yerdə insanın dərdinə dəyəcəkdir.

---

[1] Mizanül-hikmə, 11-ci cild, hədis - 18805.

[2] Yenə orada, hədis - 18804.

İmam Rza(ə) özü bu barədə belə buyurmuşdur: “Hər kim məni mərifətlə (və qürbətən iləllah niyyətilə) ziyarət etsə, üç yerdə fəryadına çataram: 1) Sirat körpüsündə; 2) Tərəzinin kənarında; 3) Əməl dəftəri təqdim olunarkən.” [1]

**Mükəmməl dəstəmaz və yaxşı məsh etmək**

Mükəmməl və dəqiq dəstəmaz almağın xüsusiyyətlərindən biri budur ki, insanın sirat körpüsündən keçməsini asanlaşdırar. Dəstəmaz nurdur və hətta dəstəmazlı adam üstündən bir də dəstəmaz alsa, nur üstə nur gələr.

Həzrət Peyğəmbər(s) bir qrup yəhudinin dəstəmaz barədə verdiyi sualla əlaqədar olaraq belə buyurmuşdur:

وَإِذا مَسَحَ قَدَمَيهِ أَجَازَهُ اللهُ عَلَى الصِّراط يَومَ تَزِلُّ فِيهِ الأَقدام

-Kim (dəstəmaz alarkən) ayaqlarının üzərinə məsh çəksə, ayaqların titrəyəcəyi gün Allah-təala həmin şəxsə sirat körpüsündən keçməyə icazə verəcək.[2]

Bir gün Həzrət Peyğəmbər(s) yaxın səhabələrindən olan Ənəsə buyurdu:

أَسْبِغِ الْوُضُوءَ تَمُرُّ عَلَى الصِّرَاطِ مَرَّالسَّحاب

-Dəstəmazı gözəl və mükəmməl şəkildə al ki, sirat körpüsünü buludlartək rahat və aramla keçə biləsən.[3]

Odur ki, insan dəstəmaz alarkən diqqətli olmalı və bu məsələyə xüsusi fikir verməlidir. Hətta suyun israf olunmasına da imkan verilməməlidir. Yəni suyun boş-boşuna axıb getməsinə yol verməк olmaz. Bu qaydalara

---

[1] Dəh qərinə, səh.136.
[2] Dəh qərinə, səh.142.
[3] Yenə orada, səh.143.

əməl etdikdə qiyamət günü sirat körpüsündən rahatlıqla keçmək şansı əldə edilmiş olar.

**Ehtiyacı olanın problemini rəhbər şəxslərə söyləmək**

Bu məsələ bütün zamanlarda mövcud olmuşdur və bizim gündəlik həyatımızda da belədir. Məsələn, fərz edək ki, bir nəfərin şəxsi problemi vardır və həmin məsələni işlədiyi təşkilatın rəhbər şəxslərinə söyləməkdə çətinlik çəkir. Əgər həmin idarədə çalışan bir nəfər onun ehtiyacını və ya hər hansı bir sözünü rəhbərliyə çatdıraraq mövcud problemin həllinə nail olursa, bu əməl insanın sirat körpüsündən rahatlıqla keçməsinə imkan verər.

Həzrət Peyğəmbərdən(s) belə nəql olunur ki, Həzrət(s) bu məsələ ilə əlaqədar olaraq buyurardı: “Ehtiyacı olub sözünü mənə deyə bilməyən adamın sözünü mənə çatdırın.” Sonra yenə də buyurardı:

مَنْ أَبْلَغَ سُلْطَانًا حَاجَةَ مَنْ لا يَسْتَطِيعُ إِبْلاغَهَا إِيَّاهُ ثَبَّتَ اللَّهُ قَدَمَيْهِ يَوْمَ الْقِيَامَةِ

-Kim sözünü sultana (rəisinə və ya müdirinə) deyə bilməyən adama kömək edib onun sözünü, ehtiyacını, yaxud dərdini (onun adından rəisə) çatdırsa, onun işlərini müsbət mənada həll etsə, Allah-təala qiyamət günü sirat körpüsündə həmin adamın ayaqlarını sabitqədəm edər.”[1]

Bu hədisin mənası belədir ki, insanlar gündəlik həyatlarında bir-birinə yardım əli uzatmalı, bir-birinə arxa, kömək, dayaq olmalı, hətta sözünü və ya dərdini kimlərəsə söyləyə bilməyənin dərdini belə onun adından lazımi

[1] Dəh qərinə, səh.142.

ünvanlara və ya rəhbər şəxslərə çatdıraraq həmin məsələnin müsbət həllinə nail olmağa çalışmalıdırlar.

**Allahın nazil etdiyi kitabı oxumaq**

İnsanın qiyamət günü sirat körpüsündən rahatlıqla keçməsinə səbəb olan amillərdən biri də budur ki, insan Allahın onun üçün nazil etdiyi kitabdan xəbərsiz qalmasın, həmişə onunla ünsiyyətdə olsun və oxusun. Onu da qeyd etmək lazımdır ki, bu məsələ təkcə Qurani-Kərimə və müsəlmanlara aid deyil. Bu hətta İslamdan öncə nazil olmuş müqəddəs kitablara və həmin kitablara inancı olan ümmətlərə də şamil edilir. Yəni hər bir ümmət Allah-təala tərəfindən nazil olunmuş müqəddəs kitabı oxusaydı, qeyd edilən həmin xüsusiyyət ona da şamil olardı. İslam Peyğəmbəri(s) peyğəmbərliyə məbus olduqdan sonra isə bütün insanlar onun ümməti sayılır və Qurani-Kərim isə onun ümməti üçün nazil olmuşdur.

İmam Baqir(ə) buyurur: "Həzrət Musa(ə) Allahla minacat edərkən soruşdu: İlahi, əgər bir insan Hikməti (Tövratı, yaxud peyğəmbərinə nazil olan kitabı) aşkarda və ya gizlində oxusa, onun mükafatı nədir? Allah-təala buyurdu: Ey Musa, həmin şəxs sirat körpüsünü ildırım kimi keçəcək."[1]

Odur ki, hər kəs öz peyğəmbərinə nazil olan kitabla munis olsa, həmişə açıb onu oxusa, demək olar ki, özü üçün hər şeyi həll etmişdir. Qurani-Kərim Allah tərəfindən İslam Peyğəmbərinə(s) və onun ümmətinə nazil olan müqəddəs bir kitabdır. Əgər bir müsəlman bu kitabla ünsiyyət yaratmırsa, onu oxumaq istəmirsə, qəbirdə və

---

[1] Dəh qərinə, səh.143.

qiyamət günündə “Nə üçün Quranı oxumadın?” - sualına nə cavab verəcəkdir? Müsəlman bir şəxs dünyadan köçdükdə onu torpağa tapşırarkən qəbirdə ona təlqin oxunur. Yəqin ki, bu təlqini çox insan eşitmişdir. Həmin təlqinin bir hissəsi belədir:

اِذا اَتاكَ الْمَلَكانِ الْمُقَرَّبانِ رَسُولَيْنِ مِنْ عِنْدِاللّهِ تَبارَكَ وَ تعالى وَ سَئَلاكَ عَنْ رَبِّكَ وَ عَنْ نَبِيِّكَ وَ عَنْ دينِكَ وَ عَنْ كِتابِكَ وَ عَنْ قِبْلَتِكَ وَ عَنْ اَئِمَّتِكَ فَلا تَخَفْ وَ قُلْ فى جَوابِهِما اَللّهُ جَلَّ جَلالُهُ رَبّى وَ مُحَمَّدٌ صَلَّى اللّهُ عَلَيْهِ وَ آلِهِ نَبِيّى وَالاِْسْلامُ دينى وَ الْقُرْآنُ كِتابى وَالْكَعْبَةُ قِبْلَتى وَاَميرُالْمُؤْمِنينَ عَلِىٌّ بْنُ اَبيطالِبٍ اِمامي...

-Allahın iki mələyi gəlib səndən dinin, peyğəmbərin, kitabın, qiblən və imamların barəsində soruşduqda qorxma. Onların cavabında belə de: “Allah mənim Rəbbim və tərbiyə edənimdir. Məhəmməd(s) mənim peyğəmbərim, İslam dinim, Quran kitabımdır…”

Əgər bir insan bu dünyada Quran kitabını oxumayıbsa, onun ayələri ilə maraqlanmayıbsa, “Quran mənim kitabımdır” deyərkən orada ondan “Dünyada heç Quran kitabını oxumusanmı?” - sualı verildikdə nə cavab verəcək? Bu dünyada altmış-yetmiş il ömür sürdüyü müddətdə bircə dəfə belə Qurani-Kərimi açıb oxumayan bir adam qəbirdə necə deyə bilər ki, Quran mənim kitabımdır? Bunu o kəslər deyə bilər ki, özündən asılı olmayan səbəblərdən, yəni məcburiyyət qarşısında qalaraq Qurandan uzaq düşmüşdür. Bunu o kəs deyə bilər ki, Quran kitabını oxumaq, öyrənmək istəyirmiş, amma üzürlü səbəblərə görə bunu edə bilməyib. Lakin müasir dövrdə elə bir insan yoxdur ki, Quran kitabına əli

çatmasın. Yəni həm kitab şəklində hamının evində var, həm də onun elektron variantları hazırda hər bir kəs üçün əlçatandır. Dünyanın hər bir yerində həmçinin Quranı tədris edən müəllimlər də vardır. Hər bir halda əgər bir insan həqiqətən də üzürlü səbəblərə görə Quran oxumağı öyrənə bilməyibsə, hətta qəbirdə də belə onu öyrədəcəklər. Çünki Quran oxumağı bilməyən bir insanı cənnətə buraxmazlar.

قَالَ الصَّادِقُ(ع): مَن ماتَ مِن أولِيائنا و شيعَتِنا و لم يُحسِنِ القرآنَ عُلِّمَ فِي قَبرِهِ لِيَرفَعَ اللّهُ فيهِ دَرَجَتَهُ، فإنَّ دَرَجاتِ الجَنَّةِ على قَدرِ عَدَدِ آياتِ القرآنِ فيقالُ لقارِئ القرآنِ: اِقرَأْ وَارْقَ

-İmam Sadiq(ə) buyurur: “Bizim dostlarımız və tərəfdarlarımızdan kimsə (səhlənkarlıq ucbatından deyil, üzürlü səbəblərə görə) Quranı öyrənməsə, ona qəbirdə də belə öyrədərlər ki, Allah onun dərəcəsini ucaltsın. Çünki cənnətin dərəcələri Quran ayələrinin sayı qədərdir. Həmin şəxs Quranı öyrəndikdən sonra ona deyilər: Oxu və (yüksək dərəcələrə) ucal.”[1]

**Halal iş və halal qazanc**

İnsana sirat körpüsündən keçməyi asanlaşdıran amillərdən biri halal iş və halal qazancdır. Öz əlinin zəhmətilə halal qazanc əldə etmək insanın sirat körpüsündən asanlıqla ötüb keçməsinə imkan yaradar.

قَالَ رَسُولُ اللهِ(ص): مَن أكَلَ مِن كَدِّ يدِهِ، مَرَّ عَلَى الصِّراطِ كالبَرقِ الخاطِفِ

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 10460.

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim öz əlinin zəhmətilə (halal) qazanıb yeyərsə, sirat körpüsündən parlaq ildırım kimi keçər.”

Səhərdən axşama qədər gününü səcdə və rüku ilə keçirən bir insan əgər başqasının zəhmətilə qazanılmış ruzini yeyərsə, həmin şəxsin məqamı əlinin zəhmətilə çörək qazananın məqamından uca ola bilməz. Bu barədə çox hədislərə rast gəlmək mümkündür.

Hədislərdə qeyd olunur ki, Həzrət İsa(ə) bir neçə nəfərlə birgə səfərə çıxmışdı. Səfərdə namaz vaxtı hamı İsa Peyğəmbərlə(ə) camaat namazı qılır. Namazdan sonra ac olduqlarını hiss edirlər. Həzrət İsa(ə) Allaha dua edir və cənnətdən onlar üçün yemək gəlir. İsa Peyğəmbərin(ə) yoldaşlarından ikisi arasında mübahisə düşür. Biri belə deyir ki, yer üzündə bizdən şərafətli insan yoxdur. Çünki biz Allahın Peyğəmbəri(ə) ilə bir yerdə səfərə çıxmışıq, onunla camaat namazı qılırıq və həm də Allah bizim üçün cənnətdən yemək göndərib. Digəri isə belə söyləyir ki, yox, belə demə. Elə insanlar ola bilər ki, onlar bizdən daha şərafətlidirlər. Beləcə, onların arasında mübahisə düşür. Axırda deyirlər ki, gəl gedək Allahın Peyğəmbərindən(ə) soruşaq. Qoy bizə desin ki, hansımız düz deyirik. Gəlib məsələni olduğu kimi İsa Peyğəmbərə(ə) danışırlar. Həzrət İsa(ə) onların cavabında buyurur: “Səhər yuxudan durub namazını qılan, halal çörək yeyib halal ruzi qazanmaq üçün evindən çıxan və bu yolla da öz ailəsini dolandıran şəxsin şərafəti sizin şərafətinizdən daha çoxdur. Əsas odur ki, halal ruzi qazanmış olsun.”

## İmam Həsəni(ə) ziyarət etmək

İnsanın sirat körpüsündən keçməsini asanlaşdıran amillərdən biri Bəqi qəbiristanlığında İmam Həsənin(ə) qəbrini ziyarət etməkdir.

Həzrət Peyğəmbər(s) buyurur: "İmam Həsənin(ə) ziyarətinə getmək üçün atılan hər bir addım sirat körpüsündə möhkəm olar."[1]

**Saleh əməl və Əhli-beytə(ə) məhəbbət bəsləmək**

Sirat körpüsündən insanın asanlıqla keçməsinə səbəb olan ən əsas və mühüm amillərdən biri isə saleh əməl və Əhli-beytə(ə) məhəbbət bəslənilməsidir. Saleh əməl dedikdə sirat körpüsünü keçmək üçün ümumi səlahiyyət nəzərdə tutulur. Əgər insan fasiq olub özünü günaha aludə etsə, yəni səlahiyyət əldə etməsə, siratdan keçmək üçün digər amillərin ona heç bir faydası olmayacaq. Gərək insanda təqva olsun ki, həmin səlahiyyəti də əldə edə bilsin. Qurani-Kərimin "Maidə" surəsinin 27-ci ayəsində belə oxuyuruq:

إِنَّمَا يَتَقَبَّلُ اللّهُ مِنَ الْمُتَّقِينَ

-Həqiqətən Allah yalnız təqvalılardan qəbul edir.

Bu ayədən açıq-aydın başa düşülür ki, insanın ən yaxşı ibadətləri, duaları, zikr və ziyarətlərinin hamısı Allah dərgahında onun təqvasına görə qəbul olunur. Əgər bir insanın təqvası olmasa, nə qədər yaxşı işlər görsə də, onlar qəbul edilməyəcək. Təqva və saleh əməl insanda ümumi şərait və səlahiyyət yaradır ki, sirat körpüsündən keçə bilsin.

Bütün bunlara baxmayaraq, əgər sirat körpüsündən keçmək üçün icazənamə olmasa, insan nə qədər səlahiyyətli olsa da, oradan keçə bilməyəcək. Sual oluna bilər ki, bəs

---

[1] Dəh qərinə, səh.134.

sirat körpüsündən keçmək üçün icazənamə nə deməkdir? Buna cavab olaraq Həzrət Peyğəmbərin(s) müxtəlif ibarələrlə buyurduğu hədislərdə irəli sürülən belə bir fikri qeyd etmək olar: “Həzrət Əlinin(ə) məhəbbət və vilayəti sirat körpüsündən keçmək üçün icazənamədir.” Odur ki, hər kim Həzrət Əlinin(ə) imamət və vilayətini qəbul etməsə, axirətə nə qədər namaz, oruc və yaxşı əməllər aparsa da, onu siratdan keçməyə qoymayacaqlar. Məsələn, fərz edək ki, bir nəfər xarici ölkəyə səfər etmək istəyir. Özü ilə hədiyyə olaraq qızıl-gümüş və başqa qiymətli əşyalar götürür. Həmin ölkənin sərhədinə çatana qədər ona hər cür ehtiram və diqqət yetirilir. Lakin həmin xarici ölkəyə keçmək üçün ondan pasport və viza tələb edirlər. Əgər onun həmin ölkəyə daxil olmaq icazəsi olmasa, nə onun özünü buraxarlar, nə də özü ilə gətirdiyi qiymətli əşyaları. Odur ki, cənnətə daxil olmağın da icazənaməsi vardır və bu məhz Həzrət Əlinin(ə) imamət və vilayətidir.

İmam Baqir(ə) buyurur: “Bir gün Allahın Rəsulu(s) Həzrət Əliyə(ə) belə buyurdu: “Ya Əli(ə), indidən görürəm ki, qiyamət günü sən cəhənnəmin və sirat körpüsünün kənarında dayanıb nəzarət edirsən. Bir qrup insana baxıb belə deyərsən: Keçin körpüdən.”

Həzrət Əli(ə) soruşdu: “Ya Rəsulallah, o insanlar kimlərdir?”

Həzrət Peyğəmbər(s) buyurdu: “Onlar sənin şiələrindir və sən harada olsan, onlar da səninlə birgə olacaqlar.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): لِكُلِّ شَيءٍ جَوازٌ وَجَوازُ الصِّراط حُبُّ عَلِيِّ بنِ أَبِي طَالِب

[1] Dəh qərinə, səh.140.

Həzrət Peyğəmbər(s) başqa bir hədisdə buyurur: "Hər bir şeyin icazənaməsi var. Siratın icazənaməsi isə Əli ibn Əbu Talibə məhəbbət bəsləməkdir." [1]

Haris Həmdani Həzrət Əlinin(ə) yaxın dostlarından biri idi. Münafiqlərin Həzrət Əlinin(ə) və onun dostları barədə atmaca sözlərindən və vurduqları söz yarasından təngə gəlmişdi. O deyir: "Bir gün o qədər söz eşitdim ki, narahatlığım daha da artdı. Gecə vaxtı Həzrət Əlinin(ə) evinə gəlib qapını döydüm. Həzrət Əli(ə) qapını açıb məni qarşıladı. Hal-əhval tutduqdan sonra soruşdu: "Haris, sənə nə olub? Niyə narahatsan?"

Dedim: "Ya Əmrəlmöminin, camaatın sən və dostların barədə dedi-qoduları məni narahat edir. Çox darıxırdım. Buna görə də sənin camalını ziyarət etmək istədim. Sənə olan məhəbbətim gecənin bu vaxtı məni buraya gəlməyə məcbur edib."

Həzrət Əli(ə) buyurdu: "Ey Haris, məni sevən şəxs can verərkən məni sevdiyi qiyafə və surətdə görəcək. Məni sevməyən şəxs də ölüm anında məni görəcək. Məni sevənlər ölüm anında məni gördükdə sevinib şad olacaqlar, sevməyənlər isə peşmançılıq və xəcalət çəkəcəklər.

Ey Haris, əgər dediyin sözlərdə (mənə qarşı olan məhəbbətində) sədaqətli olsan, məni üç yerdə (çətin anlarda) görəcəksən. Can verən zaman, sirat körpüsündə və Kövsər hovuzunun kənarında."

Haris Həmdani bu sözləri eşitdikdə çox sevindi. Sonra ayağa qalxıb dedi: "And olsun Allaha, daha mənim

---

[1] Yenə orada, səh.134.

ölümdən heç bir qorxum yoxdur. İstər ölüm gəlib məni haqlasın, istərsə də mən ölümü tapım."[1]

Seyid Həmidi tanınmış Əhli-beyt(ə) şairlərindən idi. O, bu məsələni qələmə alaraq belə nəzmə çəkmişdir:

يَا حَارِهَمْدَانَ مَنْ يَمُتْ يَرَنِي    مِنْ مُؤمِنٍ كانَ أَوْ مُنَافِقٍ قَبَلاَ

يَعْرِفُنِي طَرْفُهُ وَ أَعْرِفُهُ    بِعَيْنِهِ وَاسْمِهِ وَ مَا فَعَلاَ

وَ أَنْتَ عِنْدَ الصِّرَاطِ تَعْرِفُنِي    فَلاَ تَخَف عَثْرَةً وَ لاَ زَلَلاَ

أَسْقِيكَ مِنْ بَارِدٍ على ظَمَاً    تَخَالُهُ فِي الْحَلاَوَةِ الْعَسَلاَ

-Ey Haris Həmdani, mömin və münafiq öldüyü zaman məni görəcək. O, məni öz gözləri ilə görüb tanıyacaq. Mən isə onu xasiyyəti, adı və əməli ilə tanıyacağam. Sən məni sirat körpüsündə görüb tanıyacaqsan. Elə isə heç bir qorxun olmasın. (Qiyamət günü) susuz olduğun vaxt səni sərin (Kövsər) suyu ilə sirab edəcəyəm. Həmin su o qədər şirindir ki, onun bal olduğunu güman edəcəksən.

---

[1] Dəh qərinə, səh.144.

### Qiyamət günü Həmzənin şəfaət etməsi

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Qiyamət günü Həmzənin dünyadakı bir çox dostları sirat körpüsünün bir tərəfinə toplaşar. Onlarla sirat körpüsünün arasında olan divarlar dostların cənnətə getməsinə mane olar. Beləcə, onlar Həmzəni səsləyib deyərlər: “Ey Həmzə, bizə kömək elə.” Həmzə üzünü mənə və Əliyə(ə) tutub belə ərz edər: “Mənim dostlarımın fəryadına çatın.” Mən Əliyə(ə) deyərəm: “Həmzəyə cavab ver.” Əli(ə) Həmzənin dünyada düşmənlə döyüşdüyü nizəsini gətirib ona verdikdən sonra deyər: “Əmi, al bu nizəni, dünyada Allahın dostlarını düşmənin şərindən qoruduğun kimi, burada da dostlarını cəhənnəmin atəşindən qoru.” Həmzə həmin nizəni alıb siratla onun dostları arasında olan divarlara vurar. Divarlar kənara çəkildikdən sonra dostlarına deyər: “Keçin körpüdən.” Beləliklə, onlar sevincək sirat körpüsündən keçib cənnətə daxil olarlar.”[1]

Beləcə, sirat bəhsini dəstəmaz alarkən ayaqlarımıza məhs çəkərkən oxuduğumuz dua ilə sona yetiririk.

أَللّهُمَّ ثَبِّتنِي عَلَى الصِراطِ يَومَ تَزِلُّ فِيهِ الاَقْدَامُ وَاجعَل سَعيِي فِي مَايُرضِيكَ عَنِّي يَاذَاالجَلاَلِ وَالإِكرَامِ

-İlahi və Rəbbi! Qədəmlərin lərzəyə gəlib sürüşdüyü gündə məni siratda sabitqədəm et! Və səyimi Sənin məndən razı olduğun şeylərdə qərar ver, ey Cəlal və İkram sahibi!

---

[1] Dəh qərinə, səh.150.

# QİYAMƏTİN YEDDİNCİ MƏRHƏLƏSİ

## Kövsər hovuzu

Qiyamətin mərhələlərindən biri də Kövsər hovuzudur. Demək olar ki, bu kəlmə hamıya tanışdır və həm Quran ayələrində, həm də hədislərdə bu barədə kifayət qədər söz açılmışdır. Kövsər – İslam aləmində firqəsindən asılı olmayaraq şiə və əhli-sünnənin dini etiqadlarından biri sayılır. Kövsər hovuzunun əsli və kökü cənnətdədir. Lakin qiyamət səhnəsində də onun zühuru baş verəcək və möminlər həmin su hovuzunun kənarına toplaşacaqlar. Dəlil-sübutlara əsasən Kövsər suyu yalnız İslam Peyğəmbərinə(s) məxsusdur. Bu hovuz sırf Həzrət Peyğəmbərə(s) məxsus olduğundan həmin suyun başında kimin dayanacağı və kimin həmin sudan içib- içməməsi də Onun tərəfindən müəyyən ediləcəkdir. Bir sözlə, Kövsər hovuzunun külli-ixtiyarı İslam Peyğəmbərinin(s) və Onun tapşırığı ilə su hovuzunun başında dayanacaq şəxsin əlində olacaqdır. İnsanlardan kimin həmin sudan içib-içməməsini də onlar müəyyən edəcəklər.

"Kövsər" sözünün kökü Qurani-Kərimdədir və Quranın 114 surəsindən birinin adı da məhz "Kövsər" surəsidir. Allah-təala bu surədə Həzrət Peyğəmbərə(s) belə buyurur:

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ. إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

-(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl, (ona təkbir deyərək) əllərini boğazına qədər yuxarı qaldır (yaxud dəvə qurbanı kəs!). Həqiqətən, sənin düşmənin özü sonsuz və nəsli kəsilmişdir.

Bu surə elə bir surədir ki, onun adı və kəlmələri Quranın heç bir yerində təkrar olunmayıb. "Kövsər"

sözünün mənasına gəldikdə isə lüğətdə "kisrət" sözündən götürülmüş "çoxlu xeyir-bərəkət" mənasını ifadə edir. Lüğətdə hətta səxavətli və əliaçıq insanlara da "kövsər" deyilmişdir.

Bu sözün təfsirinə gəldikdə isə təfsirçilər onun barəsində müxtəlif mənalar və nümunələr qeyd etmişlər. Məsələn, nübüvvət (Peyğəmbərin(s) besəti), Quran, elm, hikmət, şəfaət, Həzrət Fatimeyi Zəhranın(s.ə) mübarək vücudu, onun pak nəsil və zürriyyətləri, Kövsər hovuzu və s. Bütün bunlar "Kövsər" sözünün bariz nümunələridir ki, hər birinin Kövsər olmasında heç bir maneə yoxdur. "Kövsər" sözü bunların hamısına şamil ola bilər.

Bu mübarək surə barədə nəql olunmuş hədislərdən biri belədir: "Kövsər" surəsi nazil olduqdan sonra Həzrət Peyğəmbər(s) minbərə çıxaraq onu camaata oxudu. Səhabələr soruşdular: "Ya Rəsulallah, Allahın sənə əta etdiyi həmin Kövsər nədir?" Həzrət Peyğəmbər(s) buyurdu: "Cənnətdə bir çeşmədir ki, suyu süddən ağ və baldan şirindir…"[1]

Bu hədisdə "Kövsər" kəlməsinin bir nümunəsinə işarə olunmuşdur ki, bu da cənnətdəki həmin qeyd olunan çeşmədir. Bir daha qeyd etmək lazımdır ki, "Kövsər" kəlməsinin mənası təkcə cənnətdəki bu çeşmə ilə məhdudlaşmır. Bizim hazırkı bəhsimiz cənnətdəki həmin Kövsər hovuzu ilə bağlı olduğundan mövzuya aid hədislərdən bir neçəsinə diqqət yetirək.

Ənəs ibn Malik deyir: "Bir gün Allahın Rəsulu(s) bizim yanımıza gəldi. Onun sevinc içində olduğunu görüb

---

[1] Təfsiri-nümunə, 16-cı cild, səh.371.

bunun səbəbini soruşduq. Həzrət Peyğəmbər(s) buyurdu: "Bu gün mənə "Kövsər" adlı bir surə nazil oldu."

Həzrət Peyğəmbər(s) həmin surəni bizim üçün oxuduqdan sonra buyurdu: "Bilirsinizmi Kövsər nədir?"

Dedik: "Onu siz daha yaxşı bilərsiniz."

Həzrət Peyğəmbər(s) buyurdu: "Kövsər bir çeşmədir ki, Allah-təala onun xeyir-bərəkətini mənə vəd etmişdir. Bu, həmin hovuzdur ki, qiyamət günü mənim ümmətim onun ətrafına toplaşacaq. Həmin hovuzun kənarında ulduzların sayı qədər cam vardır."[1]

Digər bir hədisdə isə nəql olunmuşdur ki, "Kövsər" surəsi nazil olduqda Həzrət Əli(ə) Həzrət Peyğəmbərə(s) dedi: "Ya Rəsulallah, Allahın sənə bəxş etdiyi "Kövsər" haqqında bizə də məlumat verin."

Həzrət Peyğəmbər(s) buyurdu: "Ya Əli, Kövsər bir çeşmədir ki, onun suyu süddən ağ, baldan şirindir… Onun içindəki qumlar (çınqıllar) gövhər, mərcan və yaqutdan ibarətdir. Onun torpağı müşk-əladandır. Onun (ətrafındakı) otlar zəfərandandır. Onun zahiri və batini çox gözəldir."

Həzrət Peyğəmbər(s) "Kövsər" barədə məlumat verdikdən sonra kövrəlib buyurdu: "Ya Əli, and olsun Allaha ki, o, təkcə mənim üçün deyil. O su mənim, sənin və məndən sonra səni sevənlərindir."[2]

Abuzər Ğəffari deyir: "Həzrət Peyğəmbər(s) belə buyurdu: "Qiyamət günü mən Əlinin(ə) əlindən tutacağam. Həmin vaxt onun və dostlarının simaları nurani olacaq. Mən onun dostlarına (onu sevənlərə) belə

---

[1] Dəh qərinə, səh.171.
[2] Yenə orada, səh.172.

deyəcəyəm: Dünyada mən özümdən sonra iki yadigar qoyub getdim. Biri Quran, digəri isə Əhli-beytimdir. Məndən sonra siz bu iki yadigarla necə rəftar etdiniz?"

Onlar mənim sualıma müsbət cavab verdikdə deyəcəyəm: "Elə isə Kövsər suyundan için. Onlar həmin sudan içdikdən sonra heç vaxt susamayacaqlar. O gün Əlinin(ə) çöhrəsi günəş kimi, onu sevənlərin çöhrəsi isə on dörd gecəlik ay kimi parlayacaq."[1]

"Nüdbə" duasını oxuyarkən Həzrət Peyğəmbərin(s) Həzrət Əliyə(ə) buyurduğu həmin kəlamı açıq-aydın şəkildə görmək olur.

ثُمَّ قَالَ أَنْتَ أَخِي وَ وَصِيِّي وَ وَارِثِي ، لَحْمُكَ لَحْمِي، وَ دَمُكَ دَمِي، وَ سِلْمُكَ سِلْمِي، وَ حَرْبُكَ حَرْبِي، وَ الْإِيمَانُ مُخَالِطٌ لَحْمَكَ وَ دَمَكَ كَمَا خَالَطَ لَحْمِي وَ دَمِي، وَ أَنْتَ غَداً عَلَى الْحَوْضِ خَلِيفَتِي، وَ أَنْتَ تَقْضِي دَيْنِي وَ تُنْجِزُ عِدَاتِي، وَ شِيعَتُكَ عَلَى مَنَابِرَ مِنْ نُورٍ مُبْيَضَّةً وُجُوهُهُمْ حَوْلِي فِي الْجَنَّةِ وَ هُمْ جِيرَانِي

-Sonra Həzrət(s) buyurdu: "Ya Əli, sən mənim qardaşım, canişinim və varisimsən. Ətin mənim ətimdən, qanın qanımdandır. Sənin barışıq etməyin mənim barışıq etməyim, müharibən mənim müharibəmdir. İman mənim ət-qanıma qarışdığı kimi, sənin də ət-qanına qarışıb. Qiyamət günü (kövsər) hovuzunun kənarında canişinimsən. Sən mənim borclarımı rəva qılıb vədələrimə vəfa edəcəksən. Sənin şiələrin cənnətdə, mənim dövrəmdə

[1] Dəh qərinə, səh.176.

nurdan olan minbərlər üstə, üzləri ağ olacaq. Onlar mənim qonşularımdır.” [1]

## Kövsər Həzrət Peyğəmbərə(s) məxsusdur

Qeyd olundu ki, Allah-təala Həzrət Peyğəmbərə(s) Kövsəri əta etmişdir. Həmin su yalnız Həzrət Peyğəmbərə(s) məxsusdur. Allahın Rəsulu(s) “Qədr” xütbəsində və digər kəlamlarında da bu məsələyə işarə etmişdir. Həzrət Peyğəmbər(s) “Qədr” xütbəsində camaata belə buyurdu:

...اَلا و إِنّي فَرطُكُمْ وَ اَنْتُمْ وَارِدُونَ عَلَيَّ الحَوْضِ حَوْضِي غَدًا

اَلا، وَ اِنّي سائِلُكُمْ غَداً، ماذا صَنَعْتُمْ فيما اَشْهَدْتُ اللّهَ بِهِ عَلَيْكُمْ فِي يَوْمِكُمْ هذا، اِذا وَرَدْتُمْ عَلَيَّ حَوْضِي؟ وَ ماذا صَنَعْتُمْ بِالثَّقَلَيْنِ مِنْ بَعْدِي؟

-Şübhəsiz ki, mən sizdən qabaq Kövsər hovuzuna yetişəcəyəm və siz məndən sonra sabah (Qiyamət günü) mənim hovuzumun kənarına gələcəksiniz.

Agah olun! Mən sabah qiyamət günündə hovuzumun kənarına gəldiyinizdə sizdən bu gün şahidliyini etdiyiniz şeylər haqqında necə davrandığınızı soruşacağam. Məndən sonra Səqəleynlə necə davrandığınızı soruşacağam.”[2]

Həzrət Peyğəmbərin(s) bu barədə olan digər kəlamlarına da diqqət yetirdikdə Kövsər hovuzunun Ona məxsusluğu bəlli olur.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ لَمْ يُؤْمِنْ بِحَوْضِي فَلاَ أَوْرَدَهُ اللهُ حَوْضِي

---

[1] Məfatihül-cinan (Məhəllati), səh.981.

[2] Dəh qərinə, səh.156.

-Həzrət Peyğəmbər(s) buyurur: “Kimin mənim hovuzuma imanı olmasa, Allah həmin şəxsi oraya buraxmayacaq (onun suyundan içməsinə icazə verməyəcək).”[1]

Ənəs ibn Malik deyir: “Həzrət Peyğəmbər(s) buyurdu: “Merac gecəsi göyə qalxdım. Göyün yeddinci qatına çatdıqda Cəbrayıl(ə) Kövsəri mənə göstərərək dedi: “Ey Məhəmməd(s) qarşıya bax. Bu, yalnız sənə məxsusdur. Başqa peyğəmbərlərə aid deyil.”

Gördüm ki, onun ətrafında mirvari, yaqut və gövhərdən ibarət qəsrlər ucaldılıb. Cəbrayıl(ə) mənə dedi: “Bu qəsrlər sənin, sənin vəsin Əli ibn Əbu Talibin(ə) və onun pak övladlarının məskəni olacaq.”[2]

Qeyd etmək lazımdır ki, bu barədə çox hədislər mövcuddur. Sadəcə bir neçəsini nümunə üçün təqdim etdik. Deməli, bu hədislərdən də açıq-aydın şəkildə məlum olur ki, Kövsər hovuzu İslam Peyğəmbərinə(s) məxsusdur.

### Kövsər saqisi

Beləcə, bizə bir daha məlum oldu ki, Kövsər hovuzunun suyunun sahibi İslam Peyğəmbəridir(s). Allah-təala bu hovuzu Həzrət Peyğəmbərə(s) əta etmişdir. İxtiyar Həzrətin(s) əlində olduğundan kimi istəsə, onu da Kövsər hovuzunun başında özünə canişin təyin edə bilər. Bu barədə də bir çox hədislər nəql olunmuşdur. Həmin hədislərdə bəyan olunur ki, qiyamət günü Həzrət Peyğəmbər(s) Kövsər suyunun kənarında İmam Əlini(ə) öz yerinə təyin edəcəkdir. Həmin hədislərdən biri belədir:

---

[1] Yenə orada, səh.151.
[2] Dəh qərinə, səh.153.

-Şeyx Səduq "İkmaləddin" kitabında İbn Abbasdan belə nəql edir: "Həzrət Peyğəmbər(s) buyurdu: Merac gecəsi Allahdan mənə belə bir nida gəldi: "Ya Məhəmməd, Mən Əlini sənin üçün xəlifə təyin etdim… Ya Məhəmməd, Əli sənin və elminin varisidir. O, qiyamət günü sənin ("Həmd" bayrağının) bayraqdarındır. O, sənin hovuzunun sahibidir. O, sənin ümmətinin möminlərini (Kövsər suyu ilə) sirab edəcəkdir."[1]

Digər bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət baş verən zaman bir carçı nida edib deyər: "Əli ibn Əbu Talib haradadır?" Bu zaman Əli məhşərə daxil olar. Hesab-kitabdan sonra Allah tərəfindən ona iki yaşıl cənnət paltarı geyindirilər, Tuba ağacından hazırlanmış əsa verilər. Bu halda Allah tərəfindən belə bir nida gələr:

قِف عَلَى الْحَوض فَاسقِ مَن شِئتَ وَامنَع مَن شِئتَ

-Hovuzun başında dayan. Kimə istəyirsən, o sudan içirt, kimə istəyirsən, içirtmə.[2]

Belə rəvayət olunur ki, İmam Hüseyn(ə) körpə vaxtlarında bir gün anasının qucağında yatmışdı. Həzrət Peyğəmbər(s) onu götürüb bağrına basaraq başına gələcək müsibətlərdən danışaraq ağladı. Xanım Fatimeyi Zəhra(s.ə) atasından nə üçün ağladığını soruşdu. Həzrət Peyğəmbər(s) Kərbəla hadisəsi barədə qızına azacıq danışdı. Xanım Zəhra(s.ə) ağlamağa başladı. Həzrət Peyğəmbər(s) ona buyurdu:

---

[1] Yenə orada, səh.155.
[2] Dəh qərinə, səh.160.

أَما تَرضِينَ أَن يَكُونَ بَعلُكَ يَذُودُ الْخَلقَ يَومَ العَطَشِ عَنِ الْحَوضِ، فَيُسقِي مِنهُ أَولِيائه وَيَذُودُ عَنهُ أَعدَائَه؟

-Razı deyilsənmi hamının susuz olduğu bir gündə (qiyamət günündə) sənin ərin camaatı Kövsər hovuzunun suyu ilə sirab etsin? Razı deyilsənmi o, öz dostlarını həmin su ilə sirab etsin, düşmənlərini isə (oradan) uzaqlaşdırsın?

Xanım Zəhra(s.ə) bu sözləri eşitdikdə sakitləşərək sevindi.[1]

Qeyd olunan hədislərdən açıq-aydın şəkildə görmək olur ki, Kövsər hovuzunun ixtiyarı Həzrət Peyğəmbərin(s) əlində olduğundan həmin suyun başına Əli ibn Əbu Talibi təyin edəcəkdir. Həzrət Əli(ə) də onu sevənləri Kövsər suyu ilə sirab edər və düşmənlərini isə oradan uzaqlaşdırar. Deməli, qiyamət günü dostluqda və Kövsər suyundan içməkdə meyar Həzrət Əlidir(ə). O, kimə icazə versə, içəcək, icazə verməsə, içməyəcək. Ola bilsin ki, bu məsələ kiminsə xoşuna gəlməsin və bunu qəbul etməsin. Bunu qəbul edib-etməmək onun öz işidir. Həmçinin bu məsələni danmaq da əsl həqiqətin dəyişməsinə səbəb olmayacaq. Kim inanır inansın, inanmayan da inanmasın. Kimin buna əqidəsi olmasa, Kövsər suyundan məhrum olacaqdır. Necə ki, Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Kimin mənim hovuzuma imanı olmasa, Allah həmin şəxsi oraya buraxmayacaq (onun suyundan içməsinə icazə verməyəcək).”

Həzrət Əlinin(ə) ziyarətnaməsində oxuyuruq:

---

[1] Yenə orada, səh.165.

اَلسَّلامُ عَليكَ يَا زَائِدًا عَنِ الْحَوضِ اَعدَائَنا اَلسَّلامُ عَلى ساقِيَ اَوْلِيائِهِ مِنْ حَوْضِ النَّبِيِّ الْمُختَار

-Salam olsun sənə ey düşmənlərimizi Kövsər hovuzunun kənarından uzaqlaşdıran kəs. Salam olsun dostlarını Peyğəmbərin(s) (Kövsər) hovuzunun suyu ilə sirab edənə.[1]

Hədislərə əsasən buradək hamımıza aydın oldu ki, Allah-təala Kövsər hovuzunu Həzrət Peyğəmbərin(s) ixtiyarında qoymuşdur. Həzrət Peyğəmbər(s) də həmin hovuzun başına Həzrət Əlini(ə) təyin edəcək. Əli(ə) də dostlarını onun suyu ilə sirab edəcəkdir.

Hədislərdə belə nəql olunur ki, qiyamət günü Həzrət Əlidən(ə) başqa Kövsər suyu ilə insanları sirab edəcək bir qrup insanlar da vardır. Həmin insanlar Kərbəla şəhidləridir ki, Həzrət Peyğəmbərin(s) və Həzrət Əlinin(ə) izni ilə Kövsər suyundan sevdikləri insanlara içirdəcəklər.

Bir nəfər İmam Sadiqdən(ə) İmam Hüseynin qəbrini ziyarət etməyin fəzilətləri barədə soruşaraq dedi: "Ey Peyğəmbər(s) övladı, bəs Kərbəlada haqqı müdafiə edərək şəhid olanların əcr və mükafatı nədir?"

İmam Sadiq(ə) buyurdu: "İkinci sur çalındıqda qiyamət səhnəsi bərpa olacaq. Kərbəla şəhidi qəbirdən qalxıb ilk növbədə Həzrət Peyğəmbərlə(s), sonra Əli(ə), sonra isə digər imamlarla görüşəcək. Ona müjdə verildikdən sonra belə deyiləcək: Bizimlə gəl, Kövsər

[1] Dəh qərinə, səh.164.

hovuzunun kənarında dayan. Həm özün o sudan iç, həm də sevdiyin hər bir kəsi onunla sirab et."[1]

Başda İmam Hüseyn(ə) olmaqla Kərbəla şəhidlərinin fəzilət və üstünlüyü o qədər çoxdur ki, heç bir şəhidin fəziləti onlar qədər deyil. Allah-təala Kərbəla şəhidlərinə xüsusi şərafət və fəzilət inayət etmişdir. Həmin fəzilət budur ki, onlar Kövsər hovuzunun başında dayanıb sevdikləri kəsləri sirab etmək icazəsinə malikdirlər.

*Ya Hüseyn, ləblərüvə sağəri Kövsər yaraşar,*
*Uəsilən əllərüvə pərçəmi məhşər yaraşar.*
*Demirəm qoy ayağun gözlərim üstə, ağa,*
*Ayağun altına baş qoymağa Əkbər yaraşar.*
*Nə rəvadi sinövün üstə qoya şimr ayağın,*
*O gözəl sinəyə vallah Əli Əsğər yaraşar.*
*Mən kiməm, mən naçiyəm adıma nökər deyələr,*
*Sən kimi şahə Əbəlfəz kimi nökər yaraşar.*

**Kövsər suyundan bəhrələnməyin şərtləri**

Qiyamətin mərhələlərindən biri olan Kövsər hovuzunun nə olduğu və onun kimə məxsusluğu barədə lazimi qədər bəhs etdik. Çox yaxşi olar ki, bu bəhsə dair bir neçə başqa mətləbə də toxunaq. Həmin mətləb budur ki, hər bir məqama və dərəcəyə çatmağın müqəddimə və şərti olduğu kimi, Kövsər suyundan bəhrələnməyin də müəyyən şərtləri vardir. Yəni hər kim qiyamət günü Kövsər suyundan bəhrələnmək icazəsini əldə etmək istəyirsə, dünyada mütləq onun şərtlərinə əməl etməlidir. Həmin şərtləri hədis və rəvayətlərə əsasən diqqətinizə çatdırıram.

[1] Dəh qərinə, səh.168.

**Birinci şərt: Niyyətin xalis olması**

Əbu Əyyub Ənsari deyir: “Günlərin birində Həzrət Peyğəmbərin(s) hüzurunda idim. Bir nəfər Həzrətdən Kövsərin nə olduğu barədə soruşdu. Həzrət Peyğəmbər(s) onun cavabında belə buyurdu: “Allah-təala Kövsəri bütün peyğəmbərlər arasında yalnız mənə bəxş etmişdir. Onun suyu süddən ağ, baldan şirindir. Onun məkanı, ab-havası ətirli və təravətlidir. Onun içindəki daşlar ləl-cəvahirat və yaqutdandır.”

Həzrət Peyğəmbər(s) Kövsər barədə danışdıqdan sonra buyurdu: “O sudan bəhrələnməyin şərti isə niyyətin xalis (sırf Allaha görə) olmasıdır.”

Onu da qeyd etmək lazımdır ki, niyyət hər bir əməl və hərəkətdə mühüm rol oynayır. Niyyət mütləq sırf Allaha xatir olmalıdır. Çünki qarışıq niyyət insana fayda verməz. Qarışıq niyyət dedikdə, yəni insan niyyətində Allahdan başqasını tutmamalıdır. Odur ki, niyyətin xalis olmaması, yəni niyyətdə kimisə Allaha şərik qoşmaq insanı məqsədə çatdırmaz. Məsələn, əgər bir insan xəstəyə baş çəkmək istərkən “onun oğlu ilə dostluğum var və getməsəm ayıb olar” niyyətilə getsə, deməli niyyətini qarışdırmışdır. Yaxud dünyasını dəyişmiş bir nəfərin dəfnində “mənim atamın dəfninə gəlmişdi, əgər mən getməsəm, ayıb olar” niyyətilə iştirak etsə, yenə də niyyətini qarışdırmışdır. Odur ki, insan hər hansı bir əməli edərkən həmin əməldə Allahdan başqa kimisə nəzərdə tutsa, Allah-təala o əməli qəbul etməz.

Hədislərdə belə nəql olunmuşdur ki, Allah-təala Özü belə buyurur: “Ən gözəl və yaxşı şərik Mənəm. Hər kəs ibadətdə Mənimlə başqasını şərik edərsə, Mən öz payımı həmin şəxsə (şərikimə) verərəm. Yalnız xalis niyyətlə Mənə görə edilən ibadəti qəbul edirəm.”

قَالَ الصّادِقُ(ع): لا بُدَّ للعَبدِ مِن خالِصِ النِّيَّةِ في كُلِّ حَرَكَةٍ و سُكونٍ، إذْ لَو لَمْ يَكُنْ بهذا المعنى يَكونُ غافِلاً، و الغافِلونَ قَد وَصَفَهُمُ اللهُ بقَولِهِ: «أُولئكَ كَالأَنْعامِ بَلْ هُمْ أضَلُّ سَبيلاً»

-İmam Sadiq(ə) buyurur: "Bəndəyə lazımdır ki, hər bir hərəkətində və sükutunda niyyəti xalis olsun. Əgər belə olmasa (niyyəti xalis olmasa), həmin şəxs qafildir. Qafilləri isə Allah-təala belə vəsf etmişdir: "Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər."[1]

Bu ayə nəfsi istəklərinin qulu olan insanlara aiddir ki, "Furqan" surəsinin 43-44-cü ayələrində oxuyuruq:

أَرَأَيْتَ مَنِ اتَّخَذَ إِلَهَهُ هَوَاهُ أَفَأَنتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا. أَمْ تَحْسَبُ أَنَّ أَكْثَرَهُمْ يَسْمَعُونَ أَوْ يَعْقِلُونَ إِنْ هُمْ إِلَّا كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ سَبِيلًا

-Nəfsi istəklərini öz tanrısı etmiş kəsi gördünmü? Yoxsa sən onun (doğru yola gəlməsi və ya axirət əzabından qorunması) işlərini düzəldəcəksən?! Yoxsa onların çoxunun (sənin dediklərini) eşitdiyini və ya düşündüyünü güman edirsən? (Xeyr,) Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər.

İnsanın bütün hərəkət və əməllərində niyyətin xalis olması çox mühüm bir məsələdir. Niyyəti xalis etmək isə elə də asan iş deyil. Çünki insan hərəkət və əməllərində Allahdan başqa kimisə azacıq da olsa nəzərdə tutsa, onun niyyəti xalis olmaz. Niyyəti xalis olmayan əməli isə, qeyd olunduğu kimi, Allah qəbul etməz. Lakin bir əməl kiçikliyindən asılı olmayaraq tam ixlasla sırf Allaha xatir görülərsə, Allah-təala həmin əməli qəbul edər və əvəzində

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4748.

çox böyük mükafat verər. Ötən bəhslərimizdə Həzrət Davudun(ə) Allahla minacatı barədə bu məsələyə işarə etdik.

Davud(ə) ərz etdi: "İlahi, mizanı (tərəzini) mənə göstər." Allah-təala onun istəyini qəbul edərək buyurdu: "Elə isə bax."

Davud(ə) başını qaldırıb göyə baxdıqda çox böyük bir tərəzi gördü. Həmin tərəzinin hər bir gözü məşriqdən məğribədək olan fasilə qədər idi. Davud(ə) bu əzəməti görən kimi dözə bilməyib huşunu itirdi və yerə yıxıldı. Özünə gələndən sonra isə soruşdu: "İlahi, kim bu tərəzinin gözünü yaxşılıqlarla doldura bilər? İnsan nə qədər əməl etməlidir ki, onun gözünü doldura bilsin?" Allah-təala ona xitab edərək buyurdu:

يَا داوُد إِنِّي اِذا رَضَيتُ عَن عَبدِي مَلأَتُها بِتَمرَةٍ

-Ey Davud, əgər Mən bəndəmdən razı olsam, həmin tərəzinin gözünü bircə xurma dənəsi ilə dolduraram.[1]

فيما ناجى اللهُ تباركَ و تعالى موسى عليه السلام : يا موسى، ما أُريدَ بِهِ وَجْهي فكَثيرٌ قَليلُهُ، و ما أُريدَ بهِ غَيري فقَليلٌ كَثيرُهُ

-Allah-təala Musa Peyğəmbərə(ə) buyurdu: "Ya Musa, Mənim razılığım üçün (xalis niyyətlə) görülən az əməl çoxdur (azını çox hesab edərəm). Məndən başqası üçün görülən çox əməl isə azdır."[2]

Deməli, insanın bütün hərəkət və əməllərində əsas meyar onun çoxluğu, yaxud azlığı yox, əməlin ixlasla

---

[1] Dəh qərinə, səh.207.
[2] Mizanül-hikmə, 3-cü cild, hədis - 4760.

görülməsidir. Yəni hər hansı bir əməl sırf Allaha xatir olarsa və niyyət də qarışıq olmazsa, bu əməl qəbul edilər və bəyənilmiş hesab olunar.

قَالَ رَسُولُ اللهِ(ص): إذا عَمِلْتَ عَمَلاً فاعْمَلْ للهِ خالِصا ؛ لأنَّهُ لا يَقْبَلُ مِن عِبادِهِ الأعْمالَ إلاّ ما كانَ خالِصا

-Həzrət Peyğəmbər(s) buyurur: "Bir iş görmək istədikdə onu sırf Allah üçün gör. Çünki Allah-təala bəndələrinin yalnız xalis əməllərini qəbul edir."[1]

Ola bilər ki, insanın fikrinə belə bir sual gəlsin: "Mən haradan bilim ki, mənim Allaha xatir gördüyüm əməl xalisdir, yoxsa xalis deyil?" Bu sualın cavabı hədislərdə açıqlanmışdır. Yəni buna ixlasın həqiqəti deyilir.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ لِكُلِّ حَقٍّ حَقيقةً، و ما بَلغَ عَبدٌ حقيقةَ الإخْلاصِ حتّى لا يُحِبَّ أنْ يُحْمَدَ على شيءٍ مِن عَمَلٍ للهِ

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Hər haqqın həqiqəti var. Bəndə Allah üçün etdiyi əməlin müqabilində təriflənib öyülməməsini istəməyənədək ixlasın həqiqətinə yetişməyəcək." [2]

Yəni insan Allaha xatir bir iş gördükdə etdiyi bu əməlin xalis olduğunu bilmək istəyirsə, həmin əmələ görə onu tərifədikdə xoşuna gəlib-gəlmədiyinə bir nəzər yetirsin. Əgər etdiyi əmələ görə kiminsə onu tərifləməsindən xoşhal olursa, deməli bu əməlin niyyəti xalis deyil. Hədislərdə belə nəql olunur ki, insan Allaha xatir bir iş gördükdə onu dilinə

[1] Yenə orada, hədis - 4770.
[2] Mizanül-hikmə, 3-cü cild, hədis - 4782.

gətirməməli və kiminsə də onu dilinə gətirməsinə razı olmamalıdır. Əgər bir insan etdiyi yaxşılığı və ya ibadəti dilinə gətirərsə, onun savabı aradan gedər. İkinci dəfə dilinə gətirdikdə isə, həmin yaxşı əməli pozub yerinə günah yazarlar.

Deməli, Kövsər suyundan bəhrələnməyin birinci şərti niyyətin xalis və təmiz olmasıdır. Kimin dünyada niyyəti xalis olmasa, həmin şəxsə Kövsər suyu verilməz.

**İkinci şərt: Qəlbin (ruhun) paklığı**

Əbu Əyyub Ənsari Həzrət Peyğəmbərin(s) həmin şəxsə buyurduğu ikinci şərti belə nəql edir: "Kövsər suyundan bəhrələnməyin ikinci şərti qəlbin saflığı və paklığıdır."

Qəlb dedikdə əxlaq elmində insanın ruhu nəzərdə tutulur. Yəni qəlb və ruh eyni mənada işlənir. Qəlbin napaklığı insanın günahlarından irəli gəlir. Günah etdikcə qəlb də murdarlaşır və çirkinləşir. İnsan nə qədər ki, günah etməyib qəlbi də təmizdir. Hər bir günah insanın qəlbində bir ləkə yaradır. Günah çoxaldıqca qəlbin ləkələri də artır.

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إِلا فِى قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِى النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السّوادُ وَ إِنْ تَمَادَى فِى الذُّنُوبِ زَادَ ذَالِكَ السَّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطِّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

-İmam Baqir(ə) buyurur: "Hər insanın qəlbində ağ bir nöqtə vardır. İnsan günah etdikdə həmin nöqtədən bir qara nöqtə də əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozulur. Əgər günaha davam edərsə, qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün

ağlığını örtər və qəlbi tamamilə qaralar. Qəlbin ağlığı aradan getdikdən və qəlb tamamilə qaraldıqdan sonra həmin qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz.” Bu, Allahın sözüdür: “Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.”

Hədislərdə belə nəql olunur ki, mömin insan yağış suyuna bənzəyir. Buludlardan süzülüb damla-damla yerə tökülən yağış suyu yerə düşənədək pak və tərtəmiz olur. Torpağa qarışmayan yağış suyuna laboratoriya şəraitində mikroskopla baxdıqda onda mikrop və natəmizlik tapmaq mümkün deyil. Ona görə də mömini yağış suyuna bənzətmişlər. Əgər onun ruhuna mənəvi gözlə baxılsa, onda heç bir ləkə və murdarçılıq tapılmaz. Ruhun ləkəsi təkəbbür, paxıllıq və digər günahlardır.

قَالَ عَلِيٌّ(ع): المؤمن مَن طَهَّرَ قلبَهُ مِن الدَّنِيَّةِ .

-Həzrət Əli(ə) buyurur: “Mömin o şəxsdir ki, qəlbini çirkinlikdən təmizləsin” [1]

قَالَ عَلِيٌّ(ع): قُلوبُ العِبادِ الطاهِرَةُ مَواضِعُ نَظَرِ اللهِ سبحانَهُ، فَمَن طَهَّرَ قَلبَهُ نَظَرَ إلَيهِ .

-Həzrət Əli(ə) buyurur: “Bəndələrin pak qəlbləri Allahın nəzərgahıdır. Kim qəlbini pak saxlasa, Allah-təala ona nəzər edər.” [2]

قالَ موسى بن عمرانَ عليه السلام: يا رَبِّ، مَن أهلُكَ الذينَ تُظِلُّهُم في ظِلِّ عَرشِكَ يومَ لا ظِلَّ إلاّ ظِلُّكَ؟ قالَ: فَأوحَى اللهُ إلَيهِ: الطاهِرَةُ قُلوبُهُم

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1429.
[2] Mizanül-hikmə, 10-cu cild, hədis - 16969.

-Həzrət Musa(ə) Allahla minacat edərkən dedi: “İlahi! Səndən qeyri heç bir kölgənin olmadığı bir gündə Sənin ərşinin kölgəsində olanlar kimlərdir?” Allah ona vəhy buyurdu: “Qəlbi (günahdan pak) təmiz olanlar.”[1]

Odur ki, mömin insanın qəlbi həmişə pak və təmiz olar.

قَالَ رَسُولُ اللهِ(ص): المؤمنُ مِرآةُ المؤمنِ .

-Həzrət Peyğəmbər(s) buyurur: “Mömin möminin aynasıdır.”[2]

Bu kəlam ola bilsin ki, ilk baxışdan çox adi görünsün. Amma onu da bilmək lazımdır ki, həm Quran ayələri, həm də Həzrət Peyğəmbərin(s) və məsum imamların buyurduqları böyük hikmət və dərin mənalara malikdir. Həzrət Peyğəmbərin(s) buyurduğu üç kəlmədən ibarət olan bu kəlamın mənasına diqqət yetirdikdə görürük ki, doğrudan da çox hikmətli və məzmunlu bir kəlamdır. Nə üçün Həzrət Peyğəmbər(s) mömini bir güzgüyə bənzədir? Bunu bilmək üçün ilk növbədə güzgünün aşağıdakı xüsusiyyətlərinə diqqət yetirmək lazımdır:

1. Güzgü eyib və nöqsanları artırıb-azaltmadan, yəni olduğu kimi göstərir.

Yəni mömin möminə eyib və nöqsanını olduğu kimi deyər və onu əsla artırıb-azaltmaz.

2. Güzgü təkcə eyibləri deyil, gözəllikləri də göstərir.

Mömin də möminin təkcə nöqsanını deyil, onun gözəlliklərini də deyər. Bircə eybə görə gözəllikləri gizlətməz.

---

[1] Yenə orada, hədis - 16968.

[2] Yenə orada, hədis - 1442.

3. Güzgü insanın eyiblərini səssiz-səmirsiz onun özünə deyir.

Mömin də birinin eybini söylədikdə sakitcə onun özünə deməlidir.

4. Güzgü insanın eyiblərini daxilindəki saflıqla göstərir və heç bir qərəzi yoxdur.

Mömin də möminin eyiblərini söyləyərkən qərəzsiz şəkildə söyləməlidir. Başqa bir niyyəti olmamalıdır.

5. Güzgü o zaman eyibləri göstərə bilər ki, özü çirkli olmasın.

Əgər bir mömin də digər möminin eybini söyləmək istəyirsə, əvvəla özü təmiz və saf olmalıdır.

6. Güzgü kimliyindən və vəzifəsindən asılı olmayaraq, qarşısında olan hər bir kəsin eyiblərini olduğu kimi göstərir. Onun üçün qarşısında dayananın kimliyinin heç bir fərqi yoxdur.

Mömin də möminin vəzifəsindən və kimliyindən asılı olmayaraq onun eyiblərini söyləməlidir.

7. Güzgü eyibləri və nöqsanları göstərərkən heç kəsdən bir şey ummur.

Mömin də belə olmalıdır. Öz qardaşına eyiblərini söyləyərkən ondan heç bir şey təvəqqe etməməlidir.

8. Güzgünü həqiqəti göstərdiyi üçün sındırmazlar.

Odur ki, dostun sənin eyiblərini olduğu kimi söyləyərsə, onu incidib ürəyini sındırmaq olmaz.

9. Güzgü eyib və nöqsanları yadında saxlamır.

Mömin də dostunun eyib və nöqsanlarını onun özünə səylədikdən sonra daha onları ürəyində saxlamamalıdır.

10. Güzgü zahiri nöqsanları göstərir və insanların daxili aləmləri barədə axtarış aparmır.

Mömin də dostunun görünən eyiblərini söyləməlidir. Onun daxilində (ürəyində) axtarış aparmağa ixtiyarı yoxdur.

11. Güzgü eyibləri dəqiq və şəffaf göstərdikcə onun qiyməti daha da artır.

Mömin də öz qardaşının eyib və nöqsanını dəqiq və şəffaf şəkildə göstərməlidir.

12. Güzgü insanın eyiblərini üzbəüz göstərir və onun arxasınca danışmır.

Mömin də dostunun nöqsanlarını onun üzünə söyləməli və arxasınca heç nə danışmamalıdır.

دوست دارم که دوست عیب مرا همچو آیینه روبرو گوید

نه که چون شانه با هزار زبان پشت سر رفته مو به مو گوید

*İstərəm ki, dostum mənim eyiblərimi,*
*Sanki şəffaf güzgütək üzümə söyləsin.*
*Nəinki mindili olan bir daraq kimi,*
*Arxamca istədiyi hər bir şeyi danışsın.*

Odur ki, əgər bir insan təmiz və saf olmasa, onu güzgüyə bənzətməzlər. Buna görə də mömin saf və təmiz olduğundan Həzrət Peyğəmbər(s) onu güzgüyə bənzətmişdir. Deməli, Kövsər suyundan o kəs içib bəhrələnə bilər ki, ruhu pak, nurani və təmiz olsun.

**Üçüncü şərt: Ehtiyacı olanlara maddi və mənəvi yardım göstərmək**

Kövsər suyundan bəhrələnməyin üçüncü şərti budur ki, insan ehtiyacı olan adamlara əlindən gələn köməyi əsirgəməsin. Burada söhbət təkcə pul və ya maldan getmir. Ola bilsin ki, birinin böyük bir çətinliyini bircə kəlmə sözlə də həll etmək mümkün olsun. Halbuki başqası həmin məsələni on min manat pulla da həll edə bilməzdi. Ona görə də hər hansı bir şəxsin çətinliyinin aradan qaldırılması Allah-taala yanında çox dəyərli bir əməl kimi dəyərləndirilir.

قَالَ الصّادِقُ(ع): قالَ اللهُ عزّ و جلّ: الخَلقُ عِيالي، فأحَبُّهُم إلَيَّ أَلْطَفُهُم بِهِم، و أسْعاهُم في حَوائجِهِم

-İmam Sadiq(ə) buyurur: "Allah-təala buyurmuşdur: Camaat Mənim ailəmdir. Onlardan mənim yanımda ən sevimliləri camaatla daha mehriban olanları və onların ehtiyaclarının ödənilməsi naminə daha çox çalışanlardır."[1]

Hətta birinin çətinliyini həll etmək üçün çalışmağın özünün də çox böyük savabı vardır. Bu zaman həmin şəxsin probleminin həll olub-olmamasının heç bir fərqi yoxdur. Əsas məsələ həmin yolda atılan addım və göstərilən səylərdir.

قَالَ الصّادِقُ(ع): الماشي في حاجَةِ أخيهِ كالسّاعي بينَ الصَّفا و المَرْوَةِ

-İmam Sadiq(ə) buyurur: "Öz qardaşının ehtiyacını aradan qaldırmaq yolunda addım atan bir insan Səfa ilə Mərva arasında səy edən şəxs kimidir."[2]

Bu fəzilət və üstünlük ehtiyacı olan şəxsin çətinliyinin aradan qaldırılması uğrunda atılan addımın və çalışqanlığın savabıdır. Hətta həmin məsələ öz həllini tapmamış olsa da belə. Lakin o şəxsin problemini həll etməyin savabına gəldikdə isə, bunun fəzilət və üstünlüyü tamamilə başqadır.

قَالَ الصّادِقُ(ع): مَن مَشى في حاجَةِ أخيهِ المؤمنِ ـ يَطلُبُ بذلكَ ما عِندَ اللهِ ـ حتّى تُقْضى لَهُ، كَتبَ اللهُ عزّ و جلّ لَهُ بذلكَ مِثْلَ أجْرِ

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4454.
[2] Yenə orada, hədis - 4459.

حِجّةٍ و عُمْرَةٍ مُبْرورَتَينِ ، و صَومِ شَهرَينِ مِن أشْهُرِ الحُرُمِ، و اعْتِكافُهُما في المِسْجدِ الحَرامِ . و مَن مَشى فيها بِنِيَّةٍ و لَم تُقْضَ كَتبَ اللّهُ لَهُ بذلكَ مِثْلَ حِجّةٍ مَبْرورَةٍ

-İmam Sadiq(ə) buyurur: "Kim öz mömin qardaşının ehtiyacını aradan qaldırmaq yolunda addım atıb onun işini həll etsə, Allah-təala həmin şəxsə bu əməlinə görə qəbul olunmuş bir Həcc və bir ümrənin, iki haram ayda oruc tutmağın və bu aylarda Məscidül-Həramda xəlvətə çəkilməyin savabını yazar."[1]

Bir insanın çətinlik və ya hansısa problemini həll etməyin savab və fəzilətləri barədə çox hədislər nəql olunmuşdur. Bu elə mühüm bir məsələdir ki, insan həmin yolla mənəviyyat aləmində çox yüksək mərhələlərə belə ucala və böyük nailiyyətlər əldə edə bilər. Belə bir insanın vücudu da mübarək sayılar. Necə ki, İsa Peyğəmbərin(ə) vücudu hər yerdə mübarək idi. Allah-təala "Məryəm" surəsinin 31-ci ayəsində İsa Peyğəmbərin(ə) dilindən belə buyurur:

وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ

-O (Allah), harada oluramsa-olum məni mübarək qərar verdi.

Həzrət İsa(ə) harada olmasından asılı olmayaraq həmişə camaatın dərdinə dəyər və onların çətinliklərini həll edərdi. İnsanın vücudu o zaman mübarək və bərəkətli sayılar ki, onun camaata xeyri dəysin və insanlar ondan bəhrələnsinlər.

---

[1] Mizanül-hikmə, 3-cü cild, hədis - 4456.

Alimlərdən biri Ayətullah Bürucerdi barəsində belə bir əhvalatı nəql edir: “Yuxuda gördüm ki, böyük və əzəmətli bir məclisdir və orada böyük alimlər əyləşiblər. Məclisin başında şəxsən Həzrət Peyğəmbər(s), onun sağ tərəfində isə Ayətullah Bürucerdi oturmuşdu. Mən yuxuda öz-özümə fikirləşirdim ki, Şeyx Müfid, Müqəddəs Ərdəbili, Seyid Mürtəza kimi böyük alimlər ola-ola nəyə görə Ayətullah Bürucerdi Həzrət Peyğəmbərin(s) yanında əyləşib. Bu məsələ məni çox təəccübləndirdi. Bəs görəsən hansı xüsusiyyətinə görə Həzrət Peyğəmbər(s) Ayətullah Bürucerdini öz yanında əyləşdirib? Birdən gördüm ki, Həzrət Peyğəmbər(s) əli ilə Ayətullah Bürucerdiyə işarə edərək buyurdu: “Camaatın çətinliyini həll etmək üçün çalışdığına görə. (Heç bir kəsi öz qapısından əliboş yola salmadığına görə.)”

Doğrudur, bu bir yuxu olsa da, hədislərlə müqayisə edərkən bunun bir həqiqət olduğuna inanmaq mümkündür. Hədislərə müraciət etdikdə camaatın əlindən tutmağın, onların çətinliklərini həll etməyin daha böyük fəzilət və üstünlüklərə səbəb olduğunu müşahidə edirik. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, birinin çətinliyini həll edərkən onu halal yolla həll etmək lazımdır. Haram yollarla hansısa işi düzəltməyə dinimiz icazə vermir. İslamda icazə verilmir ki, kiminsə haqqını tapdalayıb başqasının çətinliyini həll edəsən. Ona görə də kim bir mömininin çətinliyini aradan qaldırarkən bunu halal yolla həll edərsə, onun bu yolda atdığı hər bir addıma savab yazılar.

**Dördüncü şərt: Borclunu sıxışdırmamaq**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri də budur ki, borc verən adam borclunu sıxışdırmasın. Yəni

borcu olan şəxsin həqiqi mənada borcu qaytarmağa imkanı olmadıqda ona təzyiq göstərməsin. Borc verib borclunu sıxışdırmayan insan o kəslərdəndir ki, Allah-təala ona Kövsər suyundan içməyi nəsib edər.

Ümumiyyətlə, borc almağın bir cəhətdən heç bir maneəsi yoxdur. Çünki həyatda bəzən elə vəziyyətlərlə qarşılaşırıq ki, insan borc almağa məcbur olur.

قالَ الإمامُ الكاظمُ(ع): مَن طَلَبَ هذا الرِّزقَ مِن حِلِّهِ لِيَعودَ بهِ عَلى نفسِهِ و عِيالِهِ كانَ كالمجاهِدِ في سبيلِ اللهِ عزّ و جلّ ، فإن غَلَبَ علَيهِ فَلْيَستَدِنْ عَلَى اللهِ و عَلى رسولِهِ صلى الله عليه و آله ما يَقوتُ بهِ عِيالَهُ .

-İmam Kazım(ə) buyurur: "Özünün və ailəsinin təminatı üçün halal ruzi dalınca gedən şəxs Allah yolunda cihad edən kəs (mücahid) kimidir. Əgər bir qazanc əldə edə bilməsə, Allaha və Onun peyğəmbərinə ümid edərək borc götürsün və ailəsinin yeməyini təmin etsin." [1]

Hədislərdən açıq-aydın şəkildə görürük ki, zəruri hallarda borc almağın heç bir eybi yoxdur. Lakin bir insanın borc aldıqdan sonra əlinə imkan düşdükdə borcu qaytarmaması, yaxud qaytararkən söz yarası vurması pis işdir.

قَالَ رَسُولُ اللهِ(ص): مَطْلُ الغَنِيِّ ظُلْمٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "İmkanlı şəxsin borcunu ödəməyi yubatması zülmdür."[2]

[1] Mizanül-hikmə, 4-cü cild, hədis - 6327.
[2] Yenə orada, hədis - 6334.

Yəni əgər bir insan borc aldıqda əlinə imkan düşərkən borcu ödəməyi yubadarsa, qarşıdakı şəxsə zülm etmiş olur. Onun zülmünün mənası budur ki, borcu qaytaracağına söz verdiyi halda onu qaytarmır. Beləcə, xeyirxahlığın qarşısı kəsilir. Yəni borc verən insan onun bu hərəkətini gördükdə daha başqalarına da borc vermək istəmir. İnam və etibar aradan gedir.

عن معاوية بنِ وَهْبٍ: قلتُ لأبي عبدِ اللهِ عليه السلام : إنّهُ ذُكِرَ لَنا أنَّ رجُلاً مِنَ الأنصارِ ماتَ و علَيهِ دِينارانِ دَيناً فلَم يُصَلِّ علَيهِ النبيُّ صلى الله عليه و آله و قالَ : صَلُّوا عَلى صاحِبِكُم، حتّى ضَمِنَهُما عَنهُ بعضُ قَرابَتِهِ

فقالَ أبو عبد الله عليه السلام: ذلِكَ الحَقُّ . ثُمّ قالَ: إنّ رسولَ اللهِ صلى الله عليه و آله إنّما فَعَلَ ذلِكَ لِيَتَّعِظوا و لِيَرُدَّ بعضُهُم على بعضٍ ، و لئلاّ يَستَخِفُّوا بالدَّينِ ، و قد ماتَ رسولُ اللهِ صلى الله عليه و آله و علَيهِ دَينٌ ، و ماتَ الحسنُ عليه السلام و عليه دَينٌ ، و قُتِلَ الحسينُ عليه السلام و عَلَيهِ دَينٌ

-Müaviyə ibn Vəhəb deyir: "İmam Sadiqdən(ə) soruşdum: Doğrudurmu ki, Ənsardan bir nəfər vəfat edərkən iki dinar borcu olduğu (və borcunu qaytarmadığı) üçün Peyğəmbər(s) onun cənazə namazını qılmadı və buyurdu: "Dostunuzun cənazə namazını özünüz qılın." Həmin şəxsin yaxınlarından biri onun borcunu öz öhdəsinə götürdükdən sonra Peyğəmbər(s) onun üçün cənazə namazı qıldı?"

İmam Sadiq(ə) buyurdu: "Doğrudur, Həzrət Peyğəmbər(s) ona görə bu işi gördü ki, qoy bütün müsəlmanlara ibrət

olsun. Bir-birindən borc götürdükdə onu vaxtında qaytarmaq məsələsinə laqeyd yanaşmasınlar. (Həm də borcu olub imkanı olduğu halda onu qaytarmayanlara dərs olsun). Peyğəmbərin(s) özünün də dünyasını dəyişərkən borcu var idi. İmam Həsən(ə) də dünyasını dəyişərkən borcu var idi. İmam Hüseyn(ə) də şəhid olarkən borcu var idi. (Amma bu borc o borclardan deyildi ki, vaxtında ödənməsin. Onlar dünyalarını dəyişərkən aldıqları borcların müddəti hələ bitməmişdi. Vəsiyyət etmişdilər ki, vaxt tamam olduqda həmin borcları qaytarsınlar.)”[1]

Odur ki, bir şəxs borc aldıqda və onu qaytarmaq vaxtı çatarkən imkanı olduğu təqdirdə həmin borcu qaytarmasa zalımdır. Amma borcu qaytarmağa imkanı olmadığı təqdirdə ona təzyiq göstərilməməsi və möhlət verilməsi isə savab işdir. Bu, elə bir savab əməllərdəndir ki, həmin şəxs bununla Kövsər suyundan içmək şansı qazanmış olur.

**Beşinci şərt: Su quyusu qazıb hədiyyə etmək**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri camaatın su problemini həll etməkdir. Su quyusu qazıb camaatın istifadəsinə verməyin fəzilətləri barədə də çoxlu hədislər nəql olunmuşdur. Mövzumuza uyğun olaraq bir hədisi diqqətinizə çatdırıram.

Həzrət Peyğəmbər(s) buyurur: “Kim bir su quyusu qazıb (və yaxud su arxını çəkib) müsəlmanların istifadəsinə verərsə, qiyamət günü həmin şəxsə ulduzların sayı qədər şəfaət etmək icazəsi verilər və şəfaət olunmuşları qüds hovuzunun kənarına gətirər.”

[1] Yenə orada, hədis - 6338.

Soruşdular: "Ya Rəsulallah, qüds hovuzu nədir?"
Həzrət Peyğəmbər(s) buyurdu: "Mənim hovuzum (Kövsər hovuzu)."[1]

**Altıncı şərt: Dünyasını dəyişmiş müsəlman üçün qəbir qazmaq**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri də vəfat etmiş müsəlman üçün qəbir qazmaqdır.

Həzrət Peyğəmbər(s) buyurur: "Kim Allah rizasına görə dünyasını dəyişmiş müsəlman üçün qəbir qazarsa, Allah-təala cəhənnəm odunu həmin şəxsə haram edər, cənnətdə onun üçün ev ucaldar və ona Kövsər hovuzunu nəsib edər."[2]

**Yeddinci şərt: Oruc tutan şəxsi doyuzdurmaq**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri isə oruc tutmuş şəxsə iftar verib onu doyuzdurmaqdır. Burada həmin şəxsin ramazan ayının orucunu və ya digər günlərin orucunu tutmasının heç bir fərqi yoxdur.

قَالَ رَسُولُ اللهِ(ص): مَن أَشبَعَ صَائِماً سَقاهُ الله مِن حَوضی

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim oruc tutmuş şəxsi doyursa, Allah-təala həmin şəxsi mənim hovuzumun (Kövsər) suyu ilə sirab edər."[3]

---

[1] Dəh qərinə, səh.182.
[2] Yenə orada.
[3] Yenə orada, səh.183.

**Səkkizinci şərt: Məsum imamın qəbrini təmir və bərpa etmək**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri hər hansı məsum imamın qəbrini təmir etdirmək, yaxud qəbrin təmir olunmasına kömək etməkdir. Tarix boyu dəfələrlə məsum imamlarımızın qəbirləri düşmənlər tərəfindən dağıdılmışdır. Hazırda da İmam Həsən(ə), İmam Səccad(ə), İmam Baqir(ə) və İmam Sadiqin(ə) qəbirləri Bəqi qəbiristanlığında dağıdılmış vəziyyətdə qalır. Təxminən iki yüz il bundan əvvəl onların qəbirlərinin bargahları, gümbəz və güldəstələri var idi. Sonradan adlarını vəhhabi və sələfi qoymuş bir qrup peyda olaraq bu işin əleyhinə çıxdılar. İslam dininə bidət olaraq özlərindən hökm çıxarıb həmin imamların məqbərələrini dağıtdılar. İki yüz il bundan öncə həmin bargahların çəkilmiş şəkilləri hələ də qalır və bu şəkillərə müxtəlif kitablarda, yaxud internet saytlarında da rast gəlmək mümkündür.

Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) məsum imamların qəbirlərini ziyarət və təmir edənlərin fəzilətləri barədə belə buyurmuşdur:

أُولئِكَ يَا عَلِيّ اَلْمَخصُصُونَ بِشَفَاعَتِي، اَلوَارِدُونَ حَوضِي

-Ya Əli(ə), mənim onlara xüsusi şəfaətim olacaq. Onlar mənim hovuzumdan bəhrələnəcəklər.[1]

**Doqquzuncu şərt: İmam Hüseynin(ə) qəbrini ziyarət etmək**

Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri Həzrət İmam Hüseynin(ə) mübarək qəbrini ziyarət etməkdir.

[1] Dəh qərinə, səh.183.

İmam Baqir(ə) atası İmam Sadiqdən(ə) nəql edərək buyurur: "Kim Allaha xatir İmam Hüseynin(ə) qəbrini ziyarət etsə, (qiyamət günü) Kövsər hovuzunun kənarına gələr. Həzrət Əli(ə) hovuzun başında dayanıb həmin şəxslə (əl-ələ) görüşər və onu Kövsər suyu ilə sirab edər."[1]

Kövsər hovuzunun sahibi İmam Hüseynin(ə) cəddi Həzrət Peyğəmbərdir(s). Kövsər suyunu da onun üçün hazırlamışdır. Əliəkbər(ə) şəhid olarkən son nəfəslərində cəddi Həzrət Peyğəmbərin(s) əlindən Kövsər suyu içdi.

Salnamələrdə yazırlar ki, aşura günü Əliəkbər(ə) döyüş meydanına daxil oldu. O qədər döyüşdü ki, susuzluq ona aman vermədi. Yaralı halda atasının yanına qayıdıb su istədi. İmam Hüseyn(ə) barmağından üzüyünü çıxarıb ona uzadaraq buyurdu: "Oğul, bu üzüyü al və ağzında saxla. Bu üzük cəddin Rəsulullahı(s) ziyarət edənə qədər sənə bəs edəcək. Ümidvaram tezliklə cəddin Rəsulullahın əlindən Kövsər suyu ilə dolu olan camdan su içəcəksən. O suyu içdikdən sonra bir daha susamayacaqsan." Əliəkbər(ə) üzüyü atasından alıb ağzında saxladı və meydana qayıdıb döyüşə davam etdi. O qədər doyüşdü ki, axırda onu atdan yerə saldılar və bədənini doğradılar. Belə ki, İmam Hüseyn(ə) öz əbasını çıxarıb yerə sərdi və onun doğranmış cənazəsini əbanın içinə yığdı. Çünki İmam(ə) onun bədəninin hansı hissəsindən tuturdusa, o hissə İmamın(ə) əlində qalırdı. Sonra Haşim övladlarını səsləyərək buyurdu: "Gəlin bu uşağın cənazəsini çadıra aparaq."

Əliəkbər(ə) son nəfəslərində atasını səsləyib belə dedi:

---

[1] Yenə orada, səh.181.

يَا أَبَتَاهْ! هَذَا جَدّى رَسُولُ اللهِ صلى الله عليه و آله و سلم قَدْ سَقَانِى بِكَأسِهِ الاوْفى شَرْبَةً لَا أظْمَأُ بَعْدَهَا أبَداً وَ هُوَ يَقُولُ: الْعَجَلَ! الْعَجَلَ! فَإنَّ لَكَ كَأساً مَذْخُورَةً حَتَّى تَشْرَبَهَا السّاعَةَ

-Atacan! Bu, cəddim Rəsulullahdır. O, mənə cənnət camı ilə su içirtdi. Sənin dediyin kimi bundan sonra mən heç bir vaxt susamayacağam. Atacan! Allahın Rəsulu(s) səni səsləyib belə çağırır: “Tələs! Tələs! Sənin üçün də cam hazırlanmışdır ki, gəlib ondan su içəsən.”[1]

İmam Hüseyn(ə) döyüş meydanına daxil olarkən düşmənə belə bir rəcəz oxudu:

وَنَحنُ وُلاةُ الْحَوض نُسقى وُلاتَنا بِكأَسِ رَسُولُ اللهِ مَا لَيسَ يُنكرُ
وَشِيعتُنا فِي الْنّاس أَكرَمُ شيعة وَمُبغِضُنا يَومَ القِيامَةِ يَخسِرُ

-Bizik Kövsər hovuzunun sahibi. Bizim öz dostlarımızı Allahın Rəsulunun(s) camı ilə sirab edəcəyimiz inkarolunmazdır. Bizim şiələrimiz insanlar arasında ən üstün şiələrdir. Bizim düşmənlərimiz qiyamət günü ziyana uğrayıb məhv olacaqlar.[2]

*Özüm ətşane vəsli davərəm mən,*
*Nəinki təşnəyəm su istərəm mən,*
*Təşnəmdi aləm, Kovsərəm mən,*
*Mudire sələbili əthərəm mən,*
*Mənə şirin şəhadət şəhdi nabi.*
*Özüm dərvazeyi baği cinanəm,*
*Nə dərvaze, beheşti cavidanəm.*

---

[1] Dəh qərinə, səh.186.
[2] Yenə orada, səh.187.

**Onuncu şərt: Allahın Rəsulunun(s) vəsisinin qarşısında təslim olmaq**

Həzrət Peyğəmbərin(s) vəsisinin qarşısında təslim olmaq Kövsər suyundan bəhrələnməyin şərtlərindən biridir. Kövsər hovuzu Həzrət Peyğəmbərə(s) məxsusdur və onun ixtiyarını da Həzrət Əliyə(ə) verəcəkdir. Həzrət Peyğəmbərdən(s) bu barədə bir çox hədislər nəql olunmuşdur. Həzrətin(s) təkcə "Ya Əli, sən məndənsən və mən də səndənəm" kəlamı bu baxımdan hər bir kəsə kifayət edər.

قَالَ رَسُولُ اللهِ(ص): وَإِنَّكَ أَوَّلُ مَن يَرِدَ عَلَيَّ الْحَوض، وَ إِنَّكَ عَلَى الْحَوضِ خَلِيفَتِي... وَ إِنَّهُ لا يَرِدُ عَلَيَّ الْحَوض مُبغِضٌ لَك، وَلا يَغِيبُ مُحِبٌّ لَكَ غَدًا عَنِّي حتَّى يَرِدَ عَليَّ الْحَوض مَعَكَ يَا عَلِيّ

-Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: "Kövsər hovuzunun kənarında mənə qovuşan ilk şəxs sən olacaqsan. Sən hovuzun kənarında da mənim xəlifəmsən. Sənə qarşı düşmənçilik edənə Kövsər suyu nəsib olmayacaq. Ya Əli, səni sevən hər kəs sabah (qiyamət günü) səninlə birgə Kövsər hovuzunun kənarında mənim yanımda olacaq."[1]

## İnsanı Kövsər suyundan məhrum edən amillər

Ötən bəhslərimizdə Kövsər suyundan bəhrələnməyin əsas şərt və amilləri barədə söhbət etdik. Bu bəhsimizdə isə çox yaxşı olar ki, insanı Kövsər suyundan məhrum edən amillərlə tanış olaq.

---

[1] Dəh qərinə, səh.188.

**1. Kövsər hovuzunu (suyunu) inkar etmək**

Kövsər suyundan insanı məhrum edən amillərdən biri onu inkar edib danmaqdır. Bir çox məsələlər vardır ki, hər kəs bu dünyada onu danarsa, qiyamət günü ondan məhrum olar. Məsələn, Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Şəfaətimə inanmayanlara Allah qiyamət günü mənim şəfaətimi nəsib etməz.” Belə insanlar qiyamət günü şəfaətin həqiqət olduğunu gördükdə artıq onlara şəfaət nəsib olmayacaq. Çünki onlar dünyada şəfaəti qəbul etmirdilər. Həmçinin dünyada Kövsər hovuzunu dananlara da qiyamət günü o sudan içmək nəsib olmayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ لَمْ يُؤْمِنْ بِحَوْضِي فَلاَ أَوْرَدَهُ اللهُ حَوْضِي

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Kimin mənim (Kövsər) hovuzuma imanı olmasa, Allah həmin şəxsi oraya buraxmayacaq (onun suyundan içməsinə icazə verməyəcək).”[1]

**2. Həzrət Əli(ə) ilə düşmənçilik etmək**

Həzrət Əlinin(ə) vilayətini qəbul etmək və Həzrətə məhəbbət bəsləmək demək olar ki, qiyamətin bütün mərhələlərində əsas rol oynayır. Məsələn, sirat körpüsünün şərti və oradan keçmək icazəsi Həzrət Əlinin(ə) vilayətidir. Oradan keçə bilməyənlər və cəhənnəmə düşənlər isə onun vilayətini inkar edənlərdir. Qəbrin ilk gecəsində insandan soruşulan əsas suallardan biri Həzrətin(ə) vilayətinin qəbul edilməsi məsələsi ilə bağlıdır. Ona görə də qiyamət günü hesab-kitabda onun vilayəti barədə soruşulacaq. Bir sözlə

---

[1] Dəh qərinə, səh.151.

desək, qiyamətin bütün mərhələlərində Həzrətin(ə) vilayəti mühüm rola malikdir. Hər kim onun vilayətini qəbul etməsə, ona məhəbbət bəsləməsə, qiyamətin bütün mərhələlərində çətin vəziyyətə düşəcəkdir. O cümlədən, yuxarıda qeyd olundu ki, Kövsər suyundan bəhrələnməyin şərtlərindən biri Həzrət Əlinin(ə) vilayət və məhəbbəti olduğu kimi, onunla düşmənçilik etmək, yaxud Həzrətin(ə) imamlığını qəbul etməmək Kövsər suyundan məhrum olmaq deməkdir. Yəni hər kim Həzrət Əli(ə) ilə düşmənçilik etsə, onun imamlığını qəbul etməsə, ona Kövsər suyu nəsib olmayacaq.

Bir gün Həzrət Əlinin(ə) müxaliflərindən olan bir nəfər Mədinədə İmam Sadiqlə(ə) görüşdü. İmam(ə) ona buyurdu: "Deyəsən sən Kövsər hovuzunu inkar edirsən? Yəni əgər sən Kövsər hovuzunun məna və əzəmətini başa düşsəydin və qiyamət günü təşnə olduğun vaxt onun suyunun ləzzətinin nə olduğunu bilsəydin, Əli(ə) ilə düşmənçilik etməzdin."

Sonra yenə də buyurdu: "Bunu bil ki, and olsun Allaha, onunla düşmənçilik etsən (ürəyində ona qarşı kin-küdurət bəsləsən), səni Kövsər hovuzunun içinə atsalar da, yenə də susuz və təşnə öləcəksən."[1]

Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Kim Əliyə(ə) beyət edib ona itaət etsə, məndəndir (bizim cərgədədir). Kim onunla müxalifətçilik etsə, əbədi olaraq Kövsər hovuzuna daxil olmayacaq (ona Kövsər suyundan içmək nəsib olmayacaq)."[2]

[1] Dəh qərinə, səh.182.
[2] Yenə orada, səh.185.

### 3. Həzrət Peyğəmbərdən(s) sonra batil yolu seçmək

İnsanı Kövsər suyundan məhrum edən amillərdən biri Həzrət Peyğəmbərdən(s) sonra onun yolunu buraxıb başqa bir yolu tutmaqdır. Yəni hər kim Həzrət Peyğəmbərin(s) yolu ilə deyil, öz bildiyi başqa bir yolla gedərsə, həmin şəxsə Kövsər suyundan içmək nəsib olmayacaq.

Günlərin birində Həzrət Peyğəmbər(s) camaata xütbə oxuyurdu. Xütbə əsnasında Həzrət(s) buyurdu: “Ey camaat, bir gün mən Kövsər hovuzunun kənarında dayanaram. Birdən müsəlmanlardan bir qrupunun başqa bir yolla hərəkət etdiyini görərəm. Onları uca səslə səsləyib deyərəm: Mənə tərəf gəlmək istəmirsiniz? İstəmirsinizmi sizə cənnətin yolunu göstərim? Elə bu zaman Allah tərəfindən bir carçı deyər: “Bu adamlar dünyada səndən sonra sənin yolunu dəyişib başqa yolu tutdular (onlara fikir vermə).” Belə olduqda mən onları səsləyib deyərəm: Uzaqlaşın buradan! Uzaqlaşın buradan!”[1]

### 4. Məsum imamların qəbirlərini ziyarət edənlərə irad tutmaq

Dünyada məsum imamların qəbirlərini ziyarət edənləri tənqid və məzəmmət edənlər qiyamət günü Kövsər suyundan məhrum olacaqlar. Məsum imamların qəbirlərini ziyarət etmək Allahın insana bəxş etdiyi bir mərhəmətdir. Təəssüflər olsun ki, bir sıra adamlar bu işi öz-özlərinə haram hesab edərək Allahın rəhmət qapısını üzlərinə bağlamışlar. Bununla yanaşı, kim imamların qəbirlərini ziyarət edirsə, onları da məzəmmət edirlər.

---

[1] Dəh qərinə, səh.183.

Belə adamlar Kövsər hovuzunun suyundan məhrum olan kəslərdir.

Həzrət Peyğəmbər(s) buyurur: “Məsum imamların qəbirlərini ziyarət edənləri danlayan və tənqid edənlər mənim ümmətimin ən şər və ən pis adamlarıdır. Allah-təala mənim şəfaətimi və Kövsər hovuzunun suyunu onlara nəsib etməyəcək.”[1]

### 5. Namaza laqeyd yanaşmaq

İnsanı Kövsər suyundan məhrum edən amillərdən biri də namaza laqeyd yanaşmaqdır. Dünyada hər kim namaza laqeyd yanaşarsa, qiyamət günü Kövsər suyu ona nəsib olmaz. Bəziləri elə düşünürlər ki, əsas ibadət etmək deyil, əsas odur ki, insanın qəlbi təmiz olsun. Xeyr, insan Allah qarşısında ibadət etməsə, onun qəlbi də təmiz ola bilməz. Allah insanı Ona səcdə etmək üçün yaratmışdır. Kim bunu danırsa və ya inkar edirsə, deməli, insanın nə üçün yaradıldığını anlamamışdır.

Namaz çox əhəmiyyətli bir əməldir. Namaza sadə və adi bir iş kimi yanaşmaq olmaz. Namaz qılmaq Allahın buyurduğuna itaət etməklə yanaşı, həm də insanı kamilləşdirir. Namaz insanı paklaşdırır. Ola bilməz ki, insan namaz qılsın, amma ailə qurarkən kəbin oxutdurmasın. Ola bilməz ki, namaz qılan qadın boşanarkən təlağı oxunmadan başqasına ərə getsin. Ola bilməz ki, namaz qılan insan alverdə müştərini aldatsın. Əgər bu hallar baş verərsə, deməli, namazında diqqətli olmayıb. Namaz elə bir əməldir ki, insanı pis işlərdən, çirkinliklərdən qoruyar. Bir şərtlə ki, insanın qıldığı namaz həqiqi mənada namaz olsun. Namaz

---

[1] Yenə orada, səh.184.

qılanın geyindiyi paltarlar da halal olmalıdır. Bir sözlə desək, əgər insan namaza əhəmiyyət versə, diqqətli olsa və namazını həqiqi mənada düzəldə bilsə, hər bir şey düzələr. Əgər insan hansısa bir problemlə qapşılaşırsa və ya günaha batırsa, deməli, onun qıldığı namazda hansısa nöqsanlara yol verilmişdir. Buna görə də namaza diqqət vermək, onu gücləndirmək lazımdır ki, günahlar qarşıya çıxdıqda namaz onu qoruyub saxlaya bilsin.

Həzrət Peyğəmbər(s) Abuzərə(r) belə buyurdu:

ما دُمتَ فِي الصَّلاةِ فإنَّكَ تَقرَعُ بابَ المَلِكِ الجَبّارِ، و مَن يُكثِرْ قَرعَ بابِ المَلِكِ يُفتَحْ لَهُ

-Namazda olduğun müddətdə Qadir padşahın evinin qapısını döyürsən. Kim padşahın qapısını çox döysə, axırda qapı onun üzünə açılacaqdır.

Ona görə də insan namaz qılarkən bilməlidir ki, kimin qapısında dayanıb və kimin qapısını döyür. Ən əsası odur ki, insan həmin qapını döyməyi bacarsın.

Sonra Həzrət Peyğəmbər(s) buyurdu:

ما مِن مُؤمِنٍ يَقومُ إلى الصَّلاةِ إلاّ تَناثَرَ علَيهِ البِرُّ ما بينَهُ و بينَ العَرشِ، و وُكِّلَ بهِ مَلَكٌ يُنادِي: يا بنَ آدمَ، لو تَعلَمُ ما لَكَ فِي صلاتِكَ و مَن تُناجِي ما سَئِمتَ و ما التَفَتَّ

-Elə bir mömin yoxdur ki, namaza dayanarkən onunla ərş arasında yaxşılıq (Allahın rəhməti) ona nazil olmasın. Onun üçün bir mələk müvəkkil olub belə deyər: "Ey Adəm övladı, əgər namazdan necə faydalandığını və

kiminlə minacat etdiyini (kiminlə danışdığını) bilsəydin, heç bir vaxt (namaz qılmaqdan) yorulmazdın.”[1]

قَالَ عَلِيٌّ(ع): إنّ الإنسانَ إذا كانَ فِي الصَّلاةِ فإنّ جَسَدَهُ و ثيابَه و كُلَّ شَيءٍ حَولَهُ يُسَبِّحُ

-Həzrət Əli(ə) buyurur: “İnsan namaz qılarkən onun bədəni, paltarı və ətrafında olan hər bir şey zikr edir.”[2]

قَالَ الصّادِقُ(ع): مَن صَلَّي رَكعَتَينِ يَعلَم مَايَقُول فِيهِما إنصَرَف و لَيس بَينَه و بَينَ الله – عز وجل– ذنب إلا غَفَرَه لَه

-İmam Sadiq(ə) buyurur: “Kim iki rükət namaz qılsa və onun əsnasında nə dediklərini (dediyi sözlərin nə olduğunu) bilsə, namazı qurtaran kimi, Allahla onun arasında heç bir günah qalmaz.”[3]

Odur ki, əgər insan namaz qılarkən dediyi sözlərin mənasını bilsə və fikri də namazda olsa, namazı qurtaran kimi Allah onun bütün günahlarını bağışlayar. Bizim çətinliyimiz də bundadır ki, namazımızda diqqətli deyilik. Biz çalışmalıyıq ki, namazımızda diqqətli olaq və namazı gözəl şəkildə qılaq. Böyük alimlərdən biri belə demişdir: “Əgər insan 80 il namaz qılsa və qıldığı namazları da hər gün bir dərəcə gücləndirə bilsə, yenə də onu gücləndirməyə yeri var.” Yəni namazda belə bir potensial və qüvvə vardır.

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis – 10582.
[2] Yenə orada, hədis – 10585.
[3] Səvabul-əmal, səh. 103.

İmam Sadiq(ə) buyurur: “Bir gün Həzrət Əli(ə) oğlu Məhəmməd ibn Hənəfiyyənin evinə getmişdi. Namaz vaxtı olduqda dəstəmaz almaq üçün su gətirdilər. İmam(ə) dəstəmaz aldıqdan sonra buyurdu: “Kim mənim dəstəmaz aldığım kimi dəstəmaz alsa, dəstəmaz alarkən etdiyim zikrləri təkrarlasa, Allah-təala onun dəstəmazından yerə tökülən hər damla sudan bir mələk yaradar. Həmin mələklər qiyamətə qədər Allaha zikr edərlər və onların etdiyi zikrlər həmin şəxsin dəftərinə yazılar.”

Görürük ki, hələ namazın müqəddiməsi olan dəstəmazda da belə bir əzəmət və dəyər vardır. Odur ki, namaz çox böyük bir əhəmiyyətə malik olan əməldir. Qeyd etdik ki, Allah-təala insanı Ona ibadət etmək üçün yaratmışdır. İbadətin ən gözəl surəti isə namazdır. Namaza laqeyd yanaşmaq olmaz. Buna görə də hədislərdə namaza laqeyd yanaşanlar həmişə tənqid olunmuşlar. Dediyimiz kimi, namaza laqeyd yanaşan şəxsə Həzrət Peyğəmbərin(s) şəfaəti və Kövsər suyu nəsib olmaz.

قَالَ رَسُولُ اللهِ(ص): لَيْسَ مِنِّى مَنِ اسْتَخَفَّ بِصَلاتِهِ، لا يَرِدُ عَلَيَّ الْحَوْضَ، لا وَ اللهِ.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Namaza laqeyd yanaşan kəs məndən deyildir. And olsun Allaha, namaza laqeyd yanaşan kəs Kövsər hovuzuna daxil olmayacaq (Kövsər suyundan içmək ona nəsib olmayacaq).”[1]

Kövsər suyunu içmək o insanlara nəsib olacaqdır ki, namaza əhəmiyyət verir və namaz qılarkən kimin qarşısında dayandıqlarını başa düşürlər. Namaza laqeyd yanaşmaq insanı həm şəfaətdən, həm də Kövsər suyundan məhrum edər.

---

[1] Dəh qərinə, səh.181.

**6. Məstedici içkilər içmək**

İnsanları Kövsər suyundan məhrum edən amillərdən biri də məstedici içkilərin içilməsidir. Yəni hər bir kəs məstedici içki içərsə və bu haram əməldən tövbə etməzsə, ona Kövsər suyundan içmək nəsib olmayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): لَيْسَ مِنّى، مَنْ شَرِبَ مُسْكِراً، لا يَرِدُ عَلَىّ الْحَوْضَ، لا وَ اللهِ.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Məstedici içki içən kəs məndən deyildir. And olsun Allaha, şərab içən adam Kövsər hovuzuna daxil olmayacaq (Kövsər suyundan içmək ona nəsib olmayacaq)."[1]

Odur ki, dualarda belə oxuyuruq:

اَللّهُمَّ ارزُقنِى شَفاعَةَ مُحَمَّدٍ وَ آلِهِ عِند الْحَوض الْمُورُود

-İlahi, Kövsər hovuzunun kənarında Məhəmməd(s) və Əhli-beytinin(ə) şəfaətini mənə nəsib et.

وَاجْمَعِ اللّهُمَّ بَينِي وَ بَينَ مُحَمَّدٍ وَ آل مُحَمَّد(ص) فِي الْمَقامِ الْمَحمُود

-Allahım, məni Məhəmməd və Ali-Məhəmmədlə birlikdə bəyənilmiş məqamda qərar ver.[2]

## QIYAMƏT GÜNÜNÜN ŞİKAYƏTÇİLƏRİ VƏ ŞƏFAƏTÇİLƏRİ

Ötən bəhslərimizdə ayə və hədislərə istinad edərək qiyamət gününün mühüm mərhələlərindən yeddisi barədə lazımi qədər bəhs etdik. Qiyamət bəhsində iki mətləbimiz qalır ki, onları da qeyd etsək, demək olar ki, bu bəhsimizi

[1] Yenə orada.

[2] Yenə orada, səh.152.

sona çatdırmış olarıq. Həmin mətləblərdən biri qiyamət gününün şikayətçiləri, digəri isə şəfaətçiləri barədədir.

## Qiyamət gününün şikayətçiləri

Ümumiyyətlə, demək olar ki, dünyanın hər bir yerində məhkəmələr, bir qayda olaraq, tərəflərdən birinin şikayəti əsasında qurulur. Əgər bir nəfər məhkəməyə şikayət edərsə və şikayətçinin sözünun doğruluğu sübut olunarsa, o zaman qarşı tərəflə bağlı cinayət işi açılır. Qiyamətdə də eynilə belə olacaq. İnsan qiyamətin mərhələlərindən keçərkən Allah-təalanın dünyada ona vacib buyurduqlarına və haram etdiklərinə nə dərəcədə əməl edib-etməməsi barədə sorğu-sual aparıldıqdan sonra işlər iki məsələ üzrə tamamlanır. Həmin məsələlərdən biri odur ki, qiyamət günü bəzi kəslər insandan şikayət edəcəklər. Onların şikayətləri əsasında da məhkəmə qurulacaq. Burada yaxşı olar ki, həmin şikayətçilərlə tanış olaq.

### 1. Əziz İslam Peyğəmbəri(s)

Qiyamət günü birinci şikayətçi şəxsən İslam Peyğəmbəri(s) olacaqdır. Allah- təala Qurani-Kərimin "Furqan" surəsinin 30-cu ayəsində Həzrət Peyğəmbərin(s) dilindən belə buyurur:

وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَٰذَا الْقُرْآنَ مَهْجُورًا

-Peyğəmbər də "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdir!" – deyəcək.

İslam Peyğəmbəri(s) insanları Allaha tərəf dəvət edərkən müşriklər bəhanə gətirərək inadkarlıq göstərdilər və Həzrətin(s) dəvətini qəbul etmədilər. Onlar hər bir bəhanədən içtifadə edərək Həzrət Peyğəmbərdən(s) uzaqlaşırdılar. Həzrət Peyğəmbər(s) də onlardan Allaha

şikayət edərək belə dedi: “Pərvərdigara, mənim qövmüm Quranı tərk edib ondan uzaqlaşmışdır.”

Həzrət Peyğəmbərin(s) həmin şikayəti günü bu gün də qüvvəsində qalır. Həzrət Peyğəmbər(s) təkcə yaşadığı dövrdə deyil, bu gün də camaatı haqqa tərəf çağırır. Belə ki, Həzrət(s) Quran ayələrində “Ey insan”, “Ey camaat”, “Ey kitab əhli”, “Ey iman gətirənlər” və s. kimi xitablarla insanları haqqa tərəf səsləyir. Əgər bu belədirsə və camaat da onu dinləmirsə, deməli, Həzrət Peyğəmbərin(s) o zaman etdiyi şikayət yenə də öz qüvvəsində qalmaqdadır.

Təfsir alimləri, xüsusilə Ayətullah Əllamə Təbatəbayi qeyd olunan ayə ilə bağlı öz açıqlamasında belə buyurmuşdur: “Həzrət Peyğəmbər(s) bu şikayəti qiyamət günündə də edəcəkdir.”[1]

Yəni qiyamət günü Həzrət Peyğəmbər(s) dünyada dəvəti qəbul etməyənlərdən, haqqın qarşısında baş əyməyənlərdən, məntiq və doğru sözü qəbul etməyənlərdən şikayət edəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): أَنَا أَوَّلُ وَافِدٍ عَلَى الْعَزِيزِ الْجَبَّارِ يَوْمَ الْقِيَامَةِ وَ كِتَابُهُ وَ أَهْلُ بَيْتِي ثُمَّ أُمَّتِي ثُمَّ أَسْأَلُهُمْ مَا فَعَلْتُمْ بِكِتَابِ اللهِ وَ بِأَهْلِ بَيْتِي

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Qiyamət günü Əziz və Cabbar Allahın hüzuruna varid olan ilk kəs mən, Onun kitabı (Quran) və Əhli-beytim olacaqdır. Sonra mənim ümmətim Allahın hüzuruna varid olacaq. Sonra

[1] Təfsiri-nümunə, 15-ci cild, səh.76.

mən ümmətimdən soruşacağam: Allahın kitabı və Əhli-beytimlə necə rəftar etdiniz?”[1]

Biz ümid edirik ki, İslam Peyğəmbəri(s) qiyamət günündə bizim əlimizdən tutub cənnətə aparacaq. Əgər Həzrət Peyğəmbər(s) bizdən şikayət etsə, halımız necə olacaq? Bunun üçün də insan lazımi səlahiyyət və ləyaqət əldə etməlidir ki, Həzrət Peyğəmbər(s) onun əlindən tutub cənnətə aparsın.

**2. Quran**

Qiyamət gününün şikayətçilərindən ikincisi Allahın kitabı olan Qurandır. Qiyamət günü Quran bir neçə dəstə insandan şikayət edəcəkdir.

قَالَ الصّادِقُ(ع): ثَلَاثَةٌ يَشْكُونَ إِلَى اللَّهِ عَزَّ وَ جَلَّ... وَ مُصْحَفٌ مُعَلَّقٌ قَدْ وَقَعَ عَلَيْهِ الْغُبَارُ لَا يُقْرَأُ فِيهِ

-İmam Sadiq(ə) buyurur: “Üç kəs Allaha şikayət edəcək… Onlardan biri də üstünü toz basmış və oxunmayan Quranın səhifələridir.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): الغُرَباءُ في الدنيا أربَعةٌ: قرآنٌ في جَوفِ ظالِمٍ... في بَيتٍ لا يُقرَأُ فيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Dünyanın qəribləri dörd kimsədir... Onlardan biri zalım insanın oxuduğu Quran, digəri isə evlərdə oxunmayan Qurandır.”[3]

[1] Üsuli-kafi, 4-cü cild, səh.400.
[2] Yenə orada, səh. 417.
[3] Mizanül-hikmə, 10-cu cild, hədis – 16554.

Bu hədisi azacıq da olsa şərh edək. Evlərdə qalıb oxunmayan Quran dedikdə, hamıya məlumdur ki, kim Quranı evdə saxlayıb onu oxumazsa, qiyamət günü Quran həmin şəxsdən şikayət edəcəkdir. Zalım insanın oxuduğu və yaxud əzbərləyib sinəsində saxladığı Quran dedikdə isə, zalım bir insanın kimisə məhkum etmək üçün onun ayələrini oxuması və ondan sui-istifadə etməsi başa düşülür.

Quran bir neçə cəhətə görə Allaha şikayətlənib deyəcək: "İlahi, məni tanımadılar, mənim mənalarımı təhrif etdilər, mənim ayələrimə əməl etmədilər. Məni yalnız gözəl səslə oxudular (ayələrimə əməl etmədilər), məndən təkcə istixarə üçün istifadə etdilər."

Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət gününün şikayətçilərindən biri Qurandır. Quran Allaha şikayət edib belə deyəcək: Pərvərdigara, məni yaxşı (gözəl xətlə, bəzək-düzəklə) yazıb çap etdilər. Əməldə isə məni və qanunlarımı parça-parça etdilər."[1]

Siffeyn müharibəsi İslam tarixində ən ağır və çətin məqamlardan biridir. Tarixdə Həzrət Əlinin(ə) məzlumluğunun ən böyük faktlarından biri də elə bu müharibə zamanı baş vermişdi. Siffeyn döyüşündəki gecələrdən biri "Leylətül-hərir" kimi tanınır və qəbul edilir. Bu, həmin gecə idi ki, Malik Əştər axşam azanına yaxın ön cəbhədə döyüşə başlamışdı. Onun döyüşü sabahısı günün axşam və o birisi günün zöhr azanına qədər davam etdi. Döyüş təxminən otuz altı saat davam etdi. O, elə bir vəziyyətdə döyüşürdü ki, azacıq üzünü çevirsəydi, düşmənin zərbəsi qaçılmaz olardı. Bu zaman

---

[1] Dəh qərinə, səh.254.

Əmr ibn As gördü ki, Həzrət Əlinin(ə) qoşunu artıq onların qərargahına çatıb. Müharibə azacıq davam etsə, onlar məğlub olacaqlar. Tez özünü Müaviyəyə yetirib dedi: “Göstəriş ver, nə qədər Quran varsa, hamısını nizələrin ucuna taxıb yuxarı qaldırsınlar. Belə olduqda Əlinin(ə) qoşunundakı əsgərlərin hamısı görsələr ki, biz Quran kitablarını başımızın üstünə qaldırmışıq və Allahın hökmünü uca tutmuşuq, müharibə bizim xeyrimizə qurtaracaq. Yox, əgər bir dəstə görsə və digər dəstə görməsə, o zaman onların aralarında ixtilaf düşəcək. Onların arasında ixtilaf düşsə, yenə də biz müharibəni udacağıq.

Onlar belə də etdilər və Quran kitablarını nizələrin başına taxaraq başlarının üstünə qaldırıb camaata dedilər: “Ey camaat, qoy Quran sizinlə bizim aramızda hakim olsun.” Həzrət Əlinin(ə) ətrafındakılardan bəzisi dedi: “Ya Əli, biz onların əllərində bayraq etdiyi Quranları vuraqmı?” Həzrət Əli(ə) buyurdu: “Onlar Quranı Quranla yıxmaq istəyirlər. Onların nizələrə taxdıqları kağız və mürəkkəbdir. Canlı Quran mənəm.” Ancaq onlar Həzrətin(ə) sözünə qulaq asmayıb dedilər: “Biz Quranla müharibə etməyəcəyik.”

Hətta qoşunun içində olan bəzi nadürüst və nadan insanlar qılınclarını İmam Əliyə(ə) qarşı çevirib dedilər: “Əgər döyüşü saxlamasan, səni öldürəcəyik.” Bu zaman Malik Əştər bir neçə dəqiqəyə işi tamamlayaçağı barədə İmama(ə) xəbər göndərdi. Lakin İmam(ə) ona geri qayıtmağı əmr etdi.

Bu hadisədən söz açmaqda məqsədimiz odur ki, məgər Quranın, nübüvvət və imamətin əleyhinə hiylə işlədərək məhz elə Quranın özündən istifadə edərək onları nizələrin başına taxanlardan və eləcə də həmin hiyləyə

aldanan cahillərdən qiyamət günü Quran Allaha şikayət etməyəcəkmi?

Vəlid ibn Yəzid ibn Əbdülməlik Əməvi xəlifələrindən biri idi ki, şəhvətpərəstlik və şərabxorluq kimi məsələlərdə onun adı məşhur idi. O, şərabı kiçik piyalələrlə deyil, böyük qədəhlərlə içərdi. Tarixi mənbələrdə yazılanlara görə, gün ərzində onun bir-iki saat ayıq və ağlı başında olan vaxtı olmurdu. Şərab içdikdən sonra isə zinakarlıq edər və pis sözlər danışardı. Onun çox pis və xoşagəlməz şeirləri var idi ki, həmişə şərab içdikdən sonra onları oxuyardı.

O, günlərin birində taleyi barədə düşünərək niyyət edib hansı ayənin onun bəxtinə düşəcəyi məqsədilə Quran kitabını açdı. Quranı açan kimi gözü "İbrahim" surəsinin 5-ci ayəsinə sataşdı:

وَاسْتَفْتَحُوا وَخَابَ كُلُّ جَبَّارٍ عَنِيدٍ

-(Peyğəmbərlər düşmənləri üzərində qələbə çalmaqdan ötrü Allahdan kömək dilədilər.) Hər bir inadkar təkəbbür sahibi (haqdan inadla üz döndərən və Allaha itaət etməyi özlərinə sığışdırmayan kafirlər) isə ziyana uğradı.

O, bu ayəni oxuyan kimi əsəbiləşərək Quran kitabını oxla dəlik-deşik etdikdən sonra (yaxud Quranı parça-parça edərək) belə bir şeir oxudu:

أَتُوعَدُ كُلَّ جَبّارٍ عَنيدٍ    فَها أَنا ذاك جَبّارٌ عَنِيدٌ

إِذا مَا جِئتَ رَبُّك يَومَ حَشرٍ    فَقُل يَا رَبّ مَزّقَنِي الوَلِيد

-Məni inadkar və təkəbbürlü adlandırmaqla təhdid edirsən? Bəli, mənəm həmin inadkar təkəbbürlü. Məhşər günü Rəbbinin qarşısına çıxanda, deyərsən ki, ya Rəbb Vəlid məni dəlik-deşik edib cırdı.

Çox az bir müddət keçməmiş onun hakimiyyətinə son qoyuldu və Vəlid ibn Yəzid ibn Əbdülməliyin başını kəsib Darul-İmarədə asdılar.

**3. Həzrət Peyğəmbərin(s) Əhli-beyti**

Qiyamət gününün şikayətçilərindən biri də Həzrət Peyğəmbərin(s) itrəti və Əhli-Beytidir(ə). Hədislərdə belə nəql olunur ki, Həzrət Peyğəmbərin(s) Əhli-beyti(ə) qiyamət günü Allaha şikayət edərək deyəcəklər:

يَا رَبِّ قَتَلُونَا وَ طَرَدُونَا وَ شَرَّدُونَا

-Pərvərdigara! bizi öldürdülər, sürgün və sərgərdan etdilər.[1]

Tarixi mənbələrə nəzər saldıqda Həzrət Peyğəmbərin(s) itrət və övladlarına qarşı doğrudan da tükürpədici işgəncələr verildiyinin şahidi oluruq. Harada seyid - Peyğəmbər(s) balası görürdülərsə, uşaqlarına belə rəhm etmirdilər. Kərbəla hadisəsi də bunun bariz nümunəsidir ki, onlar hətta altıaylıq körpəni belə öldürməkdən çəkinmədilər. Bundan əlavə, bütün tarix boyu azyaşlı seyidlərin Əhli-beytlə(ə) əlaqəli olduqlarını görüb onların da başlarını kəsir və ya diri-diri divara hörürdülər. Odur ki, dünyanın müxtəlif yerlərində bu gün belə mövcud olan imamzadələr çox şeylərdən bizlərə xəbər verir. Həmin imamzadələrdə sürgün olunmuş və qətlə yetirilmiş İslam Peyğəmbərinin(s) övladları – seyidlər uyuyurlar.

Həzrət Əli(ə) xütbələrinin birində nadan insanların əlindən təngə gələrək Allaha belə şikayət edir:

[1] Dəh qərinə, səh.256.

إِلَى اللهِ أَشْكُو مِنْ مَعْشَر يَعِيشُونَ جُهَّالاً، وَيَمُوتُونَ ضُلاَّلاً، لَيْسَ فِيهِمْ سِلْعَةٌ أَبْوَرُ مِنَ الكِتَابِ إِذَا تُلِيَ حَقَّ تِلاَوَتِهِ، وَلاَ سِلْعَةٌ أَنْفَقُ بَيْعاً وَلاَ أَغْلَى ثَمَناً مِنَ الكِتَابِ إِذَا حُرِّفَ عَنْ مَوَاضِعِهِ

-Cəhalət və nadanlıqla yaşayan, azğınlıqla ölən dəstədən Allaha şikayət *(öz dərdlərimi izhar)* edirəm. Doğru oxuduqda və onda heç bir dəyişiklik etmədikdə onlar üçün Allahın kitabından daha kasad və dəyərsiz mal yoxdur. Təhrif və dəyişiklik etdikdə *(öz batil qərəzlərinə uyğun təvil etdikdə)* ondan qiymətli və geniş yayılmış başqa bir mal olmaz. [1]

Kərbəla hadisəsindən sonra əsirləri İbn Ziyadın sarayına gətirdilər. Xanım Zeynəb(s.ə) gəlib əyləşdi və bütün qızlar da onun kənarında əyləşdilər. İbn Ziyad baxıb dedi: “Bu qadın kimdir belə, hamı onun ətrafında əyləşib?” Heç kəs ona cavab vermədi. İbn Ziyad bir də soruşdu. Dedilər ki, bu, Həzrət Peyğəmbərin(s) qızı Fatimənin qızı Zeynəbdir. İbn Ziyad Xanım Zeynəbin(s.ə) adını eşidən kimi baxıb dedi:

اَلْحَمْدُ للهِ الَّذِى قَتَلَكُم وَ فَضَحَكُم

-Həmd-səna olsun Allaha ki, sizi rüsvay edib qətlə yetirdi.

Xanım Zeynəb(s.ə) ona belə cavab verdi:

اَلْحَمْدُ للهِ الذِى اَكْرَمَنا بِنَبِيِّهِ مُحَمَّد وَ طَهَّرَنا مِنَ الرِّجْس تَطْهِيرا ، اِنَّما يُفْتَضَح الفاسِق و يَكْذِب الفاجِر وَ هُو غَيْرَنا

[1] Nəhcül-bəlağə, 17-ci xütbədən.

-Həmd olsun Allaha ki, bizi Peyğəmbər Məhəmmədlə(s) əzizlədi və hər növ çirkinlikdən pakladı. Şübhə yoxdur ki, fasiq rüsvay olar və facir yalan deyər. O isə biz deyilik, sizsiniz.

İbn Ziyad dedi:

كَيْفَ رَاَيْت صُنعَ الله بِاَخِيكَ وَ اَهْلِ بَيْتِك

-Allahın qardaşına və əhli-beytinə etdiyini necə, gördün?

مَا رَئَيْتُ اِلاّ جَمِيلاً هؤلاء قَومٌ كَتَبَ اللهِ عَلَيْهِم القَتْل فَبَرَزُوا الى مضاجعهم، و سيجمع الله بينك و بينهم، فَانظُر لِمَن يَكون الفلج، ثَكَلَتكَ اُمُّكَ يا ابْن مَرْجانَة...

-Xanım Zeynəb(s.ə) buyurdu: "Gözəllikdən başqa bir şey görmədim. Onlar elə insanlardır ki, "Allah şəhadəti onların müqəddəratına qismət etdi və onlar öz qətlgahlarına qovuşdular. Tezliklə Allah səninlə onları bir yerə cəm edər. Elə isə bax gör qələbə kimə məxsusdur? Anan matəminə otursun, ey Mərcanənin oğlu!.."

*Qorx o gündən bizə Cibrili Əmin yavər ola,*
*Qurula məhkəmə, Allah arada davər ola,*
*Sən ilən Hərmələ, mənnən də Əliəsğər ola.*

**4. Təqvalı alimlər**

Qiyamət gününün şikayətçilərindən dördüncü qismi təqvalı alimlərdir.

قَالَ الصّادِقُ(ع): ثَلَاثَةٌ يَشْكُونَ إِلَى اللَّهِ عَزَّ وَ جَلَّ ... وَ عَالِمٌ بَيْنَ جُهَّالٍ

-İmam Sadiq(ə) buyurur: "Üç kəs Allaha şikayət edəcək… Onlardan biri də cahil və nadan insanların arasında yaşayan alimlərdir."[1]

Əlbəttə, burada həqiqi mənada alimdən, öz elminə əməl edən təqvalı, pak, nurani və ruhani insanlardan söhbət gedir. Bu alimlər cahil və nadan insanların əlindən Allaha şikayət edib deyəcəklər ki, İlahi, onlar bizim biliyimizdən istifadə etmədilər, öyrətmək də istədik, amma öyrənmədilər.

**5. Məscid**

Məscidlər də qiyamət günü orada namaz qılmayan insanlardan Allaha şikayət edəcəklər.

قَالَ الصّادِقُ(ع): ثَلاَثَةٌ يَشْكُونَ إِلَى اللَّهِ عَزَّ وَ جَلَّ مَسْجِدٌ خَرَابٌ لَا يُصَلِّي فِيهِ أَهْلُهُ

-İmam Sadiq(ə) buyurur: "Üç kəs Allaha şikayət edəcək… Onlardan biri də camaatın namaz qılmadığı və viran qalmış məsciddir."[2]

Həzrət Peyğəmbər(s) buyurur: "Məscid Allah dərgahında şikayət edərək belə deyəcək:

يَا رَبّ عَطَّلُونِي وَضَيَّعُونِي

-Ey mənim Rəbbim, məni tətil edib (boş qoyub), haqqımı zay etdilər.[3]

[1] Üsuli-kafi, 4-cü cild, səh.417.
[2] Üsuli-kafi, 4-cü cild, səh.417.
[3] Dəh qərinə, səh. 255.

Ümumiyyətlə, məscidin özünəməxsus hörmət və ehtiramı vardır. Məscidlər dünyanın ən müqəddəs və pak yerləridir. Məscidlərə qarşı qətiyyən hörmətsizlik etmək olmaz. Hətta sarımsaq yedikdən sonra belə məscidə gedilməməlidir. Bu o demək deyil ki, sarımsaq yemək olmaz. Sarımsaq Allahın yaratdığı faydalı bir nemətdir, lakin insan onu yeyib məscidə getməməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): مَن أَكَلَ هَذهِ الْبَقلَة فَلا يَقرَب مَسجِدنا، فَأَمّا مَن أَكَله وَلَمَ يَأتِ الْمَسجِدَ فَلا بَأس

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim sarımsaq yeyərsə (o gün) məscidimizə yaxınlaşmasın. Kim sarımsaq yediyi üçün məscidə gəlməsə, qorxusu (eybi) yoxdur."[1]

Yəni insan məscidə getmək istədiyi gün onun hörmətinə xatir sarımsaq yeməməlidir. Həmçinin insan məscidə daxil olduqda həmin müqəddəs ocağa ehtiram əlaməti olaraq orada iki rükət namaz da qılmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): لاتَجْعَلُوا الْمَسَاجِدَ طُرُقاً حَتَّى تُصَلُّوا فِيهَا رَكْعَتَيْنِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Məsciddə iki rükət namaz qılmadan oranı özünüz üçün keçid yeri etməyin."[2]

قَالَ رَسُولُ اللهِ(ص): يا أبا ذَرٍّ، إنّ الله تعالى يُعطِيكَ مادُمتَ جالِساً في المِسجِدِ بِكُلّ نَفَسٍ تَنَفَّستَ دَرَجةً في الجَنَّةِ، وتُصَلِّي عليكَ

[1] Gəncineyi-məarif, 3-cü cild, səh. 758.
[2] Yenə orada.

الملائكةُ، ويُكتَبُ لَكَ بِكُلِّ نَفسٍ تَنَفَّستَ فيهِ عَشرُ حَسَناتٍ، ويُمحى عَنكَ عَشرُ سَيِّئاتٍ

-Həzrət Peyğəmbər(s) Abuzərə buyurmuşdur: “Ey Abuzər! Məsciddə oturduğun müddətdə Allah-təala hər aldığın nəfəs üçün sənə cənnətdə bir dərəcə verər, mələklər sənə salam göndərər, məsciddə çəkdiyin hər bir nəfəsə görə sənə on yaxşı əməlin savabı yazılar və on günahın silinər.”[1]

[1] Yenə orada.

## Qiyamət gününün şəfaətçiləri
## (Şəfaətin məna və həqiqəti)

Qiyamət barədə bəhs edəcəyimiz sonuncu və mühüm mətləb şəfaət məsələsidir. İslamda firqələr arasında şəfaət məsələsi ilə bağlı demək olar ki, heç bir ixtilaf yoxdur. Sadəcə olaraq firqələrdən birinə məxsus olan bir qrup alim şəfaətin özü barədə yox, onun xüsusiyyəti və şəfaətin kimə olunacağı barədə fərqli fikirlər irəli sürmüşlər. Lakin bir qrup insanlar da var ki, ümumiyyətlə, şəfaət məsələsini qəbul etmirlər. Onların şəfaət məsələsini qəbul etməmələrinin əsası da bəlli deyil. Həmçinin imamlarının kitablarında və sözlərində də şəfaət məsələsi inkar edilməyib, amma bu məsələdə nəyə istinad etdikləri də məlum deyil. Görünür, bir qrup insan bu məsələni heç bir kitaba, heç bir hədisə söykənmədən ortaya atmışdır.

Bu məsələyə aydınlıq gətirmək üçün ilk növbədə şəfaətin mənasını və onun nə olduğunu bilmək lazımdır. Odur ki, öncə şiə və əhli-sünnə alimlərinin şəfaət barədə söylədiklərinə, habelə bu barədə olan ayə və hədislərə nəzər salaq.

## Şəfaət nədir?

Əlbəttə, şəfaət çox incə bir mətləb olduğundan ona daha artıq dərəcədə diqqət yetirmək lazımdır. İslamda şəfaətin mənası belə açıqlanır: “Övliyaların (Allaha yaxın bəndələrin) qiyamət günündə Allahın izni ilə Onunla və sevdiyi insanlarla əlaqələri tam qırılmayan günahkar bəndələrə kömək etmələrinə şəfaət deyilir.”[1]

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh. 3.

Bu, şəfaətin bir cümlə ilə qısa açıqlamasıdır. Amma bu fikri bir qədər də açmaq istəsək, o zaman qeyd etməliyik ki, bunun bir şərti odur ki, qiyamət günü Allahın bəyəndiyi kəslər şəfaət edəcək. İkincisi budur ki, Allah-təalanın izni ilə şəfaət edəcəklər. Üçüncü şərt odur ki, günahkar insanlar şəfaət olunacaqlar. Dördüncü şərt isə odur ki, bu məsələ Allah, Həzrət Peyğəmbər(s), məsum imamlar və övliyalarla əlaqəsi tam üzülməyən günahkar insanlara şamildir.

Sual oluna bilər ki, qiyamət günü günahkarlara şəfaət edildikdə onlara nə olacaq? Bu sualın cavabında yalnız bir firqənin bəzi alimləri fərqli fikirlər irəli sürmüşlər. Onların və digər firqələrin də bu barədə olan fikirlərini gələcək bəhslərimizdə təqdim edəcəyik. Yuxarıdakı sualın cavabına gəldikdə isə, Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) buyurduqlarına əsasən, qiyamət günü günahkar adamlar şəfaət olunduqda onların günahları bağışlanacaq və onlar da cənnət əhlinə qoşulacaqlar.

Bu fikrə müxalif olanlar isə deyirlər ki, qiyamət günü günahkar insanlara deyil, möminlərə şəfaət olunacaq. Sual oluna bilər ki, əgər mömin cənnətə gedəcəksə, daha onun şəfaətə nə ehtiyacı var? Yaxud şəfaət olunduqda bunun ona nə xeyri olacaqdır? Onlar bu sualın cavabında deyirlər ki, mömin şəxsə şəfaət olunduqda onun dərəcəsi artacaq. Məsələn, onların cənnətdə dərəcəsi on dərəcə idisə, şəfaət olunduqdan sonra on beşə yüksələcəkdir.

Onların bu fikrinin nə dərəcədə doğru olub-olmadığına sonradan aydınlıq gətirəcəyik. Odur ki, əvvəlcə şəfaətin nə olduğunu diqqətinizə çatdırmaq istəyirəm. Məsələn, imkanı az olan zəif bir insan özündən imkanlı və güclü başqa bir şəxsdən kömək istəyir. Bu, həmin zəif insanın inkişaf etmək üçün istedadı olmasına baxmayaraq,

məqsədə çatmaq üçün özündən güclü və imkanlı bir şəxsdən kömək istəməsidir. Bir şərtlə ki, kömək istəyən şəxsin zəif də olsa imanı olsun. Məhz belə bir vəziyyətdə imkanı və qüdrəti olan bir şəxsin onun əlindən tutub irəli çəkməsinə şəfaət deyilir. Əlbəttə, bu zaman kömək diləyən şəxsin də ruhi kamillik baxımından o qədər də tənəzzül etməməsi, təkamül və çalışqanlığı əldən verməyib özünün pak insana dönmə imkanını məhv etməməsi tələb olunur.[1]

Bəziləri elə təsəvvür edirlər ki, günahkarlar dedikdə Yezidlər, Həccaclar, Fironlar, Nəmrudlar kimi günahkarlara da şəfaət olunacaq və onları da cənnətə aparacaqlar. Görünür, bəziləri məhz məsələni səhv başa düşdüklərinə görə öz etiraz və iradlarını bildirmişlər. Onların bu kimi düşüncə və iradlarına cavab olaraq deyirik: "Əvvəla, şəfaət o kəsə olunacaq ki, onun Allah və Həzrət Peyğəmbərə(s) olan iman əlaqəsi tam üzülməyib. Bu kəs inkişaf etmək istəyir, amma təkana və şəfaətə ehtiyacı var. Yezidə gəldikdə isə, o, Allah-təala və Həzrət Peyğəmbərlə(s) əlaqəsini tamamilə qırmışdır. Onda zərrə qədər də olsa imandan əsər-əlamət belə yox idi."

İmam Hüseynin(ə) başını teştin içinə qoyub Yezidin qarşısına gətirdikdə o, əlindəki çubuqla Həzrətin(ə) dodaqlarına vurub dedi: "Bu gün Bədr döyüşünün intiqamı alındı." Sonra isə o, bir şeir oxudu ki, məzmunu belədir: "Kaş Bədr döyüşündə ölən ata-babam və böyüklər görəydilər ki, bu gün Bədrin intiqamını necə alıram. Əgər onlar bu günü görsəydilər, deyərdilər ki, əllərin var olsun, Yezid. Bəni-Haşim hakimiyyət məsələləri ilə oynadı.

[1] Mənşuri-Cavid, 8-ci cild, səh. 4.

İndiyə qədər heç bir vəhy gəlməmişdir. Kim deyir ki, Peyğəmbərə(s) vəhy nazil olub? Bütün bunların hamısı boş sözlərdir.”

Qiyamət günü Yezidə və onun kimilərə şəfaət yoxdur. Çünki o, bütünlüklə kafir idi. Kafirə isə qiyamətdə şəfaət olunmayacaq.

Bundan əlavə, qeyd olundu ki, şəfaətin şərtlərindən biri də Allahın iznidir. Allahın izni olmadan heç bir kəs şəfaət etməyəcək. Firon yer üzündə dörd yüz il Allahlıq iddiası etmişdir. Qiyamət günü kim onun əlindən tutub cənnətə apara bilər? Allah heç bir kəsə izn verməz ki, ona şəfaət etsin. Qiyamət gününün hakimi Allahdır. Kimə nəyin ixtiyarını versə, bu, Onun öz işidir. Yer üzündə də hökmranlıq Allaha məxsusdur. Allah yer üzündə Öz hakimiyyətinin yerinə Həzrət Peyğəmbəri(s) təyin edib. Odur ki, Həzrət Peyğəmbərdən(s) başqa yer üzündə heç bir kəsin hökmranlıq etməyə ixtiyarı yoxdur. Allah bu ixtiyarı yalnız ona vermişdir və o da istədiyi şəxsi öz yerinə təyin edə bilər. Ondan başqa harada olmasından asılı olmayaraq hər kim hökmranlıq edirsə qəsbkardır. Yalnız Allahın izni ilə Həzrət Peyğəmbər(s) hakim ola bilər və həmçinin Həzrət(s) kimə izn versə, həmin şəxs hakim ola bilər. Əmr sahibi o kəsdir ki, Allahın izni ilə Həzrət Peyğəmbər(s) tərəfindən təyin olunmuş olsun. Əmr sahibini təyin etmək şuraya aid olan bir məsələ deyil. Şuraya Allahın və Həzrət Peyğəmbərin(s) işinə qarışmağa ixtiyar verilməyib.

Dünyanın hakimi Allahdır və Öz hakimiyyətinin ixtiyarını növbə ilə bir zaman Həzrət İbrahimə(ə), Həzrət Musaya(ə), Həzrət İsaya(ə) tapşırdığı kimi, bir zaman da İslam Peyğəmbəri Həzrət Məhəmmədə(s) vermişdir. Bu məsələyə qarışmağa da heç bir kəsin icazəsi yoxdur.

Qiyamətin sahibi və hakimi də Allahdır və buna heç bir kəsin şəkk-şübhəsi ola bilməz. Qiyamət günü kimə nə ixtiyar verəcəksə, o da Onun Öz işidir. Məsələn, Kövsər suyu Allahındır. Allah-təala onu Həzrət Peyğəmbərə(s) əta edib. Şəfaət Allaha məxsusdur. Allah şəfaət ixtiyarını da Öz Peyğəmbərinə(s) inayət edib. Kim buna irad tuta bilər ki, nə üçün Allah Kövsəri, şəfaət etmək ixtiyarını Həzrət Peyğəmbərə(s) verib?

Burada bir mətləbə də diqqət yetirməyə ehtiyac vardır. Həmin mətləbi açıqlamaq üçün öncə dünyada mövcud olan qanunları buna misal olaraq çəkmək istərdik. Belə olduqda həmin məsələni başa düşmək daha rahat olacaqdır. Dünyada mövcud olan beynəlxalq qanunlardan biri müvafiq vaxtlarda həbsxanalardakı cinayətkarlarla bağlı əfv fərmanlarının verilməsidir. Bir qayda olaraq bəzi ölkələrdə dövlət rəhbərləri müəyyən münasibətlərlə və əlamətdar günlərlə əlaqədar bir qrup məhkumu əfv edirlər. Beləcə, ölkə rəhbərliyinin imzaladığı müvafiq əfv fərmanı əsasında bəzi dustaqlar azadlığa buraxılırlar. Ümumiyyətlə, bütün dünya praktikasında əfv fərmanının imzalanmasının əsas iki səbəbi vardır. Birincisi, əfv edənin nəzərində həbsdə olanların islah edilmələrinə və hidayət olunmalarına ümid yaranması, ikincisi isə, həbsdə olanların özlərində də hidayət olma ümidinin yaranmasıdır. Yəni onlar üçün nicat və çıxış yolu olduğunu görüb məyus olmasınlar və bu yolda qarşılarına məqsəd qoysunlar.

Şəfaət məsələsi də eynilə buna bənzər bir şeydir. Şəfaət məsələsinə irad tutan hər bir kəsə sual vermək lazımdır ki, əgər cinayətkarların həbsxanadan buraxılmaları barədə əfv fərmanı verilirsə və bu əfv fərmanları insanların cinayət əməllərinə rəğbətini bir

qədər də artırırsa, onda nə üçün onlar bu kimi qanunlara öz etirazlarını bildirmirlər? Aydındır ki, dövlət rəhbərlərinin imzaladıqları bu kimi fərman və qanunların da özünəməxsus şərtləri vardır. Həmin şərtlər təmin olunduqdan sonra heç bir eybi yoxdur.

Deməli, ləyaqəti olan kəslərə şəfaət etməyin də iki faydası vardır. Birincisi, dini və əxlaqi həyata başlamaq üçün onda ümid yaratmaq, ikincisi, insanın Allahla olan əlaqəsini möhkəmləndirmək.

Burada qarşıya yenə bir sual çıxır. Həmin sual belədir: "Bir insan günah etdikdən sonra şəfaət olunur və günahları bağışlanır. Biri də var ki, günahdan qabaq insana şəfaət olunacağı barədə xəbər verilir. Belə olduqda bəzi insanların günah etməyə rəğbətləri artar və onlar şəfaət olunacaqları ümidilə müxtəlif günahlara aludə olarlar. Bu doğrudurmu?"

Qeyd olunan sualın cavabı ilə əlaqədar olaraq öncə bir misala nəzər yetirək: Məsələn, bir qrup əsgərə dağın başında qala, yaxud qərargah tikmək tapşırığı verirlər. Komandir əsgərlərə göstəriş verir ki, tikinti işlərini aparmaq üçün lazım olan bütün material və avadanlıqları dağın başına qaldırsınlar. Əsgərlərin bəzisi fiziki baxımdan zəif olduğundan komandir ürək-dirək verərək deyir ki, yolda hər bir kəsə kömək göstəriləcək və heç bir kəs üçün narahatlıq yaranmayacaq. Bu zaman fiziki baxımdan zəif olan əsgərlərə ürək-dirək vermək məgər pisdirmi? Əlbəttə ki, pis deyil. Fiziki baxımdan zəif olan şəxslərə öncədən belə bir ümidin verilməsi ilə sonradan verilməsinin nə fərqi var? Heç bir fərqi yoxdur. Odur ki, əgər birinə şəfaət olunacağı barədə xəbər qabaqcadan deyilərsə, təbiidir ki, onda ümid yaranar. Daha çox çalışar ki, özünü şəfaət olunmağa layiq bir şəxs kimi göstərsin.

Bunun üçün ilk növbədə günah əməllərdən əl çəkər və şəfaət olunması üçün lazımi işləri görər.

Hacib adlı bir şair deyir: "Mən elə düşünürdüm ki, insan nə qədər günah etsə, qiyamət günü Həzrət Əli(ə) ona şəfaət edəcək. Əgər belədirsə, onda Həzrət Əlini(ə) sevənlər dünyada istədikləri qədər günah edə bilərlər. Bir gün qələmi götürüb belə bir şeir yazdım:

حاجب! اگر معامله حشر با علی است

من ضامنم تو هر چه بخواهی گناه کن

*Hacib, əgər həşr gününün hesabı Əli(ə) ilədirsə,*
*Mən zaminəm, istədiyin qədər günah edə bilərsən.*

Bu şeri yazıb qurtardıqdan sonra gecə yuxuda Həzrət Əlini(ə) gördüm. Həzrət(ə) qəzəbli halda mənə buyurdu: İkinci misranı dəyişib belə yazarsan:

حاجب! اگر معامله حشر با علی است

شرم ز رخ علی کن و کمتر گناه کن

*Hacib, əgər həşr gününün hesabı Əli(ə) ilədirsə,*
*Əlinin(ə) üzünə necə baxacağından utan, az günah elə.*

Yuxudan ayılıb tez Həzrət Əlinin(ə) buyurduğu kimi yazdım və öpüb gözümün üstünə qoydum."

Deməli, şəfaət odur ki, Allahla, Həzrət Peyğəmbərlə(s) və imamlarla iman əlaqəsi tamamilə üzülməmiş zəif və günahkar bir insana qiyamət günü Allah-təalanın izni ilə köməklik göstərilsin.

**İslam alimlərinin şəfaət barədə fikirləri**

Firqəsindən asılı olmayaraq şiə və əhli-sünnə alimləri şəfaəti İslamın əsas məsələlərindən biri hesab edirlər. Hətta şiə və əhli-sünnə alimlərinin arasında şəfaətin özü

barədə heç bir ixtilaflı məsələ yoxdur. Yəni hamı yekdilliklə qiyamət günü şəfaətin olacağını qəbul etmişlər. İslam dünyasında istər şiə, istərsə də sünni alimlər şəfaət barədə tədqiqatlar aparmış, həmçinin ayə və hədislərə istinad edərək öz fikir mülahizələrini söyləmişlər. Qısaca onu deyə bilərik ki, həm şiə, həm də əhli-sünnənin ən görkəmli nümayəndələri şəfaəti qəbul etmiş və bu barədə öz nəzəriyyələrini irəli sürmüşlər. Lakin burada çox yaxşı olardı ki, qısaca da olsa həmin alimlərin bəzilərinin fikirləri ilə tanış olaq.

İslamda bütün alimlər, yuxarıda qeyd olunduğu kimi, şəfaətin mənasını qəbul etmişlər. Lakin əhli-sünnənin firqələrindən olan mötəzilə və xəvaricin təmsilçilərinin şəfaət məsələsinə yanaşması bütün digər alimlərin yanaşmalarından fərqlidir. Bütövlükdə alimlərin bu məsələ ilə bağlı nəzəri ondan ibarətdir ki, qiyamət günü Həzrət Peyğəmbər(s), məsum imamlar və möminlər günahkar insanlara şəfaət edəcəklər. Məhz həmin şəfaətin nəticəsində Allah-təala günahkar insanları bağışlayıb cənnətə aparacaq. Amma mötəzilə və xəvaricin təmsilçiləri bu fikirdədirlər ki, qiyamət günü günahkar insanlar şəfaət olunmayacaqlar. Amma mötəzilə və xəvaricin təmsilçiləri belə düşünürlər ki, qiyamət günü yalnız mömin insanlar şəfaət olunacaqlar və beləcə, onların dərəcələri yüksələcək.[1]

**Mərhum Şeyx Müfidin (şiə alimi) nəzəri**

Şeyx Müfid İslam dünyasında şiə alimləri içərisində parlaq ulduz kimi tanınmış böyük alimdir. O, elə bir

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.14.

şəxsiyyət idi ki, dəfələrlə İmam Zaman(ə.c) ona məktub yazmış və həmin məktublarda ona "qardaş" - deyə müraciət etmişdir.

Şeyx Müfid deyir: "İmamiyyə (şiə) alimlərinin hamısının nəzəri budur ki, qiyamət günü İslam Peyğəmbəri(s), hətta Həzrət Əli(ə) və digər məsum imamlar günahkar insanlara şəfaət edəcəklər. Onların şəfaəti nəticəsində həmin günahkar insanlar nicat tapacaqlar."

Əlbəttə, gələcək bəhslərimizdə şəfaət olunmuş insanların dərəcələrinin nə qədər olacağı və bütövlükdə şəfaətin şərtləri barədə də söz açacağıq. Biz əvvəldə qeyd etdik ki, iman əlaqələrini Allahdan, Həzrət Peyğəmbərdən(s) və məsum imamlardan tamamilə üzməyən günahkar insanlar şəfaət olunacaqlar. Yəni onlar az da olsa əlaqələrini saxlamış olmalıdırlar.

**Mərhum Təbərsinin (şiə alimi) nəzəri**

Təbərsi İslam dünyasında tanınmış şiə alimlərindən biridir və Quranın təfsiri ilə bağlı oncildlik "Məcməül-bəyan" əsərini yazmışdır. Ərəb dilində yazılmış bu kitab sonralar başqa dillərə də tərcümə olunmuşdur.

O deyir: "Həzrət Peyğəmbərin(s) şəfaət edəcəyi barədə bütün müsəlmanların fikri eynidir. Sadəcə olaraq mötəzilə və bəzi başqa firqələrin fikri fərqlidir. Biz imamiyyənin (şiənin) sözü budur ki, Həzrət Peyğəmbərin(s) şəfaətində məqsəd (qiyamət günü) günahkarlara əzabdan nicat verməkdir. (Yəni Allah onun vasitəsilə günahkarları bağışlayacaq.) Əlbəttə, təkcə

Həzrət Peyğəmbər(s) deyil, hətta məsum imamlar, möminlər və saleh insanlar da şəfaət edəcəklər.”[1]

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.12; Məcməül-bəyan, 1-ci cild, səh. 13 və 2-ci cild, səh. 83.

**Əllamə Hillinin (şiə alimi) nəzəri**

Əllamə Hilli şiə aləmində özünəməxsus yeri olan böyük və görkəmli alimlərdən biridir. O bildirir ki, bütün İslam alimlərinin Həzrət Peyğəmbərin(s) qiyamət günü şəfaət etmək hüququna malik olması barədə nəzəri eynidir. Qurani-Kərimdə "İsra" surəsinin 79-cu ayəsi bu məsələyə açıq-aydın sübutdur.

عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

-Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama (axirətdə ən böyük şəfaət məqamına) göndərsin!

Sonra o, Həzrət Peyğəmbərin(s) aşağıdakı hədisini nəql edir:

اِدَّخَرْتُ شَفَاعَتِي لأَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِي

-Mən şəfaətimi ümmətimdən böyük günahlara mürtəkib olanlar üçün zəxirə etmişəm.[1]

**Fəxri Razinin (əhli-sünnə alimi) nəzəri**

Fəxri Razi əhli-sünnənin ən böyük alimlərindən biridir və Qurani-Kərimin təfsiri ilə bağlı "Təfsiri-kəbir" əsərinin müəllifidir. Bu kitab camaat arasında həm də "Təfsiri-Fəxri Razi" adı ilə məşhurdur. O deyir ki, bütün İslam ümməti qiyamət günü Həzrət Peyğəmbərin(s) şəfaət etmək hüququ barədə eyni fikirdədir. (Yəni hamı yekdilliklə Həzrət Peyğəmbərin(s) şəfaət edəcəyini qəbul etmişdir.) Mötəzilə firqəsinə mənsub olanlar isə deyirlər ki, şəfaətdə məqsəd yalnız yaxşı iş görənlərə şəfaət etməkdir və bunun nəticəsində onların dərəcələri yüksələcək. Günahkar insanlar isə şəfaət olunmayacaq və

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.18.

onlara əzab çəkməkdən nicat verilməyəcəkdir. Amma bu fikir düzgün deyil və əsl həqiqət budur ki, qiyamət günü günahkarlar şəfaət olunacaq və onlar əzabdan nicat tapacaqlar.[1]

**İbn Teymiyyənin nəzəri**

Təqiyyəddin Əbu əl-Abbas Əhməd ibn Əbdülhəlim ibn Əbdüssalam ibn Teymiyyə Dəməşqi hicri qəməri təqvimi ilə 727-ci ildə dünyasını dəyişmişdir. O, vəhhabiliyin və sələfilərin təməlini qoymuş və bəzi məsələlərdə isə bütün İslam alimləri ilə müxalif olmuşdur. Məsələn, bütün İslam alimləri Allahın cism olmadığını söylədikləri halda İbn Teymiyyə Allahın cism olduğunu demişdir. O deyir: "Allah ərşdədir və (bir zaman) göyün birinci təbəqəsinə gələcək. Peyğəmbəri(s) ziyarət etmək üçün səfərə çıxmaq haramdır." Belə bir əqidəyə sahib olan İbn Teymiyyə şəfaət barədə deyir ki, Peyğəmbər(s) əzaba düçar olmuşlara şəfaət edəcəkdir. Təkcə İslam Peyğəmbəri(s) deyil, hətta bütün peyğəmbərlər və siddiqlər də günahkar insanlara şəfaət edəcəklər ki, onlar əzaba düçar olmasınlar. Əgər həmin günahkar insanlar cəhənnəmə düşsələr belə, yenə də onları oradan çıxaracaqlar.

Deməli, İbn Teymiyyə də şəfaət məsələsini təsdiqləyir, yəni qiyamət günü günahkar insanların şəfaət olunacağını, hətta onların cəhənnəmdən belə çıxarılıb əzabdan xilas ediləcəklərini söyləyir.

**Məhəmməd ibn Əbdülvəhhabın nəzəri**

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.17.

Məhəmməd ibn Əbdülvəhhab hicri qəməri təqvimi ilə 1115-ci ildə anadan olmuş və 91 il ömür sürərək 1206-cı ildə dünyasını dəyişmişdir. O, İbn Teymiyyədən sonra öz nəzəriyyələrini də əlavə etməklə onun fikirlərini davam etdirmişdir. Vəhhabilik də məhz Məhəmməd ibn Əbdülvəhhabın nəzəriyyəsi əsasında yaranmışdır. Məhəmməd ibn Əbdülvəhhab şəfaət barədə belə deyir: "İslam rəvayətlərinə əsasən qiyamət günü İslam Peyğəmbəri(s), digər peyğəmbərlər, övliyalar və körpə vaxtı dünyasını dəyişmiş uşaqlar şəfaət edəcəklər. Bizim də vəzifəmiz budur ki, həqiqi malik və şəfaətə izn verən Allahdan istəyib belə deyək: İlahi, qiyamət günü Peyğəmbərə(s) bizim barəmizdə şəfaət etməyə izn ver. Saleh insanların və mələklərin bizim barəmizdə şəfaətini də qəbul et (yəni Peyğəmbərə(s) deməməliyik ki, bizə şəfaət et. Biz Allahdan istəməliyik ki, Peyğəmbər bizə şəfaət etsin)."

Məhəmməd ibn Əbdülvəhhabın şəfaət barədə fikri budur, amma axırıncı sözü bununla tamamlanmır. Çünki onun bura qədər dediyi sözlər öz yerində düzdür, lakin əlavə olunası mətləblər də var ki, gələcək bəhslərimizdə onlara toxunacağıq.[1]

**Buxari və Müslümün (əhli-sünnə alimləri) nəzəri**

Bu iki şəxs əhli-sünnə alimləridir və onların müəllifi olduqları "Səhihi-Buxari" və "Səhihi-Müslüm" kitablarında şəfaət barədə belə bir hədis nəql olunmuşdur: "Qiyamət günü Peyğəmbər(s) alnını səcdəyə qoyaraq Allaha həmd-səna (şükür) edəcək. Bu halda Allahdan ona belə bir xitab

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.20.

gələcək: Alnını səcdədən qaldır və şəfaət et. Biz sənin şəfaətini qəbul edəcəyik.”[1]

Deməli, İslam dininin bütün firqələrinə məxsus olan alimlər qiyamət günü şəfaətin mövcud olacağını, xüsusilə Həzrət Peyğəmbərin(s) şəfaət edəcəyini təsdiqləmişlər. Lakin bugünkü gündə şəfaəti qəbul etməyənlərin və qiyamət günü Həzrət Peyğəmbərin(s) şəfaət edəcəyini inkar edənlərin nəyə əsaslanıb bu fikirləri irəli sürdükləri bəlli deyil. Onlar bu məsələ ilə bağlı bir açıqlama verməlidirlər ki, hansı sənədə əsasən bunu iddia edirlər. Əgər onlar öz alimlərinin sözlərini əllərində əsas tuturlarsa, biz həmin alimlərin şəfaət barədə söylədiklərini qeyd etdik. Yox, əgər hansısa başqa bir sənədə istinad edib bunu deyirlərsə, o zaman onlar dəlil-sübutlarını gətirməlidirlər.

## Kafirə şəfaət olunmayacaq

Burada şəfaət bəhsinə aid olan iki mətləbi də diqqətinizə çatdırmaq istəyirəm. Həmin mətləblərdən biri budur ki, qiyamət günü kafirə şəfaət olunmayacaq. İslam dinində firqəsindən asılı olmayaraq, hamının bu barədə nəzəri eynidir.

Qurani-Kərimin “Şüəra” surəsinin 101-102-ci ayələrində bu barədə açıq-aydın şəkildə söz açılmışdır. Kafirlər qiyamət günü müsəlmanlara şəfaət olunacağını görüb belə deyəcəklər:

فَمَا لَنَا مِنْ شَافِعِينَ. وَلَا صَدِيقٍ حَمِيمٍ

[1] Yenə orada, səh.23.

-İndi artıq nə şəfaət edən kimsələrimiz, nə də mehriban bir dostumuz var!

**Mömin həm şəfaət edəcək, həm də şəfaət olunacaq**

İkinci mətləb isə budur ki, qiyamət günü möminlərə şəfaət olunacaq, həm də bəzi möminlər şəfaət edəcəklər. Hər iki qisim mömin öz dərəcəsindən asılıdır.

İslam Peyğəmbəri(s) bu barədə belə buyurmuşdur: "Mən qiyamət günü şəfaət edəcəyəm və mənim şəfaətim qəbul olunacaq. Əli(ə) və digər məsum imamlar da şəfaət edəcəklər və onların şəfaəti də qəbul ediləcək. Qiyamət günü mömininin də şəfaəti qəbul olunacaq. Bir röminə ən azından qırx nəfər din qardaşına şəfaət etməyə icazə veriləcəkdir."[1]

## Quranda şəfaət məsələsi

Qeyd olundu ki, qiyamətin axırıncı mərhələsi şəfaət məsələsi ilə bağlıdır. Biz ayə və hədislərə istinad edərək şəfaət məsələsinin mənası barədə lazımi qədər bəhs etdik. Həmçinin İslam dünyasında mövcud olan bütün firqələrin alimlərinin fikri ilə də tanış olduq.

Bu bəhsimizdə isə Quran baxımından şəfaət məsələsinin təhlilinə keçək. Qeyd etməliyik ki, Quranda bütövlükdə şəfaət məsələsi ilə bağlı otuz ayə nazil olmuşdur. Həmin otuz ayəni yaxşı başa düşmək üçün onları yeddi qrupa ayıracağıq. Belə olduqda hər bir qrup üzrə əldə etdiyimiz mənaları bir-biri ilə tutuşdurub yekun bir nəticəyə gələcəyik.

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.15.

**Birinci qrup**

Həmin yeddi qrupun birincisində yalnız bir ayə vardır ki, şəfaəti qətiyyən qəbul etmir. Konkret olaraq qiyamət günü şəfaətin olmayacağını bəyan edir. Həmin ayə Qurani-Kərimin "Bəqərə" surəsinin 254-cü ayəsidir. Allah-təala bu ayədə möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ

-Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün (qiyamət günü) gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın! Kafirlərdir zalımlar!

Bu ayədən belə çıxır ki, qiyamət günü şəfaət olmayacaq. Bəzi uşaqlar mübahisə edərkən qiyamət günü şəfaətin olmayacağını iddia edərkən dəlil-sübut kimi bu ayəni gətirir və şəfaət barədə nazil olan digər ayələrə göz yumurlar. Belə olduqda da düzgün bir nəticəni əldə edə bilmirlər.

Odur ki, əvvəla, bir ayəyə görə yerdə qalan digər iyirmi doqquz ayəni unutmaq və ya onları nəzərə almamaq olmaz. İkincisi, Quranda başqa hökmlər barədə də bu qəbil məsələlərə rast gəlmək mümkündür. Yəni hər hansı bir məsələyə münasibətdə bir ayədə qəti söz deyildiyi halda, bundan fərqli olaraq digər ayələrdə həmin məsələ ilə bağlı istisnalardan bəhs edilir. İnsanlar da öz aralarında danışarkən bəzən qəti bir söz dedikdən sonra müəyyən istisnaların da mövcud olduğunu vurğulayırlar. Məsələn, bir nəfər idarə müdiri ilə görüşmək istəyir. Müdirin müavinindən bu barədə soruşduqda o, qətiyyətlə deyir: "Mümkün deyil." Ancaq müavinin qəti şəkildə bu sözü

söyləməsi ona dəlalət etmir ki, müdirlə heç bir vaxt görüşmək mümkün deyil. Yenidən soruşduqda ki, bəs onunla görüşmək üçün nə etməliyik? Müavin deyir ki, gələn həftə onunla görüşə bilərsən.

Deməli, əvvəlcə bu görüşün mümkün olmadığı söylənilir, ancaq sonradan istisna hal kimi başqa bir vaxt mümkün olduğu bildirilir. Qurani-Kərimdə şəfaət məsələsi də belədir, yəni əgər bir ayədə şəfaətin qətiyyən mümkün olmayacağı bəyan edilirsə, digər ayələrdə istisna hallar da bəyan olunur.

Belə ki, yuxarıdakı ayədə qiyamət günü şəfaətin mümkün olmayacağı bəyan edildikdən sonra elə həmin surənin 255-ci ayəsində belə buyurulur:

مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ

-Allahın izni olmadan Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?

Həmçinin eyni surənin 254-cü ayəsində qiyamət günü heç bir dostluğun olmayacağı bəyan edilsə də, “Zuxruf” surəsinin 67-ci ayəsində bu məsələ ilə bağlı istisna haldan söz açılır.

الْأَخِلَّاءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

-O gün dostlar bir-birinə düşmən kəsiləcəklər. Müttəqilər müstəsna olmaqla.

Yəni dünyada bir-biri ilə dost olanların hamısı qiyamət günü düşmən olacaqlar. Ayənin axırında isə istisna hal kimi bəyan olunur ki, təqvalılardan başqa. Odur ki, ayənin yarısını oxuyaraq istisna halları qeyd etməmək həqiqətin üzərinə pərdə çəkmək kimi bir şeydir. Ona görə də şəfaət barədə bir ayəni oxuyub digər ayələrə isə diqqət yetirməmək eynilə belədir. Bu ayədə Allah-təala təqvalı

insanların dostluqlarını istisna edir və bunun səbəbi də odur ki, təqvalı insanlar dünyada bir-birini hidayət edirlər. Onların arasında iman, yaxşı işlərə dəvət, pis işlərdən çəkindirmə, hidayət, əxlaq, bir-birinə əl tutmaq, insanlıq və s. olduğu üçün qiyamət günündə də həmin amillər qırılmayacaqdır. Amma dünyada başqa-başqa niyyətlərə görə dostluq edənlərin hamısı qiyamət günü bir-birinə düşmən kəsiləcəklər.

**İkinci qrup**

Qurani-Kərimdə şəfaət barədə olan ikinci qrup ayələrə diqqət yetirdikdə görürük ki, bu ayələrdə yalnız yəhudilərdən bəhs olunur. Bu qrupda iki ayə vardır və həmin ayələr yəhudilərin özlərinə məxsus xüsusi bir əqidəyə malik olduqlarını, həmçinin bu əqidə ilə də yaşadıqlarını təsdiqləyir. Onlar özlərindən başqa heç bir kəsi bəyənmirlər və bu günədək həmin əqidə ilə yaşayırlar. Onlar belə iddia edirlər ki, biz nə qədər günah etsək də, peyğəmbərlərin nəslindən olduğumuz üçün onlar bizi cəhənnəmə getməyə qoymayacaqlar. Buna görə də istədiyimiz günahı edə bilərik. Allah-təala onların əqidələrini Quranda belə bəyan edir:

"Maidə" surəsinin 18-ci ayəsində buyurulur:

وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَىٰ نَحْنُ أَبْنَاءُ اللَّهِ وَأَحِبَّاؤُهُ

-Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik."

"Bəqərə" surəsinin 111-ci ayəsində isə belə oxuyuruq:

وَقَالُوا لَنْ يَدْخُلَ الْجَنَّةَ إِلَّا مَنْ كَانَ هُودًا أَوْ نَصَارَىٰ

-Yəhudilər və xaçpərəstlər dedilər: "Cənnətə yəhudilərdən və xaçpərəstlərdən başqası girməyəcək!"

"Bəqərə" surəsinin 80-ci ayəsində buyurulur:

وَقَالُوا لَنْ تَمَسَّنَا النَّارُ إِلَّا أَيَّامًا مَعْدُودَةً قُلْ أَتَّخَذْتُمْ عِنْدَ اللَّهِ عَهْدًا فَلَنْ يُخْلِفَ اللَّهُ عَهْدَهُ أَمْ تَقُولُونَ عَلَى اللَّهِ مَا لَا تَعْلَمُونَ

-Onlar (yəhudilər) "Cəhənnəm odu bizə bir neçə gündən artıq əzab verməz" –deyərlər. (Ya Rəsulum!) Onlara söylə: "Siz Allahdan belə bir vəd almısınızmı? (Əgər belədirsə) Allah heç vaxt Öz əhdindən dönməz. Yoxsa Allaha qarşı bilmədiyinizi söyləyirsiniz?"

Allah-təala “Bəqərə” surəsinin 111-112-ci ayələrində onları tənqid edərək belə buyurur:

تِلْكَ أَمَانِيُّهُمْ قُلْ هَاتُوا بُرْهَانَكُمْ إِنْ كُنْتُمْ صَادِقِينَ. بَلَىٰ مَنْ أَسْلَمَ وَجْهَهُ لِلَّهِ وَهُوَ مُحْسِنٌ فَلَهُ أَجْرُهُ عِنْدَ رَبِّهِ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

-Bu, ancaq onların xülyalarıdır. (Ya Rəsulum!) Onlara söylə: “Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!”

(Xeyr, onların dediyi kimi deyil) əksinə, yaxşı işlər görüb özlərini Allaha təslim edənlərin (olanların) Rəbbi yanında mükafatı (əvəzi) vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.

Deməli, bu ayədə onların əqidələrinin puç olduğu bəyan edildikdən sonra buyurulur ki, yaxşı işlər görüb Allaha təslim olanlar mükafatlanacaqlar. Belə olduqda axirət günü onların heç bir qorxusu olmayacaqdır.

Şəfaət məsələsi ilə bağlı ikinci qrupa daxil olan ayələrə gəldikdə isə, Allah-təala “Bəqərə” surəsinin 48-ci ayəsində yəhudilər barəsində buyurur:

وَاتَّقُوا يَوْمًا لَا تَجْزِي نَفْسٌ عَنْ نَفْسٍ شَيْئًا وَلَا يُقْبَلُ مِنْهَا شَفَاعَةٌ وَلَا يُؤْخَذُ مِنْهَا عَدْلٌ وَلَا هُمْ يُنْصَرُونَ

-Və o gündən qorxun ki, heç kəs başqasının haqqını ödəyə, bir diləyi yerinə yetirə və bir əzabı dəf edə bilməyəcək və heç kimin şəfaəti qəbul olunmayacaq, nə kimdənsə (əzabdan qurtulmaq üçün) bir əvəz alınacaq və nə də onlara bir kömək göstəriləcəkdir.

Amma yəhudilər bu iddiadadırlar ki, nə qədər günah etsələr də, peyğəmbərlər onları cəhənnəm əzabından qurtaracaq. Allah-təala onların cavabında buyurur ki, sizlərdən heç bir kəsin barəsində şəfaət qəbul olunmayacaq.

Həmçinin Allah-təala "Bəqərə" surəsinin 123-cü ayəsində yəhudilər barədə belə buyurur:

وَاتَّقُوا يَوْمًا لَا تَجْزِي نَفْسٌ عَنْ نَفْسٍ شَيْئًا وَلَا يُقْبَلُ مِنْهَا عَدْلٌ وَلَا تَنْفَعُهَا شَفَاعَةٌ وَلَا هُمْ يُنْصَرُونَ

-Və heç kəsin bir başqasının əzabını dəf edə bilməyəcəyi, (əzabın yerinə) ondan bir əvəzin qəbul olunmayacağı, şəfaətin ona heç bir fayda verməyəcəyi və onlara heç bir köməyin də göstərilməyəcəyi gündən qorxun.

**Üçüncü qrup**

Bu qrupa daxil olan ayələr kafirlər barəsindədir və bu mövzuda Qurani-Kərimdə üç ayə nazil olmuşdur. "Əraf" surəsinin 53-cü ayəsində oxuyuruq:

يَقُولُ الَّذِينَ نَسُوهُ مِنْ قَبْلُ قَدْ جَاءَتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ فَهَلْ لَنَا مِنْ شُفَعَاءَ فَيَشْفَعُوا لَنَا أَوْ نُرَدُّ فَنَعْمَلَ غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ قَدْ خَسِرُوا أَنْفُسَهُمْ وَضَلَّ عَنْهُمْ مَا كَانُوا يَفْتَرُونَ

-Doğrudan da Rəbbimizin elçiləri (bizə) haqqı gətirmişdilər. İndi bizdən ötrü şəfaət edəcək bir kimsə varmı? Yaxud geri (dünyaya) qaytarıla bilərikmi ki, etdiyimiz əməllərdən başqasını edək? Onlar özlərinə ziyan etdilər. Uyduqları (yalandan Allaha şərik qoşduqları bütlər də) onlardan uzaqlaşıb qeyb oldu.

"Şüəra" surəsinin 98-101-ci ayələrində bəyan olunur ki, kafirlər cəhənnəmə düşdükdə dünyada Allaha şərik qoşduqları bütlərə belə deyəcəklər:

إِذْ نُسَوِّيكُمْ بِرَبِّ الْعَالَمِينَ. وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ. فَمَا لَنَا مِنْ شَافِعِينَ. وَلَا صَدِيقٍ حَمِيمٍ

-Çünki biz sizi (siz bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq. Bizi yalnız günahkarlar azdırdı. İndi artıq nə şəfaət edən kimsələrimiz, nə də bir mehriban dostumuz var!

Onların barəsində olan üçüncü ayə isə "Muddəssir" surəsinin 43-48-ci ayələridir.

وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ. حَتَّىٰ أَتَانَا الْيَقِينُ. فَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

-Haqq-hesab gününü yalan sayardıq. Ölüm bizi haqlayana qədər (bu vəziyyətdə qaldıq). Şəfaət edənlərin şəfaəti onlara fayda verməz!

**Dördüncü qrup**

Şəfaət məsələsi ilə bağlı dördüncü qrupa daxil olan ayələrdə (dörd ayə) bütpərəstlərin bütlərinin şəfaətçi olmayacaqları bəyan edilir. İslam dininin zühur etdiyi dövrdə bütpərəstlər və müşriklər hakim mövqeyə malik idilər. O zaman insanların əksəriyyəti bütpərəst və ya müşrik idi. İnsanlar özləri üçün daşdan, taxtadan, xurmadan, torpaqdan büt düzəldib ona ad qoyurdular. Hər bir bütün həmçinin özünün adı və dərəcəsi var idi. Camaat da həmin bütlərə ibadət edir və belə bir əqidə ilə yaşayırdılar ki, qiyamət günü həmin bütlər onlara şəfaət edəcəkdir. Allah-təala "Ənam" surəsinin 94-cü ayəsində onlar barədə belə buyurur:

وَمَا نَرَىٰ مَعَكُمْ شُفَعَاءَكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاءُ لَقَدْ تَقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنْكُمْ مَا كُنْتُمْ تَزْعُمُونَ

-Qiyamət günü onlara deyiləcək: “Artıq sizin (vaxtilə) öz aranızda Allahın şərikləri iddia etdiyiniz şəfaətçilərinizi görmürük. Artıq aranızdakı bağlılıqlar qırılmış və (Allaha şərik) iddia etdikləriniz (bütlər) də sizdən (uzaqlaşıb) qeyb olmuşdur.”

Bu ayənin bütpərəstlər barəsində nazil olması açıq-aydın şəkildə bəllidir. Ayədə bütpərəstlərə xitab olunaraq deyilir ki, hanı sizin bütləriniz və nə üçün onlar gəlib qiyamət günü sizə şəfaət etmirlər.

Eləcə də “Yunis” surəsinin 18-ci ayəsində bütpərəstlər barədə oxuyuruq:

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَٰؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ قُلْ أَتُنَبِّئُونَ اللَّهَ بِمَا لَا يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ سُبْحَانَهُ وَتَعَالَىٰ عَمَّا يُشْرِكُونَ

-Onlar Allahın yerinə onlara nə bir zərər yetirən və nə də bir mənfəət verən şeylərə ibadət edir və “bunlar Allah yanında bizim şəfaətçilərimizdir” - deyirlər. De: “Allaha nə göylərdə və nə də yerdə (guya) xəbəri olmayan bir şeydən xəbər verirsiniz?! O, şərik qoşduqları şeydən pak və ucadır.”

Bu qrupa daxil olan ayələrdən biri də “Zumər” surəsinin 43-cü ayəsidir ki, Allah-təala burada belə buyurur:

أَمِ اتَّخَذُوا مِنْ دُونِ اللَّهِ شُفَعَاءَ قُلْ أَوَلَوْ كَانُوا لَا يَمْلِكُونَ شَيْئًا وَلَا يَعْقِلُونَ

-Yoxsa onlar (müşriklər) Allahdan qeyrilərini (bütləri) şəfaətçi etdilər? (Ya Peyğəmbər!) De: “Onlar heç bir şeyə malik olmadıqları və heç bir şey qanmadıqları halda (şəfaət edəcəklərmi)?!”

Həmçinin “Yasin” surəsinin 23-cü ayəsində Həbib Nəccarın dilindən belə oxuyuruq:

أَأَتَّخِذُ مِنْ دُونِهِ آلِهَةً إِنْ يُرِدْنِ الرَّحْمَٰنُ بِضُرٍّ لَا تُغْنِ عَنِّي شَفَاعَتُهُمْ شَيْئًا وَلَا يُنْقِذُونِ

-Ondan qeyri məbudlara ibadət edimmi? Əgər Rəhman (olan Allah) mənə bir zərər və ziyan vurmaq istəsə, onların şəfaətləri məndən heç bir şeyi uzaqlaşdıra bilməz və mənə nicat verə bilməzlər.

Bu ayələrdə açıq-aydın şəkildə bütpərəstlərdən bəhs olunur və onların ibadət etdiyi bütlərin qiyamət günü şəfaətçi ola bilməyəcəyi bəyan edilir. Bəziləri ayənin əvvəlini və axırını oxumadan onun kiçik bir hissəsinə əsaslanaraq təfsirlər edirlər ki, bu da çox yanlış və səhv bir işdir. Əgər kimsə məsələn, “şəfaətin sizə faydası olmayacaq” fikrinə istinad edərək bununla nəyisə sübut etmək istəyirsə, başa düşməlidir ki, ayənin əvvəlində və axırındakı fikirlərə də diqqət yetirmək lazımdır. O zaman həmin şəxs başa düşəcək ki, burada “sizə” kəlməsində məqsəd bütpərəstlər və müşriklərdir və ayədə məhz onlara xitab olunur.

Qurani-Kərimdə belə ayələr çoxdur və əgər bir ayənin əvvəlini və ya axırını ixtisar etsək, yaxud sonrakı ayəni oxumasaq, onun mənası tamamilə dəyişər. Məsələn, Qurani-Kərimin “Maun” surəsinin 4-cü ayəsində belə deyilir: “Vay olsun namaz qılanların halına.” Bu ayəni oxuyub sonrakı ayəyə diqqət yetirmədikdə belə bir

nəticəyə gəlmək olar ki, namaz qılmaq haramdır. Amma ondan sonrakı 5-ci ayəni oxuduqda başa düşülür ki, burada ümumiyyətlə bütün namaz qılanlardan söhbət getmir. Yəni söhbət öz namazlarına diqqət yetirməyən və ona etinasız yanaşanlara aiddir. Belə ki, burada deyilir: "Vay olsun namaz qılanların halına. O namaz qılanların ki, öz namazlarında qafildirlər və ona etinasızdırlar."

Həmçinin "Nisa" surəsinin 43-cü ayəsinin bir hissəsini oxuyub digər hissəsini oxumadıqda mənası belə alınır: "Ey iman gətirənlər, namaza yaxınlaşmayın." Amma bu cümlənin ardınca "sərxoş halda" kəlməsi gəlir. Şəfaət məsələsi ilə bağlı olan ayələr də belədir. Bir hissəsini oxuyub digər hissəsini oxumadıqda, yaxud bu barədə olan bir ayəni oxuyub başqa ayələrin üzərinə pərdə çəkdikdə yenə də məna tamamilə dəyişilir.

**Beşinci qrup**

Şəfaət məsələsi barədə olan ayələrin beşinci qrupunda şəfaətin yalnız Allaha məxsus olduğu qeyd edilir. Bu ayələrdə qiyamət günü şəfaətin olacağı haqda söz açılmaqla yanaşı, həm də onun Allaha məxsusluğu bildirilir. Odur ki, qiyamət günü Allahdan savayı başqa heç bir kəsin bir iş görməyə ixtiyarı olmayacaq. Çünki qiyamət gününün sahibi Odur. Bu sözdən kimsə belə bir nəticəyə gəlməsin ki, dünyanın sahibi başqasıdır. Elə dünyanın da sahibi Allahdır. Qiyamətin əzəmət və möhtəşəmliyi çox böyük olduğu üçün Quranda "Qiyamət gününün maliki" - deyə vurğulanır. Bütün yaradılış və varlıq aləminin külli-ixtiyarı Onun əlindədir. Günəşin hərəkət edib-etməməsi, fəsillərin dəyişib-dəyişməməsi, yerin dövrə vurub-vurmaması, hətta nəfəslərin alınıb-alınmaması belə Allahın əlindədir.

Elmdə “Fəyyaz ələl itlaq” adlı bir mövzu var. Həmin mövzu barədə alimlər çox müfəssəl şəkildə bəhs etmişlər. Qısası, bildirilir ki, varlıq aləminin hərəkəti saat kimi deyildir. Yəni bircə dəfə qurub işə saldıqdan sonra onun davamlı olaraq hərəkət etməsi qeyri-mümkündür. Yaxud zəngli bir saat kimi deyil ki, onun zəngini müəyyən vaxta qurduqda həmin vaxt da zəng çalsın. Özümüzdən, daxilimizdən və ətrafımızdan bizə yetişən hər bir nemət üçün hər an feyz verilir.

An zamanın ən kiçik hissəsidir və bir göz qırpımında milyonlarla an var. An bizim düşündüyümüz saat və saniyə kimi deyil. Bir saniyə müddətində milyonlarla an ötüb keçir. Həmçinin insanın bircə nəfəs alması milyonlarla anın ötməsi nəticəsində baş verir. Həmin anların hər birinə Allah-təala tərəfindən bir feyz verilir. Məsələn, Allah-təala gözü yaradaraq ona görməyi əmr etmişdir. Gözün hər an görməsi Allah tərəfindən verilən feyzin yetişməsi ilə bağlıdır. Hər an Allahın gözə verdiyi bu feyz və izn kəsilsə, göz də görməyəcəkdir. Qulaq, dil və s. də eynilə belədir. Deməli, hər hansı anda Allahın izni olmasa, insan nə danışa bilər, nə görə bilər, nə də başqa hərəkətlər edə bilər. İnsan danışmaq istədikdə Allahdan gələn feyzin vasitəsilə danışır. Belə olduqda təbii ki, bütün varlıq aləminin külli-ixtiyarı Onun əlindədir.

Allah-təala “Ənam” surəsinin 51-ci ayəsində Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

وَأَنْذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَنْ يُحْشَرُوا إِلَىٰ رَبِّهِمْ لَيْسَ لَهُمْ مِنْ دُونِهِ وَلِيٌّ وَلَا شَفِيعٌ لَعَلَّهُمْ يَتَّقُونَ

-Bununla (bu Quran vasitəsilə) özlərinin Rəbbinə tərəf toplanacaqlarından qorxan kəsləri qorxut – (çün)ki,

(həmin gün) onların Allahdan başqa heç bir başçısı, yardımçısı və şəfaətçiləri olmayacaqdır – bəlkə çəkindilər.

“Ənam” surəsinin 70-ci ayəsində yenə də Allah-təala Həzrət Peyğəmbərə(s) xitab edərək belə buyurur:

وَذَرِ الَّذِينَ اتَّخَذُوا دِينَهُمْ لَعِبًا وَلَهْوًا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا وَذَكِّرْ بِهِ أَنْ تُبْسَلَ نَفْسٌ بِمَا كَسَبَتْ لَيْسَ لَهَا مِنْ دُونِ اللَّهِ وَلِيٌّ وَلَا شَفِيعٌ

-Dinlərini oyun-oyuncaq və əyləncə sayanları, dünya həyatının aldatdığı şəxsləri boşla getsinlər. (Onlara Quranı) xatırlat ki, heç kəs qazandığı əmələ görə özünü həlak etməsin. Allahdan başqa onun nə bir dostu var, nə də bir şəfaətçisi.

“Zumər” surəsinin 44-cü ayəsində oxuyuruq:

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

-De: “Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hakimiyyəti Ona məxsusdur. Sonra sizin hamınız Ona tərəf qaytarılacaqsınız.”

**Altıncı qrup**

Şəfaət məsələsi ilə bağlı altıncı qrupa daxil olan ayələr Allahdan savayı Onun izni ilə başqa şəfaət edənlər barəsindədir. Təkcə qiyamət günü deyil, dünyada da Allahın izni olmadan heç bir kəs bir iş görə bilməz. Həzrət Peyğəmbər(s) insanların hidayət olunmasından ötrü bir vasitədir. Amma hidayət edən Allahdır. Hidayət etmək Allaha məxsus olduğundan və Həzrət Peyğəmbər(s) də Onun vasitəçisi olduğu üçün qiyamət günü şəfaət Allahın ixtiyarındadır və hər kimə icazə versə, həmin şəxs də şəfaət edəcəkdir. Heç bir kəs Allahın işinə müdaxilə edib deyə bilməz ki, nə üçün filankəsə şəfaət etmək icazəsi

verirsən? Hakim və hər şeyin sahibi Odur və heç bir kəsin Onun işinə qarışmağa haqqı yoxdur.

"Bəqərə" surəsinin 255-ci ayəsində oxuyuruq:

مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ

-Allahın izni olmadan Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?

"Yunis" surəsinin 3-cü ayəsində belə buyurulur:

مَا مِنْ شَفِيعٍ إِلَّا مِنْ بَعْدِ إِذْنِهِ

-Onun izni olmadan heç bir şəfaət edən ola bilməz.

Bu ayələrdən açıq-aydın görünür ki, qiyamət günü şəfaət olacaq və Allahın izn verdiyi kəslər də şəfaət edəcəklər. Kimə şəfaət etməyə icazə verilsə, o da şəfaət edəcəkdir.

"Taha" surəsinin 109-cu ayəsində bir daha bu məsələyə işarə edilmiş və ona başqa bir mətləb də əlavə olunmuşdur.

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا

-O gün Rəhmanın izn verdiyi və söz danışmağına razı olduğu kəslərdən savayı, başqa heç kimin şəfaəti fayda verməz!

Ayədəki "danışmağına razı olduğu kəslər" ifadəsinin mənası budur ki, Allah şəfaət edənlərin sözləri ilə razılaşmış olsun. Çünki şəfaətçilər şəfaət etdikləri şəxsləri Allahın məhzərinə gətirib onlar üçün Allahdan bağışlanmalarını istəyirlər. Yəni Allah şəfaət edən kəsin sözləri ilə əvvəlcədən razılaşmalıdır ki, şəfaət olunmağa aparılan kəsə şəfaət edilsin. Ola bilməz ki, hər hansı bir şəxsə şəfaət olunarkən Allah onu qəbul etməsin. Həzrət Peyğəmbər(s) də kimin şəfaət olunmasına Allahın razı

olub-olmayacağını əvvəlcədən bilir. Buna görə də Həzrət Peyğəmbər(s) istəməz ki, barəsində sözü yerə düşəcək bir insanı Allahın məhzərinə aparsın. Həzrət Peyğəmbər(s) Allah-təalanın yanında öz etibarının hansı səviyyədə olduğunu da çox yaxşı bilir.

Ümumiyyətlə, hər bir kəs başqalarının yanında etibarının nə qədər olduğunu yaxşı bilir. Məsələn, bir nəfər öz şəxsi işinin həlli üçün dostuna deyir ki, icra başçısı sənin xalan oğludur. Mənim işimin düzəlməsini ondan xahiş edə bilərsənmi? Dostu da deyir ki, əlbəttə, bu, mənim üçün çox asandır. Ancaq ola bilsin ki, dostunun həmin işə gücü çatmadığından ondan imtina etsin. Çünki o, icra başçısının yanında sözünün nə dərəcədə keçib-keçməyəcəyini çox yaxşı bilir.

Ötən bəhslərimizdə qeyd olundu ki, İmam Hüseyn(ə) Kərbəlada camaata elan etdi ki, kimin boynunda haqqun-nas varsa mənimlə gəlməsin. Qayıdıb getsin və camaatın haqqını qaytarsın. Çünki hər kəs camaatın haqqını qaytarmadan ölsə, onun yeri cəhənnəmdir. İmam(ə) bilirdi ki, boynunda camaatın haqqı olan bir kəs onunla birgə şəhid olsa da belə haqqı qaytarmadan onu cənnətə buraxmayacaqlar. Həmçinin qiyamət günü şəfaətçilər şəfaətə layiq olmayan bir insan üçün Allahdan bağışlanmaq istəməyəcəklər.

Həmçinin bu qrupa aid olan ayələrdən biri də “Səbə” surəsinin 23-cü ayəsidir ki, həmin ayədə oxuyuruq:

وَلَا تَنْفَعُ الشَّفَاعَةُ عِنْدَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ

-Onun hüzurunda, izn verdiyi kimsələr istisna olmaqla, başqa heç bir kəsin şəfaəti fayda verməz.

Deməli, yuxarıdakı ayələrdən də açıq-aydın şəkildə görürük ki, qiyamət günü şəfaət olacaq və şəfaət etmək

izni də vardır. Allah istədiyi şəxsə şəfaət etmək iznini verəcəkdir.

**Yeddinci qrup**

Şəfaət məsələsi ilə bağlı yeddinci qrupa daxil olan ayələr həm şəfaət edənlərdən bəhs edir, həm də onların bir sıra şərait və xüsusiyyətlərini vurğulayır. Məsələn, "Ənbiya" surəsinin 26-28-ci ayələrində mələklər barədə belə oxuyuruq:

وَقَالُوا اتَّخَذَ الرَّحْمَٰنُ وَلَدًا سُبْحَانَهُ بَلْ عِبَادٌ مُكْرَمُونَ. لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُمْ بِأَمْرِهِ يَعْمَلُونَ. يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ

-(Kafirlər: ) "Rəhman (mələklərdən Özünə) övlad götürdü!" – dedilər. O, pakdır, müqəddəsdir! (Belə şeylərdən tamamilə uzaqdır!) Xeyr, (mələklər Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullardır. (Mələklər) Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər. (Allah) onların öndəkilərini də, arxalarındakını da (nə etdiklərini və nə edəcəklərini) bilir. Onlar yalnız (Allahın) razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilərlər və Onun heybətindən qorxarlar.

"Nəcm" surəsinin 26-cı ayəsində isə belə buyurulur:

وَكَمْ مِنْ مَلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَيَرْضَىٰ

-Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə izn verdikdən sonra (onun şəfaəti fayda verər).

“Ğafir” surəsinin 7-ci ayəsində oxuyuruq:

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا

-Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyirlər.

Bu ayələrdə mələklər və onların şəfaət edəcəkləri barədə söz açıldıqdan sonra şəfaətin Allahın razı olduğu kəslərə şamil olunacağı bəyan edilir. Yəni Allahla əlaqələrini tamamilə üzməmiş günahkar bəndələrə şəfaət olunmaq icazəsi veriləcəkdir. Bir daha qeyd etmək istəyirəm ki, burada Allahla əlaqəni tam üzməyən insanlar dedikdə “Allaha qurban olum” söyləyərək istədiyi hər bir günahı edən və həm də qiyamət günü şəfaət olunacaqlarına ümid bəsləyən şəxslər nəzərdə tutulmur. Namaz insanın Allahla əlaqə yaratdığı vasitədir. Əgər bir insan namaz qılmırsa, onda hansı əlaqələrdən danışa bilər. Halbuki namazsız insana heç bir cənnət verilməyəcək. Axı, Allaha səcdə etməyən bir insan hansı əlaqələrdən danışa bilər. Ola bilməz ki, bir şəxs ramazan ayında özünü oruc tutanlara qoşub cənnət ümidi ilə yaşasın.

Odur ki, hər kimin namaz, oruc və digər vacib əməlləri yerinə yetirməklə Allahla əlaqəsi olsa, əlbəttə ki, Allah-təala qiyamət günü şəfaətçilərə onun şəfaət olunmasına icazə verəcəkdir. Allah-təala İslam Peyğəmbərinə(s) iki cəhətə görə şəfaət etmək izni bəxş edəcəkdir. Birincisi budur ki, Həzrət(s) dünyada insanların hidayət olunması üçün bir vasitəçidir. Yəni Allah-təala insanları Həzrət Peyğəmbər(s) vasitəsilə hidayət edir. Qiyamət günündə də bağışlama və ya əfv

etmə Allahın əlindədir. Orada da vasitəçi yenə də Həzrət Peyğəmbərdir(s). Əgər belədirsə, bunun nə eybi var? İkincisi isə budur ki, Allah-təala öz peyğəmbər və övliyalarına şəfaət etmək icazəsi verməklə onların Allaha yaxın bəndələr olduğunu hamıya elan edir.

Həzrət Peyğəmbər(s) qiyamət günü şəfaət edəcəyini dəfələrlə söyləmişdir. Hədis və rəvayətləri oxuduqda Həzrətin(s) şəfaət etməsi məsələsinə tez-tez rast gəlmək mümkündür. Nümunə üçün həmin rəvayətlərdən birini nəzərinizə çatdırıram.

Əbu Talib həm Həzrət Peyğəmbərin(s) əmisi, həm də Həzrət Əlinin(ə) atası idi. O, qırx iki il Həzrət Peyğəmbəri(s) saxlamış və onu himayə etmişdir. Həzrət Peyğəmbərin(s) atası və babası dünyasını dəyişdikdən sonra, yəni hələ səkkiz yaşından əmisi Əbu Talibin evində yaşamışdır. Əbu Talib bu müddət ərzində ona həmişə nəvaziş göstərmiş, onun yolunda malından və canından keçmişdir. Hətta Həzrət Məhəmməd(s) peyğəmbərlik məqamına çatdıqdan sonra da əmisi ömrünün axırına qədər onu himayə etmişdir. Yəni həmişə Həzrət Peyğəmbərin(s) qulluğunda dayanıb ona xidmət göstərmişdir. Necə deyərlər, Əbu Talib bu müddət ərzində Həzrət Peyğəmbəri(s) doğma balası kimi saxlamışdır. Besətin onuncu ilində Əbu Talib dünyasını dəyişdi. Ona qüsl verib kəfənlədikdən sonra cənazəsini tabuta qoydular. Həzrət Peyğəmbər(s) onun tabutuna baxıb buyurdu: “Yaxşı şəfqət göstərdin və (Allah yanında) gözəl mükafata nail oldun. Yetimə çox gözəl havadarlıq etdin və onu gözəl böyüdüb qayğısına qaldın (ömrünün sonuna qədər onun tərəfdarı oldun).”

Sonra Həzrət Peyğəmbər(s) buyurdu: “Bu əmimə elə şəfaət edəcəyəm ki, bütün səqəleynin (cinlər və insanların) hamısı təəccübdən mat-məəttəl qalacaqlar.”

İmam Hüseyn(ə) buyurur: “Bir gün atam (xilafəti dövründə) Kufədə “Rəhbə” meydanında oturmuşdu. Bir nəfər Həzrətin(ə) yanından keçərkən dayanıb atama dedi: “Çox təəccüblüdür ki, sən belə bir məqam və əzəmətdə olduğun halda atan cəhənnəmdədir.” Həzrət Əli(ə) bu sözləri eşitdikdə ona belə buyurdu:

فضَّ اللَّهُ فَاكَ وَالَّذِي بَعَثَ مُحَمَّداً بِالْحَقِّ نَبِيّاً لَوْ شَفَعَ أَبِي فِي كُلِّ مُذْنِبٍ عَلَى وَجْهِ الْأَرْضِ لَشَفَّعَهُ اللَّهُ

-Allah ağzını sındırsın! And olsun Məhəmmədi(s) haqq olaraq peyğəmbərliyə məbus edənə, əgər atam yer üzündə bütün günahkarlara şəfaət etsə, Allah onun şəfaətini qəbul edər.”

## Ayələrin qruplaşdırılmasının nəticəsi

Şəfaət məsələsi ilə bağlı qeyd olunan ayələri qruplaşdırıb araşdırma apardıqdan sonra belə bir nəticəyə gəldik ki, bəzi ayələr şəfaəti qətiyyətlə qadağan edir, bəzi ayələr isə şəfaətin olacağını bəyan edir. İkinci qrup ayələr yəhudilər barəsindədir və burada onların əqidələrinə işarə olunmuşdur. Onlar belə iddia edirlər ki, hər nə qədər günah etsələr, qiyamət günü peyğəmbərlər onlara şəfaət edəcəklər. Həmçinin onlar belə bir xəyalla yaşayırlar ki, onlardan başqa heç kim cənnətə getməyəcək. Allah- təala bu qrup ayələrdə onların barəsində şəfaətin qəbul olunmayacağını bəyan edir. Üçüncü qrup ayələrdə kafirlərə işarə edilərək onlar barəsində şəfaətin qətiyyən qəbul olunmayacağı vurğulanır. Dördüncü qrup ayələrdə

bütpərəstlərdən söz açılır və qiyamət günü bütlərinin onlara heç bir kömək göstərməyəcəyi və şəfaətçi olmayacaqları bəyan edilir. Beşinci qrup ayələrdə qiyamət günü şəfaətin olacağı və bunun yalnız Allaha məxsus olduğu açıqlanır. Altıncı qrup ayələr Allahın izn verdiyi kəslərin şəfaət edəcəyindən danışır. Yeddinci qrup ayələrdə isə həm şəfaət edənlərdən söz açılır, həm də onların bir sıra xüsusiyyətlərindən bəhs edilir.

Bu bəhsin yekununda qısaca olaraq belə bir qənaətə gəlirik ki, Allah və şəfaət edən övliyalarla bütün əlaqələrini kəsmiş bütpərəstlər, eləcə də Allahı və İslamı inkar edənlər (yəhudilər, xaçpərəstlər və zalım insanlar) Allahın şəfaətindən məhrum olacaqlar.

Amma mələklər, övliyalar kimi pak bəndələr Allahın izni ilə Onun razılığını özlərinə cəlb etmiş bəndələrə şəfaət edəcəklər.

**Şəfaətə inam insanı günahlara şövq etmirmi?**

Burada şəfaət məsələsi ilə bağlı bəzi iradlara və suallara cavab verilməsi çox yaxşı olardı. Bəziləri belə iddia edirlər ki, qiyamət günü Həzrət Peyğəmbərin(s) və digərlərinin günahkar insanlara şəfaət etmələri doğru deyildir. Çünki belə olduqda günahkar insanları daha çox günah işlər törətməyə şövq etdirmiş olacaqlar. Günahkar insan şəfaət olunacağına ümid bəslədikdə artıq günah əməllərə qarşı laqeydləşir və onun günah etməyə meyli daha da artır.

Bu iradın cavabında çox yaxşı olar ki, məsələyə Quran nöqteyi-nəzərindən baxılsın. Gəlin baxaq görək şəfaət məsələsi ilə bağlı otuz ayəni bəyan etmiş bu müqəddəs kitab həmin irada necə cavab verir. Təfsir alimləri Quran ayələrindən istifadə edərək həmin

məsələyə üç cavab vermişlər. Həmin cavablardan birincisi belədir ki, əgər şəfaət məsələsi insanları günah etməyə daha da cürətləndirirsə, bəs nə üçün Allah-təala Quranda rəhmət və mərhəməti barədə də dəfələrlə söz açır? Məgər insan Allahın mərhəmətinin bu qədər geniş olduğunu görüb bağışlanacağına ümid edərək günah etməyə cürətlənməzmi?

Məsələn, "Nisa" surəsinin 48-ci ayəsində oxuyuruq.

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ

-Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları bağışlamaz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar.

Allah-təala bütün günahları bağışlayır dedikdə burada söhbət tövbədən getmir. Çünki əgər tövbə ilə bağışlasaydı, o zaman şirk məsələsini istisna etməzdi. Çünki əgər ayədə tövbə ilə bağışlanmaq bəyan olunsaydı, onda şirk də tövbə ilə bağışlanar. Məgər müşriklər Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib tövbə edərkən Allah onları bağışlamırdımı? Əgər şiəni müşrik hesab edən bəzi təriqətlər həmin şiə onların təriqətini qəbul etdikdə nə üçün onu qəbul edirlər? Əgər müşrik bağışlanmazdırsa, nə üçün bu işi görürlər?

Deməli, əgər Allah-təala Öz rəhmət qapılarını bəndələrinin üzünə açırsa, hamını bağışlanmaq və əfvə dəvət edirsə, günahkar insanlarda günah əməllərə doğru cürət yaratmırmı?

İkinci cavab belədir ki, əgər şəfaət məsələsi insanın günaha cürətlənməsinə səbəb olursa, o zaman tövbə də insanların günah əməllərə şövq etdirilməsinə səbəb ola bilər. Yəni insan belə bir ümidlə yaşayıb deyər ki, istədiyim qədər günah edə bilərəm, onsuz da tövbə etdikdə

Allah məni bağışlayacaq. Dünyadakı qanunlara da diqqət yetirdikdə görürük ki, bəzi cinayətkarlar etdikləri əmələ görə peşman olduqlarını etiraf etdikdə onları əfv edirlər. Məgər bu o deməkdir ki, həmin əfv və bağışlama insanları cinayət törətməyə daha da cürətləndirir? İslam dininin ən nurani əlamət və nişanələrindən biri də elə budur ki, insanları tövbə etməyə dəvət edir. Allah-təala "Təhrim" surəsinin 8-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا

-Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin.

İslam dini hətta ən pis işlər görən və günahları dağlardan da ağır olan günahkar insanları belə tövbə etməyə dəvət edir. Əgər bir insan Allahla minacat edib "İlahi, mənim günahlarım həddindən artıqdır, hətta dənizlərin qumları qədər çox və böyükdür. Amma bunu da bilirəm ki, Sənin rəhmət və məğfirətin ondan daha böyükdür. Məni bağışla" – deyərsə, Allah onun tövbəsini qəbul etməzmi? Əlbəttə ki, Allah-təala səmimi peşmançılığı və tövbəni qəbul edər.

Deməli, şəfaət məsələsinin insanların günah əməllərə doğru daha da cürətlənməsinə səbəb olacağını iddia edən şəxslər o zaman gərək tövbə məsələsini də qəbul etməsinlər. Çünki əgər məsələyə onların baxışı kimi yanaşsaq, onda belə çıxır ki, tövbə də insanların günah əməllərə doğru cürətlənməsinə səbəb olacaqdır.

Üçüncü cavab isə belədir ki, Quranda şəfaət məsələsi qeyd-şərtlə bəyan olunmuşdur. Ötən bəhslərimizdə də xatırlatdıq ki, qiyamət günü şəfaət məsələsi iki qeyd-şərtə əsasən həyata keçiriləcəkdir. Birincisi, şəfaət edən Allahın izni ilə şəfaət edəcəkdir. İkincisi, şəfaət olunana da

Allahın izni lazımdır. Yəni Allah-təalanın izn vermədiyi kəslər şəfaət olunmayacaqlar. Deməli, həm şəfaət edən, həm də şəfaət olunan Allahın iznini əldə etməlidir. “Bəqərə” surəsinin 255-ci ayəsində şəfaət edənlər barədə oxyuruq:

مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ

-Allahın izni olmadan Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?

“Ənbiya” surəsinin 28-ci ayəsində isə şəfaət olunanlar barədə belə buyurulur:

وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ

-Onlar yalnız (Allahın) razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilərlər.

Əgər Həzrət Peyğəmbər(s) şəfaət edirsə, sonda Allah da həmin şəxsi bağışlayır. Aydın məsələdir ki, bütün işlərin sonluğu Allahın əlindədir.

**Şəfaət edənlərdən birbaşa şəfaət istəmək olarmı?**

Şəfaət etmək məsələsinə irad tutanların əsas sözlərindən biri budur ki, onların fikrincə, hansısa bir şəxs birbaşa olaraq şəfaət edənlərə deyə bilməz ki, qiyamət günü Allah-təalanın yanında mənə şəfaət et. İslam dininin zühur etməsindən təxminən yeddi yüz ilədək bir müddətdə belə bir məsələ yox idi. Həmin müddət ərzində müsəlmanlar adi bir şəraitdə Allahla minacat edir, Onun Peyğəmbəri(s) ilə danışıb Allahdan onlar üçün bağışlanmaq diləyirdilər. Yəni Həzrət Peyğəmbərin(s) vəfatından sonra belə müsəlmanlar Həzrətə(s) öz ürək sözlərini deyərək Allah-təalanın yanında onlara şəfaətçi olmasını istəyirdilər. Uzun illər sonra bəzi insanlar peyda

olaraq bu barədə tamamilə başqa fikirlər irəli sürməyə başladılar. Daha sonralar isə onların bu fikirləri bir qrup insanlar tərəfindən təsdiqlənərək İslam dininə daxil edildi. Halbuki İslam dinində, ümumiyyətlə, belə bir fikir olmayıb.

Onların əsas sözü budur ki, mələklər, peyğəmbərlər və övliyalar qiyamət günü şəfaət edəcəklər. Amma biz şəfaəti yalnız Allahdan istəməliyik. Belə olduqda Allah şəfaət etmək barədə göstəriş verdikdən sonra onlar da bizə şəfaət edəcəklər. Biz deməməliyik ki, (يا محمد اشفع لنا عند الله) ya Məhəmməd(ə), Allahın yanında bizə şəfaətçi ol. Bizim Həzrət Peyğəmbərlə(s) danışaraq bizə dua etməsini, yaxud şəfaət etməsini söyləməyə ixtiyarımız yoxdur. Biz birbaşa olaraq Allahın Özünə dua edərək belə deməliyik: (اللهم اجعلنا ممن تناله شفاعة محمد) - "İlahi, bizi Məhəmmədin(s) şəfaətinə layiq olanlardan qərar ver." Buna dəlil-sübut olaraq onlar Qurandan aşağıdakı ayələri misal çəkirlər:

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَٰؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ

-Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və "Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!" – deyirlər. [1]

فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

-Belə isə Allahla birgə heç bir kəsi çağırmayın. [2]

---

[1] Yunis surəsi, 18-ci ayə.
[2] Cinn surəsi, 18-ci ayə.

Onlar bu iki ayəyə istinadən iddia edirlər ki, insan gərək Allahdan savayı başqa heç bir kəsi çağırmasın.

Onların cavabında qeyd etməliyik ki, əgər ayədə «يَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ» - "Allahdan başqasına ibadət edirlər" fikri bəyan olunursa, bu o demək deyil ki, onlar şəfaətçi kimi ibadət etdikləri ilə danışırlar. Məgər Həzrət Peyğəmbərlə(s) və məsum imamlarla danışmaq onlara ibadət etmək deməkdirmi? Əlbəttə ki, yox. Əgər Quran belələrini müşrik hesab edirsə, bunun səbəbi o deyil ki, onlar bütlərdən şəfaət istəyirdilər. Onların müşrik olmalarının səbəbi budur ki, bütlərə ibadət edirdilər və axırda da həmin bütlərdən onlara şəfaət edilməsini diləyirdilər.

Odur ki, əgər bir insan Həzrət Peyğəmbərdən(s) ona dua etməsini xahiş edirsə, məgər bu onun Həzrət Peyğəmbərə(s) ibadət etməsi deməkdir? Burada sözü başqa cür mənalandırmaq da lazım deyil. Çünki burada birmənalı şəkildə ibadətdən söhbət gedir və heç bir müsəlman nə Peyğəmbərə(s), nə də başqalarına ibadət etmir. Hər kəs bilir ki, yalnız Allah-təalaya ibadət etmək lazımdır.

Həmçinin «فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا» - "Allahla birgə heç bir kəsi çağırmayın" ayəsində məqsəd budur ki, kimisə Allahın dərəcəsinə gətirib ona ibadət olunmamalıdır. Yəni ibadətdə heç bir kəsi Allah-təalaya şərik qərar vermək olmaz. Məgər bir insan Həzrət Peyğəmbərdən(s) ona dua etməsini istəyirsə, bu o deməkdir ki, Həzrət Peyğəmbəri(s) Allaha şərik qoşmuşdur? Əgər bir şəxs Həzrət Peyğəmbərdən(s) onu dua etməsini xahiş edirsə, bunun nə eybi və ya nöqsanı vardır? Ayədə işlənmiş «مَعَ اللَّهِ» - "Allahla birgə" ifadəsində məqsəd də odur ki, heç bir kəsi Allahın dərəcəsində tutmaq olmaz. Əlbəttə, hər kim öz

nəzərində kimisə Allahın dərəcəsinədək aparıb çıxartsa, bu, çox pis bir işdir. İslam aləmində heç bir kəs kimisə Allahın dərəcəsində hesab etmir. Deməli, əgər kimsə Həzrət Peyğəmbərdən(s) ona dua etməsini, Allahdan onun günahlarını bağışlamasını, yaxud hacətlərinin qəbul edilməsini istəyirsə, du o demək deyil ki, Həzrət Peyğəmbəri(s) Allahla birgə çağırmış və onu Allahın dərəcəsinə yüksəltmişdir.

Kimlərsə qeyd olunan ayələri əlində əsas tutaraq birbaşa şəfaət edənlərdən şəfaət istəməyin düzgün olmadığını iddia edirlər, halbuki Quranda kifayət qədər ayə vardır ki, birbaşa olaraq şəfaətçilərdən şəfaət istəməyin düzgün olduğunu təsdiq edir. Ümumiyyətlə, bir daha qeyd etmək lazımdır ki, şəfaət Allaha yaxın olan bir insanın günahkar bəndəni bağışlaması üçün etdiyi dua və xahişdən ibarətdir. Peyğəmbərlər, imamlar və övliyalar şəfaət edərkən Allaha dua edərək günahkarların bağışlanmasını istəyirlər. Məsələn, əgər Həzrət Peyğəmbər(s), imamlar, övliyalar və mömin insanlar "İlahi, filankəsi bağışla" deyərək Allaha dua edirlərsə və Allah-təala da həmin günahkarı bağışlayırsa, burada nə eyib və nöqsan vardır? Əgər bir insan digərindən ona dua etməsini xahiş etsə, burada qəbahətli nə iş var? Şəfaət də elə budur ki, Allahın yanında hörməti olan bir şəxs günahkar insanın bağışlanmasından ötrü Allah-təalaya dua edir. Şəfaət bir növ duadır və dua da elə şəfaətdir. Bu baxımdan bir şəxsin Həzrət Peyğəmbərə(s) «يا وَجيهاً عِنْدَ اللهِ اِشْفَعْ لَنا عِنْدَ اللهِ» - "Ey Allah dərgahında uca məqamlı və hörmət sahibi, bizə (günahlarımızın bağışlanması üçün) şəfaətçi ol" - deməsi nə üçün haram sayılmalıdır?

Həzrət Peyğəmbər(s) buyurur: “Kim öz müsəlman qardaşına onun arxasınca (özü orada olmayanda) dua etsə, onun duası müstəcab olar. Bir mələk də o (dua edən) mömini səsləyib deyər: Etdiyin dua sənin barəndə də qəbul olunacaq.”[1]

Deməli, buradan da belə bir nəticə çıxara bilərik ki, möminlərin bir-birinə dua etməsi, yaxud bir möminin digərindən ona dua etməsini istəməsi çox yaxşı bir əməldir və heç bir kəs bunu inkar etmir. Hətta vəhhabi və sələfilərin banisi olan İbn Teymiyyə də insanların bir-birindən dua etmələrini istəmələrini düzgün hesab edirdi.

Nəhayət, qeyd etməliyik ki, əgər bir şəxsin Həzrət Peyğəmbərdən(s) və ya başqalarından ona dua etmələrini istəmək düzgün sayılırsa, o zaman şəfaətin istənilməsi də düzgündür. Çünki şəfaət duadan savayı başqa bir şey deyildir. Əgər bir insan Həzrət Peyğəmbərə(s) “mənə şəfaət et” - deyirsə, bunun mənası “Ya Rəsulallah, Allahdan mənim günahlarımın bağışlanmasını istə” deməkdir.

Əhli-sünnənin məşhur alimlərindən olan Fəxri Razi Qurana yazdığı təfsirdə şəfaətin dua olduğunu bildirmişdir. Allah-təala “Ğafir” surəsinin 7-ci ayəsində buyurur:

وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا رَبَّنَا وَسِعْتَ كُلَّ شَيْءٍ رَحْمَةً

-(Ərşi daşıyan mələklər möminlərin bağışlanmasını diləyərək belə deyirlər): “Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla.”

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.126.

Bu ayə ərşin mələklərinin Allahdan günahkar insanların bağışlanılması üçün dua etmələrinə dəlildir. Çünki ayənin sonunda belə buyurulur:

وَقِهِمْ عَذَابَ الْجَحِيمِ

-Onları cəhənnəm əzabından qoru!

Quran ayələrindən əlavə, hədislərə də müraciət etdikdə görürük ki, bir müsəlmanın digərinə dua etməsi elə həmin şəfaətdir.

ابن عباس: قَالَ رَسُولُ اللهِ(ص): مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ فَيَقُومُ عَلَى جَنَازَتِهِ أَرْبَعُونَ رَجُلا لا يُشْرِكُونَ بِاللَّهِ شَيْئًا إِلا شَفَّعَهُمُ اللَّهُ فِيهِ

İbn Abbas deyir: "Peyğəmbər(s) buyurdu: Vəfat edən bir müsəlmanın cənazə namazında Allaha şərik qoşmayan qırx adam iştirak edərsə, Allah bu adamların mərhuma şəfaətini mütləq qəbul edər."[1]

Bu hədisdəki "Allaha şərik qoşmayan qırx adam" ifadəsində möminlərdən bəhs edilir. Həmçinin hədisdə dua edənlər şəfaətçilər kimi bəyan olunmuşdur. Çünki cənazə namazı vəfat etmiş şəxs üçün bir növ icra olunan duadır. Hədisdə Həzrət Peyğəmbər(s) həmin duanı şəfaət adlandırır.

İndi əgər bir nəfər ölümündən əvvəl qardaşlarına, yaxınlarına və tanıdığı kəslərə "mən öldükdən sonra mənim üçün dua edin" - deyirsə, məgər bu, haram əməldir? Xeyr, bu işi görməyin heç bir haramçılığı yoxdur. Əgər bir insan hələ sağ ikən kimdənsə vəfat etdikdən sonra ona dua etməsini xahiş edirsə, əslində ondan şəfaət etməsini istəmiş

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.127. Nəql edən: Səhihi-Müslim, 3-cü cild, səh. 127.

olur. Bu məsələyə irad tutanlara demək lazımdır ki, bir nəfərin cənazə namazını qılıb ona dua etməyi halal hesab edirsinizsə, onda bəs nə üçün hələ sağ ikən (yəni ölümündən əvvəl) kimdənsə ona dua etməyi xahiş etməsini qəbul etmirsiniz? Deməli, dua da elə həmin şəfaətdir və əgər möminlər bir-birindən dua etməyi xahiş edə bilirlərsə, onda bir-birindən şəfaət etməyi də xahiş edə bilərlər.

## Quranda şəfaət

Quran ayələrindən açıq-aydın şəkildə görünür ki, Həzrət Peyğəmbərin(s) insanların günahlarının bağışlanmasını diləməsi onlar üçün olduqca təsirli və yetərlidir. Allah-təala özü də Həzrət Peyğəmbərə(s) belə bir göstəriş vermişdir. Belə ki, Qurani-Kərimin "Məhəmməd" surəsinin 19-cü ayəsində Həzrət Peyğəmbərə(s) belə buyurulur:

وَاسْتَغْفِرْ لِذَنْبِكَ وَلِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ

-Öz günahların (məsumluq məqamı üçün nisbi günah sayılan daha üstün əməlin tərk edilməsi), eləcə də mömin kişi və qadınlar(ın günahları) üçün bağışlanma dilə.

Qurani-Kərimin "Tövbə" surəsinin 103-cü ayəsində Allah-təala belə buyurur:

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلاَتَكَ سَكَنٌ لَّهُمْ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ

-(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır). Allah (hər şeyi) eşidəndir, biləndir.

Bu ayələrdə açıq-aydın şəkildə şahidi oluruq ki, Allah-təala Həzrət Peyğəmbərə(s) özünün və möminlərin günahlarının bağışlanılmasından ötrü dua etməyi göstəriş verir. Çünki Həzrət Peyğəmbərin(s) duaları möminlərə rahatlıq gətirirdi. Əgər bu iş qəbahətli bir əməl olsaydı, Allah-təala Həzrət Peyğəmbərə(s) belə bir göstəriş verməzdi.

Allah-təala "Nisa" surəsinin 64-cü ayəsində günahkar insanlar barəsində belə buyurur:

وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

-Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər.

Bu ayədən də açıq-aydın şəkildə görünür ki, günahkar insanlar Həzrət Peyğəmbərin(s) yanına gəlib Allahdan onların günahlarının bağışlanmasını diləməyi istədikdə və Həzrət Peyğəmbər(s) də onlara dua etdikdə tövbələri qəbul olunar, günahları isə bağışlanar. Bu elə həmin şəfaətdir ki, Həzrət Peyğəmbər(s) onların günahlarının bağışlanmasını Allahdan istəyir.

Həzrət Yusifin(ə) qardaşları etdikləri günahlara görə Allahın onları bağışlamasından ötrü atalarından dua etməsini xahiş etdilər. Əgər bu iş haram olsaydı, Həzrət Yaqub Peyğəmbər(ə) mütləq onlara etiraz edərdi. Halbuki o, oğlanlarının sözünü qəbul edib onlar üçün dua edəcəyini bildirdi. Qurani-Kərimin "Yusif" surəsinin 97-ci ayəsində bu hadisə belə bəyan olunur.

قَالُوا يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ. قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّي إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-(Oğlanları ona:) "Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz, doğrudan da, günahkar olmuşuq!" - dedilər. (Yaqub) dedi: "Mən (yaxın gələcəkdə) Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm. O, həqiqətən, bağışlayandır, rəhm edəndir!"

Sual oluna bilər ki, nə üçün Yaqub Peyğəmbər(ə) onlara "yaxın gələcəkdə tezliklə sizin üçün Allahdan bağışlanmağınızı diləyəcəyəm" - dedi? Nəyə görə dərhal onlar üçün dua etmədi? Hədislərdə belə nəql olunur ki, Həzrət Yaqub(ə) bu işi cümə axşamına saxlamışdı. Çünki cümə axşamı duaların qəbul olunduğu bir gecədir. Yəni cümə axşamı gecəyarısı tövbələrin qəbul olunması üçün ən münasib vaxtdır.

## Peyğəmbərin(s) yaşadığı dövrdə səhabələrin davranışı

Qeyd olunduğu kimi, Quran ayələrindən açıq-aydın şəkildə məlum olur ki, Peyğəmbərdən(s), övliyalardan və möminlərdən birbaşa dua və şəfaət diləməyin heç bir qəbahəti yoxdur. Əksinə, bu əməl bəyənilmiş bir əməl hesab olunur. Burada yaxşı olardı ki, hədislərdən istifadə edərək Həzrət Peyğəmbərin(s) səhabələrinin qeyd olunan məsələyə münasibətlərinə və onların davranışına, habelə Həzrətin(s) də buna  reaksiyasına diqqət yetirək. Baxaq görək Həzrət Peyğəmbərin(s) zamanında birbaşa olaraq Həzrətdən(s) dua və şəfaət istəmək məsələsinə müsbət yanaşılırdı, yoxsa mənfi? Əhli-sünnənin tanınmış hədisçilərindən olan Tirmizi yazır:

سَأَلْتُ نَبِيَّ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ أَنْ يَشْفَعَ لِي يَوْمَ الْقِيَامَةِ! قَالَ: أَنَا فَاعِلٌ. قَ ُلتُ: فَأَيْنَ أَطْلُبُكَ؟ قَالَ: عَلَى الصِّرَاطِ

-Ənəs ibn Malik deyir: “Bir gün Həzrət Peyğəmbərdən(s) xahiş etdim ki, qiyamət günü mənə şəfaət etsin. Buyurdu: Mən bu işi görərəm. Dedim: (Ya Rəsulallah, qiyamət günü) mən səni harada axtarım? Buyurdu: Siratın üstündə.”[1]

Bu qəbil hədislər kifayət qədər çoxdur. Əgər birbaşa olaraq Həzrət Peyğəmbərdən(s) şəfaət istəmək haram iş sayılsaydı, Həzrət(s) dərhal buna etiraz edib həmin işin qadağan olduğunu söyləyərdi. Lakin Həzrət Peyğəmbər(s) bu məsələyə etiraz etmədi, əksinə təsdiqləyib məqbul olduğunu bildirdi.

İslam Peyğəmbərinin(s) zühurundan öncə Hümeyr qəbiləsindən olan Təbəə adlı bir şəxs Həzrətin(s) haqqında eşitmişdi. Məlumatı var idi ki, bir zaman Allahın sonuncu peyğəmbəri zühur edəcək. Buna görə də əvvəlcədən ona bir məktub yazıb saxlamışdı. Yaxın adamlarına da vəsiyyət etmişdi ki, əgər həmin peyğəmbəri ziyarət etməyə ömrü çatmasa, o zaman məktubu ona çatdırsınlar. Təbəə dünyasını dəyişəndə hələ də İslam Peyğəmbəri(s) zühur etməmişdi. Ancaq bir müddətdən sonra Həzrət Məhəmməd(s) peyğəmbərlik məqamına nail oldu. Təbəənin yazıb saxladığı məktubu isə Həzrətə(s) çatdırdılar. Məktubda belə yazılmışdı:

وَ إِن لَم أَدرِكِكَ فَاشفَع لِي يَومَ القِيامَة وَلا تَنسَنِي

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.127.

-Əgər mən səni görə bilməsəm (səni ziyarət etməyə ömrüm çatmasa), qiyamət günü mənə şəfaət et və məni unutma.

Həzrət Peyğəmbər(s) bunu eşitdikdə üç dəfə belə buyurdu:

مَرحَبا بِتَبَعٍ أَلأَخِ الصّالِح

-Mərhəba! Mənim saleh qardaşım Təbəə.

Bu rəvayətdən də aydın olur ki, birbaşa olaraq Həzrət Peyğəmbərdən(s) şəfaət istəmək olar. Əgər şəfaət istəmək şirk olsaydı, Həzrət Peyğəmbər(s) "Təbəə qardaşım" - deyə müraciət etməzdi. Həzrət Peyğəmbər(s) həmişə haram və düzgün olmayan işlərə mütləq şəkildə öz etirazını bildirərdi. Əgər Həzrətdən(s) şəfaət istəmək haram olsaydı, Peyğəmbər(s) dərhal bildirərdi ki, cahillik dövründə bir nəfər tərəfindən yazılmış məktubdur. Amma Həzrət Peyğəmbər(s) Təbəənin yazdığı həmin sözlərə mərhəba dedi və "saleh qardaşım" - deyə müraciət edərək onu təsdiqlədi.

Belə rəvayət olunur ki, bədəvi bir ərəb Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib vəziyyətlərinin çox acınacaqlı olduğundan şikayətləndi və aclıqdan əziyyət çəkdiklərini bildirdı. O, bir az söhbət etdikdən sonra dedi:

فَادْعُ اللّهَ لَنا فَإِنّا نَسْتَشْفِعُ بِاَللّهِ عَلَيْك وَبِك عَلَى اللّهِ

-Ya Rəsulallah, bizim üçün dua et. Allahı sənə şəfaətçi qərar veririk ki, bizə sənin yanında şəfaət etsin.[1] Səni də Allah dərgahında özümüzə şəfaətçi qərar veririk.

[1] Həmin ərəb avam və savadsız bir bədəvi olduğundan dediyi ilk cümləni özü anlamadan dilinə gətirdi: "Allahı sənə şəfaətçi qərar veririk ki, bizə

Həzrət Peyğəmbər(s) onun birinci cümləsinə dərhal ediraz edərək buyurdu:

ويحك إِنَّ اللَّهَ لَا يُسْتَشْفَعُ بِهِ عَلَى أَحَدٍ مِنْ خَلْقِهِ شَأْنُ اللَّهِ أَعْظَمُ مِنْ ذَلِكَ

-Vay olsun sənə! Allahın məqam və dərəcəsi kiminsə yanında şəfaətçi olmaqdan daha üstündür.[1]

Həzrət Peyğəmbərin(s) bu açıqlamasından başa düşürük ki, Həzrət(s) həmin ərəbin birinci cümləsinə, yəni "Allahı sənə şəfaətçi qərar veririk" fikrinə öz etirazını bildirdi. Amma ikinci cümlənin barəsində bir söz buyurmadı. Əgər həmin ifadədə, yəni "Səni də Allah dərgahında özümüzə şəfaətçi qərar veririk" cümləsində də bir səhv olsaydı, Həzrət Peyğəmbər(s) buna da öz etirazını bildirərdi.

## Peyğəmbərin(s) vəfatından sonrakı dövrdə səhabələrin davranışı

Şəfaət məsələsi ilə bağlı irəli sürülən bütün iradlara cavab verildikdən sonra çıxılmaz vəziyyətə düşən iradçılar daha bir məsələni ortalığa atdılar. Həmin məsələ də budur ki, Həzrət Peyğəmbərin(s) sağlığında ondan dua və şəfaət etməsini istəməyin mümkün olduğunu etiraf edən bu adamlar iddia edirlər ki, Həzrət(s) vəfat etdikdən sonra onun qəbrinin üstünə gedərək dua və şəfaət istəmək olmaz. Bu iradın cavabında ilk olaraq bildirildi ki, Həzrət Peyğəmbərin(s) həyatı ilə ölümü arasında heç bir fərq

---

sənin yanında şəfaət etsin." Həzrət Peyğəmbər(s) onun bu sözünü təsdiqləmədi və dərhal ərəbə düz söz söyləmədiyini başa saldı.

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.128.

yoxdur. Əgər kimsə bunu qəbul etmirsə, bu onun öz işidir. İslam nöqteyi- nəzərindən kiminsə bu məsələni qəbul etməməsi həqiqətin dəyişilməsinə səbəb ola bilməz. Əgər Həzrət Peyğəmbərin(s) ölümündən sonra Həzrətdən(s) Allah yanında şəfaətçi olmasını diləmək haram olsaydı, o zaman xəlifələr və səhabələr bu işi görməzdilər. Həm birinci, həm də dördüncü xəlifə Həzrət Peyğəmbər(s) dünyasını dəyişəndən sonra Həzrətdən(s) şəfaətçi olmasını istəmişlər. Ən azından xəlifələri qəbul edən insanlar başa düşməlidirlər ki, sözügedən məsələ haram deyil.

Tarixi mənbələrdə və rəvayətlərdə qeyd olunur ki, Həzrət Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra Həzrət Əli(ə) onun cənazəsinə qüsl verib kəfənlədi. Həzrət Peyğəmbərin(s) cənazəsini yerdən götürərkən Həzrət Əli(ə) kəfənin üz tərəfini açaraq Həzrətin(s) mübarək camalına baxıb dedi:

بِأَبِي أَنْتَ وَأُمِّي طِبْتَ حَيًّا طِبْتَ مَيّتاً وَاذكُرنا عِندَ رَبّك

-Ata-anam sənə qurban olsun. Sən həyatında da, ölümündən sonra da pak- pakizəsən. Allahın yanında bizi də yad edərsən.[1]

Digər bir rəvayətdə isə belə nəql olunur ki, Həzrət Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra Əbu Bəkr Həzrətin(s) üzündən kəfəni kənara çəkərək Həzrət Əlinin(ə) söylədiklərini dedi və axırda da həmin sözləri təkrarladı: “Allahın yanında bizi də yad edərsən.”[2]

Odur ki, əgər Həzrət Peyğəmbərin(s) ölümündən sonra onunla danışmaq haram sayılsaydı, xəlifələr heç bir

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.129.
[2] Yenə orada.

vaxt bu işi görməzdilər. Həmçinin onu da qeyd etməliyik ki, digər səhabələr də Həzrət Peyğəmbərin(s) qəbrini ziyarət etmiş, qəbrin bir kənarında dayanıb namaz qılmış və Həzrətə(s) öz ürək sözlərini deyərək ondan şəfaət istəmişlər.

Deməli, belə bir nəticəyə gəlmək olar ki, insanlar şəfaət edənlərin hər birindən şəfaət istəyə bilərlər. Onlardan dua etməyi xahiş etdikləri kimi, şəfaət etməyi də istəmək olar. Həzrət Peyğəmbər(s) həyatda ikən ondan şəfa istənildiyi kimi, dünyadan getdikdən sonra da belə onlan şəfaət istəmək mümkündür.

## Hədislərdə şəfaət

Burada çox yaxşı olar ki, şəfaət məsələsi ilə bağlı nəql olunmuş hədislərə də diqqət yetirək. Əlbəttə, həm şiə, həm də əhli-sünnə alimlərinin yazdıqları kitablarda şəfaət məsələsi ilə bağlı yüzlərlə hədis nəql olunmuşdur. Həm də hədislərdə bu məsələ daha açıq-aydın şəkildə bəyan edilmişdir. Ümumiyyətlə, hədislərin böyük əksəriyyəti şəxsən İslam Peyğəmbərinin(s) özündən nəql olunmuşdur. İlk növbədə əhli-sünnə alimlərinin şəfaət məsələsi ilə bağlı Həzrət Peyğəmbərdən(s) nəql etdikləri bəzi hədisləri nümunə üçün diqqətinizə çatdırıram. Daha sonra isə şiə alimlərinin nəql etdikləri hədislərə toxunacağıq.

قَالَ رَسُولُ اللهِ(ص): وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ قَولُه تعالى: عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا. هُوَ الْمَقامُ الَّذِى اَشفَعُ لِأُمَّتِي فِيه

-Həzrət Peyğəmbər(s) "İsra" surəsinin 79-cu ayəsini oxudu: "(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd, nafilə) namazı qıl. Bu Allahın sözüdür: Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama göndərsin! Sonra buyurdu: O, elə bir məqamdır ki, mən öz ümmətimə şəfaət edəcəyəm."[1]

قَالَ رَسُولُ اللهِ(ص): أَنَا أَوَّلُ شَافِعٍ، وَأَوَّلُ مُشَفَّعٍ

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.155. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 2-ci cild, səh.528; Sünəni-Tirmizi, 4-cü cild, səh. 365.

-Həzrət Peyğəmbər(s) buyurur: "(Qiyamət günü Allah dərgahında) ilk şəfaət edən və şəfaəti qəbul olunan şəxs mənəm." [1]

قَالَ رَسُولُ اللهِ(ص): إِنّ شَفَاعَتِي لِأَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِي

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimdən böyük günahlar edənlər üçün şəfaət edəcəyəm." [2]

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي لَأَرْجُو أَنْ أَشْفَعَ يَوْمَ الْقِيَامَةِ عَدَدَ مَا عَلَى الْأَرْضِ مِنْ شَجَرَةٍ وَمَدَرَةٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü yer üzündə ağac və daşların sayı qədər insanlara şəfaət edəcəyimə ümid edirəm."[3]

Burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, hədis və rəvayətlərə əsasən qəbirdə və bərzəx aləmində şəfaət yoxdur. Hədislərdə belə nəql olunur ki, bərzəx aləmində insan öz əməllərindən asılıdır. Orada əməllər əsas rol oynayır. Amma qiyamət günündə günahkar insanlara şəfaət olunacaq. Belə ki, bəzi insanlar cəhənnəmin astanasında olarkən şəfaət olunub cəhənnəmdən qurtulacaq və cənnətə gedəcəkdir. Bəzi günahkar insanlar isə cəhənnəmə düşdükdən sonra belə şəfaət olunub oradan çıxarılacaqdır. Onların cəhənnəmdə qalma müddətləri barədə də hədis və rəvayətlər vardır. Ola bilsin ki, bəziləri min illərlə cəhənnəmdə qaldıqdan sonra şəfaət vasitəsilə oradan nicat tapıb cənnətə getsinlər. Həmin insanlar

---

[1] Yenə orada, səh.156. Nəql edən: Sünəni-Tirmizi, 5-ci cild, səh. 248.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.157. Nəql edən: Sünəni-İbn Macə, 2-ci cild, səh.1441.
[3] Yenə orada. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 3-cü cild, səh.213; Sünəni-İbn Macə, 2-ci cild, səh.1441.

şəfaət olunub cənnətə getdikdən sonra da onların adları "cəhənnəmlilər" (cəhənnəmdən çıxmışlar) qalacaqdır. Hədis belədir:

قَالَ رَسُولُ اللهِ(ص): لَيَخرُجَنَّ قَومٌ مِن أُمَّتِي مِنَ النّارِ بِشَفاعَتِي يُسَمُّونَ الْجَهَنَّمِيِّين

-Həzrət Peyğəmbər(s) buyurur: "Mənim şəfaətimlə ümmətimdən bir qrup insan cəhənnəmdən çıxarılacaq. (Cənnətə getmələrinə baxmayaraq) onlara "cəhənnəmdən çıxmışlar" deyiləcək."[1]

Abuzər deyir: "Gecələrin birində gördüm ki, Həzrət Peyğəmbər(s) səhərə qədər ibadətlə məşğuldur. Amma bütün rüku və səcdələrdə yalnız bu ayəni oxuyurdu:

إِنْ تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبادُكَ وَإِنْ تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمُ

-(İlahi!) Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin bəndələrindir. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən. (İstədiyin bəndəyə əzab verməyə, istədiyini bağışlamağa və hər hansı bir məsələni həkimanə həll etməyə qadir olan ancaq Sənsən!) *("Maidə" surəsi, ayə 118.)*

Sübh çağı Həzrətdən(s) soruşdum: "Ya Rəsulallah, nə üçün sübhə qədər ancaq bu ayəni oxuyurdun?" Həzrət Peyğəmbər(s) buyurdu:

إِنّي سَأَلْت رَبِّي عَزَّ وَجَلَّ الشَّفَاعَة لِأُمَّتِي فَأَعْطَانِيهَا وَهِيَ نَائِلَة إِنْ شَاءَ اللّه لِمَنْ لَا يُشْرِك بِاَللّهِ شَيْئًا

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.157. Nəql edən: Sünəni-Tirmizi, 4-cü cild, səh. 114; Sünəni-İbn Macə, 2-ci cild, səh.1443.

-Mən Rəbbimdən ümmətim üçün şəfaət etməyi xahiş etdim. Allah da mənim bu xahişimi qəbul etdi. Allaha heç bir şeyi şərik qoşmayan hər bir kəsə (qiyamətdə) şəfaət etməyə nail oldum.” [1]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ أَسْعَدَ النَّاسِ بِشَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ مَنْ قَالَ: لا إِلَهَ إِلا اللَّهُ خَالِصًا مِنْ قِبَلِ نَفْسِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü mənim şəfaətimə nail olacaq ən xoşbəxt insan o kəsdir ki, “La ilahə illəllah” – “Allahdan başqa heç bir məbud yoxdur” kəlməsini səmimi-qəlbdən ixlasla desin.”[2]

Bu hədislər əhli-sünnə kitablarında nəql olunan hədislərdəndir ki, nümunə üçün onları qeyd etdik. Əlbəttə, həmin hədislər şiə kitablarında da nəql olunmuşdur. Bundan əlavə, şiə alimlərinin yazdıqları kitablarda bu qəbil hədislərə daha çox rast gəlmək olur ki, nümunə üçün onlardan da bir neçəsini qeyd edək. Abuzər(r) və Salman(r) Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edirlər:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ أَعطانِي مَسأَلَةً فَادَّخَرتُ مَسأَلَتِي لِشَفاعةِ الْمُؤمِنِين مِن أُمَّتِي يَومَ القِيامة فَفَعَلَ ذَلِك

-Həzrət Peyğəmbər(s) buyurdu: “Allah-təala mənə Ondan bir şey istəməyi və həmin xahişin qəbul olunacağını inayət etdi. Amma mən (Allahdan) öz xa-

[1] Yenə orada, səh.158. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 5-ci cild, səh.149.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.156. Nəql edən: Səhihi-Buxari, 1-ci cild, səh.26.

hişimi qiyamət günü ümmətimə şəfaət etmək üçün saxladım. Allah mənim bu xahişimlə razılaşdı."[1]

Buşr ibn Şüreyh Bəsri əhli-sünnədən olan bir şəxs idi. O deyir: "Günlərin birində İmam Baqirlə(ə) görüşüb ondan soruşdum: Sizin fikrinizcə, Quranda hansı ayə daha ümidverici ayədir? İmam(ə) həmin sualı mənə qaytararaq buyurdu: "Sizin alimlərinizin bu barədə fikri nədir?" Dedim: Bizim alimlər "Zumər" surəsinin 53-cü ayəsinin daha ümidverici ayə olduğunu deyirlər.

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

–De: "Ey Mənim (günah vasitəsilə) özlərinə zülm etməkdə həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin. Şübhəsiz, Allah (tövbə ilə) bütün günahları bağışlayır. Çünki bağışlayan və mehriban Odur!"

İmam(ə) buyurdu: "Amma biz Əhli-beytin(ə) fikrincə, Quranda olan ən ümidverici ayə "Zuha" surəsinin 5-ci ayəsidir ki, Allah-təala Peyğəmbərə(s) buyurur:

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

–Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.

Həzrət(ə) bu ayənin Həzrət Peyğəmbərin(s) şəfaət edəcəyi barəsində olduğunu qeyd etdikdən sonra üç dəfə buyurdu: "And olsun Allaha, şəfaət!"[2]

---

[1] Yenə orada, səh.165. Nəql edən: Əmali-Şeyx Tusi, səh.36.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.170 .

Əbu Əymən sünnə əhlindən olub, halal-harama riayət edən, özünü şəhvətdən qoruyan bir insan idi. Bir gün o, İmam Baqirin(ə) hüzuruna gəlib dedi: “Ey Əbu Cəfər! Siz həmişə xalqı aldadaraq “Məhəmmədin şəfaəti, Məhəmmədin şəfaəti” - deyirsiniz.” İmam Baqir(ə) onun bu sözlərindən çox narahat oldu və buyurdu: “Vay olsun sənə, ey Əbu Əymən! Qarnının və şəhvətinin iffəti səni aldatdı?! Səni qarın və şəhvətinlə günah etməməyin məğrur edib? Əgər qiyamətin dəhşətli səhnələrini görsən, hökmən Məhəmmədin (s) şəfaətinə möhtac olacaqsan. Vay olsun sənə, məgər şəfaət yalnız cəhənnəm atəşi onlara vacib olan şəxslərə aiddir?” Sonra isə buyurdu: “İlk insanlardan sonuncuyadək elə bir şəxs yoxdur ki, qiyamət günü Məhəmmədin (s) şəfaətinə möhtac olmasın.”[1]

Müaviyə ibn Əmmar deyir: “İmam Sadiqdən(ə) «مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ» - “Allahın izni olmadan Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?” ayəsi barədə soruşduqda Həzrət(ə) belə buyurdu: «نَحْنُ أُولئِكَ الشَّافِعُون» - “Həmin şəfaət edənlər bizik.”[2]

**Həzrət Peyğəmbər(s) öz ümmətini çox sevirdi**

Əziz İslam Peyğəmbəri(s) hamıya qarşı mehriban və xoşrəftar idi. O, öz ümmətini və ümumən insanları çox sevirdi. Hamı ilə olduqca mülayim və ürəyəyatan bir tərzdə danışardı. Hətta özü buyurardı ki, mənimlə şahlar kimi rəftar etməyin. Hətta Həzrətin(s) əzəməti qarşısında dili topuq vuran adamlara buyurardı: “Rahat ol, mən padşah deyiləm.”

---

[1] Yenə orada .

[2] Mənşuri-Cavid, 8-ci cild, səh.170 .

Həzrət Peyğəmbər(s) Mədinəyə hicrət edərkən Əbu Əyyub Ənsarinin evində qonaq qaldı. Əbu Əyyubun evi ikimərtəbəli idi. O, evin ikinci mərtəbəsini Həzrət Peyğəmbər(s) üçün hazırlamışdı. Həzrət Peyğəmbər(s) buyurdu: "Mən aşağı mərtəbədə qalmaq istəyirəm. Qoy camaatın mənimlə görüşü rahat olsun."

Ümumiyyətlə, Həzrət Peyğəmbərlə(s) görüşüb danışanların səviyyəsi də bərabər deyildi. Bəziləri çox ədəb və ehtiramla, bəziləri isə ədəb qaydalarını bilmədiklərindən hərəsi öz dərrakəsi çərçivəsində Həzrətlə(s) danışırdılar.

Günlərin birində bədəvi bir kişi Həzrət Peyğəmbərin(s) hüzuruna gələrək dedi: "Ya Rəsulallah, mən satmaq üçün şəhərə bir neçə dəvə gətirmişəm. Bazar qiymətlərini də bilmirəm. Xahiş edirəm, mənimlə bazara gedək və dəvələri satmaqda mənə kömək edin." Həzrət Peyğəmbər(s) çox mülayim bir tərzdə ona buyurdu: "Get dəvələri yanıma gətir. Mən onlara baxıb qiymətlərini sənə deyərəm. Sən də onları bazara aparıb həmin qiymətə satarsan." Kişi gedib dəvələri gətirdi. Həzrət Peyğəmbər(s) bir-bir həmin dəvələrin qiymətini kişiyə başa saldı. Kişi bazara gedib dəvələri satdıqdan sonra qayıdıb Həzrətə Peyğəmbərə(s) öz təşəkkürünü bildirdi."[1]

İslam Peyğəmbərinin(s) rəftar və əxlaqı o qədər gözəl idi ki, hamı ona etibar edər, ürəyinin sözünü çox rahatlıqla ona söyləyər və Həzrəti(s) atadan daha artıq sevərdilər. Həzrət Peyğəmbər(s) də ümmətinə münasibətdə ata balasına mehriban olduğu kimi mərhəmətli idi. Hətta Ühüd müharibəsində Həzrəti(s)

---

[1] Əxlaqi-nəbəvi, səh.203.

yaralayaraq daşla vurub onun dişini sındırarkən üzünün qanını təmizləyə-təmizləyə belə buyurdu:

كَيفَ يُفْلِح قَومٌ خَضَبُوا وَجهَ نَبِيِّهِم بِالدَّم وَ هُوَ يَدعُوهُم اِلى رَبِّهِم

-Öz peyğəmbərlərinin üzünü qana boyayan bir qövm necə nicat tapa bilər? Halbuki o (Peyğəmbər) onları Allaha sarı çağırır.[1]

Həzrət Peyğəmbər(s) gecələr səhərədək Allaha ibadət edib Ondan ümmətinin bağışlanılmasını diləyirdi. Məlumdur ki, övlad ananı nə qədər incitsə də, övlada olan məhəbbəti onu bağışlamağa vadar edir. Ananın övladına olan məhəbbəti hamıya bəllidir, amma Həzrət Peyğəmbərin(s) bəndələrə olan məhəbbəti bundan qat-qat üstün idi. Ona görə də Həzrət(s) bəri başdan qiyamət günü ümmətinə şəfaətçi olmasını Allahdan istəmişdi.

[1] Yenə orada, səh.244.

## Şəfaətə arxayınlaşıb günah etməyə cəsarətlənmək olmaz

Ötən bəhslərimizdə qeyd olundu ki, bir qrup insan şəfaət məsələsinə irad tutaraq deyirlər ki, insanlar şəfaətə arxayınlaşıb günah etmək məsələsində daha da cürətlənə bilərlər. Onların bu iradının cavabında isə deyildi ki, əgər belədirsə, o zaman Quranda Allahın rəhməti barədə də söz açılmışdır. Həmçinin ən pis günahkarların günahlarının bağışlanılması üçün tövbə etmək şansı da mövcuddur. Deməli, Allahın rəhməti və tövbə də insanları günaha cürətləndirə bilər. Aydındır ki, məlum iradı irəli sürənlər şəfaət məsələsindən tam agah deyillər. Burada söz açacağımız məsələ isə onunla bağlıdır ki, görəsən şəfaət insanın günaha cürətlənməsinə, yoxsa günahdan çəkinməsinə səbəb olur? Allah-təala Quranda şəfaət, rəhmət, məğfirət və tövbə barədə söz açırsa, bu ona dəlalət etmir ki, insanlar günah etmək məsələsində daha da cəsarətli və cürətli olsunlar. Əksinə, bu, insanların günahlardan çəkinmələrinə dəlalət etməlidir. Həmçinin şəfaətin müəyyən şərtləri də vardır ki, şəfaət məhz həmin şərtlər əsasında həyata keçirilir. Bununla bağlı nümunə üçün bir neçə hədisi diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): فإِذا فَرِغَ اللهُ عَزّوَجَلّ مِنَ القَضاءِ بَينَ خَلقِهِ وَ أَخرَجَ مِنَ النّارِ مَن يُرِيد أَن يُخرَج أَمَرَاللهُ الْمَلائِكَة وَ الرَّسُول اَن تَشفَعَ فَيعرِفُونَ بِعَلامَاتِهِم إِنَّ النَارَ تَأكُلُ كُلَّ شَيئٍ مِن اِبنِ آدَم اِلاّ مَوضعَ السُّجُود

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü Allah-təala bəndələri ilə qazilik (hökm və hesab-kitab) edib qurtardıqdan sonra cəhənnəmdən çıxartmaq istədiyi

bəndələri ilə bağlı mələklərə və peyğəmbərlərə şəfaət etməyi əmr verəcəkdir. Şəfaət olunmağa layiq bəndələrin müəyyən əlamətləri vardır ki, onlar həmin əlamətlərlə tanınacaqlar. Həmin əlamət budur ki, od səcdə üzvlərindən başqa, Adəm övladının hər yerini yandıracaq."[1]

Yəni kim dünyada Allah qarşısında səcdə edibsə, cəhənnəm odu onun səcdə üzvlərini yandırmayacaq. Belə olduqda cəhənnəmin içində yanan insanlar arasında seçiləcəklər. Bu əlamətlərə görə onlar tanınacaq və şəfaət olunacaqlar. Kimdə bu əlamət olsa, Allahın əmri ilə mələklər və peyğəmbərlər həmin şəxsi cəhənnəmdən xilas edəcəklər. Deməli, dünyada Allaha səcdə etməyən, vacib əməlləri yerinə yetirməyən insanlar qiyamət günü şəfaət olunmayacaqlar. O kəsə şəfaət ediləcək ki, namaz, oruc və digər vacib əməllər vasitəsilə Allahla əlaqəsini qoruyub saxlamış olsun. Allah-təala ilə əlaqəsini kəsən insan əlbəttə ki, şəfaət olunmayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): أَمَّا أَهْلُ النَّارِ الَّذِينَ هُمْ أَهْلُهَا فَإِنَّهُمْ لَا يَمُوتُونَ فِيهَا وَلَا يَحْيَوْنَ، وَلَكِنْ نَاسٌ أَصَابَتْهُمُ النَّارُ بِذُنُوبِهِمْ أَوْ بِخَطَايَاهُمْ فَأَمَاتَتهُمْ امَاتَةً حَتَّى إِذَا كَانُوا فَحْمًا أُذِنَ بِالشَّفَاعَةِ فَيَخرُجُونَ ضَبَائِرَ ضَبَائِرَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Cəhənnəm əhlinə gəldikdə isə onların bəzisi orada əbədi olaraq qalacaqlar. Nə ölü kimi ölü, nə də diri kimi diri olarlar (daim cəhənnəm əzabını dadacaqlar). Lakin (Allaha imanı olan)

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.159. Nəql edən: Sünəni-Nəsai, 2-ci cild, səh.181.

insanlar isə günah və xətalarına görə cəhənnəmdə yanıb kömür kimi olacaqlar. Onlara şəfaət olunmaq izn verildikdə dəstə-dəstə cəhənnəmdən çıxacaqlar.”[1]

Həzrət Peyğəmbərin(s) qulluqçularından biri çox zirək və səmimi bir insan idi. O, Həzrət Peyğəmbərə(s) xidmət göstərmək məsələsində əlindən gələni əsirgəmirdi. Hər bir işi canla-başla yerinə yetirərdi. Həzrət Peyğəmbərin(s) onun rəftar və hərəkətlərindən xoşu gəlirdi. Bir gün ona buyurdu: “Məndən bir istəyin varmı?” Qulluqçu dedi: “Ya Rəsulallah, səndən qiyamət günü mənə şəfaət etməyini xahiş edirəm.” Həzrət Peyğəmbər(s) qulluqçunun axirəti düşündüyünü görüb soruşdu: “Bunu sənə kim öyrədib?” Qulluqçu dedi: “Rəbbim.” Həzrət Peyğəmbər(s) buyurdu: “Mən sənə şəfaət edərəm. Amma sən də Allaha çoxlu səcdə etməklə bu işdə mənə yardımçı olmalısan.”[2]

Bu hədisdən də açıq-aydın şəkildə görürük ki, qiyamət günü Həzrət Peyğəmbərin(s) şəfaətinə nail olmaq üçün görülən işlərdən biri Allahın qarşısında çoxlu səcdə etməkdir. Bu qəbil hədislər bizə bir daha başa salır ki, şəfaətin mənası heç də o demək deyildir ki, insan şəfaətə arxayınlaşıb dünyada hər bir şeyə laqeyd yanaşsın. Şəfaətin mənası odur ki, insan özünü bu dünyada yaxşı aparsın və şəfaət edilməyə layiq olsun.

قَالَ رَسُولُ اللهِ(ص): اَيُّمَا اِمْرَاَةٌ صَلَّتْ فِيْ الْيَوْمِ وَ الْلَيْلِ خَمْسَ صَلَوَاتٍ
وَ صَامَتْ شَهْرَ رَمَضَانَ وَ حَجَّتْ بَيْتَ اللهِ الْحَرَامِ وَ زَكَّتْ مَالَهَا وَ

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.160. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 3-cü cild, səh.79.
[2] Yenə orada, səh.162. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 3-cü cild, səh.500.

اَطَاعَتْ زَوْجَهَا وَ وَالَتْ عَلِيًّا بَعْدِيْ دَخَلَتِ الْجَنَّةَ بِشَفَاعَةِ بنتِي فَاطِمَةُ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir qadın gündəlik vacib namazları qılsa, ramazan ayının orucunu tutsa, vacib olduqda Allahın evinin ziyarətinə (Həccə) getsə, malının zəkatını versə, ərinə itaət etsə və məndən sonra Əlinin(ə) imamətini qəbul etsə, belə bir qadın qızım Fatimənin(s.ə) şəfaətilə cənnətə daxil olacaq."[1]

Günlərin birində İmam Sadiqin(ə) hüzurunda zina barədə söhbət düşdü. İmam(ə) buyurdu:

يَا مَعشَرَ الشِّيعَة فَلا تَعُودُونَ وَ تَتَّكِلُونَ عَلى شَفاعَتِنَا فَوَاللهِ مَا تَنالُ شَفاعَتُنا اِذَا رَكِبَ هَذا حَتّى يصيبه الم العذاب وَ يَرى هَولَ جَهَنَّم

-Ey şiələr! Bizim şəfaətimizə arxayın olub günah etməyin. Çünki Allaha and olsun ki, zina edən uzun müddət cəhənnəmin şiddətli əzabını dadıb qorxusunu görməyincə bizim ona şəfaətimiz yetişməyəcək.[2]

Beləliklə, qeyd edilən hədislərdən də məlum olur ki, şəfaət olunma elə də rahatlıqla və arxayınçılıqla əldə edilmir. Günahlar işlədib şəfaətə arxayın olmaqla insana şəfaət edilməz. Qiyamət günü şəfaət olunmasını istəyən hər bir kəs mütləq Allahın vaciblərini yerinə yetirməli və haramlardan özünü qorumalıdır. Belə olduğu təqdirdə şəfaət edənlərin şəfaətinə nail olmaq mümkündür.

## Şəfaətin ölçüsü insanın öz əməllərinə bağlıdır

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.166.
[2] Yenə orada.

Burada incə bir məqamı da diqqətinizə çatdırmaq istərdim. Bu məsələ qiyamət günü şəfaət edən möminlər barəsindədir. Qeyd olunmalıdır ki, Həzrət Peyğəmbər(s), məsum imamlar və övliyalardan əlavə, qiyamət günü möminlərə də şəfaət etmək izni veriləcəkdir. Amma möminlərin şəfaət etməsi dərəcə və əməllərindən asılı olaraq müxtəlifdir. Yəni şəfaət edən mömin dünyada nə qədər yaxşı əməllər edərsə, qiyamət günü ona bir o qədər şəfaət etmək icazəsi veriləcəkdir. Nümunə üçün bu barədə nəql olunmuş hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ مِنْ أُمَّتِي لَمَنْ يَشْفَعُ لأَكْثَرَ مِنْ رَبِيعَةَ وَمُضَرَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimin (möminləri) arasında elələri var ki, "rəbiə" və "muzir"[1] qəbilələrində olan insanların sayı qədər insana şəfaət edəcəklər."[2]

قَالَ رَسُولُ اللهِ(ص): لَيَدْخُلَنَّ الْجَنَّةَ بِشَفَاعَةِ رَجُلٍ مِنْ أُمَّتِي أَكْثَرُ مِنْ بَنِي تَمِيمٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimin möminləri arasında elələri də var ki, onların şəfaəti ilə Bəni-Təmim qəbiləsindəki insanların sayı qədər insan cənnətə gedəcək."[3]

---

[1] Ərəblərin iki böyük qəbiləsidir.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.161. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 4-cü cild, səh.212.
[3] Yenə orada. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 3-cü cild, səh.470, Sünəni-İbn Macə, 2-ci cild, səh.1444.

قَالَ رَسُولُ اللهِ(ص): وَ اِنَّ اَدْنَى الْمُؤْمِنِينَ شَفاعَةً يَشْفَعُ فِي اَرْبَعِينَ مِنْ اِخْوانِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Şəfaətə hamıdan az haqqı olan möminlər yalnız qırx nəfər (mömin) qardaşına şəfaət edəcəklər." [1]

قَالَ الباقِرِ(ع): وَ إِنَّ أَدْنَى الْمُؤمِنِينَ شَفَاعَةً لَيَشْفَعُ لِثَلَاثِينَ إِنْسَانًا

-İmam Baqir(ə) buyurur: "Şəfaətə hamıdan az haqqı olan möminlər yalnız otuz insana şəfaət edəcəklər." [2]

قَالَ عَلِيٌّ(ع): مَن تَعَلَّمَ القُرآن (مَن قَرَأَ القُرآنَ) فَاستَظهَرَهُ فَأَحَلَّ حَلالَه وَحَرَّمَ حَرامَه أَدخَلَهُ اللهُ الْجَنَّة وَشَفَّعَهُ فِي عَشَرَةٍ مِن أَهلِ بَيتِهِ كُلهُم قَد وَجبت لَهُم النّار

-İmam Əli(ə) buyurur: "Kim Quran oxumağı öyrənsə (Quran oxusa), onu əzbərləsə, onun halalını halal, haramını da haram bilsə, Allah-təala onu cənnətə daxil edər və ona öz ailəsindən (cəhənnəmə düçar olmuş) on nəfərə şəfaət etmək icazəsi verər."[3]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الرَّجُلَ مِنْ أُمَّتِي لَيَشْفَعُ لِلْفِئَامِ مِنَ النَّاسِ، فَيَدْخُلُونَ الْجَنَّةَ، وَ إِنَّ الرَّجُلَ لَيَشْفَعُ لِلْقَبِيلَتِهِ، وَ إِنَّ الرَّجُلَ لَيَشْفَعُ لِلعُصَبه

[1] Yenə orada, səh.166.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.170.
[3] Yenə orada, səh.161.

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimin möminləri arasında eləsi də var ki, insanların böyük bir qisminə, eləsi var ki, bir qəbiləyə, eləsi də var ki, öz ailə və yaxunlarına şəfaət edəcəklər."[1]

İmam Baqirdən(ə) bu barədə nəql olunmuş bir hədisdə buyurulur ki, bəzi möminlər yalnız üç nəfərə şəfaət edə biləcəklər. Qeyd olunan hədislərdə şəfaət edənlərin müxtəlifliyi onların əməl və dərəcələrindən asılıdır. İmam Baqir(ə) bir hədisdə şəfaət edən möminlərdən söz açdıqdan sonra yekun olaraq həmin məsələyə də işarə etmişdir. Həmin hədis belədir:

قَالَ الباقِر(ع): يَشْفَعُ الرَّجُلُ فِيْ الْقَبِيْلَةِ وَ يَشْفَعُ الرَّجُلُ لِاَهْلِ الْبَيْتِ وَ يَشْفَعُ الرَّجُلُ لِلرَّجُلَيْنِ عَلٰي قَدْرِ عَمَلِه

-İmam Baqir(ə) buyurur: "Mümkündür ki, möminlərdən birinin qiyamət günü öz qəbiləsinə, birinin öz ailəsinə və birinin iki nəfərə, yaxud bir nəfərə şəfaət etməyə icazəsi olacaq. Hər bir kəs (şəfaət edən mömin) əməli qədər şəfaət edəcəkdir."[2]

## Allah dərgahında şəfaət edənlər (əməllər)

Qeyd olundu ki, qiyamətin axırıncı mərhələsi şəfaətdir və biz şəfaətin nə olduğu barədə lazımi qədər bəhs etdik. Məlum oldu ki, qiyamət günü şəfaətin mövcudluğu da danılmaz məsələlərdən biridir. İndi isə şəfaət barədə daha iki mətləbə də diqqət yetirmək lazım

---

[1] Yenə orada, səh.163.
[2] Yenə orada, səh.170.

gəlir. Birincisi budur ki, şəfaət edənlər kimlər olacaqdır? Yəni şəfaət etmək ixtiyarı kimlərə veriləcəkdir? Həmçinin qeyd etdik ki, hər bir şəfaətçi Allahın izni ilə şəfaət edəcəkdir. Həzrət Peyğəmbərin(s) və məsum imamların buyurduqlarına əsasən, bir neçə şəxs qiyamət günü şəfaət edəcəkdir. Amma insanın özünə aid olan bir neçə əməl də vardır ki, qiyamət günü ona (yəni insana) şəfaət edəcəkdir.

**1. Allaha itaət**

Qiyamət günü insana şəfaət edən amillərdən birincisi Allaha itaətdir. Allaha itaət etmək, Onun buyurduqlarına dəqiqliklə riayət etmək, Onun qarşısında səcdə etmək şəfaətçilər arasında mühüm yer tutur. Yəni qiyamət günü insana ilk şəfaətçi məhz onun öz əməli və Allaha itaət etməsi olacaqdır. Həzrət Əli(ə) "Nəhcül-bəlağə"nin 189-cu xütbəsində bu barədə belə buyurur:

فَاجْعَلُوا طَاعَةَ اللَّهِ شِعَاراً دُونَ دِثَارِكُمْ وَ دَخِيلًا دُونَ شِعَارِكُمْ وَ لَطِيفاً بَيْنَ أَضْلَاعِكُمْ وَ أَمِيراً فَوْقَ أُمُورِكُمْ وَ مَنْهَلًا لِحِينِ وُرُودِكُمْ وَ شَفِيعاً لِدَرَكِ طَلِبَتِكُمْ وَ جُنَّةً لِيَوْمِ فَزَعِكُمْ وَ مَصَابِيحَ لِبُطُونِ قُبُورِكُمْ

-Buna görə də Allaha itaət və tabeçiliyi *(bədənə yapışmayan)* üst paltarı deyil, alt köynəyi kimi öz adətiniz edin. Və *(hətta onu)* köynəyin altında bədəninizin daxili bir hissəsi edin, əndamınızda gizlədin onu. *(Xülasə elə bir iş görün ki, sizin bütün bədən üzvləriniz Allaha itaətkar və tabe olsun.)* İşlərinizdə Onu (Allaha itaət etməyi) hakim bilin *(bütün işlərdə Allahın əmr və qadağalarına tabe olun)* və *(onu qiyamətə)* daxil olacağınız zaman üçün çeşmə, mənəvi istəklərinizə çatmaq üçün ən gözəl şəfaətçi, *(çətin hadisələrdən)* qorxu gününüz üçün qalxan,

qəbirləriniz arasındakı çıraqlar, qorxu və vahimənizin uzunluğunda ünsiyyət yoldaşı və kədərli yerlərinizin yüngüllüyü təyin edin.[1]

Allaha itaət etmək hər bir insan üçün çox mühümdür. Allaha itaət etmək Onun nemətlər verdiyi kəslərin yanında qərar tutmaq deməkdir. "Nisa" surəsinin 69-70-ci ayələrində belə buyurulur.

وَمَنْ يُطِعِ اللَّهَ وَالرَّسُولَ فَأُولَٰئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاءِ وَالصَّالِحِينَ وَحَسُنَ أُولَٰئِكَ رَفِيقًا. ذَٰلِكَ الْفَضْلُ مِنَ اللَّهِ وَكَفَىٰ بِاللَّهِ عَلِيمًا

-Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (imanlarında sədaqətli olanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahiblərilə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır! Bu mükafat Allah tərəfindəndir. (Hər şeyi) bilən Allah (sizə) kifayət edər!

Bu ayənin nazil olma səbəbi belədir: - Söban Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. Onun Həzrət Peyğəmbərə(s) həddindən artıq məhəbbəti və əlaqəsi var idi. Belə ki, hətta bircə gün Həzrəti(s) görmədikdə sanki ürəyi partlayır və çox darıxırdı. Günlərin birində o, çox narahat halda Həzrət Peyğəmbərin(s) hüzuruna gəldi. Həzrət Peyğəmbər(s) onun bu halını görüb soruşdu: "Söban, sənə nə olub? Niyə belə qəmli və narahatsan?" Söban dedi: "Ya Rəsulallah, səndən ayrı qaldıqda və səni görmədikdə yaman darıxıram. Bu gün fikirləşdim ki, əgər qiyamət günü mən cənnətə getsəm, məqamım sənin məqamında olmayacaq və səni görə

[1] Nəhcül-bəlağə, 189-cu xütbədən.

bilməyəcəyəm. Əgər cənnətə yox, cəhənnəmə getsəm, məlumdur ki, səndən uzaq düşəcəyəm. Beləcə, hər bir halda səndən uzaq düşəcəyimi düşünüb bunu özümə dərd etmişəm. Ya Rəsulallah, bu hal məni çox narahat və qəmgin edir.”

Elə həmin vaxt cənab Cəbrayıl(ə) nazil olub bu (yuxarıda qeyd olunan) ayəni gətirdi. Həzrət Peyğəmbər(s) ayəni oxuduqdan sonra buyurdu:

لا يُؤمِنَنَّ عَبدٌ حَتّیٰ اَکُونَ اَحَبَّ اِلَیهِ مِن نَفسِهِ وَ اَبَوَیهِ وَ اَهلِهِ وَ وُلدِهِ وَ النّاس اَجمَعِین

-Sizlərdən hər hansı biriniz məni özündən, mal-dövlətindən, övladından və bütün insanlardan çox istəməsə, deməli iman gətirməmişdir.[1]

Deməli, əgər bir şəxs Həzrət Peyğəmbəri(s) özündən, mal-dövlətindən, övladından və bütün insanlardan çox sevirsə, o, həmin mömindir ki, Allah-təala onu ayədə “Onlar necə də gözəl yoldaşlardır!” - deyə tərif edir.

Allah-təala “Tövbə” surəsinin 71-72-ci ayələrində belə buyurur:

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَيُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَيُطِيعُونَ اللَّهَ وَرَسُولَهُ أُولَٰئِكَ سَيَرْحَمُهُمُ اللَّهُ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

-Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar. Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm

[1] Təfsiri-nümunə, 3-cü cild, səh.459; Məcməül-bəyan, 3-cü cild, səh.72.

edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir!

Bu mübarək ayədə Allah-təala möminlərin bir sıra xüsusiyyətlərini sadaladıqdan sonra öz rəhmətinin onlara şamil olunacağını bəyan edir. Ümumiyyətlə, İlahi rəhmətin geniş mənası vardır və qısası isə belədir ki, burada dünya və axirətin hər cür xeyri nəzərdə tutulur. Sonrakı ayədə isə bəzi İlahi nemətlərdən söz açılır.

وَعَدَ اللَّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِنَ اللَّهِ أَكْبَرُ ذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Allah mömin kişilərə və qadınlara (ağacları) altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə (bunların hamısından) daha böyükdür. Bu, böyük qurtuluşdur (uğurdur)!

Ədn cənnəti Allah-təala tərəfindən möminlərə vəd olunmuş bir yerdir. "Mədən" kəlməsi "ədn" sözündən götürülmüşdür. Mədən isə qiymətli və əlvan metalların uzun illər boyu saxlanıldığı bir yerdir. Həzrət Peyğəmbərdən(s) Ədn cənnəti barədə soruşduqda belə buyurmuşdur:

عَدن دَارُ اللهِ الَّتِي لَمْ تَرَهَا عَينٌ وَلَمْ يَخطُرْ عَلَى قَلبِ بَشَرٍ لا يَسكُنُهَا غَيرُ ثَلاثَةٍ: اَلنَّبِيّين وَالصِّدِيقِين وَالشُّهَداء

-Ədn cənnəti Allahın heç bir gözün görmədiyi və heç bir kəsin təsəvvür etmədiyi evidir. Orada üç qrup insandan başqa heç bir kəs məskunlaşmayacaq.

Peyğəmbərlər, sadiq insanlar (sədaqətlə iman gətirib peyğəmbərləri təsdiq edənlər) və şəhidlər.[1]

Deməli, əgər insan səmimi-qəlbdən iman gətirərsə, cənnətdə peyğəmbərlərlə birgə olacaqdır.

İtaətin mənasına gəldikdə isə, "Nisa" surəsinin ilk ayələrində insanın yaranmasından və İlahi ehkamdan (fiqh məsələlərindən) söz açıldıqdan sonra 13-14-cü ayələrdə belə buyurulur:

تِلْكَ حُدُودُ اللَّهِ وَمَنْ يُطِعِ اللَّهَ وَرَسُولَهُ يُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Bunlar Allahın hədləridir (hökmləridir). Hər kəs Allaha və Peyğəmbərinə itaət edərsə, Allah onu (ağacları) altından çaylar axan cənnətlərə əbədi olaraq daxil edər ki, bu da (möminlər üçün) böyük qurtuluşdur (uğurdur)!

وَمَنْ يَعْصِ اللَّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ عَذَابٌ مُهِينٌ

-Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun hədlərini aşarsa, (Allah da) onu həmişəlik cəhənnəmə daxil edər. Onu rüsvayedici əzab gözləyir.

Deməli, Allahın insanlar üçün müəyyən etdiyi hökmlərə riayət etmək Ona itaət etmək deməkdir. Hər kim Allahın hökmlərinə riayət edərsə, itaətkar, itaət etməzsə isə günahkar hesab olunur. İtaətin qısa mənası budur ki, insan Allahın vacib buyurduqlarını yerinə yetirsin və haram etdiklərindən çəkinsin.

[1] Təfsiri-nümunə, 8-ci cild, səh.38.

قَالَ رَسُولُ اللهِ(ص): مَا يُدرَك مَا عِندَالله اِلاّ بِالطّاعَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah yanında olan məqama (rəhmət, mərhəmət və məğfirətə) itaətdən savayı başqa heç bir şeylə çatmaq olmaz."[1]

قَالَ عَلِيٌّ(ع): لا عِبَادَةَ كَأَداءِ الْفَرائِض

-Həzrət Əli(ə) buyurur: "Vacib əməlləri yerinə yetirmək kimi ibadət yoxdur."[2]

Əbu Carud İmam Baqirin(ə) dostlarından biri idi. Onun gözləri zəifləmiş və demək olar ki, görmə qabiliyyətini itirmişdi. Günlərin birində o, İmam Baqirin(ə) hüzuruna gəlib dedi: "Ey Allahın höccəti, sənin mənim halımdan xəbərin var. Bilirsən ki, gözlərim görmür və tez-tez sənin yanına gəlib hüzurundan bəhrələnə bilmirəm. Bir məsələ ilə əlaqədar olaraq sənin yanına gəlmişəm. İstəyirəm ki, bir məsələni mənə ətraflı şəkildə başa salasan." Həzrət(ə) buyurdu: "Narahat olma, sualını buyur." Əbu Carud dedi: "Sizin və ailənizin (ata-babalarınızın) Allaha ibadət etdiyiniz din və əqidə hansıdır? İstərdim bu dini mənə başa salasınız ki, mən də Allaha elə ibadət edim."

قالَ: إِنْ كُنْتَ أَقْصَرْتَ الْخُطْبَةَ فَقَدْ أَعْظَمْتَ الْمَسْأَلَةَ، واللهِ لَأُعْطِيَنَّك دِينِي وَدينَ آبائِيَ الَّذي نَدينُ اللهَ عَزَّوَجَلَّ بِهِ : شَهادَةَ أَنْ لا إِلهَ إِلاّ الله، وَأَنَّ مُحَمَّداً رَسُولُ اللهِ صلّى الله عليه وآله وسلم،

[1] Mizanül-hikmə, 7-ci cild, hədis – 11283.
[2] Gəncineyi-məarif, 2-ci cild, səh. 637.

وَالْإِقْرارَ بِما جاءَ بِهِ مِنْ عِنْدِ اللهِ، وَالْولايَةَ لِوَلِّينا وَالْبَراءَةَ مِنْ عَدُوِّنا، وَالتَّسْليمَ لِأَمْرِنا، وَانْتِظارَ قائِمِنا، والاِجْتِهادَ وَالْوَرَعَ

-İmam Baqir(ə) buyurdu: "Qısa danışmaqla çox böyük məsələyə toxundun. Allaha and olsun ki, mənim və ata-babalarımın ibadət etdikləri din haqqında səni xəbərdar edəcəyəm. (Bu din odur ki, insan) Allahdan savayı başqa heç bir məbudun olmadığına şəhadət versin. Məhəmmədin(s) Allah tərəfindən göndərildiyinə inanıb şəhadət versin. Onun Allah tərəfindən gətirdiyinə (Quran və hökmlərə) inansın. Allah tərəfindən təyin olunan vəlilərin (imamların) vilayətini qəbul etsin və onların düşmənlərindən uzaq olsun (acığı gəlsin). Allahın (bu) əmri qarşısında təslim olsun. Bizim sonuncu İmamın(ə.c) intizarında olsun və bu yolda çalışıb təqvalı olsun."[1]

İmam Baqir(ə) Əbu Caruda bu sözləri deməklə sanki bütün müsəlmanlara bildirirdi ki, Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) Allaha itaət və ibadəti belədir. Hər kim Allaha itaət etmək istəyrsə, belə etsin və özündən hökm çıxararaq öz bildiyi kimi etməsin. Allaha ibadət məsələsində ifrata yol verməsin.

Rəcəbəli Xəyyatın şagirdlərindən biri deyir ki, qarşıma məqsəd qoyub bir müddət Allaha ibadət və zikr etməklə məşğul oldum. Belə ki, otağımı da ayırıb gecə-gündüz Allaha ibadət və zikr edirdim. Hətta həyat yoldaşımdan da kənar düşmüşdüm. Bir müddət beləcə davam etdim və günlərin birində ustadım Rəcəbəlinin yanına getmişdim. O, məni görən kimi buyurdu: "Nə işlə məşğul olduğunu deyimmi?" Mən başımı aşağı salıb bir

---

[1] Üsuli-kafi, 3-cü cild, səh.35.

söz demədim. Ustad buyurdu: “Bu nə hərəkətdir? Həyat yoldaşınla niyə belə rəftar edirsən? Özündən qayda-qanun düzəltmə. Bu gündən etibarən etdiyin zikrləri də bir kənara qoy. Dükana gedib bir qutu şirniyyat al və həyat yoldaşına apar. Hər gün namazlarını azan verilən vaxtda qıl və adi ibadətlə məşğul olsan bəsindir.”[1]

Buna görə də hər bir mömin hər bir cəhətdən, xüsusilə ibadət və minacat baxımından özünü Həzrət Peyğəmbərə(s) oxşatmağa çalışmalıdır. Həzrət Peyğəmbərin(s) Allahla etdiyi minacatlarına diqqət yetirdikdə görürük ki, çox sadə və ürəyəyatımlı sözlərlə söhbət edərmiş.

Ümmi Sələmə deyir: “Gecələrin birində Həzrət Peyğəmbər(s) mənim evimdə idi. Gecəyarısı oyanıb gördüm ki, Həzrət(s) yoxdur. Ətrafa baxdıqda onun evin bir küncündə dayanıb əllərini qaldıraraq dua etdiyini gördüm. Ağlaya-ağlaya belə deyirdi: “İlahi, mənə verdiyin yaxşılıqları məndən alma. İlahi, məni düşmənin məzəmmət və dil yarasına məruz qoyma. İlahi, mənə bütün pisliklərdən nicat vermisən və məni onlara tərəf qaytarma. İlahi, məni bir göz qırpımı qədər də özbaşına buraxma.”

Mən onun bu minacatını eşitdikdə halım dəyişdi və evin bir küncündə əyləşib ağlamağa başladım. Həzrət Peyğəmbər(s) mənim səsimi eşidib yaxınlaşdı və soruşdu: “Nə üçün ağlayırsan?” Dedim: “Ya Rəsulallah, axı necə ağlamayım, sənin kimi məqamı yüksək olan bir insanın Allahla belə minacat etdiyi halda, vay mənim kimi birisinin halına.” Həzrət Peyğəmbər(s) buyurdu: “Mən də necə

[1] Gəncineyi-məarif, 2-ci cild, səh. 638.

ağlamayım, Allahla minacatında Yunis Peyğəmbər(ə) bircə an özbaşına buraxıldı və başına nələr gəldi.”[1]

Gecələr Allahla minacat etmək o zaman insana ləzzət verər ki, gündüzlər Onun itaətində olsun və günah işlətməsin. Gündüzlər günah edən şəxsin gecələr ibadət və minacatlardan ləzzət alması mümkün deyil.

Belə rəvayət olunur ki, qədim zamanlarda özünə nökər almaq istəyən bir nəfər bazara gedir və orada gözü bir qula düşür. Həmin şəxs qulu almaq istəyəndə qul deyir: “Əgər məni alacaqsansa, səninlə üç şərt kəsməli olacağam.” Ağa deyir: “Şərtlərin nədir?” Qul deyir: “Birinci şərtim budur ki, namaz vaxtı mənimlə işin olmasın. Vaxtlı-vaxtında namazlarımı qılmağa mənə icazə verəsən. İkinci şərtim budur ki, mən yalnız gündüzlər sənin qulluğunda olacağam, gecələr yox. Üçüncü şərtim də budur ki, əgər imkanın varsa, mənim üçün ayrıca bir otaq təşkil edəsən.”

Ağa onu dinlədikdən sonra dedi: “Sənin hər üç şərtini qəbul edirəm.” Sonra ağa nökəri alıb evə gətirir və həyətdəki otaqları ona göstərib hansını bəyəndiyini soruşur. Qul köhnə və qaranlıq otaqlardan birini seçir və orada yaşamağa başlayır. Gündüzlər ağasının qulluğunda olur, gecələr isə Allaha ibadət edir.

Günlərin birində ağa evində qonaqlıq verir. Qonaqlar çalıb-oxumaqla, deyib- gülməklə və yeyib-içməklə məşğul olurlar. Qonaqlıq qurtardıqdan sonra gecə hamı öz evinə gedir.  Ağa deyir: “Qonaqları yola saldıqdan sonra özüm üçün həyətdə gəzişərək bir az hava qəbul etmək istəyirdim. Birdən gözüm qulun qaldığı otağa düşdü.

[1] Gəncineyi-məarif, 3-cü cild, səh. 580.

Baxıb gördüm ki, o, səcdədə Allahla minacat edir və göydən onun üzərinə nur ələnir. Yaxınlaşıb diqqətlə qulaq asdıqda gördüm ki, Allaha belə deyir:

إلهي أَوجَبتَ عَلَيَّ خِدمَةَ مَولايِ نَهارًا وَلولاهُ مَا اشتَغَلتُ إلا فِي خِدمَتِكَ لَيلِي وَنَهارِي رَبِّي فَاقبل عُذرِي

-İlahi, mənə vacib etmisən ki, gündüzlər bu ağaya xidmət edim. Əgər belə bir şərt olmasaydı (onunla belə şərt bağlamasaydım), gecə və gündüzlərimi sənə ibadət etməklə keçirərdim. Ey mənim Rəbbim, üzrümü qəbul elə.

Sübh azanına qədər onun minacatına qulaq asdım. Sonra gedib bu hadisəni həyat yoldaşıma danışdım. Sonrakı gecə yoldaşımla birgə yenə də gizlicə onun ibadət etməsinə tamaşa etdik. Səhər açıldıqda mən onu yanıma çağırıb dedim: “Səni Allah rizası üçün azad edirəm ki, gecə-gündüz Onun xidmətində olasan.” Sonra isə gecə onun necə ibadət etdiyini gördüyümüzü söylədim.

Qul bizim onun halından xəbərdar olduğumuzu görərək azacıq fikirləşdi və sonra əllərini yuxarı qaldıraraq Allaha belə dua etdi:

إلهي كُنتُ أَسأَلُكَ أَن لا تَكشِفَ سِرِّي وَ أَن لا تُظهِرَ حَالِي فَإذا كَشَفتَه فَاقبِضنِي إلَيك

-İlahi, mən Səndən istəmişdim ki, sirrim açılmasın. İndi ki, mənim halımın üstü açıldı, canımı al və məni Öz yanına apar.

Onun bu duası qəbul olundu və kəlmeyi-şəhadətini deyib dünyasını dəyişdi.

Odur ki, hər bir kəsə vacib əməlləri yerinə yetirməklə və haram əməllərdən çəkinməklə yanaşı, mərifət və ədəblə

minacat etmək də çox gözəldir. Allaha ibadət və itaət etmək qiyamət günü insana ən gözəl şəfaətçidir.

**2. Tövbə**

Qiyamət günü insana şəfaətçi olan əməllərdən biri də tövbədir. Hədislərdə belə nəql olunur ki, tövbə qiyamət günü insana ən mühüm şəfaətçilərdən biridir.

قَالَ عَلِيٌّ(ع): لا شَفيعَ اَنْجَح مِنَ التَّوبةِ

-Həzrət Əli(ə) buyurur: "Tövbədən faydalı şəfaətçi yoxdur." [1]

قَالَ عَلِيٌّ(ع): لا شَافِعَ اَنْجَح مِن الإعتِذَار

Digər bir hədisdə isə Həzrət(ə) belə buyurur: "Üzr istəməkdən faydalı şəfaətçi yoxdur."

Yəni insanın dünyada günahlarına görə Allahdan üzr istəməsi qiyamət günündə ona şəfaətçi olacaqdır.

Allah-təala "Təhrim" surəsinin 8-ci ayəsində möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا

-Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin.

Həmişə tövbə barədə söz açıldıqda Quran ayələrindən və hədislərdən istifadə edərək onun məna və tərcüməsi qeyd olunur. Lakin burada çox yaxşı olar ki, tövbənin nə olduğu barədə müəyyən qədər şərh verək. Əlbəttə, qeyd etmək lazımdır ki, bu mətləb elmi baxımdan azacıq ağır olduğundan daha artıq diqqət yetirilməsi tələb olunur. Həmin mətləb budur ki, insan digər varlıqlarla

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.184.

müqayisədə fərqli bir məxluqdur. Mələkləri çıxmaq şərtilə insanın digər varlıqlardan fərqlərindən biri onun tövbə etməsidir. Başqa varlıqların heç birində tövbə məsələsi yoxdur. Digər varlıqlara gəldikdə isə, onlar da bir-birilərindən fərqlidirlər.

Məxluqların bir qismi cansız varlıqlardan ibarətdir. Məsələn, daş, dəmir, şüşə, torpaq və s. kimi varlıqlar cansız varlıqlardır. Bu varlıqların digərlərindən fərqi budur ki, onların qarşılarına maneə çıxdıqda öz istiqamətlərini dəyişmək iqtidarında deyillər. Məsələn, planetlərin hərəkətinə diqqət yetirdikdə görürük ki, onların hər birinin özünəməxsus hərəkət trayektoriyası vardır. Əgər onların qarşılarına bir maneə çıxarsa, öz istiqamətlərini dəyişə bilməzlər. Yəni son nəticədə həmin maneə ilə toqquşmalı olacaqlar. Eyni zamanda ulduzlardan biri öz hərəkəti zamanı başqa bir ulduzla qarşı-qarşıya çıxarsa, mütləq onunla toqquşmalıdır. Çünki onun öz yolunu dəyişməyə ixtiyarı yoxdur. Sadə bir misalla demək istəsək, məsələn, fərz edək ki, hündür mərtəbəli bir evin damından daş qopub sürətlə yerə sarı gəlir. Əgər həmin vaxt yoldan keçən bir şəxs onun düşdüyü istiqamətdən keçərsə, həmin daş mütləq ona dəyməlidir. Yəni cansız varlıqların öz-özlüyündə istiqamətlərini dəyişmək iqtidarı yoxdur. Ola bilər ki, kənar təsirlərin nəticəsində dəyişmiş olsun, amma öz-özlüyündə bu iş mümkün deyil. Məsələn, pilotsuz təyyarə və ya maşın pult vasitəsilə idarə olunur. Onun istiqamətinin dəyişilməsi də kənardan kiminsə vasitəsilə mümkündür.

Bitki aləmi də varlıqların bir növüdür, amma bu varlıqlar cansız varlıqlardan fərqlidir. Bitkilərin bir fərqi bundan ibarətdir ki, onlar müəyyən qədər öz istiqamətlərini dəyişə bilirlər. Məsələn, hansısa bir bitki toxumunu torpaqda əkərkən o, torpağın altında inkişaf edir

və tədricən böyüməyə başlayır. Əgər torpaqda onun qarşısına bir maneə çıxarsa, azacıq öz istiqamətini dəyişməklə inkişafını davam etdirir.

Canlı varlıqlar sırasına daxil olan heyvanlar həm cansızlardan, həm də bitkilərdən tamamilə fərqlidirlər. Heyvanlar kiçik və ya böyük olmalarından asılı olmayaraq, qarşılarındakı maneəni hiss edən kimi dərhal öz istiqamətlərini dəyişə bilirlər.

İnsan da canlı varlıqlardan biridir və iki cəhətə, yaxud xüsusiyyətə malikdir. Həmin cəhətlərdən biri heyvani, digəri isə ruhani cəhət hesab edilir. Başqa sözlərlə desək, insan maddi və mənəvi cəhətdən təşəkkül tapmışdır. İnsan digər varlıqların hamısından fərqli olaraq hər iki cəhətdən öz istiqamətini dəyişmək iqtidarındadır. Məsələn, heyvani cəhətdən digər canlılar kimi, bir təhlükə və maneə gördükdə dərhal öz istiqamətini dəyişir. Yaxud qarşısına çıxan birisini görmək istəmədikdə istiqamətini dəyişib başqa yolla hərəkətinə davam edir. İnsan heyvani cəhətdən yolunu dəyişə bildiyi kimi, mənəvi cəhətdən də dəyişir. Əgər insan mənəvi cəhətdən qarşısına çıxan maneəni görüb (yəni həqiqətən də onun maneə olduğunu başa düşüb) istiqamətini dəyişərsə, buna tövbə deyilir.

İkinci mətləb budur ki, dildə deyilən ("Əstəğfirullahə Rəbi və ətubu ileyh") sözlə tamamlanmır. Tövbə insanın daxilində olan bir inqilabdır ki, dildə deyilən ("Əstəğfirullahə Rəbi və ətubu ileyh") həmin inqilabın bayrağı və nişanəsidir. Yəni tövbə odur ki, insan öz iç dünyasında öz əleyhinə inqilab və dəyişiklik etmiş olsun. Aydın məsələdir ki, iki nəfər bir-birinin əleyhinə inqilab edə bilər. Yaxud bir ölkədə bir qrup insan ayağa qalxıb zalım hökmdara qarşı inqilab edə və onu hakimiyyətdən kənarlaşdıra bilərlər.

Burada sual oluna bilər ki, bəs insan öz əleyhinə necə inqilab edə bilər? Axı inqilab etmək üçün iki bir-birinə əks qüvvələr olmalıdır. Onlardan biri zalım olmalıdır ki, digər qrup onun əleyhinə mübarizəyə başlayıb inqilab etsin. Cavab budur ki, insan iki (maddi və mənəvi) cəhətdən təşəkkül tapdığından və müxtəlif xüsusiyyət və sifətlərə malik olduğundan onun öz əleyhinə inqilab etməsi də mümkündür. Bütün mənəvi, maddi və heyvani xüsusiyyətlər, habelə başqa canlılarda və cansız varlıqlarda olan digər keyfiyyətlərin hamısı insanda da mövcuddur.

Fəlsəfədə insanın belə bir tərifi vardır: "İnsan canlı natiqdir." Bütün heyvanların hamısının xisləti insanda da vardır. Burada ən mühüm məqam isə ondan ibarətdir ki, həmin xislətlərin hamısının nümunəsi vardır. Məsələn, insanda şəhvət vardır və heyvanlar arasında şəhvətin bariz nümunəsi ilə daha çox tanınmışı isə donuzdur. Təbiidir ki, hər bir heyvanda şəhvət var, amma ən çox şəhvətə malik olan heyvan məhz donuzdur. Yəni insanın içərisində həmin heyvanın təsiri vardır. Qüdrətlənmə heyvanlar arasında ən çox şirdə özünü büruzə verir. İnsanın da daxilində qüdrətlənmə və hakimiyyətpərəstlik hissi vardır.

Tamahkarlıq, hiyləgərlik, yırtıcılıq və s. kimi xislətlərin nümunələri də ayrı-ayrı heyvanlarda müşahidə olunur. Həmin xislətlərin hamısı insanın içində mövcuddur və insanın daxilində bir növ hökmranlıq edir. Əgər bir insan şəhvətpərəstliklə məşğuldursa, deməli, onun içərisində donuza məxsus xüsusiyyətlər baş qaldırmışdır. Əgər insan hiyləgərlik, kələkbazlıq və fırıldaqçılıq edirsə, deməli onun içərisində tülküyə məxsus keyfiyyətlər baş qaldırmışdır. Əgər insan qüdrətlənirsə, onun içində şirə məxsus olan keyfiyyətlər hakimlik edir. Həmçinin əgər insan yırtıcıya dönübsə, deməli onun

içərisində canavarlıq baş qaldırmışdır. Odur ki, insanın içərisində həmin heyvanlardan hansı birinin xüsusiyyətləri üstünlük təşkil etsə, insan da ona oxşayacaq və qiyamət günü həmin sifətdə məhşərə gələcəkdir.

İmam Xomeyni(r) müəllifi olduğu “Qırx hədis” kitabında hər bir hədisin izahını vermiş və müfəssəl şəkildə açıqlamışdır. O, bu əsərində “Üsuli-Kafi” kitabından bir hədis nəql edərək onun barəsində belə buyurmuşdur: “İnsanın daxilində heyvani xislətlər və insani keyfiyyətlər mövcud olduğundan həm şeytan, həm də ağıl bundan istifadə edərək insanı idarə edir.” Yuxarıda qeyd etdiyimiz heyvani xislətlər şeytanın gücü, insani keyfiyyətlər isə ağlın gücüdür. Buna görə də insan bir kənarda dayanıb öz daxilinə baxa bilsə, o zaman şeytanın gücünün tüğyan etdiyini görər və belə bir vəziyyətdə ağlın gücünü oyadaraq şeytanın əleyhinə inqilab etsə və (şəhvətə, qüdrətlənməyə, tamahkarlığa və s. kimi heyvani xislətlərə) qələbə çalıb hakimiyyəti ələ keçirsə, buna tövbə deyilir. Yəni tövbə insanın daxilindəki ağlın gücünün şeytanın gücünə qələbə çalmasıdır.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ الله تعَالَى خَلَقَ المِلائِكَةَ وَرَكَّبَ فِيهِمْ العَقْلَ، وخَلَقَ البَهَائِمَ وَرَكَّبَ فِيهِم الشَّهْوَة، وخَلَقَ بني آدَمَ وَرَكَّبَ فيهِمْ الْعَقْلَ والشَّهوَةَ. فَمَنْ غَلَبَ عَقْلُهُ عَلَى شَهْوَتِهِ فَهُوَ أَعْلى مِنَ المَلائِكَةِ، ومَنْ غَلَبَت شَهْوتهُ عَلى عَقلِهِ فَهُوَ اَدنى مِنْ البهَائِمِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala mələkləri yaradarkən onlara yalnız ağıl, heyvanları yaradarkən onlara yalnız şəhvət, Adəm övladını yaradarkən isə ona həm ağıl, həm də şəhvət bəxş etdi. Beləcə, kimin ağlı şəhvətinə qələbə çalsa, həmin insan

mələklərdən üstün olacaq. Kimin şəhvəti ağlına qələbə çalsa, həmin şəxs heyvandan aşağı səviyyədə olacaq.”

İndi qarşıya belə bir sual çıxır: Firon son nəfəslərində tövbə etdi. Bəs nə üçün onun tövbəsi qəbul olunmadı? Bu sualın bir cavabı vardır: “Çünki Fironun etdiyi tövbə həqiqi tövbə deyildi.” O, sadəcə olaraq qorxusundan təslim oldu. Allah-təala “Yunis” surəsinin 90-91-ci ayələrində buyurur:

وَجَاوَزْنَا بِبَنِي إِسْرَائِيلَ الْبَحْرَ فَأَتْبَعَهُمْ فِرْعَوْنُ وَجُنُودُهُ بَغْيًا وَعَدْوًا حَتَّىٰ إِذَا أَدْرَكَهُ الْغَرَقُ قَالَ آمَنْتُ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا الَّذِي آمَنَتْ بِهِ بَنُو إِسْرَائِيلَ وَأَنَا مِنَ الْمُسْلِمِينَ

-İsrail oğullarını dənizdən (sağ-salamat) keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. (Firon) batacağı anda “İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam!” – dedi.

Onun cavabında belə deyildi:

آلْآنَ وَقَدْ عَصَيْتَ قَبْلُ وَكُنْتَ مِنَ الْمُفْسِدِينَ

-İndimi? Halbuki əvvəlcə (Allaha) qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun!

Bu cavabın mənası odur ki, Fironun etdiyi tövbə həqiqi tövbə deyildi. O, son anlarında qorxusundan təslim olmaq istəyirdi. Əgər o, həqiqətən də tövbə etsəydi, Allah-təala onun tövbəsini qəbul edərdi.

Buna görə də tövbədə müvəffəqiyyət əldə etmək, yaxud başqalarına tövbə yolunu göstərmək istəyən şəxs ilk növbədə insanın daxilindəki pis xislətlərin nə qədər olduğunu bilməlidir. Yalnız bundan sonra ağlın gücü ilə həmin pis xislətlərə qələbə çalmalıdır. Belə olduqda insan

tövbənin yolunu tapmış olar. Həmçinin insan tövbə etdikdən sonra daim çalışmalıdır ki, məğlub etdiyi və zindana saldığı şeytan gücünü toplayıb yenidən ona qarşı çıxmasın. Belə olduqda bu tövbəyə “nəsuh”, yəni “bir daha günaha qayıtmamaq” tövbəsi deyilir. Hədislərdə belə nəql olunur ki, sağılan heyvanın südünün geri qaytarılması mümkün olmadığı kimi, insanın da tövbə etdikdən sonra həmin günaha qayıtmamasına “nəsuh” tövbəsi deyilir.

## Tövbə edənlərin dərəcələri

Burada tövbə barədə bir mətləbə də toxunmağımız çox yaxşı olardı. Həmin mətləb də bundan ibarətdir ki, tövbə edənlərin hamısı eyni dərəcədə olmurlar. İnsan var ki, tövbədən sonra sözünün üstündə dayanıb heç bir vaxt tövbəsini sındırmır. İnsan da var ki, tövbə etdikdən bir müddət sonra tövbəsini sındırıb yenidən günah əməllərə başlayır. Tövbə edənlər əsas etibarilə bir neçə qismə ayrılırlar.

Birinci qisim tövbə edənlər o kəslərdir ki, tövbə etdikdən bir müddət sonra tövbəni sındırırlar və bu işə peşman olmadan yenidən günahlar etməkdə davam edirlər. Belə insanlar öz-özlüyündə düşünürlər ki, günah edib yenidən tövbə edərəm. Onlar nəfsi istəklərinin əlində əsir olan insanlardır. Hər dəfə tövbə edib tövbələrini sındırdıqlarından bu insanların aqibəti məlum deyil.

İkinci qisim tövbə edənlər o kəslərdir ki, həmişə Allahın itaətində dayanmışlar. Amma bəzən günah və şəhvət onlara üstün gəldiyindən tövbəni sındırırlar. Belə olduqda onlar tutduqları işdən peşman olub narahatlıq keçirir və tez tövbə edib Allahdan bağışlanmaq diləyirlər. Bu qrup insanlar da nəfsi istəklərinin əlində əsir olanlardır. Amma onların nicat tapmalarına ümid vardır.

Üçüncü qrup insanlar o kəslərdir ki, tövbə etdikdən sonra həmişə özlərini nəzarət altında saxlayır və aldanıb şeytanın tələsinə düşməməyə çalışırlar. Bəzi hallarda günaha batdıqda tez peşman olub özlərini danlayaraq bir daha günah etməyəcəklərini qarşılarına məqsəd qoyurlar.

Günlərin birində bir nəfər Həzrət Əlidən(ə) ona nəsihət etməsini xahiş etdi. Həzrət Əli(ə) buyurdu:

لاَ تَكُنْ مِمَّنْ يَرْجُو اَلْآخِرَةَ بِغَيْرِ عَمَلٍ وَ يَرْجُو اَلتَّوْبَةَ بِطُولِ اَلْأَمَلِ

يَقُولُ فِي اَلدُّنْيَا بِقَوْلِ اَلزَّاهِدِينَ وَ يَعْمَلُ فِيهَا بِعَمَلِ اَلرَّاغِبِينَ

-Yaxşı işlər görməmiş və ibadət etməmiş axirət və cənnət ümidində olanlardan olma. Həmçinin uzun-uzadı arzularla tövbəni təxirə salan şəxslərdən olma. Danışıqları zahidlərin danışığı kimi, amma əməlləri dünyapərəstlərin əməli kimi olanlardan olma.[1]

Dördüncü qrup tövbə edənlər o kəslərdir ki, tövbədən sonra möhkəm iradə ilə Allaha itaət etməyin yolunu tutmuşlar. Doğrudur, bu insanlar məsum deyillər, amma bəzən günah fikrinə düşür və xətaya yol verirlər. Ancaq günaha batmaqdan özlərini qoruyurlar. Heç bir vaxt günahın onlara üstün gəlməsinə imkan vermirlər. Şəhvət onlara qələbə çalmaq istədikdə çox çətinliklə də olsa, ondan yaxa qurtarırlar. Çünki onların ağıl və imanları nəfsi istəklərinə qələbə çalmışdır. Bu qrup insanlar nəfsi istəklərinin sahibidirlər. Belə insanlar ölümlə qarşılaşdıqda son nəfəslərində Allahdan onlara belə cavab gəlir:

[1] Mütəhhəri tövbəsi, səh.387.

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً. فَادْخُلِي فِي عِبَادِي. وَادْخُلِي جَنَّتِي

-Ey (təqvanın kamalı sayəsində) arxayın olmuş nəfs (elə bir məqama yetişmiş nəfs ki, nəfsi istəklər və şeytanlar onu azdırmağa qadir deyil), dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə daxil ol! [1]

Ümmi Sələmə deyir: "Həzrət Peyğəmbər(s) ömrünün son iki ayında hər bir işi gördükdə "subhanallah və əstəğfirullahə rəbbi və ətubu ileyh" - deyirdi. Soruşdum: Ya Rəsulallah, nə üçün bu qədər istiğfar edirsiniz? Buyurdu: Çünki mən buna əmr olunmuşam."[2]

Əlbəttə, bu hal "Nəsr" surəsi nazil olduqdan sonra Həzrət Peyğəmbərdə(s) baş vermişdi. "Nəsr" surəsi Qədr-xum hadisəsindən sonra axırıncı surə idi ki, Həzrətə(s) nazil olmuşdu.

بِسْمِ اللهِ الرَّحمنِ الرَّحِيمِ. إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ. وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا. فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا

-Allahın köməyi və o zəfər gəldiyi zaman. İnsanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman. Rəbbinə həmd-səna etməklə bərabər, Onu zikr et, etiqad və əməldə Onu pak və nöqsansız bil. Ondan bağışlanmaq dilə. O, həqiqətən, daim nəzər yetirən və tövbələri qəbul edəndir.

---

[1] Fəcr surəsi, 27-30-cu ayələr.

[2] Mütəhhəri tövbəsi, səh.387.

Yəni Allah-təala Həzrət Peyğəmbərə(s) göstəriş verir ki, sənin vəzifən artıq sona çatmışdır. Allahın nüsrəti gəldi və sən düşmənlərə qələbə çaldın. İnsanlar dəstə-dəstə İslam dininə daxil oldular. Bundan sonra özünlə məşğul ol və vəzifəni yerinə yetir. Buna görə də həmin surə nazil olduqdan sonra Həzrət Peyğəmbər(s) hər an Allaha zikr və istiğfar edirdi."[1]

Odur ki, tövbə insanın həyatında çox mühüm bir yer tutur. Allahın tövbə edən insandan xoşu gəlir. Hədislərdə belə nəql olunur ki, Allahın günahkar bəndənin Onun qarşısında sızıldayıb bağışlanmaq diləməsindən və zikr edən adamların səsindən daha çox xoşu gəlir.

**3. Əmanət (əmanətdarlıq)**

Qiyamət günü insana şəfaət edən və yaxud belə deyək ki, insanın üzünə şəfaət qapısını açan əməllərdən üçüncüsü əmanətdarlıqdır. Əmanətdar o kəsə deyilir ki, ona tapşırılan əmanətə zərrə qədər də olsa xəyanət etməsin.

قَالَ رَسُولُ اللهِ(ص): الشُّفَعاءُ خَمسَةٌ...اَلأَمَانَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Şəfaət edənlər beşdir… onlardan biri də əmanətdir (əmanətdarlıqdır)." [2]

Allah-təala "Möminun" surəsinin birinci ayəsində möminlərin nicat tapacağını bəyan etdikdən sonra onların bir sıra xüsusiyyətlərini də bəyan edərək buyurur:

---

[1] Mütəhhəri tövbəsi, səh.387.

[2] Mənşuri-Cavid, 8-ci cild, səh.191.

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ. الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ. وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ. وَالَّذِينَ هُمْ لِلزَّكَاةِ فَاعِلُونَ. وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ... وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Həqiqətən (İslamın əqidə əsaslarına) iman gətirənlər nicat tapdılar (sanki onlar artıq axirətdə əməllərinin bütün mükafatlarını alıblar). O kəslər ki, namazlarında (həm ürəkləri, həm də bədənləri ilə) itaətkardırlar. Və o kəslər ki, bütün pis və çirkin (iş)lərdən üz döndərirlər. Və o kəslər ki, zəkat verir və nəfslərini təmizləyirlər. Və o kəslər ki, öz şəhvət qüvvələrini cilovlayırlar... Və o kəslər ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və əhd-peymanlarına riayət edirlər.

Allah-təala əmanəti öz sahibinə qaytarmağı insana vacib buyurmuşdur. “Nisa” surəsinin 58-ci ayəsində oxuyuruq:

إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الْأَمَانَاتِ إِلَىٰ أَهْلِهَا

-Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı əmr edir.

Xəyanət əmanətin əksidir və xəyanətkar adam əmanətdar ola bilməz. İmanın ən üstün dərəcəsi əmanətdarlıq, əxlaqın ən pisi xəyanətkarlıqdır. Bir insanın imanının üstünlüyünü bilmək üçün ilk növbədə onun əmanətdar olub-olmamasına baxmaq lazımdır.

قَالَ عَلِيٌّ(ع): أفضلُ الإيمانِ الأمانةُ ، أَقْبَحُ الأخلاقِ الخِيانةُ.

-Həzrət Əli(ə) buyurur: “Ən üstün iman əmanətdar olmaq (əmanətə sadiq qalmaq), ən pis əxlaq isə (əmanətə) xəyanət etməkdir.”[1]

قَالَ الإمامُ الباقرُ(ع): ثلاثٌ لم يَجعلِ اللّهُ عزّ و جلّ لأحدٍ فيهنّ رُخْصةً: أداءُ الأمانةِ إلَى البَرِّ و الفاجرِ ، و الوفاءُ بالعَهدِ للبَرِّ و الفاجرِ ، و بِرُّ الوالِدَينِ بَرَّينِ كانا أو فاجِرَينِ .

-İmam Məhəmməd Baqir(ə) buyurur: “Üç şey var ki, Allah-təala heç kimə icazə verməmişdir (heç kimdə fərq qoymamışdır): əmanəti (sahibinin yaxşı və ya pis insan olmasından asılı olmayaraq) sahibinə qaytarmaq, (qarşı tərəfin yaxşı və ya pis insan olmasından asılı olmayaraq) əhdə sadiq qalmaq və (yaxşı və ya pis olmasından asılı olmayaraq) ata-anaya yaxşılıq etmək.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): لا تَنْظروا إلى كَثرةِ صَلاتِهِم و صَومِهِم، و كَثرةِ الحَجِّ، و المعروفِ، وَ طَنطَنَتِهِم باللّيلِ! و لكنِ انْظُروا إلى صِدقِ الحديثِ و أداءِ الأمانةِ.

-Həzrət Peyğəmbər(s) buyurur: “İnsanların çoxlu namaz qılıb oruc tutmasına, Həccə çox getməsinə, çox səxavətli olmasına, gecələr çox ağlamasına fikir verməyin, onların doğru danışmasına və əmanətdar olmalarına fikir verin.”[3]

[1] Mizanül-hikmə, 1-ci cild, hədis – 1488.
[2] Mizanül-hikmə, 1-ci cild, hədis – 1489.
[3] Yenə orada, hədis – 1490.

Əgər bir möminin həqiqətən də mömin olduğunu bilmək istəyirsənsə, onun çoxlu müstəhəb namaz qılmasına, oruc tutmasına, çoxlu Həccə getməsinə, gecələr ağlamasına yox, onun doğru danışmasına və əmanətdar olmasına bax. Yəni bu o demək deyil ki, insan müstəhəb namaz qılmamalı, oruc tutmamalı, səxavətli olmamalı və s. kimi müstəhəb əməlləri yerinə yetirməməlidir. Bunlar hamısı çox yaxşı ibadətlərdir. Lakin doğru danışmaq və əmanətdar olmaq bunların başında dayanır. Həqiqi mömin əsas bu iki xüsusiyyəti ilə tanınar.

Abdullah ibn Sənan deyir: “Bir gün Mədinə məscidində İmam Sadiqin(ə) imamətilə günorta namazını qıldıqdan sonra Həzrətdən(ə) soruşdum: “Ey Peyğəmbər(s) övladı, bəzi ölkələrin şahları və əmirləri ilə görüşürük. Onlar bizi əmanətdar insan kimi tanıdıqlarından bizə etibar edirlər. Bəzi vaxtlar öz mallarını bizə tapşırırlar. Onlar xüms-zəkat verən adamlardan deyillər. Onların bizə tapşırdığı əmanətlərdən müəyyən qədər götürüb istifadə edə bilərikmi?” İmam Sadiq(ə) üç dəfə buyurdu: “And olsun Kəbənin Rəbbinə, əgər Əlinin(ə) qatili İbn Mülcəm də mənə əmanət tapşırsa, onun əmanətini istədiyi vaxt özünə qaytararam.”[1]

Əmanətə xəyanət edən insanın həm etibarı, həm də müsəlmançılığı aradan getmiş olur. Əmanətdarlıq insanın imanında və müsəlmançılığında mühüm rol oynayır.

Həzrət Peyğəmbərin(s) həyat yoldaşlarından biri olan Ümmi Sələmə əmanətdarlığı ilə seçilən bir insan idi. Belə ki, Həzrət Peyğəmbər(s) əmanətlərini ona tapşırardı. Həzrət Əli(ə) səfərə çıxarkən öz əmanətlərini onun yanında qoyub gedərdi. Hətta İmam Hüseyn(ə) sonuncu

---

[1] 500 dastan, 1-ci cild, səh. 66.

səfərində öz vəsiyyətnaməsini ona tapşırıb buyurdu: “Oğlum (İmam Zeynalabidin) nə vaxt səndən bu əmanəti istəsə, ona verərsən.” İmam Hüseyn(ə) Kərbəlada şəhid olduqdan və əsirlər qayıtdıqdan sonra İmam Zeynalabidin(ə) Ümmi Sələmədən atasının ona verdiyi əmanəti istədi. Ümmi Sələmə əmanəti ona qaytardı.”[1]

Ümmi Sələmə qadın olmasına baxmayaraq, o qədər əmanətdar bir insan idi ki, Həzrət Peyğəmbər(s), Həzrət Əli(ə) və İmam Hüseyn(ə) kimi böyük şəxsiyyətlər öz əmanətlərini ona tapşırardılar. Belə ki, hətta İmam Hüseyn(ə) Kərbəlaya gedərkən imamət sirrini ona tapşırıb getmişdi.

Ümmi Sələmənin Əmr adlı bir oğlu var idi və o deyir: “Anam mənə danışırdı ki, bir gün Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) ilə mənim evimə təşrif gətirdi. Evdə bir qoyun dərisi var idi. Həzrət Peyğəmbər(s) həmin dərini məndən istədi. Mən dərini ona verdim. Sonra gördüm ki, dərinin üstünə nəsə yazdılar. Yazıb qurtardıqdan sonra isə onu büküb mənə verdi və buyurdu: “Əli ibn Əbu Talib bu dərini səndən nə vaxt istəsə, ona verərsən.” Mən həmin dərini alıb saxladım. Bu hadisənin üstündən bir müddət keçdi. Həzrət Peyğəmbər(s) dünyasını dəyişdi. Birinci, ikinci və üçüncü xəlifələrin dövrü də sona çatdı. Camaat Həzrət Əlinin(ə) evinə axışıb onu özlərinə xəlifə seçdilər.”

Əmr daha sonra dedi: “İnsanlar Həzrət Əliyə(ə) beyət edərkən mən də camaatın arasında əyləşmişdim. Həzrət Əli(ə) xütbə oxuduqdan sonra minbərdən aşağı düşdü. Məni yanına çağırıb buyurdu: “Get anandan icazə al. Onunla görüşmək istəyirəm.” Mən onun sözlərini anama

[1] Yenə orada, səh.64.

çatdırdım. Anam dedi: “Nəhayət, gözlədiyim gün gəlib çatdı.” Mən gedib Həzrət Əlini(ə) evə dəvət etdim. İmam(ə) bizə gəlib anamla salamlaşdıqdan sonra buyurdu: “Həzrət Peyğəmbərin(s) sənə verdiyi əmanəti gətir.” Anam həmin dərini gətirib Həzrət Əliyə(ə) verdi.

Sonra anam üzünü mənə tutub əli ilə Həzrət Əliyə(ə) işarə edərək dedi: “Oğlum, Həzrət Peyğəmbərdən(s) sonra yer üzündə bundan başqa İmam yoxdur. Ondan heç vaxt ayrı düşmə.”[1]

### 4. Oruc

Oruc tutmaq qiyamət günü insanın şəfaət olunmasına imkan yaradır. Həmçinin orucun özü də qiyamət gününün şəfaətçilərindən biridir.

قَالَ رَسُولُ اللهِ(ص): اَلصِّيَامُ وَ الْقُرآنُ يَشفَعَان لِلعَبدِ يَومَ القِيَامَة يَقولُ الصِّيامُ: أي رَبِّ، مَنَعتُهُ الطَّعامَ وَالشَّهَواتِ بِالنَّهارِ؛ فَشَفِّعني فيهِ، قالَ: فَيُشَفَّعانِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü oruc və Quran bəndəyə şəfaətçi olacaqlar. Oruc (özünəməxsus surətdə təcəssüm edərək) deyəcək: İlahi, mən bu bəndəni gündüz vaxtı (halal) yeməklərdən, şəhvətlərdən və ürəyinin istəklərindən saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Quran deyəcək: İlahi, mən onu gecə yuxusundan saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Belə isə onların hər ikisinin şəfaəti qəbul olunacaq.”[2]

---

[1] 500 dastan, 1-ci cild, səh.64.
[2] Allahın ayı, 1-ci cild, səh.140.

Yəni Allah-təala insanın tutduğu orucun ona şəfaət etməsinə izn vermişdir. Oruc elə bir əməldir ki, həm insana şəfaət edər, həm cəhənnəm odundan qoruyar, həm də bir çox fəzilətlər bəxş edər.

قَالَ رَسُولُ اللهِ(ص): الصِّيامُ جُنَّةٌ وحِصنٌ حَصينٌ مِنَ النّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Oruc cəhənnəm oduna qarşı qalxan və möhkəm bir qaladır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن صامَ يَوماً في سَبيلِ اللهِ فَريضَةً باعَدَ اللهُ مِنهُ جَهَنَّمَ كَما بَينَ السَّماواتِ وَالأَرَضينَ السَّبعِ، ومَن صامَ يَوماً تَطَوُّعاً باعَدَ اللهُ مِنهُ جَهَنَّمَ مَسيرَةً كَما بَينَ السَّماءِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim Allaha xatir bircə gün vacib oruc tutsa, Allah-təala cəhənnəmi həmin şəxsdən yeddi göy və yer arasında olan məsafə qədər uzaqlaşdırar. Kim bircə gün müstəhəb oruc tutarsa, Allah-təala cəhənnəmi həmin şəxsdən yer və göy arasındakı məsafə qədər uzaqlaşdırar."[2]

Xalid ibn Vəlid deyir ki, bir nəfər Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, sənə dünya və axirət barədə sual vermək istəyirəm. Həzrət Peyğəmbər(s) buyurur: Ürəyin nə istəyir soruş. Həmin şəxs Həzrət Peyğəmbərə(s) bir neçə sual verib cavabını alır. Həmin suallardan biri də belə idi: Cəhənnəm odunu söndürən hansı əməldir? Həzrət(s) buyurmuşdur: Oruc."[3]

---

[1] Yenə orada, səh.124.
[2] Allahın ayı, 1-ci cild, səh.142.
[3] Yenə orada, səh.144.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələri ilə bir qəbiristanlığın kənarından keçirdi. Birdən Həzrət Peyğəmbər(s) qəbirlərdən birinin kənarında dayandı və dua etməyə başladı. Soruşdular: “Ya Rəsulallah, nə üçün məhz bu qəbrin kənarında dayanıb dua etdin? Həzrət Peyğəmbər(s) buyurdu: Bu qəbirdə yatan məni səslədi. Gördüm ki, ona əzab verirlər. Buna görə də ona dua etdim və Allahdan bağışlanmasını dilədim. Allah mənim dualarıma xatir onu bağışladı və onun üstündən əzabı götürdü. Əgər bu insan rəcəb ayında bircə gün oruc tutsaydı, qəbirdə ona belə əzab verməzdilər.”

**5. İslam Peyğəmbərinə(s) təvəssül etmək**

Qiyamət günü insana şəfaət edən əməllərdən beşincisi şəxsən İslam Peyğəmbərinə(s) təvəssül etməkdir.

İmam Zeynalabidin(ə) Allahla minacat edərkən belə deyərdi:

صَلِّ عَلى مُحَمَّد وَآلِهِ، وَاجْعَل تَوَسُّلِي بِهِ شافِعاً يَوْمَ الْقِيامَةِ نافِعاً، إِنَّكَ أَنْتَ أَرْحَمُ الرَّاحِمِينَ

-İlahi, Məhəmməd və Ali-Məhəmmədə salam və salavat göndər. Ona etdiyim təvəssülümü qiyamət günü mənim üçün şəfaətçi qərar ver. Həqiqətən, Sən rəhm edənlərin rəhimlisisən.[1]

İnsan Allahdan öz hacət və istəklərini diləyərkən Həzrət Peyğəmbərin(s) nübüvvətinə əqidəsi olmaqla yanaşı, onun gətirdiyi ehkama ehtiram göstərməli, göstərişlərinə əməl etməli və onun təyin edib tanıtdırdığı şəxsləri (məsum imamları) vasitəçi gətirib onlara təvəssül etməlidir. Təvəssül odur ki, insan Həzrət Peyğəmbərə(s)

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.191.

etiqad bəsləməklə yanaşı, onun ətəyindən tutub Allahdan öz hacət və istəklərini istəsin. Allah-təala Həzrət Məhəmmədi(s) Özü ilə insanlar arasında (müsəlmanlar üçün) birinci vasitəçi qərar vermişdir. Onun sözü Allahın sözüdür. Onun bütün tapşırıqları Allahın tapşırıqlarıdır. Quran ayələrində də bunun bariz nümunələri vardır. İslam Peyğəmbəri(s) insanlar üçün rəhmət və mərhəmət imamıdır.

İmam Səccad(ə) duaların birində İslam Peyğəmbərini(s) yad edərkən bu məsələyə belə işarə edir:

إِمَامِ الرَّحْمَةِ، وَ قَائِدِ الْخَيْرِ، وَ مِفْتَاحِ الْبَرَكَةِ

-İslam Peyğəmbəri(s) mərhəmət imamı, xeyirlərin daşıyıcısı və bərəkət xəzinələrinin açarıdır.[1]

“Təvəssül” duasında Həzrət Peyğəmbərə(s) təvəssül edərkən belə deyirik.

أَللّهُمَّ اِنّى اَسْئَلُكَ وَاَتَوَجَّهُ اِلَيْكَ بِنَبِيِّكَ نَبِيِّ الرَّحْمَةِ مُحَمَّدٍ صَلَّى اللّهُ عَلَيْهِ وَآلِهِ يا اَبَاالْقاسِمِ يا رَسُولَ اللّهِ يا اِمامَ الرَّحْمَةِ يا سَيِّدَنا وَمَوْلينا اِنّا تَوَجَّهْنا وَاسْتَشْفَعْنا وَتَوَسَّلْنا بِكَ اِلَى اللّهِ وَقَدَّمْناكَ بَيْنَ يَدَىْ حاجاتِنا يا وَجيهاً عِنْدَ اللّهِ اِشْفَعْ لَنا عِنْدَ اللّهِ .

-İlahi, mən Səndən istəyirəm və Sənin dərgahına üz tuturam. Həzrət Məhəmmədi(s) vasitəçi gətirirəm! Ey Əbəl Qasim! Ey Rəsulullah! Ey rəhmət İmamı! Ey bizim ağamız və mövlamız! Həqiqətən, biz sənin vasitəçiliyinlə Allahın dərgahına gəlir, səni Allah dərgahında vasitəçi və şəfaətçi edib hacətlərimizi sənə təqdim edirik! Ey Allah yanında uca məqamlı olan! Allah yanında bizə şəfaət et!

[1] Səhifeyi-Səccadiyyə, 2-ci dua.

**6. Həzrət Peyğəmbərə(s) və Ali-Peyğəmbərə salavat göndərmək**

Qiyamət günü insana şəfaət edən əməllərdən biri də Həzrət Peyğəmbərə(s) və Ali-Peyğəmbərə salavat göndərməkdir. İmam Zeynalabidin(ə) Allahla minacat edərkən belə deyərdi.

صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِهِ، صَلاةً تَشْفَعُ لَنَا يَوْمَ الْقِيَامَةِ وَيَوْمَ الْفَاقَةِ إِلَيْكَ

-İlahi, Məhəmməd və onun Əhli-beytinə salam-salavat yetir, elə et ki, qiyamət və ehtiyac günündə bizə şəfaət etsinlər.[1]

Həzrət Peyğəmbərə(s) salavat göndərmək o qədər mühüm məsələdir ki, hətta namazın mətnində də belə təqdim edilmişdir. Əgər bu məsələ əhəmiyyətli olmasaydı, o zaman namazın mətninə də daxil edilməzdi. Bu namazı isə vaxtilə Həzrət Peyğəmbər(s), Həzrət Əli(ə) və digər məsumların hamısı qılmışlar. Hazırda biz də onların qıldığı kimi namaz qılırıq. Allah-təala Qurani-Kərimin "Əhzab" surəsinin 56-cı ayəsində belə buyurur:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

-Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə (daim) salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) tamamilə (onun əmrinə) təslim olun!

Bu ayədə açıq-aydın şəkildə görürük ki, Allah-təala həm Özünün və mələklərin Peyğəmbərə(s) daim salavat

---

[1] Yenə orada, 31-ci dua.

göndərdiyini xəbər verir, həm də bizə Həzrət Peyğəmbərə(s) daim salavat göndərərək Həzrətin(s) əmrlərinə tam təslim olmağı tapşırır.

Bu mübarək ayədə iki əsas kəlmə diqqəti cəlb edir. Onlardan biri «صَلُّوا» -“salavat göndərin”, digəri isə «سَلِّمُوا» - “təslim olun” kəlmələridir. “Salavat göndərin” kəlməsində əmr olunur ki, Allahdan Həzrət Peyğəmbərə(s) rəhmət diləyin. Çünki salavat Allah tərəfindən Həzrət Peyğəmbərə(s) rəhmət mənasını kəsb edir. Əgər biz Allahdan Həzrət Peyğəmbərə(s) salavat göndərməyi istəyiriksə, onun mənası budur ki, Allahdan ona rəhmət diləyirik. “Təslim olun” kəlməsi də əmrdir, amma bu kəlmənin iki mənası vardır. Bir mənası Həzrət Peyğəmbərin(s) qarşısında təslim olmaqdır. Allah-təala göstəriş verir ki, bütün iman gətirənlər Həzrət Peyğəmbərə(s) təslim olmalıdırlar.

Əbu Bəsir deyir ki, İmam Sadiqdən(ə) “təslim olun” kəlməsinin mənasını soruşduqda Həzrət(ə) belə buyurdu: “Bütün işlərdə Həzrət Peyğəmbərə(s) tabe və təslim olmaq.”[1]

Həzrət Peyğəmbərə(s) təslim olmaq Allahın əmridir. Onun sözü qarşısında söz demək, göstərişlərinə əməl etməmək Allahın əmrindən çıxmaq deməkdir. “Təslim olun” kəlməsinin ikinci mənasına gəldikdə isə, bu “salam göndərmək” mənasını ifadə edir. Yəni ayədə əmr olunur ki, həm Həzrət Peyğəmbərə(s) salavat göndərin, həm onun əmrlərinə təslim olun, həm də onu salamlayın. Bəziləri irad tuturlar ki, Həzrət Peyğəmbər(s) dünyada ikən ona salam verilməliydi. Lakin dünyasını dəyişəndən sonra ona salam

[1] Təfsiri-nümunə, 17-ci cild, səh. 417.

verməmk düzgün deyil. Bu irad və düşüncə çox yanlış bir fikirdir. Çünki əgər belə olsa, o zaman Quranın bu və bu kimi başqa ayələrinə gərək əməl olunmasın. Əgər məlum ayənin zaman və tarixi bitmiş olsa, o zaman Qurandan bir şey qalmayacaqdır. Heç bir kəsə ixtiyar verilməyib ki, Quran ayələrinə tarix və vaxt müəyyən etsin.

Qeyd olunan ayədə Allah-təala Həzrət Peyğəmbərə(s) daim salavat göndərdiyini bəyan edir. Nəinki Həzrətin(s) sağlığında, hətta dünyadan getdikdən sonra da belə Allahın ona salavatı davam edir. Əgər sağlığında salavat deyilib dünyadan getdikdən sonra deyilməsəydi, onda bəs nə üçün keçmiş peyğəmbərlərə hələ də salam deyilir? Məsələn, Həzrət Nuh(ə), Həzrət İbrahim(ə) və digər peyğəmbərlər İslam Peyğəmbərindən(s) neçə illər öncə dünyalarını dəyişmələrinə baxmayaraq, Allah- təala Quranda onlara salam göndərir. Deməli, belə məlum olur ki, Allahın salam-salavatı davamlıdır. Yəni dünyadan getdikdən sonra da salam göndərmək olar. Odur ki, Allah-təala bütün möminlərə həmişə İslam Peyğəmbərinə(s) salam-salavat göndərməyi əmr edir. Həzrət Peyğəmbər(s) mütləq şəkildə ona ünvanlanmış "Salam olsun sənə, ey Allahın Rəsulu" salamlarını eşidir. Əgər eşitməsəydi, Allah-təala bizi əbəs və mənasız şeylərə dəvət etməzdi. Allah-təala insanları mənası olan işlərə dəvət edir.

Hədis və rəvayətlərə əsasən Həzrət Peyğəmbərə(s) salavat göndərməyin qaydası belədir: «اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وآلِ مُحَمَّدٍ» - "Allahummə səlli əla Muhəmmədin və Ali- Muhəmməd." ("İlahi, Məhəmməd və Ali-Məhəmmədə salavat göndər.")

Həzrət Peyğəmbərə(s) salavat göndərməyin fəziləti həddindən artıq çoxdur. Bu barədə kifayət qədər hədis və

rəvayətlər nəql olunmuşdur. Nümunə üçün iki hədisi diqqətinizə çatdırıram.

قَالَ الصّادِقُ(ع): إِنَّهُ مَنْ صَلَّى عَلَى النَّبِيِّ(ص) صَلاَةً وَاحِدَةً صَلَّى اللَّهُ عَلَيْهِ أَلْفَ صَلاَةٍ فِي أَلْفِ صَفٍّ مِنَ الْمَلاَئِكَةِ، وَ لَمْ يَبْقَ شَيْءٌ مِمَّا خَلَقَهُ اللَّهُ إِلا صَلَّى عَلَى الْعَبْدِ لِصَلاَةِ اللَّهِ عَلَيْهِ وَ صَلاَةِ مَلاَئِكَتِهِ

-İmam Sadiq(ə) buyurur: "Kim Peyğəmbərə(ə) bircə salavat göndərsə, Allah-təala min cərgə mələklə (birgə) ona min salavat göndərər. Allah və mələkləri onun üçün salavat göndərdiklərindən Allahın yaratdığı elə bir bəndə qalmadı ki, ona salavat göndərməsin."[1]

قَالَ رَسُولُ اللهِ(ص): من صَلّى عَلَيَّ في كتابٍ لَم تَزَلِ الملائكَةُ تَستَغفِرُ لَهُ ما دَامَ اسمِي في ذلكَ الكتابِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim bir yazıda mənə salavat göndərsə, mənim adım həmin yazıda olanadək mələklər daim onun günahlarının bağışlanmasını diləyərlər."[2]

## Allah dərgahında şəfaət edənlər (şəxslər)

Yuxarıda qiyamət günü insana şəfaət edən əməllərlə tanış olduq. Bu əməllərdən başqa insana şəfaət edən kəslər

---

[1] Səfinətül-bəhar, 5-ci cild, səh.173.
[2] Əl-qətrə, 1-ci cild, səh.172.

də vardır. Yaxşı olar ki, həmin şəfaət edənlərlə də tanış olaq.

**1. Mələklər**

Qiyamət günü insana şəfaət edənlərdən birincisi Allahın mələkləridir. Qiyamət günü Allah-təala mələklərə şəfaət etmək icazəsi verəcəkdir. Bir daha qeyd etmək lazımdır ki, bu məsələ qarşılıqlı olduğundan şəfaət olunan kəsə də Allah-təala izn verməlidir. Əgər Allah bir kəsə şəfaət olunmaq icazəsi verməsə, heç bir şəfaətçi ona şəfaət edə bilməyəcək. "Ənbiya" surəsinin 26-28-ci ayələrində oxuyuruq:

وَقَالُوا اتَّخَذَ الرَّحْمَٰنُ وَلَدًا سُبْحَانَهُ بَلْ عِبَادٌ مُكْرَمُونَ. لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُمْ بِأَمْرِهِ يَعْمَلُونَ. يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ

-(Müşriklər:) "Rəhman (mələklərdən Özünə) övlad götürdü!" – dedilər. O, pakdır, müqəddəsdir! (Belə şeylərdən tamamilə uzaqdır!) Xeyr, (mələklər Onun övladı deyil, xəlq etdiyi) möhtərəm bəndələridir. (Mələklər) Ondan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər. (Allah) onların öndəkilərini də, arxalarındakını da (nə etdiklərini və nə edəcəklərini) bilir. Onlar yalnız (Allahın) razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilərlər.

Hədislərdə belə nəql olunur ki, bir gün Həzrət Peyğəmbərin(s) hüzurunda şəfaət barədə söz açıldı. Həzrət Peyğəmbər(s) buyurdu:

إِنَّ النّاس يُعرَضُونَ عَلَى جِسرِ جَهَنَّم... وَبِجَنبَتَيهِ الْمَلائِكَة يَقُولُونَ: اَللّهُمَّ سَلِّم سَلِّم...

-Qiyamət günü insanlar cəhənnəmin üzərindəki körpüdən keçərkən... onun kənarında dayanan mələklər deyərlər: "İlahi, bunları salamat saxla..."[1]

Əlbəttə, mələklər təkcə qiyamət günündə deyil, bu dünyada da Allahdan insanların bağışlanmasını diləyirlər. Məsələn, Ərəfatla Mina arasında "Məzəman" adında iki dağ vardır ki, bütün hacılar mütləq həmin dağların arasından keçməlidirlər. Hədislərdə belə nəql olunur ki, mələklər Allahın əmri ilə həmin dağların başında dayanıb oradan keçən hər bir hacının bağışlanmasından ötrü dua edərlər.

Belə rəvayət olunur ki, Həzrət Peyğəmbər(s) həmişə Kəbə evini təvaf edərkən onun qapısının əks tərəfində[2] bir qədər dayandıqdan sonra təvafa davam edərmiş. Bir nəfər soruşur: "Ya Rəsulallah, nə üçün təvaf edərkən burada bir qədər dayanırsınız?" Həzrət Peyğəmbər(s) buyurur: "Çünki Adəm Peyğəmbərin(ə) tövbəsi burada qəbul olunmuşdur. O zamandan bəri Allah-təala burada bir qrup mələyə göstəriş vermişdir ki, buradan keçən hər bir kəs üçün Allahdan bağışlanma diləsinlər."

Adəm Peyğəmbər(ə) tövbə edərkən cənab Cəbrayıl(ə) onu Kəbənin həmin yerinə gətirmiş və ona necə tövbə edəcəyini öyrətmişdir. Allah onun tövbəsini qəbul etdikdən sonra Adəm(ə) deyir: "İlahi, mənim nəslimi (gələcək övladlarımı) da bağışla." Allah-təala buyurur: "Ey Adəm, sənin nəslindən hər kim buradan keçsə, onu bağışlayaram."

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.160.

[2] Fatimə bint Əsədin Kəbəyə daxil olduğu yer. Divar aralanmış və ora daxil olmuşdur.

**2. Peyğəmbərlər**

Qiyamət gününün şəfaətçilərindən ikincisi peyğəmbərlərdir. Allah-təala bütün peyğəmbərlərə şəfaət etmək icazəsi vermişdir.

قَالَ رَسُولُ اللهِ(ص): يَشْفَعُ الْاَنْبِيَاءُ فِي كُلِّ مَنْ كَانَ يَشْهَدُ اَنْ لاَّ اِلٰهَ اِلاَّ اللهُ مُخْلِصًا

-Həzrət Peyğəmbər(s) buyurur: "Peyğəmbərlər xalis niyyətlə "La ilahə illəllah" deyən hər bir kəsə şəfaət edəcəklər."[1]

**3. İslam Peyğəmbəri(s)**

Qiyamət günü İslam Peyğəmbərinin(s) şəfaət etmək məsələsində xüsusi imtiyazı olacaqdır. Belə ki, bütün şəfaət edənlərin başında Həzrət Peyğəmbər(s) dayanır. Qurani-Kərimin "Zuha" surəsinin 5-ci ayəsində Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur:

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

-Həqiqətən, Rəbbin tezliklə sənə (o qədər) əta edər ki, (Ondan) razı qalarsan.

Bu ayə Həzrət Peyğəmbərin(s) şəfaət etməsi məsələsinə işarədir. Yəni qiyamət günü Allah-təala İslam Peyğəmbəri(s) razı qalanadək günahkar insanları onun şəfaəti ilə bağışlayacaqdır.[2]

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.187. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 3-cü cild, səh.12.

[2] Mənşuri-Cavid, 8-ci cild, səh.184.

Allah-təala "İsra" surəsinin 79-cu ayəsində belə buyurur:

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

-(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama göndərsin!

İmam Sadiq(ə) ayədəki "bəyənilib təriflənən məqam" barədə belə buyurmuşdur: "Bu məqam şəfaət məqamıdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): ادَّخَرْتُ شَفَاعَتِي لِأَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِي

Həzrət Peyğəmbər(s) buyurur: "Mən şəfaətimi ümmətimdən böyük günahlara düçar olanlar üçün zəxirə etmişəm."[2]

**4. Peyğəmbərin(s) Əhli-beyti(ə)**

Qiyamət gününün şəfaətçilərindən dördüncüsü İslam Peyğəmbərinin(s) Əhli-beytidir(ə). Həm Həzrət Əli(ə), həm Fatimeyi Zəhra(s.ə), həm İmam Həsən(ə) və İmam Hüseyn(ə), həm də digər məsum imamlar qiyamət günü Allahın izni ilə şəfaət edəcəklər.

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي لَأَشْفَعُ يَوْمَ القِيَامَةِ فَأُشَفَّعُ؛ وَيَشْفَعُ عَلِيٌّ فَيُشَفَّعُ

[1] Yenə orada, səh.175.
[2] Yenə orada, səh.185.

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü mən şəfaət edəcəyəm və şəfaətim qəbul olunacaq. Əli də şəfaət edəcək və onun da şəfaəti qəbul olunacaq.”[1]

قَالَ عَلِيٌّ(ع): لَنا شَفاعَةٌ وِ لأَهلِ مَوَدَّتَنا شَفاعَةٌ

-Həzrət Əli(ə) buyurur: “Biz şəfaət edəcəyik və bizi sevənlər də şəfaət edəcəklər.”[2]

Həzrət Fatimeyi Zəhranın(s.ə) Allah-təalanın yanında çox böyük məqamı vardır. Həzrət Peyğəmbərdən(s) o xanımın fəzilətləri barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّمَا سُمِّيَتْ ابْنَتِي فَاطِمَةَ، لِأَنَّ اللهَ تَعَالَى فَطَمَهَا وَ فَطَمَ مَنْ أَحَبَّهَا مِنَ النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qızım ona görə Fatimə adlanıb ki, Allah-təala onu və onu sevənləri oddan (cəhənnəmdən) uzaqlaşdırıb.”

قَالَ رَسُولُ اللهِ(ص): اَيُّمَا اِمْرَاَةٌ صَلَّتْ فِيْ الْيَوْمِ وَ الْلَيْلِ خَمْسَ صَلَوَاتٍ وَ صَامَتْ شَهْرَ رَمَضَانَ وَ حَجَّتْ بَيْتَ اللهِ الْحَرَامِ وَ زَكَّتْ مَالَهَا وَ اَطَاعَتْ زَوْجَهَا وَ وَالَتْ عَلِيًّا بَعْدِيْ دَخَلَتِ الْجَنَّةَ بِشَفَاعَةِ ابْنَتِيْ فَاطِمَةُ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər bir qadın gündəlik vacib namazları qılsa, ramazan ayının orucunu tutsa, vacib olduqda Allahın evinin ziyarətinə (Həccə) getsə, malının zəkatını versə, ərinə itaət etsə və məndən

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.184.
[2] Yenə orada.

sonra Əlinin(ə) imamətini qəbul etsə, belə bir qadın qızım Fatimənin(s.ə) şəfaətilə cənnətə daxil olacaqdır."[1]

Həzrət Peyğəmbər(s) Fatimeyi Zəhraya(s.ə) buyurdu: "Qiyamət günü cənab Cəbrayıl(ə) sənin hüzuruna gəlib deyəcək:

يَا فَاطِمَةُ سَلِى حَاجَتَك

فَتَقُولِين يَا رَبِّ شِيعَتِى

فَيَقُولُ الله عَزَّ وَ جَلَّ :قَد غَفَرتُ لَهُم

فَتَقُولِين يَا رَبِّ شِيعَةَ وُلدِى

فَيَقُولُ الله عَزَّ وَ جَلَّ :قَد غَفَرتُ لَهُم

فَتَقُولِين يَا رَبِّ شِيعَةَ شِيعَتِى

فَيَقُولُ الله عَزَّ وَ جَلَّ :اِنطَلَقِى فَمَن اعتَصَمَ بِكِ فَهُوَ مَعكِ فِى الجَنَّة.

يَا فَاطِمَة فَعِندَ ذَلِكَ يَوَدُّ الخَلاَئِق اَنَّهُم كَانُوا فَاطِمِيِّين.

-"Ya Fatimə, Allahdan öz diləklərini və hacətlərini istə"- deyəndə, qızım Fatimə, sən o zaman belə deyəcəksən: "Ey mənim Rəbbim, Səndən şiələrimi istəyirəm." Allah-təala buyuracaq: "Şiələrini bağışladım." Qızım, sonra sən deyəcəksən: "İlahi, mənim övladlarımın şiələrini istəyirəm." Allah buyuracaq: "Onları da bağışladım." Ondan sonra deyəcəksən: "Ey mənim Allahım, şiələrimin şiələrini də bağışla." Bu zaman Allah-təala buyuracaq: "Məhşərə daxil ol, hər kim gəlib sənin ətəyindən tutsa, onlar da səninlə birgə cənnətə daxil olacaqlar."

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.166.

Sonra Həzrət Peyğəmbər(s) buyurdu: “Belə olduqda bütün insanlar arzu edib deyəcəklər: Kaş, biz də bu dünyada Fatiməni sevənlərdən olardıq.”

Həzrət Əli(ə) və Fatimeyi Zəhranın(s.ə) məsum övladları da qiyamət günündə şəfaət edəcəklər. Allah-təala onlara şəfaət etmək icazəsi vermişdir.

Salman Farsi(r) deyir: “Həzrət Peyğəmbər(s) cənab Cəbrayılla(ə) bir əhd bağlamışdır. Həmin əhd-peyman haqda mənə belə buyurdu:

يَا سَلمَان وَ الذِّی بَعَثَنِی بِالنُّبُوة لَآخُذَنَّ یومَ القِیامَة بِحُجزَةِ جِبرِئیل، وَ عَلِیٌّ آخذٌ بِحُجْزتی، وَ فَاطِمَة آخذةٌ بِحُجزته، وَالْحَسَن آخذ بحجزة فَاطِمَة، وَالْحُسین آخذ بِحجزة الْحَسَن، وَ شِیعَتُهُم آخِذةٌ بِحجزتهم.فَاَینَ تَری اللَّهَ ذَاهِباً بِرسُولِاللَّه؟ وَ اَیْنَ تری رَسولاللَّه ذَاهِبا بِاَخِیه؟ وَ این تَری اَخا رَسُولاللَّه ذَاهِبا بِزوَجَته؟ وَ اَینَ تَری فاطمة ذَاهِبَة بِوَلدها؟ اَیْن تَری وُلدَ رَسُول اللَّه صَلَّی اللَّه عَلیهِ وَ آلِهِ وَ سَلَّم ذَاهِبِین بِشِیعَتهم؟ اِلَی الجَنَّة وَ رَبّ الکَعبَة یَا سَلمان، اِلَی الجَنَّة وَ رَبّ الکَعبَة ، اِلَی الجَنَّة وَ رَبّ الکَعبَة، عَهْدٌ عَهِدَ بِهِ جَبْرَئیل مِن عِنْدِ رَبِّ العَالَمِین

-Ey Salman! And olsun O kəsə ki, məni nübüvvətə məbus etdi. Qiyamət günü mən Cəbrayılın ətəyindən tutacağam. Əli(ə) mənin ətəyimdən, Fatimə Əlinin ətəyindən, Həsən Fatimənin və Hüseyn də Həsənin ətəyindən tutacaq. Məni, Əlini, Fatiməni sevənlərin hamısı imamların ətəyindən tutacaqlar. Ey Salman! Allah o gün öz rəsulunu hara aparacaq? Allah o gün Əlini və Fatiməni hara aparacaq? Ey Salman, and olsun Kəbənin Rəbbinə ki,

(həmin gün Allah həm məni, həm Əlini, həm Fatiməni və onları sevənləri) cənnətə aparacaq. And olsun Kəbənin Rəbbinə ki, cənnətə aparacaq. And olsun Kəbənin Rəbbinə ki, cənnətə aparacaq. (Ey Salman,) bu elə bir əhd-peymandır ki, Cəbrayıl Allahın adından mənimlə bağlamışdır.”

**5. Din alimləri**

Qiyamət gününün şəfaətçilərindən beşincisi dinin təqvalı alimləridir.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاَثَةٌ يَشْفَعُونَ إِلَي اللهِ عَزَّ وَ جَلَّ فَيُشَفَّعُونَ: الأَنْبِيَآءُ ثُمَّ الْعُلَمَآءُ ثُمَّ الشُّهَدَآءُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Üs qrup insan (qiyamət günü) şəfaət edəcək və Allah da onların şəfaətini qəbul edəcəkdir: peyğəmbərlər, alimlər və şəhidlər.”[1]

قَالَ الصّادِقُ(ع): اِذا كانَ يَومُ القيامَةِ بَعَثَ اللهُ عَزَّوَجَلَّ العالِمَ وَ الْعابِدَ ، فَاِذا وَقَفا بَيْنَ يَدَىِ اللهِ عَزَّوَجَلَّ قيلَ لِلْعابِدِ: اِنْطَلِقْ اِلَى الْجَنَّةِ وَ قيلَ لِلْعالِمِ: قِف تَشَفَّعْ لِلنّاسِ بِحُسْنِ تَأديبِكَ بِهِمْ

-İmam Sadiq(ə) buyurur: “Qiyamət baş verən zaman Allah-təala alim və abidi qəbirdən çıxarar. Onlar Allahın hüzurunda dayandıqları zaman abidə deyilər: Cənnətə tərəf hərəkət et. Sonra alimə deyilər: Dayan! (Dünyada)

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.188.

gözəl tərbiyə edib doğru yola yönəltdiyiniz insanlara şəfaət et."[1]

**6. Quranı əzbərləyib ona əməl edənlər**

Qiyamət gününün şəfaətçilərindən altıncı qrup insanlar o kəslərdir ki, Quranı əzbərləməklə yanaşı, onun ayələrinə də əməl etmiş olsunlar.

قَالَ عَلِيٌّ(ع): مَن تَعَلَّمَ القُرآن (مَن قَرَأَ القُرآنَ) فَاستَظهَرَهُ فَأَحَلَّ حَلالَه وَحَرَّمَ حَرامَه أَدخَلَهُ اللهُ الْجَنَّة وَشَفَّعَهُ فِي عَشَرةٍ مِن أَهلِ بَيتِهِ كُلهُم قَد وَجبت لَهُم النّار

-İmam Əli(ə) buyurur: "Kim Quran oxumağı öyrənsə (Quran oxusa), onu əzbərləsə, onun halalını halal, haramını da haram bilsə, Allah-təala onu cənnətə daxil edər və ona öz ailəsindən (cəhənnəmə düçar olmuş) on nəfərə şəfaət etmək icazəsi verər."[2]

**7. Qohum-əqrəba**

Qiyamət günündə mömin və təqvalı insanlara icazə veriləcəkdir ki, öz qohum- əqrəbasına şəfaət etsin.

قَالَ رَسُولُ الله(ص): اَلشُّفَعاءُ خَمسَةٌ...وَالرَّحِم

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Şəfaət edənlər beşdir… Onlardan biri də qohumdur." [3]

قَالَ الصّادِقُ(ع): يَشفَعُ الْحَمِيم لِحَمِيمِه

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.188.
[2] Yenə orada, səh.161.
[3] Yenə orada, səh.189.

-İmam Sadiq(ə) buyurur: “Qohum öz qohumuna şəfaət edəcəkdir.”[1]

**8. Qonşu**

Qiyamət günü qonşunun qonşuya şəfaət etməsinə icazə veriləcəkdir.

قَالَ الصّادِقُ(ع): اَلْجَارُ يَشفَعُ لِجَارِهِ

-İmam Sadiq(ə) buyurur: “Qonşu öz qonşusuna şəfaət edəcəkdir.”[2]

Burada bir daha qeyd etmək lazımdır ki, həm qohum-əqrəba, həm qonşu və digər şəfaətçilər, həm də şəfaət olunan kəslər iman əhli olmalıdırlar. Yəni özlərini dünyada elə bir həddə çatdırmalıdırlar ki, Allah-təala onlara şəfaət etmək və şəfaət olunmaq səlahiyyəti versin.

**9. Allah yolunda şəhid olanlar**

Qiyamət gününün şəfaətçilərindən başqa bir qrupu, qeyd etdiyimiz kimi, Allah yolunda şəhid olanlardır.

قَالَ رَسُولُ اللهِ(ص): يَشفَعُ يَومَ القِيامَة... ثُمَّ الشُّهَداء

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət gününün şəfaətçilərindən biri də şəhidlərdir.”[3]

قَالَ رَسُولُ اللهِ(ص): يَشفَعُ الشَّهيد فِي سَبعِينَ إِنساناً مِن أَهلِ بَيتِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər bir şəhid öz ailəsindən yetmiş nəfərə şəfaət edəcəkdir.”[1]

---

[1] Yenə orada.

[2] Mənşuri-Cavid, 8-ci cild, səh.189.

[3] Yenə orada, səh.188. Nəql edən: Sünəni- İbn Macə, 2-ci cild, səh.1443.

Əlbəttə, burada onu da qeyd etmək lazımdır ki, şəhidlərin Allah dərgahında dərəcə və məqamları müxtəlif olduğundan ən az dərəcəsi olan şəhidə ailəsindən yetmiş nəfərə şəfaət etmək icazəsi veriləcəkdir.

**10. Quran**

Qiyamət gününün şəfaətçilərindən biri isə Qurani-Kərimdir.

قَالَ رَسُول الله(ص): تَعَلَّمُوا القُران فَإِنَّهُ شَافِعٌ لأَصحَابِهِ يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Quranı öyrənin, çünki qiyamət günü öz dostlarına (onu oxuyanlara) şəfaət edəcəkdir.”[2]

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 175-ci xütbəsində Quran barəsində belə buyurur:

وَاعْلَمُوا أَنَّهُ شَافِعٌ مُشَفَّعٌ وَقَائِلٌ و مُصَدَّقٌ وَأَنَّهُ مَنْ شَفَعَ لَهُ الْقُرْآنُ يَوْمَ الْقِيَامَةِ شُفِّعَ فِيهِ

-Bilin ki, Quran *(qiyamətdə)* şəfaəti qəbul ediləcək şəfaətçi, sözü təsdiq ediləcək doğruçudur. Quran qiyamət günü kimə şəfaət etsə *(söz və əməlinin doğruluğuna şəhadət versə),* onun həmin şəxs barəsindəki şəfaəti qəbul olunar.

Quran elə bir kitabdır ki, onun hər bir ayəsinin və hər bir surəsinin özünəməxsus təsir və xüsusiyyətləri vardır. Mövzuya uyğun olaraq həmin surələrdən biri barədə nəql olunmuş hədisi diqqətinizə çatdırıram.

---

[1] Yenə orada, səh.188. Nəql edən: Sünəni-İbn Davud, 2-ci cild, səh.15.

[2] Mənşuri-Cavid, 8-ci cild, səh.190.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ سُورَةً مِنَ الْقُرْآنِ ثَلَاثُونَ آيَةً شَفَعَتْ لِرَجُلٍ حَتَّى غُفِرَ لَهُ. وَهِيَ سُورَةُ تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Şübhəsiz ki, Quranda otuz ayə olan bir surə vardır. Bu surə onu oxuyan şəxsin bağışlanmasınadək ona şəfaət edər. (Bu surə) "Mülk" surəsidir."[1]

Odur ki, hər kim Quran oxumağı öyrənsə və onunla munis olsa, qiyamət günü Quran da ona şəfaət edəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): وَيَقُولُ الْقُرْآنُ: رَبِّ إِنِّي مَنَعْتُهُ النَّوْمَ بِاللَّيْلِ فَشَفِّعْنِي فِيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü Quran deyəcək: İlahi, mən onu gecə yuxusundan saxladım. Mənim onun barəsindəki şəfaətimi qəbul et."[2]

**11. Möminlər (imanlı şiələr)**

Qiyamət gününün şəfaətçilərindən biri də möminlərdir, yəni həm Həzrət Peyğəmbərin(s) peyğəmbərliyini, həm də Həzrət Əlinin(ə) imamət və vilayətini qəbul edənlərdir. Çünki İslam Peyğəmbərdir(s), iman isə Həzrət Əlidir(ə). Dünyada meyar və ölçü müsəlmançılıq, axirətdə isə möminlikdir. Dünyada firqəsindən asılı olmayaraq, bütün müsəlmanların zahiri pakdır. Hər bir müsəlmanın "bismillahla" üzü qibləyə kəsdiyi (əti halal olan) heyvan pak və təmizdir. Amma qiyamətdə müsəlmançılıqla yanaşı, iman da əsas rol oynayır. Deməli, əgər bir insan dünyada İslamı qəbul etməklə yanaşı,

[1] Yenə orada, səh.164.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.164.

Həzrət Əlinin(ə) imamətinə imanı olarsa və əməli surətdə də Allahın buyurduqlarına riayət edərsə, ona qiyamət günü şəfaət etmək icazəsi veriləcəkdir. Möminlərin dərəcələri müxtəlif olduğundan bəzilərinə bir nəfərə, bəzilərinə böyük bir qəbilənin, bəzilərinə isə iki qəbilənin adamlarının sayı qədər insana şəfaət etmək ixtiyarı veriləcəkdir.

قَالَ الإِمامُ الكَاظِمُ(ع): شِيعَتُنا اَلَّذِينَ يُقِيمُونَ الصَّلاة وَيُؤتُونَ الزَّكاة وَيَحِجُّونَ البَيتَ الْحَرام وَ يَصُومُون شَهرَ رَمَضان وَيُوَالُونَ أَهلَ الْبَيت وَ يَتَبَرَّئُونَ مِن أَعدَائِهِم... إِنَّ أَحَدَهُم لَيَشفَع فِي مِثلِ رَبِيعَة وَمُضِر فَيُشَفَّعُه اللّهُ فِيهِم لِكَرامَتِه عَلَى الله عزّ وجل

-İmam Kazım(ə) buyurur: "Bizim şiələrimiz o kəslərdir ki, namaz qılar, zəkat verər, Həccə gedər, ramazan ayının orucunu tutar, Əhli-beytin vilayətini qəbul edər və onların (Əhli-beytin) düşmənləri ilə düşmən olarlar. Belə şiələrimizdən hər biri "rəbiə" və " muzir"[1] qəbilələrində olan adamların sayı qədər insana şəfaət edəcək. Allah-təala onun şəfaətini (Allah yanında olan) şərafət və kəramətinə görə qəbul edəcəkdir."[2]

قَالَ رَسُول اللهِ(ص): لا تَستَخِفُّوا بِفُقَراءِ شِيعَةِ عَلِيٍّ فَإِنَّ الرَّجُل مِنهُم لَيَشفَع لِعَدَدِ رَبِيعَة وَ مُضِر

-Həzrət Peyğəmbər(s) buyurur: "Əlinin(ə) şiələrindən kasıb olanlara saygısızlıq göstərməyin. Çünki (ola bilsin)

[1] Ərəblərin iki böyük qəbiləsidir.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.175.

onlardan hər biri "rəbiə" və "muzir" qəbilələrində olan adamların sayı qədər insana şəfaət etsin."[1]

Bəzən dünyada Həzrət Əlini(ə) sevib onun vilayətini qəbul edən elə bir möminlə rastlaşırıq ki, dünya malından heç nəyi olmamasına baxmayaraq, onun Allah yanında hörməti başqaları ilə müqayisədə daha çoxdur. Ola bilsin qiyamət günü hamı həmin möminə qibtə edərək desinlər ki, dünyada bunun heç nəyi yox idi və onu saymırdılar. Amma bu gün onun Allah dərgahında olan məqamına bir baxın.

قَالَ الإمامُ العَسكَرِي(ع): لا يزَال الْمُؤمِنُ يَشفَعُ حَتّىّ يُشَفّع فِي جِيرانِه وَ خُلطائِه وَ مَعارِفِه

-İmam Həsən Əskəri(ə) buyurur: "Mömin qonşularına, dostlarına və tanıdığı kəslərə şəfaət edəcək və onun şəfaəti qəbul olunacaqdır."[2]

قَالَ رَسُولُ الله(ص): إِنَّ الرَّجُلَ مِنْ أُمَّتِي لَيَشْفَعُ لِلْفِئَامِ مِنَ النَّاسِ، فَيَدْخُلُونَ الْجَنَّةَ، وَ إِنَّ الرَّجُلَ لَيَشْفَعُ لِلْقَبِيلَتِهِ، وَ إِنَّ الرَّجُلَ لَيَشْفَعُ لِلعصَبه وَ إِنَّ الرَّجُلَ لَيَشْفَعُ لِلثَّلاثَة وَ لِلرَّجُلَينِ وَ لِلرَجُل

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimdə möminlər arasında eləsi var ki, insanların böyük bir dəstəsinə, eləsi var ki, bir qəbiləyə, eləsi var ki, öz ailə və yaxunlarına, eləsi də var ki, üç nəfərə, yaxud iki və ya bir nəfərə şəfaət edəcəkdir."[3]

---

[1] Yenə orada.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.177.
[3] Yenə orada, səh.163.

Möminlərin qiyamət günü şəfaət etmələri onların dərəcələrinə uyğun olacaqdır. Bəzi möminlərin dərəcə və məqamı yüksək olduğundan çox insana, bəzi möminlərin dərəcələri isə aşağı olduğundan az adama şəfaət edə biləcəklər.

قَالَ رَسُولُ اللهِ(ص): يَصُفُّ النَّاسُ (أَهْلُ الْجَنَّةِ) صُفُوفًا فَيَمُرُّ الرَّجُلُ مِنْ أَهْلِ النَّارِ عَلَى الرَّجُلِ فَيَقُولُ: يَا فُلَانُ أَمَا تَذْكُرُ يَوْمَ اسْتَسْقَيْتَ فَسَقَيْتُكَ شَرْبَةً؟ قَالَ: فَيَشْفَعُ لَهُ، وَيَمُرُّ الرَّجُلُ فَيَقُولُ: أَمَا تَذْكُرُ يَوْمَ نَاوَلْتُكَ طَهُورًا؟ فَيَشْفَعُ لَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü cənnət əhli cərgələrə düzüldükdə cəhənnəm əhlindən olan bir nəfər cənnət əhlindən birini görüb tanıyacaq. Onu görən kimi deyəcək: Yadındadırmı dünyada bir gün məndən su istədin və mən sənə su verdim? Bu gün sən də mənə kömək elə. Bu vaxt həmin şəxs ona şəfaət edəcəkdir. Həmçinin cəhənnəm əhlindən olan biri cənnət əhlindən birinə deyəcək: Yadındadırmı dünyada dəstəmaz almaq üçün sənə su vermişdim? Bu gün sən də mənə yardım et. Həmin cənnət əhli də ona şəfaət edəcək."[1]

Dünyada xeyirxah əməlləri mənasız və əbəs saymaq olmaz. Çünki insanın hər kiçik bir hərəkəti belə yazılıb qeydə alınır. Yaxşı əməllərin hamısı qiyamət günü insanın dərdinə dəyəcək. Hətta birinə bir içim su verməyin belə qiyamət günündə insana çox böyük faydası ola bilər. Buna görə də insan Allahın itaətində olmaqla yanaşı, bacardığı qədər camaata xidmət etməyi də unutmamalıdır.

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.161.

Alimlərdən biri deyir ki, Quran Allahın adı ilə başlayır və camaat kəlməsi ilə də başa çatır. Yəni ilk ayəsi "Bismillahla", sonuncu ayəsi isə "Nas" (insanlarla") bitir. Buna görə də insan Allahın itaətində olmalı və Ona xatir camaatın xidmətində dayanmalıdır. Çünki camaata xidmət etmək qiyamət günü insanın dərdinə dəyəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): يَقُولُ الرَّجُل مِن أَهلِ الْجَنَّة يَومَ القِيامَة: أَي رَبّ عَبدُكَ فِلانٌ سَقانِي شَربَةً مِن مَاءٍ فِي الدُّنيَا فَشَفِّعنِي فِيهِ، فَيَقُول: إِذهَب فَأَخرَجَهُ مِنَ النّار، فَيَذهَب فَيَتَجَسَّس فِي النّار حَتّى يُخرِجُهُ مِنهَا.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü cənnət əhlindən biri Allaha deyəcək: İlahi, cəhənnəmdə olan filankəs dünyada mənə bir içim su vermişdi. Məni onun üçün şəfaətçi qərar ver. Allah-təala ona buyurar: "Elə isə get, onu cəhənnəmdən çıxart." Həmin şəxs də cəhənnəmdə onu axtarıb tapar və oradan çıxarar."[1]

Möminin Allah yanında hörmət və ehtiramı çox böyükdür. Allah-təala qiyamət günündə möminə öz ailəsinə və qulluqçularına şəfaət etməyə də icazə verəcəkdir.

قَالَ الصّادِقُ(ع): اِنَّ الْمُؤمِن لَيَشفَع يَومَ القِيامَةِ لِأَهلِ بَيتِهِ فَيُشَفَّع فِيهِم حَتّى يَبقَى خَادِمُهُ فَيَقُول – فَيَرفَع سَبّابَتَيهِ –: يَا رَبّ! خُوَيدمى كَانَ يَقِينِى الحرّ وَ البَرد فَيُشَفَّع فِيهِ.

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.161.

-İmam Sadiq(ə) buyurur: “Qiyamət günü mömin öz ailəsinə şəfaət edəcək və onun şəfaəti qəbul olunacaqdır. Onun qulluqçusu qaldıqda isə sahibi iki barmağını qaldırıb deyər: “İlahi, isti və soyuq günlərdə mənim yanımda olan xadimim qaldı axı.” Beləcə, mömin ona da şəfaət edəcəkdir.”[1]

**12. Allah-təalanın şəfaəti**

Qiyamət günü bütün şəfaətçilər şəfaət edib qurtardıqdan sonra yerdə qalanlara Allahın rəhmət və mərhəməti şamil olacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): يَشْفَعُ النَّبِيُّونَ وَالْمَلائِكَةُ وَالْمُؤْمِنُونَ فَيَقُولُ الْجَبَّارُ بَقِيَتْ شَفَاعَتِي

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü peyğəmbərlər, mələklər və möminlər şəfaət etdikdən sonra Allah-təala buyuracaq: Qaldı Mənim şəfaətim.”[2]

İnsanın Allaha olan məhəbbəti heç bir vaxt cavabsız qalmayacaqdır. Kimin Allaha məhəbbəti və sevgisi olsa, bu məhəbbət və sevgi qiyamət günü şəxsən Allahın həmin şəxsə şəfaət etməsinə səbəb olacaqdır. İmam Zeynalabidin(ə) Allahla minacat edərkən belə deyərdi: “İlahi, Sənə olan məhəbbətim mənim üçün şəfaətçidir.”

Hədislərdə belə nəql olunur ki, Allah-təala öz məhəbbətindən yüzdə birini dünyaya bəxş etmişdir. Qalan doxsan doqquzunu isə qiyamət gününə saxlamışdır. Dünyada ananın övladına, qardaşın qardaşına, dostun

---

[1] Yenə orada, səh.163.

[2] Yenə orada, səh.192.

dostuna, sevgilinin sevgilisinə olan məhəbbəti və bütün məhəbbətlərin hamısı həmin bir faizdə cəmləşmişdir.

Həzrət Musa(ə) Allahla minacat edərkən Allah-təala ondan soruşdu: “Ya Musa, bilirsənmi səni nə üçün Özümə həmçöhbət və peyğəmbər seçdim? Musa(ə) ərz etdi: İlahi, bilmirəm. Nə üçün? Allah-təala buyurdu: Bir zamanlar Şüeybin(ə) qoyunlarını otarırdın. Günlərin birində bir quzu sürüdən ayrılıb qaçmağa başladı. Sən də onu tutmaq üçün ardınca qaçdın. Quzu qaçdı, sən qaçdın və çox çətinliklə də olsa onu tuta bildin. Tutduqdan sonra qəzəblənmədin və onunla mehriban rəftar etdin. Dedin ki, ey Allahın heyvanı, özünü də zəhmətə saldın, məni də. Sonra onu boynuna alaraq aparıb sürüyə qatdın. Sənin hətta heyvanlara qarşı məhəbbətli olmağın ona gətirib çıxardı ki, səni Özümə həmsöhbət etdim və peyğəmbər seçdim.” (Yəni heyvanlara qarşı belə mehriban olan bir adam insanlara qarşı da mehriban olar. Bu səbəbdən də Allah-təala onu insanlar üçün peyğəmbər təyin etdi.)

Allah-təala qiyamət günü Özünün və müqəddəs insanların şəfaətini bizə nəsib etsin. İnşallah!

## Şəfaətdən məhrum olanlar

Bir qədər əvvəl qiyamət gününün müxtəlif şəfaətçilərindən bəhs etdik. Burada çox yaxşı olardı ki, indi də şəfaətdən məhrum olan insanlar barədə söz açaq. Yəni baxaq görək qiyamət günü kimlər şəfaət olunmayacaq və hansı əməllər insanı şəfaətdən məhrum edə bilər. Bir sıra insanlar vardır ki, qiyamət günü onlar şəfaətdən məhrum ediləcəkdir. Təbii məsələdir ki, onlar öz etiqad və əməlləri ilə özlərini şəfaətdən kənar etmişlər.

### 1. Kafir və müşrik

Qiyamət günü şəfaətdən məhrum olan birinci dəstə insanlar kafirlər və müşriklərdir. “Muddəssir” surəsinin 40-41və 46-48-ci ayələrində oxuyuruq:

فِي جَنَّاتٍ يَتَسَاءَلُونَ. عَنِ الْمُجْرِمِينَ. مَا سَلَكَكُمْ فِي سَقَرَ

-Onlar (möminlər) cənnətlərdə və bağlar içində olarlar; bir-birilərindən soruşarlar. Günahkarların halını. (Onlara üz tutaraq soruşarlar:) “Sizi səqərə (cəhənnəmə) daxil edən nədir?”

وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ. وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ. حَتَّىٰ أَتَانَا الْيَقِينُ. فَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

-Deyərlər: “Cəza gününü təkzib və inkar edərdik. Ölüm bizi yaxalayana qədər (bu vəziyyətdə qaldıq).” Şəfaət edənlərin şəfaəti onlara heç bir fayda verməyəcəkdir.

“Şüəra” surəsinin 98-101-ci ayələrində bəyan olunur ki, kafirlə (müşriklər öz məbudları ilə birgə) cəhənnəmə düşdükdə dünyada Allaha şərik qoşduqları bütlərinə belə deyəcəklər:

إِذْ نُسَوِّيكُمْ بِرَبِّ الْعَالَمِينَ. وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ. فَمَا لَنَا مِنْ شَافِعِينَ. وَلَا صَدِيقٍ حَمِيمٍ

-Çünki biz sizi (siz bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq. Bizi yalnız günahkarlar azdırdı. İndi artıq nə şəfaət edən kimsələrimiz, nə də bir mehriban dostumuz var!

Bu ayələrdən açıq-aydın görürük ki, qiyamət günündə kafir və müşriklərə heç bir şəfaət olunmayacaq.

İmam Rzadan(ə) «وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ» - "Onlar yalnız (Allahın) razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilərlər" - ayəsinin mənası barədə soruşduqda Həzrət(ə) buyurdu: "Bu ayənin mənası odur ki, şəfaətçilər yalnız dinindən Allahın razı olduğu şəxslərə şəfaət edəcəklər."[1]

Deməli, məlum olur ki, Allah kafir və müşriklərin dinindən razı deyildir.

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي سَأَلْت رَبِّي عَزَّ وَجَلَّ الشَّفَاعَة لِأُمَّتِي فَأَعْطَانِيهَا وَهِيَ نَائِلَة إِنْ شَاءَ اللهُ لِمَنْ لَا يُشْرِك بِاللَّهِ شَيْئًا

-Həzrət Peyğəmbər(s) buyurur: "Mən Rəbbimdən ümmətim üçün şəfaət etməyi xahiş etdim. Allah da mənim bu xahişimi qəbul etdi. Allaha heç bir şeyi şərik qoşmayan hər bir kəsə (qiyamətdə) şəfaət etməyə nail oldum."[2]

**2. Zalım və zülmkar**

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.194.

[2] Yenə orada, səh.158. Nəql edən: Müsnədi-Əhməd ibn Hənbəl, 5-ci cild, səh.149.

Qiyamət günü şəfaətdən məhrum olan ikinci dəstə insan zalım və zülmkar insanlardır. Belə insanlara şəfaət olunmaq icazəsi verilməyəcək və onlar heç bir şəfaət edənin şəfaətinə nail olmayacaqlar. Allah-təala "Ğafir" surəsinin 18-ci ayəsində buyurur:

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَلَا شَفِيعٍ يُطَاعُ

-(O gün) zalımların nə bir dostu, nə də sözü keçən bir şəfaətçisi olar!

İmam Həsən(ə) buyurur: "Bir qrup yəhudi İslam Peyğəmbərinin(s) hüzuruna gəlib müxtəlif suallar verdilər. Şəfaət barədə söz düşdükdə Həzrət Peyğəmbər(s) buyurdu:

اَمّا شَفاعَتِى فَفِى اَصحابِ الكَبائِرِ مَا خَلا اَهلِ الشِّرك وَ الظُّلم

-Mənim şəfaətim, müşriklər və zalımlar istisna olmaqla, böyük günah edənlər barəsindədir.[1]

İslam dini insanları zülm etməkdən qətiyyətlə çəkindirir. Zülm edən insanlar qiyamət günündə zülmət içində olacaqlar.

قَالَ رَسُولُ اللهِ(ص): إيّاكُم و الظُّلمَ؛ فإنّ الظُّلمَ عندَ اللهِ هُو الظُّلُماتُ يَومَ القِيامَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Zülm etməkdən çəkinin. Çünki zülm Allah yanında qiyamət gününün zülmət və qaranlığıdır."[2]

Bir nəfər qiyamət günündə nur və işıqlıqda olmaq istədiyini Həzrət Peyğəmbərə(s) ərz etdi. Həzrət Peyğəmbər(s) ona buyurdu:

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.194.
[2] Mizanül-hikmə, 7-ci cild, hədis – 11407.

لا تَظلِمْ أحَدا، تُحشَرْ يَومَ القِيامَةِ في النورِ

-Qətiyyən heç kəsə zülm etmə. Belə olduqda qiyamət günü nur və işıqlıqda olarsan. [1]

**3. Şəfaətə inanmayanlar**

Qiyamət günü şəfaətdən məhrum olan üçüncü dəstə şəfaətə etiqadı və inamları olmayan insanlardır.

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَمْ يُؤمِن بِشَفَاعَتِي فَلا أَنالَهُ اللهُ شَفاعَتِي

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim mənim şəfaət etməyimə iman qətirməsə, Allah-təala mənim şəfaətimi ona çatdırmayacaq." [2]

قَالَ الإِمامُ الرِّضا(ع): مَن كَذِبَ بِشفاعَةِ رَسُولُ اللهِ لَمْ تَنلهُ

-İmam Rza(ə) buyurur: "Kim Allahın Rəsulunun şəfaətini təkzib etsə (yalan saysa), Həzrətin(s) şəfaəti həmin şəxsə çatmayacaq."[3]

قَالَ الصّادِقُ(ع): مَن اَنكَرَ ثَلاثَةَ اَشياءٍ فَلَيسَ مِن شِيعتنا: اَلْمعراج وَ الْمَسائَلة فِي القَبرِ وَ الشَّفاعَة

-İmam Sadiq(ə) buyurur: "Üç şeyi inkar edən bizim şiələrimizdən deyil: meracı, qəbirdə sorğu-sualı və şəfaəti."[4]

**4. Xəyanətkar insanlar**

---

[1] Yenə orada, hədis – 11409.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.195.
[3] Yenə orada.
[4] Yenə orada, səh.197.

Qiyamət günü şəfaətdən məhrum olan dördüncü dəstə xəyanətkar insanlardır. Xəyanətkar insan qiyamət günü şəfaət olunmayacaq.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ غَشَّ الْعَرَبَ لَمْ يَدْخُلْ فِي شَفَاعَتِي

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim ərəblərə xəyanət etsə, mənim şəfaətimdən məhrum olacaq.”[1]

Bu hədisdə “ərəb” deyildikdə aydın məsələdir ki, müsəlmanlar nəzərdə tutulur. Yəni kim müsəlmanlara xəyanət etsə, qiyamət günü Həzrət Peyğəmbərin(s) şəfaətindən məhrum olacaqdır.

**5. Namaza laqeyd yanaşanlar**

Qiyamət günü şəfaətdən məhrum olan beşinci dəstə insanlar namaza laqeyd yanaşanlardır.

İmam Sadiq (ə) dünyadan köçmək anı gələndə qohum-əqrəbasının onun yanına toplaşmasını tapşırdı və sonra buyurdu:

لَا يَنَالُ شَفَاعَتَنَا مَنِ اسْتَخَفَّ بِالصَّلَاةِ

-Namaza laqeyd yanaşan heç bir vaxt bizim şəfaətimizə nail olmayacaq. [2]

Allah-təala “Muddəssir” surəsinin 40-45-ci ayələrində belə buyurur:

---

[1] Yenə orada, səh.195.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.196.

فِي جَنَّاتٍ يَتَسَاءلُونَ. عَنِ الْمُجْرِمِينَ. مَا سَلَكَكُمْ فِي سَقَرَ. قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ. وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ. وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ

-Onlar cənnətlərdə və bağlar içində olarlar; Bir-birilərindən soruşarlar; Günahkarların halını. (Onlara üz tutaraq soruşarlar): "Sizi cəhənnəmə daxil edən nədir?" Deyərlər: "Biz namaz qılanlardan deyildik. Fəqirə və yoxsula təam verməzdik. Batil əhli ilə birlikdə bihudə işlərə və söhbətlərə dalardıq."

Namaz insan üçün o qədər mühüm bir əməldir ki, qiyamətin bütün mərhələlərində insanın dərdinə dəyəcək. Namaza laqeyd yanaşmaq olmaz. Namaz insanın nuraniliyinə səbəb olar. İnsan namaz qılarkən onun paltarı və ətrafında olan hər bir şey Allaha zikr edər.

قَالَ عَلِيٌّ(ع): إنّ الإنسانَ إذا كانَ في الصَّلاةِ فإنّ جَسَدَهُ و ثيابَه و كُلّ شَيءٍ حَولَهُ يُسَبِّحُ

-Həzrət Əli(ə) buyurur: "İnsan namaz qılarkən onun bədəni, paltarı və ətrafında olan hər bir şey zikr edir."[1]

Bəndə Allah qarşısında dayanıb namaz qılarkən şeytan narahat olur. Şeytan Allahın düşməni olduğu üçün heç bir bəndənin Allah qarşısında səcdə etməsini istəmir. Bəndə namaza dayandıqda Allahın rəhməti onu əhatə edir. Belə olduqda şeytanın ona paxıllığı tutur.

[1] Mizanül-hikmə, 7-ci cild, hədis – 10585.

قَالَ عَلِيٌّ(ع): إذا قامَ الرجُلُ إلى الصَّلاةِ أقبَلَ إبليسُ يَنظُرُ إلَيهِ حَسدا، لِما يَرى مِن رَحمَةِ اللهِ التي تَغشاهُ

-Həzrət Əli(ə) buyurur: "Bir şəxs namaza dayananda Allahın bəndəni əhatə edən rəhmətini görən iblis paxıllıqla ona baxar."[1]

Buna görə də şeytan həmişə çalışır ki, insanı namazdan və nuraniyyətdən uzaqlaşdırsın. Nuraniyyətdən uzaqlaşmaq isə zülm və şirkə yaxınlaşmaq deməkdir.

### 6. Əhli-beytin(ə) düşmənləri (nasibilər)

Qiyamət günü şəfaətin çatmadığı və şəfaətdən məhrum olan altıncı dəstə insanlar Həzrət Peyğəmbərin(s) Əhli-beyti(ə) ilə düşmənçilik edən kəslərdir.

قَالَ الصّادِقُ(ع): إِنَّ الْجَارَ يَشفَعُ لِجَارِهِ وَالْحَميم لِحَمِيمِه وَلو أَنَّ الْمَلائِكَةَ الْمُقَرَّبِين وَالأَنبياء الْمُرسَلِين شَفَعُوا فِي نَاصِبٍ مَا شُفِّعُوا

-İmam Sadiq(ə) buyurur: "Qiyamət günü qonşu qonşusuna, qohum öz qohumuna şəfaət edəcək. Nasibi olan şəxs barəsində hətta yaxın mələklər və mürsəl peyğəmbərlər də şəfaət etsə, şəfaətləri qəbul olunmayacaq."[2]

Allah-təala "Məryəm" surəsinin 87-ci ayəsində buyurur:

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِنْدَ الرَّحْمَٰنِ عَهْدًا

-(Həmin gün) Rəhman olan Allahın yanından əhd-peyman almış şəxslərdən başqa, insanlardan heç bir kəsin şəfaət etmək ixtiyarı olmaz.

---

[1] Yenə orada, hədis – 10584.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.173.

İmam Sadiq(ə) bu ayənin təfsirində belə buyurmuşdur:

لا يشفع ولا يشفع لهم ولا يشفعون إلاَّ مَن أُذِنَ لَهُ بِوَلاَيَةِ أَمِيرِ المؤْمِنِينَ وَالاَئِمَّةِ مِن بَعْدِهِ فَهُوَ العَهد عِندَالله

-Nə şəfaət edə bilər, nə də onlara şəfaət olunar. Yalnız Əmirəlmöminin (Həzrət Əli) və ondan sonrakı imamların vilayətinin qəbul edildiyi şəxslərə şəfaət icazəsi verilər. Bu, Allah tərəfindən verilmiş bir əhddir.[1]

Günahkar adamlar və zalımlar şəfaət vasitəsilə bir məqam əldə edə biləcəklərini təsəvvür edirlərsə, bunu da bilməlidirlər ki, qiyamət günü onların şəfaət etmək ixtiyarı olmaz. Yəni nə onlara şəfaət olunar, nə də özləri şəfaət edə bilərlər. Yalnız o kəslər şəfaət edə bilərlər ki, Allahın yanında əhd-peymanları vardır.

İmam Sadiqdən(ə) "Məryəm" surəsinin 87-ci ayəsindəki "əhd" sözünün mənası barədə soruşduqda Həzrət(ə) belə buyurdu:

مَن دَانَ بِوِلايةِ أَمِيرِ الْمُؤمِنين وَالأَئِمَّة مِن بَعدِهِ فَهُو العَهد عِندَالله

-Kim Əmirəlmöminin (Əlinin) və ondan sonrakı imamların vilayətini qəbul edərsə, bu, Allah yanında bağlanmış bir əhddir.[2]

İmam Hüseyn(ə) Mədinədən çıxarkən cəddi Rəsulullahı yuxuda gördü. Həzrət Peyğəmbər(s) ona buyurdu:

---

[1] Yenə orada, səh.174.
[2] Təfsiri-nümunə, 13-cü cild, səh.135.

حَبِيْبِيْ يَا حُسَيْنُ كَاَنِّيْ اَرَاكَ عَنْ قَرِيْبٍ مُرَمَّلاً بِدِمَائِكَ مَذْبُوْحًا بِاَرْضِ كَرْبَلآءَ عَلٰي اَيْدِيْ عِصَابَةٌ مِنْ اُمَّتِي وَ اَنْتَ مَعَ ذٰلِكَ عَطشانٌ. يَرْجُوْنَ شَفَاعَتِيْ لاَ يَنَالُهُمْ وَ اللهُ شَفَاعَتِيْ يَوْمَ الْقِيَامَةِ

-Ey mənim sevimli övladım. Ey Hüseyn, sanki bu yaxında səni qanına qəltan olmuş, ümmətimdən bir dəstənin əli ilə Kərbəla çölündə susuz öləcəyini görürəm. Onlar bu əməlləri ilə hələ də mənim şəfaətimə ümid edirlər. Allah qiyamət günü mənim şəfaətimi onlara nəsib etməsin.[1]

### Şəfaətə səbəb olan, yaxud şəfaəti tezləşdirən amillər

Yuxarıda qeyd olundu ki, qiyamət günü bir sıra insanlara şəfaət olunmayacaq. Həmçinin insanı şəfaətdən məhrum edən səbəb və amillərlə də tanış olduq. Bu bəhsimizdə isə qiyamət günü insana şəfaəti nəsib edən və ya şəfaətin nəsib olmasını tezləşdirən amillərlə tanış olacağıq. Qeyd etmək lazımdır ki, bu amllər insanın şəfaət olunmasında çox mühüm rola malikdir.

**1. İman və tövhiddə ixlaslı olmaq**

Qiyamət günü şəfaətin insana çatmasında ən birinci və önəmli yeri tutan məsələ Allahın vəhdaniyyətini qəbul etməkdir. Yuxarıda qeyd olundu ki, kafir və müşrik insana heç bir şəfaətçinin şəfaəti çatmayacaqdır. Şəfaət o insan üçündür ki, ilk növbədə Allahın vəhdaniyyətini, Onun sübuti və səlbi sifətlərinə əqidə və imanı olsun. Deməli, hər kim Allahın vəhdaniyyətini qəbul etməkdə daha çox

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.168.

ixlaslı olarsa, qiyamət günü şəfaət olunmaq şansını əldə etmiş olar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ أَسْعَدَ النَّاسِ بِشَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ مَنْ قَالَ: لا إِلَهَ إِلا اللَّهُ خَالِصًا مِنْ قِبَلِ نَفْسِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü mənim şəfaətimə nail olacaq ən xoşbəxt insan o kəsdir ki, “La ilahə illəllah” (“Allahdan başqa heç bir məbud yoxdur”) kəlməsini səmimi-qəlbdən və ixlasla desin.”[1]

Burada qeyd olunmalıdır ki, “La ilahə illəllah” deyənlərin hamısı eyni dərəcədə deyildir. Ümumiyyətlə, insanlar hər hansı bir məsələdə eyni dərəcədə olmurlar. Məsələn, insan var ki, ildırım çaxması, güclü külək əsməsi, bərk yağış yağması kimi təbii hadisələrdən qorxur. Yaxud da iki nəfərin dalaşdığını görüb qorxur və ya ölü gördükdə canına qorxu düşür. Amma eyni hadisələrdən qorxmayan insanlar da vardır. Qorxmayan insanların da dərəcələri müxtəlifdir. Bəzisi qətiyyən qorxmur, bəzisi isə dildə “qorxmaq lazım deyil” deməsinə baxmayaraq, qorxduğu hiss olunur.

Başqa bir misalla desək, dünya malı barəsində söhbət düşəndə çox adam “pul əl çirkidir” deyir. Amma yüz manata görə yüz dəfə yalan danışır. Çox adam “dünya heç kəsə qalmayacaq” deyir, ancaq buna baxmayaraq, dünyaya görə nə qədər cinayətə əl atır. Amma insan da var ki, dünyanın hamısını ona versələr də, bircə kəlmə yalan söz danışmağa razı olmaz. Məsələn, Qüreyş qəbiləsinin böyükləri Həzrət Peyğəmbərə(s) ilahi təklifdən əl götürməsi üçün müxtəlif təkliflər edirdilər. Həzrət

[1] Yenə orada, səh.197.

Peyğəmbər(s) onların bütün təkliflərinə rədd cavabı verərək belə buyururdu: “And olsun Allaha, əgər ayı sol əlimə, günəşi sağ əlimə versələr də belə ilahi dəvətdən əl götürməyəcəyəm.”

İmam Hüseyn(ə) bilirdi ki, dünya möminin zindanı və kafirin cənnətidir. Bilirdi ki, ölüm dünya ilə axirətin arasında bir körpüdür. Bilirdi ki, şəhid olduqdan sonra Allahın hüzuruna, Həzrət Peyğəmbərin(s) görüşünə gedəcək. Buna görə də heç bir şeydən qorxmurdu. Hətta Kərbəlada döyüşərkən ölümə yaxınlaşdıqca Həzrətin(ə) mübarək camalında sevinc hissi daha da çoxalırdı. İmam Hüseyn(ə) aşura gecəsi yaxınlarına cənnətdəki məqamlarını göstərmişdi. Aşura günü hamı şövqlə döyüşüb şəhid olmaq arzusunda idilər. Tarixi mənbələrdə yazılıb ki, onlar döyüş meydanında şəhid olmağın və öldükdən sonra cənnətə getməyin şövqündən ox, nizə və xəncər yaralarını belə hiss etmirdilər. Onlar dildə iman gətirdilər və əməldə də bunu təsdiq etdilər.

Odur ki, bütün “La ilahə illəllah” deyənlərin hamısı eyni dərəcədə deyil. Əsas məsələ bu kəlmənin nə qədər doğru və sədaqətlə deyilməsindədir. Dildə “La ilahə illəllah” kəlməsini deyən hər bir kəs, necə deyərlər, murdarlıqdan çıxıb pak olur. Çünki kafir insanın paklaşmasının bircə yolu vardırsa, o da “La ilahə illəllah” kəlməsini etiraf etməsidir. Pak olduqdan sonra onun kəsdiyi (əti halal olan) heyvanın əti də pakdır. Bundan əlavə, “La ilahə illəllah” deyənlərin dərəcəsi də bir-birindən fərqlidir və hamı eyni dərəcədə deyildir. Bu kəlmənin mənası odur ki, Allahdan başqa heç bir məbud, ibadət və pərəstişə layiq heç bir şey yoxdur. Ondan başqa heç bir şeyə səcdə etmərəm. İnsan da var ki, eyni ifadəni işlətməsinə baxmayaraq, vəzifəyə, pula, dünyaya, şəhvətə və s. şeylərə əyilir. Eyni zamanda insan da var ki, həmin ifadəni dilində deyir və həm də sədaqətlə

özünü doğruldur. Məsələn, Həzrət Əli(ə) bunun bariz nümunəsidir. Həzrət(ə) Allahla minacat edərkən belə deyirdi: "İlahi, mən Sənə cənnətə olan tamahıma görə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən ibadətə layiq bildiyim üçün Sənə ibadət edirəm."

Həzrət Əlinin(ə) Allahla etdiyi minacatı və dediyi sözləri hamı deyə bilər. Amma burada əsas məsələ həmin sözləri kimin nə qədər doğru və sədaqətlə deməsindədir. Təbiidir ki, söz demək asandır, ancaq doğru demək və əməldə də onu sübut etmək daha böyük önəm kəsb edir.

Odur ki, hər kəs "La ilahə illəllah" kəlməsini səmimi-qəlbdən və ixlasla etiraf edib sözünün üstündə də dayana bilsə, qiyamət günü şəfaət olunmaq şansını əldə edə biləcəkdir.

**2. Namaz və səcdə əhli**

Namaz qılıb Allah qarşısında səcdə etmək insanın qiyamət günündə şəfaət olunmasına imkan verər.

Həzrət Peyğəmbərin(s) xidmətçilərindən biri çox səmimi bir insan olmaqla yanaşı, həm də ona tapşırılan hər bir işi canla-başla yerinə yetirərdi. Xidmətçinin rəftar və hərəkətindən xoşu gələn Həzrət Peyğəmbər(s) bir gün ona buyurdu: "Məndən bir istəyin varmı?" Xidmətçi dedi: "Ya Rəsulallah, səndən qiyamət günü mənə şəfaət etməyini xahiş edirəm." Həzrət Peyğəmbər(s) xidmətçinin axirəti düşündüyünü görüb soruşdu: "Bunu sənə kim öyrədib?" Xidmətçi dedi: "Rəbbim." Həzrət Peyğəmbər(s) buyurdu: "Mən sənə şəfaət edərəm. Amma sən də Allaha çoxlu səcdə etməklə bu işdə mənə yardımçı olmalısan."[1]

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.197.

Allahla insan arasında ən yaxın hal səcdə halıdır. Şeytanın Allahla düşmənçiliyi də məhz səcdə məsələsi ilə bağlıdır. Allah-təala Adəmi yaratdıqdan sonra bütün mələklərə ona səcdə etməyi əmr verdi. Hamı səcdə etdi, lakin iblis boyun qaçırdı. Allah dərgahından qovulduqdan sonra o, Allah-təalanın bəndələrini haqq yoldan azdırıb cəhənnəmə aparacağına and içdi. Buna görə də şeytan insanların Allaha səcdə etdiyini gördükdə onun paxıllıq hissi baş qaldırır. İnsan Allah qarşısında uzun-uzadı səcdə etdikcə şeytan da ah-nalə edərək fəryad qoparır.

قَالَ الصّادِقُ(ع): إِنَّ العَبْدَ اِذا اطالَ السُّجُودَ حيثُ لا يَرادُ اَحدًا قَالَ الشّيطَان وَاوَيْلاهُ اَطاعُوا وَ عَصَيتُ وَسَجَدُوا وَ اَبَيْتُ

-İmam Sadiq(ə) buyurur: “Bəndə heç kimi nəzərdə tutmadan (Allah qarşısında) səcdələri uzadarsa, şeytan deyər ki, vay olsun mənə! Onlar itaət etdilər, mənsə üsyankar oldum. Onlar səcdə etdilər, mənsə boyun qaçırtdım.”[1]

قَالَ الصّادِقُ(ع): أَيُّما مُؤمِنٍ سَجَدَ لِلّه سَجدَةً لِشُكرِ نِعمةٍ فِي غَيرِ صَلاةٍ كَتَبَ اللهُ لَهُ بِها عَشَرَ حَسناتٍ وَمَحا عَنهُ عَشرَ سَيِّئاتٍ وَرَفَعَ لَهُ عَشَر دَرَجاتٍ فِي الْجِنان

-İmam Sadiq(ə) buyurur: “Hər bir mömin namazdan əlavə hər hansı bir nemətə görə Allaha bir səcdə etsə, Allah-təala onun üçün on yaxşılıq (savab) yazar, on günahını silər, cənnətdə onun dərəcəsini on dərəcə yüksəldər.”[2]

---

[1] Savabul-əmal, səh.82.
[2] Yenə orada, səh.83.

**3. Peyğəmbərə(s) salavat göndərmək və Allahdan onun üçün yüksək məqamlar istəmək**

İnsanın şəfaətə nail olmasına imkan verən əməllərdən biri də Həzrət Peyğəmbərə(s) salavat göndərib onun üçün Allahdan yüksək məqamlar istəməkdir. Həzrət Peyğəmbər(s) bizi Allah yoluna hidayət etmişdir. Allah-təala insanları Həzrət Peyğəmbərin(s) vasitəsilə hidayət edir. İslam Peyğəmbəri(s) insanları hidayət etmək üçün çox əziyyətlər çəkmişdir və onun insanların boynunda haqqı vardır. Buna görə də hər bir müsəlman həmişə Həzrətə(s) salam və salavat göndərməli, Allahdan onun üçün yuksək məqamlar diləməlidir. Bu əməlin insanın özü üçün də çox böyük faydası vardır.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ صَلَّى عَلَى مُحَمَّدٍ، وَقَالَ: اللَّهُمَّ أَنْزِلْهُ الْمَقْعَدَ الْمُقَرَّبَ عِنْدَكَ يَوْمَ الْقِيَامَةِ، وَجَبَتْ لَهُ شَفَاعَتِي

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim Məhəmmədə salavat göndərib “İlahi, qiyamət günündə ona Özünə ən yaxın məqamı mərhəmət et” - deyə dua etsə, mənim şəfaətim həmin şəxsə vacib olar.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا سَمِعْتُمُ الْمُؤَذِّنَ فَقُولُوا مِثْلَ مَا يَقُولُ ثُمَّ صَلُّوا عَلَيَّ فَإِنَّهُ مَنْ صَلَّى عَلَيَّ صَلَاةً صَلَّى اللَّهُ عَلَيْهِ عَشْرًا ثُمَّ سَلُوا اللَّهَ عَزَّ وَجَلّ لِي الْوَسِيلَةَ... فَمَنْ سَأَلَ اللهَ لِي الْوَسِيلَةَ جَلَّتْ عَليهِ الشَّفَاعَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Müəzzin azan deyərkən onun sözlərini siz də təkrar edin. Daha sonra mənə salavat göndərin. Çünki kim mənə bir dəfə salavat

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.198.

göndərsə, Allah ona on salavatla (rəhmətlə) qarşılıq verər. Salavatın ardınca Allahdan mənim üçün vəsilə (şəfaət məqamımı) istəyin. Buna görə də mənim üçün Allahdan vəsilə istəyən adama şəfaətim vacib olar."[1]

**4. Quranı öyrənmək, oxumaq və əzbərləmək**

Qiyamət günü insanın şəfaət olunmasına gətirib çıxaran amillərdən dördüncüsü Quranla ünsiyyət yaratmaqdır. Yəni Quranı öyrənmək, oxumaq və əzbərləmək qiyamət günü insanın şəfaət olunmasına, yaxud şəfaətin onun barəsində tezləşməsinə səbəb olar.

قَالَ رَسُول اللهِ(ص): تَعَلَّمُوا القُران فَإِنَّهُ شَافِعٌ لأَصحَابِهِ يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Quranı öyrənin, çünki o, qiyamət günü öz dostlarına (onu oxuyanlara) şəfaət edəcəkdir." [2]

Kim dünyada Quranla munis olsa, qiyamət günü Quran təcəssüm olunaraq Allahdan həmin şəxsin şəfaət olunmasını istəyəcək.

قَالَ رَسُول اللهِ(ص): وَيَقُولُ الْقُرْآنُ: رَبِّ إِنِّي مَنَعْتُهُ النَّوْمَ بِاللَّيْلِ فَشَفِّعْنِي فِيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü Quran deyəcək: İlahi, mən onu gecə yuxusundan saxladım. Mənim onun barəsində şəfaətimi qəbul et."[3]

---

[1] Mənşuri-Cavid, 8-ci cild , səh.163.
[2] Yenə orada, səh.198.
[3] Mənşuri-Cavid, 8-ci cild, 164.

قَالَ رَسُولُ اللهِ(ص): تَعَلَّمُوا الْقُرْآنَ فَإِنَّهُ يَأْتِي يَوْمَ الْقِيَامَةِ صَاحِبَهُ فِي صُورَةِ شَابٍّ جَمِيلٍ... فَيَقُولُ لَهُ الْقُرْآنُ أَنَا الَّذِي كُنْتُ أَسْهَرْتُ لَيْلَكَ وَ أَظْمَأْتُ هَوَاجِرَكَ وَ أَجْفَفْتُ رِيقَكَ وَ أَسَلْتُ دَمْعَتَكَ أَؤُولُ مَعَكَ حَيْثُمَا أُلْتَ... فَيُؤْتَى بِتَاجٍ فَيُوضَعُ عَلَى رَأْسِهِ وَ يُعْطَى الْأَمَانَ بِيَمِينِهِ وَ الْخُلْدَ فِي الْجِنَانِ بِيَسَارِهِ وَ يُكْسَى حُلَّتَيْنِ ثُمَّ يُقَالُ لَهُ اقْرَأْ وَارْقَهْ فَكُلَّمَا قَرَأَ آيَةً صَعِدَ دَرَجَةً وَ يُكْسَى أَبَوَاهُ حُلَّتَيْنِ إِنْ كَانَا مُؤْمِنَيْنِ ثُمَّ يُقَالُ لَهُمَا هَذَا لِمَا عَلَّمْتُمَاهُ الْقُرْآنَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Quranı (oxumağı) öyrənin. Çünki Quran qiyamət günündə gözəl bir cavan oğlan surətində onu oxuyanın yanına gəlib deyər: O, mənəm ki, gecələr səni yatmağa qoymurdum. (Yuxudan oyanıb məni oxumaqla məşğul idin.) O, mənəm ki, isti havalarda məni oxuduqda dil-dodağın quruyar və gözlərinin yaşı tökülərdi. Bu gün hara getsən, mən sənin yanına gələcəyəm…

Sonra həmin şəxsin başına tac qoyub cəhənnəmdən amanda qalmaq vərəqəsini onun sağ əlinə, cənnətdə əbədi qalmaq üçün icazə vərəqəsini isə sol əlinə verərlər. Onun əyninə cənnət libası geyindirib deyərlər: Dünyada oxuduğun ayələri oxu ki, dərəcən artsın. Sonra o, hər bir ayəni oxuduqca bir dərəcə yuxarı gedəcək. Onun atası dünyada mömin adam olubsa, ona da cənnət libası geyindirib deyərlər: Bu, sənin övladına öyrətdiyin Quranın mükafatıdır.”[1]

### 5. Möminlərlə dostluq və onlara xidmət etmək

[1] Üsuli-kafi, 4-cü cild, səh.405.

Qiyamət günü insanın şəfaət olunmasına səbəb olan amillərdən beşincisi möminlərlə dostluq etmək və onlara xidmət göstərməkdir.

قَالَ الإمامُ العَسكَرِي(ع): لا يزَال الْمُؤمِنُ يَشفَعُ حَتیّ يُشَفّع فِي جِيرانِه وَ خُلطائِه وَ مَعارِفِه

-İmam Həsən Əskəri(ə) buyurur: "Mömin qonşularına, dostlarına və tanıdığı kəslərə şəfaət edəcək və onun şəfaəti qəbul olunacaq."[1]

Ötən bəhslərdə qeyd olunmuşdur ki, Allah-təala qiyamət günü möminə də şəfaət etmək icazəsini verəcəkdir. Hər bir mömin öz əməl və dərəcəsinə uyğun olaraq şəfaət edəcəkdir. Ola bilsin böyük bir dəstə insana, ola bilsin ən azından bir nəfərə şəfaət etsin. Mömin qiyamət günündə həm dostlarına, həm qonşularına, həm qohumlarına hətta öz xidmətçi və qulluqçularına belə Allahın izni ilə şəfaət edə biləcəkdir.

Əban ibn Təğlib İmam Sadiqdən(ə) belə rəvayət edir:

قَالَ الصّادِقُ(ع): اِنَّ الْمُؤمِن لَيَشفَع يَومَ القِيامَةِ لِأَهلِ بَيتِهِ فَيُشَفَّع فِيهِم حَتّی يَبقَی خَادِمُهُ فَيَقُول – فَيَرفَع سَبّابَتَيهِ –: يَا رَبّ! خُوَيدمی كَانَ يَقِينِی الحَرّ وَ البَرد فَيُشَفَّع فِيهِ.

-İmam Sadiq(ə) buyurur: "Qiyamət günü mömin öz ailəsinə şəfaət edəcək və onun şəfaəti qəbul olunacaq. Onun xidmətçisi qaldıqda sahibi iki barmağını qaldırıb deyər: "İlahi,

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.199.

isti və soyuq günlərdə mənim yanımda olan xidmətçim qaldı axı.” Beləcə, mömin ona da şəfaət edəcəkdir.”[1]

Hədis və rəvayətlərə əsasən, qiyamət günü mömin şəfaət edərkən dünyada ona bir içim içməli su və ya dəstəmaz almaq üçün su vermiş cəhənnəm əhlindən biri onu görüb kömək istəyəcək. O da Allahın izni ilə həmin adama şəfaət edəcəkdir.

Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü cənnət əhli cərgələrə düzüldükdə cəhənnəm əhlindən olan bir nəfər cənnət əhlindən birini görüb tanıyacaq. Onu görən kimi deyəcək: Yadındadırmı, dünyada bir gün məndən su istədin və mən sənə su verdim? Bu gün sən də mənə kömək elə. Bu vaxt həmin şəxs ona şəfaət edəcəkdir. Həmçinin cəhənnəm əhlindən olan birisi cənnət əhlindən birinə deyəcək: Yadındadırmı, dünyada dəstəmaz almaq üçün sənə su vermişdim? Bu gün sən də mənə yardım et. Həmin cənnət əhli də ona şəfaət edəcək.”[2]

Bir daha qeyd etmək lazımdır ki, qiyamət günü həm şəfaət etmək, həm də şəfaət olunmaq Allahın izni ilə mümkündür. O, kimə şəfaət etmək iznini verərsə, o da şəfaət edəcək. Həmçinin kimə şəfaət olunmaq izni verərsə, həmin şəxsə də şəfaət olunacaq.

**6. Üzrxahlıq edənin üzrünü qəbul etmək**

Qiyamət günü insanın şəfaət olunmasına səbəb olan əməllərdən altıncısı üzrxahlıq edən insanın üzrünü qəbul etməkdir. Həyatda peyğəmbərlər və on dörd məsum istisna olmaqla, bütün insanların günahı, xəta və səhvləri

[1] Yenə orada, səh.173.
[2] Mənşuri-Cavid, 8-ci cild, səh.162.

ola bilər. Bəzən biri kiminsə xətrinə dəyir, bəzən biri digərinin haqqına girir, bəzən biri digərini incidir və s. kimi hallar baş verir. Əgər bir insan bu işləri gördükdən sonra peşman olub incitdiyi, yaxud haqqına girdiyi və ya ardınca pis söz danışdığı insandan üzr istəyərsə və həmin şəxs də onun üzrünü qəbul edərsə, qiyamət günü şəfaət olunmaq üçün qapıları öz üzünə açmış olar.

Həzrət Əli(ə) oğlu Məhəmməd ibn Hənəfiyyəyə nəsihət edərkən bu barədə belə buyurmuşdur:

اِقبَل مِن مُتَنَصِّلٍ عُذرَهُ، فَتنالُكَ الشَّفاعَة

-Oğlum, səndən üzr istəyənin üzrünü qəbul et ki, qiyamət günü şəfaət olunmağa nail olasan. [1]

Üzrxahlığı qəbul etmək insani keyfiyyətlərdən biridir. Bu əməl qiyamət günü insanın şəfaət olunmasına yol açır. Bəzən bir nəfər kiməsə pislik edir və ya kiminsə malını mənimsəyir və sonradan həmin əməlinə görə peşman olmasına baxmayaraq, yenə də o şəxsdən üzr istəməyi özünə sığışdırmır, ya da utanır. Elə düşünür ki, gedib ondan üzr istəsə, biabır olacaqdır. Ona görə də qarşı tərəfdən üzrxahlıq etmək istəmir. Ancaq hər bir kəs başa düşməlidir ki, bu dünyada olmasa da, qiyamət günündə həmin məsələ mütləq ortalığa qoyulacaqdır. Əgər həmin şəxs bu məsələni dünyada həll etməyibsə, qiyamət günü onun üçün daha da çətin olacaqdır. Bəzən də birisinin üzr istəmək istədiyi şəxs son dərəcə tünd adam olduğundan onun yanına gedib üzrxahlıq etmək istəmir. Həzrət Əli(ə) oğluna nasihət etməklə bütün möminləri başa salır ki,

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.167.

üzrxahlığa gələn insanın üzrünü tez bir zamanda qəbul etməyi bacarsınlar.

### 7. Peyğəmbər(s) övladlarına ehtiram göstərmək

Qiyamət günü insanın şəfaət olunmasına səbəb olan, yaxud insan üçün şəfaət qapılarını açan əməllərdən biri isə İslam Peyğəmbərinin(s) övladlarına və zürriyyətlərinə (seyidlərə) ehtiram göstərmək və onlara məhəbbət bəsləməkdir. Həzrət Peyğəmbərin(s) nəsli Həzrət Əli(ə), İmam Həsən(ə) və İmam Hüseyndən(ə) başlanır və qiyamətə qədər hər bir insanın nəsəbi gedib onlara çatırsa, həmin şəxslər seyid (peyğəmbər övladı) sayılırlar. Seyidlər əsasən ata tərəfdən hesab olunurlar. Həzrət Əli(ə) Peyğəmbərin(s) qızı Fatimeyi Zəhra(s.ə) ilə ailə qurmuş və onlardan dünyaya gələn övladlar seyidlərdir. Bu ailə Həzrət Peyğəmbərin(s) ailəsi və nəslidir. Həzrət Əlinin(ə) istər Fatimeyi Zəhradan(s.ə) dünyaya gələn övladları, istərsə də digər həyat yoldaşlarından dünyaya gələn övladları arasında isə heç bir fərq yoxdur. Beləliklə, qiyamət gününə qədər kimin ata tərəfdən nəsəbi gedib onlara çatırsa, həmin şəxs seyiddir. Əlbəttə, bu məsələnin daha ətraflı izahı vardır ki, o barədə söz açsaq, çox uzun çəkər. İstənilən hər bir halda Həzrət Peyğəmbərin(s) zürriyyətlərinə ehtiram göstərmək, onların çətinliyini aradan qaldırmaq, onlara qarşı mehriban olmaq qiyamət günü insanın şəfaət olunmasına imkan yaradar.

قَالَ رَسُولُ اللهِ(ص): أَرْبَعَةٌ أَنَا لَهُمْ شَفِيعٌ يَوْمَ الْقِيَامَةِ: الْمُكْرِمُ لِذُرِّيَّتِي، وَالْقَاضِي لَهُمْ حَوَائِجَهُمْ، وَالسَّاعِي فِي أُمُورِهِمْ عِنْدَ مَا اضْطَرُّوا إِلَيْهِ، وَالْمُحِبُّ لَهُمْ بِقَلْبِهِ وَلِسَانِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü dörd qrup insana şəfaət edəcəyəm: mənim zürriyyətlərimə ehtiram edənlərə; ehtiyaclarını aradan qaldıranlara; çətinliyə düşərkən onların problemlərini həll etmək üçün çalışanlara; qəlbində və dilində onları sevənlərə.”[1]

Həzrət Peyğəmbərdən(s) sonra, xüsusilə Bəni-Üməyyənin hakimiyyətə keçməsindən sonra vəziyyət tamamilə dəyişildi. Həzrətin(s) balalarına çox zülmlər etdilər. Bəni-Üməyyənin hakimiyyət başına keçməsi isə Müaviyənin zülmünün nəticəsi idi. Məhz Müaviyənin xəyanətinin nəticəsi idi ki, Həccac ibn Yusif kimi qaniçən bir adam Həzrət Peyğəmbərin(s) taxtını qəsb etmişdi. Müaviyə İslamın əleyhinə əlindən gələni əsirgəmədi və əgər onun gücü çatsaydı, Həzrət Peyğəmbərin(s) başını belə kəsərdi. Əgər bütün pisliklərin, murdarçılıqların, xəyanətkarlıq və çirkinliklərin hamısını bir yerə toplayıb bir heykəl düzəltsələr, o, Müaviyə olar.

Həccac ibn Yusif harada Həzrət Peyğəmbərin(s) zürriyyətini görürdüsə, dərhal onun öldürülməsini əmr verirdi. Göstəriş vermişdi ki, harada seyid vardırsa tutub gətirsinlər. Gətirdikdən sonra isə öz gözləri qarşısında onun öldürülməsini tapşırırdı və həmin seyidin can verməsinə tamaşa edirdi. Bəzən də əmr verirdi ki, onların başını kəsib qanlarını bir qabın içinə töküb qurutsunlar. Öldürülən adamların qanını qurutduqdan sonra isə onu duz kimi yeməyinə səpib yeyirdi. Bəni-Üməyyə Peyğəmbər(s) balalarına qarşı belə amansız və murdar bir tayfa idi. Ona görə də həmin dövrdə seyidlər öz diyarlarından baş götürüb başqa ölkələrə pənah

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.199.

aparırdılar. Bu gün dünyanın çox yerində imamzadələr var. İmamzadələrdə uyuyanlar isə həmin seyidlərdir ki, bir vaxtlar Müaviyə kimi zalımların əlindən canlarını götürüb qaçmışlar.

قَالَ رَسُولُ اللهِ(ص): اِذا قُمتُ الْمَقامَ الْمَحمُودَ تَشَفَّعْتُ فِي أَصْحَابِ الْكَبَائِرِ مِنْ أُمَّتِي فَيُشَفِّعُنِي اللَّهُ فِيهِمْ. وَ اللَّهِ لَا تَشَفَّعْتُ فِيمَنْ آذَي ذُرِّيَّتِي

-Həzrət Peyğəmbər(s) buyurur: "Bəyənilmiş (şəfaət məqamına) çatdıqda ümmətimdən böyük günah edənlər üçün şəfaət edəcəyəm və Allah da mənim onların barəsindəki şəfaətimi qəbul edəcək. And olsun Allaha ki, mənim zürriyyətlərimə əziyyət verib onları incidən kəslərə şəfaət etməyəcəyəm." [1]

**8. Cənazəni müşayiət etmək**

Qiyamət günü insanın şəfaət olunmasına imkan verən əməllərdən biri dünyasını dəyişmiş möminin cənazəsini yerdən götürmək və onu müşayiət etməkdir.

قَالَ الباقِرُ(ع): مَنْ تَبعَ جَنَازَةَ مُسْلِمٍ أُعْطِيَ يَوْمَ الْقِيَامَةِ أَرْبَعَ شَفَاعَاتٍ

-İmam Baqir(ə) buyurur: "Kim bir müsəlmanın (möminin) cənazəsini (yerdən götürüb) müşayiət edərsə, qiyamət günü ona dörd nəfərə şəfaət etmək (və şəfaət olunmaq) icazəsi verilər."[2]

**9. Allahın rizayətini cəlb etmək**

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.195.
[2] Yenə orada, səh.169.

Qiyamət günündə insanın şəfaət olunmasına imkan yaradan əməllərdən ən başlıcası və əsası isə Allahın rizayət və razılığıdır. Əgər insan az da olsa Onun razılığını əldə edə bilməsə, heç bir şəfaət edənin şəfaəti ona nəsib olmayacaqdır. Çünki, qeyd olunduğu kimi, qiyamət günündə şəfaət etmək və şəfaət olunmaq məhz Allahın izni və razılığı ilə baş tutacaq. Odur ki, hər kim dünyada Allahın razılığını qazana bilsə, qiyamət günü şəfaət məsələsi onun üçün öz həllini tapacaqdır.

İmam Sadiq(ə) öz səhabələrinə yazdığı məktubda belə buyurmuşdur:

وَاعْلَمُوا أَنَّهُ لَيْسَ يُغْنِي عَنْكُمْ مِنَ اللهِ أَحَدٌ مِنْ خَلْقِهِ شَيْئاً لَا مَلَكٌ مُقَرَّبٌ ولَا نَبِيٌّ مُرْسَلٌ وَلَا مَنْ دُونَ ذَلِكَ، فَمَنْ سَرَّهُ أَنْ تَنْفَعَهُ شَفَاعَةُ الشَّافِعِينَ عِنْدَ اللهِ فَلْيَطْلُبْ إِلَى اللهِ أَنْ يَرْضَى عَنْهُ

-Bilin ki, sizi Allahdan nə bir yaxın mələk, nə də mürsəl bir peyğəmbər ehtiyacsız edə bilməz. Kim axirətdə şəfaət edəcək şəxslərin şəfaətini arzu edirsə, onda Allahın ondan razı qalmasını diləsin.[1]

Deməli, Allah-təala hər bir kəsin dinindən, imanından, əməl və ibadətindən az da olsa razı qalsa, qiyamət günü şəfaət edənlərin şəfaəti həmin şəxsə nəsib olacaqdır. Allahla bütün əlaqələri kəsmək hər bir şeydən üzülmək deməkdir. İnsan həmişə bunu bilməlidir ki, əvvəl-axır hər bir şey Allahın əlindədir. Qiyamət gününün maliki də Odur.

---

[1] Mənşuri-Cavid, 8-ci cild, səh.173.

***Allah-təala Həzrət Peyğəmbərin(s) və Əhli-beytinin(ə) şəfaətini bizə nəsib etsin. İnşallah.***

# MÜNDƏRİCAT


**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR ........... 3**
(Üçüncü nümunənin davamı)............................................... 3
**TƏQVANI GÜCLƏNDİRƏN AMİLLƏR.......................... 3**
(Qiyamət bəhsi)..................................................................... 3
Məada inanmağın insanın iman və tərbiyəsinə təsiri ................ 4
Məada inam ruhu sakitləşdirir.................................................. 8
Qiyaməti xatırlamaq ibrətlə yanaşı olmalıdır.......................... 12
**QİYAMƏTİN MƏRHƏLƏLƏRİ ....................................... 17**
**BİRİNCİ MƏRHƏLƏ ........................................................ 17**
Surun (şeypurun) çalinması ................................................... 17
**QİYAMƏTİN İKİNCİ MƏRHƏLƏSİ................................ 28**
Ölülərin qəbirdən qalxmasi.................................................... 28
Qiyamət günü hər bir dəstə öz imamı ilə məhşərə çağırılacaq ............................................................................ 31
Qiyamət günü münafiqlərin peşmançılığı.............................. 34
Qiyamət günündə nurlu çöhrələr............................................ 35
**QİYAMƏTİN ÜÇÜNCÜ MƏRHƏLƏSİ ........................... 39**
Haqq-hesab............................................................................. 39
Hesab-kitabın əsli inkarolunmazdır ....................................... 42
Haqq-hesabın mənası ............................................................. 46
Haqq-hesab aparan kimdir? ................................................... 48

Hesab-kitab zamanı hansı əməllər sorğu-sual olunacaq ......... 52
Qiyamət günü soruşulacaq suallar barədə hədislər ................. 57
Hesab-kitab hamı üçündürmü? .............................................. 61
Hesab-kitabsız cəhənnəmə gedənlər ...................................... 65
Hesab-kitabsız cənnətə gedənlər ........................................... 66
Pis və ya yaxşı hesab-kitab ................................................... 85
Pis və ya yaxşı hesab-kitabda məqsəd .................................. 87
Qiyamət gününün hesab-kitabını asanlaşdıran amillər ........... 90
**QİYAMƏTİN DÖRDÜNCÜ MƏRHƏLƏSİ ...................... 98**
Mizan-tərəzi ........................................................................... 98
Qiyamət günü yalnız İslam əhli üçün tərəzilər qurulacaq..... 101
Həzrət Adəm(ə) tərəzinin yanında olacaq............................ 102
Mizanın (tərəzinin) mənası .................................................. 103
Axirətin tərəzilərindən nümunələr ....................................... 106
Tərəzinin ağır gəlməsinə səbəb olan əməllər........................ 114
**ALLAH MƏHKƏMƏSİNDƏ ŞAHİDLƏRİN İFADƏSİ ................................................................... 133**
Qiyamət gününün şahidləri .................................................. 135
Daxili şahidlər....................................................................... 146
**QİYAMƏTİN BEŞİNCİ MƏRHƏLƏSİ .......................... 149**
Əməl dəftəri .......................................................................... 149
Əməl dəftərinin səbəb və fəlsəfəsi ....................................... 154
Əməl dəftərinin mahiyyəti ................................................... 156
Əməl dəftərinin sağ və ya sol ələ verilməsi ......................... 159
Əməl dəftəri sağ əlinə verilən insanın hesab-kitabının asan olması............................................................................ 160
Əməl dəftərinin növləri........................................................ 161
Nəticə ................................................................................... 168
**QİYAMƏTİN ALTINCI MƏRHƏLƏSİ ......................... 173**

Sirat körpüsü .......................................................................... 173
Sirat körpüsündə müsəlmanların şüarı ................................. 180
Sirat körpüsündən keçən ilk şəxslər..................................... 182
İnsanlar sirat körpüsündən necə keçəcəklər? ........................ 183
Sirat körpüsündəki dayanacaqlar ......................................... 184
Cənnətə gedənlər nə üçün cəhənnəmin üzərindən keçib gedəcəklər? ............................................................................ 187
Hədislərdə sirat körpüsü barədə xəbərdarlıq......................... 191
Sirat körpüsünün tükdən nazik və qılıncdan iti olmasında məqsəd nədir? ......................................................................... 194
Sirat körpüsündən keçməyə mane olan amillər .................... 199
Sirat körpüsündən keçməyi asanlaşdıran amillər................. 214
**QİYAMƏTİN YEDDİNCİ MƏRHƏLƏSİ ....................... 240**
Kövsər hovuzu ..................................................................... 240
Kövsər Həzrət Peyğəmbərə(s) məxsusdur ............................ 244
Kövsər saqisi ........................................................................ 245
Kövsər suyundan bəhrələnməyin şərtləri ............................. 249
İnsanı Kövsər suyundan məhrum edən amillər .................... 268
**QİYAMƏT GÜNÜNÜN ŞİKAYƏTÇİLƏRİ VƏ ŞƏFAƏTÇİLƏRİ ................................................................ 276**
Qiyamət gününün şikayətçiləri ............................................ 276
Qiyamət gününün şəfaətçiləri .............................................. 287
Şəfaətin məna və həqiqəti .................................................... 287
Şəfaət nədir?......................................................................... 287
İslam alimlərinin şəfaət barədə fikirləri ................................ 293
Kafirə şəfaət olunmayacaq.................................................... 299
Mömin həm şəfaət edəcək, həm də şəfaət olunacaq ............. 299
Quranda şəfaət məsələsi........................................................ 300
Şəfaətə inam insanı günahlara şövq etmirmi?....................... 318

Şəfaət edənlərdən birbaşa şəfaət istəmək olarmı?................. 321
Quranda şəfaət........................................................................ 327
Peyğəmbərin(s) yaşadığı dövrdə səhabələrin davranışı........ 329
Peyğəmbərin(s) vəfatından sonrakı dövrdə səhabələrin davranışı ........................................................................ 332
Hədislərdə şəfaət ..................................................................... 334
Həzrət Peyğəmbər(s) öz ümmətini çox sevirdi ..................... 339
Şəfaətə arxayınlaşıb günah etməyə cəsarətlənmək olmaz .... 341
Şəfaətin ölçüsü insanın öz əməllərinə bağlıdır ..................... 344
Allah dərgahında şəfaət edənlər (əməllər) ............................ 347
Allah dərgahında şəfaət edənlər (şəxslər) ............................. 378
Şəfaətdən məhrum olanlar ..................................................... 395
Şəfaətə səbəb olan, yaxud şəfaəti tezləşdirən amillər........... 402